AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

*A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU*

*AZƏRBAYCAN*

# TARİXİ

*XIX əsr*

YEDDİ CİLDDƏ

IV CİLD

BAKI–2007

*Bu kitab "Azərbaycan tarixi. Yeddi clddə. IV cild" (Bakı, Elm, 1998) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır.*

Məsul redaktor: **Mahmud İsmayılov**
*AMEA-nın müxbir üzvü*

**ISBN 978-9952-448-37-5**

**947. 5402-dc22**
Tarix – Azərbaycan

**Azərbaycan tarixi.** Yeddi clddə. IV cild (XIX əsr).
Bakı. "Elm". 2007. 504 səh. + 48səh. illüstrasiya.

Clddə XIX əsr Azərbaycan tarixinin əsas sahələri əhatə olunmuşdur. XIX əsrin başlanğıcında çar Rusiyası Şimali Azərbaycanı istila etdi, yurdumuzun şimal torpaqları Rusiya imperiyasının tərkibində qaldı. Clddə istilanın gedişi, çar Rusiyasının Şimali Azərbaycanı ucqar müstəmləkəyə çevirməsi siyasəti, xalqın ona qarşı mübarizəsi, ölkənin sosial-iqtisadi, siyasi və mədəniyyət tarixi, əsrin son rübündə burada kapitalist münasibətlərinin qərarlaşması, bununla əlaqədar sənayenin, kənd təsərüfatının inkişaf xüsusiyyətləri. Soisal dəyişikliklər, siyasi-ictimai hadisələr, eləcə də xalqımızın millət kimi təşəkkül tapması, milli şüurun yüksəlişi, Azərbaycan dili və mədəniyyətinin inkişaf mərhələləri işıqlandırılmışdır.

© "Elm" nəşriyyatı, 2007

# GİRİŞ

"Azərbaycan tarixi"nin dördüncü cildində XIX əsrin əvvəllərində Şimali Azərbaycanın çar Rusiyası tərəfindən istilası, bu əsrdə onun sosial-iqtisadi, ictimai-siyasi həyatı mədəniyyəti tarixi işıqlandırılır. Dövrün mühüm məsələlərini tədqiqi üçün, əlbəttə, tarixşünaslığın istər XIX əsr, istərsə də XX əsrdə əldə etdiyi nailiyyətlərdən, həmçinin ilk mənbələrdən istifadə olunmuşdur. Biz ilk mənbələr dedikdə, Rusiyanın Mərkəzi Dövlət Tarix arxivində, Mərkəzi Dövlət Hərbi Tarix arxivində, Peterburq MDTA, Gürcüstan və Azərbaycanın tarix arxivlərində XIX əsr tariximizin müxtəlif məsələləri üzrə toplanmış materialları, həmçinin çap olunmuş mənbələri, ilk növbədə on iki cilddən ibarət "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları"nı, bununla yanaşı, XIX-XX əsrlərdə Rusiya və Azərbaycan tarixşünaslığının nailiyyətlərini nəzərdə tuturuq.

Azərbaycan çar Rusiyası tərəfindən istila edildikdən sonra rus alimləri Azərbaycan xalqının XIX əsr sosial-iqtisadi, siyasi və mədəniyyət tarixini tədqiq etmək sahəsində müəyyən işlər görmüşlər. Bu alimlərdən İ.N.Berezinin 1849-1852-ci illərdə nəşr olunmuş "Dağıstan və Zaqafqaziya səfəri" əsərini qeyd etməliyik. S.B.Bronevskinin, O.Yevetskinin, B.Zubovun, Y.A.Qaqameystürin, Q.E.Startsevin, V.Simonoviçin, S.D.Perşkenin, A.Brilinskinin, İ.L.Seqalın, N.A.Petrovun, V.İ.Masalskinin və başqalarının özündə Azərbaycanın XIX əsr tarixi məsələlərini əks etdirən əsərlərini də göstərməliyik. Azərbaycanın XIX əsrə qədərki, həmçinin XIX əsrin əvvəlləri tarixinin bəzi məsələlərini özündə cəmləşdirmiş əsərlərin – "Qarabağnamə"lərin müəllifləri Mirzə Yusif Qarabağini, Mir Mehdi Xəzanini, Mirzə Adıgözəl bəyi, Mirzə Camalı, Əhməd bəy Cavanşiri, Məhəmməd Baharlını da unutmamalıyıq. Bu dövrün belə tarixçilərindən danışarkən Abbasqulu Ağa Bakıxanovun "Gülüstani – İrəm" kitabını və əsərlərində XIX əsrin I yarısı tariximizin bir sıra məsələlərini əks etdirən, Dərbənddə doğulmuş, Qazan və Peterburq Universitetində işləmiş Mirzə Məhəmməd Əli Kazım bəyi xüsusilə qeyd etməliyik.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Peterburqda, Rusiyanın digər şəhərlərində yaşamış tarixçilərdən İ.Q.Butkovu, V.A.Pottonu, N.F.Dubrovini göstərmək lazımdır. Onların əsərlərində Azərbaycanın XIX əsr siyasi, sosial-iqtisadi tarixinin bir çox məsələləri öz əksini tapmışdır.

XIX əsrin 50-ci və sonrakı illərində yaşamış, o dövrün mətbuatında XIX əsr Azərbaycan tarixinin bir çox məsələlərinə, xüsusən Azərbaycan şəhərlərinin tarixilə bağlı məsələlərə toxunmuş Kərim bəyi, Səfiyev Mirzə Məmmədəlini, Vəlizadə Mirzəni, Cəlal Əfəndini, Həsən bəy Bağırovu, N.Qiyasbəyovu, M.Quliyevi, Rəşid bəy Əfəndiyevi, M.A.Şaxtaxtinskini, Mir Həşim bəy Vəzirovu, M.Əfəndiyevi, F. Və Z.Sultanovları, M.Mahmudbəyovu, H.Minasazovu, A.M.Mehmandarovu, T.Bayraməlibəyovu göstərmək olar. Xalqımızın görkəmli

oğulları olan M.F.Axundov, Seyid Əzim Şirvani, Həsən bəy Məlikov Zərdabi də öz əsərlərində XIX əsr tarixinin bir sıra məsələlərinə toxunmuşlar.

1904-cü ildə Rəşid bəy İsmayılovun "Qafqazın qısa tarixi" kitabı nəşr olunmuşdur. Bu kitabda Qafqazın, o cümlədən Azərbaycanın XIX əsr tarixinin bəzi məsələləri öz əksini tapmışdır.

Hacı Şeyx Həsən Mollazadənin dördcildlik "Zübdət-üt-təvarix" adlı əsərinin dördüncü cildində İranın, Qafqazın, Orta Asiyanın tarixi ilə yanaşı, Azərbaycan tarixinin XVIII əsrin sonundan başlayaraq XX əsrin birinci on illiyi dövrü məsələləri də işıqlandırılmışdır.

1918-ci il mayın 28-də elan olunmuş müstəqil Azərbaycan Cümhuriyyəti dövründə digər vacib məsələlərlə yanaşı, maarifin, o cümlədən tarixşünaslığın inkişafı üçün bir sıra tədbirlər həyata keçirilmiş, elm, adamları hazırlamaq üçün xarici ölkələrə nümayəndələr göndərilmiş, 1919-cu ildə Bakı Universiteti yaradılmışdı. O vaxta Parisdə Adilxan Ziyadxanovun "Azərbaycan", Əkbərağa Şeyxülislamovun "Qafqaz Azərbaycan Respublikası" kitabları çapdan çıxmış, M.Ə.Rəsulzadənin "İran və Azərbaycan", "Azərbaycanın paytaxtı" məqalələri çap olunmuşdu. Bu məqalələrdə çox mühüm məsələlərə - Azərbaycan xalqının təşəkkülü, onun qonşu xalqlarla əlaqələri, Bakı şəhərinin inkişafı və s. Məsələlərə toxunulur. Azərbaycanın mədəni həyatını, tarixi keçmişini işıqlandırmaqda "Səfa", "Nicat", "Nəşri-maarif", İran maarifçisi "Tərəqqi" cəmiyyətləri mühüm rol oynamışdılar.

1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti elan olunduqdan sonra ictimai elmləri, o cümlədən Azərbaycan tarixini öyrənən elmi qurumlar meydana çıxmağa başladı. 1923-cü ildə Azərbaycanı öyrənən "Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti" yaradıldı.

Azərbaycanda 1929-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun yaradılması respublikada Azərbaycan tarixinə dair tədqiqatların həyata keçirilməsində və yazılı tarixi mənbələrin nəşrində mühüm rol oynadı.

1932-ci ildə SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan şöbəsi, 1936-cı ilin martında isə Elmlər Akademiyasının filialı yaradılmışdı. Onun nəzdində Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu fəaliyyət göstərirdi. 1970-ci ildə bu institut Tarix İnstitutu adlandırıldı. Onun nəzdində arxeologiya və etnoqrafiya bölmələri yaradıldı. Lakin təəssüf ki, Azərbaycanın XIX əsr tarixini tədqiq etmək sahəsində əhəmiyyətli bir iş görülmürdü. Əsas iş marksizm-leninizm klassiklərinin əsərlərinin nəşrinə və XX əsrin ilk iki on illiyində baş verən fəhlə çıxışlarının öyrənilməsinə yönəldilmişdi. Bununla yanaşı, akademik V.V.Bartoldun Bakıda 1925-ci və 1926-cı illərdə nəşr etdiyi "Azərbaycan tarixinin qısa xülasəsi" və "Türk xalqlarının tarixinin öyrənilməsinin müasir vəziyyəti və ən vacib vəzifələri", akademik A.N.Samoyloviçin "Qafqaz və Türk dünyası" əsərlərini göstərmək olar. N.İ.Meşşaninov, Ə.Ələkbərov, P.K.Juze, Əziz Qubaydulin kimi alimlər Azərbaycan tarixinin müxtəlif dövrləri və məsələləri

üzrə əsərlər nəşr etsələr də, bu əsərlərdə Azərbaycanın XIX əsr tarixi məsələləri tədqiq olunmamışdır.

Azərbaycanın XIX əsr tarixi məsələlərini ilık tədqiq edənlərdən Bakı Universitetinin professoru Q.Q.Pisarevski, T.Passek, T.Latınin, V.M.Sısoyev olmuşlar. Bu istiqamətdə V.M.Sısoyevin 1925-ci ildə nəşr etdirdiyi “Azərbaycan tarixi (Şimali)” əsərini xüsusi qeyd etmək lazımdır.

Bu dövrdə, yəni 1920-ci illərdə Vəli Xuluflu, M.Əfəndizadə, H.İmanov, Abdulla Salamzadə, Ağamir Məmmədov, Rəşid İsmayılov və başqaları kimi azərbaycanlı tarixçilərimiz olmuşdur. Onlar da öz tədqiqatlarında Azərbaycanın XIX əsr tarixi məsələlərinə toxunmamışlar. H.Minasazov isə 1826-1828-ci illər Rusiya-İran müharibəsi məsələlərinə xüsusi əsər həsr etmiş və 1826-cı ildə Gəncədə Rusiya işğalına qarşı baş vermiş üsyanla əlaqədar olaraq öz əsərini “Bir inqilabın yüz illiyi” adlandırmışdı.

40-cı və 50-ci illər Azərbaycanda tarixçi alımlər nəsli yetişdi. Onlardan yalnız Ə.S.Sumbatzadə, İ.M.Həsənov, M.Ə.İsmayılov, M.M.Əfəndiyev, R.Ə.Mehdiyev, İ.A.Talıbzadə XIX əsr tarixi mənbələrinin tədqiqi ilə məşğul olmuş, Azərbaycanın çar Rusiyası tərəfindən istilası məsələlərinə dair onlarla məqalə, Azərbaycanda aqrar münasibətlər, kənd təsərrüfatı və sənayenin, xüsusən neft sənayesinin tarixinə dair əsərlər nəşr etmişlər. Bu istiqamətdə Rusiya tarixçiləri N.Q.Boqdanova, K.A.Pafitnov və Q.Q.Pisarevski müəyyən işlər görmüşlər.

1950-ci illərin sonu – 1960-cı illərin əvvəllərində üç cilddən ibarət “Azərbaycan tarixi” nəşr olundu.Onun II cildi Azərbaycanın XIX-XX əsrin əvvəllərinə dair tarixinə həsr olunmuşdur. Bu cild, demək olar ki, Azərbaycanın XIX əsr tarixinə bütövlükdə həsr olunmuş ilk əsəridir. Cildin yazılması üçün müəlliflər külli miqdarda material toplamışlar. Bu materialların əksəriyyəti tarixşünaslıq elminə ilk dəfə gətirilmiş, XIX əsr tarixinin istər sosial-iqtisadi, istər siyasi, istərsə də mədəniyyət problemlərinə dair ətraflı və yeni məlumatlar verilmişdir. Bu dövrdə Ə.N.Quliyevin və İ.M.Həsənovun XIX əsrin birinci yarısında Azərbaycan tarixşünaslığına dair kitabı da nəşr olunmuşdur. Bu sahədə Ə.S.Sumbatzadənin, M.C.İbrahimovun və Ə.Hüseynzadənin xidmətləri də qeyd olunmalıdır.

Üçcildlik “Azərbaycan tarixi” nəşr edildikdən sonrakı illərdə Azərbaycan tarixinin bütün dövrləri üzrə. O cümlədən XIX əsr üzrə tədqiqatlar sahəsində xüsusi nailiyyətlər əldə edildi, bir neçə kitab, xeyli məqalə nəşr olundu. Bu istiqamətdə Ə.S.Sumbatzadənin XIX əsr kənd təsərrüfatı və sənayə tarixinə, M.Ə.İsmayılovun XIX əsrin sonu – XX əsrin əvvəlləri ndə Azərbaycanın kənd təsərrüfatı və sənaye tarixinə, kənd təsərrüfatında kapitalizmin inkişafı tarixinə həsr etdikləri monoqrafiyaları qeyd olunmalıdır. Bu dövrdə sonuncunun M.C.İbrahimovla birlikdə Azərbaycanın neft sənayesi tarixinə, A.Ş.Milmanın Azərbaycanın siyasi quruluşuna, İ.V.Striqunovun proletariatın formalaşmasına həsr

etdikləri monoqrafiyaları qeyd olunmalıdır. İ.A.Talıbzadənin XIX – XX əsrin əvvəllərində suvarma və sudan istifadəyə, D.İ.İsmayılzadənin XIX əsrin 30-cu illər XX əsrin başlanğıcında rus kəndlilərinin Azərbaycana köçürülməsi, Hacı Murad İbrahimbəylinin Azərbaycanın XIX əsr hərbi tarixinə həsr olunmuş əsərlərini göstərmək olar.

Sonrakı dövrü, yəni 70-ci illərin sonu – 90-cı illər tarixşünaslığı məsələlərinə toxanmazdan əvvəl bir məsələnin üzərində dayanmaq zəruridir.

XX əsr Azərbaycan tarixinin bir sıra məsələləri adları çəkilən əsərlərin çoxunda sovet dövrünün kommunist ideologiyasının hakim "konsepsiyasının" təsiri altında müəyyən istiqamətdə təhrif olunmuşdu. Göstərilən məsələlərdən biri Azərbaycanın XIX əsrin birinci onilliklərində yazılmış əsərlərdə, həm rus, həm də Azərbaycan tarixşünaslığında bu məsələ, yəni çar Rusiyasının Azərbaycanı istila etməsi düzgün qiymətləndirilmişdir. Lakin 40-cı illərdən sonra istər Rusiya, istərsə də Azərbaycan tarixşünaslığında "hakim" ideologiyasının diktəsi ilə dəyişiklik aparılmış, Azərbaycanın çar Rusiyası tərəfindən zəbt olunması, onunucqar müstəmləkə olması "birləşmə" məfhumu ilə əvəz edilmişdi. Azərbaycan tarixşünaslığında hələ 1950-ci illərdə "Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun iqtisadiyyat və mədəniyyət sayəsində mütərəqqi nəticələri" əsəri, bir sıra məqalələr nəşr olunmuşdur. Bundan başqa, 1964-cü ildə "Azərbaycanın Rusiyaya daxil olmasının" 150 illiyi respublikada təntənəli qeyd edilmişdir. Fəqət elmi həqiqət bərpa olundu. 80-cı illərdə tarixşünaslığımızda əsaslı dəyişiklik baş verdi, hadisələr həqiqi surətdə təhlil olundu, Azərbaycanın çar Rusiyası tərəfindən istilası məsələsi də düzgün işıqlandırıldı.Başqa misallar da gətirmək olar. Məlum olduğu kimi, çar Rusiyasının işğalından sonra 1804-cü ildə Car-Balakəndə, 1826-cı ildə Gəncədə, 30-cu illərdə Car-Balakəndə, Qubada, sonrakı illərdə, həmçinin Şeyx Şamilin Dağıstanda üsyanı zamanı Azərbaycanın Dağıstanla sərhəd rayonlarında (Zaqatala. Şəki və b.) üsyanlar baş vermişdi. Bu üsyanlara tarixşünaslıqda 1940-1970-ci illərdə düzgün qiymət verilməmiş, hətta bəzi hallarda onlar qiyam belə adlandırılmışdı. Halbuki bu üsyanlarəsasən çar müstəmləkəçiliyinə qarşıyönəldilmişdi. Eyni sözləri XIX əsrin son rübündə baş vermiş qaçaq hərəkatına da aid etmək olar.

Sonrakı illərdə, xüsusən 80-cı illərin ikinci yarısından, SSRİ-nin süqutundan başlayaraq, tarixi tədqiqatlarda həqiqətlər bərpa olunmağa başladı. Bu baxımdan 80-ci və 90- cı illərin tarixşünaslığında ilk növbədə Tarix İnstitutunun kollektivi tərəfindən Azərb. EA müxbir üzvi İ.H.Əliyevin redaktorluğu ilə 1993-cü ildə azərbaycanca, 1995-ci ildə rusca işıq üzü görmüş "Azərbaycan tarixi" kitablarını qeyd etmək lazımdır. 1994-cü ildə akademik Z.M.Bünyadov və professor Yusif Yusifovun redaktəsi altında nəşr olunmuş "Azərbaycan tarixi" kitabında XIX əsr dövrü Azərb. EA müxbir üzvü M.Ə.İsmayılov tərəfindən yazılmışdı. Bundan başqa, M.Ə.İsmayılov 1992-1997-ci illərdə üç dəfə, eyni zamanda 1995-ci ildə rus dilində, yenə həmin ildə Dubayda

ərəb dilində “Azərbaycan tarixi” kitablarını nəşr etdirmişdir. Bu kitablarda da XIX əsr Azərbaycan tarixi özünün xüsusi təhlilini tapmışdır.

70-90-cı illərdə çoxsaylı ixtisaslı tarixçilərimizin Azərbaycab tarixinin sosial-iqtisadi, siyasi və mədəniyyət tarixi üzrə xeyli əsərləri nəşr olundu. Lakin təəssüf ki, XIX əsr tarixinə dair monumental, ümumiləşdirici monoqrafiya və digər əsərlər azdır. Çapdan çıxmış əsərlərin çoxu Azərbaycanın sosial-iqtisadi tarixinə həsr olunmuşdur Bu məsələlərdən XIX – XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi quruluşu, Azərbaycan kəndinin sosial-iqtisadi inkişafının səviyyəsi, neft sənayesinin tarixi, Azərbaycanda kənd təsərrüfatı alətlərinin istehsalı, torpaq sahibliyi və torpaqdan istifadə, neft istehsalı və Rusiya iqtisadiyyatı, mülkədar təsərrüfatı və s. Problemlər M.Ə.İsmayılov, Q.C.Cavadov, Y.İ.Ələsgərov, V.H.Kərimov, V.A.Səmədov, M.M.Gülmalıyev və Ə.A.Umayevin əsərlərində öz əksini tapmışdır.

Tarixi əsərlər içərisində Azərbaycanın Rusiya ilə münasibətləri, ümumiyyətlə, ölkənin siyasi tarixinə dair də əsərlər vardır. Bu istiqamətdə XV_XIX əsrlərdə Azərbaycan – Rusiya münasibətləri, çarizmin siyasətini Azərbaycanda həyata keçirənlər, rus kəndlilərinin Zaqafqaziyaya, o cümlədən Azərbaycana köçürüməsi və s. Mövzulara tarixçilərdən, F.M.Əliyev, F.Əsədov, D.İ.İsmayılzadə, S.Kərimova öz əsərlərində geniş yer vermişlər. Tarixçi alimlər, başqa sahələrin tədqiqatçıları Azərbaycanda təhsil və bununla bağlı məsələlərin tədqiqinə də çox diqqət yetirmişlər. Rusiya ali məktəblərində təhsil alan azərbaycanlılar, XIX əsrdə Azərbaycan ziyalıları, Azərbaycanda siyasi təhsil, Azərbaycan məktəbləri, maarif, Azərbaycan burjuaziyasının maarifçilik fəaliyyəti və s. Məsələlər E.S.Əliyev, D.S.Hüseynova, M.F.Məlikov, A.Q.Mustafayev, N.A.Tahirzadə və S.Talıbova kimi tarixçilərin əsərlərində şərh olunmuşdur.

Tarixçilər və digər ixtisasçılar Azərbaycan mədəniyyətinin bir çox sahələri, dövri mətbuat, görkəmli siyasi və mədəniyyət xadimləri barəsində xeyli əsərlər yazmışlar. Bunlardan Azərbaycanın dövri mətbuatı, M.Şaxtaxtinskinin rus dövri mətbuatında fəaliyyəti, Azərbaycan teatrı, onun inkişaf mərhələləri, H.Cavid, Ü.Hacıbəyov haqqında, mədəniyyət, mətbuatda Azərbaycanda ədəbi tənqid məsələləri N.Axundov, K.Zeynalova, İ.Kərimov, Q.Məmmədli, S.Mövlayeva, K.Talıbzadə tərəfindən tədqiq olunmuşdur.

Tarixşünaslıqda XIX əsr tarixinə dair, şəhərlərin tarixi, şəhərlərin su və s. Ilə təchizatı məsələləri və digər mövzular üzrə də xeyli işlər görülmüşdür. Bunlardan Bakı (N.Məmmədov və M.Ə.Musayev), Şimali Azərbaycan şəhərləri (E.B.Muradəliyeva), Şəki (M.Ə.İsmayılov), Gəncə (kollektiv), Şuşa (G.N.İsmayılova) şəhərlərin tarixini göstərmək olar. Bununla yanaşı, XIX əsrdə Azərbaycanda şəhər tikintisi, memarlıq, şəhərlərin təchizatı məsələlərinə də tədqiqatlar həsr olunmuşdur (V.Xanəliyev, Ş.S.Fətullayev).

Bu dövrdə mətbuat (V.Məmmədov), Azərbaycan burjuaziyasının xeyriyyəçiliyi (M.Ə.İsmayılov), Azərbaycan tarixşünaslığı (Ə.S.Sumbatzadə) məsələlərinə dair də əsərlər nəşr olunmuşdur.

Cilddə, müəyyən fəsillərdə dövrünə görə, Cənubi Azərbaycan tarixinin sosial-iqtisadi, siyasi və mədəniyyət problemləri haqqında məlumatlar verilir.

Cildin mətni aşağıdakı müəlliflər tərəfindən yazılmışdır:

Giriş: M.Ə.İsmayılov.

I fəsil: Azərb. EA müxbir üzvü M.Ə.İsmayılov,

II fəsil: Akad Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, tarixm elmləri doktoru Ə.A.Umayev, t.e.d., prof. T.T.Vəliyev, t.e.d., prof. İ.M.Həsənov, iqtisad elmlər doktoru M.Ə.Musayev, t.e.d M.İbrahimov, t.e.d. P.Ş.Milman, t.e.n. İ.A.Talıbzadə.

III fəsil: hüquq elmləri doktoru Ə.M.Əhmədov, t.e.n. N.A.Tahirzadə, t.e.n. N.Məmmədov.

IV fəsil: M.Ə.İsmayılov, P.Ş.Milman.

V fəsil: Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, T.T.Vəliyev, M.C.İbrahimov, Ə.A.Umayev, İ.V.Striqunov, M.Ə.Musayev, t.e.n. R.Bağırov.

IV fəsil: M.Ə.İsmayılov, İ.M.Həsənov, Ə.A.Umayev, İ.A.Talıbzadə.

VII fəsil: M.Ə.İsmayılov, M.C.İbrahimov, İ.V.Striqunov, t.e.d. D.B.Seyidzadə.

VIII fəsil: İ.V.Striqunov.

IX fəsil: Azərb. EA həqiqi üzvü Ə.Salamzadə, N.Tahirzadə, t.e.n. L.Əliyeva, t.e.n. H.N.Həsənov,

***

Tarix İnstitutu hələ 70-ci illərin əvvəllərindən çoxcildli “Azərbaycan tarixi”ni hazırlamağa başlamışdı və bir neçə cildlərin mətnləri hətta müzakirədən keçmişdi. Lakin çoxcildlik üzrə görülən işlər tamamlanmamışdı.

Təqdim olunmuş cildin siyahıda göstərilmiş müəlliflərinin bir çoxu artıq dünyasını dəyişmiş (Ə.S.Sumbatzadə, İ.M.Həsənov, M.Ə.Musayev, İ.A.Talıbzadə, İ.V.Striqunov, Ə.Salamzadə, L.Əliyeva), yaxud da İnstitutun elmi fəaliyyətində iştirak etmirlər. Təqdim olunmuş mətnlər müasir dövrün tələbləri əsasında redaksiya və müəlliflər heyəti tərəfindən işlənmişdir. İnstitutun IV cildin məsul redaktoru Azərb. EA müxbir üzvü M.Ə.İsmayılovun başçılıq etdiyi yeni tarix şöbəsinin işçiləri bu mətnlər üzərində əsaslı surətdə işləməli olmuşlar. Onlardan tarix elmləri doktorları mərhum D.S.Hüseynovanı, D.B.Seyidzadəni, tarix elmləri namizədləri H.N.Həsənov, S.M.Mustafeyava, N.R.Məmmədov, Z.A.Qafarova, İ.S.Bağırova, K.R.Ocaqova, E.S.Əliyev, G.N.İsmayılovanı göstərmək olar. Əslində onlar həm müəllif kimi cildə yeni elmi əlavələr, həm də son illərdə araşdırmalar nəticəsində əldə edilmiş məlumatlar daxil etmişlər. Onların əməkləri minnətdarlıqla qeyd olunur.

# I FƏSİL

## ŞİMALİ AZƏRBAYCANIN
## RUSİYA TƏRƏFİNDƏN İSTİLASI

### § 1. AZƏRBAYCANIN İSTİLASININ BAŞLANMASI

XVIII-XIX əsrin hüdudlarında Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Azərbaycan ərazisi xırda feodal dövlətlərə parçalanmışdı. Qonşu xalqların ərazilərini ələ keçirmək uğrunda xanlar arasında ardı-arası kəsilməyən ara müharibələri, feodallarla ölkə ərazisinin böyük əksəriyyətini təşkil edən kəndlilər arasında sinfi ziddiyətlərin güclənməsi, iqtisadi tənəzzül Azərbaycanın daxili vəziyyəti üçün səciyəvi hal idi. Rusiyanın Cənubi Qafqaz barəsindəki işğalçı niyyətləri, İran işğalçılarının viraneidici türüşləri vəziyyəti daha da gərginləşdirirdi.

Göstərilən dövrdə Rusiyanın xarici siyasətinin əsas istiqamətlərindən biri Cənubi Qafqazın istilasından ibarət idi. Çarizm Cənubi Qafqazı əlavə gəlir mənbəyinə çevirməyə, Xəzər dənizi hövzəsi üzərində Rusiya ağalığına nail olmağa, Xəzəri Rusiyanın daxili dənizinə çevirməyə can atırdı. Azərbaycanın təbii sərvətləri, xüsusən də faydalı qazıntı yataqları artıq rus elminə məlum idi və təsadüfi deyildir ki, II Yekaterina hökuməti bu ölkənin sərvətlərinin mənimsənilməsini onun istilası ilə bağlayırdı. Qızılboya, yun, ipək, pambıq, tütün, yanacaq və s. Rusiya sənayesinin xammal və yanacaqla təmin edə bilərdi.

Zaqafqaziyanın siyasi və hərbi-strateji əhəmiyyəti xüssusilə böyük idi. Bu diyarın işğalı ənənəvi rus-türk rəqabətində qüvvələr nisbətini Rusiyanın xeyrinə həll edə bilərdi. Rusiya Mərkəzi Qafqazı hələ fəth edə bilməmişdi. Cənubi Qafqazın istilası dağlıların ərazilərini şimaldan və cənubdan mühasirəyə almaqdan ötrü əlverişli şərait yarada bilərdi. Nəhayət, rus-ingilis rəqabəti Cənubi Qafqazın, o cümlədən Azərbaycanın əhəmiyyətini artırırdı.

Rusiyanın bu yerləri işğal etməsi Böyük Britaniyanın Şərqdə təsirinə, Ost-hind kompaniyasının inhisarına ağır zərbə endirə bilərdi.

Cənubi Qafqazdakı mürəkkəb vəziyyət Rusiyanın işğalçı planlarının bu diyarda həyata keçirilməsini obyektiv olaraq asanlaşdırırdı. Feodal ara müharibələri və xarici işğalçıların basqınları Cənubi Qafqazı var-yoxdan çıxarırdı. Zəruri ilkin sosial-iqtisadi şərtlərin, yetkin siyasi qüvvələrin olmaması üzündən ayrı-ayrı xanların Azərbaycanı öz başçılıqları altında birləşdirmək cəhdləri müvəffəqiyyətsizliyə uğrayırdı.

Qərbi Avropa dövlətlərinin də, xüsusən İngiltərə və Fransanın Cənubi Qafqaz barədə işğalçı planları var idi. Onlar Rusiyanın bu ərazidə zəifləməyən hərəkətlərini diqqətlə izləyir və çarizmin planlarına mane olmağa çalışırdılar.

1800-cü ilin sonunda İngiltərə nümayəndəsi Malkolm İrana gəldi və 1801-ci ilin əvvəlində o bu dövlətlə müqavilə bağladı. Siyasi və ticarət müqavilələrini bağlamaqla İngiltərə İranın daxili işlərinə qarışmaq imkanı əldə etdi. İngiltərə hər hansı dövlətin İran üzərinə hücum edəcəyi təqdirdə şaha lazımi qədər xidmət heyətilə birlikdə tələb olunan miqdarda hərbi xərc verməyi öz üzərinə götürürdü.

Ticarət müqaviləsi razılığa gələn tərəflərin tacirlərinə öz mallarını hər iki dövlətin ərazisinə azad danışmaq hüququ veriridi. İngiltərə tacirlərinə İranın istənilən şəhər və limanında məskən salmağa icazə verilir, Onların malları isə hər cür vergilərdən azad olunurdu.

Müqavilələr ölkənin bazarını ingilis tacirlərinin üzünə geniş açır, İranı öz müstəmləkə mülklərini genişləndirmək uğrunda mübarizədə İngiltərənin antirussiyasətinin alətinə, öz müstəmləkəsini – Hindistanı kənar təcavüzlərdən qorumaq, Zaqafqaziya barəsində özünün uzağa gedən planlarını həyata keçirmək üçün meydana çevirirdi [1].

Çar hökuməti belə hesab etdi ki, bu müqavilə ilə növbədə Rusiyaya qarşı yönəldilmişdir, ona görə də öz planlarının həyata keçirilməsinə hazırlaşdı. Lakin I Pavelin öldürülməsindən və I Aleksadrın hakimiyyətə gəlməsindən sonra rəqiblərin qüvvələr nisbəti dəyişdi. I Aleksadr Fransa ilə əlaqələri qırdı və İngiltərə ilə yaxınlaşdı. Bu dövrdə təcavüzkar napoleinçu Fransanın mövcudluğu şəraitində Rusiya ilə yaxınlaşmağı yüksək qiymətləndirən İngiltərə artıq İranı açıqca müdafiə edə bilmirdi. Fransa bu vəziyyətdən dərhal istifadə etməyə imkanını əldən verməyərək, Rusiya əleyhinə müqavilə bağlamağı şah İranına təklif etdi.

İngiltərə ilə yaxınlaşmasına baxmayaraq, I Aleksadr Cənubi Qafqaz barədə öz planını həyata keçirməyi qərara aldı. O, hər şeydən əvvəl, Həştərxan-Dərbənd-Bakı vasitəsilə rus qoşunlarının 1799-cu ildə yenidən daxil olduğu Gürcüstanla əlaqə yaratmağa çalışırdı [2].

1801-ci il sentyabrın 12-də Kartli – Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi haqqında çar manifesti elan olunurdu. Rus qoşunları baş komandanı və mülki hakim tərəfindən idarə olunan Tiflis quberniyası yaradıldı. Azərbaycan ərazisinin də bir hissəsi – Kartli – Kaxetiya çarlığının vassal asılığında olan və onunla birlikdə birləşdirilmiş Qazax, Borçalı, Şəmsəddin sultanlıqları bu quberniyanın tərkibinə daxil edildi. Deməli, Gürcüstanın Rusiyaya birləşdirilməsi ilə Azərbaycan torpaqlarının Rusiya tərəfindən istilasının başlanğıcı qoyuldu.

I Aleksadr bəzi xanların artıq Rusiya himayəsini qəbul etməyə məcbur olması ilə məhdudlaşmağa qərara aldı. O digər xanlıqları da, ilk növbədə Azərbaycanın Xəzəryani vilayətlərini ələ keçirməyə çalışı5rdı. I Aleksadr 1801-ci ilin dekabrnda Qafqaz qoşunlarının baş komandanı general Knorrinqə yazırdı: "Qonşu hakimlər və xalqlarla münasibət saxlayaraq, Rusiya tərəfdarlarınınn sayını artırmağa çalışmalı. Xüsusən də üzərlərində hələlik Baba xanın (Fətəli şahın) hakimiyyəti yaranmamış İrəvan, Gəncə, Şəki, Şirvan, Bakı və başqa xanlatrı cəlb etməli"[3].

Bu fərman müvafiq olaraq general Knorrinq 1802-ci ilin sentyabr-dekabr aylarında Şimali Qafqazda, Georgiyevsk şəhərində siyasəti və ticarət məsələləri üzrə danışıqlar üçün çar komandanlığının Şimali Azərbaycan xanlarının və Qafqazın digər hakimlərinin nümayəndələri ilə görüşünü keçirdi. Danışıqlarda Tərki şamaxılı, Qara Qaytaq usmisi, Tabasaran hakimi və digər dağlı hakimlərin nümayəndələri ilə yanaşı, iki Azərbaycan xanlığəının – Quba və Talış xanlıqlarının nümayəndələri də iştirak edirdilər [4]. Digər xanlıqların nümayəndələri görüşdə iştirak etmirdi. Çünki buna qədər İran şahının nümayəndəsi İbrahimxəlil xanın yanına gələrək Qarabağın tabe olmasını tələb etmişdi. Bakı xanına da belə tələb verilmişdi.

İranın maneçiliyinə baxmayaraq, Georgiyevskidəki dörd aylıq danışıqlar müvəffəqiyyətlə başa çatdı və 1802-ci il dekabrn 26-da müqavilə imzalandı. Müqaviləyə görə, onu imzalayanlar İrana hücum edəcəyi təqdirdə ona qarşı çıxmağı öz öhdələrinə götürürdülər. Müqavilə Zaqafqaziyada ticarətin genişləndirilməsini. Xəzər dənizində gəmiçiliyin inkişaf etdirilməsini və s. Nəzərdə tuturdu. Müqavilədə deyilir ki, onu imzalayanlar "onların öz xahişlərinə görə ...Rusiya, ...himayəsinə" qəbul olunurlar.

Georgiyevsk müqaviləsi bağlandıqdan sonra çar hökuməti həmin müqaviləyə etinasız yanaşmış Azərbaycan xanlıqlarının ərazilərini zəbt etmək üçün hazırlaşmağa başladı.

Şimali Azərbaycanın çar Rusiyası tərəfindən istilası kimi mürəkkəb və ziddiyyətli prosesin öz xüsusiyyətləri vardır.

Feodal hakimlər – xanlar yaxşı başa düşürdülər ki, öz qüvvələri ilə İran, Rusiya kimi dövlətlərə müqavimət göstərməklə öz xanlıqlarını qoruyub saxlaya bilməyəcəklər. Onlar Rusiyanın xanlıqların istiqlaliyyətini qoruyacağı barədə verdiyi yalan vədlərə uyaraq, öz xanlıqlarının istiqlaliyyətini bu yolla qoruyacaqlarını zənn edərək, bir tərəfdə rus himayəsini qəbul etməyə meyil etməli olur, digər tərəfdən isə çarizmin vədlərinə qətiyyətsizlik göstərirdilər. Onların bəzi yollarla İran və ya Türkiyə qoşunlarının basqın edəcəyi təqdirdə. Öz torpaqlarını qarətdən və var-yoxdan çıxarılmasından müdafiə edə biləcəklərinə ümid bəsləyirdilər. Eyni zamanda bu xanlar İrana və ya Türkiyəyə də meyil göstərdiklərindən tərəddüd edir, öz mövqe və qərarlarını qəti müəyyənləşdirməyə tələsmirdilər. Bu, hər şeydən əvvəl, xanların öz xanlıqlarının daxili idarəsində müstəqillik saxlanılmasına əmin olmamaları ilə əlaqədar idi.

Rusiya ayrı-ayrı Azərbaycan xanlarının İran və Türkiyə təhlükəsindən müdafiə edəcəyini vəd etsə də, bu heç də onun xanlıqlara müstəqillik vermək niyyətində olması deyildi. O, bəzi mülahizələrə görə, xanlıqlar Rusiya himayəsinə daxil olduqdan sonra bir müddət daxili idarədə xan hakimiyyətini saxlamağı, daxili qayda və alətlərə əməl olunmasına təminat verməyi nəzərdə tuturdu. Bununla belə, Azərbaycanın ayrı-ayrı feodal hakimlərinin Rusiyaya istilasına müqavimət göstərə biləcəklərindən, habelə öz hüquq və imtiyazlarının bərpası uğrunda mübarizəni

davam etdirəcəklərindən ehtiyat edən Rusiya əlavə də həyata keçirmək barəsində fikirləşirdi. Bu illərdə qədim gürcü zadəgan nəslindən çıxmış, 1802-ci ilin sentyabrında Qafqazın Baş komandanı təyin edilən general P.D.Sisianov Cənubi Qafqazda müstəmləkə siyasətinin icraçısı oldu. Çar hökuməti Cənubi Qafqazdakı bütün mülki-hərbi hakimiyyəti qafqazlı Sisianova etibaer edərək, onun vasitəsilə Qafqazı sakitləşdirməyə ümid bəsləyirdi. Sisianov isə Azərbaycan xalqına özünün nifrət edici və amansız münasibəti ilə fərqlənirdi. Azərbaycanın Rusiya tərəfindən işğalının gedişində onun bir çox Azərbaycan xanlarına göndərdiyi alçaldıcı məktublar buna dəlaət edir.

Çar hökuməti Şərqi Gürcüstan ərazisindən hücum meydanı kimi istifadə edərək, özünün Azərbaycan barəsindəki planlarını həyata keçirməyə başladı. Bu siyasətin keçiricisi general Sisianov Car-Balakən camaatının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. Çünki bu ərazi rus qoşunlarının Gürcüstandan Azərbaycanın içərilərinə doğru uzanan yolun üstündə idi. Rus qoşunları 5 minlik gürcü qoşunu ilə birlikdə Car-Balakəndə yerli əhalinin müqaviməti ilə rastlaşdı. Gürcüstanda antirus, iranpərəst dairələrə başçılıq edən və öz hakimiyyətinin bərpasına çalışan gürcü şahzadəsi Aleksadr isə silahlı dəstəsi ilə Cara gəldi. Qanıq (Alazan) çayı sahilində döyüş baş verdi. Müqaviməti qırdıqdan sonra general Qulyakov heç bir hərbi ehtiyac olmadan Balakəni yandırdı. Martın 29-da Car fəth olundu. 1803-cü ilin aprelin 12-də Car-Balakənin 9 nəfərdən ibarət səlahiyyətli nümayəndə heyəti Tiflisə general Sisianovun yanına getdi. Burada onlarla Car-Balakən camaatının Rusiyanın hakimiyyəti altına alınması barədə saziş bağlandı.

Sazişin şərtlərinə görə, carlılar çar xəzinəsinə ipəklə xərac ödəməli, sədaqət əlaməti olaraq verməli, öz ərazilərində rus qoşunlarının yerləşdirməli idilər. Carlıların şahzadə Aleksadrı və onun əlaltılarını qəbul etməmək və öz içərilərində gizlətməmək barədə tərəddüdü sazişdə xüsusi qeyd olunurdu. Lakin camaatın iradəsinin dəyişməz olaraq qaldığını və əhalinin itaət şərtlərini yerinə yetirmədiyini görən general Qulyakov 1804-cü ilin yanvarında yenidən Cara soxuldu. Car yenidən fəth olundu və yandırıldı. Sonra rus qoşunları Zaqatalaya doğru yeridilər və Zaqatala yaxınlığındakı dərədə carlılar tərəfindən hücuma məruz qaldılar. Qanlı döyüşdə carklılar üstünlük qazanıb qələbə çaldılar. Rus qoşunlarının salamat qalmış hissəsi Muxax kəndinə geri çəkildi, general Qulyakov isə öldürüldü.

1803-cü ilin martında müqavimət göstərmiş adamların əfv olunması barədə carlıların xahişini rədd etmiş Sisianovun şəxsi hərəkəti Carda baş vermiş hadisələrdə az rol oynamadı. O, nəinki əfv etmədi, əksinə öz məktubunda alçaldıcı şəkildə yazdı: “Kafir əclaflar... İstəyirsiniz ki, mən sizə inanım və əfv edim. Siz mənim gəlməyimi gözləyəcəksiniz və orada mən sizin bütün evlərinizi yandıracağam, sizi yandıracağam, uşaqlarınız və arvadlarınızın içalatını dartıb çıxaracağam” [5].

Carlılar yenidən hücuma keçmiş rus qoşunlarına müqaviməti davam etdirməyin qeyri-mümkünlüyünü və faydasızlığını görərək təslim oldular.

Car-Balakən camaatının fəthindən sonra qonşu İlisu soltanlığı da Rusiya təbəəliyini qəbul etməli oldu, Soltanlıqda 40-cı illərin ortalarınadək soltan öz torpaqlarının daxili idarəsində hakimiyyətini qoruyub saxlamışdı [6]...

General Sisianov Gəncə xanlığının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. Çünki Gəncə qalası rus qoşunlarının Azərbaycanın içərilərinə doğru sonrakı irəliləyişinin açarı idi. "Gəncə qalasının yerli mövqeyi bütün Azərbaycan üzərində hökmrandır. Bax, buna görə də bu istila Rusiya üçün birinci dərəcəli əhəmiyyətə malikdir" [7].

Gəncə xanlığı XVIII əsrin 90-cı illərindən rus dövləti ilə səmimi diplomatik münasibətlər saxlayırdı. Xanlığın hökmdarı Cavad xan Sisianovun Rusiya himayəsini qəbul etmək təklifinə rədd cavabı vermədi. O yazırdı ki, 1796-cı ildə "sənin padşahın fərman göndərdi və mən də onun təklifini qəbul edib qalanı təhvil verdim. Əgər indi də sənin padşahın belə fərman göndəribsə, onu mənə göstər. Onda mən onun iradəsini görərək buna uyğun hərəkət edərəm". General tələb etməyi siyasi danışıqlardan üstün tutdu. O, məktublarında özünəməxsus yekəxanalıq və etinasızlıqla Cavad xanı özündən uzaqlaşdırdı, bu da qanlı döyüşlərə gətirib çıxarırdı.

Sisianov Rusiya hakimiyyətini qəbul etmiş digər xanlıqlardan fərqli olaraq, Gəncə xanlığına qarşı amansız tələblər irəli sürürdü. O, Cavad xandan ildə 20 min çevron məbləğində, yəni sonralar Şəki, Qarabağ və Şirvan xanlıqları üçün müəyyənləşdirilmiş məbləğdən 3 dəfə çox, ödənc tələb edir və yazırdı: "Əgər mənim təklifimi qəbul etməsən, Gəncəyə atəş və qılıncla gələcəyəm".

O, 11 topu olan piyada batalyonu, 3 eskadron və 2 kazak yüzlüyündən ibarət qoşunu Gəncə üzərinə yeritdi. Bütün bu qoşunlara general Portnyakin komandanlıq edirdi. Gəncəyə doğru yolda, şəhərin iki verstliyindəki Quluqobu adlı yerdə, rus qoşunları ilə gəncəlilər arasında ilk vuruşma baş verdi. Cavad xan bir qədər müqavimətdən sonragücdən düşərək pozulmuş qoşunları ilə birlikdə qalaya qayıtdı. Bundan sonra rus qoşunları Gəncəni mühasirəyə aldılar. Mühasirə bir ay davam etdi. 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə rus qoşunları qalaya hücuma başladılar. Onların iki cəhdi dəf olundu. Qalanın müdafiəçiləri inadlı müqavimət göstərdilər. Cavad xan və onun oğlu Hüseynqulu ağa döyüşlərdə qəhrəmancasına həlak oldular. Gəncə xanlığı ləğv olundu və dairəyə çevrildi, şəhər isə öz qədim adını itirdi və I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırıldı. "Gəncə" adını çəkmək qadağan olundu. Bu qaydanı pozanlar cərimə edilirdilər.

Gəncənin alınması qoşunlarının digər feodal dövlətlərini tabe etmək məqsədilə Azərbaycanın içərilərinə doğru irəliləməsi üçün böyük əhəmiyyət kəsb etdi. Gəncə xanının vassal asılılığında olan Samux hakimi Şirin bəy Gəncənin

süqutundan sonra Rusiya təbəəliyini qəbul etməyə məcbur oldu. O, hər il Rusiyaya 1000 çervon, yəni 3 min manat bac verməyi öhdəsinə götürdü.

## § 2. BİRİNCİ RUSİYA – İRAN MÜHARİBƏSİ

Gürcüstanın, Şimali Azərbaycanın bir hissəsinin bir hissəsinin Rusiya tərəfindən işğalı İran və Türkiyənin, habelə onların arxasında duran İngiltərə və Fransanın narahatlığına səbəb oldu. XIX əsrin birinci yarısında yaşamış Azərbaycan tarixçisi A.Bakıxanovun yazdığına görə, "İran rusların sürətli müvəffəqiyyətlərə dəhşətlə baxırdı. İran şahı 70 minlik qoşununu Zaqafqaziya sərhədlərində cəmləşdirdi" [8].

Şah sarayı Rusiya ilə müharibəyə hələ 1801-ci ilin yazından – İngiltərə ilə müqavilə bağladıqdan sonra hazırlaşırdı. Elə həmin ilin sentyabrında Ənzəlidə sahil istehkamları quruldu.

Fətəli şah Zaqafqaziyanı tutmağa hazırlaşaraq, əvvəlcə Gürcüstan və Gəncə ilə həmsərhəd olan bütün xanlıqların ərazilərini ələ keçirmək niyyətində idi. O, bu məqsədlə 1802-ci ilin iyulunda 20 minlik qoşunu sərhədə göndərməyi qərara aldı. Fətəli şah Avropa kralları və imperatorlarına məktubla müraciət edərək kömək almağa çalışdı.

Lakin İranın daxilində baş vermiş çaznaşmalar və İngiltərə tərəfindən real köməyin olmaması davakar əhvali-ruhiyyəli şah sarayına soyuducu təsir göstərirdi. İngiltərə isə I Pavelin öldürülməsindən və xüsusən də Fransa qoşunlarının Suriya və Misirdən getməsindən belə qənaətə gəldi ki, Hindistana yürüş planı Napoleonun Şərq siyasətinin gündəliyindən çıxarılmışdır və şaha köməyə ehtiyac qalmayıb. Ona görə də İngiltərə vəd verməkdən uzağa getmirdi. Bununla belə o, İranı Rusiya ilə müharibəyə qızı.dırırdı.

İran sarayı Rusiya ilə müharibəyə hazırlaşaraq Gürcüstanı Rusiyaya qarşı birgə çıxışa cəlb etmək məqsədilə öz nümayəndələrini buraya göndərdi. Zaqafqaziyanın hər yerinə şahın Gəncə və Gürcüstan üzərinə yerimək niyyətindən xəbər verən, xanlardan itaət və kömək göstərilməsini tələb edən fərman göndərildi. O yazırdı ki, taxt-tac varisi Abbas Mirzənin 50 minlik ordusu Rusiyaya birləşdirilmiş vilayətləri qoparıb almaq üçün Zaqafqaziyaya yeridiləcəkdir. Kızılyaradək bütün ölkələri "kafir ruslardan" təmizləyəcəyinə lovğalıqla bəyan etmiş şahın özü də başlıca qüvvələrlə birlikdə Abbas Mirzənin qoşunlarının ardınca hərəkət etməyə hazırlaşırdı.

1804-cü ilin mayında Fətəli şah başda olmaqla İranın yuxarı feodal təbəqələri rus qoşunlarının Zaqafqaziyadan çıxarılmasını tələb etdi. Tələb rədd olundu və 1804-cü il iyulun 10-da Rusiya ilə İran arasında diplomatik əlaqələr kəsildi, 10 il davam etmiş Rusiya-İran müharibəsi başlandı.

Azərbaycanın yerli əhalisinin Rusiya-İran müharibəsinə münasibəti eyni cür deyildi. Azərbaycanın bəzi feodal hakimləri, habelə feodalların da bir hissəsi öz hakimiyyətlərini itirməkdən qorxaraq, müharibəyə öz xilaskarı kimi baxır və şah İranın qalib gələcəyi təqdirdə öz hakimiyyətlərini saxlayacaqlarını düşünərək, ona kömək etməyə hazır idilər və imkan daxilində kömək göstərirdilər Həm daxildən, həm də xaricdən törədilən sonsuz müharibələrdən xilas yolu axtaran və bunu Rusiyanın sayəsində əldə edə biləcəyini zənn edən əhalinin bir hissəsi isə rus qoşunlarına kömək göstərmək istəyirdi. Ümumiyyətlə isə əhali nə İranın, nə də Rusiyanın istilasına məruz qalmaq istəmir, öz xanlarına müraciət edərək, istilaçılara qarşı mübarizədə onlara hər cür kömək göstərməyi vəd edirdilər.

Müharibənin başlanğıcında Zaqafqaziyadakı rus qoşunlarının komandanlığı müharibə aparmağın hücum planını seçdi. İlk döyüş 1804-cü il iyulun 2-də İrəvan xanlığının ərazisində, Eçmiədzin divarları yanında baş verdi. 12 topu olan 3600 nəfərlik piyada, süvari eskadronu və 2 kazak yüzlüyündən ibarət rus qoşunu 20 minlik İran qoşunu ilə qarşılaşdı. Rus qoşunları gürcü süvari dəstələrinin köməyi ilə üstünlük qazandılar.

İkinci döyüş İrəvan yaxınlığında, Qəmərli kəndinin yanında baş verdi, 1804-cü il iyulun 29-dan 30-na keçən gecə rus qoşun dəstəsi ilə İran qoşunlarının böyük birləşməsi arasında qanlı döyüş oldu. Rus qoşunları tutduqları mövqeləri qoruyub saxlaya bildilər. Lakin azuqənin çatışmazlığı, qoşunların azlığı, habelə İran qoşunlarının kiçik rus dəstəsi yerləşmiş Gəncəyə tərəf irəliləməsi üzündən sentyabrın 4-də rus qoşunları İrəvandan geri çəkildi.

Gəncənin alınması, rus qoşunlarının sonrakı müvəffəqiyyətləri Azərbaycan xanlıqlarının istilasının sürətlənməsində mühüm rol oynadı. General Sisianov hələ 1804-cü ilin əvvəlində mayor Lisaneviçi Qarabağa İbrahimxəlil xanın yanına göndərərək ondan “Rusiya təbəəliyinə” keçməyi tələb etdi. İbrahimxəlil xan İran qoşunlarının hücumunun qarşısını almaq üçün Sisianovdan hərbi kömək xahiş edib, “Rusiyaya kömək göstərmək və ona sadiq qalmaq” vədi verdi. Qarabağ xanının Rusiya ilə yaxınlaşmasından həyəcana düşmüş İran sarayı İbrahimxəlil xanın oğlu Əbülfət xanı 500 nəfərlik dəstə ilə Qarabağa göndərdi. Lakin İbrahimxəlil xan onu düşməncəsinə qarşıladı və onun dəstəsini Dizax yaxınlığında əzdi.

Qarabağ xanının bu qələbəsindən sonra Sisianov onun xahişinə görə Qarabağa mayor Lisaneviç başda olmaqla dəstə göndərdi. Eyni zamanda o. Rusiya təbəəliyini qəbul etmək barədə cavabı sürətləndirməyi tələb etdi. İbrahimxəlil xan xanlığını qoruyub saxlamaq məqsədilə Sisianovla görüşməyə razılıq verdi. General Sisianov Gəncə yaxınlığındakı Kürək çayının sahilinə gəldi və düşərgə saldı. İbrahimxəlil xan da buraya gəldi və 1805-ci il mayın 14-də Sisianovla görüşdü. Görüşdə müqavilə imzalandı. Bu müqaviləyə əsasən xan. Onun varisləri və xanlığın bütün əhalisi Rusiya təbəəliyinə qəbul olunur və onların üzərinə rus çarına sadiq qalmaq təhəddüdü qoyulurdu. Çar isə, öz növbəsində, bu xan sülaləsinin

hüquqlarını "bütün zamanlar üçün" təsdiq edirdi, lakin hər dəfə xan varisləri çar tərəfindən təsdiq olunmalı idi. Xan öz nəvəsini əmanət verməyi boynuna götürdü. O, Tiflisdə qalmalı idi. Xanlığın daxili idarəsi xanın ixtiyarında saxlanıldı. Lakin o, rus qarnizonunu Şuşaya buraxmağı və onu zəruri şeylərlə təmin etməyi öz üzərinə götürdü. Xan hər il öz gəlirlərindən Rusiya xəzinəsinə 8000 çervon ayırmağı öhdəsinə götürdü.

Bəzi xanlıqlar tərəfindən Rusiya hakimiyyətinin döyüşsüz qəbul edilməsi faktı çarizmin burada işğalçı məqsədlər güdməməsi kimi qəbul edilməməlidir. İlk zamanlar bəzi xanlıqların daxili muxtariyyət hüququnun saxlanılmasına gəldikdə isə bu, öz qarşısında İngiltərə və Fransanın həvəsləndirdiyi İran və Türkiyə kimi rəqibləri görərək, Zaqafqaziyada böyük ehtiyatla hərəkət etməyə can atan çarizmin müvəqqəti tədbiri idi.

Müharibənin elə ilk ilində şah sarayının İngiltərəyə bəslədiyi ümmidlər özünü doğrultmadı. İngiltərə bu illərdə Rusiyanın iştirakı ilə yeni antinapoleon koalisilasını yaratmağa çalışırdı. İngiltərə Rusiya-İran müharibəsini qızışdıraraq, öz müttəfiqinə - İrana münasibətdə ikiüzlü siyasət yürüdürdü: İran tərəfindən 1801-ci il müqaviləsinin şərtlərinə əməl olunmasını tələb edərək, özünü elə aparırdı ki, guya ki, onun özü müttəfiqlik borclarından azaddır.

İngiltərənin belə siyasəti onunla nəticələndi ki, 1804-cü ilin payızında İran şahı Rusiya əleyhinə Fransa ilə ittifaq bağlamağa hazır olması barədə Napoleona məktub göndərdi. Napoleon bundan istifadə etməyi qərara aldı və İstanbuldakı fransız səfirinə İranla danışıqlara başlamaq barədə göstəriş verdi.

1805-ci il yay kompaniyasının gedişində İran qoşunları iyunun ortalarında Qarabağa soxuldular və onu talan etdilər. "Hələ bu yaxınlaradək laləzar torpaqlar olan hər yerdə indi ancaq kəndlərin xarabalıqları, geniş tut bağlarının qalıqları, bir də atılmış və baxımsız qalmış tarlalar görünürdü" [9].

Pirqulu xan Əsgəranı tutdu və Qarabağın içərilərinə irəlilədi. 1805-ci ilin iyunun 26-da şah qoşunlar, polkovnik Koryagin başda olamqla azsaylı rus qarnizonunun yerləşdiyi Şahbulağı mühasirəyə aldılar.Abbas Mirzə qalanın təslim olmsını tələb etdi. Koryagin vəziyyətin çıxılmazlığını görərək, qalanı iyulun 8–də təslim etməyə razılaşdı, özü isə iyulun 7-nə keçən gecə dəstəsi ilə düşmənin xəbəri olmadan qalanı tərk etdi. Abbas Mirzə rus dəstəsinin gizlicə oradan çıxmasını bilən kimi onu təqib etməyə başladı, lakin ona hücum etməyə cürət etmədi. Şahbulaqdan şimaldakı Muxrat qəsrində dayanmış Koryaginə kömək gələndə şah qoşunları geri çəkildilər. Koryaginin dəstəsi Gəncəyə gəldi və burada Kotlyarevskinin dəstəsi ilə birləşdi.

İyulda İran qoşunları Qazaxa soxuldular. İran qoşunlarının komandanı yerli əhalinin köməyinə ümid bəsləyirdi. O, kətxudalara bəyanatla müraciət edərək, Qazax sakinlərini Rusiyaya qarşı üsyana çağırdı. Koryagin 570 nəfərlik dəstə ilə döyüş əməliyyatları meydanına tələsdi və iyulun 27-də Zəyəm yaxınlığındakı İran düşərgəsinə hücum etdi.

İran qoşunlarının 1805-ci ilin yay hərbi kompaniyasındakı Azərbaycanda öz mövqeyini daha da möhkənləndirmək, Şirvan. Bskı və Quba xanlarını tabe etmək imkanı verdi.

Hələ Qarabağ və Şəki xanlıqları ilə müqavilələr bağlanan dövrdə Sisianov Rusiya hakimiyyətini qəbul etməyi şirvanlı Mustafa xandan da tələb etmişdi. Şirvan xanı qonşu Azərbaycan xanlıqları üzərində onun hakimiyyətinin tanınması şərti ilə bu tələblə razılaşdı. Mustafa xan illik bac verməkdən boyun qaçırır, daxili idarədə özünün müstəqilliyi barədə təminat və özünə daimi məvacib təyin olunmasını tələb edirdi. Sisianov isə özünün irəli sürdüyü şərtlərlə Rusiya hakimiyyətini qəbul etməyi tələb edirdi və danışıqların heç bir şey verməyəcəyinə əmin olduqdan sonra 1805-ci ilin noyabrında Mingəçevir yaxınlığında Kürü keçərək Şamaxıya doğru yeridi. Onun 10 topu olan dəstəsi 1100 piyadadan vəm süvarilərdən ibarət idi.

General Sisianov Şirvana doğru hərəkət edərkən İbrahimxəlil xandan kömək tələb etdi və o da 1500 süvari ilə birlikdə öz böyük oğlu Mehdiqulu ağanı göndərməyə məcbur oldu. Rus qoşunlarının yaxınlaşdığını eşidən Mustafa xan Sisianovun tələbini qəbul etmək qərararına gəldi, xanlığın xarici əlaqələr hüququnun Rusiyaya verilməsinə, ildə 10 min çervon bac ödəməyə, xanlığın hüdudları daxilində ticarətin təhlükəsizliyini təmin etməyə və s. razılaşdı. Bununla belə xan danışıqlardan boyun qaçırdı, təbii qala və möhkəm sığınacaq olan Fitdağda mövqeyini möhkəmləndirdi. Sisianov qoşunlarını Şamaxının lap yaxınlığına çəkməyə başladı. Rus qoşunları Fitdağa yaxınlaşdı. Öz vəziyyətinin çıxılmazlığını görən xan Rusiya təbəəliyinə keçməyərazı oldu. Mustafa xan və Sisianovun 1805-ci il dekabrın 27-də imzaladıqları müqavilə əvvəlcə bağlanmış iki müqavlə ilə eyni idi.

Qarabağ və Şəki xanlıqlarının Rusiya hakimiyyəti altında keçməsi haqqındakı müqavilərlə eyni olan bu müqavilədə rus qoşunlarının Şamaxıda mütləq yerləşdirilməsindən danışılmırdı. Şamaxı xanlığının illik bacı 7 min çervon məbləğində müəyyənləşdirildi. Şamaxı xanlığı öz ərazisindən keçən karvanların təhlükəsizliyini təmin etməyə borclu idi. Xan, həmçinin, Kür sahilində - Cavadda möhkəmləndirilmiş rus məntəqəsinin tikilməsinə icazə verməsi ilə də razılaşırdı.

Azərbaycanın ən iri xanlıqlarından birinin – Şamaxı xanlığının tabe edilməsi çar Rusiyası üçün bütün Şimali Azərbaycanın ələ keçirilməsində mühüm əhəmiyyətə malik idi. Şamaxı xanlığı digər xanlıqlar arasında mərkəzi mövqe tuturdu, böyük iqtisadi,siyasi və hərbi-strateji əhəmiyyətə malik did.

Şamaxı xanlığının tabe edilməsindən sonra Bakıya yol açıq idi. 1805-ci ilin əvvəllərində Qafqazdakı rus qoşunlarının baş komandanı Gilanı tutmaq, geri qayıdarkən isə Bakını ələ keçirmək üçün rus donanmasını Xəzərə göndərməyi qərara aldı.

Çar hökuməti Xəzər donanmasının möhkəmləndirilməsinə və onun köməyi ilə Xəzərin qərb sahillərinin ələ keçirilməsinə böyük əhəmiyyət verirdi.

Çarın xarici içlər naziri bunu dönə-dönə Sisianova xatırladırdı. Sonuncu isə, öz növbəsində, Xəzər dənizi üzərində Rusiyanın tam hərbi ağalığını bərqərar etmək hüququnu rəhbər tutur və bu məqsədlə də yerli tacirlərin ticarət gəmilərinin burada görünməsinə yol vermirdi.

Apreldə desant general Zavalışının rəhbərliyi altında Rəşt istiqamətində yola düşdülər. Bu qoşunların qarşısını Ənzəli və Bakını tutmaqdan başqa, ötən kompaniyada əsir düşmüş adamların və gürcü knyazlarının geri alınmasını şahdan tələb etmək vəzifəsi qoyulurdu. İyunun 23-də donanma Ənzəli limanına çatdı. Desant çıxarmaq və Rəşti tutmaq üçün göstərilən uğursuz cəhddən sonra rus eskadrası avqustun 12-də Bakı rayonuna yaxınlaşdı. Qalanın təslim edilməsi barədə danışıqlar başladı. Zavalişin rədd cavabı alaraq, avqustun 15-də qalanı atəşə tutmağa, avqustun 22-də isə şəhəri mühasirəyə almağa başladı. Avqustun 29-dək xanlığın mühüm strateji məntəqələri tutuldu.

İranla əlaqə saxlayan Bakı hakimi Hüseynqulu xan kömək şah sarayına müraciət etdi. İran tarixçisi Nəsir Nəcminin məlumatına görə, Abbas Mirzənin urmiyalı Əsgər xana Bakı xanına kömək üçün qoşunlarla birlikdə dərhal yoloa düşməyi əmr etdi. Qubalı Şeyxəli xan da Hüseyqulu xana kömək etməyə hazırlaşırdı [10].

General Zavalişin Bakıya – Hüseynqulu xana Urmiya və Qubadan köməyin yaxınlaşmasından qorxaraq, qalanı ələ keçirmədən Lənkəran xanlığındakı Sara adasına çəkildi. 1806-cı ilin fevralın əvvəllərində Sisianov artilleriyası olan böyük qoşun dəstəsi ilə Bakının 2 km-də general Zavalişinin desant dəstəsi birləşdi və Naxır-bulaqda düşərgə saldı. Sisianov qalanın təslim edilməsini tələb etdi.

Sisianovun təklif etdiyi şərtlərə görə, Bakı xanlığı Rusiya təbəəliyini qəbul etməli, xanlığın ərazisi Rusiyaya birləşdirilməli, xanlığın bütün gəlirləri çar xəzinəsinə göndərilməli, xan isə ildə 10 min manat məbləğində məvacib almalıydı. Şəhər xüsusi qaydalar üzrə idarə olunmalı idi. Bakı qalasında toplarla birlikdə altı yüz min əsgərdən ibarət qarnizonunun yerləşdirilməsi nəzərdə tutulurdu.Xarici siyasət və hərbi məsələlərdə xan Qafqazdakı rus qoşunları baş komandanlığının sərəncamlarına tabe olmalı idi.

Bakılı Hüseynqulu xan bu şərtlərlə razılaşdı. Fevralın 8-də Sisianov polkovnik Eristavinin müşayiəti ilə, demək olar ki, mühafizəsiz şəkildə onu lap qalanın yanında gözləyən xanla görüşmək üçün yola düşdü. Görüşdə o, Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy tərəfindən öldürüldü.

General Zavalişin rus qoşunlarını Bakıdan Sara adasına, sonra isə Kızılyara aparmağa məcbur oldu.

Bakıda Sisianovun öldürülməsindən sonra Zaqafqaziyadakı rus qoşunlarının vəziyyəti ağırlaşdı. Cənubi Qafqazda da şərait mürəkkəbləşdi. Xanların çoxu tərəddüd etməyə başladı. Dağıstanın bəzi feodal hakimləri bu məqamdan istifadə edərək, tələsik Zaqafqaziyaya soxulmaq üçün hazırlıq görməyə başladılar. Qazıqumux hakimi Surxay xan Azərbaycana soxuldu. Lakin rus

qoşunlarının Şimali Qafqazdakı fəallığı üzündən digər Dağıstan hakimləri Kürə yaxınlaşan, Mingəçevir yaxınlığındakı keçidi ələ keçirməyə ümid bəsləyən, lakin tələsik geri qayıtmağa məcbur olan Surxay xana kömək göstərməyə cürət etmədilər.

1806-cı ilin yazında İran qöşunları yenidən fəallaşdı. Napoleonun vəd etdiyi kğmək burada az rol oynamadı. İran qoşunları Arazı keçərək Qarabağa yeridi.

İyunun 8-də rus və İran qoşunları arasında 1806-cı ilin kampaniyasının ilk silahlı toqquşması baş verdi. Şahbulaq və Əsgəran arasında, Ağdamda rus dəstəsi 4000 İran sərbazı iləm qarşılaşdı. Rus dəstəsi İran qoşununu sıxışdırdı və Əsgəranı tutaraq, Şuşaya doğru irəlilədi.

Abbas Mirzə İbrahimxəlil xanı öz tərəfinə çəkmək üçün elçilərini onun yanına göndərdi. Bu dövrdə Şuşada yerləşən mayor Lisaneviçin başçılıq etdiyi rus qarnizonunun azlığı üzündən İbrahimxəlil xan xanlığın var-yoxdan çıxarılmasına yol verməmək üçün əvvəlcədən Lisaneviçlə razılaşaraq, rus qoşunları gəlib çıxanadək iranlılarla mülayim rəftar etməyi qərara aldı. Rus qoşunlarının gəlib çıxmasının xeylim gecikməsi İran qoşunlarının lap qalaya yaxınlaşmasına səbəb oldu. İbrahimxəlil xan öz ailəsinin təhlükəsizliyini təmin etmək üçün onu Şuşa qalası yaxınlığındakı Xankəndinə köçürdü. XIX əsrin birinci yarısında yaşamış Azərbaycan tarixçisinin yazdığı kimi, "bəzi bədniyyətli adamlar xanı mayora elə şərləmişdilər ki, mayor gecə ikən bir dəstə döyüşçü ilə onun məskəninə yollandı, burada fələyin zalım hökmü ilə İbrahim xan bəzi ailə üzvləri və yaxın adamları ilə birlikdə öldürüldü". Bu qətl çar zabitlərinin müstəmləkəçi vəhşiliyini səciyyələndirən parlaq misaldır. Belə yolla həm tərəddüd edən feodallar, həm də əhali ruslardan uzaqlaşdırıldı. Təsadüfi deyil ki, bu hadisələrdən dərhal sonra şəkili Səlim xan Rusiya ilə əlaqələri kəsdi, "əhalini üsyana qaldırdı və rus qoşunlarını xanlıqdan getməyə məcbur etdi" [11].

Həmin günlərdə 1806-cı ilin hərbi əməliyyatların yay kampaniyası qızışmışdı. Abbas Mirzənin qoşunları Qarabağ və Şirvanda idi, gürcü şahzadəsi Aleksandr başda olmaqla 15 minlik digər ordu isə iyunun sonlarında Gəncənin 45 km-liyində düşərgə salmışdı. Şahzadə Tiflis, Qarakilsə və Gəncə istiqamətləri ilə Gürcüstana girməyə hazırlaşırdı.

Lisaneviçin amansızlığına və atasının xaincəsinə öldürülməsinə baxmayaraq, Mehdiqulu xan general Nebolsinin komandanlığı altında rus qoşunları ilə birləşməyə məcbur oldu bə Əsgəran qalasının yaxınlığında düşərgə saldı. Tezliklə ruslar Xanaşır aşırımında İran qoşunlarını əzdilər və İran qoşunlarının qalıqları tələsik Arazın o tayına çəkildi. 1806-cı ilin qışında yeni baş komandan təyin olunmuş general Qudoviç Qarabağın idarə olunması haqqındakı fərmanı Mehdiqulu xana təqdim etdi.

Qəsbkarlar geri çəkilərkən dinc sakinlərdən ibarət kütlələri zorla qovub əsirliyə aparırdılar. Təkcə Şirvandan İrana 6 min nəfər aparılmışdı.

Yay kampaniyasının müvəffəqiyyətlə başa çatmasından sonra qarşıda Şimali Azərbaycanın talan ərazisinin, ilk növbədə Bakı və Quba xanlıqlarının işğalı məsələsi dururdu.

Rus komandanlığı Bakı və Dərbənd qalalarını ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. General Qlazenap 1806-cı il mayın 3-də çara yazırdı: "Nə qədər ki, Bakı alınmayıb, o vaxtadək Şirvan və Qarabağdakı nailiyyətlər həmişəlik təhlükədə olacaqdır, elə Gürcüstanıpn özü də farsların basqınını gözləməlidir". İran hökuməti Rusiya və onun planları üçün Bakının əhəmiyyətini aydın başa düşürdü və Qarabağdakı uğursuzluqlardan sonra rus qoşunlarının irəliləməsinin qarşısını almaq məqsədilə hərbi əməliyyatları Şamaxı xanlığı istiqamətinə keçirdi [12]. Bu vaxt bir rus dəstəsi Zərdaba, digər isə Cavada daxil oldu. Rus qoşunlarının yaxınlaşdığını eşidən Abbas Mirzə düşərgə saldığı Ağsudan Kür çayına doğru geri çəkildi. Bakı və Dərbəndə doğru irəliləmək üçün əlverişli şərait yaradırdı. Qubalı Şeyxəli xan Rusiya hakimiyyətini qəbul etmək istəmirdi. 1806-cı ilin iyununda rus qoşunları Quba xanına tabe olan Dərbəndə yaxınlaşdılar və iyunun 22-də onu tutdular. Sonra onlar general Bulqaqkovun komandanlığı altında Bakıya doğru yönəldilər. General şəhər sakinlərinə müraciət göndərdi. Hüseynqulu xan öz nümayəndə heyətini şəhərin bayrağı, qalanın açarı və duz-çörəklə Buqakovun yanına göndərdi, lakin Hüseynqulu xanın öxü qisasdan qorxaraq, ailəsi ilə birlikdə Qubaya, oradan da İrana qaçdı [13]. Beləliklə, 1806-cı il sentyabrın 3-də Bakı xanlığı Rusiyaya tabe edildi. Tezliklə Quba xanı da qaçdı, onun xanlığı da Rusiyaya tabe olundu. Dərbənd və Quba xanlıqları Tərki şamxalının ixtiyarına verildi, sonralar isə əyalətlərə çevrildi.

Beləliklə, 1806-cı ilin sonund, Talış, İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, Şimali Azərbaycan ərazisi Rusiyanın hakimiyyəti altına keçdi.

Göstərilən xanlıqların işğalından sonra rus qoşunları Şəki xanlığındakı üsyanı yatırmaq üçün göndərildi. 1806-cı ilin oktyabrın 22-də Nuxa yaxınlığında həlledici döyüş baş verdi və şəkili Səlim xanın dəstələri məğlubiyyətə uğradı. Rus qoşunları Nuxa şəhərini mühasirəyə aldılar. Şəhər sakinləri müqavimət göstərməkdə davam edirdi. Onlar şəhər divarlarının ətrafını yandırıcı materiallarla doldurdular və rus qoşuunları hücuma başlayanda onlara od vurdular. Bununla belə nuxalıların müqaviməti qırıldı və rus qoşunlatrı hücum edib, Nuxanı ələ keçirtdilər. Səlim xan İrana qaçdı. Xanlığın idarə olunması üçün Şəkidə yerli, Rusiyaya meyilli olan bəylərdən ibarət müvəqqəti idarə təşkil olundu.

Sonra rus qoşunları üsyanı bürümüş Car-Balakənə yola düşdü. Rus qoşunları Carda üsyanları və avar xanının, habelə digər Dağıstan feodallarının burada olan süvarilərini mühasirəyə aldılar. Tezliklə bu üsyan da yatırıldı.

Şimali Azərbaycan xanlıqlarında üsyan yatırıldıqdan sonra hökumət bir sıra yerli feodal hökmdarları dəyişdi. Rusiya-İran müharibəsinin başlanğıcında Rusiyanın tərəfinə keçmiş xoylu Cəfərqulu xan Şəki xanı təyin edildi. O özünün keçmiş Xoy xanlığı əhalisinin bir hissəsini Şəkiyə köçürdü. Azərbaycanlılardan və

ermənilərdən ibarət olan bu köçkünlər Nuxa şəhərinin ətrafında bir neçə kənd (Yenikənd, Cəfərabad vəs.) saldılar.

Çar hökuməti Quba və Bakı xanlıqlarını ələ keçirdikdən sonra İranla sülh bağlamağa can atırdı, belə ki, rus komandanlığı Türkiyə ilə müharibənin yaxınlaşdığını qabaqcadan görür və buna görə də əl-qolunu azad etmək, mümükün olarsa, hətta İranı Türkiyəyə qarşı müharibəyə sövq etmək istəyirdi. İran hökuməti də güzəştlərə ümid bəsləyərək, sülh bağlamaq istəyirdi. 1806-cı il sentyabrın ortalarında şah sarayı öz nümayəndəsini sülh bağlamaq təklifi ilə rus qoşunlarının baş komandanı Qudoviçin yanına göndərdi.

Çar hökuməti heç nəyi İrana güzəşt etmək fikrində deyildi, əksinə o, İrandan Naxçıvan və İrəvan xanlıqlarını tələb etgdi. Qudoviç 1806-cı il oktyabrın 4-də I Aleksandrdan göstəriş aldı ki, "...yaranmış mövcud şəraitdə İranla hərbi əməliyyatların dayandırılması ən mühüm məsələdir". Çar hökuməti hətta müvəqqəti barışığın imzalanmasına razı idi. Lakin danışıqlar uzandı. İngiltərə və Fransa bu işdə az rol oynamırdı.

İngiltərə və Fransanın başlıca mənafelərini başqa beynəlxalq məsələlərə daha çox məşğul etsə də,Onlar Cənubi Qafqazı bir anlığa da gözdən qoymur, İngiltərə açıq-aşkar, Fransa isə gizlicə İranı müdafiə edir və Türkiyəni Rusiya ilə müharibəyə təhrik edirdilər. Austerlitsdən sonra İran və Türkjiyə də Napoleon diplomatiyası daha da fəallaşdı. Napoleon 1806-cı ildə öz nümayəndəsi general Romyeni İrana göndərdi. İranın Fransa ilə danışıqları İngiltərəni təşvişə saldı. Bağdaddakı ingilis səfiri Xarford Cons şah nazirinə müraciət edib ona təminat verdi ki, İngiltərə 1801-ci il müqaviləsinin şərtlərinə sadiq qalacaqdır. General Romyenin qəfildən, müəmmalı şəkildə vəfatı üzündən danışıqlar kəsildi. Lakin tezliklə digər fransız nümayəndəsi Jober İrana gəldi. Onu şahın özü də qəbul etdi.

Napoleon "rus qoşunlarını Zaqafqaziyadan qovmaq üçün... fransız qoşunlarının İran sahillərinə çıxmasına icazə verməyi" İrana təklif etdi.

Fransa bütün vasitələrlə Türkiyəni də Rusiyaya qarşı qaldırmağa çalışırdı. Dövlət kansleri A.R.Vorontsov bu barədə hələ 1803-cü ildə general Sisianova məlumat verirdi. Fransanın təsiri altıpnda Türkiyə Rusiyaya qarşı birgə mübarizəsi üçün İranla hərbi ittifaq bağlamaq niyyətində idi. Türkiyə məmuru Feyzi Mahmud Əfəndi 1805-ci ilin payızında bu məqsədlə Tehrana gəldi. Napoleonun 1806-cı ildə İstanbula gəlmiş səfiri general Sebastian hədələr və cəlbedici vədlərlə Türkiyəni bir sıra rus-türk sazişlərini, o cümlədən də də təzəcə imzalanmış müttəfiqlik müqaviləsini təhrik yolu ilə pozmağa nail oldu. 1806-cı ilin sonunda Türkiyə Rusiyaya qarşı müharibəyə başladı.

Türkiyənin müharibəyə başlanması rus qoşunlarının Qafqazdakı vəziyyətini ağırlaşdırdı. Rus ordusun un əsas qüvvələri Napoleon qoşunlarına qarşı mübarizəyə yönəlmişdi və Qafqaza göndərilə bilməzdi. İndi Qafqaz fərbi əməliyyatlar meydanında İranla yanaşı, Türkiyə ilə də müharibə aparmaq lazım idi.

Rusiya bunu qabaqcadan görür və buna görə də İranla sülh bağlamağa cəhd göstərirdi. Lakin İranla danışıaqlar müvəffəqiyyətlə nəticələnmədi.

Rusiya-Türk müharibəsinin başlanmasından sonra Qafqazdakı rus qoşunlarının komandanlığı Tərtər çayında istehkam yaratmağı qərara aldı. Quba, Bakı və Dərbəndi təzəcə ələ keçirmiş, Şəki və Car-Balakındə üsyanı yatırtmış qoşunlar oraya göndərilmişdi. Baş komandan general Qudoviç rus ordusunun başında Gümrüyə yönəldi. Burada rus və türk qoşunları arasında qanlı döyüş baş verdi. Mirzə Adıgözəl bəy bu döyüş haqqında yazırdı: "Hər iki qoşun Arpa çayında qarşılaşdı və bir-birinin qarşısında yerləşdilər. Bir qədər vaxtan sonra döyüş baş verdi. Qaş qaralana yaxın osmanlılar məğlub eduildilər. Ruslar osmanlılardan qənimətlər və çoxlu top ələ keçirdilər" [14]. Bu döyüş 1807-ci il iyunun 18-də baş vermişdi. Elə həmin ildə İran qoşunlarının Zaqafqaziyaya viran edici yürüşləri yenidən başladı.

Napoleon 1807-ci ilin əvvəllərində İran şahını Rusiya ilə mübarizəni gücləndirməyə çağırırdı. 1807-ci il yanvarın 17-də Napoleon iran şahına yazırdı ki, Rusiya üzərində qələbə "məni səninlə yaxınlaşdırır", ona görə də Rusiya üzərinə hücum etməyi, Zaqafqaziyanı tutmağı, "Xəzər dənizini ruslardan ötrü bağlamağı" məsləhət görürdü. O, "üç dövlətin əbədi ittifaqını" (yəni Fransa, İran və Türkiyənin ittifaqını) yaratmağa çağırırdı. Fətəli şah öz növbəsində Napoleonun yanına çox zəngin hədiyyələrlə nümayəndə heyəti göndərdi və ittifaq bağlamağı təklif etdi.

Napoleon Fətəli şaha cavabında onu Rusiya əleyhinə mübarizəni gücləndirməyə çağırır və Fransa. İran və Türkiyədən ibarət antirusiya blokunu yaratmağı təklif edirdi. Cavab məktubunda deyilirdi: "Gürcüstanı və Yeni imperiyanı (yəni Qacarlar imperiyası – M.İ.) təşkil etmiş bütün başqa əyalətləri ondan la və Xəzər darvazasını ona qarşı möhkəmləndir". Şah hökuməti bu təklifi qəbul etdi.

Fransanın yeni nümayəndə heyəti İrana gəldi. 1807-ci il aprelin sonunda İranınm səlahiyyətli nümayəndəsi I Napoleonun olduğu Şərqi Prussiyaya gəldi və danışıqlara başladı. I Napoleon müqavilənin bağlanmasını gözləməyərək İrana göndərilmək üçün 50 top, 10 min tüfəng və 4 min piyada hazırlamaq əmrini verdio. 1807-ci il mjayın 4-də Finkenşteyndə Fransa-İran müqaviləsi imzalandı. Bu müqaviləyə görə, Zaqafqaziyanı tutmaq üçün İrana hərbi kömək göstərilməsi nəzərdə tutulurdu. Tezliklə İrana general Qardanın başçılıq etdiyi fransız diplomatik nümayəndə heyəti gəldi. Onun gəlişi ilə Finkenşteyn müqaviləsi tələm-tələsik təsdiq olundu. 1808-ci il yanvarın 21-də müqavilə bağlandı. Bu müqaviləyə görə, İran fransız cəbbəxanasından 20 min tüfəng satın ala bilərdi.

Rusiya və İran arasında barışığın görünməkdə olan əlamətləri Fransa-İran müqaviləsinin bağlanması və fransız diplomatik nümayəndə heyətinin İrana gəlməsi ilə yoxa çıxdı. "Fransa hökumətinin fitnələri nəticəsində bizim bu diyardakı işlərimiz ümidlərimizin əksinə hal almağa başlayır". Fransızların

rəhbərliyi ilə İsfahanda top istehsalı qaydaya salındı. Tehranda isə artilleriya parkı təşkil olundu.

Fransızlar İran ordusunu yenidən qurmağa başladılar. General Qardan eyni zamanda Iran və Rusiya arasındakı danışıqlara hər vasitə ilə mane olurdu.

Hələ 1807-ci ilin yayında beynəlxalq vəziyyətdə dəyişikliklər baş verdi. Rusiya ilə Fransa arasında Tilzit sazişi, habelə hücum və müdafiə ittifaqı haqqında gizli rus-fransız müqaviləsi imzalandı. Tilzitdə Napoleon İran və Türkiyənin mənafelərinin təmin olunmasını təkid etmədi. Tilzit müqaviləsinin ikinci gizli maddəsində qeyd olunurdu ki, Fransa özünün Türkiyə və İran işlərindəki vasitəçiliyindən imtina edir. Lakin sonrakı hadisələr göstərir ki, Fransa və Rusiya arasında Tilzitdə bağlanılmış bu ittifaq məcburi ittifaq idi. Fransız mütəxəssisləri İranı Rusiya ilə yeni silahlı toqqujşmalara hazırlamaqda davam edirdilər vəşah sarayı da Napoleonun köməyinə ümidini itirməyərək, Fransa ilə əlaqələri kəsmək istəmirdi. Lakin yaranmış şərait şahı İngiltərə ilə yaxınlaşmağa sövq edirdi.

İngiltərə hökuməti şəraitdən dərhal istifadə etdi və İranda öz yerini hər vasitə ilə möhkəmləndirmək qərarına gəldi. Lakin şah rüşvət və hədə-qorxulara baxmayaraq, Malkolmu qəbul etmədi. Şah Gürcüstanı ona qaytarmağı vəd etmiş Napoleonun qüvvəsinə hələ də inanırdı. Tezliklə Cekson başda olmaqla ikinci diplomatik nümayəndə heyəti İrana gəldi cekson şahın Fransa ilə əlaqələrini kəsməyinə nail oldu. O, şahı və şah sarayını satın almaq üçün böyük vəsaitdən istifadə edirdi. 1809-cu ilin fevralında general Qardan Tehranı tərk etməyə məcbur oldu. 1809-cu ildə İngiltərə İranla müqavilə imzaladı. Bu müqaviləyə görə, İran İngiltərə ilə düşmənçilik edən bütün dövlətlərlə münasibətlərini kəsməyi öhdəsinə götürdü. İngiltərə şaha Rusiya ilə müharibə müddətində hər il 120-min funt-sterloinq məbləğində malıyyə yardımı göstərməyi, silah, hərbi sursat və təlimatçılar verməyi vəd edirdi.

Danışıqlarla yanaşı, gələcək hərbi əməliyyatlara hazırlıq gedirdi. Artıq 1808-ci ilin mayında 10 minlik İran qoşunu İrəvana doğru çəkilirdi [15]. Rus qoşunlarının baş komandanı general Qudoviç də öz qoşunlarını İran sərhədinə doğru yönəltdi və sentyabrın 40- də Soğanlıq düşərgəsindən 3 min nəfərdən bir qədər artıq qoşunla Pəmbəkə doğru yeridi. O oradan İran qoşunlarına hücum etmək niyyətində idi. Qudoviç eyni zamanda Naxçıvanı ələ keçirməyi general Nebolsinə əmr etdi. Nebolsin sentyabrın 11-də 3000 nəfərllik qoşunla Şuşadan yola düşdü. Sentyabrın 26-da Qudoviç irəvanlı Hüseyn xan başda olmaqla 4 min nəfərdən ibarət İran qoşununu məğlub etdi. Rus qoşunları irəvana geri çəkilən Hüseyn xanı təqib edərək yolüstü Eçmiədzini ələ keçirtdi. Bu zaman general Nebolsin Naxçıvana doğru irəliləyərək, oktyabrın sonunda Qarababa kəndi yanında İran qoşunlarını dağıtdı və Naxçıvanı tutdu. Rus qoşunlarının birləşmiş qüvvələri İrəvanın mühasirəsinə başladı və mayın ortalarında qalaya hücuma keçdi. Lakin müvəffəqiyyətsizliyə uğrayıb geri çəkildi. Rus qoşunları Naxçıvanı da tərk etməyə məcbur oldular. Abbas Mirzə Naxçıvanı tutaraq, rus qoşunlarını təqib etməyə

başladı. Qarababa kəndi rayonunda döyüş baş verdi, Qudoviç yenidən məğlubiyyətə uğradı. 1808-ci il kampaniyası uğursuz başa çatdı və Qudoviç istefaya getməyə məcbur oldu.

1809-cu ilin əvvəllərindən Rusiyanın Zaqafqaziyadakı vəziyyəti daha da mürəkkəbləşdi. İran İngiltərənin rəhbərliyi altında hərbi əməliyyatları davam etdirməyə, Arabağa soxulmağa hazırlaşırdı. Sarıqamışda 14 min sərbaz cəmləşdirilmişdi. Qafqazda rus qoşunlarının sayı 43,5 min nəfərə çatdığı bir vaxtda İran bütövlükdə 150 min nəfərlik ordu çıxarmaq niyyətində idi.

Yeni baş komandan Tormosov İranla münasibətləri danışıqlarla nizama salmağa ümid bəsləyirdi. Lakin 1809-cu ilin iyununda şahın özü Qarabağ və İrəvanla kifayətlənməmək və qüvvələrini Türkiyə ilə birləşdirmək üçün Qərbdə hərbi əməliyytalar cəbhəsini genişləndirmək niyyəti ilə Cənubi Azərbaycana gəldi. Şah Zaqafqaziya hakimləri və sakinlərinə fərmanlar göndərərək, onları Rusiyaya qarşı çıxış etməyə çağırdı.

1809-ci ilin hərbi əməliyyatları iluyda iki İran qoşununun Qarabağ və Pəmbəkə yürüşləri ilə eyni zamanda başladı. Üçüncü qoşun hissəsi Göyçə (Sevan) gölünün yanında dayandı. Onun əməliyyat meydanı Gəncə, Qazax və şəmşəddil olmalı idi. Lakin İran qoşunlarına öz planlarını həyata keçirmək müyəssər olmadı. Abbas Mirzə rus qoşunları ilə qarşılaşmaqdan hər vasitə ilə çəkinirdi. Avqustda o, Gəncəyə hücum etdi. Rus qoşunları da oraya tələsdi. Abbas Mirzə yenidən, döyüşə girmədən, bir neçə yaşayış məntəqisini talan edərək, Arazın o tayına çəkildi.

1809-cu ilin sentyabrında on bir minlik İran süvari qoşunu Talış xanlığına soxuldu və Lənkəranı talan etdi. Mir Mustafa xan öz qoşunlarının qalıqları və ailəsi ilə birlikdə yarımadada gizlənməyə məcbur oldu. Həmin günlərdə əsgəranda İran və Rusiya arasında danışıqlar yenidən başlandı. General Tormosov İran nümayəndəsi Mirzə Bezürkdən Talış xanlığının müstəqilliyini tanımağı tələb etdi.

İrandakı ingilis səfiri sülh müqaviləsinin bağlanmasına hər vasitə ilə mane olurdu. O, şahı inandırırdı ki, İranın qarşısında qoyulan şərtlər çar sarayı tərəfindən deyil, Tormosov tərəfindən irəli sürülür.Eyni zamanda İngiltərə İran qoşunlarını silahal təchiz edirdi. Məsələn, danışıqların getdiyi günlərdə İran İngiltərədən 3000 əsgər, 100 top, 2000 tüfəng, 1,2 mln man. pul, "top tökmək və Astrabad, Mazandaran, Gilan və Ləngərudda gəmi qayırmaq üçün müxtəlif ustalar" [16] almışdı.

İngiltərə və Türkiyənin maneçiliyi üzündən danışıqlar kəsildi. Türkiyə barışıq bağlanacağı təqdirdi İranla müharibədən azad olacaq qoşunların hesabına Rusiyanın güclənməsindən ehtiyat edirdi.

Ona görə də soltan danışıqları pozmaq üçün öz səlahiyyətli nümayəndəsini qiymətli hədiyyələrlə Tehrana göndərdi. Abbas Mirzəyə isə onun tam ixtiyarına 12 inlik nizami seçmə türk qoşununu verməyi təklif etdi. Zaqafqaziyadakı rus qoşunları ağır vəziyyətə düşdü.

1810-cu ilin iyununda İran qoşunları Qarabağa, Gəncəyə və Pəmbəkə doğru irəlilədi. İran qoşunlarının öz dəstələri Tuğ kəndinin yaxınlığında, Qarğabazar adlanan yerdə dayandı. Iranlılar Mehridə də möhkəmləndilər [17]. Təbriz istiqamətində Cənubi Azərbaycana irəliləməyin açarı rolunu oynayan Mehrinin mühüm strateji əhəmiyyətini nəzərə alan, sayca 400 nəfərdən bir qədər artıq dəstəsi olan Kotlyarevski Mehriyə doğru hərəkət etdi. İyunun 15-də kəndi hücumla ələ keçirmək ona müyəssər oldu [18]. Arazın o tayına geri çəkilmiş iranlılar iyulun 2-də yenidən Mehriyə yaxınlaşdılar. Mühasirə 5 gün davam etdi. Lakin şah komandanlığı onun alınmazlığına əmin olaraq, geri çəkilmək məcburiyyətində qaldı. İyulun 8-nə keçən gecə Kotlyarevski İran qoşunlarının Mehri yaxınlığında yerləşən düşərgəsinə qəflətən hücum etdi. Süngü döyüşündə İran dəstəsi darmadağın edildi və Qarabağın hüdudlarından kənara atıldı. Rus qoşunlarının bu qələbəsi Zaqafqaziyadakı bütün vəziyyəti dəyişdi. Lakin şah sarayı Pəmbək və Şuragəl istiqamətində yeni hücum hazırlayırdı. İranlılar Abaran yaxınlığında yığışdılar. Türkiyə tərəfindən gözlənilən təhlükə İran qoşunlarının üzərinə hücum etməyə imkan vermirdi. 1810-cu ilin avqustunda İanla Türkiyə arasında Rusiya əleyhinə hərbi ittifaq bağlandı. Lakin bunun da köməyi olmadı. İran qoşunları Ahalkələki yaxınlığında darmadağın edildi. Abbas Mirzə rus dəstələri ilə yeni toqquşmalardan çəkinərək, barışıq haqqında danışıqlara yenidən başlamaq qərarına gəldi.

O, eyni zamanda, fəal surətdə yeni kampaniyaya hazırlaşır, ingilislər isə Rusiya-İran sərhədlərindəki qalaların mökəmləndirilməsi ilə əsaslı surətdə məşğul olurdular. Bu vaxt Malholm təlimatçılar qrupu toplar və digər silahlarla birlikdə Tehrana gəldi. 1811-ci ildə Xarford Ceksonu Tehranda başqa bir səfir – Ouzli əvəz etdi. O özü ilə birlikdə üçillik maliyyə yardımının hamısını, habelə 3 min tüfəng, 20 top, hərbi sursat və ləvazimat gətirmişdi [19].

1812-ci il martın 14-də, yəni Fransa ilə Rusiya arasında əlaqələrin kəsilməsi ərəfəsində və Bonopart əleyhinə İngiltərə-Rusiya ittifaqının yaradıldığı dövrdə Ouzli müqaviləni imzaladı. Bu müqavilə 1809-cu

il müqaviləsini təsdiq edirdi. Bu müqaviləyə görə, İngiltərə İrana lazımi maqdarda qoşun göndərməyi və yaxud da Britaniya səfirinin bilavasitə nəzarəti altında bütün müharibə ərzində ordunun saxlanması üçün hər il 200 min tümən pul ödəməyi öz öhdəsinə götürdü. İngiltərə hökuməti Xəzərdə gəmiqayırmanın təşkili, hərbi anbarların tikintisi üçün mütəxəssislər qrupu ayırmağı, zəruri hallarda hərbi gəmilərini İran körfəzinə göndərməyi boynuna götürdü. Bu gəmilər körfəzin istənilən limanını tutmaq hüququna malik idi.

İran İngiltərədən belə əhəmiyyətli yardım alaraq, barışıqdan imtina etdi və fəal surətdə hücuma hazırlaşmağa başladı. Bu həm də ondan irəli gəlmişdi ki, ingilislər şah sarayını inandırırdılar ki, Rusiyanın vəziyyəti xeyli mürəkkəbdir, qoşunlar Zaqafqaziyadan Qərbə atılıb, Napoleon Rusiya üzərinə hücuma hazırlaşır. İngilislərin məsləhəti ilə Fətəli şah ruhanilərin başçısını çağırdı və

ruslara qarşı cihad – müqəddəs müharibə barəsində fitva verməyi tapşırdı. Şah yeni kampaniyaya din uğrunda aparılan müharibə xarakteri vermək istəyirdi. Təbrizdə üləmalar moizəçilərin böyük qrupunu topladı və onlara təlimat verib Zaqafqaziyanın müxtəlif yerlərinə göndərdilər.

Rus qoşunları Rusiya-Türkiyə müharibəsinin Qafqaz və Balkan cəbhələrində bir sıra qələbələr qazandılar. M.İ.Kutuzovun komandanlığı altında Balkanlardakı qələbə xüsusən təsiredici idi və bu da Türkiyəni sülh istəməyə məcbur etdi. 1812-ci il mayın 16-da Buxarestdə Rusiya və Türkiyə arasında sülh müqaviləsi bağlandı. Bu müqaviləyə görə, Türkiyə zaqafqaziyanın böyük bir hissəsinin Rusiya tərəfindən işğal olunmasını təsdiq etdi.

İndi İran Rusiyanı müəyyən güzəştlərlə belə bir müqavilə bağlamağa sövq etməyə can atırdı. Rusiya da İranla sülh bağlanılmasında maraqlı idi, çünki Qərbdə Fransa ilə münasibətlər kəskinləşirdi.

General Rtişşev 1812-ci il aprelin 20-də Zaqafqaziya diyarını idarə etməyə və buradakı rus qoşunlarına komandanlığa başlayanda İranla sülh bağlamaq göstərişi aldı. İndi Rusiya demarkasiya xəttinin Kür, Araz və Arpaçay çayları boyunca keçməsi barədə əvvəllər irəli sürülən təkliflərdən imtina edir və sərhədi işğaldan sonra necə varsa elə qurmağa razılaşırdı. Lakin danışıqlar uzandı, çünki Abbas Mirzə ərazi güzəştləri tələb edirdi.

Bu zaman beynəlxalq münasibətlərdə baş verdi. 1812-ci ilin yayında Napoleon Fransası ilə Rusiya arasında Fransa əleyhinə yönəlmiş müqavilə imzalanmasına baxmayaraq, Rusiyanın başını Napoleonla müharibəyə qarışmasından istifadə edən İngiltərə İranda fəallaşdı. Abbas Mirzə rus ordusunun əsas qüvvələrinin Napoleona qarşı müharibəyə yönəlməsindən istifadə edərək, öz ordusunu Zaqafqaziya üzərinə yeni hücuma hazırlamağa başladı.

İran ilk növbədə Rusiyanı Qarabağdan sıxışdırıb çıxarmaq istəyirdi. Bunun üçün də, hər şeydən əvvəl, general Kotlyarevskinin dəstəsinin yerləşdiyi möhkəmləndirilmiş Mehrini tutmaqlazım idi. İyulun 12-də İran qoşunları Qarabağa soxuldular, lakin darmadağın edilib Arazın o tayına atıldılar. Avqustda 20 minlik İran qoşunu Lənkəran da daxil olmaqla Talış xanlığı ərazisini ələ keçirdi. İran qoşunlarının digər dəstələri Ərçivanı tutub, bununla da Azərbaycanın içərilərinə doğru yol açdılar. Rusiyanın Zaqafqaziyadakı vəziyyəti yenə də mürəkkəbləşdi. Rus komandanlığı Abbas Mirzənin sülh bağlamaq üçün 40 günlük barışıq barəsində təklifindən istifadə etməyi qərara aldı. Danışıqlar sentyabrın 20-də Aslandüzdə başlandı və oktyabrın 10-dək davam etdi. Tərəflər özlərinin əvvəlki mövqelərindən əl çəkmək istəmədiyinə görə danışıqlar heç bir nəticə vermədi. Şah qoşunları yenidən hərbi əməliyyata başladı.

Abbas Mirzənin komandanlığı altında 30 minlik ordu Aslandüz yaxınlığında Araz sahilində cəmləşdi. O, Kotlyarevskinin komansanlığı altında qarşısınıda dayanmış rus dəstələrinə zərbə endirərək Qarabağa və Yelizavetpola (Gəncəyə), daha sonra isə Gürcüstana irəliləmək niyyətində idi.

Lakin Hüseynqulu xanın qalanı ələ keçirmək üçün göstərdiyi bütün cəhdlər müvəffəqiyyətsizliyə uğradı. İran qoşunları Şamaxıda da güclü müqavimətə rast gəldilər. Mustafa xan Yeni Şamaxını ələ keçirməyə müvəffəq olmuşdu. Bütün əhalinin köməyinə baxmayaraq, o, köhnə Şamaxını ələ keçirə bilmədi. Elə həmin vaxt şəkili Səlim xanın oğlu Hüseyn xan İran sərbazlarından ibarət dəstə ilə Şəki xanlığına soxuldu, Mirhəsən xan Talışa gəldi. O, Xəzər batalyonunu və kazak bölməsini sıxışdıraraq, Salyanı, Qızılağacı ələ keçirməyə və Lənkəranı mühasirəyə almağa müvəffəq oldu. Şimaldan təcrid olunan və ərzaq ehtiyatı tükənən qarnizon rəisi mayor İlyinski iyunun 27-də keçən gecə şəhəri yandırdı və ordunu Xəzər donanmasına mindirərək Sara adasına üzdü [30].

Özlərinin keçmiş mülklərini ələ keçirən xanların başlıca vəzifəsi yerlərdə İran ordusunun qüvvələri ilə birlikdə hərəkət edərək, körpüləri, dəyirmanları dağıdan, ərzaq ehtiyatlarını məhv edən təxribatçı dəstələr təşkil etmək idi.

General Yermolov keçmiş Azərbaycan xanlarına qarşı sərt tədbirlər görmək qərarına gəldi və Dağıstanda yerləşən qoşunu onlara qarşı göndərdi. Bu qoşun Qubaya hərəkət edərək, oradanda iyunun 23-də Köhnə Şamaxıya gəldi. Lakin Qubanın sonuncu hakiminin oğlu Sultan Əhmədin Quba ətrafında peyda olması və həmçinin ərzaq ehtiyatının tükənməsi rus qoşunlarını geri çəkilməyə və Qubaya daxil olmağa məcbur etdi. Şəhər İran ordusu tərəfindən mühasirəyə alındı. Abbas Mirzənin oğlu yerli əhalini soyur və onu özünə qarşı çevirirdi [31]. Cənubi Dağıstan Abbas Mirzə tərəfindən Dağıstanın hakimi təyin edilmiş Surxay xanın əlinə keçdi.

Abbas Mirzə öz ordusu ilə Şuşa qalası ətrafında dayanarkən İran ordusunun digər dəstələri Gəncəni ələ keçirdikdən sonra Tiflisə tərəf hərəkət etdi. Yolda onlar mənşəcə Qarabağ ermənilərdən olan general Mədətovun dəstəsilə ilə rastlaşdılar.

Rus hərbi dəstələri və gürcü süvariləri şahzadə Aleksadrın dəstəsini məğlub etdilər. Mədətovun dəstəsi qazandığı müvəffəqiyyəti inkişaf etdirərək Gəncəyə hərəkət etdi. Lakin Gəncəyə gedən yolun üstündə, Şamxorda İranın böyük hərbi qüvvələri yerləşmişdi. İngilis zabitlərindən təlim almış 2000-lik piyadadan, 8 minlik nizami süvari qoşundan, toplardan və folkanetlərdən ibarət olan bu qüvvə rus dəstəsinə hücum etməyə hazırlaşırdı. Bu dəstə sayı 2900 nəfərə çatan 3 piyada batalyonundan və kazaklardan, gürcülərdən təşkil olunmuş 1360 nəfərlik ibarət idi [32].

1826-cı il sentyabrın 3-də səhər tezdən İran ordusu rus qoşunlarının düşərgəsinə doğru hərəkət etdi. Şamxor yaxınlığında düzənlikdə qanlı döyüş başlandı. Kazaklar və süvarilər döyüşə birinci olaraq girdilər.Gürcü dəstəsi hücum edən rus qoşununun sağ cinahında fəaliyyət göstərirdi. O, İran qoşunlarının bir neçə dəfə üstün qüvvəsi qarşısında sarsıldı. Döyüşün həlledici anında dəstə mövqeyini saxlaya bilməyəcəyindən ehtiyat edən Mədətov zabitlərdən birini göndərərək, ona gürcü könüllülərini köməyə aparmağı əmr etdi. Birləşmiş qüvvələr

İran süvari qoşunu ilə döyüşə atıldı. Sonra isə bütün rus qoşunu hücuma keçdi və düşmən geri çəkilməyə məcbur oldu [33].

İran ordusu Şamxorçay yanında möhkəmlənməyi, sonra isə rus qoşunu üzərinə hücum etməyi qərara aldı. Lakin hücum edən rus qoşununun zərbələri altında şah qoşunları pərən-pərən düşdü. Şah qvardiyası qılıncdan keçirildi, süvari qoşunun təqib etdiyi sağ qalmış sərbazlar qaçmağa başladılar. Bu süvari qoşun "İran ordularına xeyli zərbə vurdu və çoxlu qənimətlər ələ keçirdi" [34].

Şamxor məğlubiyyətindən sonra İran ordusu tələsik Gəncədən geri çəkildi, sentyabrın 4-də general Mədətovun rus dəstəsi Gəncəyə daxil oldu. Sentyabrın 9-da rus korpusunun əsas qüvvələri Gəncəyə gələrək general Mədətovun qrupu ilə birləşdi.

Bu zaman Şamxor məğlubiyyətini eşidən Abbas Mirzə Şuşanın mühasirəsindən əl çəkməyə və oğlunun əzilmiş qoşununun köməyinə hərəkət etməyə məcbur oldu. O, Şuşa ətrafında ərzaq və digər ehtiyatları olan 10 minlik qoşun saxladı. Şuşa qalasının rəisi özünün sərəncamında olan azsaylı qarnizonun qüvvələri ilə düşmən düşərgəsinə hücum etdi və "qələbə çaldı, iranlılar qaçıb dağıldılar və bütün qaliblərin əlinə keçdi" [35].

İran ordusunun yaxınlaşdığını eşidən rus komandanlığı zərbə qrupunu Gəncə yaxınlığında cəmləşirdi. Sentyabrın10-da sonralar Yermolovu əvəz edən Paskeviç də əlavə qoşunla buraya gəldi. Rəqiblər döyüş meydanında üzbəüz dayanmışdılar. Rus qoşunu 8700 adamdan ibarət idi. İran ordusu 15500 nəfərlik nizami piyadadan, 10700 nəfərlik süvaridən ibarət idi.

Abbas Mirzə Pəmbək və Şuragəldəki rus sərhəd məntəqələrinə hücum üçün həm də İrəvan xanının qüvvəllərindən istifadə etməyi qərara almışdı. Pirqulu xanın komandanlığı altında 4 minlik dəstə isə Səlim xanın Şəkidəki hakimiyyətini bərpa etmək, sonra is. Kaxetiyada gürcü şahzadəsi Aleksadrın qoşunları ilə birləşərək Tiflis üzərinə birgə hücum üçün Şəkiyə göndərildi.

Lakin Abbas Mirzənin planları həyata keçmədi. O, ilk zərbəni Ağoğlan adlanan yerin yaxınlığında, Araz sahilində aldı. İrəvanlı Hüseynqulu xanın qoşunları isə Pəmbək və Şuragələ soxuldular. Onları çoxsaylı rus qoşunları qarşıladı. Bu qoşunlar Dilican dərəsində erməni əhalisininköməyi ilə qələbə çaldı. Pirqulu xan da Şəkidə darmadağın edildi, Abbas Mirzə qərara gəldi ki, özü Şəkiyə yerisin və Pirqulu xanın qalan qüvvələri ilə birləşsin. Bu məqsədlə o öz qoşunlarını Arazdakı Aslandüz keçidi qarşısında cəmləşdirdi. Rus dəstələrinin rəisi Kotlyarevski Abbas Mirzənin niyyətini başa düşdü və onun hərəkətlərinin qarşısını almaq qərarına gəldi. Lakin Kotlyarevskinin qüvvələri az idi, ona görə də qətiyyət və qəfillik tələb olunurdu. O, düşmənin arxasına keçmək və gözlənilmədən arxadan zərbə vurmaq məqsədilə daölarla 70 kilometrlik gücə yürüşü etdi. Hücum o qədər gözlənilməz oldu ki, Abbas Mirzənin darmadağın edilmiş qoşununun qalıqları düşərgəni qoyaraq qaşmaqla canlarını qurtardı. Abbas Mirzə əzilmiş hissələrin qalıqlarını toplayaraq, səhərisi gün məğlubiyyətinin əvəzini çıxmağa qərara aldı.

Lakin Kotlyarevski Aslandüz istehkamlarına hücum edib onun qoşunlarını darmadağın etdi.

Pirqulu xan İran qoşunlarının darmadağın edilməsindən xəbər tutaraq, tələsik Şəki xanlığının, ümumiyyətlə, Şimali Azərbaycan ərazisini tərk etdi. Tezliklə Kotlyarevski İran qoşunlarını sıxışdırıb çıxarmaq üçün Lənkəran xanlığına göndərildi. O, 1812-ci il dekabrın 17-də təxminən 2000 nəfərlik dəstə ilə Ağoğlandan yola düşərək Arazı keçdi və dekabrın 21-də Lənkəran xanlığına daxil oldu. Xəzər donanması da buraya göndərilmişdi.

İngilis tərəfindən təlimat almış iranlılar Lənkəran qarnizonunu möhkəmləndirdilər. Lənkəran qarnizonuna 2500 nəfər piyadadan ibatər kömək gəldi [20].

Dekabrın 21-də İran qoşunlarının ön dəstələri Muğanda darmadağın edildi. Rus qoşunlarının yaxınlaşdığından xəbər  tutan İran qoşunları Ərçivandan geri çəkildilər.

Kotlyarevski Ərçivanda kiçik bir qarnizon qoyaraq, Lənkərana tərəf irəlilədi. O, xanlığın ərazisinə daxil oldu.  Lənkəran qalasının təslim olunması barəsində Kotlyarevsikinin dəfələrlə etdiyi təkliflər rədd olundu. Rus qoşunları dekabrın 30-dək davam edən fasiləsiz artilleriya atəşinə tutdu. Dekabrın 31-də Kotyarevsiki qoşunu üç hissəyə bölərək axşam qala divarlarına yaxınlaşdı və 1813-cü il yanvarın 1-də səhərə yaxın hücuma başladı. Amansız və qanlı çarpışma üç saatdan çox çəkmədi və qala alındı.

Lənkəranın alınması Rusiya-İran müharibəsinin taleyini həll etdi. Abbas Mirzənin yanında xidmət edən fransız zabiti rus qoşunlarının Aslandüz və Lənkəranda qazandıqları qələbələrin əhəmiyyəti haqqında yazırdı: "Xüsusən də Aslandüz vuruşması və Lənkəranın alınması onların (iranlıların) demək olar ki, bütün hərbi vasitəsinin axırına çıxdı. İngilis zabiyinin komandanlığı altında oloan artilleriyanın demək olar ki, hamısı, eləcə də hərbi sursat və taxt-tac varisi şahzadənin düşərgəsi rusların əlinə keçdi. Bu düşərgədən nə bircə çadır, nə də bircə dəvə belə xilas ola bildi" [21].

Aslandüz  və Lənkəran qələbələri müharibənin taleyini həll etdi. Artıq aydın oldu ki, demək olar ki, heç bir şey rus qoşunlarının İranın içərilərinə doğru irəliləməsinə mane ola bilməz. İrandakı ingilis səfiri Ouzli Rusiya və İran arasındakı müharibənin dayandırılmasının zəruri olması haqqında Londondan göstəriş aldı. 1813-cü ilin əvvəllərində Rtişşev və sülh haqqında danışıqlara hazır olduğunu bildirmiş şah sarayı arasında yazışma başlandı. Rtişşev yenidən qeyd edirdi ki, tutulmuş bütün torpaqları Rusiya tərkibində saxlamaq şərtilə sülh bağlamağa hazırdır, bu isə şah sarayını razı salmırdı. Şah sarayı 1813-cü il yay kampaniyasının geniş planını işləyib hazırladı, öz casuslarını Azərbaycana və ümumiyyətlə, Zaqafqaziyaya göndərərək, yerli feodalları şah qoşunlarına kömək göstərməyə çağırdı. Lakin müsbət cavab almayaraq, habelə bir sıra parlaq qələbələrdən sonra Rusiyanın Zaqafqaziyada güclənməsindən qorxaraq, sülh

danışıqlarına başlamaq qərarına gəldi. Bu danışıqlar sentyabrın 27-də Qarabağda, Gülüstan kəndində başladı və 1813-cü il oktyabrın 12-də sülh müqaviləsinin imzalanması ilə başa çatdı.

Gülüstan müqaviləsinə görə, İran Rusiyanın qələbəsini, Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Lənkəran xanlıqlarının ərazisinin, habelə Şərqi Gürcüstan və Dağıstanın Rusiyanın ixtiyarına keçməsini tanıdı.

İrəvan və Naxçıvan xanlıqları İranın hakimiyyəti altında qaldı. İran təkcə Rusiyanın Xəzər dənizində hərbi gəmilər saxlamaq barədə hüququnu tanıdı. Aşağı, 5%-lik gömrük tarifi qoyuldu ki, bu da o demək idi ki, rus tacirləri üçün İrana yol açılırdı. İranın daxilində isə rus tacirləri daxili gömrük rüsumlarını ödəməkdən azad olunurdu. Bütün bunlar Rusiya-İran ticarətinin inkişafı üçün əlverişli şərait yaradırdı.

Gülüstan müqaviləsi Şimali Azərbaycan və bütün Zaqafqaziyanın çar Rusiyası tərəfindən istilasını təsdiq edirdi. Bu müqavilənin bağlanılması ilə Şimali Azərbaycanın Rusiya tərəfindən isyilasının birinci mərhələsi başa çatdı.

## § 3. İKİNCİ RUSİYA-İRAN MÜHARİBƏSİ. İSTİLANIN BAŞA ÇATMASI

Rusiyanın 1804-1813-cü illər Rusiya-İran müharibəsində qələbəsi, Cənubi Qafqazın böyük bir hissəsinin Rusiya tərəfindən istilası ingilis müstəmləkəçilərinin qızğın qəzəbinə səbəb oldu. Gülüstan müqaviləsini özü üçün rüsvayçılıq hesab edən və Cənubi Qafqazı ələ keçirmək üçün yeni planlar hazırlayan İran sarayı isə Rusiyanın Cənubi Qafqazı zəbt etməsi ilə barışmaq istəmirdi. İranın bu planları İngiltərənin Cənubi Qafqazdakı planlarına tam uyğun gəlirdi və buna görə ingilis diplomatiyası hər vasitə ilə yeni münaqişələr törədir, İranı Rusiya ilə yeni müharibəyə təhrik edirdi. Bu məqsədlə Tehrana yeni Britaniya səfiri göndərildi. O, şahı inandırmağa çalışırdı ki, İran Cənubi Qafqazı ələ keçirə bilər, ancaq bunun üçün güclü ordu yaratmaq lazımdır. Səfir öz hökumətinin yaxşı təlim görmüş və silahlanmış 50 minlik korpus yaratmaqda İrana kömək göstərməyə hazır olduğunu bildirdi [22].

Müharibənin qurtarmasından cəmi bir il sonra, 1814-cü il noyabrın 25-də Tehranda İngiltərə ilə İran arasında müqavilə bağlandı. Bu müqavilə Rusiyaya qarşı yönəldilmişdi. İran şahı İran sərkərdələri tərəfdən Hindistanın təhlükəsizliyini təmin etməyi öz öhdəsinə götürürdü. Böyük Britaniya isə İrana hər il, 1809-cu il müqaviləsi üzrə müəyyən olunmuş məbləğdə maliyyə yardımı göstərmək, ordu və hərbi gəmilər ayırmaq haqqında öz öhdəliyini bir daha təsdiq etdi.

İngiltərə İrana Gülüstan müqaviləsi ilə müəyyənləşdirilmiş Rusiya-İran sərhədlərinə yenidən baxmağa nail olmaq barədə söz verdi.İngiltərə İrana yeni təlimatçı zabitlər, sursat, Təbrizdə fəalliyyət göstərən silah zavodu üçün avadanlıqlar göndərməyə başladı. Qafqazdakı rus qoşunlarının baş komandanı

A.P.Yermolov 1817-ci ildə nümayəndə heyyətinin başçısı kimi İranda olarkən çoxlu ingilis zabitinin qızğın fəaliyyətinin şahidi olmuşdu.

Vəliəhd, Cənubi Azərbaycanın hakimi Abbas Mirzə Rusiyaya qarşı yeni müharibənin hazırlanmasında yenə də mühüm rol oynayırdı. İngilis diplomatiyası hər vasitə ilə onu İngiltərənin daimi nəzarəti altında saxlamağa çalışırdı. Abbas Mirzə isə, öz növbəsində, özünü ingilis zabitləri və siyasi məsləhətçilərlə əhatə etmişdi və onların köməyi ilə öz ordusunu yenidən qururdu. İranın anbar və cəbbəxanaları ingilis tüfəngləri və döyüş sursatı ilə dolu idi.

İngiltərə ilə yeni müqavilə bağlamaq və ordunu müharibəyə hazırlamaqla yanaşı, İran sarayı eyni zamanda belə hesab edirdi ki, Rusiyadan müəyyən güzəştlərə nail olmaq üçün əlverişli şərait yaranmışdır. 1815-ci ildə Gülüstan müqaviləsinə yenidən baxmağa Rusiyanın razılığını almaq və Cənubi Qafqazın, əsasən Azərbaycan ərazisinin heç olmazsa bir hissəsinin İrana verilməsinə nail olmaq üçün İngilrətə ilə sıx bağlı olan və çoxdan onun təlimatından istifadə edən Mirzə Əbdül Həsən xanın başçılığı ilə Peterburqa nümayəndə heyəti göndərildi. İngiltərə və İranla münasibətləri kəskinləşdirməyi istəməyən çar hökuməti sərhədlərin müəyyənləşdirilməsində bəzi xırda güzəştlərə getməyi qərara aldı və bu məqsədlə 1817-ci ildə A.P.Yermolovun başçılığı ilə İrana nümayəndə heyəti göndərdi. Nümayəndə heyətinə Rusiya ilə İran arasında möhkəm dostluq və qardaşlıq əlaqələri üçün əsas ola biləcək xüsusi müqavilə bağlamağa səlahiyyət verilmişdi [23].

A.P.Yermolovun səfirliyi İranda soyuq qarşılandı. İngilislər tərəfindən qızışdırılan vəliəhd Abbas Mirzə, hətta Yermolovun səfirliyindən ölkədə hərbi əhval-rihiyyəni qızışdırmaq üçün istifadə etməyə çalışdı. Bu zaman o belə bir şayiə yaydı ki, rus səfiri İranı işğal etmək üçün 12 minlik korpus gətirmişdir.

Rus səfirliyini qorxutmaq məqsədilə Abbas Mirzə Təbrizə, onların qarşısına on minlərlə əsgərdən ibarət olan hərbi birləşmə göndərdi. Yermolovun keçdiyi bütün yol boyu onu ingilis zabitləri müşayiət edirdi. Tərəflərin elə ilk görüşündə İrandakı ingilis səfirinin iştirakı ilə şah diplomatiyası Gülüstan müqaviləsinə görə Rusiyaya keçmiş torpaqların İrana verilməsini tələb etdi. Şah sarayının mübahisəli məsələləri danışıqlar yolu ilə həll etmək fikrində olmadığına və İngiltərənin köməyi ilə müharibəyə hazırlaşdığına əmin olan general Yermolov İranı tərk etdi. Rusiyaya qayıtdıqdan sonra Yermolov Peterburqa yazırdı: "İngilislər ehtiyat edirdilər ki, İran bizim hakim təsirimiz altına düşə bilər". O daha sonra qeyd edirdi ki, "vəliəhdin sarayında ingilislərsiz heç bir iş görülmür" [24].

XIX yüzilliyin 20-ci illərində İranın Rusiyaya qarşı hərbi hazırlığı yeni mərhələyə qədəm qoydu və çox fəallaşdı. İngilis diplomatiyası ehtiyat edirdi ki, Rusiya Şərq məsələsini öz xeyrinə həll edə bilər və ona görə də hər vasitə ilə İranı müharibəyə təhrik edirdi. İngilislər çaha pulla, silahla və sursatla göstərdikləri yardımı daha da gücləndirirdilər. İngilis zabitləri sərhəd qalalarını möhkəmləndirirdilər. Bu işdə ingilis texniki qoşunlarının polkovniki Montis

mühüm rol oynayırdı. Tehranda və Təbrizdə tökmə zavodların əsası qoyulmuş, Təbrizdə barıt istehsalı nizama salınmışdı. "...İngilis, fransız zabitləri növbə ilə İran ordusunu təşkil etməyə cəhd edirdilər. Bir sistemi digəri əvəz edir və hər biri növbə ilə pozulurdu".

Şah sarayı ingilislərin köməyi ilə öz ordusunun gücünü artırır, gələcək müharibədə Türkiyədən kömək almağa səy göstərirdi. Bu işdə də İngiltərə İorana kömək etdi. 1823-cü ildə İran və Türkiyə arasında müqavilə bağlandı İngilislərin köməyi ilə Cənubi Qafqazda geniş casusluq və təxribat işləri təşkil edildi. Bundan məqsəd müharibənin başlanması ilə yerlərdə İran tərəfdarlarını gücləndirmək, yerli əhalini Rusiyaya qarşı üsyana qaldırmaq idi.

1825-ci ilin payızında Abbas Mirzənin qoşunu üçün İsfahana 200 tay ingilis silahı gətirildi. 1826-cı ildə İngiltərə Hindistandan daha 15 min tüfəng göndərdi. Bu zaman ingilislər şaha bildirdilər ki, gələcəkdə kömək yalnız o zaman göstəriləcəkdir ki, İran Rusiyaya qarşı müharibəyə başlansın. Elə həmin il İngiltərə artıq Rusiyaya qarşı müharibəyə başlamağı inadla israr edirdi [25].

Rusiya hökuməti İranla toqquşmaqdan qaçmağa çalışırdı. I Nukolay Yermolova yazırdı: "İndi demək olar ki, bütün dağlı xalqlarının bizim əleyhimizə qalxdığı bir vaxtda, Avropadakı işlər, xüsusilə Türkiyə ilə münasibətlər öz əhəmiyyətinə görə böyük diqqət tələb etdiyi bir vaxtda iranlılarla əlaqələri pozmaq haqqında düşünmək ağılsızlıq olardı". Ona görə də Rusiya hökuməti danışıqlar aparmaq və ərazi məsələlərini dinc yolla həll etmək üçün yenidən Tehrana öz nümayəndəsini göndərməyi qərara aldı. 1826-cı ildə general Menşikovun başçılıq etdiyi rus nümayəndə heyəti İrana gəldi. Aldığı təlimata əsasən, Menşikov şah sarayının nəzərinə çatdırmalı idi ki, Rusiyanın məqsədi İranla sülhü, mehriban razılıq və dostluq münasibətlərini qorumaqdan, beləliklə, İranın Rusiyanın işğal məqsədi daşıması və öz ərazisini genişləndirmək istəməsi gümanını aradan qaldırmaqdan ibarət olmalı idi. Menşikov sərhəd haqqında məsələni tənzimləməyə "şahı razı salmaq üçün bütün gücünü sərf etməli idi". Çarın sərəncamı ilə Menşikov Qarabağın və Talış xanlığının bir hissəsini güzəşt etməyə hazır idi [26].

Rusiyanın İranla hərbi münaqişəyə girməmək üçün göstərdiyi bu cəhd müvəffəqiyyətsizliyə uğradı. Menşikovu İranda çox soyuq və davakarcasına qarşıladılar və o çox pis qəbul olundu, hətta Şimali Azərbaycan sərhədlərinə soxulan çoxlu qoşunla rastlaşdı. Şahın yay iqamətgahı Sultaniyyəyə gələn Menşikov başa düşdü ki, müharibə labüddür. O özü və onu müşayiət edənlər çoxlu həqarət və təhqirdən sonra ancaq avqustun sonunda İrandan çıxa bildilər.

İran sarayı özünün Rusiyaya qarşı hazırladığı müharibə planlarında "Qafqaz müsəlman vilayətlərinin", daha doğrusu, Azərbaycan və Dağıstanın "hamılıqla silahlanmasına" böyük ümid bəsləyirdi [27]. Qaçqın

Azərbaycan xanları Abbas Mirzə Qafqaz xalqları arasında milli və dini ədavəti qızışdıracağına da ümid bəsləyirdi.

1826-cı il mayın 26-da İran qoşunu sərhəd dəstələrinə hücum etdi, iki aydan sonra isə, iyulun 19-da Abbas Mirzənin 60 minlik ordusu Şimali Azərbaycana soxukdu.

Abbas Mirzənin planı qəflətən Qarabağa soxulmaq, Şuşanı ələ keçirmək və sonra isə Gəncəni tutmaqla Tiflisə hücum etmək idi. Tiflis üzərinə hücum üç tərəfdən: cənubdan, şərqdən və şimal-şərqdən planlaşdırılmışdı. İrəvan sərdarı Hüseyn xan cənubdan Şuragəl və Pəmbəkəç soxulmalı və burada AbbasMirzənin əsas qüvvələrinin yaxınlaşmasını gözləməli idi. Abbas Mirzənin yanında olan gürcü şahzadəsi Aleksadr isə İran ordusu ilə Kaxetiyaya girməli və burada Car-Bakakən dəstələri ilə birləşib şimal-şərqdən Tiflis üzərinə hərəkət etməli idi. Bütün bu dəstələr Tiflis yaxınlığında birləşməli və eyni vaxtda vurulan zərbə ilə onu ələ keçirməli idilər.

Ordunun bir hissəsi yol üstündəki hər şeyi oddan və qılıncdan keçirərək, Gəncəyə tərəf hərəkət etdi. Digər əsas qüvvələr şuşa üzərinə yeridildi. Şuşaya çəkilən əhali, düşmənin əlinə keçməsin deyə, hər şeyi məhv edirdi.

Sayı 30 min nəfər olan İran ordusuna qarşı 9 rota, 6 yüngül top və çox zəif bir kazak alayı dayanırdı. Bu hissələrdən 3 rota və iki yop mal-qaranın sürülüb aparılmasının qarşısını almaq üçün Qarabağın dağlıq hissəsində yerləşirdi.

Zaqafqaziyadakı rus qoşunlarının sayının azlığı və pərakəndəliyi İran qoşununun Quba, Bakı və b. yerlərə hərəkəti üçün əlverişli şərait yaratdı. İran ordusu ilə İrana qaçmış, hakimiyyətiddiasında olan xanlar – gəncəli Cavad xanın oğlu Uğurlu xan, bakılı Hüseynqulu xan, şirvanlı Mustafa xan vəö başqaları da gəlirdilər. Qarabağda İrana meyil edən bəy qrupları öz fəallığını artırırdılar. İran şahının hakimiyyəti altında olan İraəvan xanı rus ordusunun düşərgə saldığı rayona böyük atlı dəstəsilə hücum etdi. Əhali öz keçmiş xanlarına kömək məqsədilə Rusiya əleyhinə üsyanlar qaldırdı. Belə bir üsyan Gəncədə baş verdi. Bu çıxışın iştirakçıları iyulun 27-də həbsxananı ələ keçirdilər, iyulun 28-ə keçən gecə isə yerli qarnizonu darmadağın etdilər. Zurnabaddan rus qarnizonunun köməyinə gələn rota top atəşi ilə qarşılandı, rota geri çəkildi. Şəhər Abbas Mirzənin qoşunu tərəfindən tutldu [28]. Beləliklə, hərbi əməliyyatlar Şimali Azərbaycanın, demək olar ki, bütün ərazisini və Ermənistanın bir hissəsini əhatə etdi.

İran qoşunlarının və İraəvan xanının bütün Qarabağı, Yelizavetpol dairəsini, Qazax və Şəmşəddili əhatə edən mərkəzi hərbi əməliyyatlar rayonunda vurduğu ilk zərbəni kazaklar, maaflar və bəylərdən təşkil olunmuş dəstələr öz üzərlərinə götürdülər. Mirak, BöyükQarakilsə və Balıqçayı qoruyan bu dəstələri Vətənin taleyindən çox quldurluq və qənimət ələ keçirmək müharibənin başladığı elə birinci gün oraya rus zabitinin başçılığı altında 300 nəfərlik süvari göndərilmişdi. Balıqçayı qoruyan rus qoşunları düşmənin üstün qüvvələrinin təzyiqi altında geri çəkildilər və Dilican dərəsində möhkəmləndilər. Süvari dəstə burada onlarla birləşdi. Birləşmiş qüvvələr geriyə, Balıqçaya hərəkət edərək, onu yenidən ələ keçirdilər.

Elə bu vaxt İran ordusu bütün Qarabağ mahallarını ələ keçirərək, Şuşa qalasını mühasirəyə aldı. Şuşa qarnizonu sayca az idi. O,6 rotadan, daha doğrusu 4 topu olan 1500 adamdan ibarət idi.

Şuşa qalasının mühasirəsi 48 gün davam etdi. Şuşanın mühasirəsində ingilis, fransız və italyan mühəndisləri fəal iştirak edirdilər. Onlar qala divarlarını dağıtmağa çalışır, qala bütrclərinin altını minalayır və s. Lakin onların cəhdi baş tutmadı. Patlayışlardan sonra gecə vaxtı hücuma keçən İran ordusu heç nəyə nail ola bilmədi və rus qoşunları tərəfindən geri oturdular [29].

Abbas Mirzənin təslim olmaq haqqında dəfələrlə verdiyi tələblər Şuşa qarnizonunun rəisi polkovnik Reut tərəfindən rədd edildi.

Şuşa qalasını uzun müddət mühasirədə saxlamaq İran hərbi komandanlığının səhvi idi. İranın hərbi qüvvəsinin böyük hissəsinin diqqətini özünə cəlb edən rus qarnizonu və qalanın erməni əhalisi general Yermolova strateji təşəbbüsü ələ almağa, pərakəndə halda olan qüvvələri zərbə qruplarında cəmləşdirməyə və düş.mən üzərinə hücum etməyə şərait yaratdı və bununla da gələcək hərbi əməliyyatları rus ordusunun xeyrinə həll etdi. Yermolov başa düşürdü ki, azsaylı qüvvələrlə düşmənə bütün hücum xətti boyunca əks zərbə vurmaq mümkün deyil. Bütün qüvvələri Cənubi Qafqazın hərbi-siyasi mərkəzi olan Tiflisin müdafiəsində cəmləşdirməklə, o, düzgün qərar qəbul etdi.

Hüseynqulu xan İran sərbazlarından ibarət böyük bir dəstə ilə azsaylı rus qarnizonunu müdafiə etdiyi Bakı qalasını dənizdən və qurudan mühasirəyə aldı. Bakı körfəzi də dənizdən İranın avarlı donanması tərəfindən mühasirədəydi. Qala möhkəm dayanmışdı və Hüseynqulu xanın bütün hücumları dəf edildi. Rus hərbi komandanlığı Bakıya böyük əhəmiyyət verirdi. Bakı limanı Həştərxanla daimi əlaqə saxlanılmasında, rus ordusunun döyüş sursatı və ərzaqla təmin edilməsində mühüm rol oynayırdı. Buna görə Abbas Mirzə Bakını ələ keçirmək, rus ordusunun təchizatını pozmaq, fəaliyyətdə olan rus ordusunun sol cinahını iflic halına salmaq və onu mərkəzdən təcrid etmək üçün tələsik Hüseynqulu xanın köməyinə yeni qüvvələr göndərdi.

Qüvvələrin belə nisbəti şəraitində rus ordusunun komandanı düşmənlə üzbəüz gəlməyə cəsarət etməyib, Gəncənin dar küçələrində müdafiə olunmağıdaha məqsədəuyğun hesab edirdi. Lakin Mədətov və digər generallar başqa fikirdə idilər. General Paskeviç Yermolovun generallarına şübhəli münasibət bəsləyir və belə güman edirdi ki, onlar onu qəsdən müvəffəqiyyətsizliyə düçar edəcəklər. Bununla belə o öz niyyətindən əl çəkməyə məcbur oldu.

1826-cı il sentyabrın 13-də İran qoşunları hücuma başladılar. Amansız döyüş baş verdi. Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy bu döyüş haqqında yazırdı: "Səhər vaxtı sərdar Paskeviç və general Mədətov qoşunlarına nizam verib Şeyx Nizami türbəsinə yaxınlaşdılar. Qızılbaş qoşunu ilə üz-üzə gəldilər. Burada böyük soltani bir müharibə oldu. Bir saatdan sonra qızılbaşlar başladılar" [36]. Seçmə şah qoşunu darmadağın edildi. Bu döyüşdə İran qoşunundan min nəfər

öldürüldü, min yüz nəfərdən çox əsir alındı, 4 bayraq, bir neçə top və s. ələ keçirildi. Abbas Mirzənin qoşununun qalıqları tələsik Qarabağdan keçərək cənuba, Xudafərin körpüsünə tərəf qaçdı [37].

Sentyabrın 18-də Abbas Mirzə Şuşa altında saxlanılan dəstəni də özü ilə götürərək, Arazın sol sahilinə keçdi. Geri çəkilərkən İran sərbazları əllərinə düşən hər şeyi məhv edir, dinc əhalini soyur, mal-qaranı sürübn aparırdılar.

XIX yüzilliyin birinci qərinəsində Cənubi Qafqazda baş verən hərbi əməliyyatlar içərisində ən böyük döyüşlərdən biri olan Gəncə döyüşünün Rusiya-İran müharibəsinin sonrakı gedişində çar Rusiyası üçün çox mühüm əhəmiyyəti oldu və fatiki olaraq, onun müqaəddəratını həll etdi. Şah qoşunu ilə birlikdə, onun köməyi ilə öz hakimiyyətlərini bərpa etməyə ümid bəsləyən xanlar və feodallar da Azərbaycanı tərk etdilər.

1826-cı ilin dekabrında Abbas Mirzə və şahzadə Aleksadr Azərbaycan və Dağıstan hərbi hissələrinin köməyi ilə Şəki əyaləti ilə həmsərhəd olan Dağıstan əhalisinin üsyanını təşkil etdilər və Hüseyn xanın iddiasında olduğu xan hakimiyyətini bərpa etmək şərtilə Nuxaya böyük dəstə yeritdilər. Dekabrın 9-da Yermolovun başçılığı ilə rus dəstələri Nuxaya gəldi. Müqavimət göstərməyə və müdafiə olunmağa imkanı olmayan Hüseyn xan qaçdı və Araz çayını keçərək İrana getdi [38].

Sentyabrın 24-də Sultan Əhməd özünün 6 minlik dəstəsi ilə Qubadan geri çəkildi, şirvanlı Mustafa xan isə Şamaxıdan qaçdı. Qubada mühasirədən çıxan rus dəstəsi geri çəkilən İran qoşun dəstəsini təqib etdi.Başqa xanlar da qaşdılar. 1827-ci ilin əvvəllərində İran sərbazları bütün Şimali Azərbaycan ərazisini tərk etdilər. Yalnız Talışda hələlik Mirhəsən xan qalırdı.

İran feodalları Arazın o tayına keçdikdən sonra da tez-tez soyğunçu basqınlar təşkil etməklə, Azərbaycan torpaqlarını rahat qoymurdu. Belə ki, 1826-cı il dekabrın sonunda min nəfərlik İran süvari dəstəsi Araz çayını keçərək bir kəndə hücum etdi. “Bu təhlükə haqqında xəbərdar olan əhali döyüşə girdi...Düşmən itki verərək geri çəkildi” [39]. Dağlarda qışın sərt keçməsi ilə əlaqədar qoyun sürüləri Arazın yaxınlığındakı düzənlikdə saxlanılırdı. İran sərbazları soyğunçuluq məqsədilə onların üzərinə hücum etdilərsə də dəf olundular.

Belə hücumların qarşısını almaq məqsədilə dekabrın 26-da Mədətovun başçılığı ilə rus qoşunu Araz çayını keçərək Cənubi Azərbaycan ərazisinə, 1827-ci ilin yanvarında isə Meşkin dairəsinə daxil oldu. Lakin rus komandanlığı hələlik öz qarşısına Cənubi Azərbaycanın içərilərinə doğru irəliləmək vəzifəsini qoymamışdı və Mədətov öz qoşunu ilə geri qayıtdı.

Hərbi əməliyyatlar 1827-ci ilin yazında yenidən başlandı. Apreldə rus qoşunu iki istiqamərdə irəliləməyə başladı. Dəstələrdən biri Mədətovun komandanlığı altında 1827-ci il aprelin 20-də Xudafərin körpüsünü ələ keçirdi, Cənubi Azərbaycana yol açıldı. Lakin rus komandanlığı ilk növbədə İrəvan xanlığını ələ keçirməyi qərara aldı.

Əlahiddə Qafqaz korpusunun əsas qüvvələri İran qoşunları tərəfindən viran edilmiş Eçmiədzinə daxil oldu və aprelin 23-də İrəvan üzərinə hərəkət etdi, səhəri gün isə İrəvan qalasına yaxınlaşaraq, onu mühasirəyə aldı. Mühasirə iki ay davam etdi. Bu müddət ərzində düşmən bir neçə dəfə həmlə etdi, lakin hər dəfə canlı qüvvə və silah itirərək məğlub oldu. Ən böyük həmlə ayın 8-də baş verdi. O, qanlı döyüşlə qurtardı. Düşmən geri çəkilməyə məcbur oldu. Lakin rus qoşunu sayının azlığı ucbatından (8600 adam) İrəvanda müvəffəqiyyət qazana bilmədiyindən, rus komandanlığı qalanın mühasirəsinə vaxt itirməməyi qərara aldı və qoşununu Naxçıvan üzərinə yeritdi. 1827-ci il mayın 26-da 20 kilometlik yürüşdən sonra rus qoşunu Naxçıvanı döyüşsüz ələ keçirdi və Abbasabad qalasına yaxınlaşdı. Bu qalanın böyük strateji əhəmiyyəti var idi. Belə ki, o, şah hakimiyyətinin Naxçıvan xanlığında Araz çayı üzərində keçidi təmin edirdi.

İran komandanlığı ikitərəfli həmlə ilə rus qoşununu əzməyi qərara aldı və Abbas Mirzə 16 minlik qoşunla Abbasabad üzərinə hərəkət etdi. 1827-ci il iyunun 5-də Cavanbulaq deyilən yerdə döyüş baş verdi. Qüvvələr həddindən artıq qeyri-bərabər idi. Lakin rus qoşunu üstün gəldi və İran qoşununun bu məğlubiyyəti iyulun 7-də təslim olan Abbasabad qalasının taleyini həll etmiş oldu [40].

Rus qoşunu İrəvana yaxınlaşana qədəravqustun 17-də Uşağanda və b. yerlərdə iri döyüşlərə girdi. Rus qoşunu avqustun sonlarında İrəvana yaxınlaşdı. O, ilk növbədə xeyli taxıl və digər ərzaq ehtiyatlarının toplandığı Sərdarabad qalasını mühasirəyə aldı. Sentyabrın 20-də Sərdarabad qalası süqut etdi. Sentyabrın 26-da İrəvan qalasının da mühasirəsi başlandı. İrəvan xanlığı əhalisinin əksəriyyəti azərbaycanlılar idi. Paskeviçin yazdığı kimi, “İrəvan vilayətində 10 min müsəlman (azərbaycanlı – Red.) və ancaq 3 min erməni ailəsi var idi” [41]. Bu əhalinin müəyyən hissəsi, başlıca olaraq ermənilər rus qoşununa hər cür yardım göstəriridilər. “Qala divarları üstündə görünən sakinlər papaqlarını yellədərək, işarə edirdilər ki”, onlar təslim olurlar. Onlar çimal darvazalarını açdılar və oktyabrın 1-də rus qoşununu qalaya buraxdılar. Elə həmin gün qanlı döyüşdən sonra rus qoşunu İrəvan qalasını ələ keçirdi.

İrəvan qalasındakı qələbə, onun alınması Rusiya-İran müharibəsinin gedişində rus komandanlığı üçün mühüm əhəmiyyətə malik idi. Bu vaxta qədər general Kristovun komandanlığı altında Cənubi Azərbaycanın sərhədlərində dayanan rus qoşunu ölkənin içərilərinə doğru irəliləməyə başladı. Oktyabrın 2-də Mərənd döyüşsüz ələ keçirildi.

Rus qoşunu Xoy şəhərinə yaxınlaşarkən müqavimətə rast gəlmədi. 1827-ci il oktyabrın 11-də rus qoşunu Təbrizə hərəkət etdi. Eristov yazırdı: “Şəhərə rəhbərlik üçün göndərilmiş şahın kürəkəni və birinci naziri Allahyar xan əhalini və orada olan 2 batalyon sərbazı müdafiə olunmağa razı salmaq üçün hər vasitədən istifadə etdi”. 1827-ci il oktyabrın 13-də rus qoşunu Təbrizə daxil oldu. Çoxlu qənimət – 40 top, mindən çox tüfəng,çoxlu mərmi ələ keçirildi [42].

Şəhəri idarə etmək üçün Təbrizdə müvəqqəti idarə yaradıldı. Müvəqqəti idarəyə yüksək rütbəli rus zabitlərindən başqa, Təbriz ruhanilərinin başçısı Ağa Mirfəttah, Təbrizin keçmiş qubernatoru Fətəli xan və b. daxil oldular. Dekabristlərə yaxın olan İ.Q.Burtsev Təbrizin komendantı təyin edildi. Təbrizin və bütün Azərbaycanın idarə olunmasına dair təlimat A.S.Qriboyedov tərəfindən tərtib edilmişdi. Rus qoşununun Təbrizi ələ keçirməsi ilə Tehrana yol açıldı. Qorxuya düşən şah hökuməti sülh xahiş etdi. Rusların köməyi ilə hakimiyyəti ələ keçirməyə ümid edən Cənubi Azərbaycanın feodal hakimləri Paskeviçə cənuba hərəkət etmək, Tehranı tutmaq xahişi ilə müraciət etdilər [43].

Bununla belə, daxili və beynəlxalq vəziyyət Rusiyanı İranla müharibəni başa çatdırmağa sövq edirdi, çünki dağlıların azadlıq hərəkatı geniş vüsət almışdı və Rusiya Türkiyə ilə müharibənin yaxınlaşdığını hiss edirdi. 1827-ci il noyabrın 7-də danışıqlar başlandı. Rusiya İrəvan və Naxçıvan xanlıqlarının ona güzəştə gedilməsini, İran qoşununun Talış xanlığını tərk etməsini və gümüş pulla 30 milyon manat təzminat verilməsini təklif edirdi. Şah sarayı isə rus qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasını tələb edirdi. Lakin ingilis diplomatiyasının təhriki və Türkiyənin təzyiqi altında danışıqlar kəsildi. 1828-ci il yanvarın 24-də Paskeviç rus qoşununa Ərdəbil və Tehran istiqamətində hərəkət etməyi əmr etdi. Rus qoşunları yanvarın 28-də Urmiyanı, fevralın 8-də isə Ərdəbili tutdular. Rus qoşunun yeni hücumunu İranın hakim dairələri arasında vahimə doğurdu. İranın tamamilə darmadağın ediləcəyindən ehtiyat edən Britaniya səfiri Makdonald döyüşən tərəflər arasında vasitə kimi çıxış etdi. 1828-ci il fevralın 6-da (18-də) Təbriz yaxınlığındakı Türkmənçay kəndində Abbas Mirzə ilə Paskeviç arasında sülh danışıqları yenidən başlandı. Rusiya hökuməti Paskeviçin qarşısında şahdan Cənubi Azərbaycan ərazisinin də Rusiyaya birləşdirilməsini tələb etmək vəzifəsini qoymuşdu. Danışıqların iştirakçısı A.S.Qriboyedov da Cənubi Azərbaycan ərazisinin Rusiyaya birləşdirilməsi fikrinə tərəfdar çıxdı.

Britaniya diplomatiyası danışıqlarda vasitəçiliyə can atırdı. O, İranın tamamilə dağılmasından, bütün Cənubi Azərbaycanın rus qoşunları tərəfindən tutulacağından qorxurdu və bütün gücünü ona sərf edirdi ki, Rusiya özünün Cənubi Azərbaycana olan iddialarından əl çəksin. Türkiyə ilə yaxınlaşmaqda olan müharibə təhlükəsi şəraitində çar hökuməti İranla sülh müqaviləsi bağlamağa tələsdi. Müqavilə 1828-ci il fevralın 10-da (22-də) imzalandı.

Türkmənçay sülh müqaviləsinə görə, İran Şimali Azərbaycana olan öz iddialarından əl çəkir, onun üzərində Rusiya hakimiyyətini tanıyırdı. Cənubi Azərbaycan isə İranın himayəsində qaldı. Azərbaycan iki yerə bölündü.

Cənubi Azərbaycanın Rusiya tərəfindən işğalına İngiltərə qətiyyətlə mane oldu. Burjua zadəgan tarixçisi yazırdı: "İranlıların özlərindən çox ingilislər Abbas Mirzənin bədbəxtliyinə yas tutur, Azərbaycana görə əsirdilər. Çünki Azərbaycanın İrandan alınması ingilislərin qüdrət və nüfuzunu tam sarsılması demək idi" [44]. İngilis hökuməti Cənubi Azərbaycanın mühüm hərbi strateji mövqeyinə böyük

əhəmiyyət verirdi. Buna görə də ingilislər Azərbaycanın Rusiyanın tərkibində qalması ilə onların İrandakı mövqelərinin itiriləcəyindən ehtiyat etdiklərini gizlətmirdilər. İngilis diplomatiyasının bu siyasəti digər səbəblərlə birlikdə Azərbaycanın, onun xalqının iki yerə bölünməsində mühüm rol oynadı. Cənubi Azərbaycan şah istibdadının, İran feodallarının zülmü altına düşdü. Şimali Azərbaycan isə çar Rusiyasının müstəmləkəsinə çevrildi. Həmin vaxtdan Azərbaycanın şimal və cənub hissəsinin tarixi inkişafı müxtəlif yollarla getdi.

Türkmənçay müqaviləsi 16 maddədən ibarət idi. İran Rusiya arasında sərhəd xəttini dördüncü, İranın Qafqaz dağlarına qədər bütün Zaqafqaziya ərazisini, o cümlədən Gülüstan müqaviləsinə əsasən, Rusiyaya keçmiş ərazilərini və "Araz çayının bu və o biri tərəfindəki İrəvan xanlığını və Naxçıvan xanlığını"... Rusiyaya "güzəştə" getdiyini beşinci maddələr müəyyən edirdi.

Səkkizinci maddəyə görə, İran Xəzər dənizinin Rusiyanın daxili dəniz olduğunu tanıyırdı. Xəzər dənizində hərbi donanma saxlamaq hüququ ancaq Rusiyaya verildi. Bu maddə Xəzər dənizində hərbi donanma yaratmağa can atan İngiltərənin mənafeyinə güclü zərbə idi. Onuncu maddə ilə Rusiyaya İranın istədiyi şəhərində özünün diplomatik nümayəndəliyini açmaq və ticarət etmək hüququ verilirdi. Müqaviləyə əsasən, İran Rusiyaya 20 minyon manat məbləğində hərbi təzminat ödəməli idi. Müqavilədə Cənubi Azərbaycandan Cənubi Qafqaz ərazisində köçənlərin hüquqlarını müdafiə edən maddə var idi. Türkmənçay müqaviləsinə əsasən, əhalinin Cənubi Azərbaycandan Cənubi Qafqaz və əksinə hərəkət etməsinə icazə verilirdi. Bunun nəticəsində bir çox erməni ailələri Cənubi Qafqaz, Qarabağ və İrəvan xanlıqlarına köçdülər.

Həm 1804-1813-cü və 1826-1828-ci illər Rusiya-İran müharibələrinin gedişində, həm də sonralar ermənilərin böyük kütlələrinin İran, Türkiyə və Cənubi Azərbaycandan Zaqafqaziyaya, o cümlədən də Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artırdı. Təkcə 1826-1828-ci illər Rus-İran müharibəsinin gedişində İrandan və Azərbaycanın cənub ərazilərindən Zaqafqaziyayan, o cümlədən Qarabağa 18 min erməni ailəsi köçürüldü. Məlumdur ki, 1826-1828-ci illər Rusiya-İran müharibəsinin Rusiya üçün qalibiyyətlə başa çatmasından sonra iki vuruşan dövlət arasında bağlanmış Türkmənçay müqaviləsinə görə, ermənilərin maneəsiz olaraq İran ərazisindən Rusiya ərazisinə köçməsinə icazə verilmişdi. Bu akt ermənilərin İrandan Zaqafqaziyaya, o cümlədən Qarabağa kütləvi halda köçməsinə imkan verirdi. İki il ərzində, 1828-ci ildən 1830-cu ilədək, Zaqafqaziyaya 40 mindən çoz İran və 84000 Türkiyə ermənisi köçürüldü və onlar erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi, onlara 200000 desyatindən çox xəzinə torpağı ayrıldı.

Yararlı torpaqların köçkünlərə verilməsi yerli azərbaycanlı kəndliləri narahat etməyə bilməzdi. Onlar öz torpaqlarının bir hissəsindən məhrum olurdular. Bu hadisələrin şahidi olan rus səfiri A.S.Qriboyedov yazırdı: "Biz onunla, həmçinin müsəlmanları onların uzunmüddətli olmayacaq indiki ağırlaşmalarla

barışdırmaq və onlardan ermənilərin ilk vaxtlarda, köçürüldükləri torpaqları həmişəlik tutacaqları barədə qorxunu çıxarmaq üçün müsəlmanlara olunacaq təlqin barədə çox mülahizələr etdik. Bu mənada mənim yanımda olmuş xanla danışılmışdı".

1832-ci ildə Qarabağ əhalisinin 91%-ni azərbaycanlılar, 8,4%-ni isə ermənilər təşkil edirdilər. 1832-ci il kameral təsvirlərinin materiallarına görə, Qarabağ əyalətinin Ərazisindəki 20546 ailədən 13965-i azərbaycanlılar, 6391-i isə ermənilər idi. Beləliklə, çarizmin XIX əsrin 30-cu illərinin əvvəllərindəki köçürmə siyasəti nəticəsində azərbaycanlıların faizi 64,8-ə endi, ermənilərin faizi isə 34,8-ə qalxdı.

Türkmənçayda rus tacirlərinə bir sıra üstünlük verən və xüsusi "akt" adlandırılan ticarət sazişi bağlandı.

Türkmənçay sülh müqaviləsi XIX yüzilliyin birinci qərinəsinin Rusiya-İran müharibəsinə son qoydu və İranın Cənubi Qafqaza və Dağıstana olan iddialarından imtina etdiyini təsbit etdi. O, Rusiyanın Qafqazdakı strateji mövqeyini möhkəmləndirdi, onun qonçu ölkələrdə siyasi və iqtisadi təsirinin daha da genişlənməsinə zəmin yaratdı. Cənubi Azərbaycan İranın hakimiyyəti altında qaldı. Beləliklə, Azərbaycanın iki hissəsinin inkişafı müxtəlif yollarla getdi.

İkinci Rusiya-İran müharibəsinin başa çatdığı dövrdə Rusiya ilə Türkiyə arasında münasibətlər kəskin şəkildə pisləşdi. Mülkədarların mənafeyi keşiyində duran çarizm öz müstəmləkə mülklərini genişləndirməyə, Xəzər və Qara dənizlərini ələ keçirməyə can atırdı. İran üzərində qələbədən sonra Xəzər, demək olar ki, Rusiyanın daxili dənizi idi. İndi çar Rusiyası qarşısına Qara dənizi, ilk növbədə isə Qara dənizdə hökmranlığın açarı hesab edilən Bosfor və Dardanel boğazlarını ələ keçirmək vəzifəsini qoymuşdu. Qara dəniz Rusiya üçün nəzərlərini boğazlara və Qafqaza yönəltmiş İngiltərə və Fransadan özünün cənub sərhədlərini qorumaq baxımından da mühüm əhəmiyyət kəsb edirdi.

Çar hökuməti Türkiyə ilə müharibəni əvvəlcədən görür və ona hazırlaşırdı. "Hökmdarın beynində türkiyə ilə müharibə qərara alınmışdı" [45]. I Aleksadr 1825-ci il noyabrın əvvəllərində Türkiyə ilə müharibəyə hazırlığı yoxlamaq üçün şəxsən cənnuba gəldi, lakin ölüm "onun işini" dayandırdı. I Nikolayın da xarici siyasəti Türkiyə ilə müharibəyə başlamaq yolu ilə "Şərq məsələsi"nin həll edilməsinə yönəldilmişdi [46].

İngiltərə və Fransanın köməyindən istifadə edən Türkiyə də müharibəyə hazırlaşırdılar. Sultan II Mahmud hələ 1826-cı ildə hərbi islahat keçirmiş, özünün keçmiş qüdrətini itirən yeniçəri qoşunu ləğv edilmişdi. İngilis və Fransız təlimatçılarının yardımı ilə nizami yaradılmışdı.

1828-ci ilin aprelində Rusiya Türkiyəyə müharibə elan etdi. Rus komandanlığı Soğanlıq sıra dağları və Ermənistan yaylasından sürətli yürüşlə Anadolu içərilərinə daxil olmağı, Ahalkələki, Ahalsıx, Qars, Qanlı çay, Milli düz hüdudlarında tür qoşununun əsas qüvvələrini darmadağın etməyi, Anadolunun

paytaxtı Ərzurumu ələ keçirməyi, daha sonra Trapezund üzərinə hücum etməyi və Osmanlı imperiyasının paytaxtı İstanbul üçün təhlükə yaratmağı öz qarşısına başlıca vəzifə kimi qoymuşdu.

Rusiya-Türkiyə müharibəsində Qafqaz hərbi əməliyyatlarırus qoşunlarının Qarsistiqamətində hücumu ilə başlandı.1828-ci il iyunun 19-da rus qoşunu Qars qalasına yaxınlaşdı. Elə həmin gün ilk döyüş baş verdi. 1828-ci il iyunun 19-da Peterburqa göndərilən raportda deyilirdi: "Düşmən süvarilərinin şücaətinə baxmayaraq, bizim qeyri-nizami süvarilər döyüşün bu növündə onlardan heç nə ilə geri qalmırdı" [47]. İyunun 22-də rus qoşunları Qars qalasını hücumlaələ keçirdilər.

Rus komandanlığı Cənubi Qafqazda könüllü piayda və süvari alayları təşkil etdi. Bu barədə olan əmrdə yazılırdı: "... Hər birinin tərkibində 600 atlı olan 4 süvari – müsəlman alayı toplamaq, Naxçıvanda isə bundan əlavə vilayətdə yaşayan ən döyüşkən tatar (azərbaycanlı – Red.) tayfalarından biri olan Kəngərli süvarisi təşkil etmək" [48].

Qarsı tutduqdan sonra ruslar Ahalsıx üzərinə hərəkət etdilər. Avqustun 9-da rus qoşunları Ahalsıxı ələ keçirdilər. Hələ bundan əvvəl rus qoşunları Ahalkələkini və Xertsisi tutmuşdu. Avqustun sonlarına qədər rus qoşunu Bəyazid qalası, Torpaqqala və Diadil sədləri ilə birlikdə bütün Bəyazid paşalığını ələ keçirdi. 1828-ci il hərbi kompaniyasının sonuna yaxın rus qoşunu Ərzurumun 90 kilometrliyində yerləşirdi. Qara dəniz sahillərində türklər Anapa və Potidən sıxışdırılıb çıxarıldı.

Yazda 1829-cu ilin hərbi əməliyyatlarına hazırlıq başlandı. Bu vaxt rus hakim dairələri gələcək döyüşlərdə iştirak etməli olan öz alayları üçün Azərbaycandan yeni qüvvə topladılar.

Yaz hərbi əməliyyatlarına Türkiyə də hazırlaşırdılar. O, ingilis və fransızların köməyi ilə öz ordusunu nizama salmaqla kifayətlənməyib, keçmiş Azərbaycan və Dağıstan xanlıqlarının yuxarı dairələri ilə əlaqəyə girmək qərarına gəldi və bu məqsədlə öz emissarlarını göndərdi. Onlar özlərinin şəxsi mənafeləri və keçmiş hakimiyyətlıərinin bərpa edilməsi naminə türklərə xidmət etməyə hazır olan bəzi keçmiş xanlarla da gizli əlaqəyə girdilər. 1829-cu il hərbi əməliyyatlarında Paskeviçin ordusunun başlıca vəzifəsi Anadolunun içərilərinə doğru hərəkət etmək və Ərzurumu tutmaq idi. Hərbi əməliyyatlar 1829-cu il mayın 1-də Ahalsıx altında Sursqab adlı möhkəmləndirilmiş kəndin yaxınlığında qanlı döyüşlərlə başladı.Bu döyüşdə5 minlik türk dəstəsi məğlub edildi. Bir aydan sonra Diqur rayonunda Posxovçay üzərində, 1829-cu il iyununda isə Soğanlıq rayonunda döyüş baş verdi [49].

1829-cu il hərbi əməliyyatların gedişində rus qoşunu Ərzurumu ələ keçirdi və Trapezund üzərinə hücuma hazırlaşmağa başladı. Balkan hərbi əməliyyat meydanında isə rus qoşunu Balkan dağlarından keçərək Ədirnəni ələ keçirdi və İstanbula yaxınlaşdı. Sultan sülh xahiş etməyə məcbur oldu. 1829-cu il

sentyabrın 2-də (14-də) Ədirnədə bağlanan sülh müqaviləsinə görə, Türkiyə şimalda Anpadan başlayaraq, cənubda Müqəddəs Nikolay limanına qədər Qara dənizin bütün Şərq sahillərini və Ahalsıx paşalığının ərazisinin bir hissəsini Rusiyaya güzəştə getdi. Bosfor və Dardanel boğazları ru və Qərbi Avropa ticarət gəmiləri üçün açıq saxlanılırdı. Moldoviya və Valaxiya rus qoşunu tərəfindən müvəqqəti olaraq işğal edildi və s. [50].

Ədirnə sülhü Çimali Azərbaycanın, bütün Cənubi Qafqazın Rusiya tərəfindən zəbt olunmasını təsbit etdi, Rusiyanın Orta Şərqdə və Balkanlarda mövqelərini möhkəmləndirdi, Qara dənizdə ticarətin genişlənməsi üçün şərait yarandı.

Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən zəbt edilməsi ilə Azərbaycan xalqı öz dövlət müstəqilliyinə nail ola bilmədi. Azərbaycan xalqını müharibə nəticəsində zorla iki hissəyə bölmək kimi tarixi ədalətsizlik baş verdi. Bu tarixi ədalətsizlik nəticəsində vahid xalq bölündü və onların hər biri bir-birindən fərqli sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna düşməyə məcbur oldu. İşğal nəticəsində Azərbaycan çar Rusiyası zadəganlarının və sənaye sahiblərinin xammal bazasına, tacirlərinin isə satış bazarına çevrildi. Azərbaycan iqtisadiyyatı müstəmləkə iqtisadiyyatı xarakteri aldı. Bu isə o demək idi ki, yalnız Rusiya sənayesi üçün xammal istehsal etməli, sənayesi də buna xidmət etməli idi. Nəhayət, ən başlıcası budur ki, Şimali Azərbaycan Rusiyanın ucqar müstəmləkəsinə çevrildi.

Azərbaycanın çar Rusiyası tərəfindən zəbt edilməsi ilə Şimali Azərbaycan Rusiyasının tərkibində kapitalizmin inkişaf yoluna düşdü. Əlbəttə, Bakı kimi neft sərvəti mərkəzinin olması Azərbaycanda kapitalist münasibətlərinin XIX yüzillikdə inkişaf etməsinin əsas amilləörindən biri idi. Rusiyanın tərkibində Azərbaycan xalqının dünya mədəniyyəti ilə qovuşması prosesi də sürətləndi.

Azərbaycanın çar Rusiyası tərəfindən istilasının nə kimi acı nəticələrə gətirməsi Gəncədən millət vəkili İsmayıl xan Ziyadxanovun I Dövlət dumasında 1906-cı ilin iyununda söylədiyi nitqində öz kəskin ifadəsini tapmışdır: “Zaqafqaziya torpaqları yüz il bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu yüz il içində biz müsəlmanlar, həmişə əsir müamiləsi görmüş və bu sifətlə hər təqibata məruz qalaraq, hər cür haqq və hüquqdan faydalanmaz kölə vəziyyətinə endirilmişik. Sözün həqiqi mənasında yüz il içində biz gözləri hər şeyi görən şiddətli və əleyhimizə mənfi düzəltmələri altında yaşadılmışıq. Siyasi, sosial və iqtisadi sahənin hansı sahəsi ələ alınarsa alınsın, hər birində bizim haqqımızda haqsızlığın hökm sürdüyünü görmüş olacaqsınız. Ölkəmiz istila edilər-edilməz, dərhal milli varlığımıza təcavüzə qalxışıldı. Dinimizə və müqəddəslərimizə müdaxilə edildi”.

Ölkə Rusiya tərəfindən işğal ediləndən sonra elə ilk illərdə Azərbaycan xanlıqlarında mövcud olan müxtəlif pul sistemləri vahid rus pul sistemi ilə əvəz edildi. Bu tədbir ölkənin ayrı-ayrı rayonlar arasında ticarətin XIX yüzilliyin birinci

yarısında əmtəə-pul münasibətlərinin inkişafında mühüm rol oynadı. Azərbaycan iqtisadiyyatı müstəmləkə xarakteri alsa da, o, metropoliyanın xammal bazasına çevrilsə də, Rusiya imperiyasının ayrılmaz hissəsi kimi Azərbaycan Rusiyanın iqtisadi inkişaf axınına cəlb olundu, onun bazarına qoşuldu və bu bazar vasitəsilə dünya əmtəə dövriyyəsində iştirak etməyə başladı. Azərbaycandakı çar ekspansiyası Ruasiya hərbi feodal dövlətinin zəif inkişaf etmiş ölkələrin işğalına və bu ölkələrdə yaşayan xalqların əsarət altına alınmasına yönəldilmiş bir siyasəti idi. Çarizm hər vasitə ilə ucqarlarda, o cümlədən Azərbaycanda feodal münasibətlərini, geriliyi qoruyub saxlamağa, rus kapitalı tərəfindən ölkənin müstəmləkə qaydası ilə qarət olunmasına, kapitalizmə qədərki münasibətlərin saxlanılmasına çalışırdı. Ucqarların xalq kütlələri ikiqat zülmə - çarizmin və yerli istismarçıların zülmünə məruz qalırdılar. Yerli mülkədarların və burjuaziyanın bəzilərinin simasıında özünə müttəfiq tapan və onlara arxalanan çarizm Azərbaycanda müstəmləkə siyasəti yeridirdi.

## II FƏSİL

## XIX ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN İQTİSADİYYATI VƏ SOSİAL MÜNASİBƏTLƏR

### § 1. ÇARİZMİN İQTİSADİ SİYASƏTİ

Zaqafqaziyanin işğalının başa çatması yaxınlaşdıqca, Rusiyanın siyasi və ictimai dairələrində imperiyanın yeni torpaqlarındakı sərvətlərin mənimsənilməsi, istifadəsi və istismarı ideyası özünü büruzə verirdi.

20-ci illərin əvvəllərinə yaxın çar hökuməti hələ bu məsələdə müəyyənləşmmiş mövqeyə malik deyildi. Tranzit Avropa-Asiya ticarətində hələlik Zaqafqaziya çarizmin Yaxın və Orta Şərqdə iqtisadi mövqelərini möhkəmləndirməkdə fəal vasitəçi ötürmə məntəqəsi kimi əhəmiyyət verilirdi. Çarizmin mövqeyinin bu cəhətləri öz əksini Zaqafqaziyada 1821-ci ilin güzəştli tarifi deyilən tarifdə tapdı. Bu tarifə görə, Qərbi Avropa malları üçün də, Gülüstan sülhündə Rusiya və İran malları üçün nəzərdə tutulmuş rüsum (5%) qoyulurdu. Xarici işlər naziri K.V.Nesselrode tarifin təyin edilməsinə ancaq Gülüstan, İmeritiya və digər Zaqafqaziya vilayətlərində ticarətin canlandırılması və bununla da ÖnAsiyanın Qars və Ərzurum vasitəsilə aparılan ticarətə cəlb olunması vasitəsi kimi baxırdı. Lakin tarif Mərkəzi Rusiyanın ticarət və yetişməkdə olan sənaye burjuaziyasının ciddi narazılığına səbəb oldu. Belə ki, 1828-ci ilədək Zaqafqaziya tacirlərinin Avropadakı (Leyptsiq yarmarkasında) əməliyyatları, demək olar ki, dörd dəfə artdığı bir zamanda, Nijni-Novqorod yarmarkasının dövriyyəsi müvafiq surətdə azalmışdı. Halbuki Rusiyanın işgüzar dairələrində hökumət xəttindən radikal surətdə fərqlənən baxışlar irəli sürülürdü. Görkəmli publisist və ictimai xadim, çara "Qafqaz sakinlərini silah gücünə fəth etməyə nisbətən, onları özümüzə bağlamağın Rusiya üçün daha əlverişli olan üsulları haqqında fikir" adlı qeydlər təqdim etmiş admiral N.S.Mordvinov 1816-cı ildə diyar əhalisinin Rusiyanın iqtisadi həyat orbitinə cəlb etmək yolu ilə siyasətdə ağırlıq mərkəzini bu diyarın iqtisadi istilasına keirmək təklifi ilə çıxış etdi [1].

Səlahiyyətli səfir sifəti ilə İrana göndərilməsini gözləyən A.S.Qriboyedov və Tiflis mülki qubernatoru P.D.Zavileyski 1828-ci ilin sentyabrında 100 mln. manatlıq kapitalı olacaq "Rusiya Zaqafqaziya ticarət kompaniyası"nın layihəsini İ.F.Paskeviçə təqdim etdilər. Muxtar inzibati və diplomatik statusa malik olan möhtəşəm bir müəssənin yaradılması düşünülmüşdü. Onun fəaliyyətində ticarət böyük olsa da, heç də başlıca yer tutumurdu. Müəlliflərin fikrincə, 1821-ci ilin güzəştli tarifi diyarda ticarətin canlanması üçün şərait yaradır, bunun da hesabına yerli tacirlər varlanırdılar. Lakin onlar tarifin təsirini ümumiyyətlə, mənfi qiymətləndirirdilər. Çünki o, "daxili (Zaqafqaziya – müəl.) sənayenin

həvəsləndirilməsi amili deyildi: nə bir fabrik meydana çıxır, nə əkinçilik, nə də bağçılıq çiçəklənirdi...”. Daha sonra müəlliflər qeyd edirdilər: “Tiflis bazarı cürbəcür “gətirmə malları dolu olduğu halda, müşahidəçinin gözləri onlara dəyişilə biləcək yerli məlumat və ya məhsulları nahaq yerə axtaracaqdır” [2]. Qriboyedov-Zavilevski layihəsinin ideyasının mahiyyəti bundan ibarət idi. Zaqafqaziya ticarət kompaniyasının layihəsinə görə, emal tipli fabrik və zavodlar (şəkər, mahud, göndəri, şüşə) şəbəkəsi yaradılmalı və paralel olaraq üzümçülük, şərabçılıq, ipəkçilik, tütünçülük və s. inkişaf etdirməli idi. Bununla yanaşı qeyd olunurdu ki, Rusiyanın dövlət xəzinəsi təkcə pambıq və xam ipəyin idxalına hər il 80 mln. man. xərcləyir. Müəssisələr tikilməsinin sosial cəhəti daha vacib idi. Hökumətə təklif olunurdu ki, inhisarçı ticarət dənizlərdə sərbəst üzmək hüququ ilə yanaşı, kompaniyaya rəmzi icarə haqqı müqabilində 120 min desyatin torpaq da verilsin. İşçi qüvvəsi kimi kompaniyanın təsərrüfatlarında əvvəlcədən təhkimçilikdən azad edilmiş rus kəndlilərindən də haqqı ödənilməklə 50 il kompaniya üçün işləməli olmaları şərtilə istifadə etmək nəzərdə tutulurdu. Beləliklə, Qriboyedov və Zavileyskinin layihəsi “obyektiv kapitalist xarakterinə” malik idi və həm Nikolay rejiminin təhkimçilik platformasına, həm də rus burjuaziyasının mənafelərinə uyğun gəlmirdi.

İctimai fikir nümayəndələri bu baxışları rəsmi dairələrdə düşmənçiliklə qarşılandı. Mürtəce general M.S.Jukovski, baş komandan vəzifəsində Paskeviçin sələfi olan baron Q.V.Rozen və başqaları bildirdilər ki, əgər bu layihə həyata keçirilsə, “bura (Zaqafqaziya – Red.) Amerika Birləşmiş Ştatları olardı” [3].

20-ci illərin sonu 30-cu illərin əvvəlləri – Rusiyanın Zaqafqaziyada bərqərar olduğu dövr rus toxuculuq sənayesinin güclü inkişafı ilə eyni vaxta düşürdü. Rusiya-İran və Rusiya-Türkiyə müharibələrinin Rusiya üçün uğurla başa çatması rus tacirləri və sahibkarları içərisində ticarət-iqtisadi müdaxilə obyekti kimi Zaqafqaziyaya güclü maraq oyadırdı. Belə əhval-ruhiyyə çarizmə yaxın dairələrdə də mövcud idi. Knyaz A.B.Qolitsin 1829-cu ildə ipəkçilik sahəsində səhmdar cəmiyyəti təsis etmək layihəsi ilə çıxış etdi. Layihədə göstərilirdi ki, “bu qədər parlaq” şəkildə qurtarmış müharibələrdən sonra “sakitliyin yaradılması” burada (Zaqafqaziyada – müəl.) kommersiya tədbirlərinin etibarlığını və böyük sərmayelərinin faydalı şəkildə sərf edilməsini təmin edir” [4].

30-cu illərin başlanğıcı ərəfəsində çar hökumətində belə fikir möhkəmləndi ki, o, Zaqafqaziyaya, “Rusiyadan manufaktura məlumatları almaqla bizim fabriklər üçün kobud (xam – Red.) material verəcək müstəmləkə kimi” baxmalıdır [5]. Çarizm Zaqafqaziya ölkələrini müstəmləkəyə - öz sənayesinin sənaye-texniki xammal təchizatçısına və satış bazarına çevirmək siyasətini elan etdi. Bu siyasət sonralar Azərbaycandakı iqtisadi dəyişikliklərin istiqamətini müəyyənləşdirdi, emal tipli manufaktura, fabrik və zavodların qətiyyən meydana çıxmadığı bir zamanda başlıca olaraq xammal istehsalı ilə bağlı olan sahələr (hasilat sənayesi) inkişaf edirdi. Xammalın ilkin emalı üzrə sayca az olan müəssisələr də (ipəkaçma və ipəksarıma müəssisələri, pambıqtəmizləmə zavodlar

və i.a.) istisna təşkil edirdi. Ticarət siyasəti də bunlara müvafiq surətdə - yenidən nəzərdən keçirildi. Belə ki, maliyyə nazirinin fikrincə, Leyptsiq tranzitinin əlverişliyini qoruyub saxlamaqla öz tranzitimizin və fabriklərimizin müdafiə olunması bir yerə sığışdırıla bilməzdi" [6].

Maliyyə idarəsinin Rusiya pambıq-parça sənayesinin inkişaf perspektivləri və bununla əlaqədar olaraq onun məhsullarının Avropa bazarında faydalı satışının təmin oluna bilməyəcəyini nəzərə alan platforması bir növ ikili məqsəd daşıyırdı: Zaqafqaziyanı Rusiya sənayesinin daxili bazarına çevirmək və Öz Asiyada rus ticarətini inkişaf etdirmək. Bu isə Rusiya ilə Avropa arasındakı "bütün Asiya bazarlarında" rus manufaktura məmulatlarına verilmiş üstünlük kimi qiymətləndirilirdi [7]. Buna görə də 1831-ci ilin iyununda Zaqafqaziya Avropa malları üçün bağlanıldı. 1831-ci ilin qadağan tarifi Rusiya sənayesini (başlıca olaraq toxuculuq sənayesini) beynəlxalq rəqabətdən qoruyaraq, onu başqa bölgələrdən idxal üçün əslində bağlı olan xüsusi satış bazarı ilə təmin edirdi.

Çar hökuməti öz iqtisadi siyasətini həyata keçirməklə ilk növbədə Azərbaycanın təbii zənginliklərinə maraq göstərirdi. O, faydalı qazıntılarla zəngin olan rayonların öyrənilməsi üçün mütəxəsəsislər göndərirdi. Bir çox mütəxəssislər Qərbi Azərbaycanın çay yataqlarında qızılın olub-olmadığını öyrənməklə məşğul olurdular. Dağ-mədən mütəxəssiləri, Rusiya Elmlər Akademiyasının fəxri üzvü qraf A.A.Musin-Puşkin, dağ-mədən mühəndisləri Eyxfeld, Korniksi, Voskoboynikov və b. XIX əsrin birinci yarısı ərzində Ağstafa çayından sağ tərəfdə, Porxalı kəndinin yaxınlığında yerləşən Qazax yatağını, Gürcüstan sərhədlərindən Gəncəyədək, Gəncəçay da daxil olmaqla, Kiçik Qafqazın şimal ətəkləri boyunca axan bütün çayları tədqiq edirdilər. 40-cı illərdən etibarən onlar artıq öz tədqiqatlarını qızıl yataqlarının olması baxımından daha çox ümid verən Tərtər çayı da daxil olmaqla Qarabağadək genişləndirdilər [8]. Lakin qızıl yataqlarının baha başa gələn axtarışları o dövrdə gözlənilən nəticəni vermədi və onların tədqiqatı dayandırıldı.

Car-Balakən dairəsində qalay yataqlarının kəşfiyyatı aparıldı, burada, dağların birində qalay filizi tapıldı. 1824-cü ildə Qazax distansiyasındakı Qarabayat dağında, Şuşa şəhərinin ətrafında da kükürd kolçedanı aşkara çıxarıldı.

Çar hökuməti Azərbaycanda ipəkçiliyin inkişafının bu sahəsinin yüksəlişi üçün bir sıra tədbirlər gördü. General Yermolov hələ 1825-ci ildə Şamaxıdakı tut bağlarının genişləndirilməsi barədə sərəncam vermişdi. 1829-cu ildə isə o öz məktubunda maliyə nazirinə yazırdı ki, "mən öz tərəfimdən ən yaxşı ipəyin istehsal olunduğu Şirvan əyalətini himayə edirəm, mənim sərəncamım üzrə hər ilm 1000000 və daha çox tut ağacı əkilir" [9].

Bu məktub hökumətin Azərbaycanda ipəkçiliyin inkişafında, Rusiyanın ipək sənayesi üçün xammal bazasının yaradılmasında nə qədər maraqlı olduğunu sübut edir. Peterburqda çıxan "Kommerçeskaya qazeta" yazırdı: "Şəki əyaləti

başqa əyalətlərə nisbətən daha çox miqdarda və daha yaxşı keyfiyyətli ipək istehsal edir. 1827-ci ildə bu əyalətdən satış üçün 8200 pud ipək aparılmışdır" [10].

30-50-ci illərdə Rusiya ipək sənayesinin tələbatı daha da artdı, bu da toxuculuq sənayesini xammalla təmin etmək üçün hökumət tərəfindən bir sıra tədbirlərin həyata keçirilməsinə gətirib çıxardı. 1836-cı il üçün Peterburqda "Zaqafqaziya diyarında ipəkçiliyin inkişaf və ticarəti həvəsləndirmək və yaxşılaşdırmaq üçün" kompaniya təşkil edirdi. Kompaniyaya qraf A.X.Benkendorf , knyaz Dolqorukov və b. kimi ali dövlət məmurları başçılıq edirdilər. Bu faktın özü ucqarların, o cümlədən də Azərbaycanın ipək sərvətlərinin "mənimsənilməsinə" hökumətin necə böyük di9qqət yetirdiyini aydın göstərir. Xəzinənin Şəki əyalətindəki bütün tut bağları pulsuz olaraq beşillik müddətinə kompaniyaya verildi. Bu bağlara təhkim edilmiş, kompaniya tərəfindən amansız istismara məruz qalan rəncbərlərdə onun sərəncamına verildi. Kompaniya yerli sakinlərdən barama və xam ipəyi maliyyə nazirliyi tərəfindən qoyulmuş qiymətlər üzrə almaq hüququna malik idi.

Azərbaycan Rusiya ipək sənayesinin ən mühüm xammal bazasına çevrildi. 1838-ci ildə Moskva və onun ətrafındakı emal olunmuş 33180 pud xam ipəyin 5/8 hissəsi Zaqafqaziya, başlıca olaraq Azərbaycan ipəyinin və ancaq 3/8 hissəsi xaricdən gətirilmiş xammalın payına düşürdü [11].

30-cu və xüsusən də 40-cı illərdə Azərbaycan kənd təsərrüfatında indiqo, yeni tütün, pambıq və düyü növləri kimi bitkilərin əkilməsi, zəfəranın keyfiyyətinin yaxşılaşdırılması və s. üçün cəhdlər göstərilirdi. 1833-cü ildə "Zaqafqaziyada kənd təsərrüfatı, manufaktura sənayesi və ticarəti həvəsləndirməyə cəmiyyəti"nin layihəsitəsdiq təsdiq edildi.

Ticarət sahəsinin xüsusən çoxlu cəmiyyətlər yaradıldı. 1838-ci ildə 10 il ərzində rus malları ticarəti ilə məşğul olan "Zaqafqaziya ticarət işi" adlı cəmiyyət fəaliyyətə başladı. Bu cəmiyyət "Zaqafqaziya ticarət kompaniyası"nın yenidən işlənmiş layihəsi əsasında yaradılmışdı. Müəssisələrin təsisçisi və direktoru olan A.D.Zavileyski A.S.Qriboyedovun ölümündən sonra fabrik və zavodlar yaratmaq ideyasından tamamilə əl çəkməli oldu. Meydana çıxmış ticarət firmaları və cəmiyyətlərinin əksəriyyətinin ömrü uzun olmadı.

XIX yüzilliyin birinci yarısı ərzində Azərbaycanın iqtisadi cəhətdən mənimsənilməsi yolunda ancaq ilk addımlar atılırdı. Bu istiqamətdəki cəhdlərin məhdud, çox vaxt isə yarımçıq xarakteri də Rusiyada dağılmaqda olan feodal-təhkimçilik quruluşu şəraitində inkişaf edən Rusiya sənaye kapitalizminin bünövrəsinin zəifliyi və məhdudluğu ilə izah olunurdu.

Çar hökumətinin məqsəd və vəzifələri Azərbaycanı müstəmləkəyə, xammal bazasına çevirməyə yönəlsə də, bu şəraitdə Azərbaycan iqtisadiyyatının ipəkçilik və balıqçılıq təsərrüfatı kimi mühüm sahələrinə rus kapitalınıı soxulması, Azərbaycanın yeraltı sərvətlərinin aşkara çıxarılması sahəsində görülən tədbirlər,

“praktiki ipəkçilik məktəbinin” yaradılması və i.a.obyektiv olaraq Azərbaycanın iqtisadi inkişafına kömək edirdi.

## § 2. KƏND TƏSƏRRÜFATI

XIX əsrin birinci yarısında Azərbaycan kənd təsərrüfatı feodal münasibətlərinin üstün mövqe tutması ilə səciyyələnirdi. 1801-1828-ci illər, yəni Şimali Azərbaycanın Rusiya tərəfindən bilavasitə istilası dövründə kənd təsərrüfatı dəfələrlə ağır sınaqlara məruz qalmışdı. XIX əsrin birinci otuz illiyində Azərbaycanın düşdüyü mürəkkəb hərbi-siyasi şərait, ölkənin feodal pərakəndliyi kənd təsərrüfatının vəziyyətinə mənfi təsir göstərirdi. Rusiya-İran müharibələrinin hərbi əməliyyatları dövründə Azərbaycan ərazisi üç dəfə -1804, 1812 və 1826-cı illərdə yadelli işğalçıların viranedici hücumlarına məruz qalmışdı.

İran və Rusiya qoşunlarının törətdiyi qarət və zorakılıqlar nəticəsində Qarabağ, Talış, Şamaxı və Şəki xanlıqlarından on minlərlə iri və xırdabuynuzlu mal-qara qovulub aparılmış, xeyli sakinin əmlakı əlindən alınmış, minlərlə ailə ev-eşiyindən məhrum edilmişdi.

Yadelli qoşunların soyğunçu basqınları ilk növbədə məhsuldar qüvvələrin dağılmasına, əkin sahələrinin və dənli bitkilərin istehsalının ixtisar olunmasına, kənd təsərrüfatında əsas qoşqu qüvvəsi olan iribuynuzlu, habelə xırdabuynuzlu mal-qaranın sayının azalmasına, ipəkçilik, pambıqçılıq və s. sahələrin tənəzzülə uğramasına səbəb olmuşdu.

Lakin Azərbaycan kəndlilərinin özlərinin adi dinc əməyə qayıtdıqları nisbətən dinclik və ya xarici basqınlardan müxtəlif fasilələr dövründə kənd təsərrüfatı məhsulları nəinki yerli əhalinin tələbatını ödəyir, hətta müəyyən qədəri bazara çıxarılır. Məsələn, təsərrüfata az zərər vurmamış birinci Rusiya-İran müharibəsinin sonuna yaxın bir sıra əyalətlərdə taxıl istehsalı hələ də yerli tələbatı üstələyirdi. Bununla əlaqədar olaraq, rus komandanlığının sərəncamı üzrə Şirvandakı taxıl əkinləri ixtiras olundu, taxılın “artıqları” təkcə bütün taxıl vergisini danışıqsız ödəməyə deyil, həm də rus intendantlığına lazımi miqdarda sursat satmağa imkan verirdi. 1812-ci il təkcə Şəki və Şamaxı xanlıqları rus ordusuna onmin çervert (1.160 min pud) taxıl satmağı öhdəyə götürmüşdülər. Buğda, düyü, zəfəran, qurudulmuş meyvə, mal-qara, ipək və qızıl boya, az miqdarda olsa da, ölkə daxilində satışa gedir, habelə Gürcüstana, İrana və Rusiyaya ixrac olunurdu.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başa çatmasından sonra Azərbaycan müstəmləkəyə çevrilsə də, kənd təsərrüfatının bərpası və inkişafı üçün şərait yarandı, daxili müharibələrə son qoyuldu. XIX əsrin 40-cı illərində həddindən artıq müxtəlif olan ölçü və çəki sistemlərinin vahid Rusiya ölçüləri ilə əvəz olunmasına başlandı. Eyni zamanda, çar xəzinəsinin nəfiknə bir sırfa feodal rüsumlarının, xüsusən də xanlıqlar dövründən mövcud olan gömrükxana

maneələrinin – rahdar deyilən vergilərin saxlanılması daxili ticarətin inkişafını ləngidirdi. Xanlıqların yerini əyalətlərin tutduğu komendant üsuli-idarəsi dövründə əyalətlər arasında "rahdar rüsumları" qalmaqda idi. 20-ci illərin sonuna yaxın Zaqafqaziyada 17 rahdar vergisi və sənətkarlıq məmulatları üzərinə qoyulan 120 müxtəlif rüsum alınırdı, 1851-ci ildə yeni ticarət tarifinə görə, Zaqafqaziyada istehsal olunan mallar rüsum alınmadan Rusiyaya aparıla bilər. Buna baxmayaraq uzun müddət ərzində Mərkəzi Rusiya quberniyalarına aparılan mallardan bu rüsum alınırdı.

XIX yüzilliyin 30-50-ci illəri kənd təsərrüfatında məhsuldar qüvvələrin nəzərəçarpacaq dərəcədə artımı və əmtəə-pul münasibətlərinin inkişafı dövrüdür. Bununla yanaşı, hakim feodal münasibətləri kənd təsərrüfatının əksər sahələrinin surətli inkişafına mane olurdu. Çar hökuməti özünün aqrar qanunları ilə Azərbaycanda bu münasibətlərin möhkəmləndirilməsinə yardım göstərməyə cəhd edirdi.

Kənd təsərrüfatında başlıca yeri, əvvəllərdə olduğu kimi, əkinçili tuturdu. Dənli bitkilər – buğda, arpa, çəltik daha geniş yayılmışdı. Buğda aparıcı dənli bitki olaraq qalırdı. O, Azərbaycanın bütün əyalətlərində becərilirdi. Buğdanın istehsalı üzrə əsas yeri Şirvan və Qarabağ əyalətləri tuturdu. Bu əyalətlərdə buğdanın ümumi istehsalı 1830-1832-ci illərdə 4861 min pud, 1845-ci ildə isə 8347 min puda bərabər olmuşdu. Ümumiyyətlə isə 1845-ci ildə Azərbaycanın 8 qəza və dairəsində - Quba, Şamaxı, Talış, Qarabağ, Şəki, Naxçıvan qəzaları, habelə Car-Balakən və Yelizavetpol dairlərində, Qazax-Şəmşəddil torpaqlarında – ümumi taxıl yığımı 7617 min puda bərabər olmuşdu. Bu da buğdaya olan daxili tələbatı ödəyir və ixrac üçün məhsul qalırdı.

Buğda kimi, arpa da Azərbaycanın bütün əyalətlərində yayılmışdı. 1845-ci ildə onun ümumi istehsalı 6919,4 min pud olmuşdu. Arpanın yetişdirilməsində Şirvan və Qarabağ qəzaları fərqlənirdi.

Düyünün (çəltiyin) ümumi istehsalı nəzərə çarpacaq dərəcədə artdı. Onun becərilməsində aparıcı yeri Talış əyaləti tuturdu, onun ardınca Şirvan və Qarabağ, habelə Quba əyalətləri gəlirdi. 1830-1832-ci illərdə bu əyalətlərdə, 1208 min pud, 1845-ci ildə isə 1657 min pud çəltik yığılmışdı. Ümumiyyətlə isə, 1845-ci ildə bütün Azərbaycan ərazisində düyünün ümumi istehsalı 2315,7 min puda bərabər idi.

Bu dövrdə Azərbaycanda darı, yulaf, pərinc, paaxlalılar, lobya, noxud kimi digər dənli bitkilər az miqdarda becərilirdi. XIX yüzilliyin əvvələri ilə müqayisədə bu bitkilərin, xüsusən də darı becərilməsi genişlənsə də, onun ümumi istehsalı cüzi idi. Ümumiyyətlə isə 40-cı illərdə dənli bitkilər istehsalı ləng artırdı.

Azərbaycan iqtisadiyyatında əhəmiyyətinə görə ikinci yeri tutan kənd təsərrüfatı sahəsi heyvandarlıq idi. Onun inkişafı üçün ölkədə əlverişli şərait var idi. Muğan, Mil, Şirvan və digər düzlərin geniş əraziləri təkcə Azərbaycanın deyil,

həm də qonşu ölkələrin Dağıstan və Gürcüstanın da malları üçün gözəl qış otlaqları idi. Yay alp çəmənlikləri – yaylaqlar da geniş əraziləri tuturdu.

40-50-ci illərdə iribuynuzlu mal-qaranın sayı xeyli artmışdı. 1845-ci ilə aid olan məlumatlara görə, Azərbaycanın altı qəzasında – Quba, Bakı, Şamaxı, Lənkəran, Nuxa və Şuşa qəzalarında onun sayı 272,1 min başa çatırdı. Xırdabuynuzlu mal-qaranın – qoyun və keçilərin də sayı artırdı. 1843-cü ildə Azərbaycanın həmin qəzalarının hüdudlarında 476,9 min baş xırdabuynuzlu mal-qara var idi.

Həmin dövrdə həm mal-qaranın sayına, həm də bu sayın artımına görə Azərbaycanın aparıcı maldarlıq rayonları Şamaxı, Şuşa, Yelizavetpol və Quba qəzaları idi.

1845-ci ilin məlumatlarına görə (Yelizavetpol və Car-Balakən dairələri, habelə Naxçıvan və İrəvan bölgələri nəzərə alınmadan), atların sayı 88 min baş idi.

XIX yüzilliyin I yarısında Azərbaycanda iri və xırdabuynuzlu mal-qara, atlardan başqa xeyli miqdarda yük heyvanları – dəvə, qatır və ulaq bəslənirdi.

40-50-ci illərdə Azərbaycan heyvandarlığında xeyli dəyişikliklərə baxmayaraq, bu sahədə, əsasən, natural təsərrüfat hökmran olaraq qalmaqda davam edir və sahənin əmtəəliyi çox zəif təzahür edirdi. Məsələn, 1845-ci ildə Azərbaycanın həmin altı qəzasında satışa 2750 baş at (atların ümumi sayının ancaq 3,1%-i), 19150 baş iribuynuzlu mal-qara (8,7%) və 89 min baş qoyun (11,7%) çıxarılmışdı. Bundan başqa, həmin qəzalarda satışa 20,5 pud yağ, 23,3 min pud pendir, 11,8 min pud piy və 49,5 min pud dəri çıxarılmışdı. 270 min başdan artıq iribuynuzlu mal-qaranın və 760 min başdan artıq qoyun və keçinin olduğu şəraitdə bu, əlbəttə ki az idi.

Bununla belə kənd təsərrüfatının əvvəlki qapalılığı öz yerini əmtəə mübadiləsinin və şəhərlə kənd arasında əlaqələrin müəyyən qədər artmasına verirdi. Heyvandarlıq məhsulları əsasən şəhərlərdə satıldığı halda, bazara çıxarılan taxılın mühum hissəsi maldar kəndlilər tərəfindən istehlak edilirdi. 1845-ci ildə bütün Xəzər vilayəti üzrə mal-qara və maldarlıq məhsullarının satışından əldə olunan gəlir 332,6 min manata, taxıl satışından götürülən gəlir isə 397 min manata bərabər olmuşdur.

XIX yüzilliyin 30-50-ci illərində Azərbaycan ipəkçiliyi inkişaf etməkdə davam edirdi. Rus sənayesinin xam ipəyə olan tələbatı daim artırdı. Ucuz xammal əldə etməkdə maraqlı olan hökumət və ticarət-sənaye dairələri ipəkçiliyin inkişafı üçün müəyyən cəhdlər göstərirdi. 1836-cı ildə Peterburqda təsis olunmuş kampaniya "Zaqafqaziyada ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət" Nuxanı öz fəaliyyətinin mərkəzi seçdi. Şəki əyalətinin bütün xəzinəyə məxsus tut bağları 5 illik müddətə pulsuz olaraq, sonrakı 25 il ərzində isə götürülən gəlirə müvafiq olaraq ucuz qiymətə cəmiyyətə verildi. Bağlara təhkim olunmuş 700 yaxın dövlət kəndlisi – rəncbər də cəmiyyətin sərəncamına verildi. Qısa müddət ərzində kampaniya öz təsərrüfatını xeyli genişləndirdi. Kampaniyanın sərəncamına

verilmiş 760 bağda 1836-cı ildə 4300 min, 18 il sonra isə (1854-cü ildə) artıq 7 mln-dan yuxarı tut ağacı var idi. Kampaniya rəncbərləri istismar etmək hesabına ipək istehsalını təxminən 3 dəfə artırmağa nail oldu [12].

40-cı illərin sonuna yaxın istehsal edilən xam ipəyin miqdarı 28-29 min puda çatdı. Ümumiyyətlə, 30-50-ci illər ərzində Azərbaycan rus sənayesi üçün bu qiymətli xammalın əsas istehsal bazasına çevrildi. Zaqafqaziyada emal olunan ipəyin 85 faizi Azərbaycanın payına düşürdü.

Xam ipəyin bir hissəsi, başlıca olaraq, Şamaxı şəhərində və onun ətrafındakı kəndlərdə yerləşən yerli ipəktoxuma müəssisələrində emal olunurdu; ipəyin az bir hissəsi xaricə, əsasən Fransaya ixrac edilirdi. Azərbaycan xam ipəyinin əsaə hissəsi isə Rusiyaya daşınırdı. Onu Nijni-Novqorod yarmarkasına və Moskvaya göndərirdilər. Artıq XIX yüzilliyin 30-cu illərin sonuna yaxın rus ipək sənayesi olaraq, Zaqafqaziyadan göndərilən xammalın hesabına işləyirdi. Həmin dövrdə Moskva və onun ətrafındakı fabriklərdə emal olunmuş xam ipəyin 5/8 hissəsindən çoxu Zaqafqaziyanın, başlıca olaraq isə, Azərbaycan ipəyinin payına düşürdü.

40-50-ci illərdə Azərbaycandan xam ipək daşınması artmaqda davam edirdi. 50-ci illərin əvvəllərində Zaqafqaziyada istehsal olunan 30-35 min pud xam ipəkdən 2/3-si Rusiyaya aparılır, 1/4-i yerlərdə sərf olunur, qalanı (təxminən 8 faizi) xaricə ixrac edilirdi [13].

Beləliklə, Rusiya işğalından sonra Azərbaycan iqtisadiyyatında ipəkçilik inkişaf etməkdə olan rus ipək sənayesi üçün xammal tədarükçüsü kimi müstəsna olaraq əmtəə əhəmiyyəti kəsb etdi.

Bu dövrdə tütünçülük də əmtəə istehsalı sahəsinə mevrilirdi. 30-cu illərin əvvəllərində tütün Azərbaycanın ancaq 4 əyalətində becərildiyi halda,40-cı illərin ortalarında bununla artıq 8 qəzada məşğul olurdular. Tütün istehsalının həcmi xeyli artsa da, əldə olunan tütünün miqdarı çox deyildi. Lakin bu sahədə istehsalın əmtəəliyi kifayət qədər yüksək idi. Məsələn, 1845-vi ildə 8 qəzada toplanılmış 4 min puddan bir qədər artıq tütünün 2 min puda qədəri satışa getmirdi [14].

Rusiya bazarında yüksək keyfiyyətli tütün növlərinə tələbat xaricdən gətirilmiş ən yaxşı tütün növlərinin – Havana, Alban və Perqam növlərinin Azərbaycanın iqlim şəraitində əldə edilməsi üçün bir sıra bölgələrdə onlatrın becərilməsinə marağı artırdı.

Texniki bitkilərdən qızılboya istehsalı daha böyük əhəmiyyətə malik idi. Onun köklərindən yüksək keyfiyyətli təbii boyalar hazırlanırdı. Qızılboya Azərbaycanda qədimdən istehsal olunurdu. O hələ orta əsrlərdə Azərbaycan parçalarına, xalçalarına və digər məmulatlarına dünya şöhrəti qazandırmışdı. Ötən yüzilliyin 40-cı illərində qızıl boyaya sənaye tələbatı artdı. Azərbaycan qızıl boyasının yaxşı keyfiyyətinə əmin olan rus sənayeçiləri Xəzər dənizinin qərb sahillərində bu bitkinin plantasiyalarının genişlənməsi və istehsalın artmasında fəal içtirak edirdilər [15]. 1851-ci ilə qədər Azərbaycan və Dağıstanda qızıl boya

becərilməsi əsaslı surətdə mənimsənilərək, iqtisadi həyatın sərfəli və gəlirli sahələrindən birini təşkil edirdi. O zaman Rusiyaya 120 min puddan 140 min pudadək qızılboya kökü aparılırdı. Azərbaycanda qızılboya başlıca olaraq Quba, Şamaxı və Lənkəran qəzalarında becərilir [16], Bakıdan, Niyazabad limanından və Dərbənddən ixrac olunurdu. 1851-ci ildən 1860-cı ilədək qızılboya istehsalının başlıca mərkəzində Quba qəzasında 2,762 min manatlıq 334,5 min pud qızılboya kökü istehsal olunmuş və Nijni-Novqorod yarmarkasına aparılmışdı. Azərbaycan qızılboya istehsalı üzrə Rusiya toxuculuq sənayesinin ehtiyaclarını təmin edən sırf ticarət xarakterli kənd təsərrüfatı sahəsi idi. 50-ci illərdə Moskva yaxınlığında xüsusu olaraq Xəzər sahillərindən gətirilən qızılboyanın emalı üçün fabrik tikildi.

Azərbaycan qızılboyası özünün yüksək keyfiyyətilə xarici boyaqların rus bazarında müvəffəqiyyətlə sıxışdırıb çıxarır, hətta xaricə də ixrac olunurdu.

Digər texniki bitkinin – pambığın istehsalında vəziyyət başqa cür idi. Azərbaycanın Rusiya tərəfindən işğalı illərində pambığın istehsalı azaldı. 30-cu illərin əvvəllərində burada cəmisi 11,5 min pud pambıq becərilirdi. 30-cu illərin ortalarında hökumət tərəfindən bu qiymətli bitkinin inkişafı üçün bəzi tədbirlər görüldü və uzunlifli Misir və Braziliya pambıq növlərinin Zaqafqaziyada tətbiq olunmasına səy göstərildi. Qarabağ və Şəki əyalətlərində xəziknə pambıq plantasiyaları yaratmaq üçün cəhdlər göstərildi. Lakin 40-50-ci illərdə pambıqçılıqda istehsalın həcmi hələ də çox məhdud idi. 1845-ci ildə Azərbaycanın 8 qəzasında səpilmiş çiyidin çəkisi cəmisi 1,3 min puda bərabər idi.

Bu dövrdə düyü, buğda və digər dənli bitkilərin baha olduğu bir şəraitdə pambıq becərilməsinin iqtisadi cəhətdən əlverişli olmaması, habelə ucuz xarici və rus fabrik çit parçalarının diyarda geniş yayılması pambıqçılıqda durğunluğa səbəb olmuşdu [17].

Qədimdən bəri ancaq Abşeron yarımadasında yetişdirilən zəfəran təsərrüfatı da kəskin tənəzzül dövrü keçirirdi. Maliyyə nazirliyinin tapşırığı üzrə yaradılmış “Cənubi Qafqaz Rusiya torpaqlarının statistika, etnoqrafiya, topoqrafiya və maliyyə baxımından xülasəsi”nin tərtibçiləri qeyd edirdilər ki, zəfəranın becərilməsi ilə ən çox Bakı əyalətində məşğul olurdular. 5-6 kənd istisna olmaqla Abşeronun bütün kəndlərində bu bitki əhalinin mühüm gəlir mənbəyini təşkil edirdi. 30-cu illərin əvvəllərində zəfəranın illik istehsalı 1000 puda çatırdı və kəndlilər onun satışından 360 min manat pul götürürdülər. Zəfəranı İran və Həştərxana aparıb satan tacirlər 200 min manat gəlir götürürdülər.

Lakin 40-cı illərdə zəfəran istehsalı azalmağa başladı. 361 pud zəfəranın yığıldığı 1846-cı il istisna olmaqla onun illik istehsal 120 puddan yuxarı yığıldığı 1846-cı il istisna olmaqla onun illik istehsalı 120 puddan yuxarı qalxmırdı. Bu vəziyyət onunla izah olunurdu ki, zəfəran təsərrüfatının mənafeyi çarizmin iqtisadi siyasətinin ümumi xəttinə uyğun gəlmirdi. Yerli əhali və tacirlərin gəlir mənbəyi olan bu sahə çar xəzinəsinə heç bir xeyir vermirdi.

30-40-cı illərdə üzümçülük və bağçılıqla nəzərəçarpacaq artım müşahidə olunur, üzüm və meyvə bağlarının sayı çoxalırdı. 1849-cu ildə Azərbaycanın 6 qəzasında 21413 meyvə və üzüm bağı var idi. Lakin şərabçılıq zəif inkişaf etmişdi. 30-cu illərin əvvəllərində Mədrəsə və Gürcüvan kəndlərində 16 min vedrədən çox çaxır və 2 min vedrəyədək araq istehsal edilmişdi. 40-cı illərin ortalarında Şəki qəzasında çaxır istehsalı təxminən 14 min vedrə, araq istehsalı isə təxminən 3 min vedrə olmuşdu. Azərbaycandan kənara aparılan digər bağçılıq məhsulları yenə də fındıq, qurudulmuş armud, alma və s. idi.

Lakin nə üzümçülük, nə də bağçılıq bu dövrdə hələ də yüksək əmtəə istehsalı xarakteri almamışdı.

30-50-ci illərdə bostançılıq da geniş yayılmışdı. O, başlıca olaraq yerli əhalinin ehtiyaclarını ödəyir və kənd təsərrüfatının zəif inkişaf etmiş əmtəə sahələrindən biri olaraq qalırdı. Lakin burada da bəzi dəyişikliklər baş verirdi. 40-50-ci illərdə Azərbaycanda rus köçkünləri tərəfindən buraya gətirilmiş kartof becərilməyə başlanmışdı.

Beləliklə, Azərbaycanın Rusiya tərəfindən işğalından sonra onun təsərrüfatının inkişafında müəyyən yüksəliş baş verdi. Lakin bu inkişaf birtərəfli gedirdi, yəni başlıca olaraq, xammal istehsal olunurdu. Bu da ölkə iqtisadiyyatının müstəmləkə xarakterinin göstəricisidir. XIX yüzilliyin 30-50-ci illəri sosial-iqtisadi həyata mühüm dəyişikliklərin müəyyənləşdiyi dövrdür. İqtisadiyyatın bəzi sahələri, xüsusən də texniki bitkilər istehsalı Mərkəzi Rusiyanın tərəfindən irəli sürülən sənaye tələbatını, habelə yerli şəhərlərin tələblərini ödəməyə yönəldilmişdi, kənd təsərrüfatı məhsulları əmtəə xarakteri almağa başlayırdı.

## §3. SƏNAYE İSTEHSALI VƏ SƏNƏTKARLIQ. MANUFAKTURANIN YARANMASI

Neft və bəzi başqa hasilat sahələri xanlıqlar dövründə olduğu kimi iltizama verilirdi. 1808-1825-ci illərdə Abşeronun neft quyuları iltizamda idi. Sonrakı dövrlərdə neft hasilatı yalnız 1826, 1834 və 1850-ci illərdə xəzinənin idarəsində olmuşdur. İltizam sisteminin yararsızlığı üzündən inkişaf olduqca ləng gedirdi. Əgər 1825-ci ildə 121 quyudan neft çıxarılırdısa, 40-cı illərdə belə quyuların sayı 133-ə çatmışdı [18]. Kimyəvi və texniki xassələrinə görə ən qiymətli yanacaq Suraxanıda hasil edilirdi. Suraxanıda olan 25 quyunun 15-dən qiymətli ağ neft çıxarılırdı. Dünyada ilk buruq qoymaq cəhdi 1848-ci ildə Bibiheybətdə baş vermişdir.

Neft hasilatı gah artır, gah da azalırdı. 1818-ci ildə Abşeronda 2142 min pud neft çıxarılmışdısa, 1834-cü ildə hasilat 230 min puda enmişdi. Sonrakı illərdə hasilat bir qədər artmış, 1848-ci ildə 272,7 min puda çatmışdı. Hasil edilən neftin pudu gümüş pulla 35 qəpiyə satılırdı [19].

Neftverən torpaqların sahibi kimi, xəzinə 30 il ərzində yalnız öz mənfəətini güdərək neft6 hasilatını artırmaq, əsilo sənaye yaratmaq üçün heç bir əsaslı iş görməmişdi. İltizam sisteminin tətbiqi texniki yenilik tətbiq etmədən amansız istismar hesabına gəlir əldə etməyə şərait yaradır, ölkənin iqtisadi inkişafına maneə törədirdi.

Azərbaycanda neft emalı ilə ancaq yüzilliyin ikinci yarısında məşğul olunsa da, buna əvvəllərdə müəyyən təşəbbüslər göstərilmişdi. 1837-ci ildə dağ-mədən mühəöndisi Volkoboynikovun neft emalı üçün hazırladığı qurğu təkmilləşdirilmədiyinə görə, ondan istifadə etmək mümükün olmadı. Azərbaycanın qərbində zəy istehsal olunurdu. Zəylik kəndi yaxınlığında çıxarılan xam zəyi yandırmaq üçün bir neçə soba vardı. 1805-ci ildə bu müəssisədə filiz istehsalı iltizama verildi. Zəyin pudu 80 qəpiyə xəzinəyə satılmalı idi. 1811-ci ildən 1828-ci llədək müəssisə müntəzəm işləmişdi. Bu ildən ta 1850-ci ilə kimi zəy istehsalı yenidən iltizama verilmişdi. Xəzinəyə buradan ildə 5-6 min manat gəlir götürürdülər.

Yeyinti məhsulu sahəsində narın və daş duz istehsalı xüsusi yer tuturdu.

Abçeronda 27 göldən narın duz yığılırdı. Belə göllər Cavad və Ağcabədi yaxınlığında da vardı. Bu göllər 1808-1821-ci illərdə iltizama verilmiş, 1821-1825-ci illərdə xəzinənin idarəsində olmuş, 1826-1834-cü illərdə yenidən iltizama keçmiş və nəhayət, 1834-cü ildən 1850-ci ilədək təzədən xəzinənin idarəsinə qaytarılmışdı. Kəndlilərin çoxu narın duzu istehsalında işləməklə dövlətə olan mükəlləfiyyətlərini yerinə yetirmiş olurdular. Burada muzdlu əməkdən də istifadə olunurdu [20].

Abşeron duz gölləri daha zəngin idi. 1819-cu ildə təkcə Masazır və Zığdan 160 min puddan çox duz alınmışdı, 40-cı illərdə orta hesabla hər il 400 min pud istehsal edilirdi [21].

Naxçıvanda daş duz Şıxmahmud, Cəhri və Sust kəndləri arasındakı dağlıq ərazidən çıxarılırdı. 1828-ci ilədək duz mədənləri Kəlbalı xanın ixtiyarında olmuş və göstərilən kəndlərin əhalisinin bir hissəsi bu mədənlərdə duz çıxarılmasına təhkim olunmuşdu. Duz mədənləri çar xəzinəsinin əlinə keçəndən sonra da duz eyni üsulla çıxarılırdı. 1830-1840-cı illərdə bu mədənlər iltizama verilmişdi. Daş duz çıxarılması 40-cı illərdə xeyli artmışdı. 1843-cü ildə 97,7 min pud duz çıxarılmışdısa, 1849-cu ildə bu, 136,4 min. Puda çatmışdı. Buna uyğun olaraq dövlətin gəliri də çoxalmışdı. 1828-1829-cu ildə daş duz istehsalından xəzinəyə gələn gəlir 1000 manat idisə, bu, 40-cı illərdə orta hesabla ildə 9000 manata qalxmışdı.

Azərbaycanda keçmişdə olduğu kimi, yenə müəyyən qədər şərab istehsal olunur və araq çəkilirdi. 30-cu illərin əvvəllərində Şirvan əyalətində təxminən 198 min litr araq şərab və 24 min litrə qədər araq istehsal edilmişdi. 40-cı illərin ortalarında Şəki qəzasında ildə orta hesabla 168 min litr şərab, 33,6 min litr4 araq istehsal olunurdu. Qarabağda istehsalın həcmi daha böyük idi. Burada 840 min litr

şərab və 42 min litr araqalınmışdı. Yalnız Gəncə şəhərində 228 min litr şərab hasil edilmişdi. İstehsal olunan spirtli içkiləryerli əhalinin istehlakına gedir və əsasən yerli bazarlarda satılırdı [22].

Azərbaycanda yeyinti məhsulları istehsalı sahəsində balıq və balıqdan hazırlanan məhsullar xüsusi yer tuturdu. Mustafa xanın hakimiyyəti dövründə balıq vətəgələri iltizama verilirdi. 1814-cü ildə Şəki xanlığının sərhədlərindən başlayaraq, Xəzərə qədər Kür çayında balıq tutmaq 20 il müddətinə iltizama verilmişdi. 1829-cu ildə bu sahə də xəzinənin ixtiyarına keçdi. Salyan balıq vətəgələri əsasında "Salyan xəzinə qəyyumluğu" adlı kommersiya şirkəti yaradıldı. Sonrakı dövrlərdə ölkənin bütün balıq vətəgələrin tədricən "qəyyumluğun" ixtiyarına keçmişdi. 1845-ci ildə "Salyan qəyyumluğu" ləğv ediləndən sonra, artıq vətəgələrin hamısından yenidən iltizam əsasında istifadəyə başladılar. 1829-1945-ci illər ərzində Azərbaycanın balıq vətəgələrində tutulan balığın miqdarı 524,7 mindən 660,8 min ədədə qədər artmişdı. Ovlanan balıq və ondan hazırlanan məhsullardan yerli əhali qismən istifadə edir, qalanı isə əsasən Rusiyaya göndərilirdi.

Azərbaycanın balıq vətəgələrində işləyənlərin bir çoxu Rusiyadan buraya gəlmələr idi. 1838-ci ildə Salyan və Qızılağacda 600 nəfərə qədər rus fəhləsi işləyirdi. Balıq ovu mövsümündə bu işə 400 nəfərə qədər yerli əhali cəlb edilirdi. Balıq vətəgələrində 330 nəfər qara fəhlə kimi çalışır, 270 nəfər peşəkar balıqçı isə balıq ovu ilə məşğul olurdu. Ölkənin balıq vətəgələrində, xüsusilə Salyanda muzdla işlədilənlərin sayı getdikcə artmaqda idi. 40-cı illərin əvvəllərində yalnız Salyan vətəgələrində muzdlu işçilərin və peşəkar balıqçıların sayı 1000 nəfərə qədər idi.

Azərbaycanda şəhərlərin hələ qədimdən mövcud olması sənətkarlığın inkişafı üçün şərait yaradırdı. Dərziçilik, papaqçılıq, boyaçılıq, dabbağçılıq, tornaçılıq, tənəkəçilik, saatsazlıq, baftaçılıq, təsərrüfat-məişət məmulatı istehsalı, tikinti materialları istehsalı, eləcə də yeyinti-ərzaq sahələri, habelə bəzək şeyləri ilə, musiqi alətlərinin hazırlanması, toxuculuq, metal emalı sahələri və s. ölkənin iqtisadi həyatında mühüm yer tuturdu. Ümumiyyətlə, Azərbaycanda 100-dən çox sənət və peşə sahəsi var idi.

Azərbaycan iqtisadiyyatının belə çoxsahəliliyi ölkənin təbii zənginlikləri, onun iqtisadi inkişafının xüsusiyyətləri, daxili bazar tələbatının nisbətən yüksək olması, habelə işçi qüvvəsinin bolluğu və s. ilə bağlı idi.

Göstərilən sənət və peşə sahələrindən bir çox (dərziçilik, papaqçılıq, keçəçilik, palançılıq və s.) kəndli əhalisinin tələblərini, habelə istehlakçı sifarişçilərinin ehtiyaclarını ödəyirdi.

Sənətkarlığın xırda əmtəə istehsalı pilləsinə yüksələ bilən və bazar üçün məmulat istehsal edən sahələrindən toxuculuğu (ipək mallar), xalçaçılığı, gəbəçiliyi, metal emalını – misgərlik, silah istehsalı, boyaqçılığı, dabbağlığı, tikinti materialları (kərpic-kirəmit) istehsalını, şərabçılığı və s. göstərmək olar. Lakin bu

sənətkarlıq sahələrindən bəziləri hələ bütünlükdə bazar tələblərini ödəyə bilmirdi. Çünki bu göstərilən xırda əmtəə istehsalı sahələrindən bir çoxu həm yerli bazar həm də sifarişçi üçün məmulat hazırlayırdı.

XIX əsrin birinci yarısında Azərbaycanda ailə istehsalında yundan məmulat hazırlanması əsas rol oynayırdı [23]. Azərbaycanda qoyunçuluğun inkişafı külli miqdarda yun istehsalına geniş imkan yaradırdı. Buna gırə də gəbə-xalça toxunması işi ölkənin hər yerində inkişaf etmişdi. Xalçaçılığın inkişafı üçün əsas amillərdən biri də Azərbaycanda təbii rəng verə bilən bitki və bitki köklərinin çoxluğu idi.

Azərbaycanın bəzi yerlərində - Qarabağ və Qubada xalçalar xüsusi iri emalatxanalarda toxunurdu. Lakin bu sahədə ev istehsalı xüsusilə geniş yayılmışdı. Emalatxanalarda xalçaların bir hissəsi sifarişçilərin arzusu ilə bilavasitə onun təklif etdiyi çeşidə - çeşniyə uyğun toxunurdu. Sifarişlər, hətta, xarici ölkələrdən də alınırdı. Quba qəzasında Fransadan alınmış rəsmlər əsasında gəbə toxunduğu məlumdur. Bununla yanaşı, ev istehsalında da fərdi sifarişlə xalça toxunurdu.

Azərbaycanda xalçaçılığın ən çox inkişaf etdiyi zona Qarabağ idi. Burada elə bir qəza tapmaq olmazdı ki, orada müxtəlif növ gəbə-xalça toxunmasın. Xalça istehsalı ilə əslində ölkənin əksər əyalətlərində - Nuxa və Zaqatalada, Gəncə və Qazaxda, Lənkəran və Abşeronda da məşğul olurdular. XIX əsrin 40-cı illərindən başlayaraq, ölkədə yaranmış nisbətən əlverişli şəraitlə əlaqədar olaraq, xalça istehsalı artıq məişət tələblərinə ödəməklə yanaşı, daxili və Ümumrusiya bazarına çıxarılır, hətta əcnəbi ölkələrə ixrac edilirdi. Xalçaçılıq bir sənətkarlıq sahəsi olmaq etibarilə çoxçeşidli istehsal idi, müxtəlif çeşidli xalçalar ilə yanaşı palaz, kilim, məfrəş, xurcun, heybə və s. geniş yayılmış xalçaçılıq məhsulları idi. Bununla belə xalça hazırlanması üsulu əsli ənənəvi texnika və vərdişlərə əsaslanırdı.

Yundan həmçinin müxtəlif məmulatlar hazırlanırdı. Əsasən məişətdə istifadə edilən bu məmulatın çeşidi olduqca zəngin idi. Bunlara şal, cürbəcür geyim şeyləri, corab, yun şalvar, çuval, çatı, sicim, örkən və s. misal ola bilər. 1841-ci ildə 40 min manatlıq belə məmulat istehsal edilmişdi. Ev döşəməsi (xüsusilə yaylaq mövsümündə) və başqa məişət məqsədləri üçün işlədilən müxtəlif ölçülü və cürbəcür rəngli keçələr yundan istehsal edilirdi.

Sənətkarlıq şəhərlərdə daha çox inkişaf etmişdi. Bir sıpra şəhərlərdə bəzi sənət növləri artıq əkinçilikdən ayrılmış və müstəqil sahələrə çevrilmişdi. Bakı, Şamaxı, Nuxa, Gəncə, Şuşa, Quba, Naxçıvan və Ordubad bu sahədə xüsusilə fərqlənirdi.

Azərbaycan şəhərləri içərisində sənətkarlığın inkişafı və sənətkarların sayı baxımından Şamaxı və Nuxa xüsusi yer tuturdu [25]. Hər iki şəhərdə başmaqçılıq, dərziçilik, papaqçılıq, dabbağçılıq peşələri, eləcə də toxuculuq sənəti daha geniş yayılmışdı. Bakı, Gəncə, Şuşa, Naxçıvan və Ordubad şəhərlərinə hər birində təqribən 20-dən 40-a qədər sənət-peşə növü və 300-500 sənətkar var idi.

Azərbaycanda kutar üsulla ipək sapı əldə etmək ipəktoxuma işində mühüm mərhələni təşkil edirdi. Baramadan sap açıldıqdan sonra burulur və toxuculuq üçün yararlı hala salınır. Əl cəhrəsi, yerli sapburma dəzgahı və cəhrələr bu işdə xüsusi əhəmiyyət kəsb edirdi. 40-cı illərdən etibarən nisbətən təkmil cəhrələrdən istifadə genişlənmişdi [26].

30-40-cı illərdə ipəksarımaqla məşğul olan yüzlərlə tənha kustar var idi ki, onlar kəndbəkənd gəzərək, ipəkçi kəndlilərin baramasından ipək sapı açmaqla məşğul olurdular. İpəksarıma – ipək – burna sahəsi istehlakçı – sifarişçilər, qismən də yerli bazarların tələbi üçün işləyirdi.

Azərbaycanda ipək məmulatı istehsalı geniş miqyas almışdı. İpəkdən cecim, kəlağayı, darayı, tayfa, qanovuz, məişətdə işlənən müxtəlif növ dəsmallar və s. nəinki ölkənin özündə, eləcə də Zaqafqaziyada və Rusiyanın müxtəlif şəhərlərində, xüsusilə Həştərxanda böyük həvəslə alınırdı. Çünki Azərbaycanın ipək qalmamışdı. Şamaxı, Nuxa, Qarabağ və Ordubadda ipəksarıma işi Şamaxıda 630,Basqalda və digər kəndələrdə isə 50-yə qədər toxucu dəzgahı var idi. Şirvan əyalətində 2800 nəfərə qədər toxucu var idi. Şamaxı və Şəkidə ipəktoxuma emalatxanalarının bir hissəsi artıq xırda əmtəə istehsalı səviyyəsində idi.

Azərbaycanda inkişaf etmiş sahələrindən biri də metalın kustar üsulla emalı idi. Burada misgərlikxüsusi yer tuturdu. Mis əşyalar Bakıda, Şamaxıda, Nuxada, Gəncədə, Şuşada, Lənkəranda, Qubada, Naxçıvanda daha çox istehsal olunurdu. XIX əsrin 30-cu illərində Gəncədə 6 misgər emalatxanası var idi. Orada köməkçi işlərdə çalışanların nəzərə almadan, sahibkarlarla yanaşı, emalatxanalarda 10 nəfərə qədər fəhlə işləyirdi [27]. Misgərliyin əsil mərkəzi Lahıc kəndi idi. Lahıcın təbii-coğrafi şəraiti burada sənətklarlıq və peşələrin inkişafını labüd etmişdi.

1830-cu ildə Lahıcda 52-dən çox misgər emalatxanası vardı. İldə orta hesabla 20 min manatlıq mis qablar və digər əşyalar hazırlanırdı. Misdən hazırlanan məmulat təkcə Zaqafqaziyada deyil, İran və Türkiyədə də həvəslə alınırdı.

Azərbaycanda silah istehsalı sahəsində mahir ustalar çalışırdı. 1839-cu ildə Şamaxıda 18 nəfər, 1848-ci ildə isə 86 nəfər silah ustası var idi. Silah ustaları Nuxada, Gəncədə, Şuşada, Naxçıvanda, Ordubadda və başqa şəhərlərdə də fəaliyyət göstəriridi. Lahıc kəndi bu cəhətdən də fərqlənirdi. Orada düzəldilən silahların keyfiyyəti yüksək olurdu.

Ölkədə bəzək şeyləri istehsalı və dəmirçilik əsasən şəhərlərdə mərkəzləşmişdi. 40-cı illərdə Azərbaycanın 9 şəhərində 200 nəfərə qədər zərgər, 350 nəfərə qədər dəmirçi vardı.

Sənətkarlığın geniş yayıldığı  sahələrdən duluzçuluğu və dərziçiliyi qeyd etmək lazımdır. 30-cu illərdə Azərbaycan şəhərlərində 50-yə qədər duluzxana vardı. Onalrdan müxtəlif  növ saxsı dablar hazırlanırdı. Müxtəlif paltarlar həm

ayrı-ayrı ailələrdə, həm də xüsusi dərzixanalarda tikilirdi. 1832-ci ildə 5 şəhərdə 470 nəfərə qədər dərzi işləyirdi.

1831-1832-ci illərdə Azərbaycanın 5 şəhərində 136 dabbağxana vardı. 40-cı illərdə dabbağxanaların sayı ik dəfədən çox artmış, yəni 324 olmuşdu. Onların yarıdan çoxu – 178-i Nuxada, 57-si Şamaxıda, 33-ü Qubada, 26-sı Gəncədə, 9-u Naxçıvanda cəmləşmişdi [28].

40-cı illərdə Azərbaycanın 8 şəhərində 700-ə qədər papaqçı çalışırdı [29].

Ayaqqabı, xüsusilə başma istehsalı çox inkişaf etmişdi. 1830-cu ildə Bakı, Quba, Şamaxı, Naxçıvan və Ordubad şəhərlərində 350 nəfər başmaqçı olmuşdusa, 1848-ci ildə onların sayı 600 nəfərə çatmışdı. 1848-ci ildə təkcə Şamaxı şəhərində 227 və Nuxada isə 147 nəfər başmaqçı vardı.

Azərbaycanda sərraclıq əsasən şəhərlərdə mövcud idi. 40-cı illərdə 6 şəhərdə 90 nəfərdən çox sərrac vardı.

Azərbaycanda sənətkarlığa nisbətən peşələr sayca daha çox idi. Kəndli ehtiyac üzündən müxtəlif peşələrlə məşğul olmağa məcbur idi. Kənd təsərrüfatı işləri qurtardıqdan sonra, habelə qış aylarında kəndli ailəsi kənd təsərrüfatı məhsullarının emalı işi ilə məşğul olurdu. Məişət üçün zəruri olan peşə məmulatı aildə hazırlanırdı. Yoxsul kənlilər heç vaxt öz təsərrüfatı ilə özlərini doydura bilmirdi, buna görə də onların başlıca yaşayış mənbəyi peşə idi. Peşələrin olduqca rəngrəngliyi və məişətə möhkəm daxil olması məhz bu amillə izah edilməlidir.

Ölkədə qədim tarixə malik olan boyaqçılıq peçəsi həm yun, həm ipək və həm də başqa növ xammalın boyanmasında mühüm rol oynayırdı. Yalnız 1832-ci ildə Azərbaycanda 160-a yaxın boyaqxana işləyirdi. Bunlardan əlavə, çox az kəndli ailəsi tapmaq olardı ki, toxunma işində istifadə edilən ipi özü boyamasın. Müxtəlif rənglərdən istifadə etmək, onları seçmək, bir-birinə uyğunlaşdırmaq sahəsində boyaqçılar zəngin təcrübəyə malik idilər. Bir sıra peşələrdə ənənə və ustalıq bir-birilə bir növ çulğaşmışdı.

Ağac emalı həm şəhərlərdə, həm də dağ və dağətəyi rayonlarda əhalinin əsaə məşğuliyyətindən birini təşkil edirdi. Kənd təsərrüfatı alətlərinin ağac hissələri (balta, dəhrə və s.), həmçinin təsərrüfatda və məişətdə çox işlədilən cəhrə, yun darağı, nehrə, yaba, kürək, vəl, şana, araba təkəri, boyunduraq, nərdivan, tabaq, təknə, ovlov, çömçə, qaşıq, araba, cürbəcür musiqi alətləri (tar, kamaça, zurna, ney, balaban, dəf və qaval sağanağı və s.) məhz ağacdan düzəldilirdi. Bundan başqa, ağacdan müxtəlif sandıqlar, mücrülər, qəlyanlar, eləcə də nadir şəbəkələr hazırlanırdı.

XIX əsrin 40-cı illərində Azərbaycanda sənətkarların və peşəkarların sayı 12 min nəfərdən çox idi. Onların əksəriyyəti şəhərlərdə cəmləşmişdi. Ölkədə sənətkarlıq və peşələrin az bir hissəsi xırda əmtəə istehsalı mərhələsinə qədər yüksələ bilmişdi [30].

XIX əsrin artıq I rübündə ipək emalı sahəsi nəinki xırda əmtəə istehsalı bazasına daxil olmaqda idi, hətta Şamaxıda ipəktoxuma istehsalında əmək bölgüsü

inkişaf etmişdi. Bir toxucu dəzgahını 5 nəfər idarə edirdi, həm də müxtəlif çeşidli parçalar toxunurdu. Beləliklə, ipəktoxuma orada (Şamaxıda – Red.) manufaktura mərhələsinə daxil olmuşdu. Bu müəssisələrin hər birində orta hesabla 9 nəfərə qədər toxucu işləyirdi. Həmin dövrdə sırf kapitalist manufakturası da yaranmağa başladı. Eyni bir kapitalın komandası altında xeyli fəhlənin bir yerə yığılması ümumiyyətlə, həm kooperasiyanın, həm də manbufakturanın təbii başlanğıc nöqtəsini təşkil edirdi [31].

1827-ci ildə Nuxanın (Şəki) yaxınlığında Xanabad kəndində ipək emalı fabriki işə salındı. Müəssisə çar dövlət xəzinəsinə mənsub idi. Müəssisədə 20 ipəksarıyan dəzgah, 10 ikiqat kürə və sapburan maşınlar qoyulmuşdu. Bu nəinki Azərbaycanda, həm də Zaqafqaziyada ilk kapitalist manufakturası idi. Xanabad manufakturasında 30-cu illərin əvvəlində 90 nəfərdən çox muzdlu rəhlə işləyirdi. İstehsal olunan xam ipək kustar üsulla emal edilən xam ipəkdən 2-3 dəfə baha satılırdı. Müəssisədə əmək bölgüsü o qədər də geniş deyildi. İpək sapı açılır və sonra isə burularaq toxuculuq üçün yararlı hala salınırdı. Əl əməyi istehsalatda yenə də üstün yer tuturdu.

1836-cı ildə Xanabad müəssisəsi xəzinənin ixtiyarından "Zaqafqaziyada ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət"in əlinə keçdi. 571,4 min manat kapitalı olan bu səhmdar kampaniyası dövlətin təşəbbüsü ilə təsis edilmişdi [32]. Bu cəmiyyətin əsas istehsal bazası istər ipək (barama) istehsalı, istərsə də ilkin ipək emalı baxımından Azərbaycanda yerləşirdi. Ona görə də həmin tarixi burada kapitalist səhmdar istehsalının başlanğıcı hesab etmək olar [33].

"Zaqafqaziyada ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət"in Nuxada ipək emal edən başqa bir müəssisəsi də var idi. Bu müəssisəni də xəzinə səhmdar cəmiyyətinə vermişdi. Müəssisədə 10 sarıma dəzgahı, 12 baramaaçan tiyan və 5 sapburan maşın vardı [34]. Aydındır ki, Xanabad müəssisəsi kimi bu da kapitalist manufakturası idi. Səhmdar cəmiyyətin göstərilən müəssisələrdən əlavə təcrübə stansiyaları, ipəkçilik məktəbi və s. var idi [35].

Təkcə Nuxada deyil, Vartaşendə də manufattura tipli müəssisələr vardı. Muradxanovun buradakı ipək emalı müəssisəsini də kapitalist manufakturası zümrəsinə aid etmək olar. Sonrakı dövrlərdə bu kimi müssisələrin sayı artmışdı. Manufaktura emal sənayesinin digər sahələrində, həmçinin neft istehsalında da mövcud idi.

Məlumdur ki, manufaktura xırda əmtəə istehsalı ilə fabrik arasında keçid mərhələsi olduğunu və orada əmək bölgüsünün inkişafı son dərəcə yavaş getdiyinə görə, kapitalist manufakturaları xırda istehsalı tamamilə sıxışdırıb aradan qaldıra bilməmiş, buna görə də manufaktura sənaye əkinçilikdən bütünlükdə ayrılmamışdı.

Azərbaycanda manufaktura feodal istehsal münasibətlərinin hakim olduğu bir şəraitdə yaranıb inkişaf edirdi. Lakin bu manufakturalar öz ictimai təbiəti etibarilə, inkişaf meylinə görə əsil kapitalist müəssisələri idi. Onların iki tərəfdən (dövlətin və yaxud feodalın) idarə edilməsi yalnız xüsusiyyət məsələsi idi.

Azərbaycanda inkişaf etmiş manufaktura istehsalı bir növ Mərkəzi Rusiya fabriklərinin əlavəsi rolunu oynayırdı. Başqa sözlə desək, rus fabrikləri ucqarlarda yarımfabrikat almaqla istehsal dövriyyəsini başa çatdırırdı. Yerlərdə - ucqarlarda isə istehsal dövrü natamam qalır, haradasa, istehsalın hansı fazasındasa yarımçıq saxlanılırdı. Müstəmləkə iqtisadiyyatına xas olan xüsusiyyətlərdən biri də məhz bu idi.

Kənd təsərrüfatının elə məhsulları vardı ki, onları uzaq məsafəyə aparmaq sərfəli deyildi. Həmin məhsulların (barama, üzüm, süd və s.) uzun zaman yolda olması onların keyfiyyətlərinin və əmtəə dəyərinin aşağı düşməsinə səbəb olurdu. Çar hökuməti bu növ məhsulların ilkin emalının yerlərdə keçirilməsində maraqlı idi.

Azərbaycan sənayesində manufaktura mərhələsi uzunömürlü olmamışdır. Kapitalist inkişafının bu forması yalnız ipək emalı sənayesində bir əsrə qədər davam etmişdir. Deməli, ipək emalı sənayesi sənaye kapitalizmi inkişafının bütün mərhələərini keçə bilmişdi. Çünki ipəktoxumanın hələ orta əsrlərdən ölkədə geniş inkişaf tapması, Azərbaycanın Rusiya tərəfindən istilasından sonra ipəksarımanın Rusiyanın daxili quberniyalarında o qədər də inkişaf etməməsi, həm də rus ipəktoxuma məmulatının əhalinin bu mallara olan tələbini uzun zaman ödəyə bilməməsi Azərbaycanda bu istehsal sahəsinin inkişafını dayandıra bilməmişdi. Rusiyadan ucqarlara, o cümlədən Azərbaycana hazır malların gətirilməsi yerlərdə müvafiq istehsal sahələrinin inkişaf mərhələlərinin yarımçıq qalmasına gətirib çıxarırdı. Bu isə, öz növbəsində, iqtisadiyyatın birtərəfli inkişafı ilə nəticələnirdi.

## § 4. TİCARƏT

XIX əsrin birinci yarısında Azərbaycan ticarəti öz inkişafında ölkənin sosial, iqtisadi və siyasi vəziyyəti ilə əlaqədar olaraq bir sıra mərhələlərdən keçmişdir. Azərbaycan iqtisadiyyatına ciddi zərbə endirən iki Rusiya-İran müharibəsi, çarizmin Zaqafqaziyada ticarət və gömrük siyasətinin qeyri-sabitliyi, Azərbaycanda müxtəlif çəki, ölçü və pul sistemlərinin tətbiq edilməsi XIX əsrin birinci 30 illiyində ticarətə mənfi təsir göstərən amillər idi. Müharibədən zərər çəkən rayonlarda ticarət xeyli tənəzzül etmişdi. Lakin buna baxmayaraq, bu dövrdə Azərbaycan ticarəti, xüsusən onun xarici ticarət əlaqələri bütövlükdə, yavaş da olsa, müəyyən inkişaf və genişlənmə yolunda idi. Mühüm coğrafi mövqedə yerləşən Bakı şəhərində ticarət genişlənmiş, tacirlərin sayı və onların malik olduqları kapitalın miqdarı xeyli artmışdı. 1810-cu ildə Bakının ticarət dövriyyəsi 500 min manat idisə, 1827-ci ildə bu, 5205 min manata qədər artmışdı [36]. Bu dövrdə Azərbaycanın Mərkəzi Rusiya ilə ticarət əlaqəsi inkişaf etməkdə davam edirdi. Azərbaycandan Mərkəzi Rusiyaya aparılan malların arasında öz dəyərinə görə mühüm yer tutan ipək və ipək məmulatının miqdarı xeyli artmışdı.

Azərbaycanda ipək istehsalının mərkəzi olan Şəki əyalətindən 1822-1828-ci illərdə Mərkəzi Rusiyaya 2066 min manatlıq 31 min pud ipək aparılmışdı. Həmin illərdə Rusiya fabriklərində istehlak edilən ipəyin 37 faizə qədəri Şəki ipəyinin payına düşürdü [37]. Azərbaycanın digər rayonlarından da Mərkəzi Rusiyaya xeyli ipək aparılırdı. Belə ki, 1823-1829-cu illərdə Şirvan əyalətindən oraya 8,3 min pud, Qarabağ əyalətindən isə 20-ci illərdə hər il gümüş pulla 1 mln. manatlıq ipək aparılmışdı [38].

Azərbaycandan Mərkəzi Rusiyaya aparılan ipək məmulatı, qızılboya (marena) ilə yanaşı, çəltik, ağ neft, zəfəran və s. malların miqdarı da ilbəil artırdı.

Mərkəzi Rusiyadan Azərbaycana gətirilən bir sıra mühüm malların, xüsusilə pambıq-parça məmulatı, xırdavat malları, qab-qacaq, dəmir, dəmir məmulatı və s. digər sənaye mallarının miqdarı da çoxalır və yerli əhalinin tələbatının ödənilməsində onların əhəmiyyəti artırdı. Mərkəzi Rusiyadan hər il Zaqafqaziyaya gətirilən malların xeyli hissəsi Azərbaycan bazarlarında satılırdı.

30-cu illərdən etibarən ticarət əlaqələri və əməliyyatları daha da genişlənmişdi. Azərbaycanın Rusiya tərəfindən işğalının başa çatması ilə burada keçirilən bir sıra sosial-iqtisadi tədbirlər sənaye, kənd təsərrüfatı və nəqliyyatla bərabər ticarətin də inkişafına kömək edirdi. Azərbaycanda yeni-yeni ticarət məntəqələri yaranır, ticarət müəssisələrinin sayı və dövriyyəsi çoxalır, ayrı-ayrı rayonlar arasında əmtəə mübadiləsi genişlənir, əmtəə-pul münasibətləri inkişaf edirdi [39].

Bakının nefti, duzu və Zəfəranı, Talış əyalətinin düyüsü, Qubanın, Ordubadın, Yelizavetpol və Zaqatalanın meyvəsi, Şəkinin və Şamaxının ipəyi və ipək parçaları, Lahıcın mis qabları, Quabnın xalçaları və s. yerlərin özünəməxsus spesifik malları özünə yeni bazarlar tapırdı.

Azərbaycanın Bakı, Şamaxı, Şəki, Şuşa və Gəncə kimi mühüm ticarət şəhərləri ilə bərabər, Quba, Salyan, Lənkəran, Zaqatala, Naxçıvan və Ordubadın da ticarət dövriyyəsi artır və onların hər biri ətraf yerlərin alğı-satqı mərkəzlərinə çevrilirdi.

Əlverişli coğrafi mövqedə yerləşməklə, həm də neft kimi sərvətə malik olmaqla Bakı şəhəri Mərkəzi Rusiya və İran mallarının Azərbaycan rayonlarında yayılmasında və yerli məhsulların isə oraya aparılmasında həlledici əhəmiyyət kəsb edirdi. 1833-cü ildə Bakıdan Azərbaycanın digər qəzalarına və Zaqafqaziyaya 196 min, 1852-ci ildə isə 500 min manatlıq mal aparılmışdı. 1839-cu ildə həmin yerlərdən Bakıya 38,4 min, 50-ci illərin başlanğıcındea isə 100 min manatlıq mal gətirilmişdi [40]. 40-cı illərin sonunda Bakı, Lənkəran, Şamaxı, Quab və Nuxa qəzalarında 95,6 min manatlıq 211 min puda yaxın neft məhsulu (bunun 800 pudu ağ neft idi) satılmışdı.

Azərbaycan şəhərlərində ayrı-ayrı ticarət məntəqələrində ticarət müəsasisələrinin sayı və dövriyyəsi sürətlə çoxalırdı. 40-cı illərin əvvəlində Şamaxı və Nuxa şəhərlərinin hər birində 700-dən çox, Şuşada və Yelizavetpolda

müvafiq surətdə 453 və 430, Bakıda 360, Naxçıvanda 310 ticarət müəssisəsi var idi [41]. Bunlardan başqa həmin yerlərdə 150-yə qədər dükan və içki evləri də fəaliyyət göstərirdi.

Ticarət məntəqəsi kimi məhşurlaşan iri kəndlərdə bazar ticarəti sürətli inkişaf edirdi. 1843-cü ildə kəndlərdə 20-dən çox bazar var idi. Həmin ildə bu bazarlara gümüş pulla 364 min manatlıq mal çıxarılmış və onun 238 min manatlığı satılmışdı [42]. Bazar ticarətinin başlıca predmeti ipək, taxıl, meyvə, pambıq parça, yun məmulatı və s. idi.

Şəhərlərdə ticarətlə məşğul olanların da sayı ilbəil artırdı. 1832-ci ildə Bakıda ticarətlə 233 nəfər, 1849-cu ildə isə 322 nəfər məşğul olurdu. Bunların bir qismi (1852-ci ildə 67 nəfəri) fabrik-zavod məmulatı satışı ilə məşğul olurdu. Azərbaycanın Mərkəzi Rusiya və İranla ticarət əlaqələrində Bakının müstəsna əhəmiyyətə malik olması kənar yerlərdən də buraya tacirlərin daha çox cəlb edirdi. Burada xarici ticarətlə məşğul olan tacirlərin sayı ilbəil artaraq, 50-ci illərə yaxın 50 nəfərə çatmışdı. Bunların əksəriyyəti yerli tacirlər idi. Qalanları Azərbaycanın digər yerlərindən və Dərbənddən, habelə Tiflisdən, Həştərxandan və İrandan gələnlər idi [43].

Bakı limanının yüz min manatlara bərabər dövriyyəsi yerli tacirlərin sürətlə varlanmasına və kapital yığımının artmasına səbəb olurdu. 30-cu illərin başlanğıcında Bakıda 243 tacir ailəsinin malik olduğu ümumi kapital 66 min çervondan ibarət idi (o dövrün gümüş pul kursuna görə - 198 min manat). Ən çox kapitalı olan ailələr 5 və 8 min çervona malik idi. Bütün kapitalın 59,5 faizi 28 tacir ailəsinə məxsus idi. 50-ci illərin əvvəllərində Bakı tacirlərinin kapitalı milyon manata çatmışdı ki, bu da 30-cu illərin əvvəllərinə nisbətən 5 gəfə çox idi. Müvəqqəti tacirlik edənlər də hesaba alınarsa, bu dövrdə Bakıda dövriyyəyə buraxılan pulun qədəri 3 minyon manatdan artıq idi [44]. Azərbaycanın digər şəhərlərində də ticarət kapitalının həcmi xeyli artmışdı. 40-cı illərin sonlarında Nuxada 3000 nəfərdən çox ticarətlə məşğul olan car idi. Nuxa ipək ticarətinin mərkəzi kimi tazirlərin diqqətini xüsusilə cəlb edirdi. 1830-cu ildə burada ipək ticarəti ilə 40 tacir məşğul olurdu. İpək almaq üçün Nuxaya Tiflisdən, Şuşadan, Ordubaddın Əylis kəndindən və s. yerlərdən 1150 min manata qədər nəğd pul gətirlirdi [45]. 40-cı illərdə Nuxanın ipək ticarəti ilə məşğul olan 6 taciri daimi olaraq Moskvada yaşayırdı.

Şuşa tacirlərinin kapitalı sürətlə çoxalırdı. 20-ci illərin sonlarında Şuşa tacirləri tərəfindən hər il Mərkəzi Rusiyaya Zaqafqaziyanın müxtəlif yerlərindən alınmış gümüş pulla 1 mln. manatlıq ipək aparılırdı [46]. Artıq 50-ci illərin əvvəllərində Şuşada dövriyyədə gümüş pulla 100 min, 200 min və bundan artıq kapitalı olan tacirlər var idi. Onlardan bir çoxu Leyptsiq, İstanbul və Təbriz şəhərləri ilə tranzit ticarətində iştirak edir, Moskvada ipək ticarəti ilə məşğul olurdular [47]. Bu dövrdə xeyli Şamaxı taciri Nijni-Novqorod yarmarkasına mal aparırdı [48].

40-cı illərin əvvəllərində Şamaxı şəhərində tacirlərin dövriyyədə olan kapitalı 848 min manat, Bakı şəhərində 527 min manat, Nuxa şəhərində 503 min manat, Şuşada 374 min manat və Lənkəranda 94 min manatdan idi [49].

Bu dövrdə Azərbaycan tacirlərini malik olduqları kapitalın qədərinə görə 5 dərəcəyə bölmək olardı. Birinci dərəcəyə 160 min manata qədər kapitalı olanlar, ikinciyə 70 min manata, üçüncüyə 30 min manata, dördüncüyə 10 min manata, beşinci dərəcəyə 5 min manata qədər kapitalı olanlar daxil idi [50].

XIX əsrin 30-cu illərindən etibarən Azərbaycanın Mərkəzi Rusiya ilə ticarəti getdikcə daha böyük əhəmiyyət kəsb edirdi. Azərbaycan Rusiya sənayesi üçün getdikcə daha çox mühüm xammal mənbəyi və satış baxarına çevrilirdi. Rusiyanın İranla ticarət əlaqələrinin genişlənməsində də Azərbaycanın əhəmiyyəti ilbəil artırdı.

Bu dövrdə Azərbaycanın Mərkəzi Rusiya ilə ticarət əlaqəsi saxlandığı həm quru və həm də su ilə daşınan malların miqdarı artmış və çoxçeşidli olmuşdu. Azərbaycandan oraya 30-cu illərdə orta hesabla ildə 308 min, 40-cı illərdə isə 611 min manatlıq mal aparılmışdısa, həmin dövrdə müvafiq surətdə 935 min manatlıq mal gətirilmişdi [51].

Azərbaycanın Mərkəzi Rusiya ilə ticarət əlaqələrində Bakı şəhəri müstəsna əhəmiyyətə malik idi. 1830-1835-ci illərdə Bakıdan oraya orta hesabla ildə 119,3 min, 50-ci illərin əvvəlində isə 527,4 gətirilən malların miqdarı da ilbəil çoxalırdı. 1837-ci ildə oradan 258,6 min manatlıq, 1852-ci ildə 757,6 min manatlıq mal gətirilmişdi [52].

Azərbaycandan Mərkəzi Rusiyaya başlıca olaraq yenə də ipək və ipək məmulatı, təbii qızılboya, çəltik, balıq məhsulları, dəri, yun, ağ neft, zəfəran və s. mallar aparılırdı. Azərbaycan ipəyinin istehlakında Mərkəzi Rusiya yenə də mühüm rol oynayırdı. 30-40-cı illərdə Azərbaycan tacirləri oraya hər il təqribən 18-20 min pud ipək aparırdılar [53]. Azərbaycandan Mərkəzi Rusiyaya aparılan təbii boya oradan Holland və Fransa kralını sıxışdırıb aradan çıxarırdı. Azərbaycan balığı və balıq məhsulları əsasən Mərkəzi Rusiyada satılırdı. Azərbaycandan oraya 30-cu illərdə orta hesabla ildə 139 min, 40-cı illərdə 337 min manatlıq balıq və balıq məhsulları göndərilmişdi [54]. 40-cı illərin sonlarında yalnız salyan vətəgələrindən Həştərxana ildə gümüş pulla 200 min manatlıq balıq məhsulu aparılırdı [55].

Mərkəzi Rusiyadan Azərbaycana başlıca olaraq pambıq-parça məmulatı, dəmir və dəmir məmulatı, qab-qacaq, xırdavat malları və s. gətirilirdi. Rusiyanın nisbətən aşağı keyfiyyətli pambıq-parça məmulatı 20-ci illərdə Azərbaycana gətirilən yüksək keyfiyyətli Avropa pambıq-parça məmulatının ciddi rəqabətinə rast gəlirdi.

1831-ci il iyunun 3-də müəyyən edilmiş yeni ticarət tarifi (“yasaqlı tarif”) Avropa mallarının Zaqafqaziyaya axınını yüksək gömrük haqqı vasitəsilə kəsmiş oldu. Bunun nəticəsində Mərkəzi Rusiyadan gətirilən pambıq-parça məmulatının

miqdarı ilbəil artmağa başladı. 1831-ci ildə Mərkəzi Rusiyadan buraya 167 min manatlıq pambıq-parça məmulatı gətirilmişdisə, 1850-ci ildə bu rəqəm 712 min manata çatmışdı [56]. Rusiya dəmirinə və rəngarəng qaglarına burada ehtiyac var idi. 1838-ci ildə Mərkəzi Rusiyadan Azərbaycana 146 min manatlıq, 1847-ci ildə 189 min manatlıq dəmir və dəmir məmulatı gətirilmişdi. Mərkəzi Rusiyadan Azərbaycana dəmir və dəmir məmulatı, demək olar ki, əsasən Bakı limanı vasitətilə gətirilirdi. 50-ci illərin əvvəllərində Rusiyadan Bakıya gətirilən təxminən 100 min pud dəmirin 25 min puda 25 min pudu İrana ixrac edilir, qalanı isə Qafqazda olan tələbat üçün işlənirdi [57].

Azərbaycanın İranla ticarət əlaqələri də ilbəil genişlənirdi. Azərbaycan neftinə, duzuna, zəfəranına və s. məhsullarına İranda son dərəcə böyük tələbat var idi. İranın da kustar məmulatı və bir sıra kənd təsərrüfatı məhsulları burada yaxşı alınırdı. Azərbaycan eyni zamanda Mərkəzi Rusiyadan İrana olan izracatda və oradan olan idxalatda da həlledici rola malik idi və Rusiyanın İranla ticarət əlaqələrinin ümumi yekununda Azərbaycanın xüsusi çəkisi çox idi.

Çar hökuməti Rusiyanın İranla ticarətinin inkişafına xüsusi əhəmiyyət verirdi. Azərbaycanın İranla ticarəti Bakı, Cavad, Salyan, Lənkəran, Cəbrayıl, Naxçıvan və Ordubad gömrükxanalarında qeydiyyatdan keçirilirdi. 1833-cü ildə həmin gömrükxanalar vasitəsilə İrandan Azərbaycana 1058 min manatlıq mal gətirilmişdi [58].

Azərbaycanın İranla ticarətində yenə də Bakı xüsusilə böyük rol oynayırdı. Bakıdan İrana 30-cu illərdə orta hesabla ildə 112 min, 40-cı illərdə 131 min manatlıq mal ixrac edilmiş və həmin illərdə müvafiq surətdə 342 min, 354 min manatlıq mal idxal edilmişdi [59]. Bu dövrdə İran Azərbaycan neftinin satılmasında mühüm rol oynayırdı. Burada hasil edilən neftin mühüm hissəsi İrana ixrac edilirdi. 1847-ci ildə Bakıda təsis edilən "Baranov, Remizov, Yegizarov və K°" şirkətinin Bakıdan İrana dəmir ixracının çoxalmasında əhəmiyyətli rol oynamışdı.

Beləliklə, XIX əsrin birinci yarısında Azərbaycanda əmtəəlik məhsulların həcmi artmış və əmtəə tədavülü inkişaf etmiş, ticarət kapitalı çoxalmış, bazarın həcmi, əmtəə-pul münasibətləri genişlənmişdi.

## § 5. AQRAR MÜNASİBƏTLƏR

Şimali Azərbaycanın Rusiya tərəfindən istilasından sonra feodal torpaq mülkiyyətinin iki əsas forması – xəzinə (divan torpaqları) və xüsusi sahibkar torpağı formaları mövcud idi.

Hələ istilanın gedişində əvvəllər xanlara, əmlakları müsadirə olunmuş bəylərə məxsus olmuş böyük torpaq sahələri çar xəzinəsinin sərəncamına keçmişdi. Bundan başqa, Azərbaycan kəndində kəndlilərin icmalıqla istifadə etdikləri və

xəzinənin sərəncamında olan torpaqlar da var idi ki, bunlar da divan torpaqları adlanırdı. Bu torpaqlarda istiladan sonra çar xəzinəsinin sərəncamına verildi.

Xəzinə torpaq mülkiyyətinin üstünlüyü Şərq ölkələrində aqrar quruluşun əsas xüsusiyyətlərindən biri idi, belə ki, feodal torpaq mülkiyyətinin hökmranlığı Şərqdə feodalizm xüsusiyyəti idi. Bu, Azərbaycanda da müşahidə olunurdu.

XIX yüzilliyin birinci yarısında çar xəzinəsinə məxsusu olan torpaqlarla yanaşı, iri və xırda feodalların mülkiyyətində olan torpaqlar da var idi. Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsindəki dövrdə Azərbaycanın hakim feodallar sinfinin iyerarxiya pilləsinin başında xanlar dururdular. Onların ardınca vassallar – yerli soltanlar, məliklər, bəylər, ağalar və b. gəlirdi. Ali ruhani nümayəndələri yerli feodallar içərisində böyük nüfuza malik idilər. Lakin Azərbaycandakı feodal torpaq mülkiyyəti iyerarxiyası bəzi Qərbi Avropa ölkələrində olduğu kimi, çoxpilləli deyildi.

Şimali Azərbaycanın Rusiya tərəfindən istilası feodal torpaq mülkiyyətinə ciddi təsir göstərirdi [60]. Hələ istilanın gedişində Azərbaycanın xanları bəzi yerlərdə, məsələn, Qarabağ, Şəki, Şirvan, Talış və Naxçıvanda tədricən, bəzi yerlərdə (Gəncə, Quba və Bakıda) dərhal dövlət hakimiyyətindən məhrum olmuşdular. Torpaq sahibləri olaraq qalsalar da, xanların əksəriyyəti dövlət başçısı hüququnu itirdi. Xan üsuli-idarəsinin ləğvi və onu komendant üsuli-idarəsi ilə əvəz olunması ilə birlikdə öz əhəmiyyətini itirdi, bəylərin iri hakim xanlardan vassal-asılı münasibətlərdə aradan qalxdı [61].

Şimali Azərbaycanın feodal torpaq mülkiyyətinin köhnə formaları, məsələn, tiyul, mülk, mülki-xalisə və vəqf qalmaqda davam edirdi.

Çar hökuməti tiyul torpaqların bağışlanılmasının əvvəllər burada mövcud olan qaydasını əsasən qoruyub saxladı. XIX yüzilliyin birinci yarısında tiyulların bəxş edilməsi üçün əsas səbəb rolunu feodalların hərbi və digər xidmətləri, onların çarizmə sədaqəti oynayırdı. Bu, əyalət komendantlarının çoxsaylı "bəxşetmə fərmanlarında" və onların hərbi dairə rəislərinə sərəncamlarında parlaq surətdə əks olunmuşdur. Məsələn, Qafqaz ordusunun baş komandanı Tormosov 1811-ci ildə Quba əyalətinin 218 kəndli həyəti olan Keuxanlı, Mirzəkənd, Xudat, Padar və digər dövlət kəndlərinin kollegiya assessoru Ağa bəy Sadıqova bağışlanması barədə göstəriş vermişdi.

Şirvan komendantı 1822-ci ildə 4 kəndin mustafa bəyin istifadəsinə Talış müvəqqəti idarəsi bir sıra kəndlərin Alxazov familiyalı bəyə bağışlanması barədə əmr vermişdi. Belə bəxşetmələr nəticəsində feodal əksər hallarda torpaq yox, ondan vergilər götürmək hüququ alırdı. Bəxşetmə fərmanlarında torpağın bağışlanmasına çox nadir hallarda rast gəlinir. Azərbaycanın istilasından sonrakı tiyul feodal torpaq institutunun xüsusiyyətlərindən biri də məhz bu olaraq qalırdı.

Tiyul torpaqları bir qayda olraq, feodalın ömürlük sahibliyində olurdu. Bu torpaqlar satmaq və bağışlamaq obyekti ola bilməzdi; ancaq hüquqi varisin özünün çarizm qarşısında xidmətlərə malik olduğu halda irsən keçə bilərdi. Tiyul barəsində

sərəncam vermək hüququ müstəsna olaraq çar hökuməti idarələrinə məxsus idi. Tiyul feodalın tam xüsusi mülkiyyəti deyildi, feodal torpaq sahibliyi forması olub, şərti xarakter daşıyırdı.

XIX yüzilliyin I yarısında Azərbaycanda mülk formasında geniş yayılmış şəxsi feodal torpaq mülkiyyəti də mövcud idi. Mülk ali hakimə xidmət borcu ilə əlaqədar olmayan irsi, tam feodal torpaq mülkiyyəti forması idi. Mülk satıla, başqasına güzəştə gedilə, bağışlana bilərdi və s.

Mülki sahibi onun tam sahibi kimi "mülkədar" adlanırdı [62]. Təkcə torpaq deyil, su da (əgər suvarma arxı xüsusi şəxsin – feodalların vəsaiti hesabına qazılırdısa) mülk ola bilərdi. Bu halda su mülkədarın mülkünə çevrilir və mülkədar su və bu su ilə suvarılan torpaqlar üçün bütün kəndlilərdən öz xeyrinə vergi toplaya bilərdi.

Mülki-xalisə mülkün növlərindən biri idi. Bəylərə məxsus olan mülki-xalisə torpaqları onların tam xüsusi mülkiyətində idi. Feodal torpaq mülkiyyətinin bu kateqoriyasının sahibləri məhkəmə və vergi immunitetinə malik idilər. Bu o deməkdir ki, mülki-xalisə torpaqlarında yaşayan kəndlilərdən yığılan bütün vergilər sahibkarın ixtiyarına keçirdi. Mülki-xalisə torpaqları keçmiş xanlıqların – Lənkəran, Şəki, Şirvan, Qarabağ və Quba əyalətlərinin ərazilərində mövcud idi. Mülki-xalisə ən çox Lənkəran əyalətində yayılmışdı.

Nəhayət, Azərbaycanda məscidlər, monastırlar və digər dini idarələr feodal mülkiyyətçiləri rolunda çıxış edirdilər. Müxtəlif mənqul (daşınan – Red.) və qeyri-mənqul əmlakdan (o cümlədən də torpaqdan) ibarət olan vəqflər onların mülkiyyətində idi. Xüsusi feodal torpaq mülkiyyətinin ümumi kütləsində vəqf torpaqlarının xüsusi çəkisi cüzi idi. Lakin Şuşa məscidləri böyük miqdarda torpağa malik idilər. Bibiheybət şeyxlərinin Bakı yaxınlığındakı iri torpaq sahələri də vəqfə aid idi. Azərbaycanın digər yerlərində də vəqflər var idi [63].

XIX yüzilliyin I yarısında çarizmin Azərbaycandakı aqrar siyasəti iki mərhələdən ibarət olmuşdur. Birinci mərhələ Şimali Azərbaycanın Rusiya tərəfindən istilasının başa çatmasına qədər – 1828ci ilədək istila dövrünü, ikinci və bundan sonrakı illəri əhatə edir. Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı zamnaı hakim sinfin İranla əlaqəsi burada hələ güclü idi. Xanlıqların yuxarı təbəqələrinin müəyyən hissəsinin İrana meyil etməsi bunun nəticəsi idi. Ona görə də yerli hakim sinfin ilk zamanlar "etibarsız" sayılırdı.

İstilanın lap əvvəlindən çarizmin aqrar siyasəti mülkədar hökmranlığının aləti kimi mütləqiyyətin sosial mahiyyətinin doğurdu. Təbii ki, Azərbaycanda çarizmin sosial dayağı ancaq yerli feodallar ola bilərdi. Lakin çar hökuməti bu sosial siyasətini çox mürəkkəb xarici və daxili şəraitdə, Azərbaycanda hakim sinfinin bir hissəsinin əldə silah ölkənin Rusiya tərəfindən istilasına qarşı çıxdığı bir şəraitdə həyata keçirməli olurdu. Təbiidir ki, bu, Rusiya hökumətini manevr etməyə, yerli feodallara çarizmə sədaqətlə qulluq göstərməyə məcbur etmək məqsədilə onlara siyasi və iqtisadi təzyiq üsulları axtarmağa vadar edirdi.

Belə şəraitdə çarizm torpaq sahiblərinin – bəylərin torpaq sahibliyinin hüquqi cəhətdən sənədləşdirilməsindən istifadə edərək, belə bir tezis irəli sürdü ki, guya əsrlərdən bəri Azərbaycanda feodal münasibətləri olmamış və tiyuldar bəylər torpaq sahibkarı deyil, xeyirlərinə kəndlilər tərəfindən bəzi mükəlləfiyyətlər icra olunan torpaq “idarəçiləridirlər”. Bu tezis yerli feodallara təzyiq göstərmək üçün çarizmin əlinə güclü silah verdi: hökumət bu tezisə arxalanaraq, ona xəyanət etmiş, etibarsızlar aırasına düşmüş, yaxud sadəcə olaraq, bəslənilən ümidləri doğrultmamış istənilən feodalın torpaqlarını müsadirə etmək imkanı qazandı. Müsadirə olunmuş mülklər xəzinənin ixtiyarına keçir, yaxud da digər feodalın “idarəsinə” verilirdi. Sonuncu hökumətdən torpaq alarkən yadında hökumətdən torpaq alarkən möhkəm yadında saxlamalı idi ki, o, torpağı ancaq idarə edir, özü də bu hüquqa o, mütləqiyyətə sədaqətlə və canı-dildən xidmət güstərdiyi müddətə malikdir. Beləliklə, torpağın belə “idarəyə” verilməsi tiyuldar-feodalları çarizmdən tam iqtisadi asılılığa salmağa çalışanlar üçün əlverişli idi. Bununla yanaşı, belə vəziyyət çarizmin üçün həm də ona görə əlverişli idi ki, o özünü Azərbaycandakı bütün məskun torpaqların ali mülkiyyətçisi elan edir, bu isə ona torpaqları kütləvi surətdə tiyuldarlardan müsadirə etmək səlahiyyəti verirdi.

Çarizmin bu dövrdəki torpaq siyasəti öz əksini 1818-ci ildə verilmiş ağalar “Əsasnamə”sində tapmışdır. Qazax, Şəmşəddil və Borçalı distansiyalarının ağalarına şamil edilmiş əsasnamə buna əsaslanırdı ki, bütün ağalar kəndlərin sahibkarları deyildir və Rusiyaya göstərdikləri xidmətlərin müqabilində bu kəndləri ancaq “idarə” edirdilər.

Çar hökuməti idarələri digər əyalətlərdə də xüsusi torpaq sahibliyinə münasibətdə eynilə bu cür siyasət yürüdürdü. Lakin onlar daim qeyd edirdilər ki, torpaqları “idarə” etmək hüququ hökumətin bəxş etdiyi mərhəmətdir və bu hüquqa ancaq çarizmə sədaqətlə qulluq edənlər layiqdirlər. Birinci mərhələdə çarizmin Azərbaycandakı torpaq siyasətinin ümumi xüsusiyyətləri belə idi.

1830-cu il reskripti və yerli feodalları tiyul hüququnda torpaq paylanmasına feodallarla çarizmin ittifaqını yaratdı. Doğrudur, bir qədər sonra çar hökuməti bu ittifaqa zidd müəyyən addımlar da atdı, 1841-ci il qanununu verdi. Bu qanunla Qazax və Şəmşəddil distansiyaları ağalarının torpaqları xəzinənin xeyrinə müsadirə edildi. Lakin rus zadəganlarının bu yerlərə keçmək istəməsi, habelə Azərbaycan xan və bəylərinin güclü müxalifəti və narazılığı üzündən bu siyasət müvəffəqiyyətsizliyə uğradı və hökumət yerli feodallarla pozulmuş ittifaqı bərpa etməyə tələsdi. 1846-cı il 6 dekabr tarixli reskripti yerli feodallara münasibətdə çarizmin bu yeni siyasətinin təzahürü oldu. Bu qanun tiyuldarlara təntənəli sutərdə bildirirdi ki, çar mərməməti sayəsində onlar ixtiyarlarında olmuş bütün torpaqların tamhüquqlu irsi mülkiyyətçilərinə çevrilirdi.

Şimali Azərbaycanın Rusiya tərəfindən istilasından sonra feodal asılı kəndlilər iki qrupa – xəzinə (dövlət) və xüsusi sahibkar kəndlilərinə bölünürdülər. Çar hökuməti torpaqların əksər hissəsini öz əlində cəmləşdirmişdi. Bu torpaqları

becərən və xəzinə tərəfindən feodal istismarına məruz qalan kəndlilər dövlət və ya xəzinə kəndliləri adlandırmağa başladılar.

Hələ Şimali Azərbaycanın istilası gedişində əvvəllər əmlakları müsadirə edilmiş xanların feodal asılılığında olmuş kəndlilərin böyük bir hissəsi çar xcəzinəsinin sərəncamına keçmişdi. Türkiyəpərəst və iranpərəst meyilli bəylərin əlindəki torpaqları və bu torpaqlardan istifadə edən kəndlilərin bir hissəsi də dövlət kəndliləri sırasında daxil edilmişdi. Azərbaycanın bütün əyalətlərdən dövlət kəndlilərinin sayı sahibkar kəndlilərinin sayına nisbətən xeyli çox da xüsusi sahibkar torpaqları, müvafiq olaraq həm də xüsusi sahibkar kəndliləri çoxluq təşkil edirdi.

XIX yüzilliyin 40-cı illərinin ortalarına yaxın Xəzər vilayətinin 6 qəzasında – Şirvan, Qrabağ, Şəki, Lənkəran, Bakı və Quba qəzalarında 585794 nəfərlik kənd əhalisinin 394548 nəfərini bu vilayətin 68,6%-ni dövlət kəndliləri təşkil edirdi. Dövlət kəndliləri bu vilayətin 63211 kəndli həyətini əhatə edən 1441 kəndində yaşayırdı. Dövlət kəndliləri inzibati cəhətdən Dövlət Əmlakı Nazirliyinə tabe idilər [64].

Dövlət kəndliləri rəiyyət və rəncbərlərdən ibarət idi. Rəiyyətlər xəzinə kəndlilərinin əksər kütləsini təşkil edirdilər. Dövlət rəiyyətləri icmalar (camaatlar) halında yaşayır, bir qayda olaraq, dövlətə məxsus pay torpağı sahələrindən istifadə edir və özlərini istehsal vasitələrinə (iş heyvanlarına, kənd təsərrüfatı alətlərinə) malik idilər. Onlar torpaqla kifayət qədər təmin edilməmişdilər. Dövlət rəiyyətləri çox vaxt aztorpaqlılıqdan əziyyət çəkir, bu da xüsusən əkin torpaqlarına münasibətdə hiss olunurdu. Dövlər kəndlilərinin əkin torpaqlarının çatışmazlığı, demək olar ki, bütün əyalətlərdə müşahidə edilirdi. Dövlət əmlakı palatasının rəsmi məmulatlarına görə, hər bir dövlət rəiyyətinə düşən orta pay torpağının sahəsi təxminən 3-3,5 desyatinə bərabər idi. Halbuki hökumət orqanlarının öz hesablarına görə, təsərrüfatla məşğul olmaq üçün hər kəndliyə ən azı 5 desyatin torpaq sahəsi lazım idi.

Dövlət rəiyyətləri xəzinəyə çoxlu vergi ödəyir və mükəlləfiyyətlər deaşıyırdılar. Bu vergilər içərisində ən geniş yayılanı natura ilə ödənilən vergi idi. Vergi sistemi bir qədər qaydaya salınmışdı: saysız-hesabsız xırda vergilər bir və ya iki vergidə birləşdirilmiş, yəni hər il müəyyən məbləğdə alınan birbaşa vergilərə çevrilmişdi. Bu, xan üsuli-idarəsi dövründə vergi sistemində mövcud olmuş özbaşınalığı müəyyən dərəcədə məhdudlaşdırırdı.

Dövlət rəiyyətlərinin mükəlləfiyyətlərini nizamlamaq üçün çar hökumətinin göstərdiyi cəhd Azərbaycan dövlət kəndində bu dövrdə baş verən sosial dəyişikliklər prosesində mühüm rol oynadı.

Əyalətlərin əksəriyyətində dövlət kəndlilərinin ödədikləri vergilər kəndlər və ya kəndli həyətləri üzrə deyil, sahələr (nahiyələr) üzrə müəyyənləşdirildi. Vergilərin sonrakı bölgüsü yerli inzibati orqanların ixtiyarında idi. Vergilərin

toplanmasında, bir qayda olaraq nə kəndlilərin torpağının sahəsi, nə onların iş heyvanının miqdarı, nə də ailələrdəki işçi qüvvəsinin sayı nəzərə alınırdı.

Vergi sistemində bəzi mühüm dəyişikliklər hələ 1819-cu ildə Şəki əyalətində həyata keçirilmişdi. Natural vergilərin yerinə pul vergiləri qoyulmuşdu. “Malcəhə” və “darğalıq” da pul vergilərinə çevrilmişdi. Əgər XIX yüzilliyin 20-ci illərində Şəki əyalətində ərzaqla toplanılan vergi çoxluq təşkil edirdisə, 40-cı illər ərəfəsində natural və pul formalarının nisbəti, demək olar ki, eyni idi.

XIX yüzilliyin 30-cu illərinin əvvəllərində maliyə nazirliyinin tapşırığı üzrə Zaqafqaziyada vergi sistemi yoxlanıldı. Bu yoxlama ayrı-ayrı əyalətlərdə dövlət kəndlilərinin vergi və mükəlləfiyyətlərinin növləri və məbləği arasında fərqin xeyli olduğunu aşkara çıxartdı.

Vergilərin bölünməsi sistemi və onların yığılması üsulu da bir-birindən xeyli fərqlənirdi. Məsələn, Şirvan əyalətində vergilər hər kənd, Qarabağ əyalətində hərbir kəndli həyəti, Lənkəran əyalətində isə mahallar üzrə təyin olunurdu. Bütün bunlar yerli hakimiyyət orqanlarının özbaşınalıqları üçün geniş imkanlar açırdı. Buna baxmayaraq 30-cu illərdə çar hökuməti əvvəlki vergi sisteminə bəzi dəyişikliklər və əlavələr etməklə kifayətləndi. Bununla yanaşı, hökumət vergi və mükəlləfiyyətlərin ümumi həcmini artırmağa, natural vergiləri pul vergiləri ilə əvəz etməyə can atırdı. Özü də həyata keçirilən dəyişikliklər bütün əyalətlər üçün bərabər deyildi.

30-cu illərdə keçirilmiş dəyişikliklər nəticəsində Qarabağ və Talış əyalətlərində pul rentasının xüsusi çəkisi xeyli artdı. Lakin burada dövlət rəiyyətlərinin natural mükəlləfiyyətlərinin də böyük həcmi qalmaqda idi. Quba əyalətində yerli hakimiyyət orqanları əvvəllər mövcud olmuş pul vergisini və taxıl natural vergisini, demək olar ki, dəyişdirmədən qoruyub saxlamışdılar. Burada ərzaq vergisinin xüsusi çəkisi pul vergisini xeyli üstələyirdi . 30-cu illərdə Bakı əyaləti dövlət kəndlilərinin də vergiləri xeyli artmışdı.

Dövlət rəiyyətləri xəzinənin xeyrinə poçt stansiyaları və keşikçi məntəqələrinin saxlanılması, araba və yanacaq verilməsi, tikinti materiallarının daşınması, xəzinə tikintiləri və yol çəkilməsi üçün işçi verilməsi kimi mükəlləfiyyətləri də yerinə yetirməli idilər.

XIX yüzilliyin birinci yarısında Azərbaycanda köhnə vergi sisteminin əsasən saxlanılması şəraitində həm toplanan vergi və mükəlləfiyyətlərin ümumi həcminin, həm də xüsusən pulla toplanan verginin xüsusi çəkisinin xeyli artması baş vermişdi. Sonuncu vəziyyət əmtəə-pul münasibətlərinin inkişafı üçün əlverişli şərait yaratsa da, obyektiv surətdə mütərəqqi əhəmiyyətə malik olsa da, vergilərin pulla ödənilməsinə keçid kəndli təsərrüfatları üçün çox ağır idi. Bir sıra qəzalarda, xüsusən də şəhərlər və yollardan uzaq yerlərdə yerlərdə dövlət rəiyyətlərinin təsərrüfatlarının bazarlarla əlaqəsi çox zəif idi və pul vergilərinin toplanması çox vaxt bu təsərrüfatların müflisləşməsinə gətirib çıxarırdı.

Feodal-asılı dövlət kəndlilərinin az hissəsini rəncbərlər təşkil edirdi. Dövlət rəncbərləri başlıca olaraq üç qəzada – Talış, Şəki, Şirvanda cəmləşmişdilər. Talış qəzasında çəltik plantasiyalarında çalışan rəncbərlər əkər adlanırdılar. Dövlət əkərləri Talış əyalətindəki dövlət kəndlilərinin 6%-ni təşkil edirdi.

1842- ci ildə Şəki qəzasında ipəkçilik təsərrüfatında çalışan 647 dövlət rəncbəri ailəsi var idi. Onlar qəzadakı bütün dövlət kəndlilərinin 4%-ni təşkil edirdilər.

1844-cü ildə Şirvan əyalətindəki xəzinə ipəkçilik təsərrüfatında (511 tut bağında) 630 dövlət rəncbəri ailəsi işləyirdi. Bundan başqa, xəzinə çəltik plantasiyalarında da təxminən bu qədər rəncbər çalışırdı. Onlar qəzanın bütün kəndlilərinin təxminən 6%-ni təşkil edirdilər.

Rəncbərlərin əksəriyyəti torpaqsız olsalar da, kiçik pay torpaqları olan rəncbərlər də var idi. Rəncbərlərin istismarı başlıca olaraq biyar formasında həyata keçirilirdi. Onlar rəiyyətlərə nisbətən daha amasız istismara məruz qalırdılar. Var-yoxdan çıxmış rəncbərlərin çoxu daxma və zirzəmilərə sığınırdılar.

Çəltikçilik təsərrüfatları rəncbərlərinin vəzifəsinə həm səpin, həm də biçin və döyüm daxil idi. Çəltik plantasiyalarındakı ağır biyar işlərinin müqabilində rəncbərlər toplanmış məhsulun 1/3-ni və ya 2/1-ni alırdılar. Dövlət rəncbərlərinin əksər hissəsi taxılçılıqla məşğul olur, biyar işləri müqabilində məhsulun yarısını alırdılar.

Dövlət rəncbərləri xəzinə tərəfindən qeyri-insani istismara məruz qalırdılar. Talış qəzasında bütün əkərlər ildə hər ailədən gümüş pulla 2 manat zemstvo vergisi ödəməli idilər; bu mükəlləfiyyət onların üzərinə 1840-cı ildə Zaqafqaziyada mülki idarəçiliyin yenidən qurulması ilə əlaqədar olaraq qoyulmuşdu. Zemstvo mülkiyyətindən əlavə, xəzinə hər həyətdən əlavə hər əkər həyətindən gümüş pulla daha 17 man. 40 qəp. qoparırdı. “Təkcə vergi və mükəlləfiyyətlərin ödənilməsindəki bu ölçüsüz fərq əkərlər ifrat yoxsulluğa gətirib çıxarmışdı”.

Tut bağlarında və kənd təsərrüfatlarının digər sahələrində çalışan əkərlər də ağır vergi və mükəlləfiyyətlər yükü daşıyırdı.

XIX yüzilliyin 40-cı illərində xüsusi sahibkar kəndliləri Xəzər vilayətində 585794 nəfərlik bütün kənd əhalisinin 121116 nəfərini və ya 20,6%-ni təşkil edirdi. Dövlət kəndliləri kimi, sahibkar kəndliləri də rəiyyət və rəncbərlərə bölünürdü. Sahibkar kəndlilərin pay torpağı orta hesabla 3-3,6 desyatinə bərabər idi [65]. Vilayətin ayrı-ayrı əyalətləri üzrə rəiyyətlərin torpaqla təmin olunmasının vəziyyəti orta aşağıdakı kimi idi: hər rəiyyət ailəsinə Bakı əyalətində 3,6 desyatin, Şirvan əyalətində 3,5 desyatin, Şəki əyalətində 2 desyatin və Quba əyalətində 1,25 desyatin torpaq sahəsi düşürdü [66].

Çarizmin ən yaxşı torpaqların köçürmə fondu adlanan fond üçün müsadirə olunmasına gətirib çıxaran müstəmləkəçi köçürmə siyasəti sahibkar kəndlilərin vəziyyətinə ağır təsir göstərirdi. Sahibkar rəiyyətlərin aztorpaqlılıqdan, suvarma

suyunun çatışmazlığından əziyyət çəkir, çox vaxt ağır şərtlərlə çar xəzinəsi və ya yerli feodallardan torpaq icarəyə götürmək məcburriyətində qalırdılar. Rəiyyətlər həm öz feodalları, həm də xəzinə tərəfindən amansız istismara məruz qalırdılar.

Feodal vergisi rəiyyətlərdən hər üç formada – işləyib ödəmə, natural və pul formalarında alınır, özü də natural forma üstün mövqe tuturdu.

XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda bəy rəiyyətlərinin vergi və mükəlləfiyyətlərinin sayı 35-ə çatırdı [67]. Bu çoxsaylı mükəlləfiyyətlərin içərisində rəiyyətlər üçün ən ağır və zəhmətlisi işləyib ödəmə mükəlləfiyyəti idi. Rəiyyətlər öz feodalları üçün biyara getməyə borclu idilər, onun bütün kənd təsərrüfatı işlərini yerinə yetirirdilər. Bundan əlavə, rəiyyətlər elliklə ildə 3 gün feodal üçün işləməli idilər. Azərbaycan qəzalarının əksəriyyətində bu mükəlləriyyət əvrəz, Şəki qəzasında isə məci adlanırdı. Rəiyyətlər biyar və əvrəzdən başqa, fərdi sutərdə digər biyar işlərini də yerinə yetirirdilər. Kəndlilər bəzən malikanələrin işlər müdiri – darğa üçün də işləyirdilər, onlar bəyin torpaqlarının əkir, məhsulu yığır, ot biçir, tikinti üçün ağac materialı daşıyır, bəyə kömür, habelə müxtəlif münasibətlərdə ona məcburi "hədiyyələr" verirdilər. Sahibkar rəiyyətlərin mükəlləfiyyətləri nizama salınmamışdı və onalr nəinki ayrı-ayrı əyalətlərdə hətta, iki qonşu kəndində belə eyni deyildi.

Çar müstəmləkəçiləri kənddə sinfi mübarizənin kəskinləşməsindən və kəndin müflisləşməsinin güclənməsindən (bu isə xəzinə gəlirlərinin azalması təhlükəsini yaradırdı) ehtiyat edərək, kəndli mükəlləfiyyətlərinin nizamlanması üçün bəzi cəhdlər göstərirdilər. Feodal istismarının ən yüksək həddini qanunvericilik yolu ilə müəyyənləşdirmək üçün ilk cəhd 1812-ci ildə Quba komendantı tərəfindən edilmiş, lakin bu cəhd, eləcə də 1824-cü ildə həmin Quba əyalətində digər komendant tərəfindən göstərilmiş ikinci cəhd tam müvəffəqiyyətsizliyə uğramışdı. 1819-cu ildə Qazax distansiyasında kəndli mükəlləfiyyətlərinin ağaların xeyrinə olaraq nizamlanması cəhdi də uğursuz oldu. Bu cəhdlərin uğursuzluğu qismən uzun müddət çarizmin yerli feodalların torpaq hüquqlarına münasibətdə qəti müəyyənləşmiş mövqeyə malik olmaması ilə bağlı idi.

Sahibkar rəiyyətlərinin geniş yayılmış vergiləri malcəhət, salyana, darğalıq, at arpası və s. idi. Bütün bu mükəlləfiyyətlər natural xarakter daşıyırdı.

Malcəhət kənd təsərrüfatı bitkisi məhsulundan torpaq sahibkarının xeyrinə ayrılan hissədən ibarət idi. O, adətən dənli bitkilər məhsulun $^{1}/_{10}$, pambıq və ipək məhsulunun isə $^{1}/_{5}$hissəsi həcmində toplanırdı.

Darğalıq mükəlləfiyyəti də əsasən natural xarakter daşıyırdı. Darğalığın ancaq cüzi hissəsi pulla yığılırdı. Darğalığın həcmi dəyişkən olur, çox vaxt məhsulun 20%-nədək artırdı [68].

Sahibkar kəndliləri bəy atlarının yemlənməsi üçün feodallara "at arpası" adlanan daha bir natural mükəlləfiyyət icra etməyə borclu idi. Rəiyyətlərin məhsulunun 20%-ə qədəri at arpasının ödənilməsinə gedirdi.

Bu iri mükəlləfiyyətlərdən başqa, sayı haqq-hesaba çətin gələn xeyli digər natural vergilər də mövcud idi. Xırda natural mükəlləfiyyətlər məzlum, zəif kəndli təsərrüfatları üçün ağır yük idi. Onların ödənilməsi zamanı feodal tez-tez adətləri öz xeyrinə pozurdu.

Natura ilə toplanan vergilərin ödənilməsi zamanı törədilən özbaşınalıqlar nəticəsində onların ağırlığı kəskin surətdə artırdı. Belə özbaşınalıqlar malcəhətin toplanması zamanı xüsusilə tez-tez baş verirdi. Demək lazımdır ki, vergilərin toplanmasında vahid qayda yox idi, hər bir əyalət üçün hər feodalın özünün kəndliləri istismar etmək sistemi mövcud idi.

Rəiyyətlərin pul mükəlləfiyyətləri də (cütbaşı, bağbaşı, toy pulu və bayramlıq) rəngarəng idi. Cütbaşı – cütə qoşulan öküzlər üçün alınırdı; bağbaşı – meyvə, üzüm və tut bağları üçün yığılan vergi idi; toy pulu hər toya görə müxtəlif məbləğlərdə alınırdı (məsələn, Şirvan əyalətində hər toydan gümüş pulla 3 man.), bayramlıq – novruz və qurban bayramları günü yığılırdı [69].

XIX yüzilliyin 40-cı illərinin əvvəllərində hər sahibkar rəiyyətinin sahibkarın xeyrinə ödədiyi vergi mükəlləfiyyətləri pul hesabı ilə ildə Qarabağ qəzasında 25 manata, Nuxa qəzasında 5 man. 31 qəpiyə çatırdı. Hər yerdə görünməmiş dərəcədə geniş yayılmış özbaşınalıqlar mükəlləfiyyətlərin ağırlığını daha da artırırdı. 1818-ci ildə general Yermolov bu barədə yazırdı: "...tatar (Azərbaycan – Red.) distansiyalarında Borçalı, Qazax və Şəmşəddil ağaları çoxdan bəri qara camaat üzərində özlərinə o dərəcədə hakimiyyət götürüblər ki, bu sonuncu (qara camaat – Red.) ...tamamilə qula çevrilmişdir. Elə bir mükəlləfiyyət, elə bir mükəlləfiyyət yox idi ki, ağa onu özbaşına mənimsəməyə bilməsin".

Təhkimçi çar mütləqiyyəti sahibkar rəiyyətlərini əvvəlki kimi öz feodallarından şəxsi asılılıq vəziyyətində saxlayırdı. Lakin buna baxmayaraq, Azərbaycanda sahibkar rəiyyətləri hüquqi cəhətdən Rusiya və Gürcüstanın təhkimli kəndlərindən xeyli fərqlənirdilər.Hər şeydən əvvəl Azərbaycanda sahibkar rəiyyətləri alğı-satqı, onları torpaq sahibkarlığının tam ixtiyarına verən əşya hüququnun obyekti deyildilər; rəiyyətlər feodalın torpağına təhkim olunmamışdılar. Onlar heç olmasa, hüquqi cəhətdən də olsa, öz yaşayış yerlərini tərk edə və digər feodalın torpağına keçə bilərdilər. Lakin əslində sahibkar rəiyyətinin bir sahibkarın yanından digərinin torpağına keçməsi çox az hallarda baş verirdi. Bu da rəiyyətlər tərəfindən feodalların xeyrinə mükəlləfiyyətlərin yerinə yetirilməsi ilə əlaqədar idi. Ona görə də sahibkarlar öz yanlarından getmiş rəiyyətləri geri qaytarmağa cəhd göstərəndə bu onunla şərtlənirdi ki, rəiyyətlər sahibkarların xeyrinə müəyyən mükəlləfiyyətləri yerinə yetirməyə borclu idilər. Rəiyyətlərin belə asılı vəziyyəti onunla əlaqədar idi ki, onlar torpağa yox, feodal mükəlləfiyyətləri yerinə yetirməyə borclu idilər. Hüquqi cəhətdən yerli feodallara kəndlilər üzərində məhkəmə - polis hakimiyyəti verilməmişdi, lakin bəylər faktiki olaraq belə hakimiyyətdən istifadə edirdilər. Çar hakimiyyət orqanları həmişə bəylərin tərəfində duraraq, kəndlilərin əsarət altında saxlanmasında və istismar

olunmasında onlara kömək edirdi. Torpaq sahibləri öz kəndlərində qayda-qanuna əməl olunmasına nəzarət edir və kəndlilərin bir-birinə olan iddialarını (o cümlədən, əmlak iddialarını), habelə az əhəmiyyətli cinayətləri yerli adət-ənənələr əsasında həll edirdilər.

Polis və məhkəmə hakimiyyətinin feodallar tərəfindən həyata keçirilməsi onlara kəndlilər üzərində çox böyük hakimiyyət verirdi. Bu, torpaq sahibləri tərəfindən hər cür sui-istifadəyə və azğınlıqlara əlverişli zəmin yaradırdı. 1842-ci ildə Lənkəran qəzasının Qızılağac kəndinin sakinləri öz sahibkarları mayor Şirəli bəydən şikayət ərizəsi vermişdilər. 17 bənddən ibarət olan bu ərazidə feodalın törətdiyi azğınlıq və zoraçılıq əks olunmuşdu.

Sahibkar kəndlilərinin tərkibində rəncbərlər var idi. Sahibkar rəncbərləri, bir qayda olaraq, pay torpaqlarına və istehsal vasitələrinə malik deyildilər. Onlar işləyib ödəmə mükəlləfiyyətlərini yerinə yetirir, ona görə də rəiyyətlərə nisbətən daha amansız istismara məruz qalırdılar. Eyni zamanda rəncbərlər icmanın tərkibinə daxil deyildilər. Rəiyyətlərdən fərqli olaraq, rəncbərlərin feodallardan asılılığı icma vasitəsilə elliklə zəmanətə bağlılıqla deyil, sahibkarlardan daha güclü şəxsi tabeçiliklə əlaqədar idi [70].

İstilanın ilk dövründə digər feodal institutları kimi, rəncbərlər institutu sa nəinki ləğv olundu, hətta bir qədər genişləndi. Xüsusi sahibkar rəncbərləri sıralarının genişlənməsinin başlıca mənbəyi xan bəxşişləri idi. Xanın əmri ilə istənilən rəiyyət rəncbərə çevrilə bilərdi. Rəncbərlərin sıraları həmçinin digər xanlıqlardan olan qaçqınların və feodal ara müharibələrində alınmış əsirlərin hesabına genişlənirdi. İstiladan sonra var-yoxdan çıxarıcı feodal ara müharibələrinə son qoyuldu. Bunun nəticəsində də rəncbər sıralarının genişlənməsinin əsirləri mənbəyi aradan qalxdı. Lakin rəncbərlik sıralarının rəiyyətlər hesabına genişlənməsi davam edirdi. Çar hakimiyyət orqanları Quba qəzasında rəiyyətlərin rəncbər kimi paylanmasını geniş tətbiq edirdi. 1824-cü ilə aid olan məmulatlardan görünür ki, xüsusi şəxslər 1353 rəncbərə malik idilər. Onların böyük əksəriyyəti çar hakimiyyət orqanları – müxtəlif komendantlar, hərbi-dairə rəislərivə Qafqazın baş komandanları tərəfindən paylanılmışdı. 1353 rəncbərlərdən yalnız 337 nəfəri, yəni 25%-dən bir qədər azı vaxtilə xanlar tərəfindən paylanılmışdı. Qalanlarını isə çar müstəmləkəçiləri rəncbərə çevirmişdilər. Yerli feodallara münasibətdə hakimiyyət orqanlarının belə “səxavəti” çarizmin yerli feodalların şəxsində mütləqiyyətə sosial dayaq yaradılmasına yönəldilmiş sosial siyasətin ayrılmaz tərkib hissəsi idi [71].

Feodalların özlərinə də ixtiyarlarında olan kəndlərdən rəncbər tələb etmək hüququ verilmişdi. Bunlar rəncbərlərin sıralarının doldurulmasının “qanuni yolları idi”. Lakin bəzən feodallar rəiyyəti zorla torpaq sahələrindən məhrum edir, onların özlərini isə rəncbərlərə çevirirdilər. Rəncbər sıralarının genişləndirilməsinin daha bir yolu mövcud idi: feodallar paydar kəndliləri də zorla rəncbərlərə çevirirdilər.

Rəncbər sıralarının genişlənməsi ilə yanaşı, onların ixtisar olunması kimi əks prosesi də gedirdi. Hökumət orqanları özlərinə düşmən olan feodalları iqtisadi təqibə məruz qoyaraq, onları rəncbərlərdən məhrum edirdi. Məsələn, Quba əyalətində belə müsadirələrin hesabına sahibkar rəncbərlərinin sayı kəskin surətdə azalmışdı. Rəncbərlik geridə qalmış feodal institutu idi. Rəncbər əməyi az məhsuldar olduğundan, məhsuldar qüvvələrin inkişafına maneə törədirdi.

Rəncbərlər rəiyyətlərə nisbətən daha amansız istismara məruz qalırdılar. Onlar bir qayda olaraq, öz təsərrüfatlarına malik olmayıb ancaq bəylər üçün işləyirdilər, yəni rəncbərlər feodal rentası işləyib ödəmə rolunu icra edirdilər. Feodalların təsərrüfatında işin müqabilində rəncbərlər məhsulun cüzi hissəsini, çox vaxt 4,1-ni alırdılar [72].

## § 6 ŞƏHƏRLƏR

XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda doqquz şəhər var idi: Şamaxı, Bakı, Yelizavetpol, Nuxa, Şuşa, Quba, Lənkəran, Naxçıvan və Ordubad.

Ən böyük şəhər Şamaxı şəhəri idi. Bununla belə Şamaxı xanlığı ləğv olunanadək şəhər ikinci dərəcəli rol oynayırdı, xanın iqamətgahı Fitdağ qalası idi. 1821-ci ildə rus hakimiyyət orqanları tərəfindən Şamaxının bərpa edilməsi planı işlənib hazırlandı, 1824-cü ildə isə o, köhnə şəhərin yerinə yenidən tikildi. Fitdağ qalasının iqamətgah rolunun ləğv edilməsi ilə həmin ildə Şamaxı rəsmi olaraq Şirvan əyalətinin, 1840-cı ildən 1846-cı ilədək Xəzər vilayətinin, 1846-cı ildən 1859-cu ilədək Şamaxı quberniyasının mərkəzi oldu. Şəhərin bərpa edilməsi ilə onun əhalisi də artmağa başladı. Əgər yüzilliyin 30-cu illərinin əvvəllərində orada 10 minə yaxın əhali yaşayırdısa, 1850-ci ilə yaxın artıq 19.733 əhali yaşayırdı [73].

Bu müddət ərzində Azərbaycanın digər şəhərlərinin də əhalisi sürətlə artırdı: Nuxada əhalinin sayı 14770-dən 17945-ə, Şuşada 10118-dən 15194-ə, Gəncədə 9164-dən 16700-ə, Qubada 3968-dən 7909-a, Naxçıvanda 3800-dən 5157 nəfərə çatdı. Azərbaycanın şəhər əhalisinin ümumi sayı isə buna uyğun olaraq 84 min nəfərdən 100 min nəfərə çatdı, yəni 16 min nəfər artdı. Yüzilliyin ortalarına yaxın şəhər əhalisi Şimali Azərbaycanın ümumi əhalisinin təxminən 10 faizini təşkil edirdi [74].

Şəhər əhalisinin sosial tərkibinin rəngarəng idi. Belə ki, yüzilliyin ortalarında Şamaxıdakı 4036 ailənin 282-si hakim feodal sinfinə mənsub idi. Şəhərdə 863 nəfər tacir və 2192 nəfər sənətkar var idi. Belə mənzərə Azərbaycanın digər şəhərləri üçün də səciyyəvi idi. Şəhərlərdə bütövlüklə 4 minə yaxın bəy, 300 xan ailəsi üzvləri, 5 min nəfər ruhani yaşayırdı. Onlar hamısı birlikdə şəhər əhalisinin ümumi sayının 9 faizini təşkil edirdilər. Şəhərlərdə sənətkarların ümumi sayı 12 min, tacirlərinki isə 7 min nəfərə yaxın idi [75].

Komendant sisteminin tətbiqi ilə hərbi, mülki, məhkəmə və maliyyə müəssisələri: hərbi komendantın dəftərxanası, şəhər polisi, əyalət və yaxud şəhər

məhkəməsi, xəzinə şəhərlərdə - əyalət mərkəzlərində cəmləşdirildi. Bundan əlavə, 1824-cü ildə Şuşada və Dərbənddə komendantların həm hərbi, həm də mülki işlər üzrə tabe olduqları Cənubi Qafqaz müsəlman əyalətlərinin hərbi-dairə rəisinin dəftərxanaları təsis edildi. Gəncə şəhəri həmçinin ali rütbəli ruhanilərin yaşadığı mərkəz oldu.

Azərbaycan şəhərlərində ictimai əsaslarla hər hansı bir idarə yaratmaq istəməyən çar hökuməti digər funksiyalarla birlikdə, şəhərin idarə olunmasını da şəhər polisinə həvalə etdi. Şəhər polisinin tərkibinə xüsusi pristavlar, məhəllə nəzarətçiləri, kovxa və mühafizə dəstəsi daxil idi. Polisin fəaliyyətində mülki əhalinin nümayəndəsi kimi "ictimaiyyətin nümayəndələri" deyilən iki deputat iştirak edirdi. Polisin ştatı ayrı-ayrı şəhərlərdə müxtəlif idi.

Deputatlar xüsusi pristavlarla birlikdə şəhər evlərinin, ticarət dükanlarının, karvansaraların, sənətkar emalatxanalarının, dəyirman və hamamların hesabını aparır, onların sahiblərini və əldə etdikləri gəlirlərin miqdarını müəyyənləşdirir, şəhər əhalisindən toplanan, polisin saxlanılmasına və ictimai xərclərə sərf olunan pul vergilərinin bölüşdürülməsində iştirak edir, bu vəsaitin toplanması, ordunun məskunlaşması üçün mənzillər ayrılması və s. ilə məşğul olurdular.
olan orta əhalisi az olan və ştata daxil olmayanlar. Gəncə və Şamaxının böyük şəhərlər olması ilə əlaqədar bu şəhərlərdə qalabəyindən, iki xüsusi pristavdan, dörd məhəllə nəzarətçisindən və 16 polisdən ibarət xüsusi şəhər polisi təsis edilirdi [76]. Orta şəhərlərdə polisin tərkibinə qalabəyi, xüsusi pristavlar və deputatlar, əhalisi az olan şəhərlərdə - qalabəyi, məhəllə nəzarətçiləri və deputatlar, ştata daxil olmayan şəhərlərdə və Salyan kimi kiçik yaşayış məntəqəsində sahə iclasçıları və məhkəmə nəzarətçiləri, Zaqatalada qəza rəisi daxil idi

1840-cı il qanunu polis idarəsindən şəhərlərin hər il mədaxil və məxaric smetasını tərtib etməyi tələb edirdi ki, bununla da əlaqədar yerli hakimiyyət orqanlar şəhər təsərrüfatını və şəhər smetasını yoxlamağa başladılar. Bu tədbirlər, şübhəsiz ki, şəhər təsərrüfatında müəyyən qayda yaratdı. Şəhərlərin vəsaiti çox az idi. Məsələn, Lənkəran şəhərində 1700 manatdan Şamaxıda 15 min manata qədər. Şəhərlərin gəliri şəhər ölçü və tərəzilərindən, şəhər əmlaklarından bağlardan, bostanlardan, dəyirmanlardan, karvsaralardan, dükanlardan, sənətkar emalatxanalarından, peşələrdə heyvan kəsilməsindən, ticarət hüququna görə və s. dən təşkil olunurdu. Şəhərlərin demək olar ki, bütün gəlirləri polisin, həbsxananın saxlanılmasına, qarovulxananın qızdırılmasına və işıqlandırılmasma, buradan keçən hərbi komandalar üçün odun toplanılmasına sərf olunurdu.

Çar hakimiyyət orqanları şəhərlərin abadlaşdırılmasına heç qayğı göstərmirdilər. Bu məqsədlə xüsusi vəsait ayrılmır, illik toplanan şəhər gəlirlərindən isə buna vəsait qalmırdı.

Azərbaycan şəhərlərinin iqtisadi həyatın əsasını sənətkarlıq istehsalı, ticarət və əkinçilik təşkil edirdi. Yüzilliyin 30-50-ci illərində bütün şəhərlərdə sənətkar peşələrinin və sənətkarların sayının artması müşahidə olunurdu. Şamaxı,

Gəncə, Nuxa kimi iri şəhərlərdə 40-a qədər, Quba, Lənkəran, Naxçıvan və Ordubadda isə 20-yə qədər sənətkar peşəsi var idi.

Şəhərlərin müəyyən sahə üzrə ixtisaslaşması getdikcə güclənirdi. Məsələn, Gəncə şəhəri ipək və pambıq parçaların boyanması ilə, Şamaxı şəhəri ipək parça və baş örtükləri istehsalı ilə, Şəki şəhəri gözəl xalçaların hazırlanması ilə, Nuxa şəhəri ipək, mahud məxmər parçalar üzərindəki tikmələrlə məşhur idi. Azərbaycan ustalarının zərif məhsulları yalnız Cənubi Qafqaz şəhərlərində satılmır, həm də Rusiyanın müxtəlif yerlərinə aparılırdı.

Lakin şəhər sənətkarlıq istehsalının fərqləndirici xüsusiyyəti ondan ibarət idi ki, istehsalçı, başlıca olaraq, sifariş üçün işləyir yalnız yerdə qalan məhsullar satışa gedirdi.

Sənətkarların sayı sürətlə artırdı. Yüzilliyin 30-cu illərinin əvvəllərində Azərbaycan şəhərlərinin hər birində orta hesabla 200-300 sənətkar var idi və yalnız Şamaxıda onların sayı 668 idi. İyirmi ildən sonra Gəncə şəhərində artıq 1193, Şuşa şəhərində 1863, Şamaxı şəhərində 2192 və Nuxa şəhərində isə 3 mindən çox sənətkar yaşayırdı. Bütövlükdə isə, 1830-cu ildən 1850-ci ilədək şəhərlərdə sənətkarların sayı 2,5-3 mindən 12 minə qədər artmışdı [77].

Manufakturalar və haqqında bu fəslin 3-cü paraqrafında danışılan yaranmaqda olan fabrik istehsalı başlıca olaraq şəhərlərdə inkişaf edirdi.

Çar xəzinəsi şəhərlilərdən çoxlu vergi və mükəlləfiyyət toplayırdı. Sənətkarlardan toplanan vergilər ildə 1,2 manatdan 20 manata qədəri təşkil edirdi. Tacirlərdən toplanan xüsusi vergilərdən biri mizan pulu (şəhər tərəzilərindən) idi. 1842-ci ildə mizan vergisi Şamaxıda 3,5 min man., Nuxada 18 min man., Şuşada 1,4 min man. təşkil etmişdi. Xırda tacirlər və sənətkarlar həmçinin dükan və emalatxanaların icarəsinə görə pul ödəyirdilər. 1849-cu ildən şəhərlərdə mənzil mükəlləfiyyəti əhalinin tərpənməz əmlakının 8 %-nin dəyərini təşkil edən yüksək pul vergisi ilə əvəz olundu. Şəhərlərin müəyyən hissəsi kənd təsərrüfatı ilə məşğul olurdu. Maraqlıdır ki, şəhər binaları və digər tikililər üçün ayrılan torpaqlardan əlavə, şəhərlərə məxsus böyük örüş və əkin sahələri, meyvə və üzüm bağları var idi. Məsələn, Şamaxı sakinlərinin 2478 desyatin, Ordubad sakinlərinin 2641 desyatin, Quba sakinlərinin isə 2388 desyatin belə torpaqları var idi.

Şəhər sakinləri yalnız əkin sahələri, bağ və bostanlara malik olmayıb həm də heyvan saxlayırdılar. Məsələn, Quba şəhərinin sakinləri hər il 2 min puda qədər taxıl, min puda qədər arpa yığırdılar. Onların, 300 baş iribuynuzlu mal-qarası və 3 minə qədər qoyunu var idi. 1849-cu ildə Nuxa şəhərinə məxsus torpaqlarda 990 çetvert taxıl və 500 çetvert arpa əkilmişdi. Şəhərlilərin üzüm və meyvə bağı 216-ya çatmışdı [78].

Şəhər həyatının inkişafı şəhər tikintisinin genişlənməsi üçün şərait yaradırdı. Şəhərlərdə daş binalar tikilir, Bakı, Şamaxı, Nuxa, Şuşa, Gəncədə isə ikimərtəbəli binalar var idi. 50-ci illərdə şəhərlərdə 18 mindən çox daş bina mövcud idi. Küçələrin, meydanların, körpülərin sayı artırdı.

## § 7. KOMENDANT İDARƏ SİSTEMİ VƏ ONUN BÖHRANI

Quzey Azərbaycanın Rusiya tərəfindən istila edilməsinin gedişində yeni inzibati sistemi yaradılmağa başladı. Rus qoşunlarına müqavimət göstərən xanlar hakimiyyətdən məhrum edilir, xanlıqlar isə başda komendant olmaqla dairə və əyalətlərə çevrilirdilər. Komendantlar Qafqazdakı rus ordusunun baş komandanı tərəfindən mayor və daha yüksək rütbəli rus zabitlərindəntəyin olunurdu. Məsələn, Gəncə xanlığı hərbi cəhətdən tabe edilən kimi, ləşv edildi; onun yerində başında rus zabiti dayanan hərbi dairə yaradıldı. Bakıda da elə belə olmuşdu.

Bəzi hallarda komendant idarə sistemi tətbiq edilməzdən əvvəl qısa müddətə keçid sistemi yaradıldı. Quba xanlığı 1806-cı ildə işğal edildikdən sonra rus hərbi dairələrinin nəzarəti altında yerli bəylərdən – naiblərdən təşkil olunmuş müvəqqəti orqan tərəfindən idarə olunan əyalətə çevrildi. Yalnız 1810-cu ildə hakimiyyət komendanta verildi.

Ölkənin yerdə qalan hissəsində - Qarabağ, Şəki, Şirvan və Lənkəran xanlıqlarında işğalın birinci mərhələsində əvvəlki sistemi və idarə aparatı saxlanılmışdı. Bu xanlıqlar Rusiyaya ikitərəfli (dövlətlərarası) müqavilə əsasında, silahlı qüvvə tətbiq edilmədən ilhaq edilmişdi. Məhz buna görə də onlar özlərinin siyasi statusları ilə fərqlənirdilər: adları çəkilən xanlıqlar Rusiya imperiyası sistemində asılı dövlət qurumları vəziyyətində idilər. Xanların daxili idarəçilikdə hüquqları əvvəlki həcmdə saxlanılsa da, onların səlahiyyət və hakimiyyətləri xeyli dəyişikliyə məruz qalmaqla məhdudlaşdırıldı. Belə ki, xanlıqlarınm ərazisində rus hərbi qüvvələri yerləşdirilir, hakim vassaların özləri isə çar generalları siyahısına daxil edilir və Qafqazdakı hərbi məsələlər üzrə baş komandanın tapşırıqlarını yerinə yetirirdilər. Bununla belə, 20-ci illərə yaxın çarizm öz vassalarının xidmətin dən imtina etməyi lazım bildivə bütün xanlıqlar ləğv edildi. Şəki xanlığında 1819-cu ildə, Şirvan xanlığında 1820-ci ildə, Qrabağ xanlığında 1822-ci ildə, Lənkəran xanlığında 1826-cı ildə köhnə idarəçilik ləğv edilərək, komendantlıqlarla əvəz edildi.

Şimali Azərbaycan ərazisində altı əyalət – Talış, Şirvan, Şəki, Qarabağ, Bakı və Quba əyalətləri, Yelizavetpol dairəsi, Car-Balakən vilayəti (1830-cu ildə yaradılmışdı) və iki distansiya: Qazax və Şəmşəddil distansiyaları yaradıldı. Naxçıvan və İrəvan - əzəli Azərbaycan torpaqlarını rus çarizmi "Erməni vilayəti"nin tərkibinə daxil etdi.

Əyalətlər iki dairədə birləşdirildi. Şəki, Şirvan, Qarabağ və Talış əyalətləri Şuşada yerləşən hərbi dairəyə tabe olan, "Müsəlman dairəsi" adlandırılan dairəyə daxil idilər.

Faktiki olaraq əyalətdə bütün hakimiyyət komendantların əlində cəmlənmişdi. Onun ən mühüm vəzifələrindən biri dövlət əmlakına rəhbərlik etmək

idi. Xan hakimiyyəti ləğv edildikcə, xanların və düşmən əhvali-ruhiyyəli bəylərin bütün əmlakı – məskunlaşmış və məskunlaşmamış torpaqlar, otlaqlar, bağlar, balıq vətəgələri, duz mədənləri, neft quyuları və s. dövlətin ixtiyarına keçirdi. Bu əmlakın bir hissəsini dövlətin özü istismar edir, digər hissəsini isə iltizama verirdi. Hər iki halda komendant təsərrüfat hissəsinin başçısı kimi çıxış edirdi. Dövlətə məxsus "əmlakı yoxlamaq və dəqiq müəyyənləşdirmək", dövlətin gəlirini artırmaq üçün vasitələr axtarmaq onun vəzifəsinə daxil idi. Komendant xəzinə torpaqlarından vergilərin vaxtında toplanmasına, həmçinin sahibkar kəndlilərinin dövlət mükəlləfiyyətlərini yerinə yetirməsinə göz qoyurdu. Gömrük pulu (rəhdari) və qaoan pulu (mizan) vergilərin verilməsinə nəzarət və komendantın səlahiyyətinə daxil idi.

Çarizmin müstəmləkəçilik siyasətinin bilavasitə icraçısı və həyata keçiricisi olan komendantlar yerli feodalların siyasi etibarlılığını, onların çarizmə necə xidmət etdiklərini diqqətlə izləyirdilər. Onlardan özlərini mütləqiyyətin sadiq xidmətçiləri kimi göstərənlər komendant tərəfindən tiyul hüququ ilə məskun və qeyri-məskun torpaqlarla, rəncbərlərlə bolluca təmin edilirdilər. Sadiq bəylərə məskunlaşmış torpaqlar və rəncbərlər verilməsi, məsələn, quabnın komendantı polkovnik Lisaneviç tərəfindən 1810-cu ildə yerli feodal Məməmd bəyə ilk torpaq mükafatının verilməsinin əsaslandırılması buna xarakterik misaldır: "Sizin tərəfdən bizim əlahəzrət hökmdara göstərilən hüsn-rəğbətə görə... mən sizə kəndləriniz Zərqova və Talabinin idarəsini... tam inamla sizə tapşırıram ki, siz bunu özünüzün Rusiya hökumətinə sədaqətinizə hörmət kimi qəbul edərək, əlahəzrət imperatora bütün hörmətinizi saxlayacaqsınınız və təkcə öz şəxsdi xeyrinizi gözləməyib, əhalini də bu cür cinayətlərdən (çar hakimiyyətinə qarşı çıxışlardan – Red.) çəkindirəcəksiniz və kəndliləri və yaxud başqa birilərini buna sövq edənlərin qarşısını alacaqsınız" [79].

Komendant cəza orqanlarının – polisin və məhkəmənin də fəaliyyətinə rəhbərlik edirdi. O, hərbi nökərlərə və yerli atlı polisə (çaparlara) başçılıq edir, mülki və əhəmiyyətli cinayət işlərinə baxan şəhər və yaxud əyalət məhkəmələrinə sədrlik edirdi. Məhkəmə kollegial orqan olsa da (belə ki, onun tərkibinə yerli əyanların nümayəndələrindən seçilən daha dörd üzv daxil olurdu), əslində iş komendant tərəfindən təkbaşına həll edirdi. O, adətən heç bir qanuna əsaslanmadan qərar çıxarır və bu da hökm üçün əasa olurdu. Məhkəmədə işlərin həlli aylarla, bəzən isə illərlə uzadılırdı.

Ağır cinayətlərinə hərbi məhkəmə və yaxud hərbi məhkəmə komissiyası baxırdı. Hərbi məhkəmə prosesləri qısamüddətli olması ilə fərqlənirdi. Məhkəmə üç gün ərzində qərar çıxarır, sonra baxılmaq və təsdiq edilmək üçün Qafqazdakı baş komandana göndərilirdi. Hərbi məhkəmə çar müstəmləkələrinin əlində sosial və müstəmləkə zülmünə qarşı çıxış edənlərə divan tutmaq üçün əlverişlçi cəza orqanı idi.

Nəhayət, komendant həmçinin hərbi qarnizonun rəisi idi. Beləliklə, onun əlində çox böyük hakimiyyət – icraedici, məhkəmə və hərbi hakimiyyət toplanmışdı. “Yüz minlərlə əhalinin hüququ, namusu və əmlakı... komendantın özbaşınalığından asılıdır” [80]. Yüzilliyin 20-ci illərin sonu 30-cu illərinin əvvəllərində Cənubi Qafqaz diyarını təftiş edən senatorlar Meçnikov və Kutaytsev belə nəticəyə gəlmişdilər.

Xanlıqlar dövründə olduğu kimi, əyalətlər naiblər tərəfindən idarə olunan mahallara bölünürdü. Onlar komendant tərəfindən çarizmə sədaqətli bəylərdən təyin edilir və Qafqazdakı baş komandan tərəfindən təsdiq edilirdi.

Naiblərin hüquq və vəzifələri hər hansı bir rəsmi sənədlə təsdiq olunmamışdı, o nəinki müxtəlif əyalətlərdə müxtəlif idi, hətta çox vaxt bir əyalətin hüdudlarında da eyni deyildi. Bir qayda olaraq onlar bütöv əyalət üçün müəyyən edilmiş ölçüyə əsaslanaraq vergi və mükəlləfiyyətləri kəndlər arasında bölüşdürür, kəndliləri mükəlləfiyyətləri yerinə yetirməyə məcbur edir, məhkəmə və polis hakimiyyətini yerinə yetirirdilər.

Naiblərin əksəriyyəti məvacib almırdı. Məsələn, Qarabağ əyalətində 11 naibdən yalnız ikisi məvacib alırdı [81]. Naiblər öz vəzifələrinə görə toplanan verginin bir hissəsi hesabına mükafatlandırılırdılar. Onlar həmçinin məskunlaşmamış xəzinə torpaqlarından və dövlət kəndlilərindən istifadə edirdilər.

Qarabağ əyalətində mahal naibləri kəndlilərin bütün gəlirlərin onda bir hissəsi ailələri üçün ərzaq almağa sərf edirdilər. Onlar üçün xidmətçilər ayrılırdı. Kəndlilər mahal naiblərinin torpaqlarını əkir, bəzən isə məhsulu yığmağa və döyməyə kömək edirdilər. Əhali toya görə naibə “toy payı” adı altında vergi ödətirdi. Çəkişmələrin xeyrinə toplanırdı [82].

Komendant odarəçılıyinin ən aşağı pilləsində kəndxudalar və yüzbaşılar dururdular. Bu vəzifə “seçkili” idi, lakin çox vaxt kənd icması cəza olaraq bu hüquqdan məhrum edilir və kəndə hükumət kəndxudası təyin edilirdi. Hükumət kəndxudasından fərqli olaraq seçkili kəndxudalar məvacib almırdılar. Lakin kəndlilərdən toplanılan vergilərin bir hissəsi onlara çatırdı. Bəzən belə kəndxudaların sərəncamına məskunlaşmamış torpaqlar və rəncbərlər verilirdi.

Kəndxuda icma hüdudlarında qayda-qanunun gözlənilməsinə, kəndlilərin mükəlləfiyyətləri müntəzəm yerinə yetirməsinə pul vergilərinin toplanmasına, yolların, körpülərin və suvarma şəbəkələrinin saxlanmasına cavabdeh idi.

Komendant idarə sistemi hərbiləşdirilmiş, “müvəqqəti və sanki özgə torpaqlarında işğalçı xarakter daşıyırdı”. Komendant idarə üsulu keçmiş istismar aparatının azacıq yeniləşdirilmiş forması idi. Buna görə də o, köhnə inzibati-idarə sistemini əsaslı şəkildə dağıda bilmədi. Xanlıqlar ləğv edildikdən sonra komendantlara “keçmiş idarə formalarını dəyişdirmədən keçmiş (xan – Red.) adətlər ilə idarə” etmək barəsində sərəncam verilmişdi. Hətta hökumət dairələrində də etiraf edilirdi ki, “Cənubi Qafqaz diyarının idarəsi, bəzi əyalətlərin Rusiyaya birləşdirilməsindən 30o ilə qədər vaxtın keçməsinə baxmayaraq, hələ özündə

həmin ölkənin keçmiş hakimlərinin hesabatsız, özbaşına və qeyri-müəyyən idarəçiliklərinin nişanələrini saxlayır” [83].

Komendant idarə sistemi çarizm tərəfindən bərqərar edilmiş despotik müstəmləkə rejiminin məhsulu nə konkret təzahürü idi. Belə bir şəraitdə komendatlara – yeni yaradılmış və zəif nəzarət olunan inzibati idarənin əsas şəxsiyyətlərinə böyük hakimiyyət verilməsi görünməmiş cinayətkarlıq və pozuntular doğururdu. Bu cinayətkarlıq və pozuntular komendant idarəsinin, demək olar ki, bütün illərində mövcud idi, onlar bu idarəçiliyin ayrılmaz tərkib hissəsi olunmuşdular.

Əhali ilk növbədə kəndlilər komendant idarəsinin hərbi-dairə rəisindən başlamış kəndxudaya qədər bütün qulluqçuları tərəfindən amansız soyğunçuluğa məruz qalırdılar.

Cənubi Qafqaz diyarını təftiş etmiş senatorlar Kutaysov və Meçnikov çarın adına göndərdikləri 1831-ci il tarixli məlumatda göstərirdilər ki, “knyaz Mədətov müsəlman dairəsinin hərbi-dairərəisi olarkən özgələrin mülklərini özbaşına ələ keçirmiş, əhalini Knyaz Mədətov sağ olsaydı, bu əmələrinə görə məhkəməyə verilməli idi” [84].

Komendantlar da kəndliləri və şəhərliləri amansızcasına soyurdular. Talış əyalətinin komendantı polkovnik Korniyenkonun və Quba əyalətinin komendantı Gimbutun özbaşınalığı, zülmü və azğınlığı 1831-ci ildə Talış üsyanının və 1837-ci ildə Quba kəndlilərinin silahlı çıxışlarının əsas səbəblərindən biri idi. Gimbut və Korniyenko istisnalıq təşkil etmirdilər. Digər əyalətlərin komendanları da kəndliləri amansızcasına soyur və azğınlıq törədirdilər.

Qarabağ əyaləti komendantının şəxsiyyəti komendant idarəsi üçün çox səciyyəvi idi. 1837-ci ildə Qarabağ əyalətini çar məmuru göstərirdi ki, “xalqın ümumi səsi komendant knyaz Baratovu... hədsiz özbaşınalıqda və amansızlıqla günahlandırır”. Çar məmurunun dediyinə görə, əhali bildirirdi ki, komendantla “pulla hər şey etmək olar, pulsuz heç bir şey etmək olmaz” [85].

Əhalini soyub talamaqla komendanta öz qənimətlərini onunla bölüşdürən naiblər kömək edirdilər. Çar məmuru açıqcasına bildirirdi ki, “naiblərin məqsədi ancaq öz xeyirlərini güdmək idi” [86].

Komendant idarəsi məmurlarının zülm və zorakılıqları haqqında Qarabağ əyalətinin Zəngəzur mahalının Parkagüt kəndinin sakinləri obrazlı şəkildə belə yazırdılar: “Bizim rəislər, sürüyə daranmış cavanlar kimi, müxtəlif sıxıntılarla bizim güzəranımızı pozurlar. Rəhbərliyin hər hansı verginin, yaxud mükəlləfiyyətin ödənilməsi tələbi həmişə naib tərəfdən ikiqat artırılır” [87].

Bütün Şimali Azərbaycanda komendant idarəsinin məmurları xalq kütlələrini amansızcasına soyub talayırdılar. Bunu hətta yüksək rütbəli çar məmurları da etiraf etməyə məcbur olmuşdular.Senatorlar Meçnikov və Kutaysovun ədliyyə nazirinin adına göndərdikləri təqdimatda deyilirdi: “Müsəlman əyalətərinin idarə edilməsini tədqiq edərkən idarə edənlərin azğınlığından və xalqın

əzabından insan əqli dəhşətə gəlir. Burada artıq insanlıq tamamilə tapdanmış, yüksək ədalət və azğın özbaşınalıq dairə rəislərinin, komendantların, pristavların və digər rəhbər şəxslərin fəaliyyətinin əsasıdır" [88].

XIX yüzilliyin 20-ci illərinin sonlarında çar Rusiyasının Cənubi Qafqazdakı müstəmləkəçilik siyasətində yeni mərhələ başlandı. Bu, iki səbəblə şərtlənirdi: birincisi, Rusiyanın daxili quberniyalarında kapitalist sənayesinin, hər şeydən əvvəl toxuculuq sənayesinin inkişafı və ikincisi, Cənubi Qafqazda hərbi-strateji şəraitin əsaslı şəkildə dəyişməsi idi. Sonuncudan ölkənin İran və Türkiyənin təcavüzkar qəsdlərindən etibarlı müdafiə olunduğu aşkara çıxdı.

Belə bir şəraitdə hökumət və ticarət-sənaye dairələri Cənubi Qafqaza, o cümlədən Şimali Azərbaycana perspektivli xammal bazası və rus sənayesinin məhsullarını satmaq üçün əlverişli bazar kimi baxmağa başladılar.

Lakin bu iqtisadi məqsədlərə nail olmaq üçün çarizm, hər şeydən əvvəl, bu ölkədə özünün siyasi hökmranlığını möhkəmləndirməli idi. Çarizmin həm Petrburqdakı, həm də Qafqazın özündəki yüksək rütbəli müstəmləkə siyasəti strateqlərinin fikrincə çatmağın ən mühüm amillərindən biri bu yerlərin idarəsini Rusiyanın əsasən tamamilə yenidən qurmaq olmalı idi.

## § 8. MÜSTƏMLƏKƏ VƏ FEODAL ƏSARƏTİ ƏLEYHİNƏ ÇIXIŞLAR. QUBA ÜSYANI

XIX yüzilliyin 30-cu illərində müstəmləkə və feodal əsarəti əleyhinə bir neçə böyük çıxış baş verdi. Amansız feodal istismarı və müstəmləkə zülmü kəndliləri mütləqiyyətə və feodallara mübarizəyə qaldırırdı.

Müstəmləkə əleyhinə ilk böyük çıxış 1830-cu ildə Car-Balakən ərazisində baş verdi. Rusiya tərəfindən işğal edilən bu icmalar 1830-cu ilədək özlərinin daxili muxtariyyətini qoruyub saxlamışdı. Lakin bu, mütləqiyyətin Qafqazda köhnə idarə sistemini rus hərbi idarəçiliyi ilə əvəz etmək kursuna zidd idi.

Çarizmi azad icmaların muxtariyyətini ləğv etməyə təhrik edən əsas amillərdən biri hərbi strateji planlar idi: çar hakimiyyət orqanları cammat torpaqlarından Dağıstan dağlılarının milli-azadlıq hərakatını yatırtmaq üçün istifadə etməyə cəhd edirdi. 1830-cu ilin əvvəlində Cənubi Qafqazın baş hakimi Paskeviçin imzaladığı bəyannamədə deyilirdi ki, camaatlar Rusiyanın vilayətlərindən birinə çevrilməli və çar məmurları tərəfindən idarə olunmalıdır. Carlıların rus hakimiyyət orqanlarına göstərdikləri müqavimət müvəffəqiyyətsizliyə uğradı: onlar məğlub olaraq təslim oldular. Camaat torpaqlarında 1830-cu il 24 iyun tarixli xüsusi "Qaydalar" əsasında idarə olunan car vilayəti təşkil edildi. Vilayətin idarə olunması tərkibi rəisdən, Qfaqazdakı baş komandan tərəfindən təyin edilən iki müşavirdən – rus məmurlarından və camaatlar tərəfindən seçilən 6 kəndxudadan ibarət olan Müvəqqəti vilayət

idarəsinə həvalə edilirdi [89]. Lakin sonuncular ancaq məşvərətçi səsə malik idilər və bütün işləri rəis və 2 məmur idarə edirdi. Camaatlara gəldikdə isə onlar idarə hüququndan məhrum edilir və tamamilə çar hərbi dairələrindən asılı olan adi kənd icmalarının səviyyəsinə endirilirdi.

Vilayətin əhalisi belə vəziyyətlə barışmaq istəmirdi. Keçmişdən qalan vergi qalıqlarının toplanması da narazılıq doğururdu. Dağıstan dağlılarının nümunəsi carlıları da mübarizəyə ruhlandırırdı.

1830-cu ilin iyununda dağlıların dəstələri Car vilayətlərinin ərazisinə daxil olarkən bir çox sakinlər onlara qoşuldu. Üsyançılar nizami çar ordusunun qarşısında dura bilməyib, yenidən tikilməkdə olan Yeni Zaqatala qalası yaxınlığında məğlub oldular, Laki carlılar və digər əhali silahı yerə qoymadı. Onlar Qafqaz dağlılarının rəhbərlərindən biri olan Həmzət bəylə əlaqəyə girdilər.

1830-cu il sentyabrın əvvəlində Həmzət bəyin 2 min nəfərlik dəstəsi Car vilayətinə daxil oldu. Carlılar üsyan qaldırdılar və dağıstanlılara qoşuldular. Yeni Zaqatala qalasında yerləşən çar qoşunu demək olar ki, hər yerdən təzrid olundu. Oktyabrın 15-də baş verən döyüşdə üsyançılar çar qoşununu məğlubiyyətə uğratdılar. Lakin kömək alan çar qoşunu tezliklə hücuma keçdi. Dağlılar Car-Balakəndən çəkildilər, üsyançılar isə düşmənin üstün qüvvələri ilə üzbəüz qaldılar. Çar qoşunu üç böyük kəndi – Car, Köhnə Zaqatala və Göyəm kəndlərini hücumla alaraq dağıtdılar. 1830-cu ilin dekabrında dağlıların dəstələrini yenidən Car vilayətinə daxil oldular və vilayətdə üsyan baş verdi. Lakin üsyan yerli xarakter daşıyırdı: ancaq Balakən əhalisi mübarizəyə qalzxmışdı. 1830-cu ilin dekabrında üsyançılar məğlub oldular.

Bir neçə ay keçdi və Azərbaycanın başqa yerində - Talış əyalətində mütləqiyyətin sosial və müstəmləkə zülmünə qarşısına qarşı yönəlmiş yeni üsyan baş verdi. Azərbaycanın digər əyalətlərində olduğu kimi, bu əyalətdə də kəndlilərin əksəriyyətini (kənd əhalisinin ümumi sayının 72,6 faizini) dövlət kəndliləri təşlik edirdi. Dağ mahallarında torpaqların çatışmazlığı, vergi yığanların zülmü və özbaşınalığı ilə daha da dərinləşən vergi və mükəlləfiyyətlərin ağırlığı kəndliləri əzab və ehtiyaclara məhkum edirdi. Dövlət əkərləri daha ağır vəziyyətdə idilər. Onların vəziyyətini çar məmurlarının özləri “acınacaqlı və dəhşətli” vəziyyət kimi xarakterizə edirdilər [90].

Sahibkar kəndliləri də ağır istismara məruz qalırdılar. Çar müstəmləkəçiləri tərəfindən törədilən zülm və özbaşınalıq da kəndlilərin narazılığına səbəb olurdu.

Faktik olaraq 1824-cü ildən xanlığı idarə edən mayor İlyinski ona verilmiş hakimiyyətdən açıq və kobud şəkildə istifadə edərək, rüşvət toplamaqla məşğul olurdu. İlyinski 1826-1828-ci illər Rusiya-İran müharibəsi dövründə xüsusilə əl-qol açmışdı. Onun əmrinə əsasən xanlığın 14 sakini istintaqsız və məhkəməsiz Xəzər dənizində batırılmışdı. Çar hakimiyyət orqanları onları İran ordusuna yardım göstərməkdə günahlandırırdı. Çar məmurları onların əmlaklarını mənimsəmək

məqsədi ilə günahsız adamlara divan tutmuşdu. Onlardan birinin, tacir Hacı məhəmmədhəsənin əmlakının qiyməti 1000 çervon məbləğində idi [91].

Xanlıq, ümumiyyətlə, ləğv edildikdən və Rusiya-İran müharibəsi qurtardıqdan sonra komendant Talışa öz mülkü kimi baxmağa başladı. Onun sərəncamına əsasən vergilər ikiqat həcmdə toplanırdı [92]. Kəndlilər deyirdilər ki, "verməyənləri, təkcə kişiləri deyil, qadınları da ölümcül olana qədər döyürdülər..., ələ keçən hər şeyi, hətta qadın paltarlarını da zorla alırdılar, nəticədə onlar tamamilə müflisləşərək, öz evlərini tərk etməyə məcbur olurdular" [93].

Çar müstəmləkəçilərinin siyasətindən, artıq onların əlində oyuncağa çevrilmiş Lənkəran xanlığının keçmiş hakimi Mir Həsən xan və onun ətrafında birləşən feodallar da narazı idilər. İlyinski Mir Həsən xanı alçaldaraq təhqir etmiş və onun şəxsi torpaqlarının 2/3-ni ələ keçirmişdi.

1826-1828-ci illər Rusiya-İran müharibəsi dövründə xan bir çox bəylərlə birlikdə İran şahının tərəfinə keçərək İrana qaçdı və hakimiyyəti bərpa etmək üçün əlverişli şərait gözləməyə başladı. 1831-ci il martın əvvəllərində Mir Həsən xan Rusiya-İran sərhədlərinə yaxınlaşdı və martın 5-də 30 silahlı atlı ilə sərhəd çayı olan Astara çayını keçərək Lənkəran tərəfə hərəkət etdi. Xanın gəlməsi xəbəri lap əvvəlcədən geniş xarakter almışkəndli üsyanının başlanması üçün siqnal oldu: Talış əyalətinin 8 mahalından 5-i həyəcanlarla əhatə olunmuşdu. Qafqaz ölkəsinin baş komandanı Paskeviçin verdiyi məlumata görə, xanın dəstəsi martın 9-da artıq min atlıya çatırdı. Baş komandan həyəcanla yazırdı: "Bu kütlə hər gün onun (Mir Həsən xanın – Red.) yanına yalançı vədlərlə yoldan çıxarılmış adamların gəlməsi ilə artırdı". Paskeviçin elə həmin məlumatda etiraf etdiyi kimi, bu zaman "Lənkəran xanlığının artıq bir çox mahalları qiyama cəlb edilmişdi" [94]. Sonralar üsyançıların sayı rəsmi məlumatlara görə 2 min nfəri ötmüşdü. Şamaxı komendantının Paskeviçin adına göndərdiyi 22 mart 1831-ci il tarixli raportunda deyilirdi: "Bütün Lənkəran xalqını qiyama təhrik edən Mir Həsən xan 2 mindən çox atlı və piyadaya malikdir" [95].

Hərəkatda rəhbər rol oynayan bəylərlə yanaşı, kəndlilər,dövlət və sahibkar rəiyyətləri, əkərlər, nökərlər də iştirak edirdilər. Təhkimçi dövlət tərəfindən amansız istismar olunan, müstəmləkə zülmünün yaradılmış bütün ağırlığını hiss edən kəndlilər nifrətlə mütləqiyyət siyasi şüurun şüası ilə işıqlandırılmayan kortəbii partlayış, müstəmləkəçilərin sistem həddinə çatdırılmış kütləvi soyğunçuluqlarına və özbaşınalıqlarına, çarizmin ağır vergi zülmünə qarşı yönəldilmiş silahlı etiraz idi. Kəndlilər vəd verməklə xəsislik etməyən xan və feodalların sözlərinə inanaraq, qələbə çalacaqları təqdirdə yaxşı güzəran əldə edəcəklərini güman edridilər.

Beləliklə, Talış üsyanı, hər şeydən əvvəl, artıq hər yerdə keçmiş xanlıqların yerində yaradılmış hərbi müstəmləkə idarə sisteminə qarşı çevrilmikşdi. Bu sistem kəndlilərin ölkənin torpaq fondunun böyük hissəsinin mülkiyyətçisi olan çar dövlət xəzinəsinin xeyrinə hədsiz dərəcədə amansızlaşan istismaredilmə

metodları ilə bağlı olduğunundan kəndlilərin çıxışları eyni zamanda antifeodal xarakter daşıyırdı. Bununla birlikdə yerli feodalı sinfinin müəyyən hissəsinin iştirak etməsinə baxmayaraq, o, obyektiv olaraq sonunculara qarşı da yönəldilmişdi, çünki feodalların digər hissəsi artıq çoxdan öz mənafeyi xatirinə çar müstəmləkə idarəçiliyi ilə bağlanmışdılar.

Üsyan çar hakimiyyət orqanlarını qəflətən yaxaladı. Həmin dövrdə rus ordusunun əsas qüvvələri çarizmə, müstəmləkəçilik əleyhinə mübarizəyə qalxmış Dağıstan dağlılarına qarşı yönəldilmişdi. Talışda rus qoşunlarının qüvvələri məhdudu idi. Burada ancaq daima Lənkəranda yerləşən piyada batalyonu var idi. Hökumətin üsyanşılara ciddi müqavimət göstərə bilmədiyi bir şəraitdə yerli əhali tərəfindən göstərilən kömək ilk dövrlərdə Mir Həsən xanın müvəffəqiyyət qazanmasını təmin etdi.

1831-ci il martın 10-da üsyançılar Lənkərana yaxınlaşdılar və şəhəri qurudan qismən mühasirəyə aldılar. Əyalət komendantı Korniyenko etiraf edirdi ki, Mir Həsən xanın əlaqəsini tamamilə kəsmişdilər. Martın 10-da üsyançılar daha bir qələbə gözləyirdi: üsyançılara qarşı mübarizə məqsədilə yerli əhalidən təşkil edilib Ərçivan kəndində yerləşdirilmiş süvari dəstə bütün heyəti ilə onların tərəfinə keçdi və qiyamçı xanın oğlu Abdulla bəyə qoşuldu.

Talışda üsyan başlanması xəbərini alan Paskeviç əks zərbə vurmağa hazırlaşmağa başladı. Aprelin əvvəlləri üçün Salyan və Zərdaba nizami və qeyri-nizami qoşun dəstələri gətirmək nəzərdə tutulurdu. Martın 20-də çar dəstəsi Abdulla bəyin, əhalisi üsyançılara qoşulmaqdan imtina etmiş Sebidac mahalına soxulmasının qarşısını almaq məqsədilə Lənkərandan çıxaraq ona hücum etdi. Qısa müddət davam edən döyüşdə üsyançılar pərən-pərən salındı. Lənkəran qarnizonunun böyük hissəsinin şəhəri tərk etməsindən istifadə edən Mir Həsən xan martın 27-də Lənkərana lap yaxınlaşdı və gecə şəhərin ucqar hissəsinə daxil ola bildi. Lakin artıq martın 30-da hökumət dəstələri Lənkərana köməyə çatdılar və üsyançılar yaxınlığdakı meşəyə çəkildilər. Martın 31-də ümumi sayı 500 adamdan ibarət olub, 2 topa malik olan nizami qolşun dəstələri üsyançılara hücum edərək onları pərən-pərən saldı, xanın Lənkəranı mühasirəyə almaq cəhdi pozuldu.

Üsyançıların böyük hissəsi, xan başda olmaqla, şəhərdən 15 verst aralıqda yerləşən Sələş kəndində, Abdulla bəyin başçılıq etdiyi digər hissəsi Bədalan kəndində yerləşmişdi. Aprelin 6-da çar qoşunu üsyançılara hücum edərək, onları Sələşdən çıxartdı. Səhərisi gün üsyançılar kəndi yenidən ələ keçirməyə cəhd göstərdilər, lakin toplardan və piyada qoşunun tüfənglərindən açılan atəş nəticəsində onlar geri çəkildilər. Bu məğlubiyyət Talış üsyanında dönüş nöqtəsi oldu. Məğlubiyyət kəndliləri ruhdan saldı və onlar kütləvi şəkildə üsyandan aralanmağa başladılar. Hərəkatın sosial tərkibinin müxtəlifliyi də ona mənfi təsir göstərməyə başladı.

Aprelin 14-də üsyanı yatırtmaq üçün gətirilmiş qoşun Salyanda toplandı. Bu zaman artıq Ərçivan və qismən də Lənkəran mahallarının sakinləri üsyandan

aralandılar və bir sıra kəndlərin kəndxudaları tabe olduqlarını bildirmək üçün buraya gəldilər. Aprelin 22-də bu qoşun Lənkərandan xanın əsas dayaq məntəqələrindən Lənkəran mahalının Əmburan kəndinə doğru hərəkət etdi.

Qoşunun hərəkət etdiyi yol boyunda olan kəndlərin çoxunda əhali yox idi. Onalr üsyançıların tərəfində duran sakinlərin cəzalandıracaqlarından qorxaraq meşələrə qaçmışdılar. Bu, çar generalı Talış əyalətinin əhalisinə bəyənnamə ilə müraciət etməyə məcbur etdi. General onları üsyançıların sırasını tərk etməyə və "öz işlərinə qayıtmağa" çağırırdı. O, söz verirdi ki, itaət edənlərin hamısı "tamamilə bağışlanacaqlar". Mübarizəni davam etdirənləri o, divan tutmaqla hədələyirdilər [96].

Aprelin 20-dən sonra Mir Həsən xanın dəstəsində cəmi 300 adam qalmışdı. Toplarla silahlanmış hökumət qoşunlarının sayca çox olması (üsyançılara qarşı ümumi sayı 5 mindən çox olan qoşun göndərilmişdi) üsyançıları ciddi müqavimət göstərmək imkanından məhrum edirdi.

Aprelin 23-də çar qoşunu Əmburana daxil oldu. Feodallar da xandan ayrılmağa başladılar. Ona kömək edən alar və Drıq mahallarının naibləri hökumətlə gizli danışıqlara girərək çarizmin tərəfinə keçdilər. Aprelin 29-da qoşun Əmburandan xanın sonuncu dayaq məntəqəsi olan Drıq mahalına hərəkət etdi. Qoşun heç bir müqavimətə rast gəlmədi.

Drıq mahalının meşələrində gizlənən xanın kiçik dəstəsinə həmin vaxt tüğyan edən vəba xəstəliyi böyük zərbə vurdu. Basovun kazak dəstəsi tərəfindən təqib edilən Mir Həsən xan mayın əvvəlində Lənkəran, mayın 5-də isə Astara mahalına qaçdı. Mayın 7-də xanın cəmisi 20 nəfərdən ibarət olan dəstəsi sərhəd çayı Astaradan cənuba keçdi.

İki ay müddətində Cənubi Qafqazdakı çar hakimiyyət orqanlarının diqqətini özünə cəlb edən Lənkəran əyalətindəki üsyan belə qurtardı.

Bir neçə il sonra, 1837-ci ildə Azərbaycanın şimalında, Quba əyalətində XIX yüzillikdə Azərbaycan kəndlilərinin ən böyük silahlı üsyanı – kəndli çıxışları alovlandı.

Quba əyalətində bilavasitə kənd istehsalçılarının böyük hissəsini dövlətə məxsus torpaqda yaşayan kəndlilər təşkil edirdilər. Bu şərait əyalətdə baş verən kəndli hərəkatının xarakterinə həlledici təsir göstərdi: təhkimçi dövlət kəndlilərinin əsas hissəsinə münasibətində feodal və müstəmləkə zülmünün daşıyıcısı kimi çıxış etdiyindən, mübarizənin zərbəsi yenidən ona qarşı yönəlmiş oldu.

Əyalət kəndlilərinin narazılığının əsas mənbəyi iltizam sistemi idi. Bu sistemə görə, müxtəlif dövlət vergilərinin böyük hissəsi ayrı-ayrı şəxslərə iltizama verilirdi. İltizamçılar zəhmətkeş adamları amansızcasına soyub talayırdılar. Əyalətdə çar xəzinəsinə məxsus olan otlaqların iltizama verilməsi heyvandarlıqla məşğul olan kəndlilərin vəziyyətini xüsusilə ağırlaşdırırdı. 1835-ci ildə Quba əyalətinin bütün otlaqları praporşik Şergilov tərəfindən iltizama götürülmüş və sonra onun tərəfindən soyğunçu şərtlərlə maldar kəndlilərin istifadəsinə verilmişdi.

Bununla kifayətlənməyən iltizamçı kəndli torpaqlarını ələ keçirir, heyvanlarını Şamaxı əyalətinə sürüb aparmağı və yaxud quru otlaq saxlamağı üstün tutan kəndlilərdən də otlaq xərci alırdı. Hətta Quba komendantı da etiraf etməyə məcbur olmuşdu ki, "Bundan belə nəticə çıxarmaq olar ki, guya dövlət özünə məxsus olan əmlakı, otlaq yerlərini deyil, əhaliyə məxsus olan əmlakı – qoyunları iltizama verir, iltizamçılar bu maddəni belə başa düşürdülər və müqavilə ilə öz fəaliyyətlərini belə istiqamətləndirirdilər" [97].

Dövlət vergilərinin ağırlığını onları toplayarkən yol verilən görünməmiş özbaşınalıqlar daha da artırırdı. Bütün rütbələrdən olan vəzifəli şəxslər kəndliləri soyub talayırdılar. Polkovnik Gimbut komendant olduqdan sonra vilayətdə özbaşınalıq daha da güclənirdi.

Vergilər kəndlilərdən qanunla müəyyənləşdirildiyindən bir neçə dəfə artıq toplanır, fərq isə komendant tərəfindən mənimsənilirdi. Gimbut kənlilər üzərinə qanunla nəzərdə tutulmamış vergilər qoyurdular. 1837-ci ilin yazında Müşkür mahalının kəndliləri öz şikayətlərində bildirirdilər ki, Gimbut onların üzərinə xüsusi vergi qoymuş, pulları isə özü mənimsəmişdir. Şeşpara mahalının kəndlilərinin şikayətində göstərilir ki, Gimbut onlardan "zəlzələyə görə pul" toplamışdır. Komendantın özbaşınalıqlarını 15 maddədə ifadə edən kəndlilər qeyd edirdilər ki, Gimbut onları pulsuz olaraq özü üçün işləməyə, ot biçməyə, bağ becərməyə, odun tədarük etməyə məcbur edir.

Əyalətin idarə edilməsi üzrə komendant köməkçiləri olan mahal naibləri də öz rəislərindən geri qalmırdılar. Əyaləti təftiş edən adamın şəhadətinə görə, "mahal naiblərinin özbaşınalıqlarının hüdudu yox idi".

Komendant və digər vəzifəli şəxslərn azğınlığı məhkəmə işlərinin aparılmasında da özünü aydın göstərirdi. Şikayətçilərin tələbləri tələbləri çox nadir hallarda ödənilirdi. Həbsə alınmış adamlar bəzən illərlə istintaqsız və məhkəməsiz həbsxanada saxlanırdılar.

Çarizm tərəfindən Quba əyaləti kəndlilərinə amansız müstəmləkə zülmü, Azərbaycanda vəzifəli şəxslərin əhalini açıq şəkildə soyması, onların azğınlığı və özbaşınalığı üçün əlverişli şərait yaradan komendant üsul – idarəsinin bərqərar olması 1837-ci il Quba kəndlilərinin üsyanının əsas səbəbləri idi.

Müflisləşmiş kəndlilər dövlət boyunduruğunu daşımaq iqtidarında deyildilər və nəticədə vergi borcları sürətlə artırdı. Kəndlilərin vəziyyəti elə pisləşmişdi ki, onlar 1836-cı ildə buğda və arpa ilə ödənilən natural vergini ödəməyi dayandırmağa məcbur olmuşdular.

Hökumət dairələrinin Yuxarıbaş mahalı kəndlilərinə Varşavada yerləşən süvari müsəlman alayında xidmət üçün könüllülər vermək təklifi kəndlilərin səbir kasasını dolduran sonuncu damla oldu [98]. Könüllülər tamamilə yerli əhali hesabına təchiz edilməli (silah, at, paltar və s.) olduğundan, əslində çarizm bu aktla çar hakimiyyət orqanlarının əlavə özbaşınalıqları üçün mənbə olan yeni mükəlləfiyyət tətbiq edirdi.

Bu tələb kəndlilər tərəfindən əsgəri mükəlləfiyyətin başlanması kimi qəbul edildi və 1837-ci ilin aprelində əyalətdə kütləvi kəndli hərəkatının başlanmasına təkan verdi. Hərəkat Yuxarıbaş mahalında başlandı, sonra iki qonşu mahala yayılaraq tezliklə bütün əyaləti bürüdü.

Gündüzqala kəndində toplanan kətxudalar hərbi dairə rəisi Reutdanəyalətin əhalisini süvarilər verməkdən azad etməyi tələb etdilər. Tezliklə kətxudalar əlavə tələblər irəli sürdülər: dövlət mükəlləfiyyətlərin azaldılması, komendant Gimbutun vəzifəsindən kənar edilməsi, əhalinin nifrət etdiyi iki mahal naibinin vəzifəsindən kənar edilməklə əyalətdən çıxarılması. Hərəkat çox sürətlə inkişaf edərək müstəmləkə və feodal əsarəti əleyhinə çevrilmiş hərəkat xarakteri aldı.

Yaranmış vəziyyətin ciddiliyi hökuməti güzəştə getməyə məcbur etdi. Reutn adından elan olundu ki, “Quba əyalətindən süvarilər tələb olunmayacaqlar” [99]. Kəndlilərin Gimbutun və haqqında danışılan naiblərin vəzifələrindən götürülməsi tələbləri də yerinə yetirildi. Hökumət bu yolla kəndliləri sakitləşdirməyə, vaxt qazanmağa və kəndlilərə mükəlləfiyyətlərin azaldılması haqqındakı əsas tələbləri unutdurmağa ümid bəsləyirdi. Reutun taktikası müvəffəqiyyət qazandı. Kəndlilər evlərinə dağılışdılar və bununla hərəkatın birinci mərhələsi başa çatdı. Lakin Quba əyalətində kəndli hərəkatını doğuran sosial ziddiyyatlar həll edilməmiş qalırdı. Kəndlilərin mükəlləfiyyətlərin azaldılması haqqında əsas tələbləri yerinə yetirilmədi. Narazılığın yeni partlayışı labüd idi və onu çoz gözləmək lazım olmadı.

1837-ci ilin avqustunda Quba əyalətində kütləvi silahlı üsyan başlandı. Ona Xuluq kəndinin kətxudası – aprel həyəcanlarının fəal iştirakçısı Hacı Məhəmməd rəhbərlik edirdi, Dağıstan dağlılarının Şamil tərəfindən rəhbərlik edilən mübarizəsi də Quba əyalətlərindəki hadisələrin inkişafına, əhali arasında müstəmləkə əleyhinə əhavali-ruhiyyənin güclənməsinə təsir göstərirdi.

1837-ci il avqustun əvvəlində Hacı Məhəməd mürid Əmir Əli ilə görüşdü. Görüşdə Əli Şamilin Yuxarıbaş kətxudalarının adına ünvanlandığı məktubunu ona verdi, Şamil onları çar hakimiyyət orqanlarının yalançı vədlərinə inanmamağa, əldə silah öz hüquqlarını müdafiə etməyə çağırırdı. Şamil yazırdı: “Silaha sarılın, üsyan qaldırın”. Hacı Məhəmməd və kətxudalar qubalılara silahla kömək göstərməyə söz vermiş dağlıq Dağıstanın, Kürə və Qazıqumuğun iri feodal hakimlərindən biri olan Məhəmməd mirzə xana böyük ümid bəsləyirdilər.

Avqustun 20-dən sonra Hacı Məhəmməd üsyan bayrağını qaldırdı. Çar müstəmləkəçiləri ilə silahlı üsyana başlamaq çağırışını o, oğlunun Xuluq kəndində keçirilən və üç yuxarı mahaldan 200-ə yaxın adamın, o cümlədən kətxudaların iştirak etdikləri toyunda irəli sürdü. Kətxudalar Hacı Məhəmmədə tərəfdar çıxdılar və kəndlərə çaparlar göndərərək, kəndliləri silahlı mübarizəyə çağırdılar.

Hadisələr çoz sürətlə inkişaf edirdi. Artıq bir neçə gündən sonra, Barmaq mahalı istisna olmaqla, bütün əyalət kəndli üsyanı alovlarına bürünmüşdü.

Üsyançılar tərəfindən xan seçilmiş Hacı Məhəmməd Qubaya yaxınlaşdı və onun dörd verstliyində düşərgə saldı. Avqustun 30-da Qubanın mühasirəsi başlandı. Şəhər qala divarları ilə əhatə olunmuşdu.. Onu qeyri-nizami hərbi qulluqçular da daxil olmaqla sayı təxminən 600 nəfər olan qarnizon qoruyurdu. Lakin onların gücünü üsyançılarda olmayan toplar xeyli artırırdı. Bunun hücumu poza bilməyəcəyini nəzərə alan üsyançılar şəhərə gizlicə daxil olmağı və düşmənə eyni zamanda həm arxadan, həm də öndən zərbə vurmağı qərara aldılar.

Sentyabrın 4-dən 5-nə keçən gecə üsyançıların hər biri 4 min nəfərdən ibarət olan iki dəstə qərbdən və şərqdən qala divarlarına həmlə etdilər.Hacı Məhəmmədin ən yaxın silahdaşlarından olan kəndli Yarəlinin başçılığı ilə sayı yenə də 4 min nəfər olan üçüncü dəstə gizlicə şəhərə daxil olmağa cəhd göstərdi. Əvvəlcədən əldə edilmikş razılığa əsasən şəhərlilər üsyhançılarla birgə çıxış etməli idilər.

Güclü tüfəng və top atəşləri üsyançıları qala divarları üzərinə qalxmağa imkan vermədi. Yarəlinin dəstəsinin xeyli hissəsi isə şəhərlilərin köməyi ilə gizlicə Qubaya daxil olaraq, şəhər məhkəməsinin binasını ələ keçirdi, şəhərin mərkəzində yerləşən meydana çatdı. Lakin bu zaman üsyançılar gördülər və dəstənin böyük hissəsi şəhərə daxil ola bilmədi. Qoşun dəstəsi sürətlə üsyançılara hücum etdi. Top atəşi onları meydanı tərk etməyə məcbur etdi. Ancaq üsyançılar yaxınlığdakı evlərə dağılışaraq, böyük igidlik və inadla soldatların hücumlarını dəf etməyə bağladı. Üsyançıların məskunlaşdığı hər bir ev kiçik qalaya çevrilmişdi və onu ancaq həmlə ilə almaq olardı. Şiddətli döyüşdə üsyançılarla birlikdə çoxlu şəhərli də vuruşurdu. Hacı Məhəmmədin dediyinə görə, "şəhərin bütün sakinləri onlara hər şeydə kömək göstərir, qadınlar çörək,  barıt, çəpər və divarları deşmək üçün balta verir, şəhərlilər tüfəngləri doldurur və hətta özləri atəş açırdılar" [100]. Çar zabitlərinin də etirafına görə, şəhərlilər qoşun ilə vuruşurdular. O öz rəisinə verdiyi məlumatda yazırdı: "Şəhər sakinlərinin bir çoxu bizə atəş açırdı" [101].

Üsyançılar böyük igidlik və mərdliklə vuruşurdular. Lakin onların ayrı-ayrı evlərdə gizlənmiş pərakəndə qrupları təlim görmüş çar ordusuna qarşı dura bilmədi. Qoşun tüfəng atəşinin və süngü zərbələrinin köməyi ilə təxminən axşam saat 5-ə yaxın üsyançıları şəhərdən çıxara bildi.

Digər iki dəstə hələ də şəhər divarlarına həmlə edirdi. Lakin onlar da müvəffəqiyyət qazana bilmədilər. Səhərisi gün üsyançılar şəhəri həmlə ilə ələ keçirmək üçün yeni cəhd göstərdilərsə də, xeyli itki verərək geri oturuldular. Üsyançılar heç bir qəti hərəkət etməsələr də, şəhərin mühasirəsini davam etdirirdilər. Şəhəri susuzluqla üzmək vasitəsi ilə qalanı ələ keçirməyi qərara alan üsyançılar Qubanı su ilə təmin edən arxın qarşısını kəsdilər. Suya kəskin tələbat şəhərlilərin arasında həyəcana səbəb oldu. Çar zabitləri sentyabrın 10-da şəhərdən üsyançılar üzərinə basqın etdilər. Çar qoşunu şəhərin yaxınlığındakı yəhudi qəsəbəsində yerləşən üsyançı dəstəsinə hücum edərək, onu məhv etdi. Bu

müvəffəqqiyətsizlik, ən başlıcası isə mühasirənin heç bir nəticə verməməsi üsyançılarda öz qüvvələrinə inamı sarsıtdı, onları ruhdan saldı.

Məhəmməd Mirzə xanın ikiüzlü oyunu da üsyançılara mənəvi təsir göstərirdi. Quba əyalətində baş verən həyəcanların lap əvvəlindən o, çar hakimiyyət orqanlarından gizli olaraq Hacı Məhəmmədi onlara qarşı birgə mübarizəyə çağırdı. Bununla belə xan hərbi dairə rəisinin tələbi ilə öz qardaşı Harun bəyin komandanlığı ilə Quba əyalətinə hərbi dəstə göndərdi. Quba yaxınlığındakı Zeyxur kəndində düşərgə salan Harun bəy üsyançılarla birləşmədi. Xan, qalib müəyyənləşəndən sonra, onun tərəfinə keçmək üçün gözləmə taktikasını seçdi. Lakin üsyançılar xanın taktikasını başa düşdülər. Bu isə onlar arasında intizamsızlığı artırdı. Kəndlilər Hacı Məhəmmədi tərk edərək, evlərinə dağılışmağa başladılar.

Kəndli düşərgəsinin dağılması elə sürətlə gedirdi ki, səhərisi gün Hacı Məhəmmədin yanında üsyanda iştirak etmiş 9 mahaldan yalnız 3 dağ mahalının kəndliləri qalmışdı. Belə cüzi qüvvə ilə mübarizəni davam etdirmək mənasız idi və Hacı Məhəmməd kəndliləri evlərinə buraxmağı qərara aldı. Özü isə doğma kəndi Xuluqa gələrək, ailəsini götürüb Kürə xanlığına yola düşdü. O burada Mirzə Məhəmməd xan tərəfindən ələ keçirilib hökumətə təslim edildi. Çar müstəmləkəçiləri məhkəmə qurmağa və qisas almağa başladılar. Hacı Məhəmməd edam edildi. Üsyanın 44 fəal iştirakçısı hərbi məhkəməyə verildi. Yarəli isə dağlarda gizlənə bildi.

1837-ci il üsyanının hərəkətverici qüvvəsi kəndlilər idi. Üsyan iştirakçılarının tərkibi və onların ən başlıca tələbləri də bunu sübut edir. Şəhərin üsyançılar tərəfindən ələ keçirilmiş ərazisində yaşayan şəhərlilərin də bir hissəsi üsyanda iştirak edirdi. Lakin bütövlükdə şəhərlilər üsyançılara əməli kömək göstərmədilər.

Üsyanda tiyuldarların torpaq üzərində mülkiyyətini və kəndlilərin feodal istismarını tanımaq istəməyən çarizmin torpaq siyasətindən narazı olan bir çox Quba bəyləri də iştirak edirdilər. Bununla birlikdə Quba feodalları arasında çar hökuməti tərəfindən əllərində silah üsyançılara qarşı çıxış edənlər də az deyildi.

Çarizmin müstəmləkə zülmünün xüsusilə ağır olduğu Şəki əyalətində də çıxışlar baş verdi. Maliyyə nazirliyinin məmuru Kalinovskinin məlumatına görə, əyalət əhalisindən 12 müxtəlif vergi toplanırdı. Əyalətlərin heç birində Şəkidə olduğu qədər çoxlu vergi saxlanılmamışdı. "Zaqafqaziyada ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyəfin tut bağlarında işləyən rəncbərlər xüsusilə amansız istismara və ağır qeyri-iqtisadi məcburiyyətə məruz qalırdılar. Rəncbərlərin özlərinin "acından ölməkdən" xilas olmaq üçün kütləvi qaçma faktını qeyd edən dövlət ekspedisiyasının məmurları da onların ağır vəziyyətdə olmasını etiraf edirdilər [102].

Əyalətin inzibati və ticarət-sənətkarlıq mərkəzi olan Nuxanın zəhmətkeşlərini də dərin narazılıq bürümüşdü. Ağır vergi və mükəlləfiyyətlər,

hökumət nümayəndələrinin özbaşınalıqları sənətkarları müflisləşdirmişdi. Hökumət nümayəndələrinin azğınlığı şəhər əhalisinin varlı hissəsinin - tacirlərin, ruhanilərin, şəhərdə yaşayan torpaq sahibkarlarının da mənafeyinə toxunurdu. Nuxa sakinlərindən 150 nəfərin imzaladığı şikayətlərdən birində deyilirdi ki, komendant şəhər əhalisini "elə sıxışdırır ki, çıxış yolu ancaq öz ailəsini götürüb Nuxadan qaçmağa qalır" (103].

1835-ci ildə Cənubi Qafqaz diyarının baş rəisi baron Rozen əyalətdə yaşayan maaflar üzərinə vergi qoymaq haqqında sərəncam verdi. Bu vaxta qədər vergi boyunduruğundan azad olan maaflar arasında həyəcanlar başlandı və Rozen öz sərəncamını ləğv etməyə tələsdi. Lakin özlərinin vergi verməmək hüquqlarını itirməkdən ehtiyat edən maafların arasında həyəcanlar sakitləşmədi.

1837-ci ildə Şəki xanlığının İranda yaşayan sonuncu hakimlərindən birinin - Səlim xanın oğlu Hacı xan öz nümayəndəsi Məşədi Məhəmmədi əyalətə göndərdi. Özünü Şəki xanının varisi elan edən Məşədi Məhəmməd kiçik dəstə topladı, lakin tezliklə hökumət tərəfindən ələ keçirildi. 1838-ci ilin iyulunda o, Nuxa həbsxanasından Dağıstana qaçdı, burada rutullu Ağa bəylə əlaqə yaratdı. Həmin il avqustun sonlarında Ağa bəyin (tərkibində çar hökumətinin təqiblərindən dağlara qaçmış şəkililər də olan) 5 minlik dəstəsi Şəki əyalətinin ərazisinə daxil oldu. Məşədi Məhəmməd də dəstədə idi. Xaçmaz mahalının bir çox sakini də dəstəyə qoşulmuşdu. Əyalətin iki başqa mahalında — Şəki və Vartaşen mahallarında əhali üsyançılara açıq-açığına rəğbət bəsləyirdi.

Əhalinin köməyi rutullu Ağa bəyə sürətlə Nuxaya yaxınlaşmağa imkan verdi. Çar ordusu geri çəkilməyə və qala divarları arxasında gizlənməyə məcbur oldu. Komendant idarəsinin məmurları və varlılar da burada sığınacaq tapdılar. Qafqazın baş komandanı general Qolovinin çara verdiyi məlumata görə, "yoxsullar və avaralar" üsyançılara qoşulmuşdular.

Bir neçə gün ərzində Nuxa yaxmlığmda üsyançılarla ordu arasında toqquşmalar baş verdi, lakin tərəflərdən heç biri həlledici qələbə qazana bilmədi.

Sentyabrın əvvəllərində Nuxa qarnizonu kömək almağa başladı. Sentyabrın 3-də üsyançılar şəhəri tərk etməyə məcbur oldular. Qoşun üsyançıları təqib edərək, onları bir neçə dəfə məğlubiyyət uğratdı. Məşədi Məhəmməd İranda gizləndi. Şəki əyalətindəki həyəcanlar başa çatdı.

Feodalizm dövrünün bütün kəndli hərəkatları kimi, bu çıxışlar da pərakəndə və qeyri-mütəşəkkil idi. Üsyançıların üsyana rəhbərlik edə biləcək vahid mərkəzi yox idi. Ən mühüm məsələlər kəndxudaların, bəylərin, üsyanda iştirak edən kəndlilərin və şəhərlilərin iştirak etdiyi ümumi şurada həll edilirdi. Şuranın tərkibi müəyyən edilməmişdi və yalnız bir neçə dəfə təsadüfdən-təsadüfə toplanırdı. Hətta odlu silahı olmayan kəndlilərin əksəriyyəti toplarla silahlanmış nizami ordu ilə döyüşməli olurdu. Silahlı qüvvələrin keyfiyyət üstünlüyü çarizmə üsyanı tez yatırmaq imkanı verirdi.

## § 9. KOMENDANT ÜSULİ-İDARƏSİNİN LƏĞVİ

Azərbaycanda çarizmin iqtisadi siyasətinin həyata keçirilməsi, diyarın təbii ehtiyatlarının mənimsənilməsi cəhdləri bəzi digər amillərlə yanaşı, komendant üsuli-idarəsinin təsiri altında ləngidilirdi. Bu idarəçilik üsulu hətta ali çar məmurlarının etirafına görə, "dövlət gəlirləri üçün soyğunçu, diyarın rifahı, onun sakinlərinin səadəti və mənəviyyatı üçün məhvedici" [104] oldu.

Komendant üsuli-idarəsi dövlət xəzinəsinə xeyli ziyan vururdu. Komendantlar, hərbi hissə komandirləri və Rusiya idarə aparatı ilə bağlı olan məmurlar yığılan vergilərin xeyli hissəsini mənimsəyir, xəzinənin torpağını və vəsaitini dağıdırdılar. Hərbi hissələrin zabitləri olan bu hərbi rəislər xəzinə gəlirlərinin sahibi və bölüşdürücüsü vəzifələrinin öhdəsindən gəlməyə qadir deyildilər.

Komendantların əllərində möhtəşəm, əslində nəzarətsiz hakimiyyətin cəmlənməsi, komendant üsuli-idarəsinin özü azğın despotizm, qeyri-məhdud sui-istifadələr doğururdu. Bunlar isə kütləvi silahlı kəndli çıxışlarının səbəblərindən biri idi. Çar hakimiyyət orqanları bunu aydın dərk edirdi. Çarizmin Zaqafqaziyadakı siyasətinin başçılarından biri olan baron P.Qan I Nikolayın adına raportunda yazırdı: "Qubadakı narahatlıqlar (1837-ci il üsyanı - *Red.)* xalq üçün əziyyətli olduğu qədər də zəif olan hərbi (komendant *-Red.)* üsuli-idarəsinin nəticəsidir" [105].

Çarizmin Zaqafqaziyada öz hökmranlığını möhkəmləndirməsinə nail olmaq cəhdi komendant üsuli-idarəsinin ləğvini və onun yeni sistemlə əvəz olunmasını tələb edirdi. İslahatın ləngidilməsini həm "ziyanlı, həm də təhlükəli" [106] sayan imperiya hakim dairələrinin həm Peterburqdakı, həm də Qafqazdakı bir çox nümayəndələri onun təxirə salınmadan həyata keçirilməsini tələb etməyə başladılar. Onların fikrincə, islahat aşağıdakı vəzifələri həll etməli idi: Zaqafqaziyanın Rusiya tərkibində olmasının müvəqqəti xarakteri barədə söhbətlər üçün bəhanəni həmişəlik ləğv etmək; diyarın idarə xərclərinin onun öz vəsaiti hesabına tamamilə ödənilməsini, gəlirlərin bir hissəsinin ümumdövlət xəzinəsinə daxil olmasını təmin etmək; elə bir qayda yaratmaq ki, Zaqafqaziya sakinləri onun müdafiəsində fəal iştirak etsinlər, bir müddətdən sonra isə əsgər versinlər; Zaqafqaziyanı "mülki və siyasi tellərin köməyi ilə" Rusiya ilə "vahid bir orqanizm halında bağlamaq və oradakı sakinləri rus kimi danışmağa, düşünməyə və duymağa məcbur etmək" [107].

İnzibati idarə və məhkəmə sisteminin islahatı çarizm və hakim siniflərin maraqlı olduqları iqtisadi dəyişiklikləri həyata keçirmək, xalq kütlələrini siyasi mübarizədən yayındırmaq və çarizmin Zaqafqaziyadakı mövqeyini möhkəmləndirmək məqsədini güdürdü.

İslahatın layihəsi o zaman Qafqazın baş komandanı M.F.Paskeviç tərəfindən tərtib olunmuş və 1830-cu ilin aprelində I Nikolaya göndərilmişdi.

Layihə çarizmin müstəmləkəçi məqsədlərini əks etdirirdi. O, qubernator və vilayət rəisləri vəzifələrinə generalları təyin etməklə Rusiyanın daxili quberniyalarındakı müvafiq idarələrin timsalında quberniya, vilayət və qəza inzibati və məhkəmə idarələrinin yaradılmasını nəzərdə tuturdu. Bütün inzibati və məhkəmə idarələri tamamilə "irsi rus zadəganlan" içərisindən çıxmış mə-murlardan təşkil edilməli və hər işdə Rusiya qanunları rəhbər tutulmalı idi [108].

Beləliklə, Paskeviç "hərbi xalq üsuli-idarəsinin" aradan qaldırılması ilə yanaşı, Zaqafqaziya xalqlarının milli xüsusiyyətləri ilə hesablaşmayaraq, hüquq, məhkəmə və inzibati idarə sahəsində bütün yerli xüsusiyyətlərin də ləğv olunmasını təklif edirdi.

Paskeviçin layihəsi o zaman Zaqafqaziya diyarını yoxlamış senatorlar P.İ.Kutaysov və Y.İ.Meçnikov tərəfindən müdafiə olundu. Onların Paskeviçlə birlikdə dövlət şurasına təqdim etdikləri "Zaqafqaziya diyarının quruluşu haqqında təkliflər" Rusiyanın Zaqafqaziyanı qətiyyətlə ruslaşdırmağa can atan və diyarın idarə olunmasında onun tarixi xüsusiyyətlərinin nəzərə alınmasına qarşı çıxan hakim dairələrin siyasi xəttini əks etdirirdi.

1837-ci ildə Zaqafqaziyaya senator Qanın sədrliyi altında komissiya göndərildi. Ona yerlərdə müvafiq məlumatlar toplamaq və "Zaqafqaziyanın idarə olunması üçün müəssisələr" (idarələr - *Reci.)* lahiyəsini tərtib etmək göstərişi verilmişdi. Lakin komissiya diyarın xüsusiyyətlərini öyrənmədi və Paskeviç Kutaysov və Meçnikovun təklifləri əsasında artıq 1838-ci ilin əvvəllərində islahat layihəsini tərtib edərək, onu Zaqafqaziya diyarının idarəsi üzrə komitənin təsdiqinə verdi. Komitə və Qafqaz hakimiyyət orqanlan üzvlərinin layihəyə çoxsaylı qeydləri ilə əlaqədar olaraq, bu inzibati məhkəmə islahatı layihəsi ancaq 1840-cı il aprelin 10-da l Nikolay tərəfindən "Zaqafqaziya diyarının idarə olunması üçün müəssisə" adı altında təsdiq olundu [109].

1841-ci il yanvarın 1-dən islahat hər yerdə tətbiq olundu. Yeni inzibati və məhkəmə idarələrinin açılışı yerli əyanların iştirakı ilə təntənəli şəraitdə keçirdi. Bunların hamısı zahiri təsir göstərmək, xalqı aldadaraq onlarda xoşbəxt həyatın başlandığı haqqında xülya yaratmaq məqsədi güdürdü.

Yeni idarələrin yaradılmasına görə "xilaskar" imperatora təşəkkürü çatdırmaq üçün Peterburqa gürcü zadəganları, bəylər və digər imtiyazlı təbəqələrin nümayəndələrindən ibarət heyət göndərildi.

İslahat Zaqafqaziyanın inzibati quruluşunu dəyişərək, onu Ümumrusiya inzibati ərazi bölgüsünə uyğunlaşdırdı. Zaqafqaziya diyarı mərkəzi Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına və mərkəzi Şamaxı olan Xəzər vilayətinə bölünürdü. Quberniya ve vilayət qəzalara (dairələrə), onlar isə öz növbəsində nahiyələrə (sahələrə - *Red.)* bölünürdü.

Azərbaycan torpaqlarının əksəriyyəti 7 qəzanı - Şamaxı (keçmiş Şirvan əyaləti), Şuşa (Qarabağ əyaləti), Nuxa (Şəki əyaləti), Lənkəran (Talış əyaləti), Bakı (Bakı əyaləti), Dərbənd (Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri) və Quba

(Samur dairəsi ilə birlikdə Quba əyaləti) qəzalarını özündə birləşdirən Xəzər vilayətinin tərkibinə daxil oldu. Xalqları çar müstəmləkəçiləri ilə silahlı mübarizəyə qalxmış Dağıstanla həmsərhəd olan sonuncu iki qəza xüsusi Dərbənd hərbi dairəsinə daxil edildi.

Çar hökuməti "parçala və hökm sür" prinsipini rəhbər tutaraq Azərbaycan torpaqlarının bəzi hissələrini - Qazax və Şəmşəddil distansiyaları ilə birlikdə Yelizavetpol qəzasını, Car-Balakən vilavəti və İlisu sultanlığından yaradılmış Balakən qəzasını, İrəvan qəzasını və Ordubad dairəsi ilə birlikdə, Naxçıvan qəzasını Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil etdi.

Qəzaların tərkibində nahiyələr yaradıldı, onlardan çoxu keçmiş mahalların ərazilərinə müvafiq gəlirdi. Nahiyələrin sayı və sahələri Qafqaz çar hakimiyyət orqanları tərəfindən təsdiq olunmaq şərtilə əhalinin milli tərkibinə və iqtisadi özünəməxsusluğuna qətiyyən məhəl qoyulmamaqla, ancaq əhalinin sayı və "dövlət təhlükəsizliyinin təmin olunması mənafeləri" nəzərə alınmaqla quberniya və vilayət idarələri tərəfindən müəyyənləşdirilirdi. Azərbaycan ərazi-sində cəmisi 32 nahiyə yaradılmışdı.

Zaqafqaziyanın ali idarəsi buradakı qoşunların baş rəisinin əlində saxlanılırdı. O bilavasitə imperator tərəfindən təyin edilir və vəzifəsindən çıxarılırdı. Baş rəis general-qubernatora nisbətən daha geniş səlahiyyətlərə malik idi. O, quberniya idarə orqanlarının qərarlarını ləğv etmək, məmurları vəzifələrindən uzaqlaşdırmaq və s. hüquqlara malik idi. Baş rəisin hakimiyyəti təkcə quberniya idarələri üzərinə yayılmırdı. Daxili quberniyalarda müvafiq nazirlik və idarələrin mərkəzləşdirilmiş tabeliyində olan gömrük, tədris, poçt və s. idarə orqanları da burada baş rəisə tabe idi.

Baş rəisin sədrliyi altında Baş İdarə Şurası fəaliyyət göstərirdi. Onun tərkibi imperatorun təyinatı üzrə Qafqaz hakimiyyət idarələrinin ali məmurlarından təşkil olunurdu. Şura Xəzər vilayəti rəisi və Gürcüstan-İmeretiya qubernatorunun illik hesabatlarım, Zaqafqaziyanın ayrı-ayrı rayonlarının təftişi üzrə materialları, quberniya və vilayət prokurorlarınm etirazlarını, məhkəmə hökmlərinin dayandırılması məsələlərini, gəlirlər və xərclər smetasını, mükəl-ləfıyyətlərin qəzalar və şəhərlər arasında bölüşdürülməsini və diyarın idarə olunması üzrə digər mühüm məsələləri nəzərdən keçirirdi. Şuranın senat tərəfindən təsdiq edilməli olan qərarları ona (senata) göndərilir, yaxud da müvafiq nazirliyə bildirilirdi. Şuranın digər (nisbətən az əhəmiyyətli) məsələlər üzrə qərarlan onların qəbul edilməsindən dərhal sonra qanun qüvvəsinə minir və nazirliklərin ancaq nəzərinə çatdırılırdı [110].

İslahat hərbi-komendant idarələrinin ləğvinə və onların ölkənin daxili quberniyalarındakı idarələrə müvafiq yeni idarələrlə əvəz olunmasına gətirib çıxardı. Quberniya idarələrinə "ali hakimiyyət"in nümayəndəsi olan qubenator, Xəzər vilayəti idarələrinə isə vilayət rəisi başçılıq edirdi. Həm qubernator, həm də

vilayət rəisi çarın fərmanı ilə təyin edilir və bilavasitə Qafqazın baş rəisinə ta-be olurdular.

Quberniya və vilayət orqanları sisteminə qubeniya (vilayət) idarəsi, xəzinə və dövlət əmlakı palatalan, zemstvo mükəlləfiyyətləri komitəsi və s. daxil idi. Gürcüstan-İmeretiya quberniyasından fərqli olaraq, Xəzər vilayətində xeyriyyə işlərinə rəhbərlik edən zadəgan deputatlar məclisi, təbabət idarəsi və bəzi digər idarələr yaradılmamışdı. Guya ki, bu fərqlər "Zaqafqaziyanın bu və ya digər hissəsinin rus vətəndaşlıq hüququnu qəbul etməyə hazırlığının qeyri-bərabərliyi üzündən yerli xüsusiyyətlərə qayğı xatirinə" qoyulmuşdu. Əslində isə, bu, müsəlman əhalisi ilə məskunlaşmış milli ucqarlara münasibətdə çar hökumətinin müstəmləkəçilik siyasətinin bir daha təzahürü idi.

Qəza idarəsinə qəza rəisi başçılıq edirdi. O, qəzada qayda-qanuna riayət olunmasına, şəhər və zemstvo polisinin vəzifələrinə daxil olan hər işə cavabdeh idi. Qəza rəisinin köməkçisi, qəza xəzinəsi, nahiyə iclasçıları və şəhər polisi ona tabe idi.

"Qayda-qanun"un bilavasitə keşikçisi, hakimiyyət orqanları və məhkəmənin bütün sərəncamlarının icraçısı nahiyə iclasçısı idi. O, vergilərin əhali tərəfindən vaxtında ödənilməsini və bütün digər mükəlləfiyyətlərin yerinə yetirilməsini təmin etməli idi.

1840-cı il 10 aprel qanunu Zaqafqaziyanın məhkəmə sistemində mühüm dəyişikliklər etdi. Qəza məhkəməsi hakimlərdən, çar hakimiyyət orqanları və vergi verən təbəqələrdən olan iclasçılardan ibarət idi. Qəzanın polis və məhkəmə orqanlarında işlərin aparılması üzərində nəzarəti qubeniya və vilayət prokurorlarının təqdimatı üzrə diyarın baş rəisi tərəfindən təyin edilmiş qəza prokurorları həyata keçirirdi.

Məhkəmə islahatı həm də bunda ifadə olundu ki, artıq cinayət işlərinə hərbi məhkəmələrdə yox, ümummülki məhkəmələrdə baxılırdı. Lakin bu islahatın əsas ideyalarından biri - məhkəmənin idarəçilik işindən ayrılması həyata keçmədi və məhkəmə səlahiyyətlərinin bir hissəsi nahiyədən tutmuş diyaradək Qafqaz hakimiyyət orqanlarının əlində qalmaqda idi. Məsələn, qəza rəislərinə əmlak mübahisələrini və iddialarım, habelə bəzi cinayət işlərini 100 manat məbləğinədək həll etməyə icazə verilirdi [111].

Məhkəmə işləri mərhələlərin çoxluğu ilə səciyyələnirdi. Nahiyə iclasçısı formal istintaq aparır və materialları qəza rəisinə, sonuncu isə qəza məhkəməsinə təqdim edirdi. Qəza məhkəməsinin hökmü və ya qərarı isə baxılmaq üçün qəza prokurorluğuna təqdim olunurdu. İş qəza prokurorunun qərarı ilə birlikdə quberniya və ya vilayətin cinayət və mülki məhkəmə palatasına daxil olurdu. Sonuncunun qərarı quberniya və ya vilayət prokuroruna ötürülür, o isə öz göstərişləri ilə birlikdə məhkəmə palatasına qaytarır, palata prokurorun qeydlərini nəzərdən keçirir və hökmdə düzəlişlər aparırdı. Bundan sonra bütün iş qubernatora

(və ya vilayət rəisinə) göndərilirdi. O, altı həftə ərzində ya hökmü təsdiq edir, ya da onu öz qeydləri ilə birlikdə geriyə - palataya qaytarırdı.

Mülki işlərə ümumimperiya qanunlarına əsasən baxılırdı. Mülki məhkəmə prosesində əhalinin yoxsul təbəqələrinin müraciətini çətinləşdirən və onların narazılığını doğuran xeyli lüzumsuz formalizm nəzərdə tutulurdu.

1840-cı il qanunu ruhanilərin əlində ancaq nikah və vərəsəlik işlərini həll etmək hüququnu saxlasa da, Azərbaycanın yerli sakinləri bütün mülki-hüquqi mübahisələrə görə şəriət məhkəmələrinə üz tutmaqda davam edirdilər. Çar hökuməti şəriət məhkəmələrinin saxlanılıb onlara nisbətən geniş hüquqlar verilməsindən, mütləqiyyətin sosial dayağı kimi, müsəlman ruhaniləri ilə ittifaqı möhkəmləndirmək üçün istifadə etməyə can atırdı [112].

İnzibati məhkəmə islahatının obyektiv olaraq bəzi müsbət cəhətləri var idi. Çünki o, feodal pərakəndəliyinin aradan qaldırılmasına şərait yaradırdı. İslahat vahid pul, ölçü və çəki sistemlərinin tətbiq olunmasını, rahdar vergisinin ləğvini sürətləndirirdi. Bu isə sabit olan idarə və məhkəmə sisteminin yaradılmasına gətirib çıxarırdı. Bütün bunlar sənaye və ticarətin inkişafına şərait yaradırdı.

Lakin 1840-cı ilin inzibati məhkəmə islahatı eyni zamanda çarizmin milli-müstəmləkə zülmünün daha da güclənməsinə səbəb oldu. Azərbaycanlı məmurlar inzibati idarələr və məhkəmələrdən çıxarılır, hər yerdə onların vəzifələrinə rus məmurları təyin olunurdu. Bütün kargüzarlıq ancaq rus dilində aparılırdı. Saxlanılma xərcləri ağır yük kimi zəhmətkeş əhalinin üzərinə düşən bürokratik-məmur aparatının tərkibi xeyli genişləndi. Xəzinə və xüsusi sahibkar torpaqlarında yaşayan kəndlilərdən alınan vergilər artırıldı, pul mükəlləfiyyəti tətbiq olundu, kəndlilər və şəhər yoxsullarının narazılığının daha da artmasına səbəb olan bir sıra digər tədbirlər həyata keçirildi.

Yeni inzibati-polis aparatında məsul vəzifələrə çox vaxt əhaliyə münasibətdə sui-istifadələrdə və qanunsuzluqlarda ittiham olunan keçmiş komendantlar və başqa şəxslər təyin edilirdi.

İnzibati-məhkəmə islahatı çarizmin sosial dayağı məsələsini xeyli kəskinləşdirdi. İslahatın keçirilməsi zamanı hökumətdə mütləqiyyətin etibarlı dayağı ancaq "təbii rus zadəganları" olmalıdır, rus zadəganlarım burada bəy və ağaların, tiyul torpaq sahibliyini ləğv etmək hesabına malikanələrdə yerləşdirmək fikirləri mövcud idi. Çarizm xüsusi və xəzinə ticarət-sənaye kompaniyalarına paylamaq üçün həmin yolla torpaq fondu yaratmaq niyyətində idi.

Bəzi tərəddüdlərdən sonra çar hökuməti belə bir addımı atmaq qərarına gəldi. Zaqafqaziya diyarı Baş İdarə Şurasınm Gürcüstan-İmeretiya quberniyası Qazax, Şəmşəddil və Borçalı nahiyələrinin ağaları və maliklərinin kəndlərin idarə olunmasından kənar edilməsi barəsində 1841-ci il 13 fevral tarixli [113] və Xəzər qərarlarına əsasən vilayəti bəylərinin kəndlərin idarəsindən kənar edilməsi barəsində 1841 -ci il 24 mart tarixli bəylər və ağalar özlərinin tiyul torpaqlarından məhrum edildilər [114]. Əslində bu qərarlardan ancaq birincisi həyata keçirilsə də,

yerli feodallar çar hökumətinin niyyətini başa düşərək, kəndlilərin müstəmləkə üsuli-idarəsi əleyhinə çıxışlarına qoşulmaqla, bəzi yerlərdə isə belə çıxışları təşkil etməyə başlamaqla, bu hərəkatdan öz məqsədləri üçün istifadə etməyə, imtiyazlarını geri almağa çalışırdılar.

İnzibati-məhkəmə islahatı və onun ardınca verilmiş yuxarıda adları çəkilən qərarlar bütün əhalinin, o cümlədən də öz tiyul torpaqlarını və onlardan götürülən gəlirləri itirmək təhlükəsi qarşısında qalmış, habelə idarəetmə işində hər cür iştirakdan kənar edilmiş yerli feodalların - bəy və ağaların narazılığına səbəb oldu. Hərbi nazir Çernışev 1842-ci ilin əvvəllərində jandarm idarəsi başçısı A.B.Benkendorfa məlumat verirdi ki, "...o (Xəzər - *Red.)* vilayətin ali silki onların hüquqlarının toxunulmaz qalacağına inanmır", "tacirlər qəzəblənirlər", "bütün yollarda soyğunçuluq güclənir", "məmurları cinayətkar çəkişmə işləri, əməlləri və intriqalar məşğul edir", "vəzifə tutmaq əvvəlkinə nisbətən müqayisə olunmaz dərəcədə alınıb-satılan olmuşdur".

Bütün bunların təşkilində bəy və ağaların iştirak etməsi hökumət əleyhinə çevrilmiş çıxışların qüvvətlənməsinə gətirib çıxardı.

1844-1845-ci illərdə Şuşa, Nuxa və Quba qəzaları rayonunda vergilərin həddən artıq artmasından doğan kəndli həyəcanları baş verdi. Bu çıxışlar təkcə hökumət əleyhinə deyil, həm də yerli feodallara qarşı yönəlmişdi. Quba qəzasının bir qrup kəndlisi mülkədar Məmmədyusif bəyin xeyrinə vergiləri ödəməkdən və mükəlləfiyyətləri icra etməkdən müntəzəm olaraq boyun qaçırırdı. Məmmədyusif bəy qəza rəisinin adına şikayətində bildirirdi ki, kəndlilər "artıq 8 ildir ki, onu heç tanımaq belə istəmirlər". 1846-cı ildə həmin qəzanın Rustov kəndinin sakinləri öz sahibkarlarına qarşı çıxış etdilər.

Kəndli həyəcanlarının yeni dalğası hökumətin yerli feodallarla yaxınlaşmasına zəmin yaradırdı. Həyəcanlar və çar hakimiyyətinə qarşı açıq çıxışların artmasından bərk təşvişə düşmüş I Nikolay yerli əhalinin islahatdan narazılığının səbəblərini aydınlaşdırmaq üçün xüsusi müfəttişləri - hərbi nazir qraf Çernışevi və Qafqaz Komitəsinin sədri statssekretar Rozeni Conubi Qafqaza göndərdi.

1840-cı il inzibati-məhkəmə islahatının fəal iştirakçıları olan Çernışev və Rozen günahı təkcə o zaman gözdən düşmüş Qanın üzərinə qoyaraq, bu islahatın uğursuzluğunu etiraf etməyə məcbur oldular. Belə izahat çar hökumətini də təmin edirdi.

Çar hökuməti bəy mülklərinin alınmasım dayandırmağa, sahibkarların hüquqlarını təsdiq edərək "müəyyən sahibkarlıq (bəylik *-Red.)* hüquqlarmı toxunulmaz saxlamağa və xəzinənin xüsusi mülkiyyətə iddialarından əl çəkməyə" məcbur oldu. Çarizm tərəfindən 40-cı illərin əvvəllərində elan olunmuş, yerli feodallarla münasibətlərin kəsilməsinə yönəldilmiş istiqamət tam müvəffəqiyyətsizliyə uğradı.

1842-1846-cı illərdəki təftişin nəticəsində 1840-cı il inzibati-məhkəmə islahatında bir xeyli dəyişikliklər aparıldı.

1842-ci ildə Qafqaz işləri üzrə yeni ümumimperiya orqanları - hərbi nazirin sədrliyi altında xüsusi komitə və imperiya dəftərxanasının ayrıca IV şöbəsi yaradıldı. Bu orqanlar mütləqiyyətin Zaqafqaziyadakı mövqelərinin möhkəmləndirilməsini təmin etməli idi.

Çar hökuməti dağlılarla müharibəni tezliklə başa çatdırmaq və Qafqazda öz mövqelərini möhkəmləndirmək üçün Zaqafqaziya diyarının Baş idarəsi əvəzinə 1844-cü ildə Qafqaz canişinliyini təsis etdi. Canişin mütləqiyyətin "ali hüquqlarının" başlıca keşikçisi idi və ona müstəsna dərəcədə geniş səlahiyyətlər verilmişdi. I Nikolayın həddən artıq etibar etdiyi və mütləqiyyətin müstəmləkə siyasətini can-başla həyata keçirən qraf S.M.Vorontsov Qafqaz canişini təyin olundu. Keçmiş baş rəislərdən fərqli olaraq, canişinə diyar daxilində əvvəllər nazirlərə mənsub olan səlahiyyətlər verilmişdi. O, tam mülki və hərbi hakimiyyətə malik idi və bütün hallarda bilavasitə imperatora müraciət edə bilərdi.

Canişinə bu qədər geniş səlahiyyətlər verilməsi heç də muxtar idarəçiliyinin təsisi demək deyildi. Əksinə, çar məhz canişin vasitəsi ilə Qafqaz kimi mürəkkəb, müxtəlif xalqlı diyarda öz siyasətini daha kəsərli surətdə həyata keçirməyə ümid bəsləyirdi.

Diyarın inzibati-ərazi qurumunda aparılan dəyişikliklər də Zaqafqaziyada çar hakimiyyətinin güclənməsinə xidmət edirdi. 1846-cı il 14 dekabr tarixli fərmanla Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayətinin yerində 4 quberniya - Tiflis, Kutaisi, Şamaxı, Dərbənd quberniyaları, sonralar - 1849-cu ilin iyununda isə İrəvan quberniyası yaradıldı [115].

Lakin bu inzibati-ərazi quruluşu da Azərbaycan, gürcü və erməni torpaqlarını nəinki müvafiq quberniyaların hüdudlarında birləşdirdi, əksinə onları daha da parçaladı. Beləliklə, məsələn, Azərbaycan ərazisinin ayrı-ayrı hissələri Kutaisi quberniyasından başqa bütün quberniyaların tərkibinə daxil edilmişdi.

Xalq kütlələrinin müstəmləkə zülmünə və feodallar əleyhinə yönəlmiş çıxışlarını boğmaq üçün çar hökuməti həmçinin qəza məhkəmələrinin və inzibati-polis orqanlarının səlahiyyətlərini genişləndirdi və cəza siyasətini sərtləşdirdi. Həbs cəzasına məhkum olunmuşlar üçün cəza sistemi ilə yanaşı, məhkəmə tərəfindən bəraət qazandırılmış, lakin şübhə altında qoyulmuş şəxslər üçün 1842-ci ildə cəzalar, özü də kifayət qədər ağır cəzalar sistemi tətbiq olundu [116]. Bunun nəticəsində məhkəmədə bəraət verilmiş xslər həbsxanada saxlanıla bilər, məhkəmə tərəfindən şübhə altında qoyulanlar isə Qafqaz hakimiyyət orqanlarının qərarı ilə Sibirə - daimi məskunluğa sürgün oluna bilərdilər. Məsələn, 1844-cü ilin fevralında çar hökuməti qərara aldı ki, Zaqafqaziya diyarının baş rəisi məhkəmə tərəfindən şübhə altına alınmış şəxsləri 5 illiyə məhbus rotalarına göndərə, yaxud 8 illiyə Rusiyanın daxili quberniyalarına və həmişəlik Sibirə sürgün etmək kimi cəza tədbirlərini həyata keçirə bilər[117].

Çarizmin müstəmləkə əsarətini gücləndirməsi Balakən qəzasında idarəçilik və məhkəmənin təşkilində həyata keçirilmiş dəyişikliklərdə - 1842-ci ildə bu qəzanın hərbi dairəyə çevrilməsində, cinayət işlərinə baxılmasının hərbi məhkəmələrin ixtiyarına verilməsində, demək olar ki, bütün mülki idarələrin ləğvində öz əksini tapmışdır.

Çar hökuməti eyni zamanda yerli feodallar və ruhanilərlə ittifaqı möhkəmləndirmək yolu ilə Şimali Azərbaycanda özünə sosial dayaq yaratmağa can ataraq, şəriət məhkəmələrinin səlahiyyətlərini genişləndirdi, bəy və ağaların torpaq sahibkarlığı hüquqlarını qanunvericilik yolu ilə təsdiq etdi.

Beləliklə, inzibati-məhkəmə sistemində edilmiş dəyişikliklər zəhmətkeş kütlələrin vəziyyətini yüngülləşdirmədi, əksinə, sosial və milli əsarət daha da ağırlaşdı. İslahat və xüsusən də ondan sonra gələn dəyişikliklər çarizmin Cənubi Qafqazda mövqeyinin möhkəmləndirilməsinə, mütləqiyyətin bu diyardakı müstəmləkə siyasətinin yeni vəzifələrinin həyata keçirilməsinə yönəldilmişdi.

## § 10. ÇARİZMİN AZƏRBAYCAN FEODALLARI İLƏ İTTİFAQININ MÖHKƏMLƏNDİRİLMƏSİ

XIX yüzilliyin 40-cı illərinin əvvəllərində Azərbaycanda yaranmış şərait mütləqiyyətə, bu ölkədə elə bir möhkəm sosial zəmin yaratmaq zərurətini diktə edirdi ki, həmin zəminə arxalanaraq əhalinin "istismar olunan hissəsini, ilk növbədə kəndliləri əzmək və cilovlamaq mümkün olsun.

Çarizmin sosial dayağı ancaq yerli feodallar ola bilərdi. Dağlıların xalq-azadlıq mübarizəsini boğmaq siyasəti də, Türkiyə ilə hərbi toqquşma təhlükəsi ilə bağlı olaraq öz arxasını möhkəmləndirmək istəyi də çar hökumətini yerli feodallarla ittifaq bağlamağa sövq edirdi.

Beləliklə, yaranmış şərait çarizmi yerli feodallara qarşı siyasətini dəyişməyə vadar edirdi. 1842-ci ildə Tiflisdə ağaların şəxsi hüquqları və onların həyata keçirilməsi yolları barədə məsələlərin işlənib hazırlanması ilə məşğul olan komitə işə başladı. Komitənin qarşısında ağaların şəxsində elə bir "ali müsəlman silki" yaratmaq vəzifəsi qoyulurdu ki, "hökumət bu silkin vasitəsilə öz niyyətlərilə müvafiq surətdə xalqa təsir göstərə bilsin" [118].

1843-cü ildə bu komitəni iki yeni komitə əvəz etdi: bunlardan biri "ali müsəlman silkini" - rəsmi sənədlərdə Azərbaycan bəyləri belə adlandırılırdı - müəyyənləşdirməklə; digəri isə 1841-ci i] reskripti ilə ağaların torpaqları müsadirə edildiyi üçün ayrıca olaraq ağalar məsələsi ilə məşğul olurdu.

Bu komitənin işi şəxsən çarın özü tərəfindən istiqamətləndirilirdi. Onların öz işlərində rəhbər tutmalı olduqlan başlıca əsasları da çarın özü müəyyənləşdirmişdi. Qəti surətdə aydınlaşdı ki, çarizm Azərbaycanda öz hökmranlığını möhkəmləndirmək və bu ölkədə özünə sosial dayaq yaratmaq məqsədilə yerli feodalların mənafeyini öz himayəsi altına götürmək qərarına

gəlmişdir. Bəylərin torpaq hüquqlarını və onların kəndlilərlə qarşılıqlı münasibətlərini müəyyənləşdirilməli olan başlıca əsaslar aşağıdakılardan ibarət idi:

1. Torpaqlar nəsli mülkiyyət hüququnda bəylərin ixtiyarına verilməli idi; ağalar da həmin əsaslar üzrə torpaqla təmin edilməli idilər.

2. Kəndlilər bəy və ağaların xeyrinə vergi verməli, mükəlləfiyyətlər icra etməli idilər.

3. Feodallara kəndlilər üzərində polis və məhdud məhkəmə hüquqları verilməli idi [119].

Azərbaycan bəylərinin torpaq hüquqları və onların kəndlilərlə qarşılıqlı münasibəti məsələsi M.S.Vorontsovun canişinliyi dövründə həll edildi. Qafqaza yola düşmək ərəfəsində Vorontsovu çarın I özü qəbul etdi və o, I Nikolaydan çarizmin aqrar siyasətinin başlıca istiqamətini müəyyənləşdirən göstərişlər aldı.

Yeni aqrar qanunların hazırlanması üzrə bütün işlər Zaqafqaziya diyarı mülki idarəsinin rəisi, mütləqiyyət siyasətinin qızğın icraçısı general P.A.Ladinskinin əllərində cəmlənmişdi.

1846-cı ilin əvvəllərində general Ladinski Azərbaycan bəylərinin torpaq hüquqları haqqında "Əsasnamə"nin layihəsini və bu layihə barədə ətraflı izahatı Vorontsova təqdim etdi. Bunlarda belə bir fikir aydın şəkildə ifadə olunurdu ki, tiyul torpaqlarının ləğvi haqqındakı qərar səhv olmuşdu[120].

"Əsasnamə" dəfələrlə ciddi müzakirələrə məruz qaldı. Bu müzakirələrdə Vorontsov, Ladinski və canişin tərəfindən dəvət olunmuş Qarabağ və Şəki bəyləri iştirak edirdilər, Sonuncular "Əsasnamə"nin bu müşavirələrdə işlənib hazırlanmış son layihəsindən tamamilə razı qaldılar.

Çar müstəmləkəçilərinin işləyib hazırladığı "Əsasnamə" layihəsi Azərbaycan feodallarının torpaq üzərindəki hüquqlarını təsdiq etdi. Qafqaz Komitəsi layihənin əsas müddəalarını bəyənərək, məlum əsaslar üzrə bəylərin taleyinin möhkəm şəkildə qurulmasını "həm... bu silkin sakitləşdirilməsi, həm də ən başlıcası isə bəylər vasitəsilə hökumətin əlinə xalq kütlələrini asanlıqla idarə etmək üsulları vermək" məqsədi ilə faydalı və zəruri saydı. Bununla yanaşı, Qafqaz Komitəsi layihəni daha ətraflı müzakirə etməyi qərara aldı [121].

I Nikolay 1846-cı il dekabrın 6-da canişin adına reskripti imzaladı [122].

Reskript fcodalların həm irsi mülk torpaqları, həm də "müsəlman əyalətlərinin Rusiyaya birləşdirilməsi zamanı onların nəsillərinin malik olduqları və indi mübahisəsiz şəkildə onların ixtiyarında olan" len torpaqları - tiyullar üzərində tam nəsli mülkiyyət hüququnu təsdiq edirdi [123]. 1841-ci ildə müzakirə edilmiş, çarın "xüsusi" mərhəməti şəklində geri qaytarılan torpaqlar üzərində ağaların və 1840-cı ildən sonra onlardan alınmış mülklər üzərində bəylərin hüququ təsdiq olunurdu.

Çar Rusiyasınm zadəgan mülkədarları kimi, Azərbaycan feodalları da öz torpaqlarından imperiyanın ümumi qanunları əsasında istifadə etmək "satmaq, bağışlamaq, irsən vermək və başqa üsullarla özəlləşdirmək" hüququ aldılar. Çar

hökuməti bütün imperiyada olduğu kimi, feodalların silki hüquqlarının qayğısına qalaraq qeyd edirdi ki, hüquqi sövdələşmə əsasında Azərbaycan feodalları nümayəndəsinin əlində olan malikanə o şəxsin əlinə keçə bilər ki, ya Zaqafqaziya diyarı ali müsəlman silkinə mənsub olmalı, ya da imperiyanın ümumi qanunlarına görə məskun mülklərə sahiblik etmək üçün zəruri olan keyfiyyətlərə malik olmalıdır" [124].

Reskript torpaq sahibkarlarına öz torpaqlarından sərbəst surətdə istifadə etmək hüququ verərək torpağın əmtəəyə çevrilməsi üçün müəyyən şərait yaratsa da, feodal torpaq mülkiyyəti hələlik kapitalist torpaq mülkiyyətinə çevrilmədi. Çünki torpağın özəlləşdirilməsi hüququ onunla məhdudlaşırdı ki, torpaq ancaq hakim feodal sinfin əlinə keçə bilsin. Reskript torpaq üzərində feodallarm xüsusi mülkiyyət hüququnu möhkəmləndirərək və feodalların torpaq fondunun toxunulmazlığını təmin edərək tiyuldar bəylərin öz mülkiyyətçilik hüquqlarının tanınması uğrunda apardıqları uzun-müddətli mübarizəsinə bir növ yekun vururdu.

Tiyul və mülk torpaqlarının feodal torpaq mülkiyyətinin eyni kateqoriyası şəklində qovuşması bu mülkiyyətin inkişafında Azərbaycan feodallarının torpaq hüquqlarının güclənməsi ilə əlaqədar olan yeni mərhələ idi. Bu güclənmə ilk növbədə tiyulların mülklərlə eyniləşdirilməsi faktının özündə ifadə olunurdu. Lakin ən başlıcası ondan ibarət idi ki, reskript keçmiş tiyuldarların torpaq üzərindəki mülkiyyətçilik hüquqlarınm miqyasını kəskin surətdə genişləndirdi. Əgər əvvəllər bu hüquq əslində asılı feodal kəndlilərindən renta almaq hüququ ilə məhdudlaşırdısa, indi keçmiş tiyuldarlar torpaq mülkiyyətçilərinə çevrilərək, bu torpaqlardan istədikləri kimi istifadə etmək hüququ aldılar. Kəndlilərin əsrlərdən bəri istifadə etdiyi torpaqlar tamamilə feodallarm sərəncamına keçdi.

Reskriptin xüsusi maddəsi artıq Azorbaycanın Rusiya tərəfindən istilasından sonra çar hökumətindən tiyul hüququna əsasən torpaq sahələri almış feodalların mülkiyyətçilik hüququna həsr olunmuşdu. Canişinə təklif olunurdu ki, müvəqqəti və ömürlük istifadə üçün torpaq verilmiş bu şəxslərin xidmətlərini nəzərə alaraq, torpağın bu şəxslərdən kimlərin nəsli sahibliyində təsdiq edilməsi, kimlərin isə müvəqqəti istifadəsində saxlanılması barədə çara təqdimat versin. Artıq varislərə keçmiş torpaqlar isə əgər onların alınması barədə heç bir sərəncam verilməmişdirsə, - varislərin nəsli mülkiyyəti kimi təsdiq olunurdu.

Reskriptin maddələrindən biri torpağa sahibkarlıq üstündə xəzinə ilə feodallar arasında baş verə biləcək mübahisələrdə dövlət mənafeyinin qorunmasına xidmət edirdi. Xəzinəyə mənsub olmuş xeyli torpaq mülkü heç də həmişə dəqiq mərzlənməməsi nəticəsində feodallar tərəfindən ələ keçirilirdi. Belə mübahisələrə ümumi əsaslar üzrə məhkəmə orqanlarında baxılmalıydı.

Hökumətin fikrincə, reskript feodalların torpaq üzərindəki hüquqlarını qanuniləşdirərək və gücləndirərək Azərbaycanda feodal münasibətlərini möhkəmləndirməli idi, belə ki, feodal münasibətlərinin əsasını torpaq üzərində feodal mülkiyyəti təşkil edirdi.

Xüsusi sahibkar kəndliləri formal olaraq dövlət kəndliləri dərəcəsinə şamil edildilər və müxtəlif adların (rəiyyət, rəncbər, nökər və s.) yerinə ümumi ad - "mülkədar tabelisi" adını aldılar. Kəndlilər "torpaqdan... istifadə müqabilində haqq" kimi mülkədarların xeyrinə müxtəlif mükəlləfiyyətləri yerinə yetirməli idilər və torpaq mülkiyyətçiləri polis nəzarəti altına verilirdilər.

Bununla bərabər, feodalların kəndlilərə sahib olmaq hüququ təsdiq olunmurdu. Reskriptdə "sahibkar kəndliləri" ifadəsi işlədilmirdi, feodalın xeyrinə mükəlləfiyyətlər isə torpaqdan istifadənin müqabilindəki haqq kimi təqdim edilirdi. Lakin bu mükəlləfiyyətlərin məcmusu mahiyyətcə torpaq rentasından başqa bir şey deyildi.

Çar hökuməti feodalların torpaq üzərində mülkiyyət və kəndlilərin feodal istismarı hüquqlarını təsdiq edərək, sədaqətlə xidmət göstərməyi, hər şeydən əvvəl kəndli hərəkatına qarşı amansız mübarizə aparmağı tələb edirdi. Çar reskriptində deyilirdi: "Biz buna möhkəm əminik ki, Zaqafqaziya diyarının... ali müsəlman silki... onun üzərinə qoyulacaq vəzifələrin cani-dildən və ciddi-cəhdlə yerinə yetirilməsinə... həmişə hazır olacaqdır" [125].

Reskriptdə şərh olunan və torpaq sahibkarları ilə kəndlilərin qarşılıqlı münasibətlərini müəyyənləşdirən prinsiplər 1847-ci il 20 aprel və 28 dekabr tarixli "Kəndli əsasnamələri"ndə konkretləşdirildi. Bu əsasnamələrdən birincisi Şamaxı və Dərbənd quberniyalarınm bəy kəndlilərinə, yəni Şamaxı, Şuşa, Nuxa, Lənkəran, Bakı, Quba və Dərbənd qəzalannm xüsusi sahibkar kəndlilərinə, ikincisi isə Tiflis quberniyasının Yelizavetpol qəzasındakı Qazax və Şəmşəddil nahiyələri ağalarının torpaqlarında yaşayan kəndlilərə aid idi.

1847-ci il 20 aprel "Əsasnaməsi"ndə torpaq mülkiyyətçiləri ilə kəndlilərin qarşılıqlı münasibətlərini müəyyənləşdirən, sahibkar kəndlilərinin iqtisadi və hüquqi vəziyyətinə aid bir sıra müxtəlif məsələlərə toxunulurdu.

"Əsasnamə" torpaq mülkiyyətçilərinin üzərinə 15 yaşından yuxarı kişi cinsindən olan hər bir kəndlini taxılçılıq, maldarlıq və bostançılıq üçün yararlı olan 5 desyatinlik pay torpağı ilə təmin etmək vəzifəsi qoyurdu. Kəndlini torpaqla təmin etmək vəzifəsini irəli sürən qanunverici, hər şeydən əvvəl xəzinənin və dövlət təhlükəsizliyinin mənafelərini müdafiə etməyi, sahibkarlar və dövlət üçün torpaq rentasiyasının toplanmasını təmin etməyi qarşısına məqsəd qoymuşdu. Sahibkar kəndliləri isə islahata qədər ki, dövrdə olduğu kimi 5 desyatindən az torpaq sahələrindən istifadə edirdilər.

"Əsasnamə" bu tələbin sahibkarlar tərəfindən yerinə yetirilməsini təmin edəcək heç bir tədbir nəzərdə tutmurdu. Mükəlləfiyyətlərin həcmi pay torpağının sahəsindən asılı olaraq müəyyənləşdirilmədiyindən, kəndlinin pay torpağının artırılmasına və "Əsasnamə"də nəzərdə tutulmuş ölçülərə çatdırmağa sahibkarın heç bir marağı yox idi, belə ki, torpağı icarəyə vermək sahibkar üçün daha əlverişli idi. Bütün bunlar "Əsasnamə"nin bu maddəsini qabaqcadan uğursuzluğa məhkum edir, ona deklarativ xarakter verirdi.

"Əsasnamə"nin əsas maddələrindən biri kəndlilərin mükəlləfiyyətləri məsələsi idi. Qanun kəndli mükəlləfiyyətlərinin müxtəlif növlərini, onların ödənilməsi və yerinə yetirilməsi üsullarını ətraflı surətdə şərh edirdi.

*Malcəhət* - torpaq sahəsinin kəndlinin vəsaiti (iş heyvanı, kənd təsərrüfatı alətləri, toxum) hesabına becərilməsi şərti ilə istənilən kənd təsərrüfatı bitkisi məhsulunun sahibkarın xeyrinə ayrılan $^{1}/_{10}$ hissəsi əsas məhsulla toplanan mükəlləfiyyət idi. "Əsasnamə" rəiyyətləri çoxdan bəri mövcud olmuş bir sıra digər məhsulla toplanan mükəlləfiyyətlərdən azad edərək və ya onları malcəhətin ümumi miqyasına daxil edərək, bu sahəyə nizamlayıcı əsas tətbiq edir və kəndlilərdən alınan natural məhsulla toplanan vergiləri müəyyən dərəcədə azaldırdı. Kəndlilər öz pay torpaqlannı sahibkarların iş heyvanı, alətləri və toxumundan istifadə edərək becərdikləri təqdirdə, onlar məhsulun $^{1}/_{5}$-dən çox olmayan hissəsini sahibkara verməli idilər. Bu maddə feodal asılı kəndlilərinin rənc-bərlər (əkərlər) və nökərlər kimi əvvəlki zümrələri, habelə var-yoxdan çıxmış rəiyyətlər üçün nəzərdə tutulmuşdur. "Əsasnamə"yə görə, torpaq mülkiyyətçiləri onlara pay torpağı ayırmalı idi-lər. Torpaq alan, lakin istehsal vasitələri olmayan bu kəndlilər "kömək" üçün feodala müraciət etməli olurdular.

"Əsasnamə" kəndlilər üzərinə məhsul yığımından sonra üç gün ərzində sahibkarın payını ayırmaq, feodal malikanənin hüdudlarında yaşayırsa, bu payı növbəti üç gün, məhsul yığılan yerdən 50 verstdən uzaqda yaşadığı təqdirdə 15 gün ərzində ona çatdırmaq vəzifəsini qoyurdu.

"Əsasnamə" məhsulla ödənilən vergi ilə yanaşı, kəndlilərin bəyin xeyrinə işləyib-ödəmə rentasını yerinə yetirmələrini nəzərdə tuturdu. "Əsasnamə" hər kəndli ailəsi üzərinə sahibkarın tələbi ilə öz iş eyvanı və alətlərilə ildə 18 gün ərzində onun təsərriifatında işləmək üçün bir işçi vemək təhəddüdü qoyurdu. Mükəlləfiyyətin bu növü, yəni biyar Azərbaycanda çoxdan bəri mövcud idi. Onun müddəti Azərbaycanın heç bir qəzasında dəqiq müəyyən edilməmişdisə də heç yerdə kəndlilərin feodalın xeyrinə işlədikləri günlərin sayı “Əsasnamə"də göstərilmiş rəqəmin heç yarısına da çatmırdı. "Əsasnamə" biyarın həcmini iki dəfədən çox artırdı və bununla da, əvvəlcə mövcud olmuş mükəlləfiyyəti daha ağır və məşəqqətli etdi.

Hər ailədən işçi verməklə yanaşı, kəndlilər ildə bir-iki gün bütün kənd cəmiyyəti ilə, elliklə sahibkar üçün işləyərək (əvrəz), feodalın göstərişinə görə, kənd təsərrüfatı və ya suvarma işlərini yerinə yetirməyə borclu idilər. Əvrəz nəticəsində yığılmış məhsul büsbütün feodalın xeyrinə gedirdi.

"Əsasnamə"yə görə kəndlilər elliklə sahibkar malikanələrində arxlar və yollar çəkməli, köhnə tikililəri təmir etməli idilər. Bununla da "Əsasnamə" feodallara, lazım gəldikdə, müftə işçi qüvvəsindən istifadə etməklə, özləri üçün xeyirli olan yol və suvarma işlərini genişləndinnək imkanı verirdi. Əkinçiliklə və oturaq maldarlıqla məşğul olan kəndlilər mal-qaranın sahibkar torpağında otarılmasının müqabilində məbləği müəyyənləşdirilməmiş xüsusi pul vergisi - çöpbaşı ödəməli idilər, Çöpbaşı

"yerli adətlərə görə müəyyənləşdirilməmiş" qaydalar üzrə alınırdı. Bu da torpaq sahibkatları tərəfindən özbaşmalıqlar üçün şərait yaradırdı.

"Əsasnamə"nin üç maddəsi müstəsna surətdə maldarlıqla məşğul olan kəndlilərin mükəlləfiyyətlərini müəyyənləşdirirdi. Bu kəndlilər sahibkara, adətlərə görə, çöpbaşı verməyə və hər ailə gümüş pulla 4 man. məbləğində pul vergisi ödəməyə borclu idilər.

"Əsasnamə"yə görə, kəndlilər feodala nökərlər də (hər 10 həyət dən 1 kişi və hər 15 həyətdən 1 qadın) verməli idilər. Qanun feodala kişi nökərlərindən həm çöl, həm də ev işlərində istifadə etməyə icazə verirdi. "Kəndli əsasnamələri"nin nəşrinə qədər də feodallar kəndliləri kişi nökərləri verməyə, lakin "Əsasnamə"də nəzərdə tutulduğundan xeyli az miqdarda, məcbur edirdilər. Əvvəllər kəndlilər heç vaxt qadın nökərlər vermirdilər. Çar müstəmləkəçilərinin özlərindən uydurduqları bu mükəlləfiyyət Azərbaycan xalqının çoxəsrlik ənənələrinə hörmətsizlik idi və elə dərin hiddət doğurdu  tezliklə ləğv edildi.

"Əsasnamə" sahibkarlara onların torpaqlarında yaşayan kəndlilər üzərində polis və məhdud məhkəmə hakimiyyəti verirdi. "Əsasnamə"yə görə, torpaq mülkiyyətçiləri onların torpaqlarında yaşayan kəndlilərin "farağatlığına, ədəb-ərkanına və əxlaqına" nəzarət etməli idi. Feodal həmçinin kəndlilər arasındakı çəkişmələr üzrə çıxarılmış (bu çəkişmələri kəndlilər içərisindən seçilmiş adamlar həll edirdilər) cinayət cəzası tələb etməyən qərarları təsdiqləyirdi. Polis və məhdud məhkəmə hakimiyyətinin feodalın şəxsində birləşdirilməsi onun kəndlilər üzərində hakimiyyətini gücləndirirdi. O hər hansı bir qanun pozuntusuna görə, istənilən kəndlini məsuliyyətə cəlb edə bilərdi. Kəndlilərin şəxsiyyəti üzərində feodala belə hakimiyyətin verilməsi, kəndlilər tərəfindən mükəlləfiyyətlərin yerinə yetirilməsi zamanı sahibkarların özbaşınalıqları üçün geniş imkanlar açırdı. Bütün bunlardan əlavə, "Əsasnamə" kəndlilər tərəfindən seçilən kətxudaların təsdiq olunmasını da sahibkarların nəzarətinə verirdi. "Əsasnamə" kəndlilərin "şəxsən azad və digər sahibkarın yanına keçmək hüququna malik olmalarını" etiraf edirdi. Lakin bu hüquq birincisi, kəndlilər tərəfindən adambaşına ən azı 5 desyatin torpaq satın alınmasından, ikincisi, kəndlinin həm tərk etdiyi, həm də onu qəbul edən kənd cəmiyyətlərinin, habelə torpağında bu keçmənin baş verdiyi feodalın razılığından asılı vəziyyətdə qoyulurdu. Bütün hallarda, bunlardan əlavə, kəndlilərin öz mükəlləfiyyətlərini tamamilə yerinə yetirmələri və "diyarın baş rəisinin", yəni canişinin özünün icazəsi tələb olunurdu. Keçmiş xanlar və onların qohumlarımn torpaqlarında yaşayan kəndlilərin, habelə xan nökərlərinin başqa yerə keçməsi daha artıq dərəcədə çətinləşdirildi. 15 il keçəndən sonra da Bakı qubernatoru qeyd edirdi ki, 1847-ci ildən etibarən kəndlilərin bəy torpaqlarından xəzinə torpaqlarına keçmə-si halları məhdud xarakter daşıyır [126].

Çar müstəmləkəçiləri ağır mükəlləfiyyətlər yükünü kəndlilər üzərinə yıxaraq, zorakı və əsarətçi dövlət aparatını feodalların mənafeyinin mühafizəsinə səfərbər etdilər. "Əsasnamə" yerli hakimiyyət orqanları qarşısında kəndlilərin

feodalların xeyrinə mükəlləfiyyətləri müntəzəm yerinə yetirmələri və onlara tabc olmalarına nəzarət etmək vəzifəsini qoyurdu. Hakimiyyət orqanları sahibkar-lardan şikayət alındığı təqdirdə onlara "...yardım və kömək" göstərməyə borclu idilər. "Əsasnamə" feodallara öz mülklərində polis qayda-qanunlarını qorumaq və kəndli çıxışlarını silah gücünə boğaraq vəzifəsini həvalə edirdi.

Ağalar və kəndlilər arasındakı münasibətləri müəyyənləşdirən 1847-ci il 28 dekabr "Əsasnamə"si də eynilə belə prinsiplərə əsaslanırdı.

1838-ci ildə Rusiya quberniyalarının töycü verən kəndlilərinin idarə olunması sahəsində islahat keçirildi [127]. Bu islahat tezliklə Cənubi Qafqaz diyarına da şamil edildi. Zaqafqaziya diyarında dövlət əmlaklarının idarə olunması haqqında 1841 -ci il 5 yanvar tarixli qanun 1838-ci il islahatının başlıca prinsiplərinə əsaslanırdısa da, bu qanunlar arasında mühüm fərqlər də var idi [128].

Daxili Rusiya quberniyaları ilə müqayisədə Cənubi Qafqazda dövlət kəndinin idarə olunması xeyli sadələşdirilmişdi. 1841-ci il qanununun ən mühüm fərqi ondan ibarət idi ki, dövlət əmlakı nazirliyinin orqanları daxili quberniyalardakına nisbətən Cənubi Qafqazda xeyli məhdud hüquqlara malik idi.

1841-ci il qanununa görə, Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayətində iki dövlət əmlakı palatası yaradıldı. Dövlət kəndinə aid olan mühüm məsələlərin həlli palataların əlindən alındı və diyarın baş rəisinin ixtiyarına verildi. 1838-ci il qanunu ilə quberniyalarda yaradılmış, geniş hüquqlar verilmiş dairə rəisləri vəzifəsinin yerində 1841-ci il qanunu Zaqafqaziyada qəza qəyyumları (popeçitel) vəzifəsi tətbiq edərək, onların üzərinə məhdud, ikinci dərəcəli vəzifələr qoydu. Dövlət kəndlilərinin idarə olunması üzrə bütün başlıca və əsas səlahiyyətlər qəza rəislərinin ixtiyarına verilirdi.

Qanunun 61-ci maddəsində deyilirdi: "Qəza rəisinin hakimiyyəti azad kəndlilərin (dövlət kəndlilərinin -Red.) idarə olunması üzrə bütün fəaliyyət dairəsini əhatə edir və bu baxımdan həmin idarənin həm polis, hom də sərəncamverici və təsərrüfatçılıq hissələri qəza rəisinin şəxsində birləşir" [129].

1838-ci il qanununa edilmiş mühüm düzəlişlər, görünür ki, qanunvericinin qəzadakı hakimiyyəti bütün dolğunluğu ilə bir vəzifəli şəxsin- qəza rəisinin əlində cəmləşdirmək istəyi ilə izah olunurdu. Belə vəziyyət istismar olunan əhali kütlələrini tabeçilikdə saxlamaq və müstəmləkəçilik siyasətini müvəffəqiyyətlə yerinə yetirmək üçün ən əlvcrişli şərait yaratmalı idi.

## III FƏSİL

## MƏDƏNİYYƏT

### § 1. XALQ MAARİFİNİN VƏZİYYƏTİ

Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çar hökuməti ölkədə öz siyasi və iqtisadi mövqelərinin möhkəmlənməsinə yardım etməyə qadir olan məmurlar ordusu hazırlamağı təmin edən yeni xalq təhsili sisteminin tətbiq edilməsi zərurəti ilə də qarşılaşdı. Çarizmin Azərbaycandakı məktəb siyasəti ona məxsus bütün mənfi xüsusiyyətləri ilə birlikdə Rusiyanın milli müstəmləkə siyasətinin bir hissəsi idi. Bununla belə o, obyektiv olaraq, gələcəkdə Azərbaycan əhalisinin yeni, mütərəqqi yolla təhsil alması üçün zəmin hazırladı. Bu dövr Azərbaycan xalqının maarifçilik tarixində ibtidai rus məktəblərinin təşkili ilə yanaşı, ənənəvi təhsil formalarının inkişafı ilə xarakterizə olunur.

Şimali Azərbaycanm işğalından sonra da ibtidai təhsil bütövlükdə müsəlman ruhanilərinin ixtiyarında olan, buna görə də dini dünyagörüşünün mənbəyinə çevrilən məktəblərdə - mollaxanalarda cəmləşmişdi. Bir çox məktəblər çoxillik tarixə malik idi. Məsələn, Şuşadakı İbrahim xan məscidi nəzdində əsası 1801-ci ildə qoyulmuş məktəb XIX yüzilliyin ikinci yarısında da fəaliyyət gös-tərmişdi [1]. Əldə olan məlumatlara görə, 1842-ci ildə Bakı, Quba, Qarabağ, Şəki, Şirvan və Talış qəzalarında məscidlərin nəzdində 502 məktəb, onların isə 534 müəllimi və 5242 şagirdi var idi [2]. Məscidlərin nəzdində olmayan məktəblərin sayı xüsusilə çox idi, onlar demək olar ki, hər bir kənddə var idi. Məktəblərdə zümrə məhdudiyyəti olmadan müxtəlif yaşlı oğlanlar oxuyurdular. Bəzi hallarda qızlar üçün məktəblərə də təsadüf olunurdu. Yüzilliyin 30-cu illərindo Bakının qala hissəsindəki iki məktəbdə qadın mollaların başçılığı altında varlı ailələrdən 25 qız oxuyurdu [3].

Məktəblərdə təhsil haqqı valideynlərin vəziyyətindən asılı olaraq, ayda 10-20 qəpikdən 1-2 manata qədər [4], yaxud natura ilə ödənilirdi. Məktəblər heç bir sanitar-gigiyenik tələblərə cavab vermirdi, müəyyən olunmuş proqram və təhsil müddəti yox idi, tədris ərəb əlifbasının mənimsənilməsindən və duaların əzbərlənməsindan başlanır, bundan sonra isə təhsilin başlıca obyekti olan “Quran” tədris edilirdi. Bunun ardınca savadlı olmağın əsas əlamətlərindən hesab edilən ərəb və fars dillərində mətnlərin oxunması başlanırdı. Fars dili ədəbi dil hesab edilir, ondan şəxsi və işgüzar yazışmalarda da istifadə olunurdu.

Məktəblərdə ən geniş yayılmış tədris vəsaiti Sədinin “Gülüstan” və “Bustan” Nizaminin “Leyli və Məcnun”u, Hafizin “Divan”ı və “Tarixi-Nadir” [5] (İran şahı Nadirin döyüş qəhrəmanlıqlarını tərənnüm edən əsər), dini məzmunda müxtəlif kitablar idi. Adları çəkilən əsərlərin dili çox qəliz olduğu üçün uşaqların onları qavra-masında çətinlik törənirdi. Kitabların oxunmasına müəllim tərəfindən tərtib edilən fars

Azərbaycan dili lüğətinin köməyilə başlayırdılar. Şagirdlər hər gün müəyyən qədər söz əzbərləməli idilər.

Məktəblərin əksəriyyətində ana dilinə və ədəbiyyata lazımi diqqət verilmirdi. M.F.Axundovun ilk əsərləri çap olunana qədər doğma Azərbaycan dilindo noşr olunmuş kitablar da yox idi [6].

Moktəblərdə ruhani şəxslərlo yanaşı, dünyəvi fənlərdən dərs deyən müəllimlər də çalışırdılar. Onlardan nisbətən daha savadlıları öz şagirdlərinə Şərq dillərindən və ədəbiyyatından yüksək biliklər verirdilər. Azərbaycan mədəniyyətinin bir çox görkəmli xadimləri o cümlədən gözəl şair Mirzə Şəfi Vazehdən dərs alan M.F.Axundov ilk təhsili belə məktəblərdə almışdılar. Məktəblər dini xarakter daşıdıqlarından həyatdan uzaq düşmüşdülər. Onlardan yalnız bəzilərində valideynlərin təkidi ilə hesabın əsasları, işgüzar kağız və məktubların tərtib edilməsi öyrədilirdi.

Ərəb əlifbasının mənimsəməyin çətinliyi, xüsusilə hecalara bölmə metodu ilə tədrisin törətdiyi çətinliklər, praktiki bilik verməyən Proqrama marağın olmaması, əzbərçilik, şagirdləri tərbiyə etmək vasitəsi kimi tətbiq edilən cismani cəza sistemi - bütün bunlar birlikdə məktəbə getməyi uşaqlar üçün uzunmüddətli əzaba çevirirdi ki, buna da hər şagird dözə bilmirdi. Əlifbanın öyrədilməsinə 5-6 il vaxt sərf olunması məktəblərdə tədrisin keyfiyyətinin necə olmasını göstərir.

Təxmini məlumatlara görə, Qafqazdakı məktəblər məktəbyaşlı uşaqların ancaq onda birini əhatə edirdi [7]. Proqramların və tədrisin xüsusiyyətləri ilə əlaqədar bunlarrı özləri də tam savada malik olmurdular.

Sosial-iqtisadi və siyasi dəyişikliklər şəraitində təsərrüfat fəalliyyətinin müxtəlif sahələrində işləməyi bacaran savadlı adamlara tələbatın artması ənənəvi məktəbləri yararsızlaşdırırdı.

XIX yüzilliyin birinci yarısında Azərbaycan mədəniyyətinin qabaqcıl nümayəndələri maarifin yayılmasının vacibliyini bütün kəskinliyi ilə başa düşür, onu xalqın əsrlər boyu davam edən geriliyini aradan qaldırmağın başlıca vasitəsi hesab edirdilər. 1832-ci ildə A. Bakıxanov Bakıda pansionlu dünyəvi məktəbin layihəsini işləyib hazırladı. Layihədə ana dili və fars dili ilə yanaşı, rus dili, tarix, coğrafiya, hesab fənlərinin tədrisi nəzərdə tutulurdu [8]. Lakin layihə həyata keçmədi. Bu zaman artıq ölkədə rus ibtidai məktəblərinin yeni şəbəkəsi yaranmağa başlamışdı.

Çar hökuməti ənənəvi məktəbləri sözün həqiqi mənasında məktəb hesab etmədiyindən onların açılmasında müəyyən qayda yaradılmasını artıq hesab edərək, şifahi razılıq verməklə kifayətlənirdi. Azərbaycanda adi məktəblərdən başqa orta ruhani məktəbləri - mədrəsələr də fəaliyyət göstərirdi. Bu məktəblər adətən böyük məscidlərin nəzdində açılır və onların hesabına saxlanılırdı. Mədrəsələrdə təhsil və yaşamaq pulsuz idi. Onların sayı dəqiq məlum deyildir, çünki müvafiq məmurlar məktəblər haqqındakı ümumi məlumatlarda onları ayırmırdılar.

Dəqiq müəyyənləşdirilmiş proqramı və təhsil müddəti olmayan mədrəsələrdə məktəb kursunu bitirən gənclər və həmçinin yaşlılar (30 yaşına qədər) təhsil alırdılar. Onlar mədrəsəni bitirən zaman dini rütbə alırdılar. Ərəb dilinə sərbəst yiyələnməyə əsaslanan proqrama “Quran”ı, ilahiyyatı dərindən öyrənməklə yanaşı, ümumtəhsil fənləri - fəlsəfə, tarix, coğrafiya, astronomiya, təbabət, müsəlman hüququ və digər elmlər də daxil idi. Həmin elmlər islam mövqeyindən tədris olunurdu.

Mədrəsədə tədrisin təsirliyi xeyli dərəcədə onun rəhbərinin təhsil səviyyəsindən asılı olurdu. Mədrəsələrə əsasən xarici ölkələrdə - İranda, Türkiyədə, Misirdə adi dini təhsil almış müdərrislər başçılıq edirdilər. Bu isə çar hakimiyyət orqanlarını narahat edirdi.

Mədrəsələrdən yalnız mollalar, məktəblərin gələcək müəllimləri deyil şairlər və alimlər də çıxırdılar. Görkəmli pedaqoq və şair Qevid Əzim Şirvani də mədrəsənin yetirməsi idi.

Azərbaycanda yaşayan digər xalqların təhsili kilsə və xüsusi məktəblərdə cəmlənmişdi. Şamaxı və Şuşada erməni məktəbləri xüsusilə çox idi. Qarabağın erməni məktəblərində uşaqlar erməni dili ilə yanaşı, Azərbaycan dilini də öyrənirdilər [9]. Erməni məktəblərindən başqa 1827-ci ildə Gəncə yaxınlığındakı Yelenendorfda və Anenfelddə alman kolonistləri [10], Zaqatalada ingiloylar, Qubada isə tat əhalisi üçün savad məktəbləri var idi [11].

Xüsusi məktəblərin fəaliyyət göstərməsinə imkan verən çar hakim dairələri onların üzərinə ciddi nəzarət qoymuşdu [12]. Ruhani məktəblər - mədrəsələr daha ciddi nəzarətdə saxlanılırdı. Digər tərəfdən, xüsusi məktəblər yerli əhalinin təhsilə tələbatını ödəməkdə dövlət xəzinəsini tədris müəssisələrinə əlavə vəsait xərcləməkdən xilas edirdi.

Azərbaycanda milli məktəblərin mövcudluğu faktı ilə hesablaşan çar hökuməti rus tədris müəssisələri şəbəkəsini də yayırdı.

Azərbaycanda rus dövlət məktəbləri Zaqafqaziya məktəbləri haqqında 1829-cu il "Əsasnamə"silə meydana gəlmişdi və ümumrusiya xalq maarifi sisteminin bir hissəsi sayılırdı [13]. Bununla belə, diyarda mövcud ictimai-siyasi şəraitlə əlaqədar onlar özlərinə məxsus bəzi xüsusiyyətlərə də malik idi. Məktəblərin təşkili və proqramların tərtibi zamanı çar məmurları çoxəsrlik milli mədəniyyəti və dini amilləri nəzərə almaya bilməzdilər.

İlk qəza məktəbi 1830-cu ildə Şuşada, onun ardınca 1832-ci ildə Bakıda, 1833-cü ildə Nuxada, 1837-ci ildo Gəncədə, 1838-ci ildə Naxçıvanda və Şamaxıda açıldı [15]. XIX yüzilliyin 50-ci illərinin sonunda Azərbaycanda olan 9 rus məktəbindən 5-i qəza (üçsinifli), 3-ü birsinifli ibtidai (Qubada, Lənkəranda, Ordubadda) və 1-i ali 4 sınifli (Şamaxıda) məktəb idi. İlk dövrlərdə özlərinin tədris rəhbərliyi olmayan bütün bu məktəblər tədris işləri ilə əlaqədar Tiflis gimnaziyasının direktoru vasitəsilə xalq maarif nazirliyi ilə ünsiyyətdə olan Gürcüstan baş hakiminə tabe idi.

1840-cı ildən onlar Cənubi Qafqaz məktəbləri Baş müfəttişinin, 1849-cu ildən isə Qafqaz təhsil dairəsinin sərəncamında olub ərazi əlaməti əsasında bilavasitə onun müdiriyyətindən birinə tabe idi. Öyrənilən dövrdə adları çəkilən bütün məktəblər Şamaxı-Dərbənd müdiriyyətinin tərkibinə daxil idi.

Rus təhsil müəssisələrinin ləng artımı çar hökumətində kütləvi xalq təhsilinə marağını olmaması ilə bağlı idi. Yeni məktəblərə inamın zəif olması və müsəlman ruhaniləri, həmçinin proqramda və tədris vasitələrində olan nöqsanlar da müəyyən təsir göstərirdi. Dövlət təminatında olan rus məktəbləri çox məhdud büdcəyə malik idi (1835-ci ildə gümüş pulla 1780 manatdan, 1853-cü ildə 2920 manata qədər) [15]. Məktəblərin təşkili zamanı nəzərdə tutulan tədris binalarının yenidən qurulması ləng və keyfiyyətsiz həyata keçirilirdi.

Məktəblərin əksəriyyəti yüksək haqla kirayə edilən və tədris işləri üçün tamamilə yararsız olan binalarda yerləşirdi. Hökumətin maarifə göstərdiyi "qayğını" aşağıdakı rəqəmlər yaxşı əks etdirir: 1804-cii ildən 1848-ci ilə qədər Cənubi Qafqazdakı maarif işlərinə gümüş pulla bir milyon manatdan az vəsait buraxıldığı halda, təkcə 1840-cı ildə diyarın qubemiya və qəza idarələrinin saxlanılmasına 1075 min manat buraxılmışdı [16].

Binaların darısqallığı və rahat olmaması şagirdlərin sayını artırmağa, vaxtlı-vaxtında 2 sinifli məktəbləri 3 sinifli məktəblərə çevirməyə, paralel siniflər yaratmağa imkan vermirdi. Bəzi hazırlıq siniflərində şagirdlərin sayı 100-170 nəfərə çatırdı [17].

Çar hökumətinin maarif sahəsindəki siyasətinin həyata keçirilməsi müəllimlərin üzərinə qoyulurdu. Rusiya üçün xarakterik olan savadlı və qabiliyyətli müəllimlərin çatışmazlığı Qafqazda, o cümlədən Azərbaycanda xüsusilə kəskin hiss edilirdi. Bu çatışmazlıq müəllimlərin maddi təminatının pis olması, ağır sosial vəziyyətləri ilə izah edilirdi. 1835-ci il "Əsasnaməsi"nə görə, müəllimlərin illik əmək haqqı gümüş pulla cəmisi 280-300 manat idi. Məktəb nəzarətçilərinin maaşı isə bundan 80 manat artıq idi [18]. Bu, məhəllə nəzarətçilərinin əmək haqqından (455 manat) [19] xeyli az idi.

Sonra əsasnamələrlə nəzarətçilərin və müəllimlərin əmək haqqı artırıldı (gümüş pulla müvafiq olaraq 700 və 300-400 m). Nəzarətçilər ali təhsilli şəxslərdən təyin edilməli idilər. Yerli dilləri və qeyri-pravoslav dinləri tədris edən müəllimlərin əmək haqqı əvvəlki səviyyədə - ildə gümüş pulla 200 manat məbləğində saxlanıldı [20].

İxtisaslı müəllimlərin olması diyarda rus məktəblərini inkişaf etdirməyin həlledici şərtlərindən idi. Ona görə də onların hazırlanması, xidmətə cəlb edilməsi və maddi təminatı diyarın təhsil işləri rəhbərlərinin diqqət mərkəzində idi. Azərbaycanda xüsusi pedaqoji sinfi olan gimnaziyanın təşkili və yaxud Qafqazda ali təhsil ocaqlarının yaradılması ilə yaranmış vəziyyətdən çıxmaq olardı. Lakin çar hökuməti bu tədbirləri həyata keçirməyə tələsmirdi, çünki bu, ruslaşdırma siyasətilə bir yerə sığmırdı. Yerli dillərdən dərs demək üçün müəllimlər əksər hallarda ümumtəhsil hazırlığı olmayan din

xadimlərindən seçilirdi. Yalnız 50-ci illərdən başlayaraq onların tərkibi qəza məktəblərinin ilk məzunları olan azərbaycanlılar hesa-bına artmağa başladı.

Müəllimlərin siyasi cəhətdən etibarlı olmasına çox mühüm əhəmiyyət verilirdi. İşə qəbul edilərkən müəllimlər sədaqətlə xidmət edəcəkləri və gizli cəmiyyətlərlə əlaqələri olmayacaqları haqqında "sədaqət andı" içməli idilər [21]. Rus dili müəllimlərinin çoxmillətli diyarın ruslaşdırılmasında, müstəmləkə siyasətinin həyata keçirilməsində fəallıq göstərmələrinə böyük əhəmiyyət verilirdi.

İlk dövrlərdə Azərbaycanın qəza məktəblərində başlıca olaraq rus məmurlarının uşaqları təhsil alırdılar. İllər ötdükcə bütün üstünlükləri ilə birlikdə dövlət xidmətinə daxil olmağa yol açan rus təhsilinin vacibliyi, ən başlıcası isə iqtisadi tələbat yerli əhalidən olan uşaqların rus məktəblərinə daxil olmasına maraq yaratdı. Azərbaycanın bütün rus məktəblərində 1843-cü ildə 476 [22], 1848-ci ildə 537 [23], 1852-ci ildə 633, 1856-cı ildə 822 [24] şagird təhsil alırdı. 1834-cü ildə Qarabağ əyalətində hər 1247, Şəki əyalətində isə hər 1990 yerli kişi əhalisinə 1 şagird düşürdü [25].

Biliklərə, düzgün təsərrüfatçılıq etməyə, xidmətə daxil olmağa, vergi yükündən azad olmağa marağı olanların (tacirlərin, sənətkarların) uşaqları şagirdlərin əsas hissəsini təşkil edirdi. Qəza şəhərlədə yaşayan kəndli uşaqları oxuyanların çox az qismini əhatə edirdi. 1848-1853-cü illərdə ölkədə irticanın güclənməsi ilə əlaqədar kəndliləri qəza məktəblərinə qəbul etmək tamamilə qadağan edilmişdi [26].

Getdikcə rus məktəblərində təhsil alan azərbaycanlıların sayı artırdı. Onların ən yüksək faizi 1852-ci ildə Nuxada (37 faiz – 24 nəfər) və Şamaxıda (36 faiz – 80 nəfər) müşahidə olunurdu. Azərbaycanın bütün qəza məktəblərində 1857-ci ildə cəmi 148 azərbaycanlı şagird vardı.

Azərbaycanlı şagirdlərin sayının artması ümumi səbəblərlə yanaşı, rus məktəblərində həm də Azərbaycan dilinin və müsəlman dininin tədrisinin həyata keçirilməsi ilə bağlı idi. Yerli əhalini kütləvi şəkildə rus dövlət məktəblərinə cəlb etmək cəhdlərinə baxmayaraq, çar hökuməti bu zaman məcburiyyət tədbirlərinə əl atmırdı.

Yuxarıda adları çəkilən məktəblər ancaq oğlanlar üçün nəzərdə tutulmuşdu. Azərbaycanda rus qadın təhsili xeyli sonralar meydana gəlmiş və başlıca olaraq diyarda xidmət edən rus məmurlarının uşaqları üçün nəzərdə tutulmuşdu. İbtidai məktəb sinfi olan ilk belə məktəb 1848-ci ilin aprelin 30-da Şamaxıda eyni adlı xeyriyyə cəmiyyəti tərəfindən açılmış Müdəqqəs Nina məktəbi idi [27].

Rus məktəblərinin proqramları daxili siyasətin istiqamətlərindən və müstəmləkəçilik siyasətinin konkret vəzifələrindən asılı olaraq dəyişdirilirdi. 1835-ci ildə qəza məktəblərinin rus dili, hesab, hüsn-xət və ilahiyyatdan ibarət olan proqramı tarix, coğrafiya və həndəsəyə giriş kimi fənlər hesabına genişləndirilmişdi [28].

1848-ci ildə proqram yenidən ixtisar edildi və “dəftərxana qaydaları haqqında qısa anlayışla” tamamlandı [29]. İrticanın zəifləməsi ilə əlaqədar 1853-cü il “Əsasnaməsi”lə ixtisar edilmiş fənlər bərpa olundu [3.0]. Şamaxı ali 4 sinifli məktəbinin proqramına qəza məktəblərində tədris edilən fənlərin dərinləşdirilmiş kursları ilə yanaşı, təbiət, həndəsə və qanunşünaslıq (dəftərxana qaydalarının əvəzinə) daxil edilmişdi [31].

Məktəb siyasətinin əsasında irticaçı “pravoslavlıq, mütləqiyyət və xalçaçılıq” prinsipi dayanırdı və bu prinsipin gözlənilməsi maarif nazirliyinin sərəncamları ilə tələb olunurdu [32].

Təhsil dili olan rus dili proqramda əsas fənn idi. Təhsilin müvəffəqiyyəti rus dilini mənimsəməkdən asılı idi. Yerli xalqdan olan uşaqlar rus dilinin öyrənilməsinə heç bir narazılığı olmayan, hətta ana dilinin qrammatikasını və məktəblərin mövcud olduqları ilk illərdə yerli dilləri bilməyən pedaqoqlarla başlayırdılar. 30-50-ci illərin proqramında yerli dillər əsas yerlərdən birini tuturdu: Azərbaycan ərazisindəki məktəblər üçün “tatar” (Azərbaycan) dili əsas fənlərdən sayılırdı. Azərbayhcan dili “özünü diyarda dövlət qulluğuna həsr etmək istəyən şəxslər üçün ən başlıca və nə vacib dialekt” hesab edilirdi [33]. Buna görə də təhsilin türk və fars dillərində deyil, məhz Azərbaycan dilində olmasına nəzarət edilirdi.

İki və dördsinifli məktəblərdə tədris edilən tarix və coğrafiya fənləri şagirdləri monarxiya ruhunda tərbiyə etməli, onlara Rusiya imperiyasının böyüklüyünü aşılamalı, onun təbii ehtiyatlarınınzənginliyi barədə təsəvvür yaratmalı, onlara xidmət edəcəkləri diyarla tanış etməli idi. 50-ci illərdə proqramda “dəftərxana qaydaları” və qanunşünaslıq mühüm yer tuturdu.

Bütövlükdə Azərbaycandakı rus məktəblərinin proqramı tamamilə müstəmləkə siyasəti mənafetinə tabe edilmikşdi ki, onların içərisin də kadrları hazırlamaq ən vacib vəzifə idi.

Çar hökumətinin maarif sahəsindəkin siyasəti təhsil müəssisələrində olan kitabxanaların tərkibində özünü daha aydın göstərirdi. Kitabxanalar yalnız xalq maarif nazirliyinin məsləhət gördüyü kitablardan təşkil olunurdu. Onlar əsasən dərsliklərdən, əyani vəsaitlərdən (xəritələr, qlobuslar, cədvəllər), az miqdarda elmi kitablardan, bədii ədəbiyyatdan və dövri mətbuatdan ibarət idi. Kitabxanaların komplektləşdirilməsi əsasında təlim proqramı məktəblərin müdriyyəti tərəfindən müəyyən edilirdi.

Uzun müddət ərzində bütöv bir qəza üçün yeganə olan məktəb kitabxanasının kitab fondu, ayrılan pul vəsaitinin cüzi olmasına baxmayaraq, ildən-ilə artırdı. Belə ki, Bakı qəza məktəbində 1840-cı ildə 440, 1856-cı ildə 952, Gəncə qəza məktəbində isə müvafiq olaraq 46 və 585 cild kitab var idi [34]. 1848-ci ildə Şamaxı qəza məktəbində 126 kitabdan cəmi 8-i, Nuxada isə 6-sı Azərbaycan dilində idi.

Məktəblər rus dili dərslikləri ilə kifayət qədər təmin edilirdilər. Lakin rus dili qeyri-rus əhalinin öyrənməsi üçün tamamailə uyğunlaşdırılmayan (lüğətin və vurğu işarəsinin olmaması, xristian ruhu, məzmunun mürəkkəbliyi) dərs vəsaitləri ilə keçilirdi.

30-50-ci illərdə yerli məktəblərin müəllimləri tərəfindən Azərbaycan dilinə dair bir sıra vəsaitlər tərtib edilmişdi. 40-cı illərdə Cənubi Qafqaz məktəblərində Azərbaycan dilindən tədris vəsaiti kimi tövsiyə edilən kitablar arasında N.Dementyevin "Турецкотатарский букварь" (1839-cu il) "Басни и повести на татарскотурецком и русском языках" (1839-cu il), L.Z.Budaqovun "Краткий учебник татарского языка"(1844-cü il) var idi. Təxminən 50-ci illərin ortalarından başlayaraq adları çəkilən vəsaitlər İ.Romanovun "Татарский букварь" (1853-cü il) və M.Ş.Vazehlə İ.İ.Qriqoryevin qısa müntəxəbatı "Kitabi-türki" (1855-ci il) əvəz etdi. Adları çəkilən kitablar əldə edilərək, məktəb kitabxanalarında saxlanılırdı [35].

Mütərəqqi müəllimlərin işlədikləri kitabxanaların komplektləşdirilməsi böyük mədəni əhəmiyyət kəsb edirdi. Müstəmləkəçilik məqsədlərinin ziddinə olaraq, Azərbaycandakı rus məktəblərinin kitabxanalarına demokratik nəşrlər, o cümlədən "Sovremennik", "Oteçestvennıe zapiski" daxil olurdu. Mütərəqqi müəllimlərin köməyi ilə onlar rus və Azərbaycan xalqlarının ən yaxşı nümayəndələrinin yaxınlaşmasına, mədəni əlaqələrin möhkəmlənməsinə yardım göstərən qabaqcıl ideyaların mənbəyinə çevrilirdilər.

"Ziyanlı" hesab edilən hər şey xüsusi sərəncamlarla məktəb kitabxanalarından çıxarılırdı [36]. Qiraətə artmaqda olan tələbat 1859-cu ildə Şamaxı və Şuşada ilk kütləvi kitabxanaların təşkil edilməsinə gətirib çıxartdı.

Azərbaycan əhalisinin qəza məktəblərinə ləng cəlb edilməsi və hökumətə sadiq ruhani şəxslərin hazırlanması vəzifələri müsəlman məktəbləri adlandırılan xüsusi tip tədris müəssisələrinin vacibliyini zəruri edirdi. Məktəblərin proqramları 6 il üçün nəzərdə tutulan iki paralel müsəlman və rus kursları adlandırılan kursların birləşdirilməsindən ibarət idi. Müsəlman kursu hər biri iki il davam edən Azərbaycan, fars və ərəb siniflərindən ibarət idi. Rus kursu isə qəza məktəblərinin proqramından ibarət idi. Azərbaycanda ilk müsəlman məktəbləri 1849-cu cədə, Şuşada, Şamaxıda və Bakıda meydana çıxmışdı. Fər oxuyurdu [37]. 1850-ci ildə müsəlman məktəbləri Salyanda, Lənkəranda, Nuxada, 1853-cü ildə Zaqatalada açıldı [39]. Tam olmayan məlumatlara görə 1851-ci ildə Azərbaycanın 8 müsəlman məktəbində 468 şagird təhsil alırdı [39]. Bu məktəblərdə azərbaycanlı şagirdlərin qəza məktəblərindəkikndən xeyli çox idi, 1854-cü ildə Şamaxıda 93, 1855-ci ildə Bakıda 98 azərbaycanlı təhsil alırdı [40].

Müsəlman məktəbləri əhalisinin vəsaiti hesabına saxlanılırdı. Yalnız rus dili müəllimləri istisna təşkil edirdilər, onlara ildə dövlət xəzinəsindən 200 man. verilirdi.

Müsəlman məktəblərini ixtisaslı müəllimlərlə və dərs vəsaitləri ilə təmin etməyi mümkün olmaması nəzərdə tutulan proqramın həyata keçirilməsunə mane olurdu. Təhsilin həcmi ruhanilər hazırlamaq üçün kifayət deyildi və bu məktəblər uzun illər ərzində təşəkkül tapmışmədrəsələrə qarşı dura bilərdi. Bununla birlikdə bu kurslar dini məktəblərin bütün nöqsanlarını qoruyub saxlayırdı. Beləliklə, ruhanilərə müsəlman məktəblərində hazırlamaq vəzifəi həll edilməmiş qalırdı. Lakin şagirdlərin bu məktəblərə axını onların həm də rus tədris müəssisələrində sayının artmasına yardım göstərdi. Çar məmurları yerli əhali arasında təhsilə güclü meyil olduğunu etiraf etməyə məcbur olmuşdular [41]. Bununla belə rus məktəblərinə inamsızlıq xeyli zəiflədi. Onların üstünlüyü aydın oldu. Beləliklə, müsəlman məktəbləri azərbaycanlı əhali arasında rus təhsilini yaymaq işində onun üzərinə qoyulan vəzifələri doğrultdu.

Proqramların həddən artıq məhdud olmasına ixtisaslı pedaqoqların çatışmazlığına, təhsilin keyfiyyətinin aşağı olmasına baxmayaraq, rus dövlət məktəbləri Azərbaycanı qəza mərkəzlərində yaşayan azərbaycanlıların, ləzgilərin və digər xalqların uşaqlarına ümumi ibtidai təhsil verə bilən yeganə pulsuz təhsil müəssisələri idi. Təhsil sistemində aparıcı yer məhz bu məktəblərə məxsus idi. Rus dövlət təhhsili müəssisələri bütün nöqsanlarına, çarizmin şovinist məqsədlərinə baxmayaraq, Azərbaycanın xalq maarifi tarixində müsbət rol oynamışdır.

## § 2. ELM. İCTİMAİ FİKİR

Ölkənin sosial və iqtisadi inkişafı ilə meydana gələn yeni maddi və mənəvi tələbat Azərbaycanın savadlı adamlarının elmi, ədəbi, fəlsəfi maraq dairələrini xeyli dərəcədə yeniləşdirir və genişləndirir. Dünyəvi təlim və tərbiyə ocaqlarının, xüsusilə qəza məktəblərinin, dövri məbuatın və milli teatrın rüşeyimlərinin meydana gəlməsi xidmətdə olan köhnə ziyalıların mənəvi cəhətdən yeniləşməsinə, yeni, müasir tipli ziyalıların yaranmasına yardım göstərirdi. Qabaqcıl zadəgan ziyalıları Avropa maarifi ilə tanış olmağa başlayırdılar. Bunu nəticəsində Azərbaycanda elmi təfəkkürün fəlsəfə, filologiya, coğrafiya, astronomiya kimi ənənəvi sahələri nəzərə çarpacaq dərəcədə canlanır və inkişaf edirdi. Faktlara və şəxsi təcrübəyə əsaslanan dəqiqi və əsaslandırılmış konkret elmi tədqiqatlar meydana gəlirdi. Belə bir şəraitdə Azərbaycan alimləri, hər şeydən əvvəl, doğma diyarın tarixi keçmişini dərk etməyə daxili tələbat hiss edirdilər. Vətən tarixini bilmək həvəsi öz əsərləri ilə Azərbaycanda gerçək tarixi bilikləri yayan və inkişaf etdirən vətənpərvər ruhlu tarixçilərin və salnaməçilərin bütöv bir nəslinin meydana gəlməsinə yardım göstərdi. Onlar ilk mənbələr, canlı şahidlər, maddi mədəniyyət abidələri əsasında Azərbaycanın, onun ayrı-ayrı xanlıqlarının tarixini öyrənirdilər.

Vətən tarixinin yaratmağın əhəmiyyətrini ilk dəfə dərk edənlərdən biri Abbasqulu Ağa Bakıxanov idi. (1794-1846) olmuşdur. O, Bakı xanlarının

nəslindən idi. A.Bakıxanov o dövr üçün dərin müəslman təhsili almışdı. 1820-ci ildə o, Tiflidə rus ordusunda xidmətə daxil olmuş və o vaxtdan 25 il ərzində Əlahiddə Qafqaz korpusu komandanlığının yanında Şərq dilləri üzrə tərcüməçi işləmişdi. Bu xidməti dövründə Bakıxanov Gülüstan sülh müqaviləsi ilə nəzərdə tutulmuş İranla sərhədləri müəyyənləşdirmə komissiyasının işində, onun Qarabağ əyalətinin təsvirində Rusiyanın İran və Türkiyə ilə müharibələrində xüsusilə Türkmənçay sülhünü bağlamaq üçün onların danışıqlarında həmçinin rus ordusu hissələrini Qafqaz dağlıları ilə müharibələrində və diplomatik danışıqlarında fəal iştirak etmişdi. Bu vəzifədə təcrübəli zabit-tərcüməçi, Şərq dilləri ədəbiyyatının böyük bilicisi kimi şöhrət qazanmış A.Bakıxanov rus ordusunun polkovniki rütbəsinə qədər yüksəlmiş, bir sıra rus, İran və Türkiyə orden və medalları ilə təltif olunmuşdu.

Çoxillik tərcüməçilik fəaliyyəti, ərəb və fars filologiyasının dərindən öyrənmək, təhsil görmüş zabitlərlə təmasda olmaq A.Bakıxanovda elmi-tədqiqat işinə dərin maraq oyatdı. Eyni zamanda həm də Cənubi Qafqazın müstəmləkə idarə sistemindən narazı olan A.Bakıxanov hərbi xidmətdən getmək, özünü tamamilə elmi axtarışlara həsr etmək qərarına gəldi. Müddətsiz məzuniyyət almaq üçün A.Bakıxanov 1833-cü ildə Peterburqa uzunmüddətli səfər etdi. O, 9 aya yaxın Varşavada və Peterburqda qaldı. Özünün Peterburqa səfərini A.Bakıxanov haqlı olaraq ona “Avropa mədəniyyəti ilə yaxından tanış olmaq” imkanı verən səyahət hesab edirdi. O, öz tərcümeyi-halında yazırdı: “Mən ürək və ağıl üçün maraqlı olan çox şey gördüm və onlardan faydalanmağa çalışdım” [42]. 1835-ci ilin əvvlindən

Bakıxanov özünü demək olar ki, bütün əsərlərini yaratdığı Quba əyalətinin Əmsar kəndinə köçür.

A.Bakıxanov 1845-ci ildə Məkkəyə ziyarətə gedir. Özünün Yaxın Şərq ölkələrinə səfərindən həm də elmi məqsədlər üçün istifadə edir. Tehranda o, iki aydan çox ləngidi və “burada alimliyi və həm də davranışı ilə ümumi hörmət qazana bildi” [43]. O, İstanbulda olarkən 1846-cı ildə burada türk dilində çap olunan “Əsrarəl-məlaküt” (“Səma şadlığının sirləri”) adlı astronomik əsərini türk sultanına hədiyyə etdi. A.Bakıxanov 1846-cı il dekabrın ortalarında Məkkədən qayıdarkən, Ərəbistanda, Vədiyi-Fatimə deyilən yerdə vəfat etdi [44].

Özünün alim, tarixçi və şair şöhrətilə A.Bakıxanov rus zabitləri arasında yaxşı tanınırdı. O, A.S.Qriboyedov, A.A.Bestujev-Marlinski, A.S.Puşkin, sürgündə olan polyak şairi Faddey (TadeuşLada) Zabolotski ilə sıx təmasda olmuş və onlarla dostluq edirdi.A.Bakıxanovun şəxsiyyəti Azərbaycanın bu görkəmli alim-mütəffəkirinin portretini yaratmış rus rəssamları V.İ.Moşkovu və Q.Q.Qaqarini də maraqlandırırdı.Qazan və Peterburq şərqşünasları M.C.Topçubaşov,M.Kazımbəy, F.Şarliya, X. Fren, P.İ.Brosse, İ.Berezin, B.Dorn onu yaxşı tanıyırdılar.Fransız və alman səyyahları qraf Süzanne, K.Kox,F Bodenşted Qubada və Tiflisdə Bakıxanovla görüşmüş, onun haqqında öz xatirələrini yazmışdılar. A.Bakıxanovu Azərbaycanın,Gürcüstanin və Ermənistanın yazıçı, şair və mədəniyyət xadimləri,

İ.N.Qudqaşınlı, Mirzə Şəfi Vazeh, M.F.Axundov, A.Çavçavadze, Q.Orbeliani və bir çox başqaları ilə sıx maraq birləşdirirdi.

A.Bakixanov Azərbaycanın elm və tarixini hər şeydən əvvəl görkəmli maarifçi-tarixşünas kimi daxil olmuşdur. O, on beş il çox Azərbaycan tarixinə dair materiallar toplamış və sistemə salmışdır. A.Bakixanov Vətən tarixi sahəsindəki çoxillik axtarışlarınınnəticəsi onun 1841-ci ildə fars dilində yazıb tamamladığı və1843-cü ildə “Qafqazın şərq hissəsinin tarixi” adı ilə rus dilinə tərcümə edilən “Gülüstani-İrəm” əsəri oldu A.Bakixanovun əsəri,Cənub-Şərqi Qafqazın (Şirvan və Dağıstanın) qədim zamanlardan 1813-cü ildə Rusiya ilə İran arasında bağlanmış Gülüstan sülh müqaviləsinə qədər olan dövrünün tarixi xülasəsindən ibarətdir.Rus dilini bilmək ona Cənub-Şərqi Qafqazın qədim və orta əsrlər tarixini tərtib etmək üçün ərəb və fars mənbələri ilə yanaşı, yunan və digər tarixçilərin əsərlərindən faktiki material əldə etməyə imkan vermişdi.A.Bakıxanov Şərq müəlliflərinin əsərlərində də, o cümlədən yerli tarixi əsərlərdən-“Dərbəndnamə” dən “Dağıstan tarixi”ndən, “Axtınamə” dən qiymətli məlumatlar toplamışdır.

A.Bakıxanovun “Qafqazın şərq hissəsinin tarixi”ndə ən qədim zamanlardan Cənub-Şərqi məskunlaşmış xalqların genezisi və birlikləri çox az ələ düşən məlumatlar verilir. Öz fikirlərini əsaslandırmaq üçün o hər yerdə qorunub saxlanmış coğrafi adların və tayfaların özlərinin etimoloji mənasını təhlil edir,onun öz sözləri ilə desək, “nəinki əsərlərin, hətta minilliklərin məhv edə bilmədiyi dillərə,qədim abidələrə, adət-ənənələrə istinad edir[45].O, sonralar Azərbaycan və Dağıstan ərazilərindən meydana gəlmiş dövlət birləşmələrinin sələfi kimi Qafqaz Albaniyasının tarixini qısa formada şərh edir.O, qeyd edir ki, əvvəlcə fars və ərəb, daha sonra isə səlcuq və monqol işğalları dövründə Cənubi-Şərqi Qafqazda sonralar yerli əhali içərisində əriyib gedən köçmələrin bütöv yaşayış məntəqələri meydana gəlir. A.Bakıxanovun əsərində müharibələr haqqında çoxlu tarixi məlumatlar vardır.

A.Bakıxanov yeni dövr rus və Avropa tarixi ədəbiyyatının təsir altında öz əsərində tarixə maarifçi baxışları ön plana çəkir. Onun fikrincə, tarix öz keçmişini can atan insanların mənəvi tələbatını ödəməlidir, insanlarla əxlaqi tərbiyə etməli, onların dünyagörüşlərinienişləndirməlçi, həyat və məişət qaydalarını öyrətməlidir. Ona təlim və tərbiyənin əsaslarından biri kimi baxmaq lazımdır. A.Bakıxanov öz “Tarixinə” girişində yazırdı: “Tarix bizi xalqın təhsil dərəcəsi və onun ali mənəvi elmlərdən biri hesab etmək lazımdır” [46].

A.Bakıxanov başa düşürdü ki, vətən tarixini bilmək xalqların milli şüurunun və vətənpərvərlik hisslərinin inkişafına kömək edir və o, mehriban qonşuluq münasibətlərinin faydasını israrla göstərirdi. O, yazırdı: “Tarixin öyrənilməsinin, tarixin onun keçmiş həyatını təsvir etdiyi xalq üçün xüsusilə vacibdir. Tarix onu doğma torpağın keyfiyyətləri ilə, onun üzərində məskunlaşmış tayfaların xarakteri ilə tanış edir və xalqların bütün qarşılıqlı əlaqələrindən nəticə çıxararaq, onun zərərini və faydasını göstərir” [47].

A.Bakıxanovun “Qafqazın şərq hissəsinin tarixi” ideya genişliyinə, faktiki materialların zənginliyinə, qeyri-müsəlman xalqlara düzgün münasibətinə görən orta əsr Şərq tarixçilərinin əsərlərindən fərqlənir. Əsərdə yüzilliyin başlanğıcında Cənubi Qafqazın təbii şəraitinin təsviri verilmiş, burada yaşayan xalqların etnik mənşəyi, dini inamları, etiqadları, adət və ənənələri göstərilmişdir. Lakin zadəgan tarixçilərinin əksəriyyəti kimi, A.Bakıxanov üçün də tarixi prosesin əsas məzmununu siyasi tarix – müxtəlif dövlət birləşmələrinin yaranması və süqutu tarixi, xarici hücumlar, hökmdarların, qanunverənlərin və işğalçıların fəaliyyəti təşkil edir. İctimai inkişafın əsasını o, maddi istehsalda deyil, böyük şəxsiyyətlərin fəaliyyətlərində, insanların əqli və əxlaqi kamilləşməsində görürdü. Bununla belə, A.Bakıxanovun tarixi görüşləri orta əsr Şərq müəlliflərinin teokratik tarixi konsepsiyalarının azad olub real həyatı məzmuna malikdir.

A.Bakıxanovun “Qafqazın şərq hissəsinin tarixi” 1845-ci ildə Peterburq Elmlər Akademiyasının müzakirə zamanı akademiklər B.A.Dorn və P.İ.Brosse tərəfindən yüksək qiymətləndirilmiş [48] və hökumət mükafatına layiq görülmüşdür [49]. Lakin əsər yalnız bizim dövrümüzdə Bakıda 1926-cı ildə rus dilində 1951-ci il və 1991-ci illərdə Azərbaycan dilində, 1970-ci ildə fars dilində nəşr olunmuşdur.

A.Bakıxanov həmçinin Cənub-Şərqi Qafqazın siyasi və iqtisadi tarixinə dair bir sıra qeydlərin də müəllifidir. Cənubi Qafqazın müsəlman əhalisinin etnik, tayfa tərkibi haqqında, müsəlman feodallarına və vəzifəli şəxslərinə verilən titullar və dərəcələr haqqında, xanlıqlar dövründə dini məhkəmələrin duruluşu və hüquqları haqqında, şimali Azərbaycanı Rusiya tərəfindən işğal olunana qədər müsəlman feodalların hüquq və imtiyazları haqqında qeydləri buraya daxildir.

Tarixi dərk etməyə marağın yüksəldiyi bir şəraitdə Azərbaycanın ayrı-ayrı xanlıqlarının tarixi üzrə də salnamələr meydana gəlir. Qarabağ xanlığının zəngin tarixi hər şeydən əvvəl rus ordusunun kapitanı **Mirzə Adıgözəl bəyin** (təqr. 1780-cı ildə anadan olmuş, 1848-ci ildə vəfat etmişdir) əsərində başlıca yer tutur. O, XVIII yüzilliyin sonlarında Qarabağa köçmüş Qazax bəylərinin nəslindən idi. Mirzə Adıgözəl bəy gənc yaşlarında Qafqazdakı rus ordusunda xidmət etmiş, 1826-1828-ci illər Rusiya-İran müharibəsinin iştirakçısı olmuşdu. Bir neçə il o, Qarabağ əyalətində mahal naibi və divanbəyi vəzifələrində işləmişdi. Mirzə Adıgözəl bəy öz dövrü üçün təhsil görmüş bir adam idi. Doğma Azərbaycan dilindən başqa o, rus, fars, erməni və gürcü dillərini bilir, Şərq poeziyasını sevir, şeirlər yazırdı. Nizamin yaradıcılığının pərəstişkarı olan Mirzə Adıgözəl bəy böyük şairin 1826-cı ildə Gəncə döyüşü zamanı dağıdılmış sərdabəsini öz vəsaiti hesabına bərpa etdirmişdi [50]. 1845-ci ildə Mirzə Adıgözəl bəy Azərbaycan dilində 1736-cı ildən 1828-ci ilə qədər Qarabağın siyasi tarixini şərh edən salnaməsini görmə qabiliyyətinin zəiflədiyindən, diktə edərək yazdırmışdır. Əsər 1950-cik ildə nəşr olunmuşdur [51]. Qarabağ xanlığının tarixi onun xanlarının keçmiş vəziri Mirzə Camalı da (1773-1853) maraqlandırırdı. O, Qarabağın Cavanşir mahalında kətxuda

ailəsində anadan olmuşdu. Xanlıq ləğv edildikdən sonra Mirzə Camal müstəmləkə orqanları tərəfindən yerli dəftərxanaya mirzə və əyalət məhkəməsinə katib təyin edilmişdi. Mirzə Camal öz dövrünün savadlı adamlarından idi. Şərqşünas A.Berje onu haqqında yazırdı: “Mirzə Camal ərəb, fars və türk dillərindən başqa ləgzi və avar dillərini də bilirdi, astronomiyadan məlumata malik idi, tarix və coğrafiyanı gözəl bilirdi. O həmçinin təbabəti də bildiyindən istefaya çıxdıqdan sonra ömrünün axırına kimi xəstələri təmannasız müalicə edirdi ki, bununla da xalqın böyük hörmətini qazanmışdı” [52]. Bədii istedada və zənBədii istedada və zəngin yaddaşa malik olan Mirzə Camal fars və ərəb dillərində şeirlər yazırdı. 1816-cı ildə o, İrana diplomatik səfərə hazırlaşan rus məmuru üçün “İran şahlarının şəcərəsi”ni tərtib etmişdi. 1847-ci ildə Mirzə Camal fars dilində yaratdığı vaxtda 1828-ci ilə qədər Qarabağ xanlığının siyasi tarixinə həsr olunmuş salnaməsinə yazdı. Bu salnamənin ixtisarla sərbəst tərcüməsi 1855-ci ildə A.Berje tərəfindən “Qafqaz” qəzetində, onun rus və Azərbaycan dillərində tam mətni isə 1959-cu ildə Bakıda nəşr olunmuşdur.

Şəki xanlığının tarixini sonuncu irsi Şəki xanı – Fətəli xanın Kərim ağa (1858-ci ildə vəfat etmişdir) tərtib etmişdir. Kərim ağa fars dilinin yaxşı bilirdi və “Fateh” təxəllüsü ilə şeirlər yazırdı. 1829-cu ildə o, Azərbaycan dilində Şəki xanlığının yaranmasından onun Rusiya tərəfindən işğalına qədərki dövrdə siyasi tarixini əhatə edən salnaməsini yazdı. Əsər müəllifin vəfat etdiyi ildə Peterburqda özgə adı altında nəşr olundu. Buraxılan səhv yüz ildən sonra, 1958-ci ildə əsərin Bakıda yeni nəşri ilə düzəldildi.

Quba xanlığının tarixini 30-50-ci illərdə rus ordusunda kapitan rütbəsində Şərq dillərindən tərcüməçi işləyən **İsgəndər bəy Hacınski** qələmə almışdır. O, rus ordusunun dağlılara qarşı yürüşlərində iştirak etmiş, bəy komissiyalarında işləmişdi. 1847-ci ildə İsgəndər bəy Hacınski “Qafqaz” qəzetində Qubalı Fətəli xanın həyatına və yürüşlərinə həsr olunmuş geniş məqalə dərc etdirdi [53].

Gəncə şəhərinin tarixini ruhani zümrəsindən çıxmış **Şeyx İbrahim** (1816-1865) tərtib etmişdir. O, əla ruhani təhsili almış, divanxanada işləmiş, Gəncə gimnaziyasında Azərbaycan dilindən və qanunşünaslıqdan dərs demişdi. Şeyx İbrahim ərəb və fars dillərini bilir, “Naseh” təxəllüsü ilə şerlər yazırdı. 40-cı illərdə o, Azərbaycan dilində, Gəncənin yarandığı dövrdən 1804-cü ildə rus ordusu tərəfindən işğal olunduğu vaxta qədərki tarixini yazmışdı [54]. Şeyx İbrahimin salnaməsi bizə çatmamışdır.

Orta əsrlər müsəlman tarixi ədəbiyyatının ənənələrini davam etdirən **Mirzə Məhərrəm** və **Mirzə Heydər** də tarixi mövzularla əsərlər yazmışlar. Qarabağ bəylərindən olan Mirzə Məhərrəm rus ordusunda mayor rütbəsində Şərq dillərindən tərcüməçi dillərində işləmiş, “Məriz” təxəllüsü ilə Azərbaycan və fars dillərində şerlər yazmışdır. O, Nadir şah imperiyasının yüksəlişi və süqutu “Tarixi”ni tərtib etmişdi. Mirzə Məhərəmin əlyazması hələlik tapılmamışdır [55].

Dərbəndli Mirzə Heydər Vəzirov (1880-cı ildə vəfat etmişdir), onun öz sözləri ilə desək, "məhşur xanların yanında" və rus dəftərxanalarında mirzə işləmişdir. 1837-ci ildə o, fars dilində Nadir şahın ölümündən sonra Dağıstan və Şirvanın siyasi tarixini şərh edən irihəcmli "Zübdət-ət-Təvarix" ("Tarixlərin ən yaxşısı") adlı əsərini yazmışdır.

Dərbəndin görkəmli din xadimi **Məhəmmədtağı** (1843-cü ildə vəfat etmişdir) o dövr üçün aktual olan dini-siyasi mövzuda yazmışdır. Məhəmmədtağı 1840-cı ildə Dərbəndin baş axundu olarkən "alimliyinə və Şərq dillərindən yaxşı məlumatlarına" görə Kazan Universitetinin müxbir üzvü seçilmişdi [56]. 1841-ci ildə o, ərəb dilində "Əd-Dürr-əl-Mənzum finasayeh əl-Ümum" adlı əsər yazdı. Məhəmmədtağının əsəri Elmlər Akademiyasında müzakirə olunmuş, M.Kazım bəy və X.Fren kimi şərqşünaslar tərəfindən müsbət qiymətləndirilmişdir [57].

Adları çəkilən əsərlərin sosial-siyasi məzmununa gəldikdə isə, Azərbaycan tarixçiləri tarixi biliklərin tərbiyəvi əhəmiyyətinə xüsusi qiymət qiymət verirdilər: keçmişi onlar gələcək üçün ibrət dərsi kimi qiymətləndirirdilər. Azərbaycan tarixçilərinin əsərlərində həm faktlardan, həm də rəvayətlərdən eyni dərəcədə istifadə edilmişdir ki, bu da onların mənbələrə qeyri-tənqidi münasibətləri və tam etibar etmələri ilə bağlıdır. Şərq tarixçilərinin subyektiv ənənələrinin təsiri altında onlar bəzən orta əsrlərin amansız dövlət başçılarını və sərkərdələrini igid və müdrik dövlət xadimləri kimi qələmə alırdılar.

Bunula belə, Azərbaycan tarixçilərinin əsərlərində ictimai həyatın ilahi qüvvədən törənməsi fikir arxa plana keçir, hadfisə və faktların rasional izahı keçdikcə daha çox vətəndaşlıq hüququ qazanır, ilahidən müəyyənləşdirilmiş tale təbii-tarixi proseslə əvəz olunur. Bundan əlavə, çox vaxt diyarın siyasi tarixi şərh olunmazdan əvvəl onun coğrafi vəziyyəti, təbii ehtiyatları, təsərrüfat sahələri, mədəniyyət abidələri, əhalinin adətləri, əxlaqı, inamı təsvir olunur. Azərbaycan tarixçiləri vətən tarixinin yaradılmasına tərbiyəvi əhəmiyyət verirdilər. Mirzə Camal yazırdı: "İnsandan qızıl saray qalmaqdansa, yaxşı ad qalsa daha yaxşıdır" [58]. Onların əsərlərində vətənpərvərlik hissi aydın duyulur, sülhün xeyri, müharibənin ziyanı haqqında fikirlər söylənilirdi.

Cənubi Qafqazın Rusiya imperiyası tərəfindən istilası və mənimsənilməsi, Rusiyanın İran və Türkiyə ilə bilavasitə həmsərhəd olması rus cəmiyyətinin müxtəlif dairələrində Şərq dillərinə və ədəbiyyatına canlı maraq oyatdı. Bütün bunlar fars, türk və Azərbaycan ədəbiyyatına dair çoxlu tədqiqatların yaranmasına səbəb oldu. Rus şərqşünaslığının təşəkkülü və inkişafında azərbaycanlı şərqşünas və alimlərin mühüm xidməti və əməyi olmuşdur. 1841-ci ildə A.Bakıxanov fars dilinin düzülüş və qaydalarını Avropa metodu ilə şərh edən ilk elmi qrammatikasını tərtib etdi. A.Bakıxanovun "Fars qrammatikası" hökumət mükafatına layiq görülmüş və 1841-ci ildə Tiflisdə dövlət hesabına nəşr

olunmuşdur [59]. Əsər rus şərqşünasları arasında xeyirxahlıqla qarşılanmış və Rusiyada fars dilinin tədrisnə daxil edilmişdi.

Tiflis məktəblərində Şərq dillərinin tədris edən **Mirzə Şəfi Vazeh** və **Fazil xan Şeyda** da ədəbi tədqiqatla məşğul olurdular.

Azərbaycanın şərqşünas alimlərinin yaradıcılıq qabiliyyətlərinin üzrə çıxarılmasında və inkişafında Peterburq və Kazan universitetləri böyük rol oynamışlar. Gəncədə doğulmuş **Mirzə Cəfər Topçubaşov** (1790-1869) Peterburqun şərqşünas dairələrində böyük alim kimi şöhrət qazanmışdı. O, əlli ildən çox paytaxtın ali məktəblərində fars və türk dillərindən dərs demiş, bunun 20 ilini (1829-cu ildən 1849-cu ilə qədər) ancaq Peterburq Universitetində işləmişdi. O, 20 ilə yaxın Rus Arxeologiya Cəmiyyətinin Şərq numizmatikası şöbəsinə başçılıq etmiş, Britaniya Kral Asiya Cəmiyyətinin həqiqi üzvü olmuşdu. "Fars müntəxabatı" ("Teleskop", XXI c.-M., 1834), "Qədim dövrlərdənTeymurləngə qədər monqolların tarixi" ("Teleskop", 1834, №2, 30) kimi tədqiqatlar, həmçinin "Nadir şahın ölümündən sonra Gürcüstandakı hadisələr haqqında" maraqlı əsər və s. [60]. Topçubaşovun qələminə məxsusdur. Qeyri-adi bədii istedada malik olan M.C.Topçubaşov fars və türk dillərində şeirlər də yazmış, A.Mitskeviçin "Krım sonataları" poemasını rus dilindən fars dilinə tərcümə etmişdi [61].

Zəmanəmizə qədər öz elmi əhəmiyyətini itirməyən çoxlu fundamental əsərlərin müəllifi, dünya şöhrətli şərqşünas alim **Kazımbəy Məhəmməd Əli Hacı Qasım oğlu** (22.6.1802. Rəşt – 27.11.1870. Peterburq) Azərbaycanda yaşamış alim şərqşünaslıq elminin inkişafına xüsusilə böyük töhfə vermişdir. M.Kazımbəyin bütün yaradıcılıq fəaliyyəti Kazan (1826-1849-cu illər) və Peterburq (1849-1870-ci illər) universitetlərinindivarları arasında keçmişdir. Onun elmi maraq dairəsi qeyri-adi dərəcədə geniş idi – filologiya, tarix, din, mədəniyyət, qanunşünaslıq, müsəlman Şərqinin coğrafiyası. Kazım bəyin əsərləri dünyanın bir çox dillərinə tərcümə edilmiş, elə müəllifin özü də fars, ərəb, türk, rus, ingilis, fransız dillərində sərbəst yazır və oxuyurdu. Kazım bəyin əsərləri arasında "Türk-tatar dilinin qrammatikası" (Kazan, 1839), "Müsəlman qanunşünaslığı kursu" (Kazan, 1845), "Firdovsiyə görə fars mifologiyası" (SPb, 1848), "Dərbəndnamə" (SPb, 1851), "Quranın tam konkordansı" (SPb, 1859), "Müridizm və Şamil" (SPb, 1859), "Bab və babilər" (SPb, 1865) və başqaları özlərinin sanballığı ilə fərqlənirlər.

Kazım bəy "Türk-tatar dilinin qrammatikası" əsəri Demidov mükafatına layiq görülmüşdü. Bu əsərdə o, türk dili ilə yanaşı, Azərbaycan dilinin də elmi prinsiplərini və qaydalarını işləyib hazırlamışdır.

Kazım bəy Şərqin maariflənməsinə xeyli güc və enerji sərf edirdi və əmin idi ki, "orada sivilizasiya ruhu gizlənmişdir".

Kazım bəy N.İ.Lobaçevski, L.N.Tolstoy, N.Q.Çernışevski və Rusiyanın digər qabaqcıl adamları ilə tanış idi və onlarla əlaqə saxlayırdı. O, A.S.Puşkinin "Bağçasaray fontanı" poemasını rus dilindən Azərbaycan dilinə tərcümə etmişdi. Kazım bəy Rusiyanın bir çox Şərq elmi cəmiyyətlərinin həqiqi üzvü idi. O,

Rusiyanın, Qərbi Avropa və Amerikanın şərqşünasları arasında xüsusi hörmətə malik idi. Onun haqqında yazılmış nekroloqda deyilirdi: "Nə qədər ki, Şərq haqqında məlumatlar işlənəcək – bu isə heç vaxt dayandırılmayacaq – Kazım bəyin adı hörmətlə çəkiləcək" [62].

Kazım bəyin kiçik qardaşı Əbdül Səttar Kazım bəy Kazan Universitetetində türk-tatar dilinin mühazirəçisi olmuşdu [63].

Şimali Azərbaycanın Rusiya, Qərbi Avropa və müsəlman Şərqi ilə iqtisadi və mədəni əlaqələrini genişlənməsi kosmoqrafik elmlərin dirçəlməsinə və inkişafına yardım göstərirdi. Görkəmli coğrafiyaşünas – səyyah, "Riyaz əl-Siyahət" ("Səyahət gülşəni"), "Büstan əs-Siyahət" ("Səyahət bağı") kimi məşhur əsərlərin müəllifi **Zeynalabdin Şirvani** 30-cu illərin əvvəllərində özünün Yaxın və Orta Şərqə, Hindistana, Ərəbistana, Şimali Afrikaya səyahətlərinin təsvirini başa çatdırır. Hər şeyə böyük maraq göstərən və müşahiçilik istedadına malik olan səyyah öz ömrünün yarıdan çoxunu səyahətlərdə keçirmiş, bütün gördüklərini və öyrəndiklərini orta əsr coğrafiyaçılarını yarıməfsanəvi təsvirlərindən əsaslı surətdə fərqlənən əsərlərində təqdim etmişdir. Bu əsərlərdə müəllif öz həmvətənlərini müsəlman dünyasının və demək olar ki, bütün ölkə və xalqların coğrafiyası, etnoqrafiyası, tarixi, sosial-mədəni həyatı ilə tanış edir [64].

A.Bakıxanov fars dilində yazdığı "Kəşf ul-Qəraib", "Əsrarəl-Məlakut" ("Səma şahlığının sirləri"), "Ümumi coğrafiya" əsərləri XIX yüzilliyin birinci yarısında Azərbaycanın kosmoqrafik ədəbiyyatına mühüm töhfə oldu. Bu əsərlərdən birincisi, Amerikanın kəşf olunmasına, onun ölkələrinin və ərazisinin təsvirinə, ikincisi, dünyanın Heliosentrik sisteminin müdafiəsinə, günəş sistemi cisimlərinin fiziki təbiətinin və quruluşunun izahına, üçüncüsü isə dünyanın fiziki, siyasi, iqtisadi xəritəsinin işıqlandırılmasına həsr olunmuşdur. A.Bakıxanovun kosmoqrafiyaya dair əsərlərini öz dövrü üçün mühüm əhəmiyyəti var idi [65].

Yerin və digər planetlərin Günəş ətrafında fırlanmasını sübut edən A.Bakıxanov islamın müddəalarını təkzib edir, onun öz sözləri ilə desək, "mücərrəd elmlərlə ənənələrə kor-koranə riayət edən" köhnə müsəlman kosmonoqrafiyasını rədd edir. Yeni dünyanı riyaziyyat, mexanika, astronomiya elmlərinin nəticələrinə riayət olunmasına tələb edirdi. Kainatın quruluşunun izahında onun özü Kopernik, Qaliley, Nyuton və b. kəşflərinə istinad edirdi.

Rus Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin üzvləri coğrafiya ilə məşğul olurdular. Onlardan birincisi, rus coğrafiya ədəbiyyatından istifadə edərək "Yeni dünyanı kəşf edən Xristofor Kolumbun tarixi" əsərini yazmış [66], ikincisi isə Məkkə səfərindən sonra ərəb Şərqi ölkələrinin və xalqlarının coğrafiya və etnoqrafiyasına dair çoxlu məlumat verən "Yol qeydləri"ni tərtib etmişdir [67].

XIX yüzilliyin birinci yüzilliyin birinci yarısında elm və sosial təcrübə ilə sıx əlaqədə fəlsəfi fikir də inkişaf edir. Bu dövrdə Azərbaycan fəlsəfəsinin başlıca problemi orta əsr ərəb müsəlman fəlsəfi konsepsiyaları idi. Lakin bununla belə, ölkənin sosial-iqtisadi tələbatını yeni təhsil və tərbiyə sisteminin, cəmiyyətin

yenidən qurulması problemlərinin həlli ilə bağlı Azərbaycan mütəfəkkilləri qarşısında yeni vəzifələr də qoyulub. A.Bakıxanovun farsvə ərəb dillərində yazdığı "Təhzib əl-Əxlaq" ("Əxlaqın tərbiyəsi"), "Kitabe-Nəsayeh" ("Nəsihətlər kitabı"), "Əyn əl-Mizan" ("Çəkilərin mahiyyəti") əsərləri günün tələbinə cavab oldu. A.Bakıxanov bu əsərlərində əxlaqi təfəkkürə və məntiqi mühakimə qabiliyyətinə tərbiyə və təhsilin məhsulu kimi baxır, insanın şəxsi həyatında və elmi yaradıcılığında ləyaqət və düzgün düşünmənin əhəmiyyətini qeyd edirdi. A.Bakıxanovun etikası və məntiqi rasional, maarifçi ideyalar və amallarla zəngindir, köhnə müsəlman əxlaq nəzəriyyəsində və təmiz formalist məntiqi nəzəriyyələrdən xeyli fərqlənir.

Göstərilən dövrdə dəyişmiş sosial şəraitin təsiri altında Azərbaycan zadəganlığının siyasi baxışlarında mərkəzləşdirilmiş dövlət güclü və mədəni monarxiya ideyası müşahidə olunurdu. A.Bakıxanov, İsgəndərbəy Hacinski feodal avtargiyasına qarşı çıxış edir, Qubalı Fətəli xanın simasında Azərbaycan torpaqlarını birləşdirən, ağıllı və uzaqgörən dövlət xadimi görürdülər [68].

Müasir elmin, dünyəvi təhsilin meydana gəlməsi və inkişafı müsəlman sxolastikasının dağılmasına gətirib çıxarır, sxolastik biliklər təhsilli adamların nəzərlərində qiymətdən düşür, onların diqqəti getdikcə daha çox elm, dünyəvi mədəniyyət və texnika məsələlərinə cəlb olunurdu. Elmi maraq dairəsinin genişlənməsi və yeniləşməsi yaradıcı ziyalılarda elm və dinin predmentlərinin müxtəlifliyi haqqında təsəvvür yaradır.

Rusiya tərəfindən diyarın iqtisadi cəhətdən mənimsənilməsinin başlanması ilə əlaqədar ticarətin, sənətkarlığın, yolların, təbii ehtiyatların vəziyyətini öyrənmək tələbatı meydana çıxdı. Yerli idarə orqanlarının məmurları, 30-cu illərin əvvəllərində buraya gəlmiş dövlət komissiyaları, həmçinin səyyahlar Azərbaycanın iqlim şəraitinə, hidrologiyasına, botanikasına, mineralogiyasına dsair zəngin faktiki material toplamışdılar. Pambıq, barama, tütün, qızılboya, zəfəran, şəkər çuğunduru, ədviyyat, indiqo istehsalına marağı artırmaq məqsədilə ticarət-sənaye cəmiyyətləri yaranır, bu bitkilətrin becərilməsinə dair elmi-kütləvi ədəbiyyat buraxılırdı.

Eyni zamanda rus və Avropa alimləri, mühəndisləri Şimali Azərbaycanda kəşfiyyat-axtarış işlərinə başladılar. E.İ.Eyxvald, N.İ.Voskoboynikov filiz-mədən (Qazaxda Kükürdlü kolçedan, Gədəbəydə mis, Zəylikdə zəy, Naxçıvanda daş duz) yataqlarının vəziyyətini təsdiq etmiş, Abşeronda neft quyularının, neftli torpaqların quruluşunun təsvirini vermişdilər. 1848-ci ildə F.A.Semyanovun lahiyəsin buru q üsulu ilə əsasında Bibiheybətdə dünyada buruq üsulu ilə ilk neft quyusu qazılmışdı. 30-40-cı illərdə təbiətşünads-səyyah K.Kox, botanik Aleksis Jordan, ölkəşünaslardan İ.Berezin, Süzanne, Avqust fon Haksthauzen Azərbaycanda olmuş, yerli bələdçilərin köməyi ilə öz tədqiqatları üçün zəngin və rəngarəng material toplamışlar. Q.V.Abix Şimali Azərbaycanın geoloji baxımdan öyrənilməsinin əsasını qoymuşdu.

## § 3. ƏDƏBİYYAT

XIX yüzilliyin birinci yarısında ölkənin ədəbi həyatında da müəyyən bir canlanma baş verir. Azərbaycan ədəbiyyatında böyük və çoxəsrlik tarixə malik olan milli ədəbi ənənələr davam və inkişaf etdirilir, eyni zamanda yeni ideya-bədii təmayüllər təşəkkül tapır, yeni ədəbi cərəyanların ilk əsasları qoyulur.

Yüzilliyin birinci yarısı Azərbaycan ədəbiyyatının mühüm bir qolunu klassik romantik poeziya təşkil etmişdir. A.Bakıxanov, M.Ş.Vazeh, Q.Zakir, M.B.Nədim, Ə.Nəbati, Kazım ağa Salik kimi istedadlı şairlər orta əsr Azərbaycan və ümumən Şərq klassik romantik ədəbiyyatının görkəmli nümayəndələrinin, xüsusən dahi Azərbaycan şairi Füzulinin ənənələrini davam etdirir, klassik romantik şerində olduğu kimi, bu şairlərində də lirik əsərlərinin başlıca mövzusunu və ideya məzmununu məhəbbət motivləri təşkil edirdi. Onlar eyni zamanda ictimai-fəlsəfi lirikanın bir sıra gözəl nümunələrini yaradır və onlarda dövrdən, zəmanədən, həyatın əzab və əziyyətlərindən, talelərindən narazılıq və şikayətlərini ifadə edir, azğın hakimlərə, riyakar ruhanilərə, bir sıra dini-sxolastik görüşlərə qarşı çıxır, humanist ideyalar tərənnüm edirdilər. Onların əsərlərində ölkədə yenicə formalaşmaqda olan maarifçilik ideyaları da müəyyən dərəcədə öz əksini tapır. Bu cəhət başlıca olaraq A.Bakıxanov və M.Ş.Vazeh yaradıcılığında aydın hiss olunur.

Klassik romantik üsluba mənsub olan şairlərin ədəbi irsində Azərbaycan və Şərq ədəbiyyatında geniş intişar tapmış satirik və əxlaqi-didaktik şer nümunələri də mühüm yer tutur. Adlarını çəkdiyimiz şairlər XIX yüzilliyin birinci yarısı Azərbaycan ədəbiyyatında klassik romantik lirikanın və əxlaqi-didaktik şerin inkişafında müsbət rol oynamışlar.

Bu dövrdə Azərbaycan ədəbiyyatında xalq şeri üslubu, xüsusən onun görkəmli nümayəndəsi Vaqifin ədəbi ənənələri coşqun bir inkişaf mərhələsi keçirmiş, mühüm nailiyyətlər əldə etmişdir. Xalq şeri üslubunda əsərlər yazan şairlər içərisində Qasım bəy Zakir, Əbdülqasım Nəbati, Mirzə Baxış Nadim, Məmməd bəy Aşiq, Mirzəcan Mədətov, Aşıq Pəri, Kazım ağa Salik, Əbdürrəhim ağa Dilbazi, Mücrim Kərim, Bərdani, Məlikballı Qurban, Əndəlib Qaracadağı xüsusilə diqqəti cəlb edirlər. Bu şairlər xalq şeri üslubunun müxtəlif janrlarında yazdıqları əsərlərində - qoşma, təcnis, gəraylı və müxəmməslərində real məhəbbəti, hiss və həyacanlarını canlı, rəngarəng boyalarla əks etdirmişlər. Yüksək ideya-bədii məziyyətlərə malik olan şeirləri ilə onlar Azərbaycan ədəbiyyatının real həyatla əlaqəsinin möhkəmlənməsində və onun hər cür mücərrəd, ilahi məhəbbət motivlərinin, dinimistik görüşlərinin təsirindən xilas olmasında mühüm xidmət göstərmişlər.

Bu cərəyana mənsub şairlərin ədəbi irsində dövrün əlamətdar tarixi-siyasi hadisələri ilə bağlı olan şeirlər, poemalar, mənzum hekayələr də vardır. Həmin əsərlərdə işğal dövrünün müharibələri, ölkənin iqtisadi vəziyyəti, xalqın başına

gətirilən müsibətlər, qəhətlik və aclıq təsvir edilmiş, sosial həyatın bəzi nöqsanları tənqid olunmuşdur.

Xalq şeri üslubu ənənələrini uğurla davam etdirən şairlər əsərlərini yüksək bədii səviyyədə, səlis, aydın üslubunda, canlı, oynaq, təbii dildə yazmış, Azərbaycan şerini həm ideya- məzmun, həm də bədii forma cəhətdən xeyli inkişaf etdirmişlər. Onların şeir dilinin canlı xalq dili ilə əlaqəsinin qüvvətlənməsində, bədii dilin canlı danışıq dili hesabına zənginləşməsində xidmətləri xüsusilə böyük olmuşdur.

XIX yüzilliyin birinci yarısında Azərbaycan ədəbiyyatında böyük mütərrəqi əhəmiyyətə malik olan satirikşeir cərəyanının əsası qoyulmuşdur.

Azərbaycan ədəbiyyatında satiranın kökləri qədim dövrlərə gedib çıxır. İstər Azərbaycan klassik ədəbiyyatında, istərsə də folklorunda real gerçəkliyə tənqidi münasibət, feodal cəmiyyətinin ictimai ziddiyətlərinin satirik təsvir meyilləri qüvvətli olmuşdur.Lakin satira Azərbaycan ədəbiyyatında yalnız XIX əsrin 30-50-ci illərində geniş intişar tapmış,müstəqil bir cərəyan kimi formalaşmış və ədəbi prosesdə mühüm bir mövqe tutmağa başlamışdır.

XIX yüzilliyin birinci yarısında Azərbaycanda satiranın geniş intişar tapması bu dövrdə ölkədə xanlıq üsuli-idarəsinin ləğv edilib,çar bürokratik idarə sisteminin yaradılması ilə də bağlı olmuşdur. Yeni idarə sistemi özü ilə bərabər bürokratik üsuli-idarəsinə xas olan ictimai nöqsan və ziddiyyətləri, özbaşınalıq, qanunsuzluq, rüşvətxorluq, süründürməçilik gətirmiş, ölkənin, xalqın taleyini acgöz, ədalətsiz çar hakimlərinə və onlarla əlbir olan yerli məmur və bəylərə vermişdi. Bunun nəticəsində ölkədə ictimai ziddiyyətlər kəskin bir şəkil almış, xalq kütlələri arasında yeni üsuli-idarəyə, çar hakimlərinə, yerli məmur və bəylərə qarşı narazılıq,nifrət və etiraz hissləri qüvvətlənmiş, ölkənin bir sıra yerlərində üsyan baş vermişdi.Ölkədə yaranmış bu vəziyyət Azərbaycan ədəbiyyatına da qüvvətli təsir göstərmiş,onda tənqidi-satirik meyillərin inkişafına təkan vermişdi.

Bu dövr Azərbaycan satirik şerinin görkəmli nümayəndələri Baba bəy Şakir (1769-1844), Qasım bəy Zakir (1784-1857) və Mirzə Baxış Nadimdir (1785-1880). Bu şairlərin satirik şeirlərində Azərbaycan ictimai-siyasi həyatının bir sıra səciyyəvi cəhətləri real əks olunmuş, dövrün bariz və kəskin tənqidi-satirik lövhələri çəkilmişdir. Onlar əsərlində çar hakimləri və məmurlarının ədalətsizliyini və qanunsuzluğunu, bəylərin özbaşınalığını və zülmkarlığını, ruhanilərin riyakarlığını və tüfeyliliyini kəskin ifşa etmiş, ölkədə yaranmış ağır,dözülməz vəziyyətə qarşı öz kəskin etirazlarını bildirmişlər.Satiriklər əsərlərində feodal cəmiyyətinin əsas hakim və məhkum silklərini təşkil edən bəylərlə kəndlilər arasındakı ziddiyyətlərin mahiyyətinə də toxunmuş, məhkum kütlələrin halına dərindən acımışlar. Bəykəndli ziddiyyətlərinin təsviri M.B.Nadimin şeirlərində özünün bariz əksini tapmışdır. Nadim Mahmud adlı qoca bir kəndliyə müraciətlə yazdığı şerində bəylərin özbaşınalığını, istismarçı təbiətini açıb göstərmiş, zəhmətkeş kəndli kütlələrinin mənafeyini qızğın müdafiə etmişdir:

Mahmud! Əya rəncbəranə mərdi yeganə
Nahaq yerə rəncidə olub gəlmə fəğanə.
Xaliq sizi rəncbər yaradıbdır bəyə, xanə.
Hərçənd gərəkdir qoşalar at bu kotanə,
At olmasa, heç incimə, insan sa qoşarlar.

Azərbaycan ədəbiyyatında əsasən lirik şair kimi tanınan A.Bakıxanov və M.Ş.Vazeh də öz dövrlərinin sosial ədalətsizliyini tənqid atəşinə tutan bir sıra şeirlər yazmışlar. İstedadlı Cənubi Azərbaycan şairi Fazil xan Şeyda (?-1842) əsərlərində İran feodal üsuli-idarəsini kəskin tənqid etmişdir.

XIX yüzilliyinin birinci yarısında Azərbaycan ədəbiyyatında mərsiyə, təriqət və təqlidçi-formalist şeir yolu da davam etdirilmiş, məhərrəmlik təziyədarlığı ilə əlaqədar mərsiyələr, dini poemalar, peyğəmbərin şəninə mövludnamələr yazılmışdır. Dini-mistik şerin nümayəndələri Raci, Qumri, Şüai, Supehri, Ahi, "Nəqşbəndi" təriqətçiliyini təbliğ edən şairlər Seyid Nigari, Məhəmməd Əsgəri, Qutqaşınlı Abdulla, nəzirəçi şairlər isə Molla Qadir, Naci Şirvani, Şəkili Hatəm, Molla Zeynalabdin Sağəri, Mirz. Məhərrəm bəy Məriz və başqaları idilər.

XIX yüzilliyin birinci yarısında zəngin və çoxəsrlik tarixə malik olan şifahi xalq ədəbiyyatı, xüsusən aşıq şeri geniş inkişaf edir, bu sahədə olduqca böyük, qiymətli və rəngarəng bir ədəbi irs mənbəyi yaradılırdı. Aşıq şerinin görkəmli nümayəndələri – Basarkeçərin Qaraqoyunlu kəndində Aşıq Musa (1795-1840), Daşkənd kəndində Məhəmməd Hüseyn (1800-1860), Zaqatalanın Varxiyanlı kəndində Aşıq Dilqəm, Samur qəzasının Ehraq kəndində Aşıq Rəcəb, Bakı qəzasının Masazır kəndində Aşıq Həsən, Bülbülə kəndində Aşıq Cavad, Cənubi Azərbaycanın Qaradağ mahalının Andriyan kəndində Aşıq Camal və digər aşıqlar idilər. Bu xalq şairləri aşıq poeziyasının ənənələri əsasında qoşma, gəraylı, təcnis, bayatı, deyişmələr qoşmuş, əsrlər boyu ağızdan ağıza keçmiş ədəbi irsi yaşatmış, onu təkmilləşdirmiş, yeni ideya-bədii keyfiyyətlərlə zənginləşdirmiş, bir sıra məhəbbət və qəhrəmanlıq dastanları yaratmışlar.

Aşıq şeri və dastanlarında xalq həyatı, onun adət-ənənələri tərənnüm olunmuş, zəhmətkeş kütlələrin dərd və ələmləri, ehtiyacları, istək və arzuları qələmə alınmışdır. Aşıq poeziyası yüksək sənətkarlıq xüsusiyyətləri, bədii üslub dilin təbiiliyi, canlılığı və zənginliyi ilə də fərqlənmişdir.

Bu dövr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Qasım bəy Zakir və İsmayıl bəy Qutqaşınlıdır.

**A.Bakıxanovun** çoxcəhətli yaradıcılığında onun bədii irsi mühüm yer tutur; Gənclik illərindən ərəb və fars dillərini mükəmməl öyrənən, Azərbaycan Şərqi klassik ədəbiyyatının görkəmli nümayəndələrinin irsinə dərindən bələd olan A.Bakıxanov "Qüdsi" təxəllüsü ilə həm Azərbaycan, həm də fars dilində klassik

romantik şeir üslubunda çoxlu əsərlər – qəzəl, müxəmməs, müstəzad, rübai, qitə, tərcibənd, tərkibbənd, mənzum hekayə, təmsil, satirik və əxlaqi-didaktik şeirlər yazmışdır.

A.Bakıxanov Azərbaycan ədəbiyyatında əsasən lirik şair kimi tanınmışdır. Onun lirik şeirlərində - qəzəllərində azad məhəbbət, aşiqin mənəvi aləmi, məhəbbətilə əlaqədar olaraq keçirdiyi iztirabları, dərd və ələmləri təsvir və tərənnüm olunmuş, aşiqin romantik bədii surəti yaradılmışdır.

Şairin lirikasında mücərrəd ilahi məhəbbət motivləri, dini-mistik ideyaları, panteizim görüşləri də öz əksini tapmışdır. Bu cəhət xüsusən onun bədii yaradıcılığının ilk dövründə daha qüvvətli olmuşdur.

A.Bakıxanovun lirikası bədii sənətkarlıq cəhətdən də orijinal məziyətlərə malikdir. O, şeirlərində klassik Azərbaycan və Şərq poeziyasının bədii sənətkarlıq məziyyətlərindən, ahəngdar vəznindən, rədif və qafiyələrindən təşbeş və istiarələrindən məharətlə istifadə etmiş, bədii fikri mükəmməl bir səviyyədə, rəvan, səlis üslub və dildə əks etdirməyə, məzmun, forma arasında vəhdət yaratmağa müvəffəq olmuşdur.

A.Bakıxanovun poetik irsində "Gürcülər arasında" mənzum məktubu, Tiflisə həsr olunmuş müxəmməsi, "Təbriz əhlinə xitab" satirası, 1847-ci ildə hazırladığı "Mişkatülənvar" şeirlər külliyyatına daxil edilmiş "Mirat ülcamal" ("Surətin aynası") poeması, mənzum hekayə və təmsilləri xüsusəndiqqəti cəlb edir.

A.Bakıxanov mənzum hekayə və təmsillərində ədalətsiz, zülmkar feodal hakimlərin əleyhinə çıxır, nadanlıq, özbaşınalıq, hiyləgərlik, lovğalıq, xudpəsənlik, ədəbsizlik, yersiz söz danışmaq kimi ehtiras və sifətləri pisləyir, ədalət, xeyirxahlıq, alicənablıq, düzlük, mərdlik, zəhmətkeşlik kimi müsbət keyfiyyətləri tərif və təqdir edir, humanist görüşləri irəli sürürdü. Onun mənzum hekayələri konkret həyatı hadisələr, canlı surətlər əsasında, maraqlı bir quruluşda, səlis, aydın, təbii bir üslub və dildə yazılmışdır. A.Bakıxanov məhşur rus təmsilçisi İ.A.Krılovun "Eşşək və bülbül" təmsilini Azərbaycan dilinə tərcümə etmişdir. Rus ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə tərcüməö edilməsi tarixi də məhz Bakıxanovun bu tərcüməsi ilə başlayır.

Azərbaycan ədəbiyyatının bu dövrdəki görkəmli nümayəndələrindən biri də **Mirzə Şəfi Vazehdir.**

M.Ş.Vazeh 1792-ci ildə Gəncədə bənna ailəsində anadan olmuşdur. O, gənclik illərində Gəncə mədrəsəsinə daxil olub, burada dini təhsil almağa, ərəb və fars dillərini öyrənməyə başlayır. Lakin Hacı Abdulla adlı dərin savadlı və mütərəqqi görüşlü bir ziyalının təsiri altında Mirzə Şəfi dini elmlərə laqeyd münasibət bəsləyir, ruhani olmaq niyyətindən əl çəkir, sənətə, dünyəvi elmlərə qızğın maraq göstərir, bütün vaxtını və səyini Şərq ədəbiyyatı klassiklərinin irsini dərindən öyrənməyə yönəldir.

Mirzə Şəfi bir müddət Cavad xanın qızı püstə xanımın yanında mirzəlik (katiblik) etmiş, 1826-1828-ci illər Rusiya-İran müharibəsindən sonra isə

xəttatlıqla məşğul olmuş, mədrəsədə nəstəliq xətti[1] üzrə müəllimlik etmişdir. O, 1840-cı il Tiflisə gəlir və bilavasitə M.F.Axundovun köməyi sayəsində Tiflis qəza məktəbində Azərbaycan və fars dilləri müəllimi təyin edilir. Mirzə Şəfi burada bir sıra mütərrəqi Azərbaycan, rus, gürcü ziyalıları ilə tanış olur. M.F.Axundovla yaxından dostluq edir və dövrünün mütərəqqi görüşlərinə yiyələnir. O, Tiflisdə "Divani-Hikmət" adlı ədəbi məclis təşkil edir. A.Bakıxanov, M.F.Axundov, alman şair və tərcüməçisi Fridrix Bodenştedt bu dərnəyin fəal üzvləri olmuşlar.

1846-cı ilin Mirzə Şəfi Gəncəyə qayıdır və burada qəza məktəbində müəllimlik edir. Ömrünün son illərində o, Tiflisdə yaşamış və Tiflis gimnaziyasında Azərbaycan dili müəllimi olmuşdur. Mirzə Şəfi 1852-ci ildə burada vəfat etmişdir.

M.Ş.Vazeh klassik romantik şeir üslubunda Azərbaycan və fars dillərində çoxlu əsər yaratmışdır. Lakin onun zəngin ədəbi irsindən orijinalda az bir qismi bizə gəlib çatmışdır. Şairin əsərlərinin əsas hissəsi Fridrix Bodenştedt tərəfindən alman dilinə edilmiş tərcümələrindən ibarətdir.

F.Bodenştedt 40-cı illərin sonunda Tiflisə gəlir və burada Mirzə Şəfi ilə tanış olub, ondan fars dilini, klassik Azərbaycan və Şərq şairlərinin əsərlərini öyrənməyə başlayır. O eyni zamanda, Mirzə Şəfinin əsərlərini mütaliə edir, onlardan vəcdə gəlir və müəlliminin şeirlərinin əlyazmalarını özü ilə bərabər Almaniyaya aparır. O, Mirzə Şəfinin əsərlərini alman dilinə tərcümə edib, bir hissəsinin 1850-ci ildə Ştutqartda "Min bir gecə" kitabında, tam halda isə 1851-ci ildə Berlində "Mirzə Şəfinin şərqiləri" başlığı altında bir kitab şəklində nəşr etdirir. Bu kitablar Almaniyada yüksək tərif və təqdirlə qarşılanır, dəfələrlə nəşr olunur. Mirzə Şəfinin əsərləri tez bir zamanda ingilis, fransız, italyan, norveç, holland, Danimarka, polyak, çex qədim yəhudi dillərinə tərcümə edilərək çap olunub, bütün Avropada geniş yayılır və müəllifinə böyük şöhrət qazandırır. Mirzə Şəfinin bir sıra şeirləri keçən əsrin 50-60-cı illərində rus inqilabçı-demokrat şairlərin – Mixaylov və V.Markov, M.Ramşev (təxəllüsü P.F.Yakuboviç) və şair N.Eyfert tərəfindən rus dilinə tərcümə olunub, müxtəlif ədəbi məcmuələrə daxil edilir. Bütöv halda isə onlar N.Eyfertin tərcüməsində 1880-ci ildə Moskvada çapdan çıxmışdır. Məhşur rus bəstəkarı və pianoçusu A.Q.Rubinşteyn Mirzə Şəfinin şeirləri əsasında mahnılar qoşmuşdur ki, onlar indi də konsert repertuarlarında saxlanılmaqdadır.

Mirzə Şəfinin bədii irsi lirik, ictimai-fəlsəfi və əxlaqi-didaktik şeirlərdən ibarətdir. O, lirik şeirlərində saf məhəbbəti, insani hiss və həyəcanları, sevinc və kədəri, real həyati nemətlər təsvir və tərənnüm edir, dini ehkamları, zahidliyi, tərki-dünyalığı, cənnət və cəhənnəm haqqında xurafatı pisləyirdi. Onun məhəbbət lirikası bütövlükdə dünyəvi və nikbin bir səciyyə daşıyır.

---

[1] Ərəb əlifbası ilə yazılan bədii xətt növü.

Mirzə Şəfi ictimai-fəlsəfi lirikasında həyat, kainat haqqında düşüncələrini əks etdirmişdir. O, bu tipli əsərlərində həyat haqqında dini sxolastik görüşlər və xəyallar əleyhinə çıxır, insanları real həyat nemətlərindən fəal surətdə istifadə etməyə çağırırdı. Onun satirik səciyyə daşıyan şeirlərində, həcvlərində azğın, nadan hakimlər, riyakar ruhanilər, tənqid atəşinə tutulmuşdur. Mirzə Şəfi klassik Azərbaycan və Şərq əxlaqi-didaktik ədəbiyyatı səpkisində yazılmış "Teymur", "Dərviş", "Sədi və şah", "Sual-cavab" və başqa mənzum hekayələrində feodal cəmiyyətinin bir sıra ictimai eyiblərini açıb göstərir, zalım, başıboş şahlar əleyhinə çıxır, ədalət, xeyirxahlıq kimi müsbət keyfiyyətləri təbliğ edirdi.

Bütövlükdə Mirzə Şəfinin ədəbi irsi mütərəqqi görüşlərin, yeni fikirlərin təbliğinə xidmət göstərmişdir.

Bu dövr Azərbaycan ədəbiyyatının inkişafında Q.Zakirin xidməti xüsusilə böyük olmuşdur.

**Qasım bəy Zakir** (Qasım bəy Əli oğlu Cavanşir) 1784-cü ildə Şuşa şəhərində bəy ailəsində anadan olmuşdur. O, mollaxanada təhsil almış, fars və qismən ərəb dilini öyrənmiş Azərbaycan və Şərq klassik ədəbiyyatına bələd olmuşdur. Zakir uşaq və gənclik illərində xalq aşıq şerinə, xüsusən onun görkəmli nümayəndəsi M.P.Vaqifin poetik ənənələrinə mükəmməl yiyələnmişdi.

Adlı-sanlı zadəgan nəslinə mənsub olsa da, Zakir kasıb həyatı sürmüş, ailəsini özünün kiçik Xındırıstan kəndinin gəliri ilə dolandırmışdır. O, kəndlilərlə bərabər təsərrüfat, əkin-biçin işləri ilə məşğul olmuş, həyatın isti-soyuğunu, geniş zəhmətkeş kütlələrin ağır həyat tərzini yaxından görmüş, onların zəruri ehtiyaclarına, istək və arzularına bələd olmuşdur.

Q.Zakir həqiqətpərəst, ədalətli, sözü düz üzə deyən, öz dövrünə tənqidi münasibət bəsləyən, hər cür ədalətsizliyə və özbaşınalığına qarşı çıxan bir şəxs olmuşdur. O, həm yaxın tanış və dostları ilə söhbətlərində, həm də şeirlərində çar hakimlərini və yerli bəyləri tənqid edir, onların iç üzünü açıb göstərirdi. Odur ki, Qarabağın hakim dairələri şairə kin və ədavət bəsləmiş, onu daim tənqid və təqib etmişdilər. Nəhayət, onlar 1849-cu ildə Zakiri qoca vaxtında qardaşı oğlu Behbud bəy Cavanşiri qaçaqçılıqla məşğul olması üstündə həbsə almış, kəndini, var-dövlətini tar-mar etmiş, özünü Bakıya, oğlu və qardaşı oğlunu isə Rusiyaya sürgünə göndərtmişdilər. Zakir yaxın tanış və dostlarına – M.F.Axundova, İsmayıl bəy Qutqaşınlıya, Şamaxı qubernatoru Kolyubakinə, gürcü knyazı İlikoya mənzum məktublar yazaraq, Qarabağda hökm sürən özbaşınalıq və qanunsuzluğu tənqid atəşinə tutmuş, başına gətirilən müsibətlərdən şikayətlənmiş və onlardan kömək istəmişdir. Bir müddətdən sonra yaxın dostlarının, xüsusən M.F.Axundovun yaxından köməyi sayəsində qoca şair sürgündən azad olunmuşdur. O, 1857-ci ildə Şuşada vəfat etmişdir.

Q.Zakir gənc yaşlarından fəaliyyətə başlamış, həm klassik romantik şeir üslubunda, həm də xalq şeri üslubunda əsərlər – qəzəl, müxəmməs, müstəzad,

tərkibbənd, tərcibənd, qoşma, təcnis, gəraylı, bayatı, təmsil, mənzum məktublar yazmış, qiymətli zəngin bir irs yaratmışdır.

Azərbaycan ədəbiyyatında, hər şeydən əvvəl, istedadlı və orijinal bir lirik şair kimi şöhrət tapan Zakirin şeirlərində məhəbbət, insani hiss və həyəcanlar, sevinc və iztirablar təsvir və tərənnüm olunmuşdur. O, həyatın, yaşamağın mənasını, insani sevinc və iztirabları bu dünya ilə bağlamışdır. O, zəhmətkeş kütlələri həyat və düşüncə tərzinə, psixologiyasına, idealına uyğun olaraqqələmə almış, onu milli xüsusiyyətlərilə, ruhu və adət-ənənələrilə, yerli geyim və bəzəklərlə təsvir etmiş milli Azərbaycan gözəlinin doğma, bədii portretini yaratmışdır. Real həyatla bağlılıq, dünyəvilik, nikbinlik Zakirin məhəbbət lirikasının əsas ideyasını, səciyyəvi xüsusiyyətlərini təşkil edir.

Zakirin yaradıcılığında satira mühüm yer tutur. O, dövrünün kəskin tənqidi lövhələrini əks etdirən bir sıra mənzum məktublar, dərin sosial mahiyyət daşıyan həcvlər və başqa satirik şeir nümunələri yaratmış, Azərbaycan ədəbiyyatında satiranın inkişafında, onun müstəqil bir ədəbi cərəyan kimi formalaşmasında mühüm rol oynamışdır.

Zakir satirasının başlıca mövzusu, əsas məzmunu və tənqidi hədəflərini çar bürokratik üsuli-idarəsinin, yeni qayda-qanunların Azərbaycanın ictimai-siyasi həyatında yaratdığı ziddiyyət və nöqsanlar təşkil edir. Zakir əsərlərində Azərbaycanda “adətü-qanunu”nu pozulmasından, “cövr ilə cəfanın ifrata yetməsindən”, “xeyirlə şərin” öz yerində olmamasından, əliəyri, natəmiz, vicdansız adamların iş başına keçmələrindən, xalqın bir tərəfdən çar hakimləri və məmurları, ikinci tərəfdən isə yerli bəylər tərəfindən soyulub talan olunmasından qəzəblə, yanıqlı-yanıqlı bəhs etmiş, ölkədəki qanunsuzluq, ədalətsizlik, hərc-mərclik, rüşvətxorluq əleyhinə çıxmışdı. O, əsərlərində cəsarətlə və açıq surətdə elan edirdi ki, ölkənin belə bir ağır vəziyyətə düşməsinə səbəb çar bürokratik üsuli-idarəsi, yerli çar hakimləri və onlarla əlbir olan məmurlardır:

Qüttaüt-təriqin işləyib nəqşi,
Rəhzənlərə vardır xudanın bəxşi,
Vilayətin viran eylədi yaxşı
Bir qafili-piyan, bir maili kart [69].

Q.Zakir bir sıra mənzum hekayə və təmsillər də yazmışdır. Onlarda şair zülm, ədalətsizlik əleyhinə çıxmış, hakimlərin zalımlığı, özbaşınalığını, ruhanilərin riyakarlığını və ikiüzlülüyünü açıb göstərmiş, əxlaqi-didaktik görüşlər təbliğ etmişdir.

Q.Zakir Azərbaycan ədəbiyyatının inkişafı tarixində müstəsna xidməti olan şairlərdən biridir. O, xüsusən satirik şeirlərində milli ədəbiyyatın real gerçəkliklə, dövrün aktual ictimai məsələləri ilə əlaqəsini olduqca qüvvətləndirmiş,

onda satirik-realist ənənələrin möhkəmlənməsi və inkişafına qüvvətli təsir göstərmişdir.

XIX yüzilliyin birinci yarısı Azərbaycan ədəbiyyatı yeni tipli bədii nəsrin təşəkkülü ilə də əlamətdar olmuşdur. Onun ilk müvəffəqiyyətli nümayəndəsi istedadlı yazıçı İ.Qutqaşınlı tərəfindən yaradılmışdır.

İsmayıl bəy Qutqaşınlı 1806-cı ildə doğulmuşdur. Atası Nəsrullah Sultan Qutqaşın mahalının son sultanı olmuşdur. Azərbaycan Rusiya tərəfindən istila edildikdən sonra o, çar hökuməti tərəfindən həmin mahalın hakimi vəzifəsinə təyin edilmişdir.

İ.Qutqaşınlı uşaqlıq və gənclik illərində dini təhsil almış, ərəb, fars dillərini öyrənmiş, klassik Azərbaycan və Şərq ədəbiyyatı ilə yaxından tanış olmuşdur. O, 1822-ci ildə rus ordusunda xidmətə başlamışdır. Hərbi xidməti ilə Rusiyanı gəib-dolaşmış, bir müddət Moskva, Peterburq və Varşavada yaşamışdır. Xidmət illərində İ.Qutqaşınlı bir sıra mütərəqqi rus ziyalıları ilə dostluq əlaqəsi yaratmış, rus və Qərbi Avropa mədəniyyətlərinin nailliyyətlərinə yiyələnmiş, dövrünün ən savadlı Azərbaycan ziyalılarını biri olmuşdur. 1841-ci ildə İ.Qutqaşınlı istefaya çıxmış və öz vətəninə qayıdaraq, Qutqaşın və Şamaxıda yaşamışdır. Uzun müddət rus ordusunda xidmət etdiyinə görə ona general-mayor rütbəsi verilmişdir. 1852-ci ildə o, arvadı ilə Yaxın Şərq ölkələrinə səyahətə getmişdir. O, 1861-ci ildə Şamaxıda vəfat etmiş və Qutqaşında dəfn olunmuşdur. İ.Qutqaşınlı 1835-ci ildə Varşavada hərbi xidmətdə olarkən fransız dilində "Rəşid bəy və Səadət xanım" hekayəsini nəşr etdirmişdir. Azərbaycan ədəbiyyatında sözün həqiqi mənasında yeni tipli nəsrin tarixi də məhz bu hekayə ilə başlayır.

"Rəşid bəy və Səadət xanım" hekayəsinin mövzusu xanlıqlar dövrünün həyatından alınmışdır. Hekayədə xalq həyatı və məişəti adət-ənənələrini bir sıra səciyyəvi cəhətləri, Azərbaycanın şimal rayonlarının təbiəti real, təbii və rəngarəng boyalarla əks olunmuşdur. Ədib məhəbbət mövzusu ilə üzvi bağlı olaraq, dövrün bir sıra ictimai-əxlaqi məsələlərinə toxunmuş, orta əsr feodal həyat tərzi, dini fanatizm, mühafizəkarlıq, qadın əsarəti, məcburi icdivac əleyhinə çıxmış, azad məhəbbət ideyalarını, yeni həyat prinsiplərini təbliğ və tərənnüm etmişdir.

## § 4. İNCƏSƏNƏT, TEATR VƏ MEMARLIQ

XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanda musiqi, təsviri və tətbiqi sənət, memarlıq inkişaf etməkdə davam edir, müasir Azərbaycan teatrının yaradılması prosesində ilk addımlar atılırdı.

Bu dövrdə xalq aşiq musiqisi ilə üzvi şəkildə bağlı olan Azərbaycan musiqilin folkloru dahada inkişaf edirdi.Bu janrdan olan əsərlərlə yanaşı, uşaqlar üçün müxtəlif mahnılar – laylalar, oyunlar, dilay və matəm mahnıları geniş yayılmışdı. Xalq yaradıcılığına məxsus müxtəlif mahnılarda və rəqslərdə vətənə məhəbbət və sədaqət ifadə olunur, xalq qəhrəmanları tərənnüm edilirdi.

Müğənnilər – aşıqlar tərəfindən böyük ustalıqla ifa edilən əsərlər xüsusilə geniş yayılmışdı. Xalq yaradıcılığına məxsus müxtəlif mahnılarda və rəqslərdə vətənə məhəbbət və sədaqət ifadə olunur, xalq qəhrəmanları tərənnüm edilirdi.

Müğənnilər – aşıqlar tərəfindən böyük ustalıqla ifa edilən əsərlər xüsusilə geniş yayılmışdı. Müğənni – aşıqdan və çalğıçı – balabançıdan ibarət olan aşıq ansamblları xalq kütlələri arasında böyük şöhrət qazanmışdı. Aşıq sənəti böyük istedad tələb edirdi: istedadlı aşıqlar yalnız şair olmaqla kifayətlənməməli, həm də müğənni, musiqiçi olmalı, rəqs etməyi bacarmalı idilər.

Bu dövrdə aşıq ansamblları ilə yanaşı, Şimali Azərbaycanda tarzəndən, kamançaçıdan və həm də müğənni olan qavalçıdan ibarət xandə ansamblları da meydana gəlirdi. Bu ansamblllar başlıca olaraq Bakı, Gəncə, Şuşa, Şamaxı, Şəki və digər şəhərlərdə məşhur olub, şəhərlərdən aşıq ansambllarını sıxışdırıb çıxarırdılar. Xanəndələr tərəfindən ifa edilən daha geniş yayılmış musiqi forması muğamlar idi. Ayrı-ayrı muğamların motivləri əsasında xanəndələr tərəfindən ifa edilən dəsgahlar təşkil edirdi. Həmin dövrdə rus şairi Polonski tərəfindən tərənnüm edilmiş Mirzə Səttar böyük şöhrət qazanmışdı. Azərbaycanı musiqi mədəniyyətinin inkişafında şamaxılı Hacı Nəcəf bəyin böyük xidməti var idi.

Rusiyada Azərbaycan musiqi folklarına xeyli maraq göstərilirdi. Belə ki, 1818-1819-cu illərdə Həştərxanda nəşr edilən musiqi jurnalında Qubalı Fətəli xana həsr olunmuş Azərbaycan mahnısının notla yazılmış mətni verilmişdir. Keçən əsrin 30-cu illərində bir neçə Azərbaycan mahnısı və bir "Ləzgihəngi" İrəvan quberniyasında nota köçürülmüş və 1861-ci ildə "İllüstrasiya" jurnalında çap olunmuşdu.

Azərbaycan teatrının meydana gəlməsi XIX yüzilliyin birinci yarısına aiddir. Hələ Şimali Azərbaycanın işğalına qədər, həmçinin ondan sonra xalq yaradıcılığının bir çox növlərində, o cümlədən, əmək proseslərində - kollektiv çəltik səpinində, üzüm yığımında, təqvimi bayramlarda, toy mərasimlərində, təbiət qüvvələrinə sitatişdə və s. –də teatr elementləri özünü göstərirdi.

XIX yüzilliyin birinci yarısında Azərbaycan xalq kukla teatrının tamaşaları geniş yayılmışdır. Burada bir və ikipərdəli pyeslər, həmçinin teatrlaşdırılmış "Maral oyunu", "Kilimarası" oyunlar daxil idi. Bu tamaşalarda və pyeslərdə o dövrün məişətindəki eybəcər hallar gülüş hədəfinə çevrilib ələ salınırdı. İlk teatr tamaşaları 1848-ci ildə Şuşada, 1850-ci ildə Lənkəranda və 1857-ci ildə Şamaxıda təşkil edilmişdi.

M. F.Axundovun məhşur komediyalarının rus səhnəsində tamaşaya qoyulmasının Azərbaycan teatr sənədi üçün mühüm əhəmiyyəti oldu. Hələ 1852-ci ildə Tiflisdə rus teatrı "Hekayəti-xırs quldurbasan" pyesini tamaşaya qoymuşdu. M.F.Axundovun "Hekayəti-Müsyö Jordan həkimin – nəbatəd və dərviş Məstəli şah caduküni məhşur" adlı komediyası Peterburqda ev tamaşalarından birində oynanılmışdır. XIX yüzilliyin birinci yarısında Azərbaycan tamaşaçıları sirk sənəti

ilə tanış idilər. Azərbaycan şəhərlərində sirk tamaşaları təşkil edilirdi. Onlardan biri 1848-ci ildə Şuşadan olmuşdur.

Göstərilən dövrdə Şimali Azərbaycanın təsviri sənətində realist meyillər inkişaf edirdi. Bu meyil o dövrdə Şimali Azərbaycanın böyük rəssamı Mirzə Qədim İrəvaninin (1825-1879) yaradıcılığında əks olunurdu. O, İrəvanda varlı sənətkar ailəsində doğulmuş və Tiflisdə orta təhsil almışdı. Öz doğma şəhərinə qayıtdıqdan sonra İrəvani bütün ömrünü orada keçirmişdir. O öz dövrünün savadlı adamı olub,fars, rusvə fransız dillərini bilir, musiqini sevirdi. Rəssam şəkil çəkməyə uşaqlıqdan başlamışdı; onun rənglərlə ilk işi yeniyetmə vaxtı çəkdiyi güzcüdəki qızın portreti olmuşdu.

İrəvaninin yaradıcılığının ilkin mərhələsi başlıca olaraq onun tətbiqi dekorativ sənət sahələrindəki işləri ilə səciyyələnir. Rəssam ipək tikmələr və qızıl saplar (güləbətin), həmçinin divar rəsmləri üçün çoxlu şəkil və qəliblər çəkmiş və hazırlamışdır. 50-ci illərin əvvəllərində artıq məşhur olan İrəvani İrəvan sərdar sarayındakı rəsmlərin bərpası işinə cəlb edildi. Bu vaxtdan rəssamın yaradıcılığında yeni mərhələ başlayır. O, kətan üzərində rəngli boyalarla sərdarlar bir neçə portretini çəkir. Bunlar Azərbaycan rəssamlığında dəzgahlara çəkilmiş ilk əsərləri idi.

İrəvaninin sonrakı yaradıcılığı XIX yüzilliyin ikinci yarısı şəraitində davam etsə də, göstərilən əsərlərdə rəssamın artıq miniatür şərtliyindən və demokratizmdən, təsvirdəki primitivlikdən və təqliddən reallığa doğru irəliləmək cəhdləri özünü aydın göstərirdi. Bu, yazı üslubunda, rəsmlərin xarakterində, traktovkasında əks olunurdu. Bunula belə, İrəvaninin yaradıcılığında Azərbaycan miniatürlərinin, divar rəsmlərinin ən yaxşı ənənələri qorunub saxlanmışdı.

Miniatür rəssamlığının ən yaxşı nümunəsi Məhəmməd Rza İrəvaninin çəkdiyi "Şikəstin sağalması" (Sankt-Peterburq, Dövlət Ermitajı) əsəridir. Bu, çoxfiqurlu məişət səhnəsi obrazlarınvə peyzajın rəssam tərəfindən realist təsvirə cəhd göstərmək baxımından fərqlənən əlamətdar əsərdir. Əsərdə klassik miniatür ənənələri və təzvirin yeni həcm-məkan həlii ustalıqla uyğunlaşdırılıb.

"Kəlilə və Dimnə"nin 1809-cu ildə Azərbaycan dilində hazırlanmış əlyazmasını kitab sənətinin müvəffəqiyyətli nümunəsi hesab etmək olar. Əlyazmanın xəttatı və rəssamı Muğandan olan Əvəz Əli idi. Əlyazmanın ümumi bədii tərtibat səviyyəsi yüksək deyildi, orada olan 115 şəkil sadəlövh-folklar xarakteri daşıyırdı. Bununla belə bütövlükdə arxaik olan surətlərin bəzi fiqurları ifadəlidir.

Divar rəsmlərindən ifadə olunan dekarasiya sənəti Şimali Azərbaycanda xeyli inkişaf etmişdi. 1848-1851-ci illərdə Şəki Xan sarayının divar rəsmləri təmir və bərpa edilmişdi. Bu iş Qarabağdan olan usta Qəmbər və onun şagirdi tərəfindən görülmüşdü. Özlərinin parlaqlığı və təravəti ilə fərqlənən və başlıca olaraq bitki forma və motivlərindən ibarət bu naxışlar otaqların divarlarını başdan-başa əlvan naxışlarla bəzəyir.

Divar naxışlarının, o cümlədən süjetli naxışların Şimali Azərbaycanda geniş yayılmasını tarixi-ədəbi mənbələr də təsdiq edir. Məlumdur ki, Bakı xanının güzgülü salonunun, Bakı xanının qəbul otağının, Təbriz bəylərbəyi sarayının salonunun kompozisiyalarla bəzədilmişdi. İrəvan sərdarının sarayındakı rəsmlər arasında "Şahnamə"nin qəhramanı Rüstəmin əfsanəvi qəhrəmanlıqlarını əks etdirən süjetli kompozisiyalar xüsusilə fərqlənirdi. Sarayın yay salonunda Fətəli şahın, Abbas Mirzənin və İrəvan xanı Hüseynqulunun ayaqüstə portretləri çəkilmişdi.

Təbrizdəki sarayın divarları güzgülərlə, naxışlarla və döyüş səhnələri təsvir edilmiş süjetli kompozisiyalarla bəzədilmişdi. "Torpaqqala qəsrinin alınması" adlı çoxfiqurlu kompozisiya, Şah İsmayılın, Nadir şahın və Rüstəmin portretləri xüsusilə fərqlənirdi.

1864-1865-ci illərdə Şimali Azərbaycanda olmuş məşhur rus rəssamı V.V.Vereşşagin qeyd edirdi ki, Şuşanın bir çox varlı evlərində divarlar və tavanlar döyüş səhnələrini əks etdirən süjetli-portretləri ilə bəzədilmişdi. Keçən əsrin 50-ci illərinin sonlarında Şəki Xan sarayında olmuş A.Düma qeyd edirdi ki, "qeyri-adi naxışları olan, gözəl tikilmiş bu sarayı ancaq fırça xarakterizə edə bilər" [70]. Yazılı və təsviri materiallar, eləcə də bizim dövrümüzə qədər gəlib çatmış abidələr XIX yüzilliyin birinci yarısının divar rəsmlərinin ümumi xüsusiyyətlərini xarakterizə etməyə imkan verir.

Şimali Azərbaycanın divar rəsmləri dekorativ və kompozisiya vəzifələrinin həlli və bədii üslubun vahidliyi ilə fərqlənir. Fiqurların təsvirində və ifa texnikasında ənənəvi və dekorativ üslubun əsas prinsipləri gözlənilirdi. Rəsmlərin bölgüsü binanın içərisinin memarlıq təfsilatına, memarlıq-dekorativ elementlərin forma və xarakterinə ciddi şəkildə uyğun gəlir.

Divar rəsmləri həm məzmun, həm də bədii forma cəhətindən ənənəvi xarakter daşıyır. Bu rəsmlərdə ov və döyüş səhnələrində çoxfiqurlu kompozisiyaların düzülüşü, obrazların və peyzajların təsviri, kolorit həlli və s. təsvir vasitələri XVIII-XIX yüzilliklərin təsviri sənətinin ümumi üslubu üçün xarakterikdir.

Bu rəsmləri işləyən xalq ustalarının əsərlərində Azərbaycanın zəngin orta əsr miniatür və xalq incəsənəti ənənələri özünü göstərir. Gözəl naxışların dekorativ üslublarına, zənginliyinə və rəngarəngliyinə, bitki motivlərinin həyatiliyinə və təravətinə görə divar rəsmləri xalq yaradıcılığının tikmə, basma, naxış, xalçaçılıq və digər növləri ilə bilavasitə bağlıdır.

Azərbaycanın tətbiqi sənətində realizm elementləri də inkişaf edirdi. Bu, xalça rəsmlərində və s. öz əksini tapırdı. Bunula belə Şimali Azərbaycanın tətbiqi incəsənəti – xalçalar, tikmələr, basmaların rəngarəngliyinə və parlaq rənglərin ahəngdarlığına görə fərqlənsələr də, əsasən ornament xarakteri daşıyırdı.

Tətbiqi sənətin daha inkişaf etmiş növü xalçaçılıq idi. Həmin dövrdə onun əsas mərkəzləri Quba, Şamaxı, Bakı, Gəncə, Qarabağ və Qazax idi. Hazırlanma

texnikasına görə, rəngarəng olan və xalq məişətində geniş istifadə edilən bədii tikmə də geniş yayılmışdı. Geyimin, binanın içəri hissəsinin və xırda avadanlıqlarının müxtəlif əşyaları əsasən güləbətinli, muncuqlu tikmələrdən, parıltılı lövhələrdən və s. tərtib edilirdi.

Şimali Azərbaycanın bədii sənətkarlığında basma üsulu ilə hazırlanan güllü ipək qadın baş örtükləri – kəlağayı və pambıq parçalar – qələmkar mühüm yer tuturdu. Metaldan olan bədii məhsullar – mis qablar, müxtəlif naxışlarla bəzədilmiş silahlar, dəmirçilik məmulatı geniş yayılmışdı. Qızıldan və gümüşdən hazırlanmış, rəngli daşlarla və emalla naxışlanmış boyunbağılar, kəmərlər, üzüklər, qolbaqlar və kişi geyim əşyaları orijinal olub, Rusiyanın və Qərbi Avropanın bazarlarında maraq doğururdu. Ağac üzərində oyma da geniş yayılmışdı.

XIX yüzilliyin birinci yarısında  Şimali Azərbaycanın monumental memarlığında tənəzzül meyli özünü aydın göstərirdi. Digər tərəfdən isə xalq memarlığında kifayət qədər intensiv inkişaf müşahidə olunurdu.

Bu dövr ilk növbədə onunla əlamətdardır ki, Şimali Azərbaycanda rus şəhərsalma mədəniyyətinin təcrübəsi yayılırdı. Ən iri şəhərlər olan Bakının, Şamaxının, Naxçıvanın, Gəncənin rus hərbi mühəndisləri tərəfindən tərtib edilmiş planları bu şəhərlərin gələcəkdə hazırlanacaq baş planlarının başlanğıcı oldu.

İlkin baş plana əsaslanaraq həyata keçirilən daha erkən şəhərsalma tədbirləri əvvəlcə Xəzər vilayətinin mərkəzi, sonra isə quberniya mərkəzi kimi abadlaşdırılmağa başlayan *Şamaxı şəhəri* ilə bağlıdır.

Bu dövrdə Rusiyada bütün quberniya şəhərlərində tikinti və abadlıq işlərinə nəzarət edən baş memarın olmasını nəzərdə tutan qanun mövcud idi. Baş memarı olan ilk Azərbaycan şəhəri quberniya mərkəzinə çevrildikdən sonra Şamaxı olmuşdur. Şamaxının bizə gəlib çatmış 1839, 1844, 1847-ci illərə aid planlarında şəhərin ilk müntəzəm tikinti rayonu qeydə alınmışdır.

Bu planları diqqətlə nəzərdən kerçirdikdə aydın olur ki, Şamaxının hələ feodalizm dövründə formalaşmış quruluşu şəhərin yeni tikinti-abadlıq işlərinə müəyyən təsir göstərirdi. Şəhərin daha yüksək hissəsində yerləşən və toxunulmaz saxlanan Şamaxı bürcü – Bala Qala şəhərin baş küçəsinin istiqamətində təsir göstərirdi. Belə ki, baş küçə bu bürcün divarlarına paralel gedir, digər küçələr isə bu küçəni düzbucaq altında kəsirdilər.

Şəhərsalma mütəxəssisləri, öz növbəsində, əsas küçələrdən birinin istiqamətinə təsir göstərən Cümə məscidi tikinti kompleksinə də toxunmamışdılar. Göstərilən küçə bu qədim məscidin baş fasadına paralel gedirdi.

Şamaxı şəhərinin o vaxtkı baş memarı Abrocianın müavini Qasım bəy köhnə anbar binasının teatr binasına    çevrilməsini lahiyələşdirmişdi. Parterdən əlavə lojalar da olan bu binada artıq 1857-ci ildə tamaşalar verilirdi.

1810-cu ildə Bakının İçərişəhərində ilk dəfə müntəzəm tikinti rayonu meydana gəldi. İçərişəhərdə iki və bəzi hallarda üçmərtəbəli evlər tikilirdi. Bu evlərin memarlığında Azərbaycanın mənzil tikintisi memarlığının təcrübəsi həm

şəhər mənzil tikintisi memarlığının ənənələri, həm də şəhər mənzil tikintisi memarlığının yenilikləri ilə üzvi şəkildə birləşirdi. Azərbaycanın feodal şəhərlərindəki yaşayış evlərindən fərqli olaraq, bu yeniliyin xarakterik cəhəti əsas fasadın pəncərələrlə birlikdə küçəyə baxmasında idi.

XIX yüzilliyin birinci yarısında Şəki və Şuşa şəhərlərində də xeyli şəhərsalma işləri görülmüşdü. Gəncə isə əsasən özünün keçmiş görkəmini saxlayırdı.

Bu dövrdə onunla əlamətdardır ki, xalq memarlığı ənənələri əsasında yarımşəhər tipli yaşayış evləri meydana gəlir və yüzilliyin ikinci yarısında onlar Azərbaycanın qəza və quberniya şəhərlərində aparıcı yer tuturdular.

Bu hadisənin mahiyyəti ondan ibarətdir ki, öndə "eyvan" yerləşməklə bir sırada düzülən yaşayış otaqları ilə xarakterizə olunan Şimali Azərbaycanın ənənəvi yaşayış evlərindən fərqli olaraq, otaqları iki sırada düzülmüş ev tipi formalaşır. Eyvanlar həyət tərəfdən şüşəli qalereyalara çevrilir, küçə tərəfdən isə küçə eyvanları meydana gəlirdi.

Tikinti texnikasının özündə də ciddi dəyişiklik baş verir. Yaşayış evlərinin tikintisində ağırçəkili günbəz və qülləşəkilli konstruksiyalar yastı damlarla əvəz olunur ki, bu da Rusiyadan gətirilən ağac material gətirilməsi hesabına mümkün olurdu.

Memarlığın inkişafında həmin dövrdə tikinti işlərində adi şeyə çevrilən və həmçinin Rusiyadan gətirilən şüşə də az rol oynamırdı.

Yaşayış evlərinin istilik sisteminin təşkilini də mütərəqqi hadisə hesab etmək lazımdır. Məlum olduğu kimi, əvvəllər Şimali Azərbaycanda yaşayış evlərinin qızdırılması kürsü və buxarı kimi qurğular vasitəsilə həyata keçirilirdi. Kürsünün mahiyyəti ondan ibarət idi ki, otağın ortasında qazılmış çuxura içərisində közərdilmiş kömür dolduran manqal qoyulur, onun üstünə isə kiçik masanı xatırladan qurğu bərkidilir və bu masa yorğanla örtülürdü. Bu masanın ətrafında oturarkən və yaxud gecələr onun ətrafına salınmış yorğan-döşəkdə yatarkən kifayət qədər isti olurdu.

Divar içində olan buxarı isə tüstü dövriyyəsi olmadığından lazımi səmərə vermirdi, istiliyin çox az hissəsi otağın qızdırılmasına gedir, əsas kütləsi isə boru vasitəsilə bayıra çıxırdı. Tüstüçəkəni olan divar sobalarının meydana gəlməsi, şübhəsiz ki, həmin dövrdə Azərbaycanda mənzil mədəniyyətinin yüksəlməsində müəyyən rol oynadı.

Bu dövrdə Şimali Azərbaycanda xeyli mahir memar, həkkak yaşayıb-yaradırdı ki, bunlar arasında da Rəcəbəli, Tağı, Mehdi, Xalıq, Zeynal, Rəcəb və b. ustalar seçilirdilər. Bu ustalar tərəfindən Ağsu və Şamaxıda sərdabələr tikilmiş, Abşeronda daş üzərində bir sıra yazılar həkk edilmiş, bir neçə məscid, ovdan və s. inşa olunmuşdu. Lakin bu dövr tikililərinin əksəriyyəti bir çox cəhətdən Azərbaycanın m emarlıq incilərindən geriyə qalırdı.

Digər tikinti işlərindən Bakının qala divarlarının və Azərbaycanın digər qalalarının bərpasını göstərmək olar.

Lakin Azərbaycan memarlığının bir çox qiymətli orta əsr abidələri ( XII yüzillik Naxçıvan məqbərələri, Bakıda Şirvanşahlar sarayı və s.) uçulub dağılır, anbar binaları kimi istifadə olunurdu. Azərbaycan şəhərlərində yeni binalar sanitar-gigiyenik və mühəndis-texniki tələblər nəzərə alınmaqla tikilirdi ki, bu da həmin dövrdə digər Şərq ölkələrində gedən şəhərsala ilə müqayisədə mütərəqqi hadisə idi. Bakının qala divarlarından kənarda aparılan tikinti işlərini nizama salmaq cəhdləri də bu dövrdə aiddir.

Şimali Azərbaycanın kənd yerlərində yaşayış binalarının tikintisində də müəyyən dəyişiklik baş verirdi.

*IV FƏSİL*

# KAPİTALİST MÜNASİBƏTLƏRİNİN MEYDANA ÇIXMASI. AQRAR, İNZİBATİ-MƏHKƏMƏ VƏ ŞƏHƏR İSLAHATLARI

## § 1. KAPİTALİST MÜNASİBƏTLƏRİNİN ƏMƏLƏ GƏLMƏSİ

**Sənaye.** Yüzilliyin ikinci yarısında Rusiya getdikcə daha geniş şəkildə kapitalist inkişaf yoluna çıxırdı. Bu öz ifadəsini ölkə miqyasında ictimai əmək bölgüsünün getdikcə daha çox genişlənməsi və dərinləşməsinə, Ümumrusiya kapitalist bazarının yaranmasında tapırdı. Azərbaycan imperiyasının bir hissəsi olduğundan o da tədricən ümumrusiya ictimai əmək bölgüsünə cəlb olunur və ümumrusiya bazarına qoşulurdu. Mərkəzi Rusiya ilə onun ucqarları arasında yaranan iqtisadi birlik ikili xarakter daşıyırdı: bir tərəfdən, rus kapitalizmi "öz fabrikləri üçün bazar yaradırdı", digər tərəfdən isə o elə həmin fabriklərin –ölkə xammalına olan ehtiyaclarını ödəmək üçün ucqarlarda ticarət əkinçiliyinin, balıq, dağ-mədən, neft və s. sənaye sahələrinin meydana çıxması və inkişafını hər vasitə ilə stimullaşdırırdı. Bu da labüd olaraq rus kapitalının fəal iştirakı ilə ölkədə müstəmləkə iqtisadiyyatının, qismən də hasilat və emal sənayesinin, ticarət xarakterli kənd təsərrüfatı sahələrinin əmələ gəlməsi və inkişafına gətirib çıxarmalı idi və həqiqətən də gətirib çıxardı. Artıq yüzilliyin 60-cı illərində Azərbaycanda kapitalist istehsal münasibətlərinin meydana çıxması prosesi dəqiq müəyyənləşdi.

Yüzilliyin 60-cı illərinin ortalarında Azərbaycan neft təsərrüfatında dönüş baş verdi. Bu təsərrüfat əvvəlki illərə nisbətən sürətlə inkişaf etməyə başladı. Neft hasilatında artım xüsusən də 1862-ci ildən nəzərə çarpır. Əgər 1860-cı ildə Bakıda 247814 pud neft çıxarılmışdısa, 1862-ci ildə bu göstərici 334926 puda çatmış, sonrakı illərdə fasiləsiz surətdə artmışdı. 1870-ci ildə burada artıq 1482100 pud neft çıxarılırdı [1]. Neft hasilatı artımının səbəblərindən biri Balaxanı kəndlilərinin məcburi və bu səbəbdən də az məhsuldar əməyinin 1864-cü ildə ləğv edilməsi idi. Neft mədənlərində muzdlu fəhlələr işləməyə başladı. Bu, neft sənayesinin kapitalistcəsinə yeniləşməsinin daha da dərinləşməsi əlaməti idi.

Neft hasilatının artması neft quyuları sayının artması ilə müşayiət olunurdu. Belə ki, 60-cı illərdə Bakı rayonunun 232 neft quyusu var idi. Onlar neftverən rayonlar arasında aşağıdakı şəkildə bölünürdü: Balaxanıda 125, Suraxanıda 21, Binəqədidə 61, Bibiheybətdə isə 25 quyu var idi [2]. Halbuki 40-cı illərdə cəmisi 133 neft quyusu mövcud idi.

Neft hasilatının belə artımının əsas səbəbi Rusiyanın daxili quberniyalarında ağ neftə tələbatın genişlənməsi idi. Ağ neftdən artıq təkcə çıraq yanacağı kimi deyil, əsasən Rusiyanın inkişaf etməkdə olan sənayesi üçün yanacaq

kimi istifadə olunurdu. Lakin Rusiyanın daxili quberniyaları ilə geniş nəqliyyət yollarının olmaması Bakıda istehsal olunan neftin hamısını oraya aparmağa və Rusiya sənayesi tələbatının bir hissəsini ödəməyə imkan vermirdi. Ona görə də Rusiya sənayeçiləri özlərinin yanacağa olan ehtiyaclarını əsasən Amerikadan gətirilən neftin hesabına ödəməyə məcbur olurdular. Bu vəziyyət neft sənayesinin sürətlə inkişafına mane olurdu. Lakin başlıca səbəb neft sənayesində iltizam sisteminin mövcud olması idi. Bu sistem iltizamçılara yeni neft quyuları qazmaq, neft çıxarmaq və satmaq sahəsində inhisarçı hüququ verirdi. Müəyyən məbləğ müqabilində neft quyularını uzun müddətə iltizama götürənin iltizamçılarına növbəti müzayiqələrdə ( torqda) onları itirmək təhlükəsindən sığortalanmamış istehsala texniki yeniliklərin tətbiqi üçün zəruri olan iri kapital qoymağa maraqlı deyildilər və neft quyuları qazılmasında yeni texnika və təcrübəni tətbiq etmək üçün göstərilən bütün cəhdlərə mane olurdular.

Pirallahı adasında buruq qazmaq üçün ilk uğursuz cəhdi tiflisli əczaçı Vitte göstərirdi. 1866-cı ildə "Zaqafqaziya Ticarət Cəmiyyəti" (sonralar bu cəmiyyət "Bakı Neft Cəmiyyəti"nə çevrildi) qazma işlərinə başlamağa icazə verilməsi barədə hökumət qarşısında məsələ qaldırdı. Lakin iltizamçı özünün inhisar hüququndan istifadə edərək buna mane oldu və hökumət cəmiyyətə rədd cavabı verdi. Üç ildən sonra,1869-cu ildə iltizamçı Mirzəyev bu adada yeni buruğun əsasını qoydu. Lakin yoxlama qazıması zamanı qazma ustası teraltı uğultudan qorxaraq quyunu daş və qumla doldurmağı əmr etdi. Bir ildən sonra Balaxanıda yeni buruq qazıldı və o, 20 sajen dərinlikdən gündə 700 pud neft verməyə başladı [3]. Bu uğurlu təcrübədən sonra qazıma işi sürətli inkişaf yoluna keçdi.

Məlum olduğu kimi, çıxarılan neft emal olunmuş halda ixrac olunurdu. Ona görə də neft hasilatının artımı neftayırma sənayesinin meydana çıxmasını şərtləndirirdi.1859-cu ildə rus kapitalistləri Kokorev və Quboninin "Zakaspi Ticarət Cəmiyyəti" Suraxanıda neftayırma zavodu tikdi. Zavod sahibləri yanacaq kimi təbii qazdan istifadə edirdilər. İltizamçı tərəfindən neftə qoyulmuş qiymətin bahalığı üzündən bağlanmaq həddində olan zavodun fəaliyyəti 1863-cü ildə Bakıya dəvət olunmuş böyük rus alimi D.İ.Mendeleyevin köməyi və bilavasitə iştirakı ilə qaydaya salındı. 1861-ci ildə tiflisli əczaçı Vitte Pirallahı adasında parafin zavodu, 1863-cü ildə Məlikov Bakının özündə ağ neft zavodu tikdirdilər. Onların ardınca iltizamçı Mirzəyev, Tarayev və b. zavodlar tikdirdilər.

1867-ci ildə bakı rayonunda ancaq ikisi, az-çox iri olan 15 neftayırma zavodu fəaliyyət göstərirdi. Onlarda cəmi 200-ə yaxın fəhlə işləyir və bu zavodların bütün məhsulu Rusiyaya daşınırdı [4]. 1869-cu ildə zavodların sayı 24-ə [5], 1872-ci ildə isə 47-yə çatdı. Bu zavodlarda 497.941 pud neft istehsal edilmişdi [6].

Kokorevin zavodu və Mirzəyevin üç zavodu istisna edilərsə, qalanları içərisindən ancaq Kələntərov və Ter-Akopovun hərəsində dörd qazanı olan

zavodlarını və bir də Cavad Məlikovla Tarayevin hər birində üç qazanı olan zavodlarını fərqləndirmək olar. Bütün qalan zavodlar isə daha kiçik müəssisələr idi.

Neft hasilatı və neftayırmanın müəyyən artımına baxmayaraq, 60-cı illərdə aydın oludu ki, neft mənbələri istismarının iltizam sistemi keçmişin yararsız qalığıdır və bu sənaye sahəsinin inkişafı üçün neft işinin başqa cür qurulması lazımdır. "Neft istehsalı və fotogen istehsalından aksiz haqqında qaydalar" çar tərəfindən 1872-ci ildə fevralın 1-də, "Qafqaz və Cənubi Qafqazın iltizamda olan xəzinə neft mənbələrinin müzayiqə yolu ilə xüsusi şəxslərə verilməsi haqqında qaydalar" isə 1872-ci il fevralın 17-də təsdiq olundu. Bu qaydalara görə, xəzinənin iltizamda olan neft mənbələri müzayiqələr (torq) yolu ilə xüsusi şəxslərə verilirdi. Bu neftli sahələr üzərində verilirdi. Bu neftli sahələr üzərində tikililər və daşınar əmlakla birlikdə hər biri 10 des.-dən böyük olmayan ayrı-ayrı qruplara bölündü. Ümumi sahəsi təxminən 460 des. olan neftverən sahələrə 522221 manat qiymət qoyuldu. Deməli, hər desyatin torpağın qiyməti orta hesabla 1200 manata bərabər idi. Lakin müzayiqələrin gedişində rəqabət aparan iddiaçılar tərəfindən qiymətlər xeyli qaldırıldı və xəzinə 2980307 man. əldə etdi; başqa sözlə deyilsə, o, torpağın hər desyatinindən 7200 man. götürdü. Sonralar keçirilmiş müzayiqələrlə müqayisədə bu qiymət çox cüzi idi.

Neftli sahələr başlıca olaraq 1323578 manatlıq neftverən torpaqlar almış Quboninin və Kokorevin, habelə qiyməti 1222 min manat olan neftverən torpaqlar keçmiş iltizamçı Mirzəyevin əlində cəmləndi. Bu torpaqlar bütün əsas neftverən sahələrin 86 faizinə bərabər idi. Azərbaycan kapitalı nümayəndəsi H.Z.Tağıyevin (şərikləri ilə birlikdə) Bibiheybətdəki neftli sahəsinin qiyməti cəmi 9005 man. idi.

İltizam sisteminin ləğvi bütün nüft hasilatında qəti dönüş yaratdı, neft sənayesi kapitalist istehsalı sahəsinə çevrildi.

Bakıdakı neft və digər sahələrlə yanaşı, qəzalarda da sənaye inkişaf edirdi. Azərbaycanın üzvi tərkib hissəsi kimi, Bakının sosial-iqtisadi həyatında baş verən dəyişikliklər, şübhəsiz ki, bütün Azərbaycanda məhsuldar qüvvələrin inkişafına təsir göstərirdi.

60-70-ci illrədə misəritmə istehsalı mühüm sənaye sahəisnə çevrildi. Yelizavetpol qəzasının Gədəbəy kəndi yaxınlığındamis filizinin olması hələ yüzilliyin birinci yarısında məlum idi. Ancaq büsbütün əl əməyinə əsaslanan, ildə 14100 manatlıq 1200 pud mis istehsal edən kiçik misəritmə zavodu isə yerli sahibkarlar tərəfindən burada ancaq 1855-ci ildə işə salındı [7]. 1864-cü ildə bu zavod iri sənayeçilərin – Simens familiyalı iki qardaşın əlinə keçdi. Onlardan biri Rusiya, digəri isə Almaniya təbəəsi idi. Elə o dövrdə onlar Gədəbəydə yeni zavod tikmək barəsində xəzinə ilə müqavilə bağladılar. "Simens qardaşları və K$^{o}$" şirkəti Gədəbəy rayonunun mis sərvətlərini layiqincə qiymətləndirərək, bu işin onlara necə böyük qazanclar gətirəcəyini başa düşərək, 1865-ci il avqustun 25-də iri misəritmə zavodunun tikintisini başa çatdırdılar. Simens qardaşları zavodun

tikintisinə 1,5 mln manatdan çox pul xərclədilər. Zavod müasir texnika ilə təchiz olunmuşdu. Bu zavodda misəritmə üçün 9 şaxta sobası, 6 bişirmə sobası, 9 digər soba, 7 dəmirçi körüyü, bir çuqunəritmə sobası, kərpicbişirmə sobası var idi [8].

Bunlardan başqa, zavodda əridilən filizlərdən mis kuporosunun təmizlənib ayrılması üçün hovuzlar sistemi qurulmuş və iki lokomotivi olan 6 verstlik dəmiryolu çəkilmişdi. Zavod həmçinin ventilyasiya sisteminə malik idi, burada dülgər və çilingər sexləri yaradılmışdı [9].

Gədəbəy zavodu onun üç verstliyində yerləşən mədəndə çıxarılan mis külçəsi ilə təchiz olunurdu. Külçə hasilatı ilbəil artırdı. Əgər 1865-1866-cı illərdə 60000 pud külçə çıxarılmışdısa, 1871-ci ildə isə artıq 1 mln. puddan çox külçə əldə olunmuş, 1877-ci ildə isə bu rəqə iki dəfədən çox artmışdı [10].

Bu iri kapitalist müəssisəsinin zəif yeri onun yanacaq bazası idi. Cənubi Qafqaz dəmiryolunun Bakı sahəsinin tikilməsinədək zavod müstəsna surətdə ağac kömürü hesabına işləməli olmuşdu. Möhtəşəm meşə zolaqlarının sahibləri olan Simenslər onları amansızcasına qırıb məhv edirdilər.

Gədəbəy zavodu 1865-1866-cı illərdə müvafiq olaraq 4025 və 8416 pud mis vermişdi. Onun məhsuldarlığı ilbəil artaraq, 1871-ci ildə 24059, 1877-ci ildə isə 53 min puda çatmışdı. Bu da bütün Rusiya imperiyası misəritmə sənayesi məhsulunun dörddə birini təşkil edirdi. Misin bir hissəsi Rusiya quberniyalarına göndərilir,bir hissəsi isə sakinləri mis qab-qacaq istehsalı ilə məşğul olan Lahıcda istifadə edilirdi. Bünövrəsi qoyulduğu ildə zavodda 257, 1867-ci ildə 500, 1868-ci ildə isə artıq 1000 fəhlə işləyirdi [11]. Beləliklə, Gədəbəy misəritmə zavodu, o vaxt bütün Rusiya misəritmə müəssisələri içərisində ən iri zavod idi. Gədəbəyin misəritmə sənaye kapitalist istehsalı məcrasına neft sənayesindən əvvəl cəlb olunmuşdu.

Daşkəsəndə kiçik zavod, dəmir və kobalt mədənləri 1866-cı ildə "Simens qardaşları və K°" şirkətinin əlinə keçdi. 1867-ci ildə zavodda artıq 1305 pud kobalt alınmışdı. Müxtəlif illərdə bu zavodda 20-dən 50-dək fəhlə işləyirdi.

60-cı illərdə Zəylikdə kiçik, kustar zəy müəssisələri fəaliyyət göstərirdi. 1878-ci ildən yeni zəy zavodu fəaliyyətə başladı. 1879-cu ilədək zavodda 5 mindən 8 min pudadək zəy istehsal olunur, burada 40-dan 100-dək və daha çox fəhlə işləyirdi [12].

Lakin sonrakı illərdə zavodun məhsuldarlığı azaldı və 1883-cü ildə o, fəaliyyətini dayandırdı.

Hələ 50-60-cı illərdə kapitalist istehsalı orbitinə cəlb olunmuş sənaye sahələrindən biri ipəksarıma istehsalı idi. 50-ci illərdə Xanabad ipəksarıma fabrikinin texniki təminatında tərəqqinin davam etdirilməsi müşahidə olunur. 1854-cü ildə fabrikdə dəzgahların sayı 42-yə çatdı, buxar mühərriki tətbiq olundu və dəzgahlar qismən mexaniki avadanlığı işləməyə keçirildi. 1860-cı illərdə isə bu fabrikin avadanlığı daha da təkmilləşdirilmişdi.

İpəksarıma istehsalının verə biləcəyi gəlir Moskva sənayeçiləri Alekseyev və Voronin qardaşlarının diqqətini cəlb etdi. Onlar şirkət təşkil etdilər və 1860-cı ildə iri fabrikin tikintisinə başladılar. Fabrikin 432 dəzgahı, 64 hazırlayıcı hovuzu və buxar mühərriki var idi. 1863-1865-ci illərdə fabrikdə buxarla işləyən dəzgahlarda 192 usta və 64 şagird, ayaq dəzgahlarında 30 usta işləyir və nəhayət, baramanın növlərə ayrılmasında 200 nəfərdən 250 nəfərədək qadın çalışırdı. Bu fabrikdə bir çox kapitalist müəssisələri üçün çox səciyyəvi olan, aşağı haqq verilən, kapitalistlər üçün xeyirli olan qadın və uşaq əməyi tətbiq edilirdi. Fabrikdə ildə 100-1200 pud ipək istehsal edilməsi nəzərdə tutulurdu [13].

Göstərilən iki fabrikdən əlavə bu illərdə daha bir iri ipəksarıma fabriki fəaliyyət göstərirdi. Bu fabrikdə 55 dəzgah işləyirdi. 1864-cü ildə onun fəhlələrinin sayı 70-ə çatmışdı [14]. Qalan ipəksarıma fabrikləri xırda müəssisələr idi.

Lakin elə bu dövrdə, ipəkçiliyin çiçəklənməsinin ən yüksək mərhələsində, yəni 60-cı illərin birinci yarısında iqtisadiyyatın bu sahəsinə bəla üz verdi. Bir tərəfdə, xarici şirkətlərin ipəkqurdu toxumu ilə alver edən agentləri Nuxada çox böyük miqdarda ipəkqurdu toxumu alır və onu xaricə aparmaqda davam edirdilər, digər tərəfdən isə onlar 1864-cü ildə azərbaycana ipəkqurdu xəstəliyini gətirdilər. Bütün bunlar ipəkçiliyin xeyli tənəzzül etməsinə gətirib çıxardı. Buna görə də xammalın çatışmazlığı ilə əlaqədar Aleksevey və Voronin qardaşlarının müəssisəsi 1866-cı ildə öz istehsal gücünü yarıbayarı azaltmış, 1867-1870-ci illərdə isə fəaliyyətini tamamilə dayandırmışdı. Nuxanın digər ipəksarıma müəssisələri də bağlanmışdı. əgər Nuxa şəhərində 1861-ci ildə 50, 1862-ci ildə 56 ipəksarıma müəssisəsi fəaliyyət göstərirdisə, sonrakı illərdə burada cəmi 1-3 müəssisə mövcud idi.

Həm sənətkar sexlərinin, həm də fabrik tipli ipəksarıma müəssisələrinin olduğu Nuxa qəzasında fərqli olaraq, Şuşa şəhərində və Şuşa qəzasında bu sonuncu tip müəssisələr paralel surətdə mövcud deyildilər. 60-cı illərdə Şuşa qəzasında əvvəlcə onlarla, sonra isə yüzlərlə kustartipli ipəksarıma müəssisəsi mövcud idi. Elə müəssisələr də var idi ki, onları fabrik kateqoriyasına aid etmək olar. Şuşa şəhərində 350 fəhləsi olan 7 ipəksarıma müəssisəsi fəaliyyət göstərirdi [15].

İpəkqurdu xəstəliyi Ordubad və Naxçıvan şəhərləri rayonunu əhatə etməmişdi. Bu vəziyyət həmin rayonda ipəksarıma istehsalının təşəkkülünə və inkişafına müsbət təsir göstərirdi. Ordubadda ilk ipəksarıma fabrikləri meydana çıxmağa başlamışdı. 60-cı illərin əvvəllərində fabriklərdən biri Aşağı Əylisli kəndində, ikincisi isə Ordubadda yaradılmışdı, Birinci fabrikin 1861-ci ildə 70 fəhləsi və 50 dəzgahı, 1866-cı ildə isə artıq 80 dəzgahı var idi. Fabrikdə buxar qazanları işləyirdi. 60-cı illərin sonlarında Cənubi Qafqazda ilk dəfə olaraq burada 10 mexaniki ipəkburma dəzgahı tətbiq olundu.

1875-ci ildə Ordubadın özündə iki ipəksarıma fabriki meydana çıxdı. Bu fabriklərdə də buxar mühərrikləri tətbiq olunurdu. Göstərilən fabriklərdən başqa Naxçıvan qəzası və Ordubadda xırda əmtəə istehsalı tipli onlarla ipəksarıma

müəssisəsi fəaliyyət göstərirdi. İpəksarıma müəssisələri Azərbaycanın bəzi digər qəzalarında da var idi, lakin heç yerdə onlar nəinki fabrik-zavod istehsalı, heç manufaktura istehsalı mərhələsinədək də yüksələ bilmədilər.

Balıq vətəgələri Azərbaycanın iqtisadi həyatında görkəmli yer tuturdu. Rusiya şəhərləri kimi daimi satış bazarlarına malik olan sahibkarlar burada öz məhsullarına təminatlı tələbat tapır, bu da istehsalın durmadan genişləndirilməsi üçün böyük maraq yaradırdı. 1881-ci ildən Azərbaycanın balıq sənayesində növbə ilə balıq vətəgələrini 7-8 illiyə iltizama götürən 6 nəfər yerli sahibkar ağalıq edirdi. Göstərilən müddət ərzində onların hər il xəzinəyə ödədikləri məbləğ 170 min manatdan 405 min manatadək tərəddüd edirdi. Bu, zəngin balıq vətəgələrinin vəhşicəsinə istismarından onların götürdükləri xalis gəlirdən çox-çox az idi.

Vətəgələrin vəhşicəsinə istismarı balıq tutulmasının azalmasına gətirib çıxarırdı. Hər bir iltizamçı dəmir toplar qurmaq yolu ilə bircə iri balığın belə Kürün yuxarılarına keçməsinə yol verməməyə, mümkün qədər çox belə balıq tutmağa çalışırdı. Ona görə də balıq ildən-ilə xırdalaşır, az kürülü olur və deməli, onun ümumi nəsilvermə qabiliyyəti aşağı düşürdü.

Balıq tutulmasının azalmasına göstərmək üçün aşağıdakı məlumatlar sadalamaq kifayətdir: əgər 1847-1855-ci illrədə Kür çayının mənbəsinə 467778 ədəd balıq tutulmuşdusa, 1871-1877-ci illərdə bu rəqəm 323553-ə enmişdi [16]. Eyni şeyin kürü alınması barəsində də demək olar.

Balıq vətəgələrində minlərlə həm yerli, həm də gəlmə muzdlu fəhlənin əməyi tətbiq olunurdu. Deməli, iltizam sisteminin mövcudluğuna baxmayaraq balıq sənayesi kapitalist az rol oynamırdı. Bakı quberniyasının Şamaxı və Göyçay, Yelizavetpol quberniyasının Şuşa və qəzaları əsas şərabçılıq rayonları idi. 60-cı illərdə hər il Bakı quberniyasında 100 min vedrəyə yaxın, Yelizavetpol quberniyasında isə 250-275 min vedrə şərab istehsal olunurdu [17].

Şərab istehsalında Yelenendorf (indiki Xanlar) kəndinin alman kolonistləri görkəmli yer tuturdular. Onlardan biri – Xristofer Forer 1870-ci ildə şərab ticarəti ilə məşğul olan "Xristofer Forer oğulları ilə birlikdə" adlı firmanın əsasını qoydu. Müxtəlif vaxtlarda Gəncə, Bakı, Tiflis və Batumda firmanın filialları açıldı. Zavod tipli bir neçə şərabçılıq müəssisəsi nəzərə alınmazsa, bütün qalanları xırda müəssisələr idi.

Azərbaycanda şərabçılıqla yanaşı, araqçəkmə ilə də məşğul olurdular. Yelizavetpol quberniyasında müxtəlif meyvələrdən ildə 7500 vedrə araq istehsal etmək gücünə malik olan üç mindən artıq müəssisə var idi. Bütün bu müəssisələrdə cəmi 7023 nəfər işləyirdi [18].

1873-cü il iyulun 1-dən etibarən araqçəkmə istehsalı üzərinə aksiz vergisinin qoyulması adları çəkilmiş araqçəkmə müəssisələrinin vəziyyətinə ağır təsir göstərirdi. 1873-cü ildə bu "Əsasnamə"yə edilmiş dəyişikliklərə əsasən aksiz vergisinin məbləği araq çəkilən qazanın tutumu (bu tutum 20 vedrədən az olmamalı idi) və zavodun fəaliyyət göstərmə müddətindən asılı idi; özü də istehsal

prosesinin başlanma və qurtarma vaxtı əvvəlcədən müəyyənləşdirilməli idi. 1884-cü il sentyabrın 1-dək mövcud olmuş bu sistem kustar və bağ sahibləri tərəfindən araqçəkmə işinin zərərinə olaraq iri araqçəkmə sənayesinini inkişafına şərait yaradırdı.

Azərbaycanda göl duzu və daş duz çıxarılırdı. Göl duzu, əsasən, 27 gölün yerləşdiyi Abşeron yarımadasında əldə olunurdu. Bu göllərdən Masazır, Balaxanı, Zığ, Kürdəxanı gölləri xüsusilə fərqlənirdi. Uzun müddət Abşeronun duz mədənləri neft mədənləri ilə birlikdə iltizama verilirdi.

İltizam sisteminin ləğvindən sonra, 70-ci illərdə duz gölləri ayrı-ayrı sahələrə bölünür və icarəyə verilirdi. 1879-cu ildə Zığ gölündən 67840 pud, Masazır gölündən 204000 pud, Kürdəxanı gölündən 105710 pud, cəmisi isə 618371 pud duz çıxarılmışdı [19].

Göl duzu Abşeron göllərindən başqa Cavad qəzasında yerləşən göllərdə də var idi. Lakin həmin göllərin məhsuldarlığı aşağı idi.

Naxçıvan şəhərindən 10 verst məsafədə zəngin daş duz yataqları yerləşirdi. Naxçıvan duz mədənləri iltizama verilirdi və bu mədənlərdə Şıxmahmud kəndinin feodal-asılı kəndlilərinin məcburi əməyi tətbiq olunurdu.

50-ci illərin sonu -60-cı illərin əvvəllərində duz çıxarılması ilbəil artırdı. əgər yüzilliyin 40-cı illərində illik duz çıxarılması 113,8 min bərabər idisə, 50-ci illərin sonu – 60-cı illərin əvvəllərində bu göstərici 208,7 min puda çatmışdı. 1852-ci ildə nəşr olunmuş “Bütün Cənubi Qafqaz və Qara dəniz limanları üzrə xarici quz gətirilməsinin qadağan edilməsi haqqında əsasnamə” də buna əlverişli şərait yaradırdı.

1868-ci ildə kəndlilərin məcburi əməyinin ləğv edilməsindən sonra isə duz mədənlərində muzdlu əmək tətbiq olunurdu. Bu da həmin istehsal sahəsində kapitalistcəsinə təkamülün mühüm göstəricisi idi.

Bu mühüm amillə yanaşı, duz istehsalı sahəsinin kapitalistcəsinə inkişafı üçün 1868-ci ildən sonra duz mədənlərinin açıq müzaidə vasitəsilə satışının tətbiq edilməsi mühüm əhəmiyyət kəsb etdi. 60-cı illərin ikinci yarısında Naxçıvan duz mədənlərində hər il 250 min puddan 300 min pudadək duz çıxarılırdı [20]. Ancaq sonrakı illərdə duz çıxarılması azaldı. Bunun səbəbi aksiz sisteminin tətbiq edilməsi idi. Əsasnaməyə görə, xüsusi şəxslər tərəfindən xəzinə və xüsusi müəssisələrdən əldə olunan xörək duzunun bütün növləri özərinə aksiz vergisi qoyulurdu. Duzun hər pudundan 30 qəpiklik aksiz vergisinin məbləği çox böyük oldu və bunun nəticəsində duz çıxarılması xeyli azaldı. Naxçıvan duzu Azərbaycanın özündə, qonşu Gürcüstan və Ermənistanda satılır, Rusiya, İran və Türkiyəyə aparılırdı.

Göstərilən sənaye sahələrindən əlavə, Azərbaycanda tütün məmulatları tikinti materialları və s. istehsal edən müəssisələr fəaliyyət göstərirdi. Lakin 30-60-cı illərdə bütün bu istehsal sahələri hələ kustar, xırda əmtəə xarakteri daşıyırdı.

Beləliklə, XIX yüzilliyin 50-60-cı illərində Azərbaycanda sənətkarlıq və xırda və xırda əmtəə istehsalı xarakterli müəssisələrlə yanaşı, neftçıxarma və neftayırma, misəritmə kimi sənaye sahələri əsas etibarilə artıq inkişafının fabrik-zavod (maşın) mərhələsində idi. Şərabçılıq, araqçəkmə, ipəkçilik və balıqçılıq kimi istehsal sahələri isə qarışıq xarakter daşıyırdı.

**Kənd təsərrüfatı.** *Dənli bitkilərin* yetişdirilməsi yüzilliyin 50-60-cı illərində də Azərbaycan kənd təsərrüfatının ən başlıca sahəsi olaraq qalmaqalda idi. Bütün nəzərdən keçirilən dövr ərzində Azərbaycanın hər yerində dənli bitkilər səpilən sahələrin xeyli genişlənməsi müşahidə olunur. Həmin dövrdə kənd təsərrüfatı texnikasının geridə qalmasına və primitiv olmasına, ehtiyacın texnikasının geridə qalmasına və primitiv olmasına, ehtiyacın və torpaq sahibləri olan bəylərlə xəzinə tərəfindən amansız istismarının əzdiyi Azərbaycan kəndlisinin təbii fəlakətlərə qarşı mübarizədə çox zəifliyinə, kənd təsərrüfatı bitkilərinin ümumi məhsulunun müxtəlif təbiət hadisələrindən xeyli asılı olmasına baxmayaraq, ümumiyyətlə, yığılan taxılın ümumi həcmində aydın nəzərə çarpan artım meyli təzahür edirdi. İnzibati cəhətdən Azərbaycanın Bakı quberniyasından, İrəvan quberniyasının tərkibinə daxil olan Naxçıvan və Ordubad qəzalarından, Tiflis quberniyasının Yelizavetpol qəzasından və Zaqatala qəzasından ibarət olduğu 1861-1867-ci illərdə təkcə Bakı quberniyasında ildə 25-29 mln. pud taxıl yetişdirilirdi. Həmin quberniyalarda təkcə 1868-ci ildə isə 40 mln. pud taxıl yetişdirilmişdi.

Azərbaycanda yetişdirilən taxıl bitkiləri içərisində aparıcı yeri buğda tuturdu. Bəzi illərdə bütün taxıl məhsulunun $^{3}/_{5}$ hissəsi bu bitkinin payına düşürdü. Sonrakı yerləri arpa və çəltik, sonuncu yeri isə çox yayılmamış darı tuturdu.

Yüzilliyin 60-cı illərində taxılçılıq təsərrüfatında əmtəə istehsalı geniş inkişaf etmişdi. Azərbaycan nəinki özü-özünü taxılla təmin edir, hətta, onu Gürcüstana və İrana, Lənkəran qəzasından isə düyünü Rusiyaya göndərirdi. Azərbaycanın özündə qalan taxıla gəldikdə isə o, əsasən, əmtəə xarakteri daşıyırdı. Taxılçılar öz artıq məhsullarını maldarlara, yüksək dağlıq rayonların təbii coğrafi şərait üzündən taxıl yetişdirmək imkanından məhrum olan sakinlərinə, şəhər əhalisinə, Bakı rayonundan kənardakı fəhlə əhalisinə, yəni balıqçılara, dağ-mədən, ipəkçilik və s. sənaye sahələrinin fəhlələrinə, habelə hərbi hissələrə satırdılar.

Əkinçilikdən sonra Azərbaycan kənd təsərrüfatının ikinci mühüm sahəsi *maldarlıq* idi. 1860-1867-ci illərdə Bakı quberniyasında mal-qaranın sayı 1873 min başdan 2203 min başa çatmış, yəni 330 min baş artmışdı. Maldarlıq təsərrüfatında aparıcı yeri qoyunçuluq tuturdu. Göstərilən dövrdə bütün mal-qaranın 1,2-1,4 mln. başını qoyunlar təşkil edirdi. Sonrakı yerdə sayı 488-662 min başa bərabər olan iribuynuzlu mal-qara dururdu. Atların sayı isə 134-156 min başa çatırdı. 1868-1869-cu illərdə mal-qaranın sayı daha da artdı. 1869-cu ildə Zaqatala dairəsi və Naxçıvan qəzası da nəzərə alınmaqla Azərbaycanın iki quberniyasında 3,3-3,5 mln. baş mal-qara var idi [21].

Lakin yüzilliyin 50-60-cı illərində Azərbaycanda böyük miqdarda mal-qaranın, xüsusən də qoyunun olmasına baxmayaraq, maldarlığın əmtəəliyi az inkişaf etmişdi. Azərbaycandan Rusiyanın daxili quberniyalarına, İrana, Türkiyəyə başlıca olaraq aşılanmış dəri, yun ixrac olunurdu. Bu ixracın həcmi cüzi idi. Mal-qaranın və maldarlıq məhsulunun ixracına gəldikdə isə bu, müstəsna sutərdə həmsərhəd ölkələrə, yəni İrana, Türkiyəyə yönəlmişdi, onun həcmi isə kiçik idi. 1865-1870-ci illərdə göstərilən ölkələr mal-qara və maldarlıq məhsulları ixracının ümumi həcmi 600-800 min manat arasında tərəddüd edirdi. Yun isə Qərbi Avropa ölkələrinə, qismən Marsel şəhərinə də ixrac olunurdu. Yelizavetpol quberniyası Qərbi Avropaya yun ixracında müstəsna yer tuturdu, çünki burada yunu daha qiymətli ixrac materialı olan merinos qoyunları da bəsləyirdilər. 70-ci illərin əvvəllərində yun ixracı daha da artmışdı. Məsələn, 1871-ci ildə 979 min manatlıq, 1872-ci ildə isə 807 min manatlıq yun ixrac olunmuşdu [22].

50-ci illər və 60-cı illərin əvvəllərində Azərbaycanda yetişdirilən texniki bitkilərin içərisində aparıcı yeri qızılboya (marena) tuturdu. Onun becərildiyi əsas rayon Quba qəzası idi. 60-cı illərdə qızılboya istehsalının sürətli inkişafı müşahidə olunurdu. Bu da dünya bazarlarının tələbatı ilə əlaqədar idi. 1860-cı ildə 58 min pud, 1866-cı ildə isə 230 min pud qızılboya əldə olunmuş, yəni onun yığımı 4 dəfə artmışdı [23]. Qızılboya cüzi miqdarda Lənkəran və Göyçay qəzalarında da becərilirdi.Azərbaycan qızılboyası dünya şöhrəti qazanmışdı. 1862-ci ildə Londonda keçirilən Ümumdünya sərgisində üç azərbaycanlı qızılboyaçısı – özü də hamısı Quba qəzasından – fəxri rəylərə layiq görülmüş, Hacı cənnət bəy Əlibəy oğlu isə sərgidə nümayiş etdirdiyi əla keyfiyyətli qızılboyaya görə medal almışdı.

Qızılboya ixracı ilbəildən artırdı. Qızılboya Dərbənddən, habelə Bakı və Niyazabaddan aparılırdı. 1861-ci ildə Dərbənddən 197,430 pud qızılboya yola salınmışdı.

1869-cu ildə süni boya-alizarin ixtira olundu. Cəmi 4-5 il ərzində alizarin qızılboyanı tamamilə sıxışdırıb aradan çıxardı. Artıq 1872-ci ildə Azərbaycanda cəmisi 640 min manatlıq 80 min pud, yəni 1869-cu ilə nisbətən 2,5 – 3 dəfə az qızılboya çıxarılmışdı. 1873-cü ildən etibarən qızılboyaya tələbat tamamilə aradan qalxdı [24].

Azərbaycanda becərilən digər texniki bitki pambıq idi. Lakin yüzilliyin 50-60-cı illərində pambıqçılıq öz miqyasına görə çox cüzi idi. Doğrudur, Avropanın pambıq parça xammalı üzrə əsas təchizatçısı olan ABŞ-dakı vətəndaş müharibəsi (1861-1865) pambıqçılığın inkişafına müvəqqəti təkan verdi. Müharibənin başlanması ilə ABŞ-dan pambıq gətiriləsi, demək olar ki, dayanmışdı. Bu dövrdə o vaxtı İrəvan quberniyasının tərkibinə daxil olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarında pambıqçılıq inkişaf etmişdi. 1863-cü ildə İrəvan quberniyası bazara 600 min pud pambıq çıxarmışdı. Bu pambığın əsas hissəsi Naxçıvan və Şərurda yetişdirilmişdi.

60-cı illərdə bir Moskva kompaniyası pambıq əkmək üçün Kür vadisində torpaq icarəyə götürmüş, oraya suvarma arxları çəkilmişdi. Kompaniya Amerika və Avropadan çiyid gətirərək, 1861-ci ildə ilk səpini keçirdi. 1865-ci ildə kompaniya öz fəaliyyətini Araz sahillərinəvı qismən də Quba qəzasına yaydı. Kompaniya öz plantasiyalarında pambıq əkməklə yanaşı, kəndlilərə də pambıq səpini üçün çiyid paylayırdı.

Rusiyanın iri fabrik sahiblərindən olan Morozovlar da Azərbaycanda pambıq yetişdirmək üçün cəhd göstərirdilər. 1869-cu ildə Bakı quberniyasında onların 40 desyatin pambıq əkini sahəsi vardı [25]. Azərbaycanın digər hissələrində (İrəvan və Naxçıvan bölgələrindən başqa) pambıqçılıq çox zəif inkişaf etmişdi. 1869-cu ildə Bakı quberniyasında 50 min pud, 1873-cü ildə Yelizavetpol quberniyasında isə 7020 pud pambıq becərilmişdi [26].

50-60-cı illərdə azərbaycanda cüzi miqdarda tütün də becərilirdi. 1872-ci ildə idxal olunan tütünün hər pudu üçün gömrük rüsumunun 2 manatadək artırılması bütün Cənubi Qafqazda, o cümlədən də Azərbaycanda tütünçülüyün inkişafına müsbət təsir göstərdi.

Əsas tütün istehsalı rayonları Quba qəzası və Zaqatala dairəsi idi. Azərbaycanda olan bütün tütün əkinləri sahəsinin 60 faizdən çoxu bu rayonlarda yerləşirdi. Tütün istehsalı üzrə üçüncü yeri Nuxa qəzası tuturdu. Tütün ibtidai üsullarla becərilir, gün altında qurudulurdu.

*Meyvə və üzüm* yetişdirilməsi Azərbaycan kənd təsərrüfatında mühüm yer tuturdu. 1875-ci ildə əsas üzümçülük rayonu olan Şamaxı və Göyçay qəzalarında bağların ümumi sahəsi 1449 desyetinə bərabər idi [27].

Azərbaycanda ən yaxşı üzüm, alma, armud, qoz, heyva, əncir və digər meyvə növləri yetişdirilirdi. Balıqçılığın əsas mərkəzlərindən biri Yelizavetpol qəzası idi. Ordubad bağları da xeyli miqdarda müxtəlif meyvə verirdi.Burada və Gəncədə bağçılıq və üzümçülük əmtəə xarakteri almışdı. Zaqatala dairəsi də bağçılıqda görkəmli yer tuturdu. Bura çox gözəl şabalıd və qoz bağları ilə zəngin idi.

60-cı illərin əvvəli bu illərdə ən yüksək çiçəklənmə səviyyəsinə çatmış *ipəkçiliyin* coşqun inkişafı ilə əlamətdar idi. 60-cı illərin əvvəllərində Azərbaycanda ipəkçiliyin böyük müvəffəqiyyətlər qazandığı belə bir fakt təsdiq edir ki, 1857-ci ildə Azərbaycandan xaricə əsla ipək və barama aparılmadığı halda, 1866-cı ildə buradan 1672083 manatlıq ipək və barama ixrac edilmişdi.

Lakin barama qurdları üçün məhvedici olan xəstəliyin (qattinanın) yayılması ilə Azərbaycan ipəkçiliyinin uğurlarına bir müddət son qoyuldu. Qattinanın yayılması nəticəsində Azərbaycanda ipəkçiliyin necə kəskin bir surətdə ixtisar olunduğunu belə bir fakt göstərir ki, 1867-ci ildə Bakı quberniyasında cəmisi 1346 pud barama əldə olunmuşdu [28].

70-ci illərin əvvəllərinə yaxın Azərbaycanın ipəkçilik təsərrüfatı tədricən bərpa olunmağa başladı. Yelizavetpol quberniyasında artıq 1870-ci ildə 14500,

1875-ci ildə isə 142718 pud barama yığılmışdı [29]. Bakı quberniyasına gəldikdə isə əgər 1870-ci ildə burada 2025 pud barama yığılmışdısa, 1873-cü ildə bu göstərici 6180 puda çatmışdı.

70-ci illərdə Azərbaycanın ipəkçilik məhsullarının xaricə və Rusiyaya aparılması artırdı. Əgər 1870-ci ildə bu məhsullarının məbləği 919867 manata bərabər idisə, 1879-cu ildə bu məbləğ 2397008 manata qalxmışdı.

Əcnəbi sahibkarlar Nuxada və Azərbaycanın digər ipəkçilik rayonlarında ipək və barama satışı üçün kontorlar açırdılar. Xarici firmaların nümayəndələrini 1873-cü ildə təkcə Yelizavetpol quberniyasında öz ölkələrinə aparmaq üçün 126 min puda yaxın barama satın almışdılar. Lakin sonrakı illərdə bu məhsullarının xaricə ixracı ixtisar olunur və onların Rusiyanın daxili quberniyalarına aparılması artırdı [30].

İpəkçiliyin bərpası ölkədə ancaq yeni barama toxumu növlərinin yayılması nəticəsində mümkün oldu. Ordubad ipəkçiləri barama qurdunun yapon və Orta Asiya növləri ilə yanaşı, məhşur fransız alimi Lui Pasterin metodu ilə Fransada ancaq sağlam barama qurdlarından əldə edilən hüceyrəli baramaqurdu toxumuna da diqqət yetirdilər. Yerli ipəkçilərin birinin 1873-cü ildə Fransadan gətirdiyi bu barama toxumu növü sonralar bütün Azərbaycana yayıldı.

Beləliklə, 50-60-cı illərdə Azərbaycan kənd təsərrüfatında əmtəə istehsalının xeyli inkişaf etməsi göz qabağında idi. Bu istehsal kənd təsərrüfatının bəzi sahələrində əmtəə-kapitalist istehsalı mərhələsinə keçmirdi və ya keçirdi. Kənd təsərrüfatında əkinçilik kapitalizminin başlıca əlaməti olan muzdlu əmək tətbiq edilirdi. Yüzilliyin 60-cı illərində (hətta 50-ci illərdə də) muzdlu əmək Quba qəzasının qızılboya tarlalarında geniş tətbiq olunurdu. Muzdlu fəhlələr, başlıca olaraq, qızılboya tarlalarına qəzanın dağlıq kəndlərindən axışıb gəlirdilər. Məsələn, 1850-ci ildə qızılboya tarlalarındakı yaz işləri dağ kəndlərindən 25 minədək adamı cəlb etmişdi [31]. 60-cı illərdə artıq ancaq yerli kəndlilər qızılboya istehsalının muzdlu fəhlə gücünə daim artmaqda olan aələbatını ödəmirdi və minlərlə Cənubi Azərbaycan kəndlisi buraya axışmağa başlamışdı. Qızılboya plantasiyalarının becərilməsi, bu bitkinin kökünün yığılmasında hər il – 45-55 min nəfər fəhlə işləyirdi. Bunlardan 12-15 min nəfər Cənubi Azərbaycandan gələnlərin payına düşürdü [32]. Qızılboya plantasiyalarında qadınlar da işləyirdilər.

50-ci və 60-cı illərdə taxılçılıqda muzdlu əmək, az da olsa, tətbiq edilirdi. Özü də muzdlu əməyin tətbiqi işləyib ödəmə rentası ilə çulğalaşırdı. Taxılçılıqda qadın muzdlu əməyindən də istifadə olunurdu. Muzdurların əmək haqqının ödənilməsində kənd təsərrüfatı işlərinin xarakteri və mövsüm, habelə onların yeməyinə çəkilmiş xərclər də nəzərə alınırdı. Muzdur tutmaq möhləti müxtəlif idi və bəzən bir ilədək uzanırdı. Muzdlu fəhlələr öz qoşqu heyvanları (kəl, camış, at) ilə və onlarsız muzdur dururdular. Bu sonuncu iki an, yəni fəhlələrin uzun müddətə və qoşqu heyvanları olmadan muzdur tutulması buna dəlalət edirdi ki, muzdlu fəhlələrin içərisində həm öz təsərrüfatına malik olmayanlar, həm də öz

torpaq sahəsi – pay torpağı olan, lakin qoşqu heyvanları olmayan kəndlilər var idi. Bu vəziyyət onları öz təsərrüfatlarını qurmaq imkanından məhrum edir və başqalarına muzdur kimi işləməyə məcbur edirdi. Azərbaycan taxılçılığında muzdlu əməyin tətbiqi həm də kənd təsərrüfatı işlərinin özünəməxsus xüsusiyyətlərindən irəli gəlirdi. Məsələn, düzənlik və dağlıq rayonlarda (bu ərazilərdə taxıl biçininin tez başa çatdırmağa məcbur edən səbəblər özünü daha güclü surətdə göstərirdi) tez həyata keçirilməsi tələb olunan taxıl biçini tez-tez muzdlu fəhlələrin gücü ilə keçirilirdi. Muzdlu əmək çəltikçilikdə nisbətən daha çox tətbiq olunurdu.

Lakin taxılçılıqda ümumiyyətlə muzdlu əmək deyil, pay torpağı olan kəndlilərin şəxsi əməyi üstün mövqe tuturdu. Yeri gəlmişkən taxılçılıqda muzdlu əmək tətbiqi olunmasının bir xüsusiyyətini qeyd taxılçılıqda muzdlu tutulan fəhlələr çox vaxt öz əmək alətləri ilə gəlirdi. Bu da belə muzdur tutulmasına işləyib ödəmə və kapitalist sistemlərinin qarışması xarakteri verirdi. Çünki fəhlə qüvvəsi tutulmasının kapitalist üsulu o üsuldur ki, bu zaman muzdur tutulan müstəsna olaraq torpaq sahibinin əmək alətlərindən istifadə edirdi.

Muzdlu əmək üzümçülük və bağçılıqda da tətbiq olunurdu. Yüzilliyin 60-cı illərində Şirvan şərabçılıq rayonunda muzdlu əmək, o cümlədən də qadınların da əməyi tətbiq edilirdi [33].

70-ci illərin sonlarından etibarən *tütünçülük* təsərrüfatında kapitalist münasibətləri xüsusən özünü göstərirdi. Tütünçülük təsərrüfatı iki üsulla – ya kəndlilərin özləri tərəfindən öz torpaq sahələrində, ya da torpaq icarə etmiş icarədarlar tərəfindən aparılırdı. Təsərrüfatın aparılmasının birinci üsulu zamanı tütünçü ancaq ticarət kapitalının nümayəndəsi tərəfindən (ya borc alınması, ya da tütün satılması prosesində) istismara məruz qalırdı. Təsərrüfatın aparılmasının ikinci üsulu zamanı tütünçü ikiqat istismara məruz qalırdı: onu bir tərəfdən torpağı icarəyə götürdüyü torpaq sahibi, digər tərəfdən isə torpağın icarəsi üçün borc götürdüyü tacir-sələmçi və nəhayət, kəndliləri özlərindən asılı salmaq və öz fabriklərini xammalla təmin etmək məqsədilə onlara həvəslə borc verən tütün fabriki sahibləri istismar edirdilər.

İpəkçilikdə barama qurdlarının bəslənməsindən muzdlu əmək tətbiq olunmurdu. Burada ticarət və xüsusən də sələm kapitalı dövriyyə sahəsinə soxulurdu. Doğulmaqda olan kənd burjuaiyası bir tərəfdən, möhtəkir-binəkdar, digər tərəfdən isə sələmçi rolunu oynayaraq, həmişə borca ehtiyacı olan kənd istehsalçılarını – ipəkçiləri əsarət altına salırdılar. İpəkçi kəndliləri hər vasitə ilə tora salan və onları amansızcasına soyan binəkdarlar və iri ticarət əjdahalarının nümayəndələri Azərbaycanın ipəkçilik kəndlilərində fəaliyyət göstərirdilər. "Külli miqdarda belə "xeyirxahlar" qəzaya səpələniblər və əgər biz, Nuxa karvansaralarının dolu olduğu bütün arşınmalı alverçilərini çoxdan bəri kəndlilərlə dostluq elədiklərini və necə deyərlər, qan-tərlə qazanılmış vəsaitləri sələm faizi və xidmətlər şəklində çəkib almaqla qayğıkeşcəsinə onların canlarını aldıqlarını qeyd

etsək, səhv eləmərik. Çox tez-tez kəndli bütün illik ipəyi borc verənə gətirir və satmaq üçün ona verirdi” [34].

Beləliklə, ticarət kapitalının ikinci formasının – onun sələmçiliklə qovuşmasının səciyyəvi mənzərəsi göz qabağındadır. Ticarət və sələm kapitalı sürətlə boy atan əkinçilik sahələrinə - pambıqçılığa, üzümçülüyə dərindən nüfuz edirdi. Lakin cüzi olsa da, bu sahələrə xüsusən də məhsul yığımı dövründə, muzdlu əmək də daxil olurdu. Azərbaycan kəndlilərini əsarətə salan ticarət və sələm kapitalı nümayəndələrinin fəaliyyəti kapitalist xarakteri daşıyırdı, çünki əsarət özü-özlüyündə əkinçilikdə kapitalizmin ilkin təzahüründən başqa bir şey deyildi. Deməli, yüzilliyin 50-60-cı illərində Azərbaycan kəndinə, zəif də olsa, başlıca olaraq ticarət və sələm kapitalının əsarəti şəklində, yeni kapitalist istehsal münasibətləri özünə yol tapırdı.

## § 2. 1870-ci İL KƏNDLİ İSLAHATININ HAZIRLANMASI VƏ KEÇİRİLMƏSİ

XIX yüzilliyin ikinci yarısında Rusiyada iri maşın sənayesinin inkişafı bütün ölkənin kapitalist inkişaf yoluna keçməsinə, feodal-təhkimçilik sisteminin böhranının güclənməsinə böyük təsir göstərirdi. Bu sistem şəraitində icbari əmək az məhsuldar idi və sərfəli deyildi. O, məhsuldar qüvvələrin gələcək inkişafını qüvvətli şəkildə ləngidirdi. İnkişaf etməkdə olan sənaye azad işçi qüvvəsinə kəskin ehtiyac hiss edirdi, belə qüvvə isə yox idi. Belə ki, kəndlilər təhkimçilik asılılığında olub, feodal-mülkədarların torpaqlarına təhkim edilmişdilər. Belə vəziyyətdə istehsal münasibətlərinin məhsuldar qüvvələrin xarakterinə mütləq uyğun gəlməsi qanunun pozulmasına, vaxtı keçmiş köhnə istehsal münasibətləri ilə yeni məhsuldar qüvvələr arasında ziddiyyətə gətirib çıxarırdı. Eyni zamanda ticarət əkinçiliyinin daha da inkişafı ilə əlaqədar kəndlilərin təhkimçilik istismarı Rusiya kəndində sinfi mübarizəni xeyli kəskinləşdirdi. Bütün bu deyilənlər 50-ci illərin sonunda ölkədə inqilabi şəraitin yaranmasına gətirib çıxardı, çarizmin Krım müharibəsində məğlubiyyəti isə “təhkimçilik rejiminin çürüklüyünü” göstərdi, eyni zamanda bütün açıqlığı onun ləğv edilməsinin zəruriliyini nümayiş etdirdi. Bütün bunlar “...birinci mülkədar II Aleksandrı etiraf etməyə məcbur etdi ki, aşağıdan devrilməyi gözləməkdənsə, yuxarıdan azad etmək yaxşıdır”.

1861-ci il fevralın 19-da çar II Aleksandr (1855-1881) “Təhkimçilik asılılığından çıxmış kəndlilər haqqında Əsasnamə”ni təsdiq etdi. “Əsasnamə”də kəndli islahatının əsas şərtləri izah edilir, kəndlilər şəxsi azadlıq və öz əmlaklarından sərbəst istifadə etmək hüququ alırdılar, torpağın mülkiyyətçisi isə yenə əvvəlki kimi mülkədarlar qalırdı. Lakin onlar kəndlilərə daimi istifadə üçün həyətyanı və həmçinin pay torpağı verməliydilər. Bunun müqabilində kəndlilər biyar işləməli, həyətyanı sahəni və mülkədarlarla razılaşmaya əsasən torpaq payını satın almaq hüququ verildiyindən, pay torpaqlarını satın alana qədər töycü ödəməli

idilər. Mülkədarlar müəyyən şərtlərlə pay torpaqlarının bir hissəsini özlərinə götürmək hüququ alırdılar. Bu hüquqdan istifadə edən mülkədar kəndlilərin əvvəllər istifadə etdiyi ən yaxşı torpaqları kəsib özünə götürdü. Bütün otlaqlar, meşələr, suvatlar mülkədarların sərəncamına keçirildi.

Kəndli islahatı kapitalizmin daha da inkişafı üçün şərait yaratdı, daha doğrusu islahat köhnə feodallarla yeni kapitalist sosial-iqtisadi istehsal münasibətləri arasında sərhədə çevrildi.

Təhkimçiliyin qalıqlarına baxmayaraq, "61-ci ildən sonra Rusiyada kapitalizmelə sürətlə inkişaf etdi ki, Avropanın bəzi köhnə ölkələrində əsrlər ərzində baş verən dəyişikliklər Rusiyada on illər ərzində əmələ gəldi.

Rusiyada kapitalizmin sürətlə inkişafı Azərbaycanda kapitalizmin inkişafına təsir göstərə bilməzdi. XIX yüzilliyin 60-cı illərində Azərbaycanın iqtisadi inkişaf prosesində kapitalizm yolu göz qabağında idi [35]. Bu proses, şübhəsiz ki, əmtəə istehsalının inkişafı, feodal münasibətlərin dağılması ilə müşayiət olunurdu. Buna görə də 60-cı illərin sonlarında Şimali Azərbaycanın sosial-iqtisadi inkişafı feodal münasibətlərinin ləğv edilməsini tələb edirdi. Yerli feodallarla ittifaqda olan çar hökuməti onların mənafeyinə uyğun olaraq Cənubi qafqazda, o cümlədən Azərbaycanda islahat keçirilməsini bir neçə il ləngitdi. Çarizm bunu onunla əsaslandırırdı ki, guya Şimali Azərbaycanda islahat keçirmək üçün iqtisadi şərait kifayət qədər yetişməmişdir və bütün Azərbaycan kəndliləri hüququ cəhətdən dövlət kəndliləri hesab olunurlar, daha doğrusu, onlar təhkimli deyillər, şəxsi azadlıq statusundan istifadə edirlər. Əslində isə sahibkar kəndliləri feodal-asılı vəziyyətində idilər.

Lakin Şimali Azərbaycanın metropoliyanın mənafeyi baxımından müstəmləkə istismarı vəzifələri, diyarda yaranmaqda olan sənaye kapitalı üçün sərbəst işçi qüvvəsinə tələbat, Mərkəzi Rusiyanın inkişaf etməkdə olan sənayesi üçün xammala ehtiyac islahatın keçirilməsini tələb edirdi. Feodal münasibətləri ölkənin iqtisadi inkişafına mane olur bazar əkinçiliyinin inkişafını, əmtəə-pul dövriyyəsinin tətbiqini, sənayedə və kənd təsərrüfatında kapitalist sahibkarlığının yaranmasını ləngidirdi.

Bu dövrdə Cənubi Qafqaz xalqlarının, o cümlədən Azərbaycan xalqının ictimai həyatında mühüm dəyişikliklər yaranmağa başladı. Burada müəyyən sosial-iqtisadi şərait yetişmiş, maarifçilik ideyaları inkişaf etməyə başlamışdı. Feodal qaydalarını pisləyən səslər getdikcə daha ucadan eşidilirdi. Kəndlilərin feodal asılılığına və feodal zülmünə qarşı qətiyyətlə çıxış edənlərdən biri M.F.Axundov idi. O, Azərbaycan qəzalarının kəndliləri ilə əlaqə saxlayırdı. Belə ki, Qazax qəzasının ruhani şəxslərindən biri öz şikayətində göstərirdi ki, kəndlilərin ona qarşı qiyamı M.F.Axundovun məsləhəti ilə hazırlanmışdır [36]. Feodal zülmünə qarşı Q.Zakir və Azərbaycan ziyalılarının digər nümayəndələri də çıxış edirdilər. Kəndli çıxışlarının perspektivləri də çar hökumətini narahat edirdi. Belə ki, 60-cı illərdə

kənddə baş verən sosial-iqtisadi dəyişikliklərin, ticarət və əkinçiliyin inkişafının təsiri altında kəndlilərin istismarı da güclənirdi.

Əvvəllər bilavasitə təsərrüfatla məşğul olmayan bəylərin bir hissəsi şəxsi əkinin xeyrinə görərək, kəndli torpaqlarını ələ keçirməyə, vergi və mükəlləfiyyətləri artırmağa başladılar ki, bu da kəndlilər arasında narazılığın artmasına səbəb oldu.

Gürcüstanda təhkimçilik islahatı keçirmək haqqında 1863-cü ildə Gürcüstanla həmsərhəd olan Zaqatala dairəsinə çatan şaiyələr burada böyük üsyanın başlanmasına səbəb oldu. Aqrar islahatın həyata keçiriləcəyi təqdirdə özlərinin keşkəllərindən, daha doğrusu, muğalları və yenkiloyları feodal istismarı etmək hüququndan məhrum olacaqlarından ehtiyat edən feodal əyanları, avarlar və saxurlar – keşkəl sahibləri üsyan qaldırdılar [37]. Şimali Azərbaycanın bu bucağında mövcud olan mürəkkəb sosial münasibətlər, çarizmin hədsiz dərəcədə amansız siyasəti, çar hakimiyyət orqanlarının, o cümlədən Zaqatala dairə rəisinin özbaşınalığı, rüşvətxorluq, qanunsuzluq keşkəl sahiblərinin camaatın aşağı hissəsini öz tərəflərinə çəkmək üçün şərait yaradırdı.

Üsyanın digər səbəbi hakimiyyət orqanları tərəfindən həyata keçirilən zorla xristianlaşdırma oldu. Çarizm bu siyasəti həyata keçirmək üçün müxtəlif çirnikləndirmədən başlayaraq, zorakılığa qədər bütün metodlardan istifadə edirdi; hökumət dairələri xristianlığı qəbul edən kəndlilərə torpaq asılılığından azad edilməsi vədini verirdi. XIX yüzilliyin 50-ci illəri ərzində Qax, Əlibəyli, Qarağan, Kötüklü, Meşəbaşı, Tasmalı, Zəyəm, Lələpaşa, Marsan, Yengiyan xristianlıq zorla yayıldı.

Bu kəndlərin əhalisinin, xüsusilə yengiloyların xristianlaşdırılması, xristianlığın yayılması, özlərinin yengiloylar – keşkəl saxlayanlar torpaq vergilərindən məhrum olmaqdan qorxuya düşən keşkəl sahiblərinin – carlıların da narazılığına səbəb oldu. Keşkəl institutu ilə əlaqəsi olmayan bəzi başqa kəndlərin də əhalisi üsyana qoşuldu.

Üsyan 1863-cü il iyunun əvvəlində başlandı. Ona böyük nüfuz sahibi olan və Balakən camaatının başında duran Hacı Murtuz rəhbərlik edirdi. Üsyan etmiş balakənlilər və qavaxçöllülər Zaqatala şəhərini ələ keçirdilər. Lakin onlar Zaqatala qalasını tuta bilmədilər. Hacı Murtuzun bütün Zaqatala əhalisini dini şüarlarla üsyana qaldırmaq ümidi özünü doğrultmadı. İlisu sahəsinin sakinləri, yengiloylar və Yenisel sahəsi əhalisinin əksəriyyəti üsyana qoşulmadı. Üsyan iştirakçılarının sayı 3,5 min nəfərə İyunun 5-də imam elan edilən Hacı Murtuz iyunun 5-dən 6-na keçən gecə, səhərə yaxın üsyançıları leysan yağışın altında qalaya hücuma apardı. Üsyançılar qala divarlarına çatsalar da və onlardan bəzilərinə nərdivanlar söykəsələr də, artilleriya və tüfənglərdən açılan şiddətli atəşlə pərən-pərən salındılar. Üsyançıların qalanı ələ keçirmək üçün sonrakı cəhdləri də müvəffəqiyyət qazanmadı. Tezliklə İlisu sahə rəisinin əsasən yengiloylardan ibarət olan süvari dəstəsi və həmçinin yerli əhalidən olan 3 minlik süvari dəstə

mühasirəyə alınmış qalanın müdafiəçilərinin köməyinə gəldilər və üsyanı yatırıldı. Hacı Murtuz gizlənsə də 1864-cü il fevralın 8-də təslim oldu, tezliklə Yenisey quberniyasına sürgün edildi və burada da öldü. Hərbi səhra məhkəməsinin qərarı ilə üsyanın fəal iştirakçılarından 18 nəfəri dar ağacından asıldı, bir neçə yüz adam ailə üzvləri ilə birlikdə katorqaya göndərildi.

Üsyan yatırıldıqdan sonra çarizm dairədə polis nəzarətini gücləndirdi. Mülki idarəçilik ləğv olundu və hərbi-inzibati sistem tətbiq edildi.

Bununla belə, çarizm Cənubi Qafqazın digər hissələri üçün kəndli islahatı keçirməyə məcbur oldu. Lakin bundan bir sıra tədbirlər görüldü. 1847-ci il 20 aprel "Əsasnamə"sinə görə, keçmiş xan ailəsi üzvlərinə məxsus və yaxud ağaların torpaqlarında kətxudalar sahibkarlar tərəfindən təyin edilirdi ki, bu da ağalar tərəfindən özbaşınalıqlara və kəndlilərin narazılığına səbəb oldu. 1859-cu ildə bu qayda dəyişdirildi və ağa kəndlərində kətxudaları ancaq quberniya rəisinin razılığı ilə təyin getmək qərarına alındı. Hökumət dairələri bu tədbiri ağaların özbaşınalığından kəskin narazı olan kəndlilərin sinfi mübarizəsinin güclənməsindən qorxaraq, həyata keçirməyə məcbur olmuşdu.

Çar hökuməti 1861-ci il iyunun 29-da "Cənubi Qafqaz diyarının mərkəzləşdirilməsi haqqında Əsasnamə"ni təsdiq etdi və buna əsasən də 1862-ci ildə yanvarın 1-dən fəaliyyətə başlayan xüsusi Cənubi Qafqaz mərkəz palatası yaradıldı. Palata hər bir kənd icmasının sərhədlərini müəyyənləşdirməklə yanaşı, həm də bütün mülk və malikanələrin də sərhədlərini dəqiqləşdirməli idi. Lakin uzun müddət mərkəzləşdirmə üzrə heç bir iş aparılmadı.

1861-ci ildə çar hökuməti ağaları kəndlilər üzərində polis nəzarəti və məhkəmə hakimiyyəti hüququndan məhrum etdi. Tezliklə Şimali Azərbaycanın bütün feodallarına qarşı da belə tədbiri həyata keçirmək lazım gəldi.

1861-ci ilin dekabrında "Cənubi Qafqazda yerli (zemski) gözətçi dəstələri haqqında Əsasnamə" təsdiq edildi. Bu dəstələr yollar üzərindəki gözətçi xidmətinin və qarovul məntəqələrinin saxlanılmasını təmin etməli idilər. Elə həmin il Cənubi Qafqazda müntəzəm məlumatların toplanılmasında mühüm rol oynayan quberniya statistika komitələri fəaliyyətə başladı. 1865-ci il yanvarın 28-də bəyləri məhkəmə və polis hakimiyyəti hüququndan məhrum edən və "seçkili" əsaslar üzərində qurulan "Kənd cəmiyyətlərinin ictimai idarəsi haqqında Əsasnamə" nəşr edildi. Bu "Əsasnamə"nin nəşrindən sonra da bəylər kənd hakimiyyəti orqanlarına müəyyən təsir göstərsələr də, onların kəndlilər üzərindəki əvvəlki hakimiyyəti artıq yox idi.

1864-cü ildə Şərqi Gürcüstanda kəndli islahatı haqqında "Əsasnamə" təsdiq edildi. Elə həmin il zəylik zəy zavoduna təhkim edilmiş Zəylik kənd sakinlərinin, həmçinin Bakı quberniyasındakı neft quyularına təhkim edilmiş Balaxanı kənd sakinlərinin, 1868-ci ildə Naxçıvan duz mədənlərində işləyən Şıxmahmud kəndinin sakinlərinin məcburi əməyi ləğv edildi. Bütün bunlar Azərbaycanda kəndli islahatı keçirilməsinin başlanğıcı idi.

Tiflisdə Mərkəzi Cənubi Qafqaz Komitəsi, Gürcüstan qəzalarında qəza komitələri yaradıldı [38]. Komitə cənubi Qafqazda islahatı iki mərhələdə keçirməyi qərara aldı. O, əvvəlcə Qərbi Gürcüstanda, sonra isə Cənubi Qafqazın yerdə qalan hissələrində islahat keçirməklə məşğul oldu.

Səciyyəvi haldır ki, Komitənin tərkibinə Azərbaycan bəylərinin bir nəfər də olsa nümayəndəsi daxil edilməmişdi. Bu onunla izah olunur ki, bəylər "ali silk" hesab olunsalar da, hüquqi cəhətdən rus və gürcü zadəganlarına və mülkədarlarına bərabərləşdirilməmişdilər. Onlara arxalanan və onlardan kəndlilər üzərində öz hakimiyyətini möhkəmləndirmək məqsədilə istifadə edən çarizm eyni zamanda onları müəyyən çərçivədə saxlayırdı.

Şərqi Gürcüstanda keçirilən islahatdan dərhal sonra baş canişin idarəsi nəzdindəki kəndlilərin yerləşdirilməsi üzrə komitə Tiflis və Kutaisi quberniyaları haqqında yeni "Əsasnamə"yə və 1861-ci il 19 fevral ümumi kəndli qanununa uyğun olaraq ağalar və kləndlilərin qarşılıqlı münasibətləri haqqında 1847-ci il "Əsasnamə"lərinə yenidən baxmağa başladı.

İslahatı keçirməyə hazırlıq üçün baş canişin idarəsi şurasının qəbul etdiyi qərarla 1866-cı il mayın 29-da Tiflis, Bakı, İrəvan və Şuşa şəhərində "bəy komissiyaları" adı altında müvəqqəti komissiyaların təsis edilməsinin zəruriliyi adı altında müvəqqəti komissiyaların təsis ediləsinin zəruriliyi etiraf edildi. "Ali müsəlman silkinin şəxsi heyətini müəyyənləşdirmək" bu komissiyalara tapşırıldı [39]. Bu komissiyalar hökumət məmurlarının sədrliyi altında bəylərdən təşkil olunurdu.

Bəylərin hüquqlarını müəyyənləşdirən bəy komissiyaları nəzərdə tutulan islahatı keçirmək üçün material hazırlamalı idilər. Bunun üçün hakim sinfin torpaq hüququnu müəyyənləşdirmək zəruri idi. Belə ki, çar hökumət orqanlarının fikrincə, "məskunlaşmış mülklərə sahib olmağın vaxtını aydınlaşdırmaq bəylərin torpaq hüquqlarının müəyyənləşdirilməsi işinin əsas mahiyyətini təşkil edirdi" [40].

Tiflis bəy komissiyası Ahalsıx, Gəncə, Borçalı, Qazax və Şəmşəddil sahələrinin torpaq sahiblərinin hüquqlarını nəzərdən keçirərək, onlardan 184 nəsli "ali silkə mənsub" hesab etdi. İrəvan komissiyası tərəfindən isə 586 nəsildən 282-si "ali silkə mənsub" hesab edildi [41]. 1869-cu ildə Şuşa komissiyası, 1870-ci ildə isə Bakı komissiyası öz işlərinə başladı [42], Bakı bəy komissiyası Bakı quberniyasında 198 nəslin bəy "şərəfinə" etiraf etdi. Şuşa bəy komissiyası Şuşa, Zəngəzur və Nuxa qəzalarında və Yelizavetpol quberniyasının Ərəş pristavlığında ali silkin şəxsi hüququnu müəyyənləşdirməli idi. Xüsusi hazırlanmış qaydalar [43] əsasən Şuşa bəy komissiyasının tərkibinə Şuşa və Zəngəzur qəzalarında 24 nəfər və Ərəş pristavlığı ilə ayrıca olaraq Nuxa qəzasından da elə o qədər adam seçmək nəzərdə tutulurdu. Seçkilər hər bir qəzada ayrı-ayrılıqda ali silk tərəfindən səsverə yolu ilə keçirilirdi. Mərkəzi Cənubi Qafqaz Komitəsi bu komissiyaların işini öyrəndikdən sonra 1870-ci il mayın 14-də "Cənubi Qafqaz quberniyaları: Yelizavetpol, Bakı, İrəvan və qismən Tiflis quberniyaları ali müsəlman silkindən

olan şəxslərin, habelə erməni məliklərinin torpaqlarında sakin olan dövlət kəndliləri torpaq quruluşu haqqında “Əsasnamə”nin layihəsi təsdiq edildi. Bu dövrün xarakterik cəhətlərindən biri yalançı bəylərin sayının artması idi. Bəy nəslindən olmayan bir çox torpaq sahibləri bəy silkinə daxil olmağa çalışırdı ki, bunu da nəticəsində bəy komissiyalarında rüşvətxorluq və tanışlıq münasibətləri geniş yayıldı, 1870-ci il 14 may “Əsasnamə”si Yelizavetpol, Bakı quberniyalarında və Tiflis quberniyasının bir hissəsindəki xanların, bəylərin, ağaların və məliklərin, İrəvan quberniyası mülkədarlarının (bəylərinin) və Tiflis quberniyasının Axalsıxı qəzası bəylərinin mülklərinə aid edilirdi.

Qafqaz canişinin qərarına əsasən, “Əsasnamə” 1970-ci il noyabrın 8-də qüvvəyə mindi [44].

“Əsasnamə”ni elan etmək üçün hər bir qəzanın mərkəzi və əhalisi daha çox olan yerlərindən həm əkinçi, həm də kəndli silklərinin müəyyən miqdarda nümayəndələrini quberniya şəhərinə çağırmaq, həm də şəxsən qubernatorun və digər yüksək vəzifəli şəxslərin iştirakı ilə bu sənədin elanı təklif olunurdu [45]. Polisə kəndlilərin “sakitliyini” ciddi izləmək tapşırığı verilmişdi. Çar hökuməti “Əsasnamə”ni bilavasitə yerlərdə elan etməklə qorxurdu. Noyabrın 8-də kəndli işləri üzrə quberniya divanxanaları açıldı, həmçinin barışıq vasitəçiləri (münsif) vəzifələri təsis edildi. Canişinin sərəncamı ilə kəndli işləri üzrə ibtidai sərəncamlar vermək məqsədilə təsis edilən müvəqqəti komissiyaların işləri quberniya divanxanalarının ixtiyarına keçirdi. Qəzalarda başda barışıq vasitəçiləri olmaqla barışıq şöbələri açıldı [46]. Azərbaycan qəzalarında on iki barışıq şöbəsi fəaliyyət göstərirdi. 1870-ci il 14 may “Əsasnamə”si iki bölmədən ibarət idi: 1. Kəndlilərin torpaq məsələlərinin tənzim olunması haqqında ümumi əsasnamə; 2. Kəndli işləri üzrə təsis olunmuş idarələr haqqında qaydalar [47].

“Əsasnamə” kəndli islahatının aşağıdakı əsas məsələlərinin ümumi prinsiplərindən çıxış edirdi: 1) kəndlilərin torpaq sahələrindən hər cür şəxsi asılılıq münasibətləri dayandırılır; 2) kəndlilərin istifadəsində olan torpaqlar bəylərin, ağaların və məliklərin mülkiyyəti olaraq qalır və kəndlilərin daimi istifadəsinə verilir [48].

Şəxsi azadlıq almalı olan kəndlilərin sayı Yelizavetpol quberniyasında 22032 həyət və yaxud 70290 nəfər kişidən, Bakı quberniyasında (Quba qəzası istisna olunmaqla) 7797 həyətvə yaxud 25831 nəfər kişidən ibarət idi [49].

“Əsasnamə” kəndlilərə “özünün bütün pay torpaqlarından istifadə etməkdən” imtina etməklə bəy torpaqlarını maneəsiz tərk etmək, öz kənd icmasında qalmaq və yaxud başqasına keçmək hüququ verirdi [50]. Fakriki olaraq isə onlar həmin torpaqlarda qalmağa məcbur idilər. Çünki kəndli torpaqsız ötüşə bilməzdi. Lakin onlar onlar torpaq sahibindən qeyri-iqtisadi, icbari feodal tədbirlərinin təsiri altında deyil, iqtisadi cəhətdən asılı idilər [51].

Beləliklə, islahata görə, feodal asılılığının çox mühüm spesifik xüsusiyyəti – kəndlinin torpağa təhkim edilməsi ləğv edildi. Həm Rusiyada, həm də

Gürcüstanda təhkimçilik hüququ ləğv edildikdən sonra kəndlilər öz pay torpaqlarının pulunu ödəyənə qədər təhkimli deyil, feodaldan asılı hesab olunan Azərbaycan sahibkar kəndliləri kimi müvəqqəti asılı kəndlilər kateqoriyasına salınmışlar. Əslində isə onlar yenə də əvvəlki vəziyyətlərində qalırdılar [52].

Kəndli islahatının başlıca məsələsi torpaq məsələsi idi. 1870-ci il "Əsasnamə"sinə görə bəylərə, ağalara və məliklərə və həmçinin çoxdan "dövlət kəndliləri" adı almış kəndlilərə məxsus olan torpaqlar üzərində irsi xüsusi mülkiyyət hüququ qalmışdı [53].

Kəndlilər daii istifadə üçün onlara verilmiş pay torpaqlarının müqabilində torpaq sahiblərinin xeyrinə müəyyən mükəlləfiyyətlər daşımalı idilər.

Çar hökuməti çalışırdı ki, kəndli islahatı Azərbaycanda torpaq sahiblərinin təsərrüfatlarına mümkün qədər az zərər vursun və onların öz mülklərinə olan torpaqlardan əldə etdikləri ümumi gəlirin miqdarını azaltmasın.

Beləliklə, "Əsasnamə" pay torpaqlarının satın alana qədər daimi istifadə üçün kəndlilərin ixtiyarına verirdi. Bu torpaqlar mülkədar bəylərin mülkiyyətində qalırdı [54]. Kəndlilər yalnız pulunu ödədikdən sonra torpağın mülkiyyətçisinə çevrilə bilərdilər.

Kəndlilərin öz pay torpaqlarını satın alması məcburi deyildi. Buna baxmayaraq, kəndlilərə torpaq əldə etmək hüququ verilməsi burjua xarakteri daşıyırdı. Çünki feodalizm şəraitində mülkədarbəylər öz torpaqlarını ancaq öz silklərindən olan adamlara satmaq hüququna malik idilər.

Kəndlilərə torpaq satın almaq hüququ verilməsi nəticə etibarilə feodalların torpaq üzərində silki inhisar hüquqlarına zərbə endirirdi. Vəsaitin olmaması üzündən kəndlilərin faktiki olaraq öz pay torpaqlarını almaq imkanları olmasa da, torpaq əmtəəyə çevrilirdi.

Yaşı 15-dən yuxarı olan hər kişi ailə üzvü üçün 5 desyatin pay torpağı verilməsi haqqında 1847-ci il "Əsasnamə" sinin müəyyənləşdiyi norma son hədd kimi qəbul edilirdi. Əksər hallarda isə kəndlilərin pay torpaqları, o cümlədən malikanələr, meyvə, üzüm və tut bağları, əkin sahələri və biçənəklər kəndlilərin daimi istifadəsində saxlanırdı. Kəndlilər mövcud ödəmələrə əsasən suvatlardan, otlaqlardan və suvarma arxlarından istifadə etməyə davam edirdilər. Bunula belə, torpaq sahiblərinə kəndli torpaqları da daxil olmaqla bütün yararlı torpaqları bilavasitə öz sərəncamında saxlamaq hüququ verilirdi. Onlar öz sərəncamlarında bütün yararlı torpaqların $^1/_3$-dən azı qaldığı təqdirdə kəndli torpaqlarının 5 desyatindən çox olan "artıqlarını" kəsib götürə bilərdilər və onlarda bütün yararlı torpaqların $^1/_3$-dən azı qaldığı tədqirdə kəndli pay torpaqlarını 5 desyatin normaya qaldırmağı öhdələrinə götürmürdülər.

Faktiki olaraq kəndlilərin pay torpaqları müəyyənləşdirilmiş 5 desyatindən xeyli az olurdu. Sonralar isə əhalinin artması ilə əlaqədar hər nəfərə düşən pay torpağı getdikcə daha çox azalır, kəndlilərin əksəriyyəti aztorpaqlı olurdu.

Kəndlilərin pay torpaqlarından istifadə etdiklərinə görə 1870-ci il “Əsasnamə”si ilə bəylər qarşısında yerinə yetirdikləri mükəlləfiyyətlər isə öz xarakterinə, həcminə və yerinə yetirilmə qaydasına görə, 1847-ci il “Əsasnamə”sinin müəyyənləşdirdiyi kimi qalırdı.Məhsul rentası – “malcəhət” və yaxud “bəhrə” yenə də əvvəlki kimi əsas yer tuturdu. Bəylərin və ağaların “mülklərində” onun həcmi becərilən məhsulun $^{1}/_{10}$ hissəsinə bərabər idi. Biyar günləri və hər gür peşkəşlərin əvəzinə bu adətin hələ də qorunub saxlanıldığı yerlərdə, bəy torpaqlarında istər həyətyanı, istərsə də əkin torpaqlarının hər desyatininə görə 30 qəpik, ağa “mülklərində” isə 15 qəpik məbləğində pul mükəlləfiyyəti tətbiq edilirdi. “Malcəhət”in sahibkara çatdırılması əvvəllər olduğu kimi natural mükəlləfiyyət kimi qalırdı.

Məlumdur ki, sahibkar kəndliləri tərəfindən pay torpaqlarının satınalma yolu ilə tam şəxsi mülkiyyətə keçməsi islahatın müvəffəqiyyətlə həyata keçirilməsinə xidmət etməli idi. Satınalma sazişi bağlandıdan sonra kəndlilər formal olaraq mülkiyyətçi kəndlilər kateqoriyasına keçirdilər.

Lakin dövlət Rusiya quberniyalarından fərqli olaraq, Azərbaycana münasibətdə kəndlilərin öz torpaqlarının satın almasına hər hansı bir yardım göstərməkdən imtina etdi; həm də torpaqların satın alınması burada məcburi deyildi. Kəndlilər öz pay torpaqlarını ancaq öz şəxsi pul vəsaiti hesabına ala bilərdilər. Bu zaman onlar kəndli həyatı üçün yuxarısı 15, aşağısı 7.5 desyatin ala bilərdilər. Kəndlilərin pay torpaqlarını öz mülkiyyətinə keçirməsi üçün malcəhət və yaxud bəhrə əvvəlcədən pula çevrilməli və mövcud pul mükəlləfiyyətləri ilə birlikdə 6 faizdən kapitallaşdırılmalı idi. Bu yolla əldə edilən məbləğ torpağın satınalma qiymətinin həcmini müəyyənləşdirməli idi.

Azərbaycanda satınalma məbləği Rusiyanın mərkəzi quberniyalarındakı məbləğdən bir neçə dəfə yüksək idi. Belə ki, Bakı quberniyasının sahibkar kəndlilərinin bir desyatin torpağadək ödədikləri satınalma qiyməti Minsk quberniyasının kəndlilərinin ödədikləri məbləğdən 25 dəfə, Həştərxan quberniyası kəndlilərinin ödədikləri məbləğdən 20 dəfə, Orenburq, Mogilyov və Perm quberniyaları kəndlilərinin ödədiyi məbləğdən 10 dəfə, Rusiyanın daxili quberniyalarından isə 7.7 dəfə çox idi. Yelizavetpol quberniyasında vəziyyət daha pis idi. Burada kəndlilər Həştərxan quberniyası kəndlilərdən 40 dəfə, Minsk quberniyasından 30 dəfə və Rusiyanın bütün daxili quberniyalarındakı kəndlilərdən 17 dəfə artıq satınalma məbləği ödəməli idilər.

Yalnız torpağın haqqını tam ödədikdən sonra kəndlilər mükəlləfiyyətçi kəndlilər kateqoriyasına keçə bilərdilər. Bu şərtlərin kəndlilər üçün necə ağır olduğunu aydın görmək olar ki, kəndli həyətlərinin əksəriyyəti öz pay torpaqlarını satın alıb mülkiyyətlərinə keçirə bilməmişdilər.

“Əsasnamə”yə görə torpaq sahibkarları ilə kəndlilər arasında münasibətlər “torpaq nizamnamələri” adlandırılan xüsusi aktlarla müəyyən olunurdu. İslahatın hər bir mülkə tətbiqi bu torpaq nizamnamələri ilə müəyyənləşdirilirdi. Yerlərdə

bütün işlərə rəhbərlik etmək üçün kəndli işləri üzrə quberniya idarələri barışıq vasitəçilərinin əldə rəhbər tutduqları torpaq nizamnamələrinin vahid ümumi formasını tərrib etdilər [55].

Torpaq nizamnamələrinin hazırlanması mülk sahiblərinin və kəndlilərin, yaxud onların nümayəndələrinin iştirakı ilə həyata keçirilirdi. Torpaq nizamnaməsi “hər bir kənd üçün ayrıca və yaxud bir neçə qarışıq kəndlərdən ibarət olan bütöv mülkə” tətbiq edilə bilərdi. Barışıq vasitəçisi vaxta 15 gün qalmış torpaq nizamnaməsinin tərtib ediləcəyi müddət haqqında məlumat verirdi.Torpaq nizamnamələri tərtib edilərkən dolaşıqlıq və səhvlər buraxılırdı ki, bununla əlaqədər çoxlu şikayətlər olurdu. Torpaq sahibləri barışıq vasitəçilərinə öz mülkləri haqqında düzgün məlumat vermək istəmir və yalançı məlumatlarla işi dolaşıqlığa salırdılar.

Torpaq nizamnamələrində torpağın miqdarı, pay torpaqlarından istifadə edən kəndlilərin sayı, biçənək və otlaqların mövcudluğu, kəndlilərin su mənbələrindən, meşələrdən istifadə qaydaları, yerinə yetirilən natural və pul mükəlləfiyyətlərinin həcmi və forması, natural mükəlləfiyyətləri daşımağın qaydaları, süni suvarma vasitələrindən və dəyirmanlardan istifadə etmək hüququ və qaydaları göstərilirdi**.**

“Əsasnamə” 1873-cü ildə kəndlilərlə torpaq sahiblərinin münasibətlərində yerli xüsusiyyətlər nəzərə alınaraq müəyyən olunan cüzi dəyişiqliklərlə Quba qəzasında tətbiq edildi. Quba qəzasında rəncbərlər təhkimçilik asılılığından azad edildilər. Rəncbərlərin əkinçiliklə məşğul olmalarından və torpaqlarının olub-olmamasından asılı olaraq onlar ya torpaq payı alaraq torpaq sahiblərindən asılı vəziyyətdə qalır,ya da torpaqsız azad edilirdilər [56].

1870-ci il islahatı mülkədar torpaqlarında “könüllülük” əsasında yaşayan kəndlilərə şamil edilmədi. Yelizavetpol quberniyasının 200 kəndində belə kəndlilərin sayı 65 min nəfər idi. 1870-ci il islahatı zamanı bu kəndlilərin çoxu torpaq sahiblərinin özbaşınalığına məruz qalmış və öz torpaqlarının itirmişdilər. İslahat onlara yalnız 1876-cı il fevralın 21-dən aid edildi.

“Əsasnamə” 1877-ci il sentyabrın 3-də onun nəşrinə qədər ali silkə mənsub olmayan və bu kateqoriyaya sonralar aid edilən bəylərin torpaqlarında yaşayan kəndlilərə də şamil edildi.

Kəndli islahatı Azərbaycana şimal-qərb hissəsinə - Zaqatala dairəsinə toxunmadı. Burada kəndlilərin asılı münasibətləri 1913-cü ilə qədər davam etdi.

Cənubi Qafqazda kəndlilər üçün islahat Rusiyanın daxili quberniyalarına daha ağır şərtlərlə keçirildi. Bədnam “azadlıq” əslində, kəndlilərin ən vicdansız bir şəkildə talan edilməsi, onları bir sıra zorakılıqlar və təhqirlərə məhkum etmək idi. Çar məmurlarının özləri dəfələrlə etiraf etmişdilər ki, kəndli islahatı imperiyanın heç yerində Cənubi Qafqazda olduğu kimi ağır və əzablı olmamışdı. Çar hökumətinin bütün qanunu və tədbirləri əsasən “ali silkə” əmlak və silki hüquqlar yaratmağa yönəltmişdi. Kəndlilərin rifahının təmin edilməsi məsələsi isə ikinci

dərəcəli əhəmiyyətə malik idi və ona əsas məsələlər də asılılıq və tabeçilik rolu ayrılmışdı [57].

İslahat Azərbaycanın kənd istehsalçılarının çoxsaylı hissəsinin təşkil edən, xəzinə kəndliləri adlandırılan kəndlilərə aid edilmədi. 1870-ci il 14 may islahatı Azərbaycan mülkədar kəndində asılı münasibətləri məhv etmədi və kəndlilərin gələcəkdə də bəylər tərəfindən istismar olunmasını təmin etdi. Bununla belə o, məzmununa görə obyektiv olaraq burjua xarakteri daşıyırdı; bütün məhdudluğuna baxmayaraq, kənddə mövcud olan obyektiv şəraitin tədricən kapitalist inkişafının tələbatına uyğunlaşmasına yardım etdi, ona təkan verdi. İslahatdan sonra Azərbaycanda yeni burjua cəmiyyətinin, ona xas olan xüsusiyyətlərin və ziddiyətləri ilə birlikdə, bütün əlamətləri aydın şəkildə nəzərə çarpmağa başladı.

## § 3.MƏHKƏMƏ VƏ ŞƏHƏR İSLAHATLARI

İqtisadi inkişafın və 50-ci illərin sonu – 60-cı illərin əvvəllərindəki şəraitin təsiri altında öz obyektiv sosial-iqtisadi məzmununa görə burjua xarakterli məhkəmə islahatına başlamağa məcbur oldu.

1864-cü il noyabrın 20-də II Aleksandr hakim senata fərman imzaladı. Bu fərmana “1864-cü il 20 noyabr məhkəmə nizamnamələri” adı altında birləşdirilmiş məhkəmə təsisatları, cinayət məcəlləsi, mülki məcəllə və andçı hakimlər tərəfindən qoyulan cəzalar haqqında nizamnamə əlavə edilmişdi [58].

Məhkəmə islahatı silki məhkəmələri bütün silklər üçün ümumi olan məhkəmələörlə əvəz etdi, andlılar məhkəməsi, vəkillər korpusu yaratdı, məhkəmə instansiyaların sayını azaltdı. Bu islahat formal olaraq məhkəmə quruculuğu və məhkəmə icrası, məhkəmə hakimiyyətinin qanunverici və icraedici hakimiyyətlərdən ayrılması, məhkəmə prosesinin aşkarlığı, hakimlərin müstəqilliyi və onların bütün işləri öz daxili inamlarına müvafiq surətdə həll etmək hüququ, cinayət işlərinin əskəriyyətinin andlı iclasçılarının iştirakı ilə baxılması və s. burjua-demokratik prinsiplərini bəyan etdi.

1864-cü il məhkəmə islahatı məlum dərəcədə müsbət əhəmiyyətə malik idi. Bununla bərabər, hakim təbəqə tərəfindən, mütləqiyyət quruluşu şəraitində keçirilmiş bu islahat da yarımçıq idi. Onun qeyri-ardıcıllığı, ilk növbədə, dövlət cinayətlərinin andlılar məhkəməsinin ixtiyarından alınmasında təzahür etdi. Bu cinayətlərə baxılması silki nümayəndələrin iştirakı ilə ancaq məhkəmə palatalarına etibar edilirdi. Belə ki, mürtəce zadəganların fikrincə, andlılar məhkəməsi çar hökumətini arzuolunmaz hökmlərdən hifz edə bilməzdi. İmtiyazlı silk namüyəndələrini (quberniya zadəganlarının başçısı, yerli məhkəmə dairəsinin yerləşdiyi qəzanın zadəgan başçılarından biri şəhər rəisləri və kətxudaların hərəsindən bir nəfər) iştirak etdikləri məhkəmə, hakim təbəqənin mənafeyini müdafiə edən etibarlı silah olmalı idi.

Burjua məhkəmə quruculuğu və məhkəmə icrasının əsaslarını tətbiq etmiş 1864-cü il məhkəmə islahatı təhkimçilik münasibətlərinin kəndliləri üçün volost məhkəməsi, ruhanilər üçün xüsusi məhkəmə, çar məmurlarının vəzifə cinayətlərinə baxmağın xüsusi qaydası, vəzifəli şəxslərin məhkəməyə verilməsini güzəşfli qaydaları və s. qalıqlarını qoruyub saxladı.

1864-cü il məhkəmə islahatının yarımçıqlığı Rusiyanın digər milli ucqarlarında olduğu kimi, onun Azərbaycanda da həyata keçirilməsi zamanı özünü xüsusən parlaq şəkildə göstərdi. Çarizm bu bölgələrdə feodal hüquqi təsisatlarını qoruyub saxlayırdı.

Məhkəmə islahatı Azərbaycana və bütün Cənubi Qafqaza canişinin 1865-ci ildə yaratdığı xüsusi komissiyanın hazırladığı çar tərəfindən 1866-cı il noyabrın 22-də təsdiq olunmuş 1864-cü il 20 noyabr məhkəmə nizamnamələrinin Cənubi Qafqaz diyarında tətbiq edilməsi haqqında təkliflər əsasında şamil olundu [59].

Çarizm öz müstəmləkəlik xəttinə sadiq qalaraq, Cənubi Qafqazın xüsusiyyətlərini, yəni yerli əhalinin geridə qalması haqqında yalanı birinci yerə çəkərək, məhkəmə nizamnamələrinin tətbiqində bir sıra mühüm məhdudiyyətlər nəzərdə tutmuşdu.

Andlılar məhkəməsi tətbiq edilmədi, çünki hakim dairələr bu məhkəmənin işlərində yerli əhalinin iştirakı üçün yaratdığı cüzi imkana belə yol vermək istəmirdi.

İstintaq və barışıq sahələrinin əvəzinə barışıq hakimi, onun köməkçiləri və digər məmurları olan barışıq şöbələri yaradılırdı. Böyük ərazisi olan qəzaları əhatə edən barışıq şöbələrinin tərkibində barışıq hakimi başda olmaqla, xüsusi məhkəmə sahiblərinin yaradılmasına icazə verilirdi. Barışıq hakimləri və onların köməkçiləri məhkəmə müstəntiqlərinin də vəzifəsini yerinə yetirirdilər.

1864-cü il nizamnamələrinin nəzərdə tutduğu hakimlərin sekçilər sistemi mütləqiyyətə yararlı hakimlərin seçilməsini təmin etsə də Azərbaycanda barışıq hakimləri seçilmir, canişin tərəfindən təyin edilirdilər.

Çar hökuməti, hətta bu məhdudiyyətlərlə belə, Cənubi Qafqaz diyarının məhkəmə sistemində islahat keçirməyə tələsmədən, bu işi bir neçə il uzatdı.

Məhkəmə orqanları sistemi Tiflis məhkəmə palatası, quberniyadakı dairə məhkəmələri, qəza, dairə və vilayətlərdəki, habelə quberniya şöbələrindəki barışıq məhkəmələrindən ibarət idi.

Azərbaycan ərazisində yeni məhkəmə idarələri 1868-1869-cu illərdən fəaliyyət göstərməyə başladı. Bütün işlər barışıq hakimi tərəfindən təkbaşına həll edilirdi. Üç günə qədər həbs cəzası və 100 manatadək cərimələr haqqındakı hökm və qərarlardan dairə məhkəmlərinə şikayət etmək olardı.

Bakı və Yelizavetpol quberniyalarındakı dairə məhkəmələri canişinin təqdimatı üzrə çar tərəfindən təsdiq edilən sədr, sədr müavini və altı nəfər üzvdən ibarət tərkibdə təsis olunurdu. Dairə məhkəməsi barışıq hakimlərinin hökm və

qərarlarından edilən şikayətləri nəzərdən keçirir və əslində barışıq şöbələrinin səlahiyyətlərinə daxil olmayan bütün cinayət və mülki işləri həll edirdi.

Dairə məhkəmələrinin hökm və qərarlarından Tiflis məhkəmə palatasına şikayət etmək olardı. Sonuncu isə qərar qəbul edirdi. Tiflis məhkəmə palatasının və dairə məhkəmələrinin yanında prokurorlar da var idi.

Cənubi Qafqaz məhkəmə idarələri üzərində ümumi nəzarəti canişin həyata keçirirdi. Bu halda o, ədliyyə naziri rolunda çıxış edirdi [60]. Çar hökuməti Azərbaycanda və Cənubi Qafqazın digər rayonlarında sinfi mübarizənin kəskinləşdiyi şəraitdə məhkəmə təqib işlərini gücləndirmək məqsədilə dəfələrlə barışıq şöbələrinin səlahiyyətini yenidən nəzərdən keçirərək, onu xeyli məhdudlaşdırmış, müvafiq olaraq dairə məhkəmələrinin səlahiyyətlərini genişləndirmişdi.

Məhkəmə icrası ciddi nöqsanlara malik idi. Çarizmin müstəmləkəçilik siyasəti burada güzcüdəki kimi əks olunurdu. Hakimlərin tərkibində yerli əhalinin nümayəndələri yox idi, məhkəmə əhalinin dili, adət və ənənələrini bilməyən adamlar tərəfindən aparılırdı. İşlərə müstəsna olaraq, rus dilində baxılırdı. Bu da ona gətirib çıxarırdı ki, proses iştirakçıları bir qayda olaraq bir-birini başa düşmür və tərcüməçilər vəsitəsi danışmağa məcbur olurdular. Mülki işlərin baxılmasında əsrlərdən bəri formalaşmış yerli adətlər qətiyyən nəzərə alınmır, iddialar üzrə şahid ifadələrin büsbütün rədd edilir və ancaq yazılı, sənədli sübutlar qəbul olunurdu. Əhalinin kütləvi savadsızlığı şəraitində isə belə sənədlər adətən olmurdu. Rahat yolların olmaması şəraitində və barışıq şöbələrinin bir çox yaşayış məntəqələrindən uzaqlığı, məhkəmə işlərindəki hədsiz formalizm, işlərin aparılmasına olduqca çox vaxt sərf edilməsi alayarımçıq savadlı və baha başa gələn vəkillərin xidmətinə müraciət işlərini daha da mürəkkəbləşdirdi.

Təkcə məhkəmə prosesinin deyil, həm də istintaqın, notarius işlərinin və hamillik idarələri vəzifələrinin yerinə yetirilməsinin barışıq məhkəmələrinin üzərinə qoyulması ona gətirib çıxarırdı ki, bu məhkəmələr külli miqdarda cinayət və mülki işlərin içində itib-batır, bu işlərin baxılmasını illərlə uzadırdı. XIX yüzilliyin lap sonunandək Bakı quberniyasının təkcə barışıq məhkəmələrində hər il 14 min iş baxılmamış qalırdı [61]. Məhkəmələrin fəaliyyətində zəhmətkeşlərin qanuni hüquq və mənafeyinin tapdalanması parlaq şəkildə ifadə olunurdu.

Çar hökuməti kəndlilərin çıxışlarına cavab olaraq, məhkəmə və inzibati polis zülmünü gücləndirirdi. Kəndlilər tərəfindən mülkədarbəylər və çar məmurlarının həyat mülkiyyətinə, mütləqiyyətinə qoyduğu hüquq qaydalarına edilən qəsdlərlə bağlı bir çox cinayət işi hərbi-idarə məhkəmələrinə verilməyə başladı. Sonuncuların isə adi cəza ölçüsü ölüm cəzası idi.

Mütləqiyyət tərəfindən fəhlələrə qarşı da belə sərt tədbirlər tətbiq edilirdi. Fəhlə tətili barəsində ilk xəbər alınan kimi, məhkəmə tədqiqatını gözləmədən tətilin fəal iştirakçılarını sürgünə göndərmək vəzifəsi qubernatorların üzərinə qoyulmuşdu.

1870-ci il şəhər islahatı təhkimçilik hüququnun ləğvindən sonra Rusiya kapitalist münasibətlərinin inkişafı, şəhərlərin sürətli artımı, xüsusən də sənaye və ticarət mərkəzlərində şəhər həyatının mürəkkəbləşməsi ilə bağlı idi. Şəhər islahatının hazırlanması 8 ildən çox çəkdi. Onun 1864-cü ildə tərtib olunmuş, burjuaziyanın tələblərini müəyyən dərəcədə nəzərə alan ilkin lahiyəsi çar dövlət aparatının müxtəlif bürokratik məhkəmələrindəki çoxsaylı müzakirələrin nəticəsində mühüm dəyişikliklərə məruz qaldı. Bunların nəticəsində şəhər islahatı əvvəlki lahiyəyə nisbətən xeyli məhdud xarakter aldı. Şəhər əsasnaməsi 1872-ci il iyunun 16-da təsdiq olundu. Əvvəlcə o ancaq Rusiyanın daxili quberniyalarında tətbiq olundu. Cənubi Qafqazın digər rayonlarında olduğu kimi, Azərbaycanda da bir çox şəhərlər xeyli böyüməsinə, əhalinin sayının artmasına baxmayaraq, polis idarələrinin ixtiyarında qalmaqda davam edirdi.

Bakı qubernatoru Kolyubyakin "yerli əhalinin kifayət qədər inkişaf etmədiyini" [62] bəhanə gətirərək, şəhərlərin idarəsini polisin əlində saxlamağı, şəhər dumalarını isə polisin yanında məşvərətçi orqan kimi yaratmağı təklif edirdi. O, 1870-ci ildə şəhər əsasnaməsini təcrübə kimi ancaq bu şəkildə və özü də təkcə Bakıdan tətbiq etməyi mümkün hesab edirdi.

Yelizavetpol qubernatoru da eyni bəhanə ilə şəhər təsərrüfatı işlərinin polis idarələri vasitəsilə idarə olunmasında, Nuxa və Şuşada o zaman fəaliyyət göstərən qaydanın saxlanılmasında təkid edirdi [63].

Qubernatorun mövqeyi canişin tərəfindən bəyənildi. 1874-cü il 28 oktyabr tarixli fərman canişinin təkliflərini nəzərə alaraq, diyarın müxtəlif şəhərlərində özünüidarə orqanların tətbiq etməyin ardıcıllığlını təyin etməyi Qafqaz hakimiyyət orqanlarının ixtiyarına verdi.

1870-ci il şəhər əsasnaməsi ancaq 1878-ci ildə, yəni təsdiq edildikdən 8 il sonra Azərbaycan şəhərlərinin təkcə birində - Bakıda tətbiq olundu.

Şəhər "özünüidarə" orqanları həddən artıq məhdud səlahiyyətə malik idi. Bu səlahiyyət şəhər vergi və rüsumlarını qoymaq, bazarları açmaq, şəhərin sanitariya vəziyyətini təmin etmək, yanğınlarla mübarizə və s. hüquqlardan kənara çıxmırdı.

Şəhər islahatını keçirmək zərurəti qarşısında qalan çar hökumət şəhər "özünüidarə" orqanlarını real hakimiyyətdən məhrum etmək və onları mütləqiyyət siyasətinə qarşı müqavimət göstərməsi üçün hər cür imkanı aradan qaldırmaq üçün əlindən gələn hər şeyi etdi. Bu məqsəd təkcə şəhər "özünüidarə" orqanlarının səlahiyyətlərini məhdudlaşdırmaq və onların üzərində inzibati nəzarət qoymaqla deyil, həm də elə seçkilər sistemi tətbiq etməklə əldə olunurdu ki, həmin sistem "əlverişli" tərkibi təmin edir və fəhlələri seçki hüququndan məhrum edirdi.

Seçkilərdə iştirak etmək hüququ ancaq müəyyən əmlak senzinə malik olanlara və şəhər vergilərinin ödəyənlərə, yəni ev sahiblərinə, tacirlərinə, fabrik və zavod sahiblərinə verilirdi. Xüsusi şəxslərdən başqa vergiləri ödəyən idarələr,

müəssisələr, cəmiyyətlər, şirkətlər, monastırlar və kilsələrdə seçki hüququndan istifadə edirdilər.

Şəhər "özünüidarəsi"ndə iştirak etmək səviyyəsi ödənilən şəhər vergilərinin məbləğinə müvafiq idi. Bütün seçicilər üç dərəcəyə (kateqoriyaya) bölünürdü. Bu dərəcədən hər birinin payına düşürdü. Birinci dərəcəyə adətən bir neçə iri, ikinci dərəcəyə yüzlərlə orta, üçüncü dərəcəyə isə minlərlə xırda vergi verənlər daxil edilirdi. Hər bir dərəcə xüsusi seçki məclisi təşkil edir və bu məclis qlasnıların (şəhər duması üzvlərinin) üçdə bir hissəsini seçirdi. Nəticədə bu bir ovuc varlı yüzlərlə, hətta minlərlə xırda tacirlər, prikazçiklər və ev sahiblərinin seçdiyi qədər qlasnı seçirdi. Beləliklə, seçicilərin dərəcələrə bölünməsi seçkilərdə iri ev sahibləri, sənayeçilər və tacirlərə üstünlüyü təmin etmək məqsədini güdürdü.

Əgər fəhlələr, xırda qulluqçular və sənətkarlar şəhərin xeyrinə yığılan vergilər qoyulan binalara malik deyildirlərsə, şəhər əsasnaməsi onlara seçki hüququ vermirdi. Qadınlar və 25 yaşına çatmamış cavanlar seçici korpusundan tamamilə kənar edilmişdilər. Bütün bu məhdudiyyətlər ona gətirib çıxarırdı ki, qlasnıların seçilməsinə şəhər əhalisinin cəmi 2-3 faizi buraxılırdı.

1870-ci il şəhər əsasnaməsi seçicilərin milli qeyri-bərabərliyini də təsdiq edirdi. Xristian olmayan seçicilərdən seçilən nümayəndələr özgə dindən olanlar kimi qlasnıların 50 faizdən çoxunu təşkil etməməli idilər. Qlasnıların seçilməsi üçün səslərin mütləq çoxluğunu almaq tələb olunurdu. Lakin nəzərdə tutulana nisbətən az sayda qlasnı seçildiyi təqdirdə, qalan qlasnıların nisbi səs çoxluğu ilə seçilməsinə icazə verilirdi. Belə qəbildən olan seçkilərin nəticəsində ilk Bakı şəhər dumasına seçkilərdə şəhərin "ataları" sırasına başlıca olaraq, iri neft sənayeçilərinin, fabrikçilər və tacirlər (V.Lalayev, H.Z.Tağıyev, Krasilnikov, M.Nağıyev, Lianozov və b.) düşdülər. Şəhər dumasının qlasnıları, hətta formal olaraq belə, seçicilər qarşısında məhsuliyyət daşımırdılar. Qlasnıların əksəriyyəti "özünüidarə" orqanlarının işində passiv iştirak edirdilər. Əgər müzakirə olunan işin nəticəsi ilə maraqlı deyildilərsə, onların çoxu dumanın iclasına gəlməyi belə özlərinə rəva bilmirdilər.

Şəhər dumasının icraedici orqanları şəhər qlavası (bələdiyyə idarəsinin başçısı) və onun başçılıq etdiyi bələdiyyə idarəsi idi. Onların seçkisi ikiqat səsvermə yolu ilə keçirilirdi. Birinci səsvermə zamanı namizədlərin irəli sürülməsi, ikinci səs vermə isə konkret şəxslərin seçilməsi məqsədini güdürdü. Bələdiyyə idarəsinin tərkibi qubernator tərəfindən təsdiq olunmalı idi. İlk dəfə və təkrarən seçilmiş şəxslər təsdiq edilmədiyi təqdirdə boş vəzifələri qubernator və ya daxili işlər nazirinin təyin etdiyi adamlar tuturdular. Şəhər bələdiyyə idarəsinin başçısı yerli burjuaziyanın nüfuzlu qrupları və hökumət orqanlarının gizli razılaşmasına əsasən seçilirdi.

Bütün nöqsanlarına baxmayaraq, 1870-ci il şəhər əsasnaməsi hər halda mütərəqqi addım idi, çünki Rusiyanın kapitalist inkişafının tələbatına cavab verirdi. Bu əsasnamə Bakı kimi iri şəhərlər üçün daha mühüm əhəmiyyətə malik

olan xüsusi şəhər idarə orqanlarının təşkil edilməsini nəzərdə tuturdu. Bakı şəhər təsərrüfatı, abadlıq və başqa işlərlə şəhər əsasnaməsini tətbiq edənlərdən, heç kim məşğul olmurdu.

Lakin, 1870-ci il şəhər əsasnaməsi əsasında tətbiq olunan, hətta məhdud və yarımçıq şəhər özünüidarəsi belə, burjuaziyanın özünün "toxunulmaz" hüquqlarına qarışması ilə barışmaq istəməyən zadəganları qıcıqlandırırdı.

1892-ci ildə III Aleksandr şəhər "özünüidarə" orqanlarının onsuz da məhdud olan hüuqularını daha da məhdudlaşdıran və şəhərlərin bu idarədə iştirakını xeyli ixtisara salan yeni şəhər əsasnaməsini təsdiq etdi [64]. Buna görə də yeni əsasnamə əslində "şəhər əksislahatı" idi.

1892-ci il şəhər əsasnaməsinə görə qubernatorun şəhərin vəzifəli şəxslərini işdən azad etmək də daxil olmaqla, inzibati məsuliyyətə cəlb etməyə qədər bütün şəhər "özünüidarə" işlərinə qarışmaq hüququ genişləndirilirdi. Şəhər dumasının, hətta şəhər idarəsinin icra orqanları üçün göstərişləri, şəhər əmlakının idarə olunması qaydaları və s. sənədlər belə ancaq qubernator tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minə bilərdi.

Yeni şəhər əsasnaməsi quberniya və iri qəza şəhərlərində tətbiq edilən ictimai idarələrlə yanaşı, kiçik şəhərlərdə sadələşdirilmiş şəhər idarəsinin təşkilini nəzərdə tuturdu.

Belə şəhərlərdə şəhər dumasının əvəzinə 12-15 nəfərlik şəhər müvəkkilləri təsis olunurdu. Şəhər rəisi başda olmaqla şəhər bələdiyyə idarəsinin əvəzinə icra orqanı – "özünüidarəsi" bir və ya iki köməkçisi olan şəhər starostası idi. Sadələşdirilmiş şəhər ictimai idarəsinin orqanları şəhər dumalarına nisbətən daha məhdud hüquqlara malik idi. Onlar hətta şəhərin abadlığı və ticarət üzərində nəzarət kimi sahələrdə belə hakimiyyətə malik deyildilər.

Gəncədə tam həcmli şəhər "özünüidarəsi" və Lənkəran, Nuxa, Şamaxı, Quba, habelə Azərbaycanın digər bəzi qəza şəhərlərində sadələşdirilmiş ictimai idarələr ancaq 1897-ci ildə tətbiq olundu. Lakin bundan sonra da şəhər idarəsi qəza polis idarələrinin əlində qalmaqda davam edirdi.

Həddən artıq yüksək əmlak senzi və 1892-ci il şəhər əsasnaməsi tərəfindən seçki hüququna qoyulan digər məhdudiyyətlər üzündən seçicilərin sayı kəskin surətdə ixtisara düşdü.

1892-ci il şəhər əsasnaməsi "özünüidarə" orqanlarının təşkili və fəaliyyətində milli qeyri-bərabərliyi daha da güclənirdi. Məsələn, Bakı dumasında qeyri-xristian (əsasən azərbaycanlı) qlasnıların sayı qlasnıların ümumi sayının üçdə birinə qədər azaldıldı [65].

Yüksək əmək senzi və seçki sisteminin digər məhdudiyyətləri, habelə seçkilərdə yol verilən qanunsuzluqlar üzündən "özünüidarə" orqanlarına əsasən iri ev sahibləri, sənayeçilər və tacirlər daxil olurdu. Məsələn, Şamaxı ictimai şəhər idarəsinin 18 müvəkkili və bu müvəkkiliyə namizədlər içərisində 10 nəfər tacir, 2

nəfər torpaq sahibi, 2 nəfər fabrik sahibi, 3 nəfər məhkəmə məmuru və 1 nəfər həkim vardı.

İctimaiyyətin digər nümayəndələri ancaq tək-tək hallarda qlasnıların tərkibinə düşürdülər. Görkəmli ictimai xadim və maarifçi Həsən bəy Məlikov (Zərdabi) bir neçə dəfə Bakı şəhər dumasına üzv seçilmişdi. O, Bakı şəhər duması məktəb və tibb komissiyalarının, habelə su təchizatı komissiyasının üzvü kimi məktəb şəbəkəsinin genişləndirilməsini, məcburi ümumi təhsilin tətbiqini tələb edir, müəllimlərin müdafiəsinə qalxır, onların iş şəraitinin yaxşılaşdırılması, əmək haqqının artırılması tələbilə çıxış edir, mədən, zavod rayonlarında yeni məktəblər açılmasını lazım bilir, qızğınlıqla korrupsiyaya və şəhəör idarəsi işçilərinin özbaşınalıqlarına qarşı çıxırdı.

H.V.Mahmudbəyov da Bakı Şəhər dumasının demokratik ruhlu üzvləri sırasında idi.

“Özünüidarə” orqanları iri kapitalist mənafelərini ifa və müdafiə edərək, polisin və tətillərin yatırılması üçün istifadə olunan qoşunların saxlanılmasına külli miqdarda vəsait xərcləyirdi. 90-cı illərin sonunda Gəncədə polisin saxlanılmasına çəkilən illik xərclər 100 min manata bərabər idi; Lənkəranda gəlirlərin üçdə birindən çoxu polisin saxlanılmasına və qoşunların məskunlaşdığı mənzillərə xərclənirdi. Bununla bərabər, abadlıq, xalq təhsili, səhiyyə və mənzil tikintisinə buraxılan vəsait çox az miqdarda idi.

Bakı şəhər “özünüidarə”sinin səlahiyyəti Bakı sənaye kompleksinin xeyli hissəsinə - mədən, zavod rayonlarına şamil edilmirdi. Bu rayonların və şəhərin özünün demokratik ictimaiyyətinin təkidli tələblərinə baxmayaraq, çar hakimiyyət orqanları və sənayeçilər mədən rayonlarını şəhərin hüdudlarına daxil etməkdən hər vasitə ilə imtina edirdilər. Onlar bu neft sənayesi proletariatının şəhər işlərinə təsirinin güclənməsinə gətirib çıxaracağından ehtiyat edirdilər. Özü də neft sənayeçiləri – kapitalistlər mədən rayonlarına öz malikanələri kimi baxaraq, onu ayrıca inzibati vahid kimi ayırmaq istəyirdilər.

Bakı burjuaziyasının mənafeləri çar hökuməti tərəfindən müdafiə olunurdu. Çünki Bakı nefti, Abşeron neft rayonu imperiyanın iqtisadiyyatı, çar xəzinəsi üçün çox böyük əhəmiyyətə malik idi. 1890-cı ilin mayında daxili işlər naziri Bakı şəhərinin mədən rayonlarında “özünüidarəyə” bənzər hər hansı orqanın yaradılması təklifini rədd etdi və orada xüsusi Balaxanı-Sabunçu polis idarəsini yaratmağı, yerli təsərrüfatların idarəsini də onun üzərinə qoymağı zəruri saydı. Neft sənayeçiləri polisə fəhlə çıxışlarına qarşı mübarizədə etibarlı dayaq kimi baxaraq, onun saxlanılması üçün vəsaiti əsirgəmirdilər. Neft sənayeçiləri mədən rayonlarının abadlaşdırılmasına, məktəb və xəstəxanaların tikilməsinə, yanğın əleyhinə tədbirlərə vəsait ayırmaq məsələsinə gəldikdə, xəsislik göstərərək, 1897-ci ildə yaradılmış Balaxanı-Sabunçu polismeysterliyinin saxlanılması üzrə külli xərcləri danışıqsız öz üzərlərinə götürürdülər.

Lakin etiraf etmək lazımdır ki, şəhər "Əsasnamələri"nin bütün çatışmazlıqlarına, onun müəlliflərinin mürtəce-müstəmləkəçi ruhuna və məqsədlərinə baxmayaraq, bu islahata müvafiq olaraq yaradılmış şəhər özünüidarə orqanları abadlaşdırılma, təhsil, səhiyyə və s. mədəniyyət sahələrinin inkişafında müəyyən müsbət rol oynamışdır.

1870-ci il şəhər islahatı və 60-70-ci illərin digər islahatları özlərinin obyektiv, sosial-iqtisadi məzmununa görə burjua islahatları idi. Çar hökuməti ayrı-ayrı güzəştlər yolu ilə bütöv dövlət sisteminin mütləqiyyət-zadəgan xarakterini qoruyub saxlamağa nail oldu.

## § 4. İNZİBATİ İDARƏDƏ DƏYİŞİKLİKLƏR

Çarizmin Azərbaycanda və digər milli ucqarlarda yeritdiyi siyasət onlarda dövlətçiliyin cüzi inkişafına belə imkan vermirdi. Qafqazda ali hakimiyyət çar canişininə məxsus idi.

60-70-ci illər Cənubi Qafqaz diyarının idarə olunmasında canişinin rolu daha da yüksəlməsi ilə xarakterizə olunur. II Aleksandrın 1856-cı ildə bu vəzifəyə təyin edilmiş uşaqlıq dostu general-feldmarşal A.İ.Baryatinski diyarın inzibati idarə edilməsində, canişinin keçirtdiyi islahatların qeydiyyatçısına çevrilmiş imperator nəzdindəki Qafqaz komitəsinin "nəzərinə çatdırmaqla" müstəqil olaraq, istənilən dəyişiklikləri həyata keçirmək hüququ aldı.

Canişin aparatı ciddi yenidənqurmaya məruz qaldı. 1859-cu ildə yanvarın 1-dən qüvvəyə minmiş "Baş idarə və Qafqaz canişini Şurası haqqında Əsasnamə"yə uyğun olaraq, canişin dəftərxanası və dövlət əmlakı ekspedisiyasının əvəzinə, maliyyə, dövlət əmlakı nazirliklərinin və digər mərkəzi orqanlarının rolunu yerinə yetirən bir sıra depardamentlər, xüsusi idarələr (ümumi işlər, məhkəmə, maliyyə, dövlət əmlak departamentləri, kənd təsərrüfatı və mühacirlərin koloniyalarının xüsusi idarəsi) meydana çıxdı [66].

Baş idarə şurası canişin Şurasına çevrildi.

Qafqazın inzibati idarəsinin yenidən qurulması əvvəlcə üç il, sonra isə yeddi il üçün nəzərdə tutulmuş təcrübə formasında həyata keçirilirdi.

1862-ci ildə Baryatinskini canişin vəzifəsində əvəz böyük knyaz Mixail Nikolayev (1862-1882) işə başlayan kimi öz sələfi tərəfindən Qafqazda yaradılmış çar inzibati aparatını ciddi şəkildə dəyişdirməyə başladı. 1865-ci ilin əvvəlində yeni canişin diyar, quberniya və qəzalardakı idarələrin bütün əsasnamə və ştatlarına yenidən baxmaq üçün Xüsusi Komitə yaratdı [67]. Komitə tərəfindən hazırlanmış layihə II Aleksandrın 1867-ci il 9 dekabr tarixli "Qafqaz və Cənubi Qafqaz diyarının idarəsinin dəyişdirilməsi haqqında fərmanı ilə təsdiq edildi [68].

"Əsasnamə" baş idarə rəisinə tabe edilməklə ümumi, maliyyə və məhkəmə işləri departamentlərinin bir departamentə birləşdirməyi nəzərdə tuturdu.

Baş idarə rəisi canişin şurasından və daha geniş hüquqları olan baş idarə şurasına çevrilmiş şuraya da başçılıq edirdi.

1881-ci ildə II Aleksandrın öldürülməsindən sonra Rusiyada irtica qüvvətləndi. Qafqazın idarəsinin daha da mərkəzləşdirilməsi onun təzahürlərindən biri oldu. Qafqaz idarəçiliyinin hər hansı müstəqilliyi ilə daha barışmaq istəməyən çar hökuməti 1883-cü ilin aprelində canişinliyi ləğv edərək, Qafqaz diyarının idarəsini eyni zamanda dairə ordu komandanı olan Qafqazdakı mülki hissə üzrə baş rəisə tapşırdı [70].

Fəhlə və kəndlilərin amansız istismara və zülmə qarşı getdikcə güclənən mübarizəsi şəraitində Azərbaycanın inzibati-ərazi quruluşunda edilən dəyişikliklər inzibati-polis nəzarətini gücləndirmək tələblərinə uyğunlaşdırıldı. 1859-cu ildə Şamaxıda baş verən, böyük dağıntılara gətirib çıxaran güclü zəlzələ ilə əlaqədar quberniya mərkəzi Bakıya köçürüldü. Şamaxı quberniyası Bakı quberniyası adlandırıldı [71].

Dağıstan və Şimali Qafqaz xalqlarının milli-azadlıq hərəkatı yatırıldıqdan sonra çar hökuməti 1860-cı il martın 5-də "Dağıstan vilayətinin idarə olunması haqqında "Əsasnamə" verdi. Bu "Əsasnamə"yə görə, Dərbənd quberniyası ləğv edildi, Quba qəzası Bakı quberniyasının tərkibinə verildi. Car-Balakən hərbi dairəsi isə başda artıq canişinə deyil, "Ali Dağıstan hərbi rəisinə" tabe edilən dairə rəisi duran Zaqatala hərbi dairəsinə çevrildi [72]. 1867-ci il 9 fevral fərmanı ilə sahələrə bölgü ləğv edildi və qəzalar xırdalandı.

İnzibati-ərazi bölgüsündə ən ciddi dəyişiklik 1868-ci ildə mərkəzi Gəncə (Yelizavetpol) olmaqla Yelizavetpol quberniyasının yaranması oldu. Bakı quberniyasından Şuşa və Nuxa qəzaları, Tiflis quberniyasından Qazaxla birlikdə Yelizavetpol qəzası, İrəvan quberniyasınhdan ləğv edilmiş Ordubad qəzasının bir hissəsi ona verildi. Ordubad qəzası ərazisinin digər hissəsi Naxçıvan qəzasının tərkibində əhalisinin çox böyük əksəriyyəti azərbaycanlılardan ibarət olan Şərur-Dərələyəz qəzaları İrəvan quberniyasının tərkibində qaldı.

Qeyd etmək lazımdır ki, bu bölgədə aparılmış inzibati ərazi dəyişiklikləri əzəli Azərbaycan torpaqlarının gələcəkdə ermənilər tərəfindən zəbt olunmasında müəyyən rol oynadı.

1874-cü ildə Nuxa qəzasının cənub hissəsi hesabına Ərəş qəzası yaradıldı. Sonralar Bakı quberniyasının tərkibində iki yeni qəza – Cavad və Göyçay qəzaları, Yelizavetpol quberniyasının tərkibində isə Qazax və Zəngəzur qəzaları yaradıldı [79]. 1883-cü ilin iyulunda Şimali Azərbaycanda daha yeni iki qəza – Cəbrayıl və Cavanşir qəzaları təşkil edildi.

Şimali Azərbaycanda Bakı və Yelizavetpol quberniyalarının, eləcə də digər yeni inzibati-ərazi vahidlərinin yaradılması irəliyə doğru addım olsa da, onlar Azərbaycan torpaqlarının siyasi-inzibati baxımdan bütövlüyünə gətirib çıxarmadı. Şimali Azərbaycanın ərazisi Zaqafqaziyanın müxtəlif quberniyaları arasında pərakəndə şəkildə qalmaqda davam edirdi.

Sahələrin ləğv edilməsi ilə bütün yerli inzibati-polis hakimiyyəti qəza rəislərinin əlində toplandı.Bütün qəza mərkəzlərində qəza idarələrinin ştatına polis vəzifələri – şəhər pristavı, onun köməkçisi və s. daxil edildi. Bəzi şəhərlərdə onlar əvvəllər də var idi. Gəncədə qəza idarəsi komissiyası tərəfindən xüsusi şəhər polisi təşkil olundu. Qəzanın sinfi mübarizəsinin daha kəskin xarakter aldığı "həyəcanlı" hissələrində polis nəzarətini gücləndirmək üçün qəza rəislərinə tabe edilən xüsusi pristavlıqların təsis edilməsinə icazə verildi. Yelizavetpol quberniyasında belə pristavlıq Samuxda da yaradılmışdı.

Çar hakimiyyət orqanlarına və yerli mülkədarlara qarşı çevrilmiş və güclənməkdə olan kəndli hərəkatı çar hökumətini Cənubi Qafqazda sahələri bərpa etməyə məcbur etdi. 1888-ci il mayın 10-da III Aleksandr "Cənubi Qafqaz quberniyalarında qəza polisinin yenidən qurulması haqqında" fərman verdi [74].

1864-cü ildə Rusiyada xüsusi hərbi orqanların yaradılmasına gətirib çıxaran hərbi dairə islahatı nəticəsində hərbi qubernatorlar hərbi işlərə rəhbərlikdən azad edildilər və quberniya rəisləri qubernator adlandırıldılar [75].

Bu dəyişiklik bir neçə il ərzində Bakı, İrəvan və Kutaisi quberniyalarında tətbiq edilmədi. Yalnız 1872-ci ildə Bakı quberniyasının idarəsi Rusiyada qəbul edilmiş ümumi əsaslarla, Bakı hərbi qubernatoru və mülki hissə üzrə rəis rütbələri Qafqaz canişininə tabe olmaqla, Bakı qubernatoru rütbəsi ilə əvəz edildi [76].

Quberniya hakimiyyət orqanları kəndlilərin pay torpaqlarının çar məmurları və bəylər tərəfindən özbaşına zəbt edilməsinə göz yumur, kənd idarəsinin polis və vəzifəli şəxslərinin qanunu zidd hərəkətləri ilə bağlı olan çoxlu şikayətləri cavabsız qoyurdular.

XIX yüzilliyin ikinci yarısında qəza inzibati idarəçiliyinin tərkibi və vəzifələrində ciddi dəyişiklik baş vermədi. Hətta sahələr bərpa edildikdən sonra da, qəza rəisi fəal inzibati-polis idarəsi orqanı kimi qalmaqda davam edirdi [77].

Azərbaycanda inzibati polis aparatının ən aşağı həlqəsi sahə pristavı idi. O, sahənin bütün sakinlərini tanımalı, onların siyasi sədaqətinə əmin olmalı, ilkin istintaq aparmalı, xəzinə və yerli mükəlləfiyyətlər üzrə vergilərin toplanmasını izləməli və onlardan bir çoxunu özü toplamalı, kənd idarələrinə göz qoymalı idi.

1852-ci ildən hərbi idarə üsulu tətbiq edilən Car-Balakən dairəsinin idarə edilməsinin yenə də əvvəlki kimi bir sıra özünəməxsus xüsusiyyətləri var idi [78]. Bu, o demək idi ki, burada idarə, Qafqazın işğal edilmiş dağ rayonlarında olduğu kimi, əlində hərbi-inzibati və məhkəmə hakimiyyəti toplamış hərbi rəisə etibar edilirdi.

Qafqazda hərbi əməliyyatların başa çatması ilə Car-Balakən dairəsində hərbi idarə "hərbi-xalq" idarə üsulu ilə əvəz edildi. O, Cənubi Qafqaz quberniyalarında qəbul edilmiş mülki idarə üsulundan fərqlənirdi. Burada quberniya idarəsinə bənzər kollegial təsisatlar yox idi. Onların funksiyalarını xeyli dərəcədə canişin dəftərxanaları, o cümlədən Tiflis quberniyasının quberniya

təsisatları yerinə yetirirdilər. Dairənin zabitlərdən ibarət olan rəhbərləri yalnız idarə deyil, həm də məhkəmə funksiyalarını həyata keçirirdilər.

Şimali Azərbaycanda kənd idarəsi kəndlilərin tabeçiliyini daha da möhkəmləndirməli, onu polis-mütləqiyyət dövlətindən hərtərəfli asılı vəziyyətə salmalı idi. 1865-ci il avqustun 11-də canişin tərəfindən təsdiq edilmiş "Tiflis və Kutaisi quberniyalarında kənd cəmiyyətləri haqqında Əsasnamə" [79] və 1866-cı il avqustun 23-də təsdiq edilmiş "Bakı quberniyasında kənd cəmiyyətləri, onların ictimai idarəsi, dövlət və ictimai mükiəlləfiyyətlər haqqında "Əsasnamə" bu məqsədə xidmət edirdi [80]. Sonuncu əsasnamə 1870-ci ilin aprelində Yelizavetpol quberniyasına da şamil edildi [81].

Bakı quberniyasında cəmisi 423 və Yelizavetpol quberniyasında 325 kənd icması yaradıldı [82].

Kənd icmalarının orqanları kənd yığıncaqları və kətxudalar idilər. Kənd yığıncaqlarında yalnız ciddi şəkildə məhdudlaşdırılmış məsələlərə; kənddə vəzifəli şəxslərin seçilməsi, hökm çıxarılması, "ziyankar və pozğun üzvlər"in kənd icmalarından uzaqlaşdırılması, qəyyum və himayədarların təyin edilməsi və s. məsələlərə baxıla bilərdi.

Kənd inzibati orqanlarının seçkili olmasını tətbiq edən hökumət kətxudaların qubernator tərəfindən, onun köməkçilərinin isə qəza rəisləri tərəfindən təsdiq edilməsi tələbini irəli sürürdü. Kətxudaya inzibati-polis hüquqları verilirdi.

Hökumət orqanları kənd icmalarında siyasi "sakitliyin" bərqərar olması üçün böyük canfəşanlıq göstərir və "etibarsızlıqda" azacıq şübhə doğurduqda onları kətxuda seçmək hüququndan məhrum edirdilər. Yalnız 1870-ci ildən 1888-ci ilə qədər təkcə Bakı quberniyasının 65 icması kətxuda seçmək hüququndan məhrum edilmiş və onlar tərəfindən təyin edilmişdi [83]. 1877-ci ildə Zaqatala dairəsində güclənməkdə olan kəndli çıxışları ilə əlaqədar bütün kənd icmalarında kətxudaların və onların köməkçilərinin seçilməsi ləğv edilmiş və burada kənd icmalarının məmurları XIX yüzilliyin sonuna qədər dairə rəisi tərəfindən təyin edilirdi [84]. Azərbaycan kəndli təsərrüfatlarının taleyində mühüm əhəmiyyət kəsb edən suvarma suyunun bölüşdürülməsini tamamilə öz əlində toplayan mirablar da kənd məmurları sırasına daxil idilər. Azərbaycanda əkinə yararlı torpaqların, demək olar ki, üçdə iki hissəsi yalnız suvarma şəraitində məhsul verə bilərdi.

Hökumət nəzarətindən kənarda qalan mirablar bir neçə onnilliklər ərzində tam özbaşınalıq edir, kəndliləri sıxışdırır, su ilə alver edirdilər. Yalnız 70-ci illərin əvvəllərində Bakı, Yelizavetpol və İrəvan qubernatorlarının sərəncamı ilə mirablar yerli hakimiyyət orqanlarına tabe edildilər. Lakin bundan sonra da onlar əslində nəzarətsiz hərəkət edirdilər.

Kənd icmalarının idarə olunması haqqında əsasnamələr kəndliləri bəylərin məhkəmə və polis özbaşınalığından xilas etdiyindən və kənddə vəzifəli şəxslərin seçkili olmasını təmin etdiyindən müəyyən obyektiv mütərəqqi əhəmiyyətə malik

idi. Lakin bu əsasnamələrin verilməsindən sonra da bəylər kənd hakimiyyəti orqanlarına təsir göstərə bilərdilər. Lakin onlar, təbii ki, kəndlilər üzərində əvvəlki hökmranlıqlarını itirmişdilər.

Seçki sistemini həyata keçirən "Əsasnamə" çar müstəmləkəçilərinin idarəsindən asılı olmayaraq və onun ziddinə kəndlilərin şüurunu müəyyən dərəcədə fəallaşdırdı, onların çoxəsrlik ətalətdən xilas olmasına və feodalların hakimiyyətinin "əbədiliyinə" olan inamlarının sarsılmasına yardım etdi [85].

XIX yüzilliyin son rübündə çar hökuməti bütün polis aparatını xeyli genişləndirdi, ona əlahiddə səlahiyyətlər verdi. Jandarmlar korpusu haqqında 1867-ci il 9 sentyabr əsasnaməsinə görə, bir çox qəza mərkəzlərində özlərini daimi əməkdaşları olan Bakı və Yelizavetpol quberniya jandarm idarələri yaradıldı [86]. Jandarmlara siyasi işlər üzrə istintaq apararkən lazımi ifadə almaq üçün hər cür vasitədən, o cümlədən müttəhimi uzun müddət istintaq etməkdən, ona psixoloji təsir göstərməkdən, fitnədən və s. istifadə etməyə icazə verilirdi [87].

Daxili işlər nazirindən başlayaraq qəza rəisinə qədər polis hakimiyyət orqanlarına çox geniş səlahiyyət verən 14 mart 1881-ci il tarixli "Dövlət təhlükəzliyini və ictimai asayişi qorumaq üzrə tədbirlər haqqında Əsasnamə"nin tətbiq edilməsi irticanın parlaq ifadəsi oldu.

1882-ci il martın 12-də açıq polis nəzarəti haqqında yeni qaydalar təsdiq edildi [88]. Polisin açıq nəzarəti altında olan şəxslərdən onun rütbəsi və yaşayış tərzi haqqında sənədlər alınır və əvəzində müəyyən yerdə yaşaması haqqında şəhadətnamə verilirdi. Nəzarət altında olan şəxslərin hökumət orqanlarının icazəsi olmadan yaşayış məntəqəsini tərk etməyə, pedoqoji fəaliyyətlə məşğul olmağa, mühazirələr oxumağa, elmi cəmiyyətlərin yığıncağında iştirak etməyə, mətbəə, fotoqrafiya, kitabxana açmağa ixtiyarları yox idi. Onlar dövləti və ictimai xidmətə buraxılmırdılar.

Daxili İşlər Nazirliyi tərəfindən 1882-ci il martın 1-də təsdiq edilmiş məxfi – polis nəzarəti haqqında əsasnamə 1886-cı ildə Cənubi Qafqazda da tətbiq edilməyə başladı [89]. Məxfi və yaxud gizli nəzarət daxili işlər nazirinin icazəsi ilə polis departamentinin öz mülahizəsinə və yaxud yerli hakimiyyət orqanlarının tələbinə əsasən "siyasi etiqadca şübhəli" şəxslərə qarşı tətbiq edilirdi.

İslahat dövründə Şimali Azərbaycanda maliyyə, ticarət və statistika orqanları sistemi yaradıldı. 1872-ci ilin avqustunda vergi və mükəlləfiyyətlərin toplanmasına ümumi nəzarət edən, tabeliyində olan quberniya və qəza xəzinələrini təftiş edən Bakı Xəzinə Palatası təsis edildi. 1873-cü ilin yanvarında fəaliyyəti Bakı və Yelizavetpol quberniyalarına, Dağıstan vilayətinə və Zaqatala dairəsinə yayılan Bakı Nəzarət Palatası yaradıldı. "Zaqafqaziyada statistika bölməsini dəyişdirmək haqqında" 2 iyun 1899-cu il qanunu əsasında qubernatorların sədrliyi ilə bilavasitə Daxili İşlər Nazirliyinin Mərkəzi Statistika Komitəsinə tabe olan quberniya statistika komitələri təsis edildi.

XIX yüzilliyin sonunda çar hökuməti fəhlə hərəkatının təzyiqi altında Şimali Azərbaycanda mədən və fabrik nəzarəti orqanları təsis etməyə məcbur oldu. 1887-ci ilin fevralında Bakıda, Bakı və Yelizavetpol quberniyalarındakı mədən sənayesi, neft, duz və digər xüsusi müəssisələrin işinə nəzarət etmək üçün II Qafqaz mədən dairəsi mühəndisinin dəftərxanası, 1899-cu ilin iyununda isə Bakı quberniyasının fabrik müfəttişliyi yaradıldı.

Fabrik qanunvericiliyinə əməl edilməsinə nəzarət üçün yaradılmış fabrik müfəttişliyi və mədən nəzarəti əslində sahibkarların mənafeyini medafiə edir, onlar tərəfindən əmək qanunvericiliyi haqqında çar qanunlarında olan çox məhdud qaydaların belə kobudcasına pozulmasına göz yumurdular. Digər tərəfdən, fabrik müfəttişliyinin nəzarəti Bakı quberniyasındakı müəssisələrin çox az hissəsinə şamil edilmişdi [90].

Beləliklə, çarizm digər ucqarlar kimi, Cənubi Qafqazın əhalisini idarə edərkən diyarın milli tərkibini, iqtisadi həyatının və məişətinin xüsusiyyətlərini nəzərə almırdı. Milli ucqarların əhalisi idarə işlərində iştirak etmək hüququndan məhrum edilmişdi. Azərbaycanlıların çoz az bir qismi quberniya və qəza mərkəzlərindəki çar idarələrinə və polisə daxil ola bilmişdi. Çar idarələri qatı irticaçı məmurlarla doldurulmuşdu. Bu məmurların özbaşınalığına qarşı edilən şikayətlər heç bir nəticə vermirdi.

Həm rəsmi hökumət idarəsi, həm də imperiyanın razılığı ilə yaradılmış yerli, özünüidarə, bələdiyyə və s. orqanlar ilk növbədə çarizmin mənafeyinə xidmət edib müstəmləkəçi siyasətin icraçıları rolunu yerinə yetirməli idilər.

*V FƏSİL*

# İSLAHATDAN SONRAKI DÖVRDƏ KAPİTALİST MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI

## § 1. NEFT SƏNAYESİNİN TƏRƏQQİSİ, NEFT İNHİSARLARININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

İltizam sistemi ləğv edildikdən sonra Bakı neft sənayesi sürətlə inkişaf etməyə başladı. Görkəmli Azərbaycan maarifçi-demokratı Həsən bəy Zərdabinin yazdığı kimi, "...hər tərəfdən buraya kapital və bilik axmağa başladı və keçmiş inzibati sürgün yerində həyat qaynadı" [1].

İltizam sistemi ləğv edildikdən sonra elə birinci il neft çıxarılması iki dəfə yarımdan çox artdı: 1872-ci ildə 1,4 mln pud, 1873-cü ildə isə artıq 3,9 mln pud neft çıxarıldı. Bu hadisədən keçən ilk onnillik ərzində neft hasilatı 35 dəfədən çox artdı. Belə ki, 1876-cı ildə Bakıda 10,6 mln pud, 1882-ci ildə isə 50 mln pud neft çıxarılmışdı [2]. Bakı rayonunda neft çıxarılmasının artımı öz sürətinə görə o dövrdə ən güclü hüsab edilən Amerika neft sənayesini xeyli qabaqlayırdı. 70-ci illərin əvvəllərində Bakı neft sənayesində məhsuldarlıq Amerikadakından 20 dəfə az idi. Lakin artıq 1894-cü ildə Bakıda neft çıxarılması 340 mln. puda çataraq, Amerikadakı ilə bərabərləşdi, sonrakı illərdə isə onu ötüb keçdi.

Neft çıxarılmasının artması xüsusilə qazma işlərinə yeni texnikanın tətbiq edilməsi ilə müşayiət olunurdu. Quyuların özülləri zərbəştanq metodu adlanan metodla qoyulmağa başladı ki, bunun da nəticəsində qazma yolu ilə ilk dəfə neftli torpağın zəngin qatlarına çatmaq mümkün oldu. 1873-cü ildə qazılmış quyular içərisində "Xələfi" adı ilə məşhur olan sahədə qazılmış quyu diqqəti xüsusilə cəlb edirdi. Bu quyudan görünməmiş güclü vuran fontan, demək olar ki, bir ay davam etmiş və hər gündə ən azı 100 min pud neft alınmışdı. Bu mənzərənin təsiri altında Balaxanı sahəsinin sahibkarı: "Özünü gözlə, Amerika!", "Yaşasın Balaxanı!", "Pensilvaniya bizdə indi gör haradır" – deyə sevinc içində qışqırmışdılar [3]. Bu fontan sahibkarlar arasında quyulara olan psixoloji inamsızlığı birdəfəlik dağıtdı və 1874-cü ildə buruqların sayı artıb 29-a çatdı.

Yaxın beş il ərzində digər mədənlərdə də zəngin yataqlar istismara başlandı. Sabunçuda quyular bir-birinin ardınca fontan vururdu. 1876-cı ildə burada 204, Balaxanıda 47, Suraxanıda 22, Bibiheybətdə 19 quyu var idi [4]. 1877-1878-ci illər ərzində Zabrat və Bibiheybətdə fontan vuran quyular istismara verildi. Tağıyevin və Zubalovun az tanınan mədənləri neft çıxarılması üzrə ən böyük müəssisələrə çevrildilər.

Quyuların, xüsusilə fontanların sayının artması neftin qiymətinin kəskin şəkildə dəyişməsinə səbəb oldu. 1873-cü ildə neftin qiyməti hələ iltizam dövrü səviyyəsində (bir pudu 45 qəpik) qalırdı. Lakin "Xələfi" sahəsindəki fontandan

sonra qiymət 6 qəpiyə endi. Güclü fontanların meydana gəlməsindən asılı olaraq vaxtaşırı təkrar olunan belə hallar iri kapitalın xeyrinə olub xırda sahibkarları var-yoxdan çıxarırdı. Bütövlükdə isə neft sənayeçilərinin sayı daim artırdı. 1873-cü ildə Bakı mədənlərində 12, on ildən sonra 79 firma fəaliyyət göstərirdi. Hasilatın artmasına çalışan firmalar yeni texnika tətbiq edirdilər. Neft sənayesi texniki çevriliş və istehsal proseslərinin yeniləşdirilməsi mərhələsinə daxil oldu. Əvvəllər neft köhnə qayda ilə əllə qazılmış quyulardan tuluqlarla, əksər hallarda jelonka ilə çıxarılırdı. Doğrudur, ilk vaxtlar o atların gücü ilə qaldırılırdı. 1873-cü ildə mədənlərdə ilk dəfə 80-cı illərin sonlarında neft sənayesində üstün mövqe tutan buxar mühərrikləri tətbiq edildi. Buxar maşınlarının tətbiqi qazma işlərində də yayılmağa başladı. 70-ci illərin sonuna yaxın ştanqları balta ilə birlikdə hərəkətə gətirən əl burulğanı əvəzinə buxar maşını tətbiq edildi. "İri maşın sənayesinin ən xarakterik əlamətlərindən biri" [5] olan buxar mühərriklərinin tətbiqi neft sənayesinin gələcək inkişafında mühüm əhəmiyyət kəsb edirdi.

Kapital axınının artması neft hasilatı, emalı və daşınması texnikasının tətbiqi ilə yanaşı, texniki təkimilləşməsinin biri də 1878-ci ildə neft mədənlərini neftayırma zavodları ilə birləşdirən buxar nasoslu ilk neft kəmərinin çəkilişi oldu. Əvvəllər neft zavodlara arabalarda daşınırdı [6]. 1879-cu ildə "Nobel qardaşları" firması tərəfindən mədənlər arasında neft və sərnişin daşımaq üçün ilk dar dəmir yolu çəkildi. Neft hasilatının artması onun saxlanılmasını təkmilləşdirməyi tələb edirdi. Adətən quyuların yanında 100-200 pudluq taxta çənlər tikilirdi. Bir qədər sonra isə 50-100 min pudluq torpaq anbarlar tikilməyə başlandı. Bu anbarlar içərisində heç nə döşənməyən və örtülü olmayan, əlüstü qazılan çalalardan ibarət idi. Belə anbarlarda neftin xeyli hissəsi torpağa hopur, Abşeron üçün adi olan günəşin və yüksək temperaturun təsiri altında buxarlanırdı. Primitiv çalaların əvəzində içəridən sementin köməyilə daş və kərpiclə döşənmiş, ağac örtüklü daha əlverişli anbarlar meydana çıxdı. Metal rezervuarlar nisbətən gec meydana gəldi. Bunula belə artıq 90-cı illərdə onların sayı xeyli artmışdı.

Neftayırma zavodlarının da sayı artırdı. 1872-ci ildə onların sayı 47, 1873-cü ildə 62 idi [7]. Bakı şəhərinin ətrafında çoxlu neftayırma zavodlarının toplaşdığı Qara şəhər adlı məskən yarandı; "belə ki, tüstüsündən və hisdən orada hər şey torpaq, binalar qaralmışdı". Bununla belə, iltizam sisteminin təsirindən və onunla bağlı olan neftin yüksək maya dəyərindən azad olan neftayırma sənayesi aksiz siyasətinin mənfi təsiri altına düşdü.

İltizam sisteminin ləğv etmiş 1872-ci il 1 fevral tarixli "Neft mədənləri və ağ neft istehsalından aksizlər haqqında" Qayda neftayırma sənayesindən dövlətin xeyrinə aksiz (vergi) toplanmasını bütünlükdə aksiz idarəsinin icazəsindən asılı idi. Aksizin həcmi neftayıran qazanlar həcminə uyğun olaraq gündəlik 4 manatdan 10 manatadək müəyyənləşdirilirdi. Əslində aksizin məbləği kiçik ağ neft zavodu üçün cüzi idi. Bununla belə, aksiz texniki tərəqqini ciddi ləngidirdi.

Aksizin tətbiq edilməsi neft məhsulları istehsalına çox pis təsir göstərdi. Aksizin hər neftayıran qazana görə toplanması ona gətirib çıxartdı ki, kiçik zavodlar gün ərzində hər qazandan bir dəfə deyil, 2-3 dəfə ağ neft almağa çalışırdılar. Bu yolla alınan neftin keyfiyyəti adətən aşağı olur və satılmırdı. Rusiya bazarlarında Amerika neftini almağa üstünlük verirdilər. Bakı neftinin qiyməti kəskin şəkildə aşağı düşmüşdü. Bu isə bir çox müəssisənin, xüsusilə kiçik müəssisələrin müflisləşməsinə səbəb oldu. Bununla yanaşı, texniki yeniliklərin tətbiqi və texnologiyanın təkmilləşməsi şəraitində istehsalın iriləşməsi və təmərküzləşməsi də baş verirdi. Əgər 1874-cü ildə Bakıda 200-dən çox neftayırma zavodu var idisə, 2 ildən sonra onların sayı 123-ə, 1899-cu ildə isə 101-ə qədər azaldı; onlardan 88 zavod ağ neft, 4 zavod benzin, 5 zavod yağ, 3 zavod asfalt və qudron istehsalı ilə məşğul idi.

1877-ci il sentyabrın 1-dən akisizin toplanması ləğv edildi, bu da bürokratik inzibati nizamasalma şəraitini yumşaltdı və müsbət əhəmiyyətə malik idi. 80-cı illər ərzində Bakı zavodlarının istehsal etdikləri ağ neftin, benzinin və yağın həcmi 8 mlnj . puddan 68 mln. puda çatdı. Ölkənin yanacaq balansı kəskin dəyişdi. 80-ci illərdə Xəzər və Volqa gəmiçiliyi, həmçinin dəmiryol nəqliyyatının bir hissəsi yanacaq kimi mazutdan istifadə etməyə başladı. Mazutdan istifadə 1880-ci ildə 7 mln puddan 1900-cü ildə 264 mln puda qədər və yaxud 20 ildə 37 dəfə artdı [8].

Zavodların məhsuldarlığı da hiss olunacaq dərəcədə artdı. 1878-ci ildə o, 6,4 mln puda, 1881-ci ildə isə 12,5 mln puda bərabər idi. Bakı nefti və onun məhsulları əsasən Rusiyanın daxili quberniyalarına aparılırdı. Cənubi Qafqaz dəmiryolunun tikintisinə qədər neftin daşındığı yeganə yol Xəzər dənizi idi. Əvvəllər nefti yelkənli gəmilərə yüklənmiş çəlləklərdə Həştərxana qədər, sonra isə Volqa ilə yuxarılara aparırdılar. Neftdaşıma işi artdıqca, neftdaşıyan gəmilər meydana gəldi. 70-ci illərdə neft və onun məhsullarını daşımaqla məşğul olan ayrıca cəmiyyətlər yarandı. Bu cəmiyyətlər arasında “Qafqaz və Merkuri” cəmiyyəti mühüm yer tuturdu. “Lebed”, “Drujina” cəmiyyətləri, Bakı neft cəmiyyəti, xüsusi şəxslər – Mirzoyevlər, Dadaşovlar, Artyomovlar və başqalar da neft daşınması ilə məşğul olurdular [9].

İltizam sistemi ləğv edildikdən sonra Amerikanın Rusiyanın yanacaq bazarındakı üstün mövqeyi sarsıldı. 1873-cü ildə Rusiya ABŞ-dan 2,705 mln. pud neft və neft məhsulları gətirmişdi. Bakıdan isə cəmisi 400 min pud ağ neft aparılmışdı. Beş ildən sonra Amerikadan neft idxalı 2 mln pud olduğu halda, Bakıdan aparılan neftin miqdarı 4,6 mln pud təşkil etmişdi. Xarici ölkələrdən gətirilən neftin hər puduna 55 qəp gömrük qoyulması haqqında hökumət aktı verildi. 1883-cü ildə Bakıdan Rusiya bazarlarına artıq 12,5 mln. pud neft məhsulları daxil oldu. Amerikadan neft idxalı isə tamamilə kəsildi. Baş vermiş qıtlığın, dəmir yolu tikintisinin və həmçinin 1880-ci illərdə Qərbi Avropada baş

vermiş böhranın təsiri altında 1881-1882-ci illərdə Rusiyada ağır böhran, onun ardınca isə uzun müddət davam edən depressiya başlandı.

Bu illərdə neft sənayesində vəziyyətin ağır olduğunu həm də o sübut edirdi ki, neft sənayeçiləri tez-tez neft və mazut ehtiyatlarını dənizə və Abşerondakı göllərə axıdır, yandıraraq məhv edirdilər. Ramana gölündə neft sənayeçilərinin axıtdığı külli miqdarda neft yandırılmışdı. 1886-cı ildə H.Z.Tağıyev özünün güclü fontan vurmuş Bibiheybət mədənində pulsuz neft təklif edirdi [10]. Neft sənayesindəki böhran 80-cı illərin ikinci yarısında canlanma və yeni yüksəlişlə əvəz olundu. Bu, neftin ölkənin xalq təsərrüfatında tətbiqinin daha da genişlənməsinə və duru yanacağa tələbatın artmasına yardım etdi. 1884-1889-cu illərdə bir sıra dəmir yolları neft yanacağından istifadəyə keçdilər. Xəzər və Volqa donanmasının, ölkənin mərkəzi quberniyalarının bir çox fabrik-zavod müəssisələrinin neft istehlakı artdı [11].

Belə bir şəraitdə 1890-cı ilə yaxın neftin qiyməti xeyli artdı. Quyuların qazılması xeyli sürətləndi. 1891-ci ildə neft hasilatı 1883-cü illə müqayisədə 4,8 dəfə artdı.

Mədənlərin texniki təchizatında yeni müvəffəqiyyətlər əldə edildi. Qazmada və neft çıxarılmasında yerli mühəndislər tərəfindən yaradılmış daha mükəmməl avadanlıqlar tətbiq edildi. Neft sənayesinin enerji təchizatı artdı.

Neft sənayesinin yüksək inkişaf sürəti azad kapitalın çatışmadığı Rusiya bazarının imkanlarını qabaqlayırdı. Bununla belə, ölkədə daha çox kapital qoyuluşu tələb edən bu sahənin xarakterik xüsusiyyətlərindən biri məhz iri istehsalın inkişafı idi. Texniki inqilabla müşayiət olunan neft təsərrüfatının coşqun inkişafı əsaslı vəsait tələb edirdi. Ancaq uzunmüddətli müvəfəqiyyətə o firmalar ümid bəsləyə bilərdilər ki, onların həm neftli torpaqlara, mədən və zavodlara, həm də xüsusilə neft məhsullarının saxlanılmasına və daşınmasına kapital qoymağa imkanları olsun. Adətən belə imkanlara ancaq ən böyük neft istehsalçıları malik idilər. 1883-cü ildə Bakıda ildə 20 mln. puddan çox neft istehsal edən ancaq bir firma mövcud idi. 1890-cı ildə belə firmaların sayı artıq 8 idi və bütünlüklə çıxarılan yanacağın 65,4 faizi onların payına düşürdü. Neft emalı sənayesində də istehsalın belə yüksək təmərküzləşmə göstəriciləri özünü göstərirdi. Elə həmin 1890-cı ildə 148 neftayırma zavodunun 13 ən irisi (9 faizdən az) işıqlandırma üçün istehsal olunan bütün yağın $^{3}/_{4}$ –nü və yaxud 51 mln pudunu istehsal edirdilər. Onların arasında “Nobel qardaşları” şirkəti, Xəzər-Qara Dəniz neft Sənayesi Cəmiyyəti (Rotşildlər) firmaları, Xəzər şirkəti, Şibayevin, Nağıyevin, Lianozovun, Adamovun, Budaqovun və Əsədullayevin firmaları var idi [12].

Özünün meydana gəldiyi dövrdə kapitalist neft sənayesi kapital qoyuluşunun iki əsas mənbəyinə - bir tərəfdən, Azərbaycan və Cəbnubi Qafqazın iqtisadiyyatının başqa sahələrinə, digər tərəfdən isə Mərkəzi Rusiyanın kapital axınına malik idi. Birinci mənbə H.Z.Tağıyevin, M.Nağıyevin, A.İ.Mantaşovun, Q.M.Lianozovun və digərlərinin simasında Azərbaycan və erməni kapitalı

tərəfindən yaradılmış, ikinci mənbə isə Peterburq metal zavodçuları L.E.Nobel və P.A.Bilderlinq, Moskva tikiş fabrikçisi S.M.Şibayev və başqaları ilə təmsil olunmuşdu [13].

Sahənin ən böyük müəssisəsi 1879-cu ildə əsas kapitalı 3 mln manat (1884-cü ildən 15 mln manat) olan, səhmdarlıq əsasında təşkil edilmiş "Nobel qardaşları" neft istehsalı şirkəti idi.

Kompaniyanın təsisçiləri Lüdviq Nobel və peterburqlu baron və sənayeçi, İjevsk şəhərindəki silah zavodu üzrə Nobelin ortağı P.A.Bilderlinq idilər.

Çar hökuməti xarici sahibkarlığa xeyirxah münasibət bəsləyirdi. 1886-cı il mayın 1-də xüsusi yığıncağın xaricilərin Bakı rayonunda neft mədənlərinə buraxılması məsələsi üzrə qərar qəbul olundu. Qərar "Xaricilərin və xarici cəmiyyətlərin hazırkı şəraitdə rus neft sənayesində iştirakının faydalı və məqsədəuyğunluğunu" elan etdi.

80-cı illərin ortalarında Rotşildlərin Paris bankir evi Rusiyada alınmış və fəaliyyətdə olan müəssisələrin əsasında daha bir iri kompaniyanın – Xəzər-Qara dəniz Cəmiyyətinin əsasını qoydu. İngilis kapitalının Bakının iqtisadiyyatına soxulması 90-cı illərin ikinci yarısına aiddir. 1898-ci ilə yaxın Bakıda yenə də hazır müəssisələrin əsasında təşkil olunmuş altı ingilis neft sənayesi kompaniyası fəaliyyət göstərirdi. Müəssisələrin satın alınması üçün yalnız bir il ərzində ingilis işbazları yerli kapitalistlərə 12 mln manatdan çox pul vermişdilər.

İngilis kapitalının güclü axını çarizmin maliyyə vəziyyəti və xarici siyasi niyyətləri ilə izah olunurdu. Çar hökuməti bu yolla İngiltərənin imperialist dairələrinin bir hissəsində Rusiya əleyhinə olan əhvali-ruhiyyəni neytrallaşdırmağa çalışırdı. Güclü hərbi dəniz donanmasına malik olan İngiltərə üçün Bakı rayonunun strateji əhəmiyyəti var idi. Bundan əlavə, İngiltərə ilə müqayisədə çar Rusiyasında "fəhlələr həyat səviyyəsi, onların əmək haqqı xeyli aşağı idi". Buna görə də buraya kapital qoyuluşu Sitidən olan sahibkara külli miqdarda gəlir vəd edirdi [14].

Yerli müəssisələrin xarici kapitalın nəzarəti altına keçməsi onların səhmdar cəmiyyətinə cəlb edilməsi yolu ilə həyata keçirilirdi. Bu proses sənayesinin, o cümlədən xarici hesab edilən müəssisələrin təşkilat-maliyyə quruluşuna özünəməxsus təsir göstərirdi.

1897-ci ildə Bakının ən iri firmalarından biri – "H.Z.Tağıyev" firması bir qrup ingilisə: Q.Qladstona, Ç.Mura və b. satıldı. Çoxprofilli kombinatın bütün təsərrüfat kompleksi – neft mədənləri, ağ neft yağ və kükürd turşusu zavodları, neft kəməri, neftdaşıyan gəmilər, firmanın dəmir yolu sisternləri parkı və həmçinin Rusiyanın bir çox şəhərlərində ağ neft və mazut saxlamaq üçün anbarlar 5 mln manat müqabilində ingilis işbazlarının əlinə keçdi. Bu müəssisələrin bazasına "Oleum" adı altında səhmdar cəmiyyəti təsis edildi. Səhmlərin nəzarət paketi və kompaniyanın fəaliyyətinin idarə mexanizmi, ingilis kapitalistlərinin əlində cəmləşdi. Lakin əvvəlki sahibkar yeni təsis edilmiş kompaniyanın rəhbərliyi sistemində özünü yerlə təmin edə bildi. Öz müəssisələrinin "satın alınmış

qiymətinə tələbatını qismən ödəmək üçün" o, yeni kompaniyanın dəyəri 165 min funt sterlinq (1,6 mln manat) olan iri səhm paketini öz əlində saxladı [15]. Bu paket "Oleum"un əsas kapitalının 13,7 faizinə bərabər idi. Buna görə də H.Z.Tağıyev ingilis bankının direktoru E.Qubbardla birlikdə "Oleum"un idarə heyətinin direktorlarından biri seçildi. Beləliklə, yerli kapitalın neft işində, o cümlədən neft müəssisələrinin gəlirlərinin bölünməsində iştirakı yeni forma aldı.

Milli burjuaziya neft işində çoxmilyonlu yığımdan kapitalist istehsalının yeni sahələrinə, xüsusilə yüngül və emal sənayesinə, nəqliyyat və digər sahələrə soxulmaq üçün istifadə etməyə cəhd göstərirdi. Tağıyevlərin 1898-ci ildə fəaliyyətə başlayan "Lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti" adlandırılan səhmdar müəssisəsinin yaranması da bu məqsədə xidmət edirdi. Müəssisənin tikintisinə 6 mln. manat xərclənmişdi. Vəsait və qüvvələrin sənaye fəaliyyətinin yeni sahələrinə keçirilmiş yerli kapitalistlərin niyyətləri ilə birbaşa əlaqədar idi.

Xarici kapitalın neft istehsalında mövqeyinin genişlənməsi və möhkəmlənməsi rus burjuaziyasının və onun mənafeyini ifadə edən bəzi çar məmurlarının müəyyən müqavimətinə rast gəldi. Çar hökuməti 80-cı illərin ortalarında neftli torpaqların xaricilərin mülkiyyətinə keçməsini məhdudlaşdırmaq haqqında məsələ müzakirə etmək qərarına gəldi. Lakin bu məsələnin həlli 1888-ci ilin martında "kapital cəhətdən Rusiya kimi çox yoxsul olan ölkəyə kapitalın buraxılışını tamamilə dayandırmağı çətin ki, faydalı hesab etmək olar" [16] – fikrini söyləmiş maliyyə nazirinin müqavimətinə rast gəldi. Maliyyə nazirinin bir sıra dəlillərini rədd edən nazirlər komitəsi, bununla belə, xarici kapitalın rus neft sənayesindən tamamilə kənar edilməsinin faydalı olmadığı fikrini düzgün hesab etdi və bildirdi ki, belə tədbirlər "...xarici birjalarda mənfi təsərrüfat" yarada bilər. Bununla əlaqədar qərarda göstərilirdi ki, "ilk vaxtlar neftli torpaqların bir əldə cəmlənməsinə mane olmağa yönəldilmiş yalnız müəyyən məhdudiyyətlərlə kifayətlənilsin" [17].

Neft istehsalının başlıca özünəməxsusluğu xammal mənbəyinə - neftli torpaqlara mülkiyyətin xarakteri ilə başlı idi. Çarizmin torpaq siyasəti bu zaman həlledici amil kimi çıxış edirdi. Bu siyasətdə ziddiyyətli, əksər hallarda isə bir araya sığmayan meyillər: azad kapitalist işbazlığının dövlətin neftli torpaqların ali mülkiyyətçisi kimi imtiyazının saxlanılması ilə, hakim sinfin – təhkimçi mülkədarların mənafeləri ilə birləşdirmək cəhdləri özünü göstərirdi.

1 fevral 1872-ci il "Neft mədənləri və ağ neft istehsalından aksizlər haqqında" Qaydalar "mədən azadlığı" prinsipini elan etdi. Bütün silklərdən olan şəxslərə - həm Rusiya vətəndaşlarına, həm də xaricilərə Abşeronda torpaq ayrılması, neft axtarışı və çıxarılması hüququ verilirdi. Lakin hökumət bu Qaydaların həyata keçirilməsini dərhal dayandırdı. Doğrudur, sonrakı 12 il ərzində neft sənayeçiləri tez-tez torpaq sahələri ələ keçirir və yaxud dövlət kəndlilərindən torpaq icarəyə götürürdülər [18].

Digər aktla, 1872-ci il 17 fevral “Qaydaları” ilə “əvvəllər iltizamda olan dövlət neft mədənlərini müzaidə yolu ilə şəxsi adamlara vermək nəzərdə tutulurdu”. Həmin ildə baş vermiş müzaidə zamanı 174 desyatin torpaq (onlardan 150 desyatini Balaxanıda idi) satıldı.

Lakin 80-cı illərin ortalarında çarizmin siyasətində yeni kurs müşahidə olunmağa başladı. Təkcə sərbəst xəzinə torpaqlarının şəxsi adamlara ayrılması deyil, həm də kəndlilərə xəzinə icma torpaqlarının təkini istismar etmək hüququ verən rəsmi qaydaların da fəaliyyəti dayandırıldı.

Digər tərəfdən, hökumət kəndlilərin istifadəsində olan məhz xəzinə icma torpaqlarının fondunu artırmaq qərarına gəldi. Balaxanı və Digah kəndlərindəki 1420 desyatinə yaxın kəndli torpaqlarının kütləvi müsadirə aktı 1882-ci ildə həyata keçirildi. 1890-cı il 9 fevral qanununa əsasən isə kəndlilərdən heç bir əvəz ödənilmədən 4967,5 desyatin torpaq alındı [19]. “1890—cı il qanunu gücə əsaslanırdı və güc vasitəsilə həyata keçirildi. Torpaqları tikilmiş evlər müzaidə ilə satılırdı. Kəndlilərin şikayət və müraciətləri nəticəsiz qalırdı” [20]. Neft mədənləri haqqında 1892-ci il 3 iyun “Qaydaları” ilə Abşeron yarımadasının bütün neftli torpaqları xüsusi şəxslərin istifadəsi üçün bağlı elan edildi. İndi torpaqlar hər sahədən mütləq minimum haqq müqabilində verilə bilərdi. Müzaidənin şərtlərini və vaxtını hökumət özü müəyyənləşdirirdi. Xəzinə neftli torpaqlarının icarə sistemi nəzarəti dərinləşdi. Pud hesabı şəklində xəzinənin xeyrinə toplanan renta da artdı [21].

Bütün bunlar sonrakı illərdə neft istehsalının inkişafına ciddi təsir göstərərək onun maya qəyərini qaldırdı.

Çarizmin “yeni kursu” sazişçi xarakter daşıyırdı. Dövlətin gəlir mənbələrindən olan neftli torpaqların vasitəsilə onun burjuaziyanın sərəncamına keçməsindən narazı olan irticaçı mülkədarların və burjuaziyanın yuxarı dairələrinin tələbatı ödənildi. Yeni torpaqların kütləvi müsadirəsi məhz sonuncuların mənafeyi baxımından keçirilmişdi. Çarizmin aktlarının kapitalizmin inkişafı yolunda əngəllər törətməsinə baxmayaraq, əslində burjuaziyanın “cilovlanması” olmadı və ola da bilməzdi.

Birinci müzaidələr 1896-cı ildə baş verdi. Sahələrin $^{2}/_{3}$ hissəsi ən iri kampaniyalara – “Nobel qardaşları şirkətinə (satılmış bütün sahələrin yarıdan çoxu), Xəzər – Qara dəniz Cəmiyyətinə, Kaspi şirkətinə və başqalarına çatdı. İkinci və üçüncü müzaidələr də belə nəticələndi.

Neftli torpaqlara münasibətdə çarizmin siyasətinin nəticələri deyilənlərlə bitmir. Onun nəticələrindən biri neftli torpaqlarından istifadə şərtlərinin hədsiz rəngarəngliyi idi. Kənd icmaları ilə müqavilə əsasında istismar olunan torpaqlarda, təsərrüfat sahibkarlarının özləri tərəfindən idarə olunan şəxsi mülklərdə, həmçinin ayrılma hüququ adlandırılan hüquqi əsasda istismarda olan sahələrdə icarə haqqı çox mötədil və yaxud cüzi idi. Simvollik haqq – bir desyatinə 10 manat müqabilində (1896-cı ildə 100 manata qaldırılmışdı) müddətsiz olaraq neft

sənayeçilərinə 1872-ci ildə müzaidə ilə satılmış sahələr də təxminən bu vəziyyətdə idi. Burada icarə şərtləri (birdəfəlik haqq, paydan ayırma və hər puddan haqq) çıxarılan neftin 25 və daha çox faizini udurdu [22]. Şərtlərin bu dərəcədə uyğunsuzluğu ancaq özlərinin neftli torpaq fondlarının əsasını 70-80-ci illərdə ələ keçirdikləri çox zəngin və həm də çox ucuz sahələrdən qoymuş iri firmaların xeyrinə idi. Bunula belə, iri firmalar yüksək maya dəyəri şəraitində torpaq sahələrini ələ keçirmək və eyni zamanda yeni firmaların rəqabətinə yol vermədən neftli torpaqların təmərküzləşməsini gücləndirmək üçün kifayət qədər maliyyə vəsaitinə malik idilər.

Neft sənayesində kapitalist təsərrüfatının təşkilinin hakim forması olan istehsal vasitələri üzərində səhmdar kampaniyaları inkişaf edirdi. İlk iri səhmdar kampaniyalarının ardınca bu tipli bir sıra yeni müəssisələr də meydana gəldi (sonralar Xəzər-Qara dəniz Cəmiyyətinə çevrilmiş Batum neft sənayesi və ticarət cəmiyyəti, "Neft", "S.M.Şibayev və K$^{o}$", "Mirzoyev qardaşları" və s.) Əslində neft təsərrüfatının səhmdarlıq əsaslarına çevrilməsi mövcud fərdi-ailəvi firmaların və ticarət evlərinin əsasında yaradılırdı. 90-cı illərin əvvəllərində 13 səhmdar müəssisəsi fəaliyyət göstərirdi. Onlar firmaların ümumi sayının 7-11%-ni təşkil etsələr də, Bakıda çıxarılan bütün neftin 27-45%-ni verirdilər. Səhmdar müəssisələrin neft sənayesinə qoyduqları kapitalın ümumi məbləği də yüksək idi və bütövlükdə Rusiyanın dağ-mədən sənayesini xeyli qabaqlayırdı. 90-cı illərin II yarısında bu sahənin səhmləşdirilməsi prosesi xüsusilə geniş vüsət aldı [23]. Neft sənayesinin yüksək təmərküzləşməsi və intensiv səhmləşdirmə prosesi onun inhisarlaşdırılmasının mühüm şərtlərindən oldu.

80-cı illərin əvvəllərində "Nobel qardaşları" birliyinin daxili bazarda neft məhsulları ilə ticarətdə üstünlüyü özünü büruzə verdi. Kampaniyanın bu vəziyyəti nəqliyyat-satış təşkilindəki üstünlük hesabına təmin edilirdi. Buna görə də heç də təsadüfi deyildi ki, ən iri müəssisələrin kapitalının böyük hissəsi bilavasitə istehsal sahəsində deyil, nəqliyyat və satışın təşkilinə qoyulurdu. Qüdrətli çoxsahəli istehsal-nəqliyyat-satış kombinatının çevrilmək yolu ilə inkişaf edən "Nobel qardaşları" şirkətində neft avbarları, gəmilər, sisternlər və neft kəmərləri 80-cı illərdə əmlakın 74,5%-ni təşkil etdfiyi halda, mədənlər, zavodlar və neftli torpaqlar bir yerdə əmlakın yalnız 25,5%-ni təşkil edirdi [24]. Qryaze-Tsaritsın dəmir yolunda 1,500 xüsusi vaqon-sisternlərə malik olan Nobellər neft məhsullarının Volqa üzərindəki körpülərdən və daxili bazarlarda quru yollarla daşınmasında çox mühüm mövqe tuturdular.

Şirkət Xəzər dənizində tanker donanmasının pioneri kimi çıxış etdi. 1878-ci ildən onların sifarişi ilə İsveçdə hazırlanmış dünyada birinci neft tankeri "Zoroastr" Bakı ilə Həştərxan arasında hərəkətə başladı. Bir ildən sonra yeni, daha böyük "Moisey" tankeri sifariş verildi [25]. Halbuki ingilis "Şell transport end treydinq kompani" kampaniyasının Transatlantik neftdaşımaları üçün tankeri

yalnız 1892-ci ildə tikdirilmişdi [26]. Beləliklə, “Nobel qardaşları” birliyi Rusiyanın daxilində quru və dəniz kommunikasiyalarında inhisarçıya çevrilmişdi.

Elə həmin vaxt “Nobel qardaşları” şirkəti Bakı ağ neftini Qərbi Avropada satmaq üzrə xüsusi təşkilatını yaratmağa başladı. 1882-1883-cü illər ərzində “Nobel qardaşları” şirkəti Rusiyada ağ neftlə ticarəti bütünlüklə özünhə tabe etmək üçün ilk dəfə cəhd göstərdi. O, qondarma şəxslərin – neft ticarəti sindikatının layihəsini irəli sürdü.

Sindikatlaşdırmaya meyil bir neçə ildən sonra neft istehsalında ifrat istehsalla bağlı baş vermiş böhran və Rusiyadan ixrac edilmiş məhsulların satışında yaranmış çətinlik dövründə özünü daha aydın göstərdi. 1886-cı ilin yanvarında dörd ən iri zavod sahiblərindən olan H.Z.Tağıyev bütün zavod sahiblərini sindikatda - Bakı ticarət birliyində birləşmələri ideyasını irəli sürdü. Layihədə Bakı ağ neftinin ixracının təşkili və dünya bazarları uğrunda Amerika inhisarları ilə mübarizə məsələsi əsas yer tuturdu. Ticarət ixracat sindikatı çox böyük firma kimi düşünülmüşdü. Əsas cəhət bundan ibarət idi ki, sindikatın fəaliyyət dairəsi ticarətlə məhdudlaşdırılmırdı: bütün üzvlər üçün vahid qiymətə neftin, kükürdün, sodanın və digər xammalın satın alınması, gəmiçilikdə vahid yükdaşıma xərcinin müəyyənləşdirilməsi də onun üzərinə qoyulurdu. Elə həmin ildə sindikat xarakterli praktiki sazişlər bağlandı, lakin iri zavod sahibləri arasındakı kəskin ixtilaflara görə onlar uzun müddət davam etmədi və pozuldu.

80-ci illər ərzində Bakı-Batum neft kəmərinin tikilməsi məsələsi ətrafında kəskin mübarizə gedirdi. O, neft məhsullarının daşınması və ixracı problemi ilə sıx bağlı idi və real inhisarçı mənafelərin toqquşmasını güzgü kimi əks etdirirdi.

Neft kəməri ideyası Cənubi Qafqaz dəmir yolunun Bakı neftinin dünya bazarlarına çıxarmaq imkanının olmaması ilə bağlı idi. Problemin “daha real həlli vasitəsi” hesab edilən neft kəməri tikintisi isə 11 il ləngidilərək, yalnız 1896-cı ildə başlandı.

Neft istehsalının inhisarlaşması uğrunda başlamış mübarizənin qızğın çağında sahə sahibkarlıq təşkilatı - Bakı neft sənayeçilərinin qurultayı təşəkkül tapdı. Bakı neft sənayeçilərinə hər il qurultaylarını çağırmağa icazə vermək haqqında Nazirlər Komitəsinin Əsasnaməsi 1884-cü il yanvarın 24-də çar tərəfindən təsdiq edildi. Quraltaylar ilk vaxtlar iqtisadi vəziyyətindən asılı olmayaraq, bütün sənayeçilərin mənafelərini əks etdirən - ümumiyyətlə “neft sənayesinin ehtiyac və məsələlərini müzakirə etmək üçün” bir təşkilat kimi düşünülmüşdü. Firmalar üçün heç bir senz məhdudiyyəti mövcud deyildi. Lakin artıq IV qurultayda (1888-ci il) iri firmalar “qurultayda iştirak etməyin müəyyənləşdirilməsində kiçik firmalarla düz gəlməyərək”, müxalifətə keçdilər, növbəti ildə keçirilən qurultayda isə qurultaylar şurasının işini tamamilə pozdular [27]. Onların bu cəhdi onunla nəticələndi ki, V qurultay tərəfindən qəbul edilmiş əsasnamə ilə senz sistemi tətbiq edildi. Bundan sonra firmaları qurultay təşkilatında nümayəndəlikləri neft hasilatı, emalı və daşınmasının miqdarı ilə müəyyənləşdirilirdi.

Belə ki, "Nobel qardaşları" şirkətinin səslərinin sayı 117-yə qədər və yaxud bütün səslərin 16%-nə qədər artdı [28]. 1893-cü ildə Əsasnamənin paylarına ümumi məhsuldarlığın $^{2}/_{3}$-si düşən iri firmalara səslərin yarısın, verən yeni redaksiyası qəbul olundu. Səslərin digər yarısı isə daha aşağı senz üzrə yerdə qalan bütün sənayeçilər arasında bölüşdürüldü. Bununla da qurultaylar təxminən bir qrup iri firmanın orqanı və onların neft istehsalını inhisarlaşdırmaq cəhdlərinin ifadəçisi oldu. Qurultaylar neft-sənaye burjuaziyasının, xüsusilə onun inhisarçı yuxarı təbəqəsinin təşkilati cəhətdən birləşməsi və onun dövlət aparatı ilə qovuşması üçün mühüm vasitə oldu. 1890-cı ildən Bakı neft sənayeçilərinin qurultayları şurası Peterburqda özünün ştatlı nümayəndəsinə malik idi və bütün mühüm məsələlər üzrə çar hökuməti qarşısında məsələ qaldırırdı. Çar hökuməti isə öz növbəsində bildirirdi ki, "neft sənayesi ilə əlaqədar heç bir məsələ əvvəlcədən Bakı neft sənayeçiləri ilə müzakirə olunmadan hökumət tərəfindən həll edilməyəcək" [29]. Qurultaylar Şurası işgüzar nümayəndəlik funksiyasını, fəhlələr əleyhinə siyasətlə burjuaziyanın qüvvə və vəsaitini, çarizmin hərbi-polis cəza aparatı ilə birləşdirirdi. 1897-ci ildə çarizm Balaxanı-Sabunçu polismeysterliyini təsis etdi. Onun saxlanılmasına sərf olunan xərclər ona görə bütünlüklə qurultay Şurasının fondu hesabına ödənilirdi ki, Balaxanı-Sabunçu polis idarəsinin ştatlarının təsis edilməsi yalnız neft sənayeçilərinin özlərinin ehtiyacı və onların təşəbbüsü ilə bağlı idi. Qurultaylar Şurası özünün iki həftəlik mətbuat orqanına – "Neftyanoe delo" jurnalına malik idi. Qurultaylar şurasının fəaliyyəti ilə bağlı bütün xərclər, firmaların "könüllü" üzvlük haqları, 1893-cü ildən isə məcburi yığımlar hesabına ödənilirdi [30].

1892-1893-cü illərdə neft sənayesi 90-cı illərin əvvəllərində Rusiya sənayesinin qismən böhranı ilə əlaqədar yeni böhran keçirirdi. Neft sənayesinin yeni böhranı əsasında neft məhsullarının həddən artıq istehsalı dururdu ki, bu da onların qiymətlərinin kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdu. Yalnız 1894-cü ilin sonunda neftə olan qiymətlərin qalxması neft məhsulları istehsalının artması ilə əlaqədar neft sənayesi böhran vəziyyətindən çıxdı. Sonrakı illərdə qazma və neft hasilatının inkişafı sürətlə gedirdi. Əgər 1894-cü ildə Bakı rayonunda 12,9 min sajen qazma işi aparılmışdısa, 1900-cü ildə bu 83,1 min sajenə çatırdı.

90-cı illərin ikinci yarısının sənaye yüksəlişi şəraitində Bakının neft emalı sənayesi öz istehsalını xeyli genişləndirdi. Bu illər ərzində istismar olunan quyuların sayı 3,2 dəfə artdı.

90-cı illərin ikinci yarısında Bakıda neft hasilatı xüsusilə inkişaf edirdi. 1900-cü ildə o, 1870-ci illə müqayisədə 400 dəfədən çox artıb 601,2 milyon puda çatmışdı.

1898-ci ildə Bakı neft hasilatına görə Amerika Birləşmiş Ştatlarını ötdü. 1900-cü ildə illik məhsuldarlığı 10 milyon pud olan və firmaların ümumi sayının 8,8%-ni təşkil edən 13 firma neft hasilatının 67,1 faizini verirdi [31]. 1900-cü ildə "Nobel qardaşları" şirkəti Xəzər-Qara dəniz Cəmiyyəti ilə birlikdə Bakıdakı 8 ən iri firma (hər birində hasilatın miqdarı 20 mln. puddan çox) sırasında "Mantaşov və K°",

Bakı Neft Cəmiyyəti, Xəzər şirkəti, Rus nefti və duru yanacağını çıxarmaq üçün cəmiyyət ("Oleum"), Mirzoyev qardaşları, Rus neftinin Bakı cəmiyyəti firmaları da var idi.

Ümumi sindikat yaradılması məsələsi ilə əlaqədar neft sənayesi qüvvələrinin "qütbləşməsi" prosesi 90-cı illərin əvvəllərində yeni mərhələyə qədəm qoydu. 1891-ci ildə 4 yerli firmanın "Bakı standartı" adlandırılan birliyi meydana gəldi. Bu, Mantaşevin, Tağıyevin, Lianozovun və Budaqovun firmaları idi. "Nobel qardaşları" şirkəti yaranmış vəziyyətdən istifadə etməyi qərara aldı. Növbəti ilin noyabr-dekabrında "Yeddi böyük firmanın ittifaqı" adlı yeni birlik yarandı. Birlik həm də "Bakı standartı"nı, Rotşildlərin Xəzər-Qara dəniz Cəmiyyətini və "S.M.Şibayev və K°"-nı öz himayəsinə cəlb edə bildi [32].

Bakı firmalarının birliyi çox böyük qüvvə idi. Bakıda ağ neft istehsalının $^{3}/_{4}$-dən bir qədər azı "Yeddi böyük firmanın ittifaqının", o cümlədən 25,5%-i "Nobel qardaşları"nın, 35,7%-i öz növbəsində ağ neft istehsal edən bütöv bir qrup xırda və orta zavodlarla ittifaqda olan Xəzər-Qara dəniz Cəmiyyətinin və 13%-i "Bakı standartı" firmasının payına düşürdü [33]. Bununla da Rusiyada əsas ağ neft istehsalçıları ilk dəfə olaraq kifayət qədər iri birliyə nail oldular ki, bu da onlara Amerikanın "Standart Oyl" firması ilə dünya ağ neft bazarını bölüşdürməyə və Bakı firmaları üçün "sahələr" müəyyənləşdirməyə imkan verdi. 1893-cü ilin payızında Parisdə dünya bazarlarında ağ neft ticarəti normaları haqqında ilkin saziş əldə edildi. Lakin "Yeddi böyük firmanın ittifaqı" daxilindəki ziddiyyətlər nəticəsində saziş pozuldu. Nobelin və Rotşildlərin hegemonluğundan qorxuya düşən "Bakı standartı"nın dörd firması onlarla ittifaqdan çıxdı.

1893-cü il oktyabrın 23-də Peterburqda firmaların bir hissəsinin nümayəndələri tərəfindən Maliyyə Nazirliyinin razılığı ilə Bakı ağ neft istehsalçılarının ittifaqının yaradılması haqqında müqavilə imzalandı. Lakin müqaviləni imza etməyən Tağıyev və Mantaşovun firmalarının nümayəndələri sindikata daxil olmaqdan imtina etdilər. Hökumət sonunculara Bakı ağ neft istehsalçılarının II qrup ittifaqı adlandırılan ittifaq yaratmağa icazə verdi ki, bu da həmin ilin noyabr ayının 27-də baş verdi. I qrup agentlərinin malik olduqları hüquqlara bərabərləşdirmək əsasında, II qrupun ticarət agenti A.İ.Mantaşov oldu. Hər iki qrupun təşkilatı baxımdan vahid sindikatda qovuşması yalnız 1895-ci ilin mayında baş verdi [34].

İxracat sindikatı Bakıda ağ neft istehsalının 97-98%-nə nəzarət edirdi. Lakin burada iştirakçılar qeyri-bərabər bölüşdürüldüyündən onun möhkəmliyindən danışmaq olmazdı. İttifaqın paylarının 9610-u "Nobel qardaşları şirkəti"nə, 5870-i Xəzər-Qara dəniz Cəmiyyətinə məxsus olduğu halda, Mantaşov 3059, Qukasovlar (Xəzər birliyi) 2703, Tağıyev 2461 paya malik idi [35]. Bakı firmalarının ilk ixracat sindikatı neft inhisarları tarixində, onların dünya bazarlarını bölüşdürmək uğrunda mübarizələri tarixində mühüm mərhələdir. Onun fəaliyyəti inhisarçı kapitalizminə dövr üçün kifayət qədər aydın olan yırtıcı xarakterini aşkara çıxardı. Sindikat daxilində bir-birinə qarşı barışmaz mübarizə aparan üç qrupun –

“Nobel qardaşları şirkəti”nin, Rotşildlərin və birinci iki qrupa qarşı təşkilati əkslik yaratmağa cəhd göstərən Tağıyevin, Mantaşovun və başqalarının mənafeləri toqquşurdu. Göstərilən qruplar arasında ziddiyyətlər ona gətirib çıxardı ki, Bakı ağ neft zavodlarının ittifaqı 4 il fəaliyyət göstərdikdən sonra dağıldı (1897-ci il).

1898-ci ilin mayında senata verilmiş çar fərmanında xaricilərin Qafqazda sənaye müəssisələri yaratmaq hüquqları möhkəmləndirildi. 1898-ci ildə II Nikolay “xüsusi yığıncağın xaricilərin Bakı rayonu hüdudlarında neft mədənlərinə buraxılmaları məsələsi haqqında” təklifini nəzərdən keçirdi. Çar bildirdi ki, xarici cəmiyyətlərin Rusiya neft sənayesində iştirakı “faydalı və məqsədəuyğun” olmuşdur [36].

Çar hökuməti tərəfindən yaradılmış geniş imkanlardan istifadə edən xarici firmaların Bakı neft sənayesinə soxulması 90-cı illərin ikinci yarısında sürətlə genişləndi. Təkcə 1895-1898-ci illərdə Bakı rayonunun neft sənayesində 6 ingilis və bir sıra digər xarici kompaniyalar kök saldı [37].

Əvvəllər mövcud olan neft müəssisələrini satın alan ingilis sahibkarları və bankirləri çox vaxt, hətta firmaların köhnə adlarını belə saxlayaraq, onları rus firmaları kimi qələmə verirdilər. Bu şərait onlara xarici təbəələrin neft mədənləri və zavodları olarkən mövcud olan, rəsmiyyətdən yan keçməyə imkan verirdi.

Xarici kapital axınının sənayenin inkişafı üçün müəyyən müsbət əhəmiyyəti olsa da, rus kapitalistləri kimi, Qərb kapitalistləri də çox vaxt istehsalı yenidən qurmaqdan imtina etməklə neft sənayesini texniki geriliyə məhkum edir, Bakı zəhmətkeşlərini amansız istismar etmək və neftin qiymətini qaldırmaqla külli gəlir əldə edirdilər. Bu isə ingilis və fransız kapitalının Rusiyanın xarici siyasət meylinə təsir göstərməsi üçün obyektiv zəmin yaradırdı. 1900-cü ildə Rusiyanın neft sənayesindəki səhmdar kapitalları arasında xarici kapitalını payı 35,7% təşkil edirdi.

Xarici kapitalın mövqelərinin genişlənməsi neft hasilatında rus və yerli firmaların xüsusi çəkilərinin hiss olunacaq dərəcədə azalmasına gətirib çıxardı [38].

XIX yüzilliyin sonuna yaxın Şimali Azərbaycanın neft sənayesi öz inkişafının ən yüksək pilləsinə qalxdı, neft istehsalı üzrə dünyada birinci yerə çıxdı. Bu dövrdə neft sənayesində inhisarların tam hökmranlığı bərqərar oldu, xarici kapitalın mövqeyi genişləndi, ilk ixracat sindikatı - iri inhisarçı birlik meydana gəldi. Qısa bir tarixi müddət ərzində neft sənayesi kapitalist təşkilinin aşağı formasından inhisarçı birliyin yüksək formalarına kimi təkamül yolu keçdi.

## § 2. SƏNAYENİN BAŞQA SAHƏLƏRI

Bakıda neftçıxarma sənayesi ilə yanaşı, başqa müxtəlif sənaye sahələri də yaranmaqda və inkişafda idi.

Neft-kimya sənayesi neft emalı ilə bilavasitə bağlı idi. Bakıda ilk kimya zavodu 1879-cu ildə S.M.Şibayev tərəfindən təsis edildi [39]. Az sonra, 1883-cü ildə "Nobel qardaşları" şirkətinin, 1885-ci ildə Skvortsovun, 1889-cu ildə isə Tumayev və Adamovun kimya zavodları tikildi. Əsrin sonunda "Kianda" səhmdar cəmiyyətinə məxsus daha bir kimya zavodu fəaliyyətə başladı, XIX əsrin sonunda Bakıda başlıca olaraq kükürd turşusu istehsal edən kimya zavodları fəaliyyət göstərirdi.

Məlum olduğu kimi, neft emalı üçün zəruri olan kükürd turşusu almaqdan ötrü xammal-kükürd kolçedanı əsasən xaricdən gətirilirdi. 90-cı illərdə neft sənayesi kapitalistləri vəziyyətdən çıxış yolu tapdılar. 1893-cü ildə "Nobel qardaşları" şirkəti Dağ-mədən departamentinin rəsmi icazəsi ilə "Simens qardaşları və kompaniyası" şirkəti ilə müqavilə bağladı [40]. Müqavilənin şərtlərinə görə, "Simens qardaşları" şirkəti Gədəbəy filiz mədənlərində çıxarılan bütün filizi "Nobel qardaşları" şirkətinə satırdı. Artıq 1893-cü ilin son ayında mis kolçedanı "Nobel qardaşları"nın Qara şəhərdəki kimya zavoduna göndərilirdi. Kolçedanın emalı prosesində alınan mis yenidən Gədəbəy misəridən zavoduna qaytarılırdı. "Nobel qardaşlan" şirkəti sonralar Azərbaycanın qərb hissəsində mövcud olan kükürd kolçedanı mədənlərini öz inhisarına almışdı. Bağlanmış müqavilələrdə göstərilirdi ki, Simenslər mis və kükürd kolçedanını yalnız "Nobel qardaşları" şirkətinə satmalıdırlar. Beləliklə, bu müqavilə hələ XIX əsrin son rübündə dağ-mədən sənayesinin mühüm bir sahəsinin neft sənayesinin inhisar birliklərinə tabeliyinin başlanğıcı oldu.

Bakıdakı neft-kimya zavodlarında kükürd turşusundan başqa sənaye sodası da alınırdı [41].

Neft sənayesinin inkişafı, mexaniki istehsala tələbat kəskin surətdə çuqun, buxar qazanları, dəmir boruları, neft saxlamaq üçün çənlər, qazma dəzgahları və s. istehsal etmək üçün neft sənayeçilərindən mexaniki emalatxanaların və ya zavodların tikilməsini tələb edirdi.

"Qafqaz və Merkuri" gəmiçilik səhmdar cəmiyyətinə məxsus təmir-mexaniki emalatxana əsasında 1866-cı ildə ayrıca zavod inşa edildi [42].

İkinci belə bir emalatxana 1875-ci ildə işə salındı. Sonra bu emalatxana "Nobel qardaşları" şirkətinin yenidənqurma işləri əsasında böyük mexaniki zavoda çevrildi.

XIX əsrin 80-ci illərindən başlayaraq Bakıda metal emalı sənayesi geniş vüsət aldı. 1885-1890-cı illərdə daha 5 belə zavod tikilib başa çatdırıldı. 1887-ci ildə "Bakı doku" şirkətinin gəmi təmiri zavodu təsis olundu. 1899-cu ildə isə Ə.Dadaşovun gəmi təmiri zavodu tikildi. Gəmilərin təmiri ilə "Kaspi" neft sənayesi və ticarəti, "Əmtəə anbarlarının şərq cəmiyyəti", "Nadejda" və digər səhmdar cəmiyyətlərinin mexaniki

müəssisələri də məşğul olurdular: 90-cı illərin sonunda metal emalı sənayesində 52-yə qədər mexaniki zavod və emalatxana işləyirdi [43].

Neft sənayesi və onunla bağlı olan bir sıra sənaye sahələrinin coşqun inkişafı daha güclü enerji mənbəyinin olmasını tələb edirdi. Elektrik sənayesi texnikanın ən yeni nailiyyətləri üçün, XIX əsrin axırlarında və XX əsrin əvvəllərindəki kapitalizm üçün ən tipik bir sənaye idi. Təbiidir ki, kapitalizm Bakıda da özünə enerji mənbəyi yaratmışdı. Artıq 90-cı illərdə neft mədənlərində, zavodlarda, limanda və bəzi yaşayış binalarında elektrik işığı yanırdı. "Nobel qardaşları" şirkətinin 1897-ci ildə tikdirdiyi elektrik stansiyasının gücündən müəssisələr də istifadə edirdi. Bundan əlavə, Bakıda "Svet", "Abşeron cəmiyyəti", habelə bir sıra xırda elektrik stansiyaları da vardı. Amma bunlar iri sənaye şəhərinin elektrik enerjisinə olan tələbatını ödəmək iqtidarında deyildilər. Ona görə də "Simens-Qalske" səhmdar cəmiyyəti və neft sənayeçiləri birlikdə 1899-cu ildə "Elektriçeskaya sila" səhmdar cəmiyyətini təsis etdilər [44]. Qeyd etmək lazımdır ki, Bakıda olan elektrik stansiyalarının gücündən başlıca olaraq iri neft sənayesi kompaniyaları istifadə edirdilər.

**Dağ-mədən sənayesi.** Dağ-mədən sənaye sahələri təkcə Bakıda deyil, Azərbaycanın qəzalarında da yaranıb inkişaf etməkdə idi. Bunların içərisində misəritmə sahəsi xüsusi yer tuturdu. Azərbaycanın qərb hissəsində yerləşən dağ-mədən sənayesi, xüsusilə misəritmə istehsalı təkcə Qafqazda yox, Rusiyada da mühüm mövqeyə malik idi. "Simens qardaşları" pay şirkətinin zavodu dövrün texniki tələbinə cavab verən mükəmməl avadanlıqla təchiz edilmişdi. Zavodun ətrafında çilingər, xarrat və s. emalatxanalar fəaliyyət göstərirdi. Bundan əlavə, zavodda odadavamlı kərpic istehsalı üçün xüsusi sex vardı. Bu sexdə Zaqafqaziyada ilk dəfə bu növ kərpicin istehsalına başlanıldı. 90-cı illərdən başlayaraq sexin istehsal gücü artırılmış kərpic buraxılışı 200 min ədədə çatdırılmışdı.

Zavodda yanacaq kimi ağac kömüründən istifadə edilirdi. Zavodda mis istehsalı ildən-ilə artırdı. Əgər 1870-ci ildə 44213 pud mis əldə edilmişdisə, 1877-ci ildə bu, 52988 puda çatmışdı [45]. 1877-ci ildə Rusiyada istehsal edilmiş 213931 pud misin 25 faizdən çoxunu Gədəbəy zavodu verirdi. 1882-ci il də daxil olmaqla mis istehsalında artıb-azalmalar müşahidə edilirdi.

"Simens qardaşları" şirkəti 1883-cü ildə Gədəbəy zavodundan 12 km aralı Qalakənd çayı üzərində ikinci bir zavodun inşasını başa çatdırdı. Zavodda filiz yandırmaq və mis əritmək üçün müxtəlif sobalar qoyulmuşdu. Yanacaq kimi neft tullantılarından istifadə olunurdu. 1884-cü ildə hər iki zavodu birləşdirən darxətli dəmir yol çəkilişi başa çatdı. Bu dəmir yolu tək zavodları, filiz mədənlərini deyil, həm də ağac gətirilməsini asanlaşdırmaq məqsədilə zavoda aid əsas meşə sahələrini birləşdirdi [46]. Yolun ümumi uzunluğu 29 verst idi.

Qalakənd zavodunda istehsalı artırmaq və elektroliz yolu ilə mis almaq üçün çayın üzərində ümumi gücü 100 at gücündən çox olan 2 turbin düzəldildi [47]. Bununla bağlı olaraq elektroliz vannalarının sayı da artırıldı. Əgər əvvəllər

zavodda 36 belə vanna vardısa, 1894-cü ildə onların sayı 102-dən çox olmuşdu [48].

"Simens qardaşları" şirkəti elektroliz yolu ilə təmiz mis almaqdan başqa, həm də tərkibində qızıl və gümüş olan mis çöküntüsü də alırdılar. Həmin çöküntü xüsusi icazə ilə təkrar emal üçün Almaniyaya göndərilirdi. 1897-ci ildə Almaniyaya 67 pud və 1900-cü il-də isə 85 pud [49] çöküntü aparılmışdı. Maraqlı cəhət orasıdır ki, Qalakənd misəritmə zavodu Rusiya üzrə təmiz mis alan ilk zavod idi. Belə zavodlar Rusiyanın özündə yalnız XX əsrin əvvəllərində meydana gəlmişdi [50].

Zavodların yanacaqla təchizinin vəziyyəti sahibkarları təmin etmirdi. Bakıdan gündə alınan 5 sistern yanacaq dəmir yolu xəttindən zavoda kimi xüsusi dəmir çəlləklərdə daşınırdı. Ona görə də darxətli dəmir yolunu Qalakənd çayının Şamxorçaya töküldüyü yerədək uzatmaq fikri ortaya çıxdı. Nəhayət, 1889-cu ildə Dəllər stansiyasından Çardaxlı kəndinə qədər 21 verst uzunluğunda neft kəməri çəkildi, 1894-cü ildə kəmər Gədəbəyədək uzadıldı. Beləliklə, kəmərin uzunluğu 42 verstə çatdırıldı. Bu ildən etibarən mazutla bərabər daş kömürdən də istifadəyə başlanıldı [51].

Beləliklə, yuxarıda göstərilən tikinti işlərinin həyata keçirilməsi nəticəsində hər iki zavodun istehsal gücü daha da artdı. Məsələn, 1884-cü ildə filiz mədənlərindən 1655511 pud filiz çıxarılmışdısa, 1897-ci ildə bu, 4452850 pud olmuşdu. 1884-cü ildə hər iki zavodda 80290 pud mis emal edilmişdisə, 1897-ci ildə bu miqdar 137344 puda çatmışdı [52]. 1900-cü ildə mis əridilməsi 80-ci illərin əvvəllərinə nisbətən 3 dəfə artmış, yəni 147716 pud olmuşdu. Təxminən 18 il ərzində şirkət 7 milyon manata qədər xalis gəlir götürmüşdü. 1900-cü ildə Rusiyada istehsal edilən bütün misin 34,6 faizini və Zaqafqaziyada alınan misin isə 68,5 faizini Azərbaycan verirdi [53].

Gədəbəy zavodunda məişətdə işlədiləcək qab-qacaq istehsal edən xüsusi sex vardı.

Azərbaycanda mədən sənayesi sahələrindən biri - zəy istehsalı 70-ci illərdə çox cüzi miqdarda artmışdı. 1875-ci ildə zavodda cəmi 8 min pud zəy istehsal edilmişdi [54]. 80-ci illərin əvvəllərindən başlayaraq Azərbaycanda zəy istehsalı daha da tənəzzül etdi.

Azərbaycanda kobalt istehsalı 1870-ci ilədək zəif inkişaf etmişdi. 80-90-cı illərdə isə kobalt filizi hasilatında xeyli canlanma əmələ gəldi. Azərbaycanda ilkin saflaşdırmadan sonra filiz xarici ölkələrə göndərilirdi. Həmin dövrdə Almaniya, İsveç, Norveç, Macarıstan, Amerikaya ixrac edilən filizin miqdarı artmışdı. 1893-cü ildə həmin ölkələrə 70 min pud filiz göndərilmişdi [55]. Tərkibində 10 faiz kobalt olan filizin pudu 70 manata satılırdı. Zavod 80-90-cı illərdə əsil kapitalist müəssisəsinə çevrilmişdi [56].

**Tikinti materialı sənayesi.** Əsrin son rübündə ölkənin ümumi iqtisadi inkişafı ilə əlaqədar tikinti materialları sənayesi sahələri də yaranırdı. Onların

içərisində iri daş karxanaları və kərpic istehsalı xüsusi yer tuturdu. 80-90-cı illərdə Bakı və Yelizavetpol quberniyalarında 200-dən çox kərpic istehsal edən müəssisə vardı [57]. Əlbəttə, bunların çoxu xırda müəssisələrdən ibarət idi. İstehsalat əməliyyatlarında buxar gücündən istifadə edilən "Atlas" şirkətinin müəssisələrində ildə 2 milyondan çox, Keşlədə "O.K.Levin L.F.Kiander i K°" şirkətinə məxsus zavodda isə orta hesabla 2 milyon ədədə qədər kərpic istehsal edilirdi. Bunlardan başqa, Bakıda "Nargin", "Vostok" firmaları, habelə R.K.Rəcəbov, Sabunçuda Əmiraslanov, Rzayev və Balaxanıda Q.T.İbrahimova məxsus iri zavodlar işləyirdi [58]. Bu zavodların illik istehsal məbləği milyon manatdan çox idi.

Buxar mühərrikləri tətbiq olunan kərpic zavodları Yelizavetpol quberniyasında da vardı. Quberniyadakı 100-dən çox kərpic istehsal edən müəssisənin böyük əksəriyyəti xırda idi.

Abşeron ərazisində onlarla karxanada tikinti üçün daş kəsilirdi. 80-90-cı illərdə kəsilən daşların orta illik sayı 680 mindən çox olurdu. Azərbaycanda əhəng istehsalı geniş yayılmışdı. Yelizavetpol quberniyasında zəngin mədənlərdən hərtərəfli istifadə məqsədilə 1899-cu ildə "Tovuz" tikinti materialları və sement istehsalı səhmdar cəmiyyəti təsis olundu [59].

Göründüyü kimi, tikinti materialları sənayesində də iri müəssisələrlə yanaşı, kapitalizmin yüksək mərhələsinə xas olan şirkətlər və səhmdar cəmiyyətlərinin sayı getdikcə artırdı.

1890-cı ildə dağ mühəndisi Y.İ.Yeger Naftalanda hasil edilən neftin emalı üçün dəyəri 200 min manata qədər olan bir zavod tikdirdi. 1893-cü ildə ona məxsus neft quyuları 8 min pud neft vermişdi [60]. Zavodda neft emalı ilə yanaşı, xüsusi sexdə dərmanlar da hazırlanırdı. "Kojelan" adlı sürtkü dərmanı Avropa ölkələrində pudu 20-25 manata satılırdı. 1894-cü ildə Y.İ.Yeger öz şəriki ilə "Naftalan" neft sənayesi və ticarəti şirkətini təsis etdi [61]. Əsas kapital 60 min manat idi. Sonra bu məbləğ 0,4 milyona çatdırılmışdı. 160 desyatindən çox xəzinə və sahibkar torpağı şirkətin icarəsində idi. Sonrakı illərdə Naftalanda neft çıxarılan torpaqların sahəsi 15 dəfədən çox genişləndirilmişdi.

**Yüngül sənaye.** Yüngül sənaye başlıca olaraq, ölkənin şimal-qərb, qərb-cənub-qərb, eləcə də Kürboyu rayonlarında daha çox yayılmışdı. Bu sahədə ipək emalı sənayesi mühüm yer tuturdu. İpək emalı Nuxa-Zaqatala, Qarabağ-Naxçıvan zonalarının ictimai-iqtisadi həyatında mühüm rol oynayırdı. Kapitalist istehsalı ipək sənayesində daha erkən inkişafa başlamışdı

70-ci illərin ikinci yarısından ipək sənayesində bərpa və inkisaf dövrü başlandı. Əvvəllərdə olduğu kimi, ipək sənayesinin mərkəzi olan Nuxa şəhəri yenə də istehsalda həlledici rol oynayırdı. 80-ci illərdə Nuxa qəzasında müəssisələrin sayı sürətlə artırdı. Xam ipəyə olan böyük tələbat istehsalın miqyasını genişləndirmişdi. Qəzada 500-dən çox iri və kiçik müəssisə işləyirdi. 80-ci illərdə fabrik tipli müəssisələrin sayı xeyli artdı. Bütün müəssisələrin ümumi istehsal məbləği 3 mln manatdan çox idi. Nuxa qəzasında fərdi müəssisələrlə yanaşı,

kapitalist mülkiyyətinin nisbətən inkişaf etmiş forması, xüsusilə ticarət evləri meydana gəldi. Ticarət evləri və iri fabriklər əsasən azərbaycanlı sahibkarlara məxsus idi.

80-90-cı illərdən Şuşa və Qaryagin qəzalarının ipək emalı müəssisələrində 2164 sapsarıyan dəzgah və başqa texniki avadanlıq vardı. Ümumi istehsal məbləği 1 mln. manata qədər idi. Bəhs edilən illərdə Naxçıvan və Ordubaddakı müəssisələrdəki dəzgahların sayı təxminən 600, məhsulun ümumi dəyəri isə 0,5 mln. manata qədər idi. Naxçıvan qəzasında istehsalda maşın tətbiq edən müəssisələr də azərbaycanlı sahibkarların əlində cəmləşmişdi.

XIX əsrin son rübündən başlayaraq Azərbaycanın ipək sənayesində maşın tətbiqi xırda müəssisələrin ixtisarına səbəb olmuşdu. 1873-cü ildə Azərbaycanda ipək istehsal edən müəssisələrin sayı 800-dən çox idisə, 1900-cü ildə onlar 463-ə enmiş, yəni 2 dəfə azalmışdı. Həmin müəssisələrin 60-da buxar mühərrikləri tətbiq edilirdi. Bu fabriklərdə 2300-dək barama açılan tiyan və 2000-ə yaxın dəzgah vardı [62]. Sənaye kapitalizminin yüksək inkişaf mərhələsində olan bu müəssisələr tək maşınların deyil, fəhlələrin də böyük əksəriyyətini özlərində cəmləşdirmişdi. Ümumi məhsulun üçdə iki hissəsindən çoxunu verən həmin fabriklərdə bütün fəhlələrin 59,5 %-ni özlərində cəmləşdirmişdi [63].

İpək emalı Quba, Şəki, Göyçay və digər qəzalarda da mövcud idi. Lakin buradakı ipək istehsalı müəssisələri demək olar ki, xırda əmtəə istehsalı mərhələsindən yuxarı qalxa bilməmişdi.

Azərbaycanda yalnız xam ipək istehsal edilmirdi. İpəkdən həmçinin müxtəlif növ parçalar toxunurdu. İpək parça toxuyan xırda müəssisələr əsasən Şamaxı şəhərində və onun ətraf kəndlərində, çox cüzi miqdarda isə Nuxada, Gəncədə, Şuşada və Ordubadda yerləşirdi. Rusiyadan idxal edilən nisbətən ucuz fabrik məmulatı

Azərbaycanda balıq ovu, bir qayda olaraq, iltizama verilirdi. Buna baxmayaraq, 70-ci illərdən başlayaraq, balıq sənayesinə kapital qoyuluşu xeyli artdı.

1880-ci ildə balıq sənayesində iltizam ləğv edildi. Balıq vətəgələri açıq müzaidə yolu ilə icarəyə verilirdi. Bu tədbir balıq ovunun artmasına səbəb oldu. 1880-1882-ci illərdə 736,1 min pud balıq tutulmuşdusa, 1898-1900-cü illərdə artım 3 dəfədən çox olmuş, yəni 2418,7 min puda çatmışdı. Bankə, Bojepromısel və başqa yaşayış məntəqələri balıq sənayesi mərkəzlərinə çevrilməkdə idi. Bunlardan əlavə Züdostov Kultuq və s. fəhlə qəsəbələri salınmışdı.

90-cı illərin əvvəllərində Samurdan cənuba sənaye əhəmiyyətli ilk siyənək balığı vətəgəsi meydana gəldi. Əsrin sonunda bu kimi vətəgələrin sayı 7-8-ə çatmışdı [68]. 1900-cü ildə Bakı-Port-Petrovski dəmir yolunun çəkilməsi Xəzərin Azərbaycan sahillərində dəniz balıq vətəgələrinin sayının görünməmiş dərəcədə artmasına səbəb oldu.

Cənubi Qafqazın *şərab* istehsalında Azərbaycan böyük rol oynayırdı. 70-ci illərdən həm Bakı, həm də Yelizavetpol quberniyasında artıq bir sıra qəzaların iqtisadi həyatında şərab, araq, konyak və s. istehsalı mühüm rola malik idi. Bakı

quberniyasının Şamaxı, Göyçay qəzalarında iri üzümçülük təsərrüfatları vardı. 80-ci illərdən digər qəzalarda da üzümçülük sahələri xeyli artmışdı. Şərab istehsalının çoxu məhz Şamaxı, Göyçay qəzalarının payına düşürdü. Yelizavetpol quberniyasında Yelizavetpol, Şuşa, qismən Qazax qəzaları şərab istehsalında birinci yerdə gedirdi.

1870-ci ildə Yelizavetpol qəzasında şərab istehsalı ilə məşğul olan nisbətən iri kapitalist müəssisələri meydana gəlir. Bunlardan "X.Forer və oğulları", 80-ci illərdə birinci firma – "Hummel qardaşları" firmaları təşkil edildi. 1892-ci ildə birinci firma "Forer qardaşları" adlandırıldı. Firmaların istehsal etdikləri əla keyfiyyətli şərab Rusiyanın bir sıra şəhərlərinə və xarici ölkələrə ixrac edilirdi. Şərabçılıqda "Cabbarov, Ağrıyev, Sesiyev qardaşları"nın firmaları, "N.L.Şustov və oğulları" Səhmdar Cəmiyyəti böyük şərab zavodlarına malik idilər. Şərab istehsalının mənfəətini görən neft sənayesi sahibkarlarının bir hissəsi Bakı quberniyasında özlərinə iri təsərrüfatlar yaratmışdılar.

1873-cü ildə şəraba aksiz vergisi qoyulması istehsalın həcminə təsir göstərməyə bilməzdi. Buna baxmayaraq, 1879-cu ildə Bakı quberniyasında 107-yə qədər şərab istehsalı müəssisəsi vardı. Yelizavetpol quberniyasında onların sayı daha çox idi. 90-cı illərdə şərab istehsal edən zavodların sayı bir neçə dəfə artmışdı.

Şərab istehsalı Naxçıvan qəzasında getdikcə artırdı. 90-cı illərdə qəzada ildə orta hesabla 150-200 min vedrə şərab istehsal edildi.

Azərbaycanda *araq* istehsalı da mühüm yer tuturdu. İri araq zavodları Şuşa, Yelizavetpol, Göyçay qəzalarında yerləşirdi. Şuşa qəzasının Muradbəyli kəndində ilk dəfə tikilmiş belə zavoda 1892-ci ildə Ağdamın yaxınlığında yerləşən Şelli və Bəyəhmədli kəndlərində inşa edilmiş daha 2 yeni araq zavodu əlavə olundu. 1892-ci ildə "Forer qardaşları" firmasına məxsus zavodda gündə 100 vedrə konyak istehsal olunurdu. 1894-cü ildə belə bir zavod Ağdamda, 1898-ci ildə Kürdəmirdə, 1900-cü ildə isə Göyçayda təsis edildi. Əsrin sonunda konyak zavodlarının sayı 10-a çatmışdı. Kürdəmir və Göyçaydakı konyak zavodları məşhur "N.L.Şustov və oğulları" Səhmdar Cəmiyyətinə və "Sesiyev və K°" ticarət evinə məxsus idi. Kürdəmir şərab və konyak istehsalında Göyçay qəzasında birinci yeri tuturdu. XIX əsrin sonunda Azərbaycanın şərab, araq və konyak istehsalında yüzlərlə xırda əmtəə istehsalı müəssisələrinin olması istehsalın kapitalist xarakterini dəyişmirdi. Çünki iri kapitalist müəssisələri istehsalda hakim rol oynayırdılar.

Yeyinti sənayesində, *dəyirmanlar* öz əhəmiyyətinə görə birinci yerdə gedirdi. XIX əsrin son rübündə un üyüdülməsi daha geniş şəkil almışdı. Ölkənin bir sıra yerlərində dəyirmanlarda maşınlardan istifadə edilirdi. Əhalinin una olan tələbini ibtidai su dəyirmanlar ödəyə bilmirdi. Unüyütmə istehsalında fabrik-zavod tipli müəssisələrin sayı artmışdı. Buxarla işləyən dəyirmanların böyük əksəriyyəti Bakıda yerləşirdi. Əhalisi sürətlə artan Bakı şəhəri böyük istehsal gücünə malik olan belə müəssisələrin olmasını tələb edirdi. 70-ci illərdən şəhərdə tikilmiş dəyirmanlar nisbətən kiçik idilər. 80-90-cı illərdə isə iri dəyirmanlar xeyli çoxalmışdı. 1883-cü ildə Bakıda 12, 1889-cu ildə isə 14 buxarla işləyən dəyirman vardı. 1900-cü ildə bu

dəyirmanlardan 10-nun istehsal etdiyi məhsulun dəyəri 600 min manatdan çox olmuşdu. 90-cı illərdə müəssisələrin iriləşməsi onların sayca azalmasına səbəb oldu.

Buxarla işləyən quberniyanın başqa yerlərində nisbətən az idi. Cavad qəzasında 1889-cu ildə 2 və 1900-cü ildə 11 belə dəyirman olmuşdu [69]. 1900-cü ildə yalnız Bakı quberniyasında buxarla işləyən 40-dan çox unüyüdən müəssisə işləyirdi.

İri unüyüdən müəssisələr Yelizavetpol quberniyasında azlıq təşkil edirdi. Onlardan 2-si Yelizavetpol şəhərində, biri isə Yelenondorfda yerləşirdi. Naxçıvan və Ordubadda dəyirmanların sayı 90-cı illərdə 20-dən çox idi. Amma onlardan cüzi bir hissəsində buxar gücündən istifadə edilirdi.

90-cı illərdə Bakıda iri çəltiktəmizləyən fabriklər təsis edilmişdi. 1890-cı ildə 3 belə müəssisə vardısa, 1900-cü ildə onların sayı 7-yə çatmış, istehsal edilən məhsulun dəyəri 300 min manatdan 2 3 mln manata qalxmışdı [70].

Azərbaycanda *tütün* fabrikləri əsasən 80-ci illərdən yaranmağa başlanmışdı. Ən iri tütün fabrikləri Bakıda idi. 1881-ci ildə 88 min manatlıq məhsul verən 4 fabrik olmuşdusa, 1898-ci ildə onların sayı 2-yə enmiş, lakin məhsul istehsalı 15 dəfədən çox artaraq 1 2 mln manata çatmışdı.

1876-cı ildə Nuxada təsis edilmiş ilk tütün fabriki Məşədi Həsən Dadaşova məxsus olmuşdur. 1885-ci ildə fabriklərin sayı 2, 1898-ci ildə isə 3 olmuşdur. Nuxada qalan 2 fabrik Novruzov və Zülfüqarov tərəfindən tikilmişdi. İstehsalın ümumi məbləği bu müddətdə 3.700 manatdan 96 min manata çatmışdı.

XIX əsrin son rübündə Şamaxıda 3, Yelizavetpolda isə 1 tənbəki fabriki işləyirdi. Şamaxıdakı fabriklər ildə orta hesabla 12 min manatlıqdan çox məhsul istehsal edirdi. Yelizavetpoldakı fabrikin istehsal məbləği 1889-cu ildə 14,8 min manat olmuşdu.

Azərbaycanda geniş yayılmış yeyinti sənayesi sahələrindən biri olan daş və şor duz istehsalı hələ qədimdən mövcud idi.

Bakı quberniyasında əvvəldə olduğu kimi, şor duz alınan ən böyük göllər Masazır, Zığ, Qala, Kürdəxanı gölləri idi. Cavad qəzasında da belə göllər vardı. Şuşa qəzasının Ağcabədi kəndi yaxınlığında yalnız bir göl yerləşirdi [71]. Duz gölləri gah xəzinənin, gah da ayrı-ayrı şəxslərin - icarədarların ixtiyarında olurdu. Belə bir vəziyyət 1875-ci ilədək davam etdi. 1875-ci ildə hazırlanan və 1876-cı ildən tətbiq edilməyə başlanan "Əsasnamə"yə görə, iri duz gölləri iltizam yolu ilə icarəyə verildi. İcarə duz istehsalının artmasına nisbətən müsbət təsir göstərdi. 1879-cu ildə Bakı quberniyasında 618.371 pud şor duz əldə edilmişdi [72]. 90-cı illərdə yeni iltizam nəticəsində duz istehsalı 887,5 min puda çatmışdı.

Zəngin daş duz mədənlərinin istismarı islahatdan sonrakı dövrdə bir qədər genişlənmişdi. Duz istehsalının inkişafına buxov olan aksiz vergisinin 1881-ci ildə ləğv edilməsi nəticəsində 80-90-cı illərdə duz hasilatında qismən təbəddülat oldu. Duz istehsalında müşahidə edilən tərəddüdə baxmayaraq, 70-ci illərdən başlayaraq, Azərbaycanda duz hasilatı və emalı kapitalist əsasları üzərində qurulmuşdu.

Yeyinti sənayesi sahələrindən biri də *biyan* kökü emalı idi. Azərbaycanda biyan kökünün emalı XIX əsrin ortalarına aiddir. 60-cı illərin əvvəllərində şamaxılı Qədirov və Hacı Əbdürrəhman qardaşları Əlvənd kəndində xırda bir müəssisə tikdirdilər. Lakin sonra texnologiyanın yaxşı bilinməməsi üzündən biyan kökünün emalı dayandırıldı. 70-ci illərdə Yelizavetpolda ilk biyan kökü emalı zavodu tosis edildi. Zavodun illik dövriyyəsi 20 min manatdan çox idi. Nəhayət, 1886-cı ildə Ləkidə Qizi qardaşları və Xrussakinin iri bir zavodu inşa edildi. Zavodda ildə 0,5 mln pud biyan kökü emal edilirdi. Zavodun illik dövriyyəsi 1887-ci ildə 100 min manat olmuşdusa, 1899-cu ildə artım 2 dəfəyə yaxın idi.

1899-cu ildə ingilis təbəəsi A.Urkqardtın Ucarda, 1890-cı ildə onun həmvətəni İ.Blissin Yelizavetpolda, 1893-cü ildə yenə onun Kürdəmirdə daha bir zavodu tikilib başa çatdırıldı. Təkcə 1891-ci ildə 3 zavodda 3324 min pud biyan kökü emal edilmişdi [73]. Alınan məhsul başlıca olaraq xaricə - İngiltərə və Amerikaya göndərilirdi. 1890-1895-ci illərdə Batum və qismən Poti vasitəsilə xaricə 5,2 mln. pud quru biyan kökü göndərilmişdi. Sonrakı dövrlərdə biyan kökü əsasən Azərbaycanda emal edilir, xaricə isə şirəsi göndərilirdi.

Beləliklə, çarizmin milli - müstəmləkə və müstəmləkəçi iqtisadi siyasətindən doğan maneələrə baxmayaraq, ölkənin sənaye həyatında kapitalist münasibətlərinin inkişafı bir sıra sahələrdə artıq özünün yeni mərhələsinə qədəm qoymuşdu.

## § 3. SƏNƏTKARLIQ

Şimali Azərbaycanın sosial-iqtisadi həyatında baş verən irəliləyiş ölkədə sənətkarlığın ümumi vəziyyətinə də təsir göstərmişdi. Bu dövrdə əhalinin məişət və təsərrüfat ehtiyacları hələ də sənaye məmulatı ilə tam təmin olunmadığından Azərbaycanın sənət-ticarət mərkəzlərində (Şamaxı, Nuxa, Bakı, Yelizavetpol, Quba, Şuşa, Naxçıvan və Ordubad) bir sıra kustar sənət və peşə növləri fəaliyyətdə idi. Bununla belə, şəhər sənətkarlığının bir sıra sahələri nisbətən ucuz fabrik məhsullarının rəqabəti üzündən tənəzzülə uğramışdı. Gəncə və Naxçıvanda bez istehsalı tamamilə aradan çıxmış, Ordubadda xeyli ixtisara düşmüşdü. 1854-cü ildə Ordubadda 112 nəfər bəzzaz işlədiyi halda, 1865-ci ildə onların sayı 16 nəfərə enmişdi [74]. Eyni hal mahud istehsalında da müşahidə olunurdu. 1859-1865-ci illərdə Şamaxıda 15-dən 19-a qədər mahud karxanası [75] işlədiyi halda, sonrakı illərə aid mənbələrdə onların birinin də adı çəkilmir. Bunlardan fərqli olaraq tikmə məmulatı istehsalı kənardan gətirmə fabrik məhsulları tərəfindən, ciddi rəqabətə rast gəlmişdi. İstər daxili, istərsə də xarici bazarda bu məhsullara tələbat böyük idi. Ona görə də XIX əsrin 11 yarısında Azərbaycanda tikmə sənəti çiçəklənmə dövrü keçirirdi. Bu dövrdə Şəki ənənəvi təkəlduz sənətinin mərkəzi sayılırdı. Burada 20-dən çox təkəlduz dükanı işləyirdi [76].

Şimali Azərbaycanın ənənəvi *şərbaflıq* sənətində Şamaxı və onun ətraf kəndləri görkəmli yer tuturdu. 60-cı illərin barama böhranı ilə əlaqədar burada şərbaf karxanalarının sayı xeyli azalmışdı. Sənətkarlığın bir çox sahələri kimi, XIX əsrin sonlarında ticarət kapitalı şərbaflığa da nüfuz etmiş, tezliklə xammal təchizi və hazır məmulatın satışı işini öz inhisarına almışdı. İpək möhtəkirləri Nuxa, Göyçay və Kürdəmirdən xam ipəyin pudunu 140-120 manata alıb, hər pudunu 8-9 manat bahasına şərbaflara satırdılar [77]. Xammalı nisyə verdikdə, yaxud əvəzində hazır məmulat aldıqda binəkdarın gəliri hər pudda 40 manata çatırdı [78]. XIX əsrin 90-cı illərində Şamaxı şərbaf karxanalrının böyük əksəriyyəti "möhtəkir fabrikantlar" üçün işləyirdi [79].

Bu dövrdə şimali Azərbaycanda *xalçaçılığın* inkişafı xüsusilə diqqəti cəlb edirdi. Xalça məmulatı istehsalı Quba, Bakı, Lənkəran, Şamaxı, Göyçay, Qazax, Şuşa, Zəngəzur, Cəbrayıl, Yelizavetpol qəzalarında və Zaqatala dairəsində daha çox tərəqqi etmişdi [80]. Daxili və beynəlxalq bazarda xalça məmulatına tələbatın artması üzündən XIX əsrin ikinci yarısında xalçaçılıq ev peşəsindən bazara məhsul hazırlayan əmtəə istehsalı səviyyəsinə yüksəlmişdi [81]

Quba qəzasında bir sıra kəndlərin əhalisi hamılıqla xalça və geyim toxumaqla məşğul olurdu. Bütün Qafqazda ən yaxşı xalça məmulatı Quba qəzasında istehsal olunurdu. XIX əsrin sonunda buradan ildə 300 min manatlıqdan çox dəyəri olan 15 mindən artıq xalça məmulatı ixrac olunurdu [82]. Təkcə Quba şəhərində 200 ailə xalça toxumaqla məşğul olurdu [83]. Burada xalça istehsalı kustar sənət səviyyəsini aşmışdı [84]. Quba qəzasında bazara məhsul istehsalına çox erkən keçilmişdi [85]. XIX əsrin sonunda varlı ailələr xalça istehsalında muzdlu qadın əməyindən istifadə edirdilər [86].

*Yun* məmulatı istehsalı Şamaxı və Göyçay qəzalarında da geniş yayılmışdı. Lakin təkcə şal toxuculuğu burada kustar sənət səviyyəsinə yüksəlmişdi.

Yun məmulatı istehsalının digər sahələri (şərbaflıq, keçəçilik) Ərəş, Nuxa, Şuşa, Cavanşir, Cəbrayıl, Qazax, Yelizavetpol qəzalarında və Zaqatala dairəsində əsasən ev peşəsi səciyyəsi daşıyırdı.

Bu dövrdə kustar *gön-dəri* məmulatına əhalinin ehtiyacı hələ də qalmaqda idi. Dabbağlıq, kürkçülük, papaqçılıq kimi ənənəvi sənət sahələri hələ də tam gücü ilə davam etməkdə idi. Gön-dəri istehsalında Şamaxı və Nuxa qəzaları xüsusilə fərqlənirdi. 80-ci illərin əvvəllərində təkcə Şamaxı şəhərində 30 dabbağxana var idi [87]. Nuxa qəzasında dabbağ dükançılarının sayı nəinki azalmamış, hətta bir qədər artmışdı. 70-ci illərdə orta hesabla qəzada 21 dabbağxana olduğu halda, 90-cı illərdə onların sayı 70-ə çatmışdı [88]. Bu dükanların hər birində orta hesabla 4-5 nəfər dabbağ işləyirdi [89].

Şimali Azərbaycanda gön-dəri ehtiyatlarının bolluğu bir sıra sənət sahələrinin (papaqçılıq, kürkçülük, çəkməçilik, pinəçilik, sərraclıq və s.) inkişafına güclü təkan vermişdi.

Əhalinin böyük ehtiyacı olan sənət sahələrindən biri da dulusçuluq idi. Bu sənət Quba, Lənkəran, Şamaxı, Göyçay, Nuxa, Naxçıvan və qismən Yelizavetpol qəzasında daha çox inkişaf etmişdi. XIX əsrin 70-ci illərində Bakı quberniyasında 93 dulus karxanası fəaliyyətdə idi. Yelizavetpol quberniyasında dulus istehsalı tədricən artırdı. Əgər 70-ci illərdə quberniyada 10 dulus karxanası işəyirdisə, 90-cı illərdə onların sayı 47-yə çatmışdı. Bu artım özünü eyni zamanda dulusçuların sayında və istehsal məbləğində də bariz şəkildə göstərirdi. Belə ki, 70-ci illərdə quberniyada cəmi 24 nəfər dulus ustası olduğu halda, 90-cı illərdə onların sayı 113 nəfərə çatmışdı [90].

Hər bir dulus karxanasında orta hesabda 2-3 nəfərin işlədiyini və ən çox sifarişlə iş görüldüyünü nəzərə alsaq, bu müəssisələrin böyük əksəriyyətinin kustar sənət xarakteri daşıdığını görmək olar. Lakin bunların arasında bazar məhsulu hazırlayan xırda əmtəə istehsalçıları da var idi. Bununla belə, XIX əsrin sonlarında ümumən Azərbaycanda dulusçuluq sənəti tənəzzül etməyə başlamışdı [91].

*Ağacişləmə* sahəsində sənət ənənələri XIX əsrin II yarısında hələ də davam etməkdə idi. Təkcə Quba qəzasında araba ustaları ildə 10000 manatlıq məhsul istehsal edirdilər [92]. O zaman yeganə təkərli nəqliyyat vasitəsi olmaq etibarı ilə arabaya hər yerdə böyük ehtiyac olduğundan Şimali Azərbaycanın bütün qəzalarında araba istehsalı geniş inkişaf tapmışdı.

Ağacişləmənin digər sahələrindən olan xarratlıq əsasən Azərbaycanın dağətəyi-meşəlik zonalarında geniş yayılmışdı.

*Çəlləkçilik* sürətlə inkişaf edirdi. Neft kəmərinin çəkilməsinə qədər mədənlərdən Bakıya neft çəlləklərlə daşınırdı [93]. Digər tərəfdən, 90-cı illərdən etibarən dəniz yolları ilə aparılan neft məhsulları da, həmçinin, çəlləklərdə daşınırdı.

Şərabçılığın inkişafı da çəlləkçilik sənətinin kəndlərdə geniş yayılmasına səbəb olmuşdu.

Metalişləmə sənətinin müxtəlif sahələri: misgərlik, zərgərlik, dəmirçilik, tənəkəçilik və s. kustar sənət və ya əmtəə istehsalı formasında hələ də davam edirdi. Lahıc kəndi misgərliyin əsas mərkəzi olaraq qalmaqda idi. Burada 1000 nəfərə qədər adam bu sənətlə bağlı idi [94].

İstehsal prosesini nəzərdən keçirdikdə aydın olur ki, təkcə misin yastılanması əməliyyatında ustadan başqa 13 nəfər iştirak edirdi [95]. Bundan əlavə, hər ustanın yanında adətən 4 nəfər muzdlu kargər, 10 nəfər şagird olurdu [96]. Bu faktdan görünür ki, Lahıcda mis qab istehsalı işçilərin sayı cəhətdən sənət hüdudunu aşaraq xırda əmtəə istehsalı səciyyəsi kəsb etmişdi

80-90-cı illərdə Şimali Azərbaycan misgərliyində geriləmə baş verir. Rusiyada hazırlanan və daha ucuz zavod məhsullarının gətirilməsi ilə əlaqədar olan bu geriləmə metalişləmə sənətinin bütün sahələrini çulğamışdı.

Beləliklə, Şimali Azərbaycan iqtisadiyyatının müəyyən sahələrinin kapitalist inkişafı yoluna düşməsi, ticarət əkinçiliyinin, əmtəə istehsalı və bazar

əlaqələrinin artması üzündən bu dövrdə bir tərəfdən, ənənəvi ev peşələrinin fəaliyyət dairəsi tədricən, lakin mütəmadi surətdə məhdudlaşmağa başlamış, digər tərəfdən isə əmtəəpul münasibətlərinin artması gedişində bəzi ev peşələri xeyli inkişaf edib əmtəə istehsalı səviyyəsinə yüksəlmişdi.

Sənət və xırda əmtəə istehsalının inkişafında əhalinin, o cümlədən şəhər əhalisinin artmasının, deməli sənətkarlıq məhsullarına da tələbatın çoxalmasının müəyyən təsiri olmuşdur. XIX əsrin sonunda şəhər əhalisinin sayı 1,5 dəfə artmış, başqa sözlə 200 min nəfər çoxalmışdı [97].

İctimai əmək bölgüsünün daha da dərinləşməsi ilə əlaqədar olaraq sənət istehsalı şəhərlərlə yanaşı, kəndlərdə də əmtəə səciyyəsi daşıyırdı. Kənd təsərrüfatı məhsullarının istehsalı yaşayış ehtiyaclarını lazımi səviyyədə ödəmədiyindən, kəndlilər arasında kənar peşələrə meyil güclənirdi. Kənd təsərrüfatı əməyinin mövsümü səciyyə daşıması, nəqliyyat vasitələrinin zəif inkişafı, şəhər sənətlərinin kəndin zəruri tələbatını ödəyə bilməməsi, ucuz xammal ehtiyatının bolluğu və s. amillər kənd yerlərində müxtəlif sənət növlə-rinin intişar tapmasına güclü təkan verirdi.

## § 4. NƏQLİYYAT VƏ RABİTƏ

1872-ci ilin sonlarına yaxın Cənubi Qafqazda Tiflis və Potini birləşdirən dəmir yolu çəkildi. Böyük gəlir götürəcəyinə ümid bəsləyən Poti-Tiflis dəmir yolu cəmiyyətinin rəhbərliyi ona Tiflislə Bakı arasında dəmir yolu xətti çəkmək və istismar etmək hüququ verilməsi haqqında məsələ qaldırdı. Cəmiyyətin bu təklifi hökumət dairələrində müsbət qarşılandı.

Hələ Tiflis-Bakı yolunun tikintisi haqqında məsələnin həllinə qədər Cənubi Qafqaz dəmir yolunun neft sahəsi adlandırılan, Bakının və Balaxanı-Sabunçu neft mədənlərini birləşdirən dəmir yolunun çəkilməsi haqqında məsələ qaldırılmışdı. İyirmi beş verst uzunluğunda olan bu dəmir yolunda (Bakı sərnişin və neft limanla Sabunçu, Balaxanı, Suraxanı) 1880-ci ilin yanvarında qatarlar hərəkətə başladı [98].

Bakı rayonunda dəmir yolunun fəaliyyətinin ilk illərində bu yolla xeyli neft yükləri daşınmışdı. Abşeronda neft kəmərləri çəkildikdən sonra bu yoldan sərnişin, həmçinin neft sənayesinin ehtiyacları üçün yük daşınmasında istifadə olunmağa başladı.

Hələ neft sahəsinin tikintisi başa çatmamış Tiflis və Bakı arasında dəmir yolu çəkilməsi məsələsi həll edildi. Burada işlər 1880-ci ildə başladı, 1883-cü ilin mayında isə dəmir yolu artıq fəaliyyət göstərirdi.

Xüsusi dəmir yollarından götürülən gəliri artırmağa cəhd göstərən çar hökuməti 80-ci illərdə onlardan bəzilərini satın aldı. 1889-cu ildə Cənubi Qafqaz dəmir yolu dövlətin sərəncamına keçdi.

Tiflis-Bakı dəmir yolu Cənubi Qafqaz iqtisadiyyatının Rusiya və dünya ticarət dövriyyəsinə cəlb edilməsində çox mühüm əhəmiyyət kəsb edirdi. Cənubi Qafqaz dəmir yolunun Bakı və Yelizavetpol quberniyaları hüdudlarında olan stansiyalarının ümumi yük dövriyyəsi 1885-ci ildə 20,8 mln puddan 1900-cü ildə 124,3 mln puda çatdı, daha doğrusu 6 dəfə artdı [99]. Bu dəmir yolunun yük dövriyyəsində neft yükləri əsas yer tuturdu. Burada, əvvəlcə neft sahəsində, sonra isə Bakı-Batum xəttində neft məhsulları dünyada ilk dəfə dəmir yolu ilə daşınmağa başladı. Neft yükləri XIX yüzilliyin 90-cı illərinin ortalarında Cənubi Qafqaz dəmir yolu ilə daşınan bütün yüklərin $^2/_3$-ni təşkil edirdi. Ağ neft və digər neft məhsulları Batuma aparılır, buradan isə Avropa və digər xarici bazarlara ixrac olunurdu. Batuma aparılan neft burada onun üçün tikilmiş müəssisələrdə emal olunurdu. 80-ci illərin sonlarında və 90-cı illərdə Bakıdan Batuma neft aparılmasının xeyli artmasına baxmayaraq, dəmir yolunun daşıma qabiliyyətinin məhdud olması nəticəsində daşınan neftin yalnız 20%-i onun payına düşürdü.

Belə şəraitdə neft sənaye inhisarları dəmir yolu ilə neft məhsullarını daşımaq imkanlarının genişləndirilməsi uğrunda öz aralarında mübarizə aparırdılar. Çar hökumətinin neft sənayeçiləri ilə birlikdə yaratdığı orqan -“Sisternlərin neft sənayesi firmaları arasında bölüşdürülməsi və neft yüklərinin daşınmasını qaydaya salmaq üzrə Bakı komitəsi” əsasən neft sənayesi inhisarlarının xeyrinə fəaliyyət göstərirdi [100].

Bakı dəmir yolu qovşağı (Bakı stansiyası, Bakı limanı, Biləcəri və s. dəmir yolu emalatxanaları, anbarları olan depo və s.) ilə yanaşı, yüklərin daşınmasında Gəncə, Ağstafa, Dəllər, Yevlax, Ucar, Ləki, Kürdəmir, Hacıqabul stansiyaları mühüm rol oynayırdılar. 1885-1890-cı illərdə Bakı dəmir yolu qovşağının yük dövriyyəsi 7,5 Gəncə-Ağstafa qovşağınınkı 2 dəfə, Yevlax stansiyasınınkı isə 2,2 dəfə artmışdı [101].

Cənubi Qafqaz dəmir yolunun Bakı və Yelizavetpol quberniyalarında olan stansiyalarında, Bakıdan çoxlu miqdarda neft məhsulları daşınması nəticəsində (sisternlər buraya yüksüz qayıdırdılar), 1900-cü ildə yük dövriyyəsinin 75%-i, yük yola salınmasının isə yalnız 25%-i yük qəbulunun payına düşürdü.

Bakı və Yelizavetpol quberniyaları hüdudlarında Cənubi Qafqaz dəmir yolu ilə daşınan yüklər arasında neftlə yanaşı, sənayenin digər sahələrinin və Şimali Azərbaycanın kənd təsərrüfatı məhsulları, kimyəvi məhsullar, mis, pambıq, ipək parçalar, xalçalar, taxıl bitkiləri, mal-qara, dəri, meyvə və tərəvəz mühüm yer tuturdu. Eyni zamanda Cənubi Qafqaz dəmir yolu ilə Azərbaycan qəzalarından dənizlə Bakı və Batuma gətirilən çoxlu rus və xarici mallar - metal və metal məmulatı, manufaktura, maşınlar, ağac və daşkömür, kimyəvi məhsullar, qənd və bir çox şeylər daşınırdı.

Dəmir yolu ilə həm də xeyli sərnişin daşınırdı ki, bu da əhalinin, xüsusilə fəhlələrin və onların ailə üzvlərinin miqrasiyasına şərait yaradır, Şimali Azərbaycanın proletar kadrlarının formalaşmasına yardım göstərirdi.

Bakı (Biləcəri) və Port-Petrovski arasında xəttin çəkilməsindən sonra dəmir yolunun Şimali Azərbaycanın iqtisadiyyatındakı rolu daha da artdı. 90-cı illərdə ölkədə dəmir yolu tikintisinin yeni yüksəlişi şəraitində Xəzər dənizinin qərb sahili boyunca dəmir yolu tikintisi haqqında təklif həyata keçirilməyə başladı. Burada tikinti işləri Vladiqafqaz dəmir yolu tərəfindən 1897-ci ilin fevralında başlandı, 1900-cü ilin noyabrında isə Bakı ilə Port-Petrovsk arasında hərəkət başlandı [102]. Biləcəridə stansiya və Vladiqafqaz dəmir yolunun deposu tikildi. Beləliklə, Cənubi Qafqaz dəmir yolunun çəkilməsi və Cənubi Qafqaz dəmir yollarının Bakı (Biləcəri) vasitəsi ilə Rusiyanın dəmir yolu ilə birləşdirilməsi Şimali Azərbaycanın və bütün Cənubi Qafqazın ölkənin digər hissələri ilə iqtisadi əlaqələrin genişlənməsinə yardım etdi. Qafqazın ən böyük dəmir yolu qovşağı kimi Bakının rolunu artırdı.

70-90-cı illərdə Xəzər dənizində gəmiçilik hiss olunacaq dərəcədə genişləndi. Bakı Xəzər dənizində ən böyük liman idi. Şimali Azərbaycanın digər sahil məntəqələrinin - Lənkəran və Astaranın da əhəmiyyəti artdı. Gəmidaşımaları Kürün aşağı axarında da həyata keçirilməyə başladı.

Xəzər ticarət donanmasının inkişafı üçün ən mühüm amil neft sənayesinin inkişafı oldu. 70-ci illərin sonlarına qədər neft və neft məhsulları ağac çəlləklərdə daşınırdı ki, bu da böyük xərc tələb edirdi. 1873-cü ildə gəmi sahibləri Artyomovlar yelkənli gəmiləri yenidən quraraq neft məhsullarını çənlərə doldurmaq qaydası ilə daşımağa başladılar. Bu yenilik Nobel qardaşları tərəfindən istifadə edildi. 1878-ci ildə də Xəzərdə onun ilk neftdaşıyan "Zoroastr" gəmisi, onun ardınca isə bir neçə digər neftdaşıyan gəmi peyda oldu. Neft yüklərinin daşınmasında maye daşımaq üçün çənləri olan gəmilərdən "Qafqaz və Merkuri", "Drujina" və digər gəmi kompaniyaları da istifadə etməyə başladılar [103].

Volqa hövzəsində gəmiqayırmanın inkişafı, gəmilərdə neftdən yanacaq kimi istifadə edilməsi neftdaşıyan donanmanın genişlənməsinə imkan yaradırdı.

Xəzər dənizində buxarla işləyən neftdaşıyan gəmilərin sayı və tonnajı sürətlə artırdı. 1900-cü ildə Xəzər neftdaşıma donanmasının tutumu 68,2 min ton olan 126 gəmidən ibarət idi. 90-cı illərdə yelkənli neftdaşıyan gəmilərin sayı azalsa da, 1900-cü ildə Xəzər dənizində təmiz tutumu 72,6 min ton olan 211 belə gəmi var idi [104]. Bakıdan dənizlə neft və neft məhsulları daşınması yalmz 90-cı illərdə 2,6 dəfə artaraq, 1900-cü ildə 352,9 mln puda çatmışdı. Bu da Bakıdan çıxarılan neft və neft məhsullarının 80 faizindən çoxunu təşkil edirdi [105].

Digər yüklərin və sərnişinlərin də dənizlə daşınması genişlənirdi. Yüzilliyin sonunda Xəzərdə belə daşımalarla 83 buxar gəmisi və 312 yelkənli gəmi məşğul idi. Buxar gəmilərinin əksəriyyətinin texniki cəhətdən zəif olmasına, xeyli hissəsinin isə yüzilliyin sonuna yaxın köhnəlməsinə baxmayaraq, Xəzərdə yeni tipli gəmilər məsələn, iki vintli tankerlər meydana çıxdı.

Xəzər dənizi və Volqa çayı ilə olan su yolu Azərbaycanı ölkənin digər hissələri ilə iqtisadi cəhətdən birləşdirən mühüm nəqliyyat yolu idi. Xəzər donanması İranla da ticarət əlaqələrini həyata keçirirdi. Rusiyadan və Şimali Azərbaycandan oraya

çoxlu mallar aparılır, İrandan isə xeyli miqdarda düyü, pambıq, meyvə, tərəvəz və s. gətirilirdi.

70-90-cı illərdə Bakı limanı vasitəsilə yük və sərnişin daşınması kəskin şəkildə artdı. 1875-1897-ci illərdə Rusiyanın digər limanlarından və İrandan buraya gələn gəmilərin sayı 78 dəfə, onların tutumu isə 95 dəfə artdı. Yalnız 5 il ərzində, 1894-cü ildən 1898-ci ilə qədər, Bakı limanınm yük dövriyyəsi 40 dəfədən çox artaraq 350 mln pud təşkil etdi. Həmin dövrdə Bakı limanı həm buraya gələn gəmilərin sayına və həm də gətirilən yüklərin həcminə görə Rusiya limanları arasında ikinci yeri tuturdu [106].

Gəmiləri neft məhsulları ilə doldurmaq və quru yük – sərnişin əməliyyatları üçün bir neçə körpünün tikilməsinə baxmayaraq, Bakının liman təsərrüfatının inkişafı dəniz donanmasınm inkişaf sürətindən geri qalırdı. Dövlət tərəfindən buraxılan vəsaitin hədsiz dərəcədə azlığı Bakı limanının inkişafını və abadlaşdırılmasını ləngidirdi.

Lənkəran və Astara limanlarının texniki cəhətdən təchizatı daha pis idi. 1899-cu ildə bu limanların yük dövriyyəsi müvafiq olaraq 1,6 mln və 0,7 mln pud təşkil etmişdi [107].

Xəzər dəniz donanmasında hakim mövqe iri gəmi kompaniyalarına məxsus idi. Xəzər və Volqada öz əməliyyatlarını xeyli genişləndirən “Qafqaz və Merkuri” cəmiyyəti ilə yanaşı, yüzilliyin sonunda bir çox neftdaşıyan və quru yük-sərnişin gəmiləri “Nobel qardaşları” və “Kaspi birliyinə”, “Mal anbarlarının Şərq birliyi” və “Nadejda” kompaniyalarına, gəmi sahiblərindən Dadaşovlara, M.Rəsulova, Q.Arakelova, P.Bəylərova, Kişiyev qardaşlarına, A.Hüseynova, M.S.Manafova, M.Nağıyevə, H.Z.Tağıyevə və başqalarına məxsus idi. Yüzilliyin sonuna yaxın buxar gəmilərinin 54 faizi 16 iri gəmi sahiblərinin payına düşürdü. Bu gəmilərin tutumu Xəzər dənizindəki buxar donanmasının ümumi tutumunun 65,3 faizini təşkil edirdi [108].

Xəzər gəmiçiliyində nəqliyyatın kapitalistcəsinə təşkilinin inkişaf etmiş formalarının mövqeləri möhkəmlənirdi. Buxar donanması gəmilərinin xeyli hissəsi - 37 faizindən çoxu pay əsasında səhmdar kompaniyalarına və birliklərinə məxsus idi. Buxar gəmilərinin 31 faizindən çoxu birliklərin və ticarət evlərinin mülkiyyətində, 32 faizi isə fərdi sahibkarlara məxsus idi.

70-80-ci illərdə Xəzər gəmiçiliyində “Qafqaz və Merkuri” və “Nobel qardaşları” inhisarçı mövqe tuturdularsa, yüzilliyin sonuna vaxın Şimali Azərbaycan kapitalının mövqeləri xeyli genişləndi. Əgər Xəzər donanması gəmilərinin yalnız ilkin dəyərlərini əsas götürsək, onda Şimali Azərbaycan sahibkarlarının Xəzərdə üzən gəmilərin tikintisinə və yaxud satın alınmasına sərf etdikləri vəsait 1900-cü ilin sonuna yaxın 17,4 mln manat təşkil etmişdi [109].

Xəzər ticarət donanması gəmilərinin ümumi sayında, neftdaşıyan, quru yük-sərnişin və yelkənli gəmilərin sırasında Azərbaycan kapitalı aparıcı yer tuturdu. Gəmilərin tutumuna görə o, neftdaşıyan və yelkənli donanmada üstünlük təşkil edirdi.

Buxar donanması gəmilərinin sayma, ümumi tutumuna və quru yük-sərnişin gəmilərinin və buxar donanmasının tutumuna görə rus kapitalı birinci yeri tuturdu. Daha böyük yelkənli gəmilərin çoxu ona məxsus idi. Erməni kapitalının mövqeyi xeyli zəif olsa da, o, dəniz nəqliyyatında əhəmiyyətli rol oynayırdı [110].

Xəzər ticarət donanmasının və Xəzərdə daşımaların artması Şimali Azərbaycanın iqtisadi inkişafı, onun Rusiyanın kapitalist inkişafının ümumi axınına cəlb edilməsi işində mühüm əhəmiyyət kəsb edirdi.

Kür çayının aşağı axarlarında da gəmiçilik inkişaf edirdi. Lakin çaydan dənizə gəmi keçməsi üçün zəruri yerlərin təmizlənməsi sahəsində görülən işlərin azlığı bu çaydan mühüm nəqliyyat vasitəsi kimi istifadə etməyi ləngidirdi. XIX yüzilliyin sonunda Kürdə, onun mənsəbindən Yevlaxa qədər 14 buxar, 20 yelkənli gəmi və 200-ə qədər kirjim (yastı dibli kiçik gəmi - *Red.)* hərəkət edirdi [111].

Müvafiq dövrdə *rabitə* də xeyli inkişaf etdi. Poçt rabitəsi əsasən çay, dəniz və quru yolları ilə həyata keçirilirdi. Bu rabitə Rusiya və onun vasitəsi ilə xarici ölkələrlə sıx ticarət-iqtisadi əlaqələr yaratmaq üçün mühüm rol oynayırdı. Ona görə də Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən dərhal sonra çar hökuməti özünün yolsuzluğu ilə fərqlənən bu diyarın idarə edilməsinin çətinliklərini hiss etdi. Lakin XIX yüzilliyin ortalarına qədər Şimali Azərbaycanda yolların yaxşılaşdırılması sahəsində heç bir iş görülmədi.

Şimali Azərbaycanın torpaq yollarından ən mühüm və bütün Cənubi Qafqazın başlıca rabitə yollarından biri, ümumi uzunluğu 509 verst olan Bakı-Tiflis poçt yolu idi [112]. Baş poçt yollarından Şimali Azərbaycanın bütün qəza mərkəzlərinə poçt yolları gedirdi Bu yolların əsas və başlıca çatışmazlığı onları kəsən çoxlu çaylar üzərində körpülərin olmaması idi.

XIX yüzilliyin 70-ci illərinə qədər Şimali Azərbaycanın poçt müəssisələri şəbəkəsi çox ləng inkişaf edirdi. Burada ucqarların inkişafını şüurlu surətdə ləngidən, rabitənin təşkilini ilk növbədə hərbi və siyasi məqsədlərə tabe edən rus çarizminin müstəmləkəçilik siyasəti özünü aydın göstərirdi. Rabitə üçün vəsaitin Daxili İşlər Nazirliyinin nəzarət və sərəncamında olması heç də təsadüfi deyildi.

*Poçt* Bakıda daha çox inkişaf edirdi. Buradan mallar həm Rusiyanın daxilinə, həm də xaricə Fransaya, İngiltərəyə, Hollandiyaya, İrana və b. yerlərə göndərilirdi. Poçt stansiyalarının ümumi sayından (60-dan çox) 33-nün Bakı, 27-nin Yelizavetpol quberniyalarında, Lənkəranda, Salyanda yerləşməsi də məhz bu şəraitlə izah olunurdu və həmin yerlərin sənaye və təsərrüfat inkişafı ilə bağlı idi [113]. Mövcud poçt stansiyalarının əksəriyyəti pis vəziyyətdə idi və yalnız 1871-ci ildə bütün poçt və stansiya binalarını poçt sahiblərinin sərəncamına verən qiymət sisteminin tətbiqi ilə poçt müəssisələrinin təmirində, poçt göndərişlərinin hazırlanmasında və ünvanlara çatdırılmasında müəyyən irəliləyişlər baş verdi [114].

XIX yüzilliyin ikinci yarısında baş verən iqtisadi inkişaf Şimali Azərbaycanda rabitənin ikinci növünün teleqrafın da meydana gəlməsinə və yayılmasına yardım göstərdi. 1864-cü il yanvarın 21-də Naxçıvanı İran sərhədindəki Culfa ilə birləşdirən

və Tiflis-İrəvan-Naxçıvan-Culfa teleqraf xəttinin bir hissəsi olan ilk teleqraf xətti istifadəyə verildi. 1868-ci ilin yanvarında Tiflis-Bakı teleqraf xəttinin istifadəyə verilməsi ilə Qafqazın iki ən mühüm məntəqəsinin - ən böyük inzibati mərkəz olan Tiflislə "payına dünyanın qara qızıl mərkəzlərindən biri olmaq qisməti düşən" Bakının birləşdirilməsi başa çatdı [115].

1868-ci ildə Şimali Azərbaycanın ticarət və ipəkçilik mərkəzi Şəkidə teleqraf stansiyası açıldı, xüsusi teleqraf xətti Gəncəni Gədəbəy misəritmə zavodları ilə birləşdirdi, ticarətlə məşğul olanların ehtiyacını ödəmək üçün Şuşada teleqraf stansiyası işə salındı. Sonralar ordu hissələrinin yerləşdiyi ərazilərdə - Vəngdə, Qusarda (1880-1882-ci illər), Şimali Azərbaycanın iri balıq sənayesi mərkəzləri olan Salyanda, Pirallahı vətəgəsində (1883-cü il), Yevlaxda, Lənkəranda, Ağdaşda teleqraf stansiyaları açıldı ki, bu da böyük ticarətlə məşğul olan, başlıca olaraq ipək, pambıq və yun alveri edən yerli tacirlərin tələbatı ilə bağlı idi [116].

Zakaspi vilayətləri ilə teleqraf əlaqələri üçün başqa yol olmadığından bu əlaqələr İran vasitəsilə onun teleqraf stansiyalarında həyata keçirilirdi və yalnız 1879-cu ildə Xəzər dənizinin dibi ilə teleqraf xəttinin çəkilişi Bakı və Krasnovodsk arasında birbaşa əlaqə yaratmağa imkan verdi [117]. Bakı-Tiflis dəmir yolu sahəsinin tikintisindən sonra bütün yol boyunca teleqraf xətti çəkildi və 36 teleqraf stansiyası istifadəyə verildi. 1886-cı ilin sentyabrında Qara şəhərdə teleqraf stansiyası, Yelenendorfda poçt-teleqraf şöbəsi istifadəyə verildi. Qazax poçt şöbəsinin nəzdində isə 1887-ci ilin mayında teleqraf əlaqəsi açıldı. Yerlərdə ticarətin inkişafı Ağstafada (1892), Gorusda (1893), Yevlaxda (1894), Ağdamda (1895), Tərtərdə (1895), Dəvəçidə (1896), Cəbrayıl və Ağdaşda, Kürdəmirdə (1900) və s. yerlərdə teleqraf stansiyalarının açılmasına səbəb oldu [118].

Şimali Azərbaycanda rabitənin üçüncü növünün - telefonun inkişafı daha sürətlə gedirdi. Belə ki, yeni rabitə növü 1876-cı il fevralın 14-də Vaşinqtonda rəsmi şəkildə təsdiq edildi, 1880-ci ilin sonunda isə artıq "Qafqaz və Merkuri" gəmiçilik cəmiyyəti Bakıda ilk telefon xətti çəkdi [119].

Dövlət mülkiyyətində olan poçt-teleqraf müəssisələrindən fərqli olaraq, ayrı-ayrı adamlara telefon rabitəsi yaratmağa imkan verən xüsusi qanun 1881-ci ilin fevralında təsdiq olunduqdan sonra, telefon müəssisələri xüsusi kapitalist müəssisələri kimi formalaşmağa başladı. Yalnız 5 il ərzində Bakıda "Nobel qardaşları" və "Kaspi" şirkətlərinə, Tağıyevə, Sarkisov qardaşlarına, 9 ticarət firmasına və b. məxsus olan 14 telefon xətti çəkildi. Lakin mövcud telefon xətlərinin bir böyük nöqsanı var idi: ayrı-ayrı adamlara məxsus olan bu xətlər yalnız sahibkarın idarəsi ilə neft mədənlərini, yaxud zavodlarını birləşdirirdi və təbii ki, bu pərakəndəlik nəticəsində bir-biri ilə əlaqə yarada bilmirdilər. Telefon xətləri sisteminə mərkəzləşmiş xarakter vermək üçün isə poçt və teleqraf baş idarəsi 1886-cı il sentyabrın 29-da "Qustav List"lə 20 il müddətinə Bakıda, Qara şəhərdə və Bakının Sabunçu meydanında xüsusi telefon əlaqəsini nizamlamaq haqqında müqavilə bağladı [120].

XIX yüzilliyin 80-ci illərinin sonunda Rusiyada artıq 11 şəxsin telefon stansiyası var idi ki, bunlardan da ikisi - Bakı və Sankt-Peterburq stansiyalarının hər biri iki mərkəzləşmiş stansiyaya malik idi. Bakı telefon şəbəkəsinin əsas stansiyası şəhərin özündə, köməkçi stansiya isə şəhərin 12 verstliyində - Balaxanıda yerləşirdi [121].

Telefon rabitəsinin əsas inkişafı Bakı və onun ətrafında baş versə də, o, Şimali Azərbaycanın qəzalarında da, əsasən dəmiryolu xətti boyunca da müəyyən qədər inkişaf edirdi. Belə ki, 1887-ci ildə Gəncədə vağzalla şəhər arasında telefon rabitəsi yaradıldı. 1890-cı ildə Qarasu suvarma stansiyasından dəmir yolu stansiyasına qədər telefon xətti quraşdırıldı. 1891-ci ildə Hacıqabulda da eynilə belə telefon xətti çəkildi.

1886-cı ildə şəbəkədə abonentlərin ümumi sayı 40 nəfər, mədaxil 1996 və məxaric 18936 manat idisə, artıq 1900-cü ildə isə say 1146, mədaxil 205500 və məxaric 74 mini təşkil edirdi. Bu rəqəmlər telefon rabitəsinin inkişaf dərəcəsini çox yaxşı əks etdirir [122].

## § 5. KƏND TƏSƏRRÜFATINDA KAPİTALİST İSTEHSAL ÜSULUNUN MEYDANA GƏLMƏSİ

70-ci illərdə və 80-ci illərin əvvəllərində Şimali Azərbaycanda taxılçılıq daha da inkişaf etdi. Təkcə Bakı və Yelizavetpol quberniyalarında, habelə Zaqatala dairəsi və Naxçıvanda 1870-1874-cü illərdə orta hesabla ildə 30 mln pud, 1896-1899-cu illərdə isə artıq 70 mln puddan çox (70-ci illərin məhsulu ilə müqayisədə iki dəfə çox) dənli bitki məhsulu yığılmışdı. 1896-cı il Şimali Azərbaycanda dənli bitkilər məhsulu üzrə rekord ili idi. Həmin ildə 71543784 pud taxıl yığılmışdı. 1900-cü ildə isə bu göstərici, demək olar ki, iki dəfə azalmış və 35732688 puda bərabər olmuşdur. Bu, başqa səbəblərlə yanaşı, həm də dənli bitkiləri sıxışdıran pambıqçılığı inkişafı ilə bağlı idi [123].

Nəqliyyatın, o cümlədən də dəmiryolu və dəniz nəqliyyatının inkişafi taxılçılıqda əmtəəlik məhsul istehsalının artımına güclü təkan verdi. Mövcud rəsmi məlumatlara görə, 1886-cı ildə Bakı quberniyasından 3 mln puda yaxın (bundan 2160 min pudu buğda idi) taxıl aparılmışdı. Azərbaycan nəinki özünü öz taxılı ilə təmin edir, həm də ölkədən kənara göndərmək üçün artıq taxıla malik olurdu. Kənara göndərilən taxılın miqdarı məhsuldan asılı olaraq tarəddüd edirdi. Məsələn, 1893-cü ildo Yelizavetpol quberniyasında toxum fondu və yerli əhalinin ehtiyaclarını ödəmək üçün zəruri olan taxılı çıxmaqla, 8 mln puddan çox müxtəlif taxıl ehtiyatı qalmış və bu da yerindəcə satılmağa və quberniyanın hüdudlarından kənara göndərilməyə sərf olunmuşdu [124].

Taxılın artığı, başlıca olaraq, Şimali Azərbaycanın şəhərlərində, hətta kənd yerlərində satılmaqla yanaşı, bir hissəsi, xüsusən də düyü Batum və Poti

vasitəsilə xarici bazarlara, o cümlədən İtaliya, Yunanıstan, Fransa, Türkiyə, Belçika, Hollandiya, Almaniya və Avstraliyaya da aparılırdı.

Batum və Poti vasitəsilə Cənubi Qafqazdan taxıl ixracında birinci yeri Şimali Azərbaycan tuturdu. Məsələn, 1887-ci ildə Batum və Poti limanlarından aparılmış 3088202 pud buğdadan 2402913 pudu Azərbaycanın payına düşürdü. Bu da aparılmış bütün buğdanın 80 faizini təşkil edirdi. Cənubi Qafqaz diyarından taxılın başlıca olaraq Yelizavetpol və Bakı quberniyalarından aparıldığını qeyd edən bir nəfər müsafir də buna şəhadət verir: "Taxılın ən yaxşı növləri Cənubi Qafqaz dəmiryolunun Ucar, Müsüslü və Hacıqabul stansiyalarından gətirilirdi" [125].

Düyü də xeyli miqdarda ixrac olunurdu. 1888-ci ildə Yevlax və Ləki dəmir yolu stansiyalarından 194 min pud düyü göndərilmişdi. Bundan başqa düyü Lənkəran qəzasından Rusiyaya əvvəlki kimi dənizlə daşınırdı. Məsələn, 1892-ci ildə Lənkərandan Həştərxana 35 min pud, 1893-cü ildə isə (mart ayından sentyabr ayınadək) 30 min pud düyü gətirilmişdi.

Yüzilliyin sonuncu on illiyində şəhərlərin inkişafı, şəhər əhalisinin və ümumiyyətlə bütün Şimali Azərbaycan əhalisinin artması nə əlaqədar olaraq, taxıl ölkənin özündə satılır və ixrac zərurəti aradan qalxırdı. Bu baxımdan Rusiyaya aparılması ilbəil artan düyü istisna təşkil edirdi.

Əkinçiliklə yanaşı, Şimali Azərbaycanda maldarlıq da öz inkişafını davam etdirirdi. 1887-1891 -ci illərdə Azərbaycanın iki quberniyasında mal-qaranın sayı 2,7 mln başdan çox, 1897-1898-ci illərdə təxminən 3 mln başa, Zaqatala və Naxçıvan qəzası da nəzərə alınmaqla 3,2-3,4 mln başa bərabər idi. Maldarlıqda aparıcı yeri Yelizavetpol quberniyası tuturdu. Şimali Azərbaycanda mal-qaranın əksəriyyətini qoyunlar təşkil edirdi. Məsələn, 1897-ci ildə 3066006 baş malqaradan 1846251 başı, yəni təxminən 60 faizi qoyun idi [126].

Heyvandarlar köçmə maldarlığı ilə məşğul olurdular. Çünki Şimali Azərbaycanın iqlim və coğrafi şəraiti maldarları mal-qaranı başlıcası isə qoyunları yayda yaylaqda, qışda isə qışlaqda saxlamağa məcbur edirdi. Maldarlığın əmtəəliyi ləng artırdı. Bu baxımdan yunun emalı istisna təşkil edirdi. Bununla yanaşı, aşılanmamış dəri, yun, habelə diri heyvan və digər maldarlıq məhsulları da yerlərdə, yerli bazarlarda geniş surətdə alınıb-satılır və Bakı şəhərinə daşınırdı. 1899-cu ilin məlumatlarına görə, hər gün Yelizavetpol quberniyasında 3255 min manatlıq, Zaqatala dairəsində isə 360 min manatlıq iri mal-qara satılırdı.

1871-ci ildə xaricə 979 min manatlıq yun aparılmışdı [127]. Maldarlıq məhsulları, xüsusən də yun Rusiyaya və qismən də xaricə aparılırdı. Şimali Azərbaycandan yun aparılması 90-cı illərdə xüsusən artmışdı. 1891-ci ildə 1,5 mln manatlıq 250 min pud yun aparılmışdı [128]. Yunun yola salındığı başlıca məntəqə Bakı idi. Yun buradan Rusiyaya, Batum vasitəsilə isə xaricə göndərilirdi. Azərbaycan yunu Batumdan İngiltərəyə, Fransa və Amerikaya ixrac edilirdi. Baha xalça istehsalı ilə məşğul olan Amerika sahibkarları xalça toxumaq üçün müstəsna

olaraq, İran və Cənubi Qafqaz, o cümlədən Azərbaycan yunundan istifadə edirdilər.

Yüzilliyin 80-ci illərinin ikinci yarısında Şimali Azərbaycanda pambıqçılığın yüksəlişi dövrü başlayır. Kənd təsərrüfatının əmtəəlik sahəsi kimi pambıqçılığın inkişafı, şübhəsiz ki, rus pambıq-parça sənayesinin yerli xammala olan ehtiyacından irəli gəlmişdi. 1888-ci ildə çar hökuməti xaricdən Rusiyaya idxal olunan pambığın üzərinə gömrük vergisi qoydu. Bununla əlaqədar olaraq xaricdən gətirilən pambıq get-gedə bahalaşırdı, sürətlə inkişaf etməkdə olan toxuculuq sənayesini həmin xammalla təmin etmək artıq qeyri-mümkün idi. Bu vəziyyət rus sənayeçilərini ölkə daxilində xammal axtarmağa məcbur etdi. Bu da imperiyanın pambıqçılığın inkişafı mümkün olan rayonlarının iqtisadiyyatına təsir etməyə bilməzdi.

1887-ci ildə Lodzdakı Poznanski firmasının müdiri Ramendik Tiflis karvansaralarının birində Ərəş və Göyçay qəzalarından gətirilmiş pambıq taylarını görür. Qiymətli xammalla maraqlanan Ramendik torpaq sahibkarı Hacıyevlə birlikdə Ağdaşa getmiş, Ərəş və Göyçay qəzalarını gəzmiş və belə bir qəti nəticəyə gəlmişdi ki, bu qiymətli bitkinin burada yetişdirilməsi tamamilə mümkündür [129]. O, kəndlilərlə sazişə girməyə başlayır, onlara təmənnasız surətdə çiyid paylayır və hətta onların bu işlə məşğul olmağa başlaması üçün beh də verirdi. Artıq 1888-ci ildə qeyd edilən iki qəzanın kəndliləri geniş surətdə pambıqçılıqla məşğul olmağa başlamış və yaxşı məhsul da yetişdirmişdilər.

Poznanski firmasının ardınca 1889-cu ildə Ağdaşa digər iri firmanın "A.N.Korzinkin və K°"nın Böyük Yaroslavl manufakturasının nümayəndələri gəldilər. Sonuncular da öz növbələrində çiyid paylamağa və pambıq satın almağa başladılar [130]. Ərəş qəzasının pambıqçıları 1888-1889-cu il mövsümündə 3100 pud, 1892-1893-cü ildə isə artıq 28 min pud pambıq satmışdılar. 1897-ci ildə Yelizavetpol quberniyasında 6944 desyatin pambıq əkilmiş və 152766 pud məhsul götürülmüşdü. Göstərilən məhsulun 95,5 min pudu Ərəş qəzasının payına düşürdü. Qalanı isə Cavanşir, Şuşa, Zəngəzur və Yelizavetpol qəzalarında yetişdirilmişdi [131].

Bakı quberniyasına gəldikdə isə burada pambıq ancaq Göyçay və qismən də Cavad qəzalarında yetişdirilirdi, onun məhsulu isə çox deyildi. 1897-ci ildə Naxçıvan qəzasında 50 min pud pambıq yığılmışdı. Şimali Azərbaycanda pambığın Amerika, Daşkənd və Qaraqoza kimi növləri əkilirdi. Pambıqçılıqla məşğul olmaq iqtisadi cəhətdən əlverişli idi. Pambığın 1 desyatini dənli bitkilər üçün istifadə edilən 1 desyatin torpağa nisbətən təxminən 3 dəfə çox gəlir gətirirdi [132].

Pambıqçılığın tərəqqisində marağı olan çar hakimiyyəti orqanları bu sahənin inkişafına kömək göstərirdilər. Əkinçilik nazirliyi nümunəvi tarlalar salır, bu tarlalarda pambığın əkilməsi və becərilməsinin, onun yığımı və təmizlənməsinin, habelə pambıq və çiyidin növlərə ayrılmasının təkmilləşmiş

üsullarını tətbiq edirdi. İlk nümunəvi tarla 1895-ci ildə Ərəş qəzasında salınmışdı. 1896-, ildə belə tarlalar Ağdaşda və Cavanşir qəzasının Qaziyan kəndində də təşəkkül tapdı.

Suvarma qurğulan şəbəkəsinin genişləndirilməsi üzrə bəzi işlər, Kür üzərində su nasoslarının qurulması da pambıqçılığın inkişafında müsbət əhəmiyyətə malik idi. Bütün pambıq məhsulu Rusiya quberniyalarına göndərilir, onun ancaq cüzi hissəsi yerlərdə emal olunurdu.

70-ci illərin sonu, 80-ci illərin əvvəllərində tütünçülükdə də yüksəliş baş verdi. 1877-ci ildə xaricdən idxal olunan tütünün hər puduna gömrük rüsumunun qızıl pulla 14 manatadək artırılması tütünçülüyün inkişafına əsaslı təsir göstərirdi. Tütünçülükdə aparıcı yeri Quba və Nuxa qəzaları, habelə Zaqatala dairəsi tuturdu. Nuxa və Quba rütünü aşağı növlü, Zaqatala tütünü isə əla növlü hesab edilirdi. Tütünün az bir hissəsi ölkənin hüdudlarından kənara -Gürcüstana, Rusiyaya, hətta xaricə (başlıca olaraq Zaqatala tütünü) aparılırdı [133].

Keçmişdə olduğu kimi, Abşeronda yenə də zəfəran yetişdirilirdi. 1885-1886-cı illərdə Şimali Azərbaycan zəfərançıları 196 pud 35 funt zəfəran əldə etmişdilər. Zəfərançılığın əsas rayonlarında - Maştağa və Bilgəh kəndlərində bu məhsulun topdan və pərakəndə satışı ilə məşğul olan tacirlər fəaliyyət göstərirdilər. Onlar zəfəranı İrana və Türkiyəyə aparırdılar.

80-ci illərin ikinci yarısında qısa müddət ərzində biyankökü çıxarılması da xeyli inkişaf etdi. Bu kökdən hazırlanan cövhər lakritsa texniki və müalicə məqsədləri üçün istifadə olunurdu. Şimali Azorbaycanda fəaliyyət göstərən 3 zavod gətirilən kökün hər pudunu 20 qəpik hesabı ilə qəpik-quruşa alır, qurudur, presləyir və xaricə, başlıca olaraq, Amerikaya göndərirdi. Zavod sahibləri müxtəlif yerlərdə satınalma məntəqələri yaradır, öz aralarında amansız rəqabət apararaq, biyan kökü alanda, onu çıxaranları amansızcasına soyurdular. Hər il Şimali Azərbaycanda 100 min pudlarla biyan kökü toplanırdı. Məsələn, Yelizavetpol quberniyasında 1889-cu ildə 1 mln pud, 1890-cı ildə isə 2260500 pud biyan kökü çıxarılmışdı [134]. Lakin 1893-cü ildən etibarən biyan kökünün toplanması və aparılması xeyli azalır. Bu, həmin bitki ilə zəngin olan yeni rayonların (başlıca olaraq Suriyada) aşkara çıxarılması və biyan kökünün Cənubi Qafqaz dəmir yolu ilə daşınmasının bahalığı ilə əlaqədar idi. Nəticədə biyan kökü sənayesində böhran başlandı və bu bitkinin çıxarılması tədricən tənəzzülə uğradı.

Quba, Nuxa, Ərəş, Şamaxı, Bakı, Naxçıvan və Göyçay qəzaları, habelə Zaqatala dairəsi ən mühüm bağçılıq rayonları idi. Şimali Azərbaycanda kifayət qədər çox meyvə yığılırdı. 70-ci ilin sonu-80-ci iliərin əvvəllərində Nuxa qəzasında və Zaqatala dairəsində çox bol yetişən qoz və fındığın məhsulu nəzərə alınmamaqla, təkcə Yelizavetpol quberniyasında hər il 1200 min puddan çox müxtə-lif meyvə yığılırdı. Bağçılıq getdikcə daha da çox əmtəə istehsalı xarakteri alırdı. Bağçılıq məhsulları təkcə Şimali Azərbaycanın özündə satılmır, həm də getdikcə daha çox miqdarda Cənubi Qafqazın digər rayonlarına və Rusiyaya aparılırdı. 80-ci illərin

ortalarında Quba qəzasından dəniz vasitəsi ilə Həştərxana və Nijni Nov-qoroda hər il 92 min pudadək alma və armud qaxı, 30 min pudadək qoz aparılırdı. Bakı quberniyası üzrə bağçılıq məhsullarının ixrac olunmasında əsas yeri Göyçay qəzası tuturdu. 1890-1895-ci illər-də Ucar, Müsüslü və Kürdəmir stansiyaları vasitəsilə hər il Göyçay qəzasının hüdudlarından kənara xeyli müxtəlif meyvə aparılırdı [135]. Zaqatala dairəsi də ixrac olunan bağçılıq məhsullarının həcminə görə seçilirdi. Oradan Tiflis və digər şəhərlərə xeyli miqdarda qoz, alma və armud aparılırdı [136].

Yelizavetpol quberniyasından da xeyli meyvə aparılırdı. 1893-cü ildə təkcə dəmir yolu ilə quberniyadan 132 min pud meyvə qurusu, 140 min pud qoz, badam və püstə aparılmışdı. Bostançılıq məhsulları, xüsusən də qarpız və yemiş ixrac edilən məhsullara çevrilirdi [137]. Bağçılığın inkişafına və mütəxəssis bağbanların hazırlığına kömək məqsədilə 1896-cı ildə Mərdəkanda ilk xüsusi bağçılıq məktəbi açıldı. Bu məktəb H.Z.Tağıyev tərəfindən təşkil olunmuşdu. Elə həmin ildə Qubada xəzinənin vəsaiti hesabına ikinci bağçılıq məktəbi açıldı. Bu məktəblərin şagird kontingentinin az olmasına və bağçılığın inkişafına zəif təsir etməsinə baxmayaraq, onlar bağçılıqda aqrotexniki üsulların yayılmasında mühüm rol oynadı [138].

*Üzümçülük* də xeyli inkişaf etmişdi. Şimali Azərbaycanda ölkə nüdudlarından çox-çox uzaqlarda məşhur olan əla üzüm növləri becərilirdi. 1870-1890-cı illərdə Şimali Azərbaycanda üzümlüklə sahəsi orta hesabla təxminən 15 min desyatinə çatır, hər il 4,55 mln pud üzüm yığılırdı. Şamaxı, Göyçay, Bakı, Yelizavetpol və Şuşa qəzaları ölkənin əsas üzümçülük rayonları idi. Yelizavetpol qəzasında üzümçülüyün inkişafı sahəsində Yelenendorf koloniyası fərqlənirdi Üzüm məhsulunun çox hissəsi şərab istehsalına sərf olunurdu Üzüm məhsulu həmçinin yerli bazarlarda satılır, Zaqafqaziyanın iri şəhərlərinə və Rusiyanın daxili quberniyalarına aparılırdı [1391.

60-cı illərin sonu-70-ci illərin əvvəllərində ipəkqurdu xəstəliyinin aradan qaldırılmasından sonra Şimali Azərbaycanda *ipəkçiliyin* inkişafı davam etməyə başladı. 1880-ci illərdə isə bu inkişaf xeyli sürətləndi. 1881-ci ildə Şimali Azərbaycanda 50 min puda yaxın, 90-cı illərin sonunda isə 180 min puddan çox barama yığılmışdı. Barama başlıca olaraq Yelizavetpol quberniyasında bəslənilirdi. 80-ci illərdə burada orta illik barama istehsalı təxminən 75 min puda, 90-cı illərdə isə 120 min puda bərabər idi. Barama yetişdirilməsinin geniş yayılmasına belə bir fakt şəhadət edir ki, 80-ci illərin ortalarında ölkənin 800-dən çox kəndində ipəkçiliklə məşğul olurdular. Bu sənət Şimali Azərbaycanın bütün qəzalarında intişar tapmış, lakin Ərəş, Nuxa, Cəbrayıl və Şuşa qəzalarında, habelə Zaqatala dairəsində daha geniş yayılmışdı. Şimali Azərbaycan əhalisinin ipəkçiliklə bu qədər intensiv surətdə məşğuliyyəti və bu sahənin yüksəlişinin davam etməsi əvvəlki tək rus ipək toxuma sənayesinin xam ipəyə tələbatından doğurdu [140].

1885-ci ildə Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti Cənubi Qafqaz ipəkçilərinə fransız cinsli hüceyrəli barama toxumu paylamışdı. Bundan sonra Qərbi Avropadan bu cür barama toxumunun gətirilməsi getdikcə daha da artırdı.

1895-ci ildə Cənubi Qafqaza 383895 manatlıq 232 pud xarici barama toxumu gətirilmişdi. Onun bir hissəsi Türküstan üçün nəzərdə tutulmuş, bir hissəsi isə İrana aparılmışdı. 1888-ci ildə Tiflisdə ilk Qafqaz ipəkçilik stansiyası açıldı. 2 il sonra bu stansiya Vartaşen və Lənbəranda, 1894-cü ildə isə Qax, Nuxa, Ağdam, Bərgüşad və Hadrutda, habelə Ağdam yaxınlığındakı Seyidbəyli kəndində öz şöbələrini açdı. Stansiyanın şöbələri barama qurdlarının yemlənməsi üsullarını nümayiş etdirir, ipəkçilərə məsləhətlər verirdi. Eyni zamanda Zaqatalada nümunəvi kümxana, 1893-cü ildə isə iri barama müəssisəsi yaradıldı.

1885-ci ildən etibarən Qafqaz tədris dairəsi müəllimləri ipəkçiliyin öyrənilməsinə cəlb etməyə başladı, onlar da öz növbələrində məktəb şagirdləri və yerli ipəkçilərə bu sənəti öyrətməli idilər. 1889-cu ildə Ağdam məktəbinin nəzarətçisi B.D.İbrahimbəyov, Bərdə məktəbinin nəzarətçisi Həsən bəy Bağırov, Qutqaşen məktəbinin nəzarətçisi Rəşid bəy Əfəndiyev ipəkçilik üzrə nəzəri və praktiki kursları dinləmək üçün Qafqaz ipəkçilik stansiyasına ezam olunmuşdular. Müəllimlər üçün Yelizavetpol sənət məktəbi nəzdində ipəkçilik üzrə, Qafqaz ipəkçilik stansiyasının Vartaşen şöbəsi nəzdində isə mikroskoplar üzrə məşğələlər kcçirilirdi. Bu yolla müəllimlər hazırlandıqdan sonra 1889-cu ildə Yelizavetpol quberniyası məktəblərinin özündə ipəkçilik üzrə dərslər başladı. 1891-ci ildə Şimali Azərbaycanın artıq 18 məktəbində belə məşğələlər keçirilirdi.

Qeyd edilən tədbirlərdən başqa ipəkçiləri həvəsləndirmək məqsədilə sərgilər təşkil edilirdi. Belə sərgilər 1898-ci ildə Göyçayda, 1899-cu ildə isə Nuxada təşkil olunmuşdu. 1899-cu ildə təcrübə mübadiləsi məqsədilə ipəkçilərin müşavirəsi keçirildi. Müşavirədə ipəkçilik rayonlarının, o cümlədən Nuxa, Zaqatala və Naxçıvan nümayəndələri də iştirak edirdilər [141]. Buxarla işləyən ipəksarıma müəssisələrinin fəaliyyət göstərdiyi rayonlar, yəni Nuxa, Şuşa, Zaqatala və Ordubad ipəkçilik məhsullarının əsas satış məntəqələri idilər. Barama Cənubi Qafqazın digər şəhərlərinə, Rusiyaya və xaricə də aparılırdı. Təkcə 1899-cu il ərzində Yelizavetpol quberniyası və Zaqatala dairəsində barama satışından 2162 min manat əldə olunmuşdu [142].

Yüzilliyin 70-90-cı illərində kənd təsərrüfatında geridə qalmış texnika tətbiq edilirdi. Xış ən başlıca əkin aləti idi. Bundan başqa, yerlərdə istehsal olunmuş kotanlar da vardı. Kotanlar öz konstruksiyasına görə çox ağır idi və xüsusən də bərk torpaqlarda 6-9 cüt öküz və camış qoşulmasını tələb edirdi.

90-cı illərdən başlayaraq, kotanların, özü də təkcə yerli deyil, həm də kənardan gətirilən kotanların sayı getdikcə daha çox artırdı. Bu sonuncu kotanlar başlıca olaraq, rus köçkünlərinin, varlı kəndlilərin və bəzi iri torpaq sahiblərinin təsərrüfatlarında işlədilirdi. 1897-ci ildə Yelizavetpol quberniyasında, Cənubi Qafqaz dəmir yolunun keçdiyi qəzalarda cəmisi 565 təkmilləşdirilmiş kotan var idi. Digər alətlərdən quberniyada bir neçə taxıldöyən və iki buxarla işləyən samankəsən maşın var idi. Elə həmin 1897-ci ildə Bakı quberniyasında 53 təkmilləşdirilmiş biçin maşını var idi [143].

Kənd təsərrüfatı maşınları və alətlərinin yayılmasında Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti də müəyyən rol oynayırdı. 1385-ci ildə cəmiyyət tərəfindən Yelizavetpol və Kürdəmirdə kənd təsərrüfat, maşınlarının iki sınağı keçirilmişdi. 1894-cü ildə cəmiyyət yenidən daha 4 belə sınaq təşkil etmişdi [144]. 1900-cü ildə Yelizavetpolda kənd təsərrüfatı alətlərinin istehsalı üzrə emalatxanalar açıldı. Şimali Azərbaycanda kənd təsərrüfatı maşınları və alətlərinin yayılmasında xüsusi firmalar az rol oynamırdı. 90-cı illərdə Bakıda bu firmaların anbarları açılmağa başladı. "Qustov List", sonra isə "Stepun qardaşları"nın texniki kontorları Bakıda kənd təsərrüfatı alət və maşınları ilə ticarət etməyə başladı [145]. Bu firmalar Şimali Azərbaycanın bəzi yerlərində öz məntəqələrinə malik idilər. Kotanlar, habelə digər kənd təsərrüfatı maşın və alətləri Bakı, Batum, Poti limanları və dəmir yolu vasitəsilə gətirilirdi. Azərbaycan kəndlilərinin əksər kütləsi üçün onlar çox bahalı olduğundan, təsərrüfatlarında yenə də xış və yerli kotanlarla işləyirdilər. Əkinçilikdə təkmilləşdirilmiş maşınların tətbiqi kapitalist xarakteri daşıyır. Çünki bu, kapitalist münasibətlərinin yaranmasına və onların daha da inkişaf etməsinə gətirib çıxarırdı.

Yüzilliyin 70-90-cı illərində kənd təsərrüfatı istehsalı sahələrində kapitalist münasibətləri formalaşırdı. Məlum olduğu kimi, kapitalizmin inkişafı məsələsində muzdlu əməyin yayılma dərəcəsi daha böyük əhəmiyyətə malikdir. Kapitalizm əmtəə istehsalının elə bir inkişaf mərhələsidir ki, bu mərhələdə işçi qüvvəsi də əmtəəyə çevrilir. Bu, ictimai istehsalın bütün sahələrinə aiddir. 70-90-cı illərdə muzdlu əmək kənd təsərrüfatının bütün sahələrində, bəzi sahələrdə çox, bəzilərində isə az dərəcədə tətbiq edilirdi. Taxılçılıqda işləyib ödəmə sistemi ilə qovuşan muzdlu əməyin tətbiqi ilbəil genişlənirdi. Taxılçılıqda kişi əməyinə nisbətən az əmək haqqı ödənilən qadın əməyi də tətbiq olunurdu; əmək haqqı işin xarakterinə görə ödənilirdi. Muzdurlar ya iş heyvanları və ya onlarsız işə girirdilər. Bu o deməkdir ki, muzdurların sıralarına həm tamamilə torpaqsız kəndlilər, həm də öz iş heyvanı, deməli, pay torpağı, lakin çox kiçik, kəndlini təmin edə bilməyən pay torpağı olan kəndlilər də daxil idilər. Belə pay torpağı olan kəndli əlavə qazanc axtarmağa məcbur idi, yəni pay torpaqlı muzdlu fəhlə idi. Bu, muzdla işçi tutmağın qarışıq xarakterini, işləyib ödəmə və kapitalist sistemlərinin qarışıq xarakterini göstərir. Kənd təsərrüfatı üçün muzdlu fəhlə qüvvəsinin əsas mənbəyi çox kasıb, habelə cüzi pay torpağı olan kəndlilər idi. Digər mənbə Cənubi Azərbaycandan, qismən də Dağıstandan gəlmiş kəsbkarlardan ibarət idi.

Taxılçılıqda muzdlu əməyin tətbiqi 80-ci illərin ortalarında, əmtəə istehsalının daha güclü surətdə inkişaf etdiyi dövrdə xüsusilə qüvvətləndi. Bu illərdə Azərbaycan kəndində sinfi təbəqələşmə prosesi xüsusən güclənir, bu da icma torpaq mülkiyyətinin kəndin varlı təbəqələrinin əlində cəmləşməsinə zəmin yaradırdı. Torpağın kəndin varlı yüksək təbəqələrinin əlində cəmlənməsi qaçılmaz surətdə muzdlu əməyin tətbiqinə gətirib çıxarırdı. Muzdlu əməyin daha geniş şəkildə istifadə olunduğu köçkün təsərrüfatları bu baxımdan daha qabarıq şəkildə fərqlənirdilər.

Taxılçılıqda muzdlu əməyin tətbiqi ümumi xarakter alsa da, Lənkəran qəzası bu cəhətdən xüsusilə fərqlənirdi. Belə ki, çəltikçilikdə muzdlu əməyin tətbiqi daha geniş miqyas almışdı. Burada əkində də, biçində də, döyümdə də muzdlu əməkdən, o cümlədən muzdlu qadın əməyindən də istifadə olunurdu. Lakin taxılçılıqda muzdlu əməkdən istifadə edilməsi hökmranedici xarakterdə də geniş yayılmadı, çünki Şimali Azərbaycan kəndlilərinin əsas kütləsi öz torpağını şəxsi əməyi ilə becərirdi. Ümumiyyətlə isə taxılçılıq artıq kapitalist inkişaf yoluna qədəm qoyurdu.

Muzdlu əməkdən üzümçülükdə, xüsusən məhsul yığımında istifadə olunurdu. Burada həmçinin qadın və yeniyetmə əməyi tətbiq edilirdi. Forer qardaşları, Xublarov qardaşları kimi sahibkarların təsərrüfatları isə büsbütün muzdlu əməyə əsaslanırdı [146]. Bəzən üzümçülük rayonlarında sənaye tipli təsərrüfatlar yaradılırdı. 1885-ci ildə Yelizavetpol şəhərində, demək olar ki, bütünlüklə ticarət burjuaziyasının nümayəndələrinə mənsub olan 1277 üzüm bağı var idi [147].

Kapitalist münasibətləri tütünçülükdə də aydın nəzərə çarpırdı, daha doğrusu, burada sırf kapitalist təsərrüfatları mövcud idi. Şimali Azərbaycanın ipəkçilik sahəsində bəzi hallarda bir qədər irihəcmli təsərrüfatlara rast gəlinsə də, bu istehsal sahəsi əsasən xırda kənd təsərrüfatı xarakteri daşıyırdı. Ona görə də, əksər hallarda ipəkçiliklə ailənin öz üzvləri məşğul olurdular. Lakin muzdlu əməyə əsaslanan təsərrüfatlar da var idi. Şimali Azərbaycanda böyük sahəli tut bağlarına malik olan iri torpaq sahibkarları var idi.

Onlardan bəziləri barama qurdlarının bəslənməsi ilə bilavasitə məşğul olmur və öz bağlarını, məhsulun müəyyən hissəsi müqabilində, icarəyə verirdilər [148].

Kənd təsərrüfatının sürətlə inkişaf edən sahəsi olan pambıqçılığı da ticarət və sələm kapitalı bürümüşdü. Ticarət pambıqçılığının meydana çıxdığı zaman alğı-satqı elə qurulmuşdu ki, məhsulu satan hər bir kəndlinin Poznanski və Korzinkin firmalarının kontorları ilə bilavasitə əlaqəsi var idi [149]. 80-ci illərin ikinci yarısından etibarən pambıq bazara artıq istehsalçılar tərəfindən deyil, möhtəkirlər tərəfindən gətirilməyə başladı. Bunların çoxu kəndlilərin pula ehtiyacı olduğunu bilərək, sakinləri pambıqçılıqla məşğul olan kəndləri gəzməyə və gələcək pambıq məhsulu hesabına ödənilmək şərti ilə borc pul təklif etməyə başladılar. Möhtəkirlər "pambığı Tiflis, Şuşa, Nuxaya aparmaq, habelə Moskvada baha qiymətə satmaq üçün alıb yığırdılar" [150].

Bununla yanaşı, pambıqçılıqda muzdlu əmək də geniş tətbiq olunurdu. Burada xalis kapitalist tipli təsərrüfatlar var idi. Məsələn, Tağıyevin 1896-cı ildə satın aldığı "Yevlax mülkü"ndə muzdlu əmək tətbiq edilməklə pambıqçılıqla məşğul olurdular. 1896-cı ildə onun bu mülkündə 39 daimi işçi var idi [151 ]. Təsərrüfatçılıqla özləri məşğul olan bəzi bəylərin təsərrüfatlarında da həmçinin pambıq muzdlu əmək tətbiq edilməklə becərilirdi. Cavanşir qəzasında Məlik-bəylərbəyov familiyalı birisi 1891-ci ildə öz mülkündə 80, Bədirbəyov isə 300 desyatin sahədə pambıq səpdirmiş, bütün işlər muzdlu əməyin tətbiqilə görülmüşdü. Bəzi bəylər torpaqlarını öz pambıqçılıq təsərrüfatlarında muzdlu əməkdən geniş istifadə edən varlı kəndlilərə icarəyə

verirdilər. Pambıq tarlalarında rus köçkünlərinin muzdlu əməyindən xüsusən intensiv surətdə istifadə olunurdu. Məsələ burasında idi ki, məhsul yığımı dövründə istər varlı kəndli, istərsə də qolçomaq və ortabab olsun, hər bir pambıqçı yığımı tez başa çatdırmağa tələsirdi. Çünki məhsul yığımı büsbütün iqlim şəraitindən asılı idi. Ona görə də, demək olar ki, pambıqçıların əksə-riyyəti məhsul yığımı dövründə muzdur tutmalı olurdu.

Muzdlu əməkdən kənd təsərrüfatının digər sahələrində də istifadə olunurdu. Hətta zəfərançılıqda plantasiyaların əkini zamanı muzdlu əmək tətbiq edilirdi. Burada, başlıca olaraq, Cənubi Azərbaycandan olan kəsbkarlar işləyirdilər. 1897-ci il əhali sayımının məlumatlarına görə, Şimali Azərbaycanın 2 quberniyasında 26515 daimi kənd təsərrüfatı fəhləsi qeydə alınmışdır. Bu rəqəm xeyli azaldılmışdır. Əslində o, 40-50 min nəfərə çatırdı. Bütövlükdə götürdükdə isə kənd təsərrüfatı üçün daimi deyil, mövsümi, müvəqqəti fəhlə qüvvəsi səciyyəvi idi, onların sayı ildə 100 min nəfərə çatırdı [152].

XIX əsrin son onilliklərində kənd təsərrüfatının demək olar ki, bütün sahələrində – bəzilərində çox, bəzilərində isə az dərəcədə, muzdlu əmək tətbiq olunurdu. Bundan əlavə, kənd təsərrüfatı istehsalının bütün sahələri ticarət və sələm kapitalı ilə bağlı idi. Deməli, Şimali Azərbaycanın kənd təsərrüfatmda əksər hallarda, ilkin formalarda olsa da, kapitalist istehsal üsulu formalaşmışdı. Şimali Azərbaycanın kənd təsərrüfatmda kapitalist münasibətləri öz əksini feodal torpaq mülkiyyətinin dağılmasında tapırdı. Feodalların torpaq üzərində müstəsna hüququ laxladılmış oldu. Xəzinə və bəy-mülkədar kəndliləri içərisində artıq çox az miqdarda olsa da, sahibkarlar var idi.

Beləliklə, yüzilliyin 70-90-cı illəri, xüsusən də əsrin sonu Şimali Azərbaycanın kənd təsərrüfatında intensiv surətdə feodal istehsal münasibətlərinin dağılması, kapitalist istehsal münasibətlərinin intişarı prosesinin başladığı bir dövr idi.

## § 6. TİCARƏT

XIX əsrin 60-cı illərində Şimali Azərbaycan ticarəti sürətlə genişlənməyə başladı. Şimali Azərbaycanın Bakı, Nuxa, Şamaxı, Şuşa, Yelizavetpol, Naxçıvan, Zaqatala və b. şəhərlərində tacirlərin sayı, ticarət müəssisələrinin miqdarı və illik dövriyyəsi ilbəil çoxalır, ticarət kapitalının həcmi artırdı. 60-cı illərin ortalarında Şimali Azərbaycan ərazisinin çox böyük hissəsini təşkil edən Bakı quberniyasında 3879 ticarət müəssisəsinin olması bunu açıq göstərir [153]. Bu zaman Naxçıvan qəzasında 955, Yelizavetpol şəhərində isə 571 ticarət müəssisəsi açılmış, Zaqatalada 150, Qaxda isə 80 ticarət müəssisəsi olmuşdur. Lakin hələ bu dövrdə tacirlərin kapitallarının miqdarı xeyli az idi. Şuşa və qismən də Şamaxıda çox az tacirin 100 min manatdan yuxarı kapitalı var idi. Ordubadda isə 10 tacirin müəssisəsinin illik dövriyyəsi bütünlükdə 300-400 min manatdan artıq deyildi [154].

XIX əsrin 50-60-cı illərində Şimali Azərbaycanın Mərkəzi Rusiya, İran və digər ölkələrlə ticarəti daha da genişləndi. XIX əsr 50-ci illərində Şimali Azərbaycandan Mərkəzi Rusiyaya 1309 min manatlıq, oradan isə Şimali Azərbaycana 1695 min manatlıq mal gətirilmişdi [155].

Azərbaycandan Mərkəzi Rusiyaya aparılan malların içərisində ipək və ipək məmulatı, qızılboya, balıq və balıq məmulatı, neft və s. mühüm yer tururdu.

Mərkəzi Rusiyadan Azərbaycana başlıca olaraq pambıq-parça məmulatı, dəmir və dəmir məmulatı, qab-qacaq, xırdavat mallan və s. sənaye malları gətirilirdi. 1857-ci ildə dəmir və dəmir məmulatı Mərkəzi Rusiyadan Şimali Azərbaycana gətirilən bütün malın 33,2 faizini təşkil edirdi [156].

Azərbaycanın İranla ticarət əlaqələri də genişlənirdi ki, burada da Bakı və Naxçıvan xüsusilə böyük rol oynayırdı. 50-ci illordə Rusiyadan İrana olan ixracatın 24,1 faizi və İrandan Rusiyaya olan idxalatın 11,6 faizi Bakıdan keçirdi. Bu ticarətdə yerli tacirlərlə bərabər digər şəhərlərin tacirləri də yaxından iştirak edirdi.

Lakin XIX əsrin 70-ci illərinin ortalarına qədər Azərbaycan ticarətinin inkişafında müəyyən irəliləyiş baş vermişdisə də, burada ticarətin təşkilində bütünlükdə heç bir dəyişiklik olmamışdı.

Gildiya ticarət qaydasının tətbiqi, ticarətin təşkili sisteminin təkmilləşdirilməsi və formalarının genişlənməsi, Azərbaycan rayonları arasında ticarət dövriyyəsinin artması və bir sıra yeni ticarət mərkəzlərinin meydana gəlməsi, ticarətdə təmərküzləşmə və mərkəzləşmə prosesinin baş verməsi, kapitalın yeganə forması kimi ticarət kapitalının öz müstəqilliyini itirib sənaye kapitalının tədavül dairəsində nümayəndəsinə çevrilməsi, ticarətdə kapitalist münasibətlərinin yaranıb sürətlə inkişaf etməsi, ticarət əlaqələri coğrafiyasının xeyli genişlənməsi, ticarət əlaqələrinin getdikcə daha çox qarşılıqlı xarakter daşıması və s. 70-ci illərin ortalarından etibarən ticarəti səciyyələndirən cəhətlər idi.

1876-cı ilin mart ayından etibarən gildiya ticarət qaydası Azərbaycanda da tətbiq edilməyə başladı [157]. Bundan sonra tacirlərin hər biri malik olduğu kapitalın həcmindən və fəaliyyət dairəsindən asılı olaraq gildiyanın hər hansı bir dərəcəsinə yazılmalı və öz müəssisələri üçün müəyyən bilet götürməli idi.

Birinci gildiya tacirinə çox böyük hüquqlar verilirdi. O, Rusiya başqa dövlətlərin mallarını "Rusiyanın hər yerində yük ilə, tay, va top" ilə [158] satmaq üçün lazım olan qədər kontor və anbar açmaq hüququna malik idi.

İkinci gildiya şəhadətnaməsini götürənlər şəhadətnamə aldıqları qəza və kəndlərdə istənilən qədər dükan açıb Rusiya və başqa (dövlətin gömrüklənmiş mallarını sata bilərdilər. Xırda alış-veriş şəhadətnaməsi olan tacirin şəhadətnamə aldığı qəzada dükan açmağa ixtiyarı var idi. Lakin o, bu dükanlarda Qafqaz canişinliyi tərəfindən tərtib olunmuş siyahıda göstərilən malları satmalı idi.

Gildiya ticarət qaydası Azərbaycana tətbiq edildikdən sonra ticarət-sənaye dairələri tərəfindən əldə edilən ticarət sənədlərinin miqdarı sürətlə çoxalmağa başladı.

1876-cı ildə Bakı və Yelizavetpol quberniyalarında 8 minə yaxın ticarət sənədləri götürüldüyü halda, 1898-ci ildə onların sayı 25 minə çatmışdı [159].

XIX əsrin sonlarında Azərbaycanda gildiya ticarət müəssisələrinin sayı xeyli artmışdı. 1890-1900-cü illərdə Bakı və Yelizavetpol quberniyalarında gildiya ticarət müəssisələrinin sayı 1724-dən 2638-ə yüksəlmişdi. 1897-ci ildə gildiya sistemi ticarət müəssisələrinin sayının 37 faizini, dövriyyəsinin isə 91,1 faizini əhatə edirdi. Lakin gildiya ticarət müəssisələri əsasən Bakı şəhərində, qismən də Yelizavetpolda, Nuxada, Şamaxıda və Şuşada açılmışdı [160].

XIX əsrin 70-ci illərindən etibarən Azərbaycanda gildiya ticarət müəssisələri ilə bərabər, xırda şəhadətnamə ilə idarə olunan ticarət müəssisələri də sürətlə artırdı. 1890-cı ildə təkcə Bakı və Yelizavetpol quberniyalarında ticarət müəssisələrinin sayı 5616; 1900-cü ildə isə 6492 olmuşdu [161].

XIX əsrin sonunda Azərbaycanda bütün ticarət müəssisələrinin illik dövriyyəsi təqribən 190 milyon manata çatırdı.

Bakı şəhərində ticarət daha sürətlə genişlənirdi. Bu dövrdə Bakı şəhəri ticarət-sənaye dövriyyəsinin həcminə görə nəinki Azərbaycan və Cənubi Qafqazda, habelə Ümumrusiya miqyasında əhəmiyyətli yer tuturdu. 1900-cü ildə Bakıda ticarət müəssisələrinin sayı 3484-ə qalxmışdı. Onların illik dövriyyəsi isə 137,7 milyon manat idi [162]. 1887-ci ildə Bakı şəhərində "...kapitalist istehsalının ən görkəmli nümayəndəsi" olan yarmarka təşkil edildi. Yarmarkalar Nuxa və b. yerlərdə də fəaliyyət göstərirdi.

XIX əsrin sonlarında Azərbaycanda daxili ticarətin təşkili sisteminin təkmilləşdirilməsinə və onun yeni formalarının yaranmasına baxmayaraq, burada ənənəvi forma olan bazar ticarətinin əhəmiyyəti azalmırdı. 1895-ci ildə yalnız Yelizavetpol quberniyasında 27 bazar var idi [163]. Burada özünün ticarət əhəmiyyətinə görə Azərbaycan hüdudlarından çox-çox kənara çıxan Ağdam və Ağdaş bazarları kimi bazarlar fəaliyyət göstərirdi. Onların hər birinin illik dövriyyəsi 2 milyon manatdan yuxarı olurdu.

Azərbaycanda tacirlərin də sayı sürətlə çoxalırdı. Əvvəllər ayrı-ayrı şəhərlərdə fəaliyyət göstərməklə məhdudlaşan, az miqdar ticarət kapitalına malik olan tacirlər getdikcə əlverişli satış dairəsinə meyil edir və daha iri ticarət əməliyyatlarına qoşulurdular. Nəticədə iri kapitala malik olan tacirlərin sayı sürətlə çoxalırdı. Onlar Şimali Azərbaycanın hüdudlarından kənara çıxır, Rusiyanın daxili rayonlarında, Orta Asiyada, Cənubi Qafqazın digər rayonlarında, Şimali Qafqazda və İranda ticarət aparırdılar. Ən iri kapitalı olan tacirlər Bakı, Şamaxı, Nuxa, Şuşa, Yelizavetpol və b. şəhərlərə toplanır və öz kapitallarını burada yeri gəldikcə istehsala tətbiq edirdilər. 1897-ci ildə Azərbaycanın bu iki quberniyasında 20018 tacir var idi [164].

Azərbaycanda gildiya tacirlərinin də sayı sürətlə artırdı. Gildiya tacirləri əsasən iri şəhərlərdə, xüsusən Bakı, Yelizavetpol, Şuşa və Nuxada fəaliyyət göstərirdilər. 1886-cı ildə Bakıda 20 nəfər birinci və 165 nəfər ikinci gildiya taciri

var idi. 1900-cü ildə onların sayı müvafiq surətdə 78 və 163 nəfər olmuşdu [165]. Yelizavetpol quberniyasında isə 1897-ci ildə 6 nəfər birinci və 58 nəfər ikinci gildiya taciri var idi.

Bu dövrdə Azərbaycanda illik dövriyyəsi yüz min manatlara çatan tacirlərin xüsusi çəkisi xeyli çoxalmışdı. 80-ci illərin sonu və 90-cı illərin başlanğıcında Bakıda ticarət müəssisələrinin çoxunun illik dövriyyəsi 250 min manatdan çox idi. 8 müəssisənin illik dövriyyəsi 500 min manatdan bir mln manata qədər idi. Bakıda illik dövriyyəsi bir mln manatdan çox olan ticarət müəssisələri də var idi. Azərbaycanda ticarət kapitalı yekcins deyildi. Bununla belə milli ticarət kapitalı da artıb çoxalırdı. 1897-ci ildə Bakıda yerli tacirlərin illik dövriyyəsi 21,5 mln manat olub, bütün ticarət dövriyyəsinin 20 faizini təşkil edirdi. Azərbaycanın digər şəhərlərində və qəzalarında isə üstünlük Azərbaycanlı tacirlərə məxsus idi. XIX əsrin sonlarında Azərbaycanda ticarət kapitalının təmərküzləşməsi və mərkəzləşməsi prosesi xeyli sürətlənmiş, inhisarçı ticarət meydana gəlib inkişaf etməyə başlamışdı. Bu dövrdə Bakının ticarət müəssisələrinin saymm və dövriyyəsinin artmasına nisbətən onların mənfəəti daha sürətlə artırdı. 1892-1897-ci illərdə gakıda ticarət müəssisələrinin sayı 32,5 faiz və illik dövriyyə 207,4 faiz çoxaldığı halda, illik mənfəət 417,6 faiz artmışdı. 1897-ci ildə illik mənfəəti 5 min manat və ondan çox olan ticarət müəssisələri bütün müəssisələrin 10,9 faizini əhatə etdiyi halda, ümumi illik mənfəətdə belə müəssisələrin payı 87,9 faizi təşkil etmişdi.

Bakıda ticarət evləri və səhmdar cəmiyyətlərinin sayı da sürətlə artır və fəaliyyət dairəsi genişlənirdi. Bakıda ilk ticarət evləri 70-ci illərin başlanğıcında təşkil edilmiş və 1893-cü ildə onların sayı 20-yə çatmışdı. 1899-cu ildə Bakıda 38 ticarət evi var idi.

Bakıda səhmdar cəmiyyətlərinin də sayı çoxalırdı. 1899-cu ildə burada 24 səhmdar cəmiyyəti var idi.

Bakıda ticarət kapitalının təmərküzləşməsi və mərkəzləşməsi prosesinin sürətlənməsi burada inhisar ticarətin yaranıb inkişaf etməsinə səbəb oldu. Neft sənayesinin ilk inkişafı dövründə yaranan “Bakı neft cəmiyyəti”, “Nobel qardaşları” və daha sonra “Xəzər-Qara dəniz” kimi iri səhmdar cəmiyyətləri neft icarətində mühüm inhisar təşkilatlarına çevrilmişdilər. 1894-cü ildə Rusiyada ilk neft ixracedici sindikat – “Bakı ağ neft zavod sahibləri ittifaqı” yaradıldı. Sindikat Rusiyadan ixrac edilən ağ neftin 98 faizini öz əlində mərkəzləşdirmişdi. 1897-ci ildə “Bakı ağ neft zavod sahibləri ittifaqı” dağıldı. Rotşild tərəfindən 1898-ci ildə “Mazut” cəmiyyəti təsis edildikdən sonra Nobel onunla saziş bağladı. Nəticədə 1900-cü illərin lap başlanğıcında bu iki neft maqnatı arasında kartel müqaviləsi bağlandı. Azərbaycanın ticarət əlaqələrinin genişlənməsində mühüm rol oynayan Bakı limanının mal dövriyyəsi çox böyük sürətlə artırdı.

1886-1900-cü illərdə aparılan malların miqdarı 59066 min puddan 343959 min puda, gətirilən malların miqdarı isə 6000 min puddan 30558 min puda yüksəlmişdi [166].

1883-cü ilin mayında Bakı-Tiflis yolunun işə düşməsi Azərbaycanın ticarət əlaqələrinin genişlənməsinə güclü təsir göstərdi. 1883-1894-cü illərdə Azərbaycanın başlıca dəmir yol stansiyalarından aparılan malların orta illik miqdarı 44145 min pud, gətirilən malların miqdarı isə 9453 min pud olmuşdu [167].

Dəmiryol vasitəsi ilə yalnız Yelizavetpol quberniyasından 1889-cu ildə 2534 min pud, 1895-ci ildə isə 4613 min pud mal aparılmış, həmin illərdə müvafiq surətdə 1518 min və 3312 min pud mal gətirilmişdi [168].

1881-1900-cü illərdə Bakıdan bütün istiqamətlərdə aparılan neft məhsullarının miqdarı 194,4 milyon puddan artaraq 443,1 mln puda çatmışdı [169]. Azərbaycanın ticarət əlaqələrinin inkişafında pambıq, ipək, yun və şərabla ticarət də müəyyən rol oynayırdı.

Azərbaycanın ipəyi, yunu, biyan kökü, meyvəsi və s. malları da getdikcə daha uzaq bazarlara gedib çıxırdı. XIX əsrin sonlarında Bakı quberniyasından aparılan yunun miqdarı ildə orta hesabla 75 min pud olurdu [170].

Zaqatala dairəsində toplanılan qoz-fındıq Tiflislə yanaşı, Nijni-Novqorod yarmarkasında yüksək qiymətə satılırdı. 1884-cü ildə Nijni-Novqorod yarmarkasında Zaqataladan aparılan 23 min pud qoz-fındıq satılmışdı [171].

XIX əsrin sonlarında Şimali Azərbaycanın İranla ticarəti xeyli inkişaf etmişdi. Burdan İrana yerli məhsullar ixrac edilməklə, habelə İrandan buraya yerli tələbatı ödəmək üçün müxtəlif mallar idxal olunmaqla bərabər, Azərbaycan Rusiya ilə İran arasında mövcud olan tranzit ticarətində də əhəmiyyətli rol oynamaqda davam edirdi. 1885-ci ildə Azərbaycan ərazisində olan bütün gömrükxanalardan İrana ixrac edilən və İrandan buraya idxal edilən malların dəyəri, 6,8 mln manat olduğu halda, 1895-ci ildə bu, 20,1 mln manata çatmışdı [172].

## § 7. KREDİT-BANK MÜƏSSİSƏLƏRİ

Şimali Azərbaycanın kredit-bank sistemi Ümumrusiya kredit-bank sisteminin bir hissəsi kimi formalaşır və inkişaf edirdi.

Bütövlükdə Şimali Azərbaycanın kredit-bank şəbəkəsi Rusiya banklarının (həm dövlət, həm də səhmdar), bankir evləri, qarşılıqlı kredit cəmiyyətləri, şəhər kredit cəmiyyətləri, xəzinə, əmanət kassaları, xırda kredit birlikləri, borc-əmanət birliklərinin, şöbələrinin, həmçinin öz əməliyyatlarını Şimali Azərbaycanda aparan dövlət və səhmdar torpaq banklarının açılması nəticəsində meydana gəldi.

Bankların, bankir evlərinin, xəzinələrin, qarşılıqlı kredit cəmiyyətlərinin, şəhər kredit cəmiyyətlərinin cəmləşdikləri əsas yerlər Bakı, Gəncə, Nuxa, Şuşa, Culfa

idi. Xırda kredit birliklərinin və borc-əmanət cəmiyyətlərinin cəmləşdikləri yerlər isə kənd inzibati və ticarət mərkəzləri idi.

Azərbaycan kredit-bank sisteminin yaranması 1874-cü ildən Bakıda başladı. Bu dövrdə kapitalist inkişaf yoluna qədəm qoymuş Bakıda ucuz kreditə tələbat xüsusilə kəskin hiss edilməyə başladı. Bakıda, hətta girov qoymaqla belə, ildə 20-25 faizlik borcu çətinliklə əldə etmək olurdu [173].

1874-cü il fevralın 28-dən Bakıda fəaliyyətə başlayan Bakı kredit cəmiyyəti ilk bank müəssisəsi olmaqla Şimali Azərbaycanda kapitalist kredit sisteminin yaranmasının əsasını qoydu. 1874-cü il iyunun 1 -dən Bakıda ikinci bank müəssisəsi - Dövlət bankının şöbəsi fəaliyyətə başladı [174]. Bundan sonra bir-birinin ardınca müxtəlif səhmdar kommersiya banklarının şöbələri açılmağa baş-ladı. Belə ki, Bakıda 1881-ci ildə Bakı ictimai şəhər bankı, 1886-cı ildə Tiflis kommersiya bankının şöbəsi, 1890-cı ildə Volqa-Kama kommersiya bankının şöbəsi, 1897-ci ildə Kiyev və yaxud Cənubi Rus sənaye bankının şöbəsi, 1898-ci ildə Sankt-Peterburq-Azov kommersiya bankının şöbəsi, Rus ticarət-sənaye bankının şöbəsi, 1899-cu ildə Don torpaq bankı,1900-cü ildə Bakı şəhər kredit cəmiyyəti, İranm Uçot-borc bankının şöbəsi təsis edildi [175].

Beləliklə, sənaye böhranının başlanmasına yaxın Bakıda artıq 10-dan çox bank müəssisəsi və 5 bankir kontoru (A.Q.Ələsgərov, Q.M.Arafelov, P.B.Haşımov, Q.N.Seydiyev və H.Z.Tağıyevin kontorları) var idi [176].

Kredit-bank müəssisələrinin əməliyyatları Gəncə şəhərinə də yayılırdı. 1896-cı il iyulun 1-dən Azov-Don səhmdar kommersiya bankı Gəncədə öz şöbəsini açdı.

Kapitalizmin inkişafı ilə əlaqədar Şuşa, Nuxa şəhərlərində kredit müəssisələri təşkil etmək üçün cəhd göstərilsə də, XX yüzilliyin əvvəllərinədək bu şəhərlərdə bank müəssisələri açılmamışdı.

1897-ci il iyulun 1-dən Rusiyanın bütün xəzinələrinin üzərinə ən sadə bank əməliyyatlarını yerinə yetirmək vəzifəsi qoyulduqdan sonra Şimali Azərbaycanın bank müəssisələri şəbəkəsi daha da inkişaf etdi. Bıı xəzinələrdən bəziləri Şimali Azərbaycanda da fəaliyyət göstərirdi. Xəzinələr dövlət palatasına tabe idi. 1872-ci il iyulun 1-dək Cənubi Qafqazda Baş palata – Cənubi Qafqaz Dövlət Palatası vardı ki, onun da nəzdində 24 xəzinə və məxaric şöbəsi fəaliyyət göstərirdi. 1872-ci ildə bu palatanın əvəzində iki palata – Tiflis və Bakı dövlət palataları təşkil olundu. Bakı palatası Bakı və Yelizavetpol quberniyalarında, Dərbənd qradonaçalnikliyində və Zaqatala dairəsində yerləşən 10 xəzinəyə rəhbərlik edirdi.

Bakı şəhərindəki quberniya xəzinəsi, qəza xəzinələri, Dərbənd və Temirxanşuradakı məxaric şöbələri Bakı dövlət palatasına hesabat verirdilər. XIX yüzilliyin sonuna qədər Göyçay, Qazax, Zəngəzur xəzinələri də təşkil olunmuşdu.

1898-ci il mayın 1-dən üçüncü – İrəvan dövlət palatası açıldıqdan sonra bəzi xəzinələr onun sərəncamına keçdi. İnqilaba qədərki Şimali Azərbaycanda 14 xəzinə fəaliyyət göstərirdi.

1897-ci ildə xəzinələr bank əməliyyatları apararkən onların üzərinə pul dəyişmiş, dövlət xəzinə biletlərini almaq və satmaq, kuponlar və kapital üzrə, tirajı çıxmış faizli kağızlar və vaxtı ötmüş dövlət xəzinə biletləri üzrə faizlərin ödənilməsi, əmanət kassalarının əməliyyatları, dövlət bankları müəssisələrinin vəzifəsi qoyulmuşdu.

Xəzinələrin bank funksiyalarının genişləndirilməsi onları tədricən bank tipli müəssisələrə yaxınlaşdırmaqla yanaşı, borc bank əməliyyatlarının, xüsusilə şərti və cari hesabların tətbiqindən sonra, ümumi inkişafına yardım etdi və həmçinin hər hansıp kredit müəssisəsindən məhrum olan ucqar yerlərdə müxtəlif maliyyə əlaqələrini xeyli yüngülləşdirdi. Belə yerlər isə Şimali Azərbaycanda az deyildi. Lakin daha fəal kredit əməliyyatları, o cümlədən veksellərin hesaba alınması və mala görə borc verilməsi, faizli kağızlar digər dəyərlər xəzinələrə şamil edilmədi.

1849-cu ildə Tiflis şəhərində açılmış, borc vermək hüququ olan Cənubi Qafqaz ictimai himayə bankının, 1874-cü ildə təsis edilmiş Tiflis zadəgan bankının, 1890-cı ildən Tiflis şəhərində fəaliyyətə başlayan Dövlət zadəgan bankının Cənubi Qafqaz şöbəsinin və 1899-cu ildən Bakı şəhərində öz nümayəndəsi olan Don səhmdar torpaq bankının əməliyyatları da Azərbaycan ərazisində yayılırdı [177].

Azərbaycanda dövlət və səhmdar kommersiya bankları qısa müddətli kreditlər verirdi. Nəhəng kapital anbarlarına çevrilən və onu yerdən toplayan banklar borclar bir qayda olaraq iri kapitalistlərə verirdilər [178].

Veksel uçotundan sonra bankların ikinci fəal əməliyyatları həm bilavasitə mallara, həm də malların nəqliyyat sənədlərinə görə borc verməkdən ibarət idi. Banklar neftə, onun məhsullarına, düyüyə, pambığa, meyvə qurusuna və s. görə borc verirdilər. Kreditin bu forması getdikcə daha çox inkişaf edir və neft sənayesi ilə az bağlı olan bankların fəaliyyətinin əsas formasına çevrilirdi.

Dövlət və səhmdar torpaq bankları şəhər və mülklərinin girov qoyulması müqabilində uzunmüddətli borc verirdi. Girov müqabilində verilən borclardan ancaq imtiyazlı silklər – xan nəslindən olanlar, bəylər, ağalar, kənd və şəhər burjuaziyasının nümayəndələri istifadə edə bilərdilər. Şimali Azərbaycanın zəhmətkeş kəndliləri torpaq banklarından borc almaq hüququndan məhrum edilmişdilər.

Mülkləri girov qoyaraq borc almaq XIX yüzilliyin 90-cı illərinin başlanğıcından xeyli genişləndi. Azərbaycan torpaq sahiblərinə borc ən çox Tiflis zadəgan bankı tərəfindən verilirdi. 1898-ci ilə banklar Azərbaycandan ümumi sahəsi 16 min desyatin olan 17 mülk girov götürmüş və 304 min manat borc vermişdilər.

Kredit müəssisələri şəbəkəsi genişləndikcə, bank kapitalı təmərküzləşdikcə onun sənayenin müxtəlif sahələrinə, nəqliyyata, ticarətə, əkinçiliyə və torpaq sahibliyinə müdaxiləsi də güclənirdi. Kapitalist kreditlərinin

daha güclü axını sənayesinin və onun məhsulları ilə ticarətə yönəlmişdi. Ölkə iqtisadiyyatının müxtəlif sahələri arasında əlaqələri gücləndirən banklar ödəmələr zamanı həyata keçirdikləri vasitəçi rolundan tədricən kapitalist təsərrüfat sisteminin mərkəzinə çevrilirdi.

## § 8. ŞƏHƏRLƏR

XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanda 12 şəhər var idi. Şəhərlərin inkişafı və ölkənin sosial-iqtisadi və siyasi həyatında rollarının yüksəlməsi onların əhalisinin sayının artmasına təsir göstərirdi. 50-60-cı illərdə yenə əvvəlki kimi əhalisi daha çox olan ən iri mərkəzlər 25,6 min əhalisi olan Şamaxı, sonra Nuxa (23,3 min), Şuşa (19,3 min), Gəncə (14,9 min), Bakı (12,3 min), Quba (11,2 min) və s. şəhərlər idi [179]. Bu illərdə şəhər əhalisinin 143,5 min nəfərə çatırdı ki, bu da Azərbaycanın bütün əhalisinin 12,4 faizini təşkil edirdi.

XIX yüzilliyin sonunda şəhərlərin əhalisi xeyli artışdı. İri sənaye mərkəzlərinin görünməmiş inkişafı bir sıra yeni sənaye mərkəzlərinin əmələ gəlməsi islahatdan sonrakı dövrün ən xarakterik əlamətlərindən biri idi.

1897-ci ildə şəhər əhalisinin sayı 270 minə çatmışdı ki, bu da artıq Azərbaycanın bütün əhalisinin 14,5 faizini təşkil edirdi. Bakı quberniyası əhalisinin sayı sürətlə artırdı. XIX yüzilliyin sonlarına yaxın buradakı şəhərlərdə quberniyanın bütün əhalisinin 20 faizi yaşayırdı ki, bu da müvafiq Ümumrusiya göstəricisindən xeyli yüksək idi [180].

Ümumrusiya əhəmiyyətli iri mərkəzlərə çevrilən Bakı və Gəncə şəhərlərində əhali daha sürətlə artırdı. 1897-ci ildə Bakının əhalisi 11,9 min nəfər təşkil edirdi, daha doğrusu, 1867-ci illər müqayisədə, demək olar ki, on dəfə artmışdı. Həmin müddət ərzində 33,6 min nəfər adam yaşayan Gəncənin əhalisi 2,2 dəfə artmışdı.

Bu dövrdə Nuxada 24,7 min, Şuşada 25,8 min, Qubada 15,3 min, Naxçıvanda 8,7 min, Lənkəranda 8 min, Ordubadda 7 min nəfər əhali yaşayırdı. Şamaxı şəhərinin əhalisi 6 min nəfər azalmışdı. Bu kənarda qalması və 1859-u il zəlzələsi, quberniya inzibati idarələrinin buradan Bakıya köçürülməsi ilə əlaqədar idi.

Bütövlükdə isə şəhər əhalisinin artım sürəti əhalinin ümumi artım sürəti ilə müqayisədə xeyli yüksək idi. Şəhərlərin sayı 2 dəfə artdığı halda, Şimali Azərbaycanın bütün əhalisinin sayı 1,5 dəfədən az artmışdı.

Əhalinin sürətli illik təbii artımı dövrün ümumi meyli idi. 1894-cü ildən 1898-ci ilə qədər, daha doğrusu 5 il ərzində təbii artım Bakıda 2 min nəfər, Gəncə və Naxçavanda 1,5 min, Şuşada isə 1,3 nəfər təşkil etmişdi [181].

Kapitalist sənayesinin inkişaf etdiyi şəhərlər üçün fəhlə kadrlarının artım mənbəyi olan kəsbkarlıq xarakterik hal idi. Əsas hissəsini Cənubi Qafqazın ayrı-ayrı rayonlarının, Dağıstanın, Orta və Aşağı Volqaboyunun və Rusiyanın bəzi

digər mərkəzi quberniyalarının müflisləşməsi kəndliləri, həmçinin Cənubi Azərbaycanın şimal-qərb vilayətlərindən çıxmış kəsbkarlar təşkil edən gəlmə əhalinin xüsusi çəkisi böyük şəhərlərdə xüsusilə yüksək idi. Belə ki, 1897-ci ildə Bakıda gəlmə əhali əhalinin ümumi sayının 64%-ni, Gəncədə 28%-ni, Şamaxıda 16%-ni təşkil edirdi. Həm də Bakıda gəlmə əhali daha gənc yaş qrupunu təşkil edirdi ki, bunun da nəticəsində şəhər əhalisi içərisində gənc əhali üstünlük təşkil edirdi. Bu, neft sənayesinin inkişafı, bu sahəyə güclü işçi qüvvəsinin axını ilə bağlı idi. Neft istehsalatında məşğul olan əhali, sənayenin digər sahələrində məşğul olan əhaliyə nisbətən daha intensiv artırdı. Bütövlükdə yerli əhali Azərbaycan şəhərlərində yaşayan əhalinin 63%-ni, gəlmə əhali isə 37%-ni təşkil edirdi.

Gəlmə əhalinin ümumi kütləsi içərisində Şimali Azərbaycanın müxtəlif qəzalarından olan mövsimi fəhlələrin xüsusi çəkisi daha yüksək idi. Onların sənayeyə ilk növbədə daimi iş və əmək haqqı cəlb edirdi. 1880-ci ildən onların sayı ildə 30-35 min nəfərə çatmışdı. 1897-ci ildə Bakı quberniyasının şəhərlərində işləyən fəhlələrin ümumi sayının yalnız 34%-i yerli əhalidən, 10,3%-isə Yelizavetpol quberniyasından çıxanlardan ibarət idi. Yerdə qalanlar, daha doğrusu, şəhər əhalisinin ümumi sayının yarısından çoxu Rusiyadan, Dağıstandan, İrəvan quberniyasından və Cənubi Azaərbaycandan gələnlər idi [182].

Şəhər əhalisinin milli tərkibində azərbaycanlılar üstün mövqe tuturdular. Onlar əhalinin 53%-ni təşkil edirdi. Digər millətlərin xüsusi çəkisi yüksək deyildi, bununla belə, artıq XIX yüzilliyin ikinci yarısında çoxmillətliliyin özəyi yaranmağa başladı [183]

Kapitalist münasibətlər inkişaf edib dərinləşdikcə, şəhər əhalisinin sosial tərkibində ciddi dəyişikliklər baş verdi. Hakim təbəqələrin xüsusi çəkisi o qədər də yüksək deyildi. Belə ki, tərkibinə xanların, bəylərin və rus zadəganlarının nümayəndələrinin daxil olduğu qrupun sayı çox cüzi idi. 1870-ci ildə onların sayı 6600 nəfəri təşkil edirdi ki, bu da şəhər əhalisindən 4,6%-i və Azərbaycanın bütün əhalisinin 0,6%-i qədər idi. XIX yüzilliyin sonunda onların sayı 2,3 dəfə artaraq,15,3 min nəfərə çatsa da, xüsusi çəkiləri yenə cüzi idi və 1897-ci ildə şəhərlilərin 5,6%-ni, bütün əhalisi isə 90,8%-ni təşkil edirdilər [184]. Eyni zamanda onların sayı qəzalara nisbətən, demək olar ki, bütün şəhərlərdə az idi. Bakı və Şamaxı şəhərləri müstəsnalıq təşkil edirdilər. Bu şəhərlərdə əhalinin göstərilən qrupunun sayı həmin qəzadakılara nisbətən çox idi.

Muzdlu əməkdən istifadə edən sənaye, nəqliyyat, ticarət. Müəssisə və təşkilatların sahibləri və kapitaldan gələn gəlirdən istifadə edən  qrup da kiçik idi. Məsələn, XIX yüziliyin əvvəlində Bakıda onlar şəhərin iş qabiliyyətli əhalisinin yalnız 6,5 faizini təşkil edirdi. Lakin Bakı zəhmətkeşlərinin amansız istismarı hesabına yaradılmış maddi sərvətlərin xeyli hissəsi onlara mənsub idi. Neft sənayesi burjuaziyasının simasında şəhərin istismarçı yuxarı təbəqəsi mədənlərə, fabrik və zavodlara, gəmilərə, ticarət müəssisələrinə malik idi. Onların arasında tacirlər müəyyən yer tuturdular. Həm də onlar Nuxa, Lənkəran, Naxçıvan, Ordubad

kimi ticarət şəhərlərində xüsusilə çox idilər. XIX yüzillyin sonunda şəhərlərin bütövlükdə 30 min tacir yaşayırdı ki, onlar da şəhər əhalisinin 11%-ni təşkil edirdilər [185]. Həm daxili, həm də xarici topdan-satış ticarətilıə məşğul olan birinci gildiya tacirlərinin əsas hissəsi Bakıda cəmləşmişdi. Yerdə qalan bütün digər şəhərlərdə II gildiya hissəsini isə xırda ticarətlə məşğul olan şəxslər təşkil edirdilər.

Şəhərlərin xırda burjuaziyası, hər şeydən əvvəl, sənətkar emalatxanalarının, kiçik ticarət müəssisələrinin, nəqliyyat (at-araba) vasitələri sahiblərindən və s. ibarət idi. Kənd təsərrüfatı ilə əlaqədar kəsmiş şəhərlilərin xeyli hissəsi də burjuaziyaya aid idilər. 1870-ci ildə onların sayı 100 min nəfərə çatırdı ki, bu da Şimali Azərbaycanda şəhər əhalisinin əksəriyyətini təşkil edirdi. 1897-ci ildə onların sayı 68 min nəfərə enərək, şəhər əhalisinin ümumi sayının yalız 25%-ni təşkil edən zaman mənzərə əsaslı surətdə dəyişdi [186]. Bu onu göstərirdi ki, şəhərlər getdikcə daha çox özlərinin xarakterini itirir, yeni sənaye görünüşü alırdılar. Kənd təsərrüfatı ilə məşğuliyyət artıq şəhər əhalisinin əsas məşğulliyət artıq şəhər əhalisinin əsas məşğulliyyət sahəsi olmayıb, köməkçi xarakter daşıyırdı. Şəhərlilərin təsərrüfat fəaliyyətinin əsasd növləri isə sənətkarlıq, ticarət və sənaye istehsalı idi.

XIX yüzilliyin ikinci yarısında başlayan sənaye-texniki tərəqqi ziyalılarının sayının artmasına kömək etdi. Belə ki, məhsuldar qüvvələrin inkişafı və zehni əməyin tətbiq edildiyi sahələrin genişlənməsi alimlərin, mühəndislərin, texniklərin və digər mütəxəssislərin çoxalmasını tələb edirdi, dövlət aparatının və ölkənin ictimai strukturunun genişlənməsi isə ideloji funksiyaları yerinə yetirən məmurların, qulluqçuların və ziyalıların artmasına təkan verdi. XIX yüzilliyin sonunda ziyalılar aşağıdakı əsas sosial qruplardan ibarət idi: zadəgan-mülkədar, burjua, xırda burjua ziyalıları [187].

Ziyalıların xeyli hissəsi iri şəhərlərdə, başlıca olaraq Bakı və Gəncədə toplanmışdı. Onlar öz tərkibinə görə yekcins deyildi. Peşə mənsubiyyəti baxımından Şimali Azərbaycan ziyalıları aşağıdakılardan ibarət idi: 1) maddi istehsal sahəsində işləyən ziyalılar (mühəndislər, texniklər, poçt-teleqraf və dəmiryol qulluqçuları, kənd təsərrüfatı mütəxəssisləri); 2) mədəniyyət sahəsində çalışan ziyalılar (maarif və tibb işçiləri, alimlər, ədiblər, rəssamlar və b.); 3) dövlət (inzibati, məhkəmə və digər müəssisələrin məmurları, şəhər və zadəgan məmurları, sənaye və ticarət müəssisələrinin inzibati işçiləri, hüquqşünaslar və b.). Şimali Azərbaycan şəhərlərində yuxarıda adları çəkilən peşələrin 35 min nümayəndəsi yaşayırdı ki, bu da bütün şəhər əhalisinin 13%-ni təşkil edirdi [188].

Cəmiyyətin sosial strukturunda sayı 2 min nəfər olan və yaxud şəhərlilərin 1,4 və ölkə əhalisinin 0,2%-ni təşkil edən ruhanilər mühüm yer tutmaqda davam edirdilər. 1897-ci ildə onların sayı 1500 nəfərə qədər azalaraq şəhərlilərin 0,55 faizini və Şimali Azərbaycanın bütün əhalisinin 0,8 faizini təşkil etdi [189].

İş qabiliyyətli şəhər əhalisinin bir hissəsini fəhlələr təşkil edirdilər.XIX yüzilliyin sonunda Bakıda onun xüsusi çəkisi çox yüksək idi və şəhər əhalisi arasında da fəhlələr böyük yer tuturdu. XIX yüzilliyin sonlarında Şimali Azərbaycanın çoxmillətli fəhlə sinfi təşəkkül tapmışdı.

Əmtəə kapitalist münasibətlərinin inkişafı ilə şəhərlərin ixtisaslaşması da baş verirdi. Bakı dünya neft sənayesinin mərkəzinə, Rusiyanın dəniz və dəmir yolu daşımalarının ən mühüm məntəqələrindən birinə, böyük tranzit və ticarət, maliyyə və kredit müəssisələrinin inkişaf etdiyi mərkəzə çevrilirdi.

Gəncə ticarət mərkəzi olmaqla yanaşı, həm də mühüm yol daşımaları, şərab, konyak və spirt istehsalı məntəqəsi idi. Nuxada ipək sənayesi və ticarət daha yüksək sürətlə inkişaf edirdi. Şuşada ipək, yun istehsalı və xalçaçılıq, Qubada xalçaçılıq, Lənkəranda balıq sənayesi yayılmış, Şamaxıda ipəktoxuma istehsalı və şərabçılıq cəmləşmişdi. Yerdə qalan şəhərlər, o cümlədən Naxçıvan, Ordubad əsasən ticarət əhəmiyyətini qoruyub saxlayırdı.

Şimali Azərbaycan şəhərlərində sənaye və ticarət müəssisələrinin sayı xeyli artmışdı. 1900-cü ilə yaxın onların ümumi sayı 10 min müəssisəyə, o cümlədən Bakıda 4365-ə, Gəncədə 1425-ə, Nuxada 810-a, Şuşada 708-ə, lənkəranda 485-ə çatmışdı [190].

Şəhərlərin ümumi xərcləri içərisində məcburi xərclər – müxtəlif dövlət müəssisələrinin, polisin, ordunun və s. saxlanılması birinci yerdə dururdu. Şəhərlərin abadlaşdırılmasına ayrılan xərclər vacib olmayan xərclər sırasına aid edilirdi, onun miqdarı az idi və daima ixtisar edilirdi. Belə ki, 1879-1882-ci illərdə Bakı şəhərinin abadlaşdırılmasına bütün xərclərin 40-faizi ayrılmışdı, 1883-1888-ci illərdə bu, 15, 1895-1899-cu illərdə isə 12 faizə qədər azalmışdı.

Səhiyyə maarif və digər ictimai ehtiyaclara ayrılan vəsait çoz cüzi idi. Şimali Azərbaycanda kapitalist sənayesinin inkişafı ilə əlaqədar istesalatda savadlı işçilərə ehtiyac yarandı. Şəhərlərdə ilk peşə məktəbləri təsis olundu. Lakin ümumtəhsil məktəbləri kimi peşə məktəblərinin də sayı çox deyildi. İşin belə təşkili şəraitində şəhər əhalisi arasında savadlıların faizi aşağı olaraq qalmaqda davam edirdi. Bakıda o, 1897-ci ildə 32,3 faiz, Şuşada 25 faiz, Gəncədə 23,3 faiz, digər şəhərlərdə isə daha aşağı idi [191].

Kapitalist sənaye mərkəzləri olan görkəmli şəhərlərin xarici görünüşlərində də diyişikliklər baş verirdi. Onlarda daş binalar üstünlük təşkil edir, ticarət-sənaye burjuaziyasının nümayəndələrinə mənsub olan üç və dördmərtəbəli yaraşıqlı mülklərin tikintisi başlanırdı. Şəhərlərdə onlar üçün səciyyəvi olan məscid və kilsələrdən əlavə, yeni müəssisələr – teleqraf, poçt və elektrik stansiyaları, təhsil müəssisələri tikilir, yaşıllıqlara, bağ və parkların salınması, küçələrin işıqlandırılması yaxşılaşırdı.

Şəhər nəqliyyatı geridə qalırdı. Yalnız 1889-cu ildə Bakıda konka (at dəmiryolu) fəaliyyətə başladı. Su ilə təchizat yarıtmaz halda idi. Şəhərlərdə kanalizasiya yox idi, antisanitariya hökm sürürdü.

Müəyyən müsbət irəliləyişlərə baxmayaraq, bütün ölkədə olduğu kimi, Şimali Azərbaycan şəhərləri kəskin sosial təzadlar və ziddiyyətləri özündə əks etdirirdilər. Şəhər əhalisi arasındakı münasibətlərin təbəqəli, antaqonist xarakteri, şəhərlərdə sənaye fəhlələrinin cəmləşməsi əməklə kapital arasındakı XIX yüzilliyin sonlarından başlayan döyüşlərdə öz əksini tapırdı.

# VI FƏSIL

# XIX ƏSRİN 80-90-cı İLLƏRİNDƏ AZƏRBAYCAN KƏNDİNİN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ

## § 1. TORPAQ SAHİBLİYİ, TORPAQDAN VƏ SUDAN İSTİFADƏ, ÇARİZMİN KÖÇÜRMƏ SİYASƏTİ

**Torpaq sahibliyi və torpaqdan istifadə.** XIX yüzilliyin birinci yarısında olduğu kimi Şimali Azərbaycanın torpaq fondu yenə də dövlətin mülkiyyəti olan xəzinə torpaqlarından və xüsusi mülkiyyət kimi yerli bəylərin - mülkədarların ixtiyarlarında olan xüsusi sahibkar torpaqlarından ibarət idi. Az da olsa ayrı-ayrı kəndlilər tərəfindən xüsusi mülkiyyət kimi satın alınmış torpaqlar və dini idarələrə məxsus olan vəqf torpaqları da var idi.

*Xəzinə torpaqları* 6,7 mln desyatinə bərabər olub, Şimali Azərbaycanın bütün torpaq fondunun 83%-ni təşkil edir, xəzinə isə ən iri torpaq sahibi kimi çıxış edirdi.

Xəzinə torpaqlarının təxminən 4,5 mln desyatini bilavasitə xəzinənin ixtiyarında olub otlaqlardan, örüşlərdən, cüzi əkin sahələrindən, neft verən torpaqlardan, müxtəlif faydalı qazıntı mədənlərindən və nəhayət, yararsız torpaqlardan ibarət idi. Bütün xəzinə torpaqlarının 2,2 mln desyatini isə pay torpaqları kimi dövlət-xəzinə kəndlilərinin istifadəsində idi.

Xəzinəyə məxsus olan meşələrin sahəsi 900 min desyatinə çatırdı. Dövlət kəndliləri xəzinənin meşə torpaqlarını sərbəst surətdə əkin sahələrinə çevirir, təsərrüfat ehtiyacları üçün meşələrdən ağac qırırdılar. XIX yüzilliyin 60-cı illərinin əvvəllərində xəzinə meşələrinin mühafizəsi haqqında qaydaların tətbiq edilməsindən və meşəbəyiliklərin yaradılmasından etibarən isə meşə sahələrinin əkin üçün təmizlənməsi və xəzinə meşələrinin qırılması qadağan olundu

Xəzinə torpaqlarının təxminən 2 mln desyatinini otlaqlar və örüşlər tuturdu. Otlaq və örüş sahələri xəzinə tərəfindən hər desyatinə görə müəyyən haqq müqabilində kəndlilərə icarəyə verilirdi. Xəzinə kəndliləri pay torpağı kimi yox, bilavasitə öz ixtiyarlarında olan, sahəsi cəmisi 71 min desyatinə çatan əkin, bostan və bağ torpaqlarına malik idilər. Otlaqlar kimi onlar da xəzinə tərəfindən kəndlilərə icarəyə verilirdi. Sahəsi 5 min desyatindən çox olan müzayiqə yolu ilə neft sənayeçilərinə icarəyə verilmiş, bir hissəsi istifadədə olan neftli torpaqlar xəzinə üçün xüsusən qiymətli idi [1]

Xüsusi *sahibkar torpaqlarının* sahəsi 1,3 mln desyatinə çatıb Şimali Azərbaycanın bütün torpaq fondunun təxminən 16%-ni əhatə edirdi. Xüsusi torpaq sahibliyi 1846-cı il reskriptinə görə bəylərin, ağaların və məliklərin xüsusi mülkiyyəti kimi tanınmış şəxsi torpaqları əhatə edirdi.

İri torpaq sahibləri içərisində 100 nəfərdən artıq adamın hər biri 1000 desyatindən çox torpağa malik idi. Bunlardan Məlikbəylərova 21500, Zülqədərovlara 37500, Şirvanskilərə 60000, Adıgözəlovlara 44500, Talışxanovlara 64000, Qarabağ xanlarının törəmələrinə 124 min desyatin torpaq məxsus idi [12].

İri torpaq sahiblərinin bir hissəsi özlərinin şəxsi təsərrüfatına malik deyildilər və onların əksəriyyəti ata-baba malikanələrini tərk edib şəhərlərə köçürdü. Burada onlar pay torpaqlarına görə xüsusi sahibkar kəndlilərindən malcəhət şəklində alınan vəsait və malikanələrini girov qoymaq hesabına yaşayırdılar. Azərbaycan bəylərinin digər hissəsi əmtəə istehsalının geniş inkişafı ilə əlaqədar olaraq öz təsərrüfatını yaratdı və kənd kapitalistlərinə çevrildi.

Bəylərlə yanaşı, xüsusi torpaq mülkiyyətçiləri içərisində kəndlilər də var idi. 1886-cı il ərəfəsində kəndlilərin mülkiyyətində həyətyanı bağ, bostan, əkin vo örüş sahələrindən ibarət təxminən cəmisi 16-18 min desyatin torpaq var idi [3].

Şimali Azərbaycanın *vəqf torpaqları* kiçik torpaq mülkiyyətinə malik olub, burada torpaq sahibkarları - feodal kimi çıxış edən üç dini müəssisəyə nıəxsus idi: erməni-qriqorian kilsəsi, müsəlman məscidi və pravoslav kilsəsi [4].

Sayı 988916 nəfərə çatan dövlət kəndliləri bütün kənd əhalisinin 60%-ni, yəni maddi nemətlər istehsalçılarının böyük əksəriyyətini təşkil etsələr də, bütün xəzinə torpaqlarının cəmisi 39% pay torpağı kimi onların istifadəsində idi. Torpaq kəndli həyətləri arasında qeyri-bərabər bölüşdürülmüşdü. XIX yüzilliyin 80-ci illərin ortalarında hər birinə cəmisi 2 desyatinədək pay torpağı düşən kəndlilərin sayı 394 min nəfərdən çox olub, bütün dövlət kəndlilərinin 50-ni təşkil edirdi. Bu, Rusiyanın mərkəzi quberniyalarındakına nisbətən 2-3 dəfə az idi.

Kəndlilərin istifadəsindəki əkin torpaqlarının sahəsi daha az idi. Bütün dövlət kəndlilərinin yarısının istifadəsində cəmisi 269 min əkin torpağı var idi. Orta hesabla hər bir nəfərə düşən əkin torpaqlarının sahəsi isə çox cüzi idi: Naxçıvan qəzasında 0,33 dcsyatin Cəbrayıl qəzasında 0,38 desyatin Cavad qəzasında 0,44 desyatin Lənkəran qəzasında 0,71 desyatin və s. 1,15 min nəfər ən yoxsul kəndlinin hər birinə düşən əkin sahəsi isə həddən artıq kiçik olub, 0,015 desyatindən 0,49 desyatinədək tərəddüd edirdi.

Hər birinə 2 desyatindən 5 desyatinədək pay torpağı düşənlər kəndlilərin orta qrupunu təşkil edirdilər. Onların sayı 325 min nəfərə çatırdı.

Bütün pay əkin torpaqlarının yarısından çoxu (474 min des.) və ya 53%-i bütün orta qrup kəndlilərinin 41%-nin əlində cəmlənmişdi. Burada adambaşına düşən pay əkin torpaqlarının sahəsi 1 -22 desyatin arasında tərəddüd edirdi.

Əkin torpaqlarından başqa, ortababların istifadəsində 20 min des. bağ və 521 min desyatin örüş-otlaq sahəsi vardı.

Kəndlilərin adambaşına 5 des.-dən çox pay torpağı düşən varlı yuxarı təbəqəsi sayca kiçik bir qrupu təşkil edirdi. Sayı təxminən 67,5 min nəfərə çatan bu təbəqə bütün dövlət kəndlilərinin 9%-nə bərabər idi. 523 min desyatin torpaq və ya

dövlət kəndlilərinin ümumi pay torpağı fondunun 25,8%-i varh kəndlilərin təxminən 11 min təsərrüfatının istifadəsində idi.

Şimali Azərbaycanda sahibkar kəndlilərinin sayı 425 min nəfərdən çox idi. Onlarınh əsas hissəsi Yelizavetpol quberniyasında yaşayırdı. Bu kəndlilərin pay torpaqlarınm sahəsi 489267 desyatinə bərabər idi. Bu sahənin 310 min desyatini əkin, 130 min desyatini otlaq və örüş, 50 min desyatini isə bar və yararsız torpaqlar idi.

Bütün sahibkar kəndliləri 91,5% və yaxud 389711 nəfərinin hər hirinə 2 desyatindən az pay torpağı düşürdü. Adambaşına düşən pay torpağını sahəsi 0,69 desyatindən 0,8 desyatinədək tərəddüd edirdi

Adambaşına 2 des-dən 5 des.-dək pay torpağı düşən orta qrupun sayı 30 min nəfərə (bütün sahibkar kəndlilərin 7%) bərabər idi.

Sahibkar kəndlilər içərisində varlı kəndlilərin xüsusi çəkisi çox az idi: onlar 5.811 nəfər olub, bütün sahibkar kəndlilərin 5%-ni təşkil edirdilər. Say azlığına baxmayaraq, onlar bütün əkin sahələrinin 5 və ümumpay torpaqlarının 11 %-ni öz əllərində cəmləşdirmişdilər. Varlı kəndlilər içərisində adambaşına düşən pay torpağının sahəsi 5,6-10 des. arasında tərəddüd edirdi. Burada isə əkin sahəsinin xüsusi çəkisi böyük idi.

Ümumiyyətlə, islahatdan sonrakı dövrdə Şimali Azərbaycan kəndliləri üçün aztorpaqlılıq səciyyəvi hal idi. Kəndlilərin demək olar ki, 65%-nin hər bir nəfərinə orta hesabla 0,63 des. əkin torpağı düşürdü. Bu qrup öz təsərrüfatını atan, pay torpağını icarəyə verən, əmək alətlərindən məhrum olub kəsbkarlığa gedən kəndlilərin ən böyük hissəsini təşkil edirdi.

Kəndlilərin bir hissəsi torpağa kəskin ehtiyac hiss edərək, onu ağır şərtlərlə xəzinədən və bəylərdən icarəyə götürməyə məcbur idi. XIX yüzilliyin 90-cı illərində kəndlilər Bakı quberniyasında xəzinədən 550 min des. Yelizavetpol quberniyasında isə xəzinə və bəylərdən 600 min des.-dən çox torpaq icarəyə götürmüşdülər. İcarəyə götürülmüş torpaqların çox hissəsini otlaq və örüşlər təşkil edirdi.

Xəzinə kəndlilərinin istifadəsində olan dövlət torpaqları, alman kolonistləri və rus köçkünlərinin məskunlaşdırılmasına aid olan kiçik istisnalar nəzərə alınmaqla, heç vaxt torpaq münasibətlərinin nizamlayacaq heç bir qanunvericilik aktının predmeti olmamışdı. Bundan əlavə, Şimali Azərbaycanda kəndlilərin torpaqla təmin olunması və onların pay torpaqlarının normalaşdırılması üzrə heç bir addım atılmamışdı.

Pay torpağı sahələrinin ölçüləri və sərhədləri barəsində heç bir məlumatın olmaması, başlıcası isə təkcə ayrı-ayrı mülklər deyil, həm də ayrı-ayrı kəndlər arasında dəqiq sərhədlərin yoxluğu ən böyük bəla idi. Dəqiq sərhədlərin-mərzləmənin yoxluğu qonşu kəndlər arasında və onların içərisində ziddiyyətlər yaradırdı. Bir tərəfdən, öz pay torpaqlarının dəqiq sərhədlərini bilməmək, digər tərəfdən isə bu torpaqları genişləndirmək və yeni torpaq sahəsi ələ keçirmək cəhdləri qanh toqquşmalara gətirib çıxarırdı.

Dövlət kəndlilərinin istifadəsində olan xəzinə torpaqları kənd cəmiyyətləri adlanan kəndlərin ümumi istifadəsində idi. Təsadüfi deyildir ki, bölgü zamanı dövlət vergiləri ayrı-ayrı kəndli həyətləri arasında deyil, kənd cəmiyyətləri arasında bölünürdü. Digər tərəfdən, vergiləri kənd cəmiyyətləri arasında bölüşdürmək üçün onların istifadəsində olan torpaqların sahəsini müəyyənləşdirmək, yəni mərzləmə aparmaq lazım idi.

"Cənubi Qafqaz diyarının mərzlənməsi haqqında Əsasnamə" 1861-ci il iyunun 29-da təsdiq olundu. Bu Əsasnaməyə görə, "həm kənd cəmiyyətlərinin ixtiyarında olan, həm də onların bilavasitə ixtiyarrıda olan dövlət torpaqlarının sərhədlərinin ayrılması qaydaları müəyyənləşdirilmişdi" [5].

Daha sonra bu Əsasnamədə hər bir kənd cəmiyyətinin həqiqi istifadəsində olan torpaqların mərzlənməsi qaydası göstərilir, habelə mübahisələrin həlli qaydası müəyyənləşdirilirdi. Göstərilən Əsasnamə ilə yanaşı, Cənubi Qafqazdakı bütün xəzinə torpaqlarının sahəsini və sərhədlərini mümkün qədər dolğunluqla müəyyənləşdirmək nəzərdə tutulurdu.

Lakin ayrı-ayrı kənd cəmiyyətlərinə öz kəndlərinə məxsus olan torpaqları mərzləmək hüququ verən bu "Əsasnamə"nin dərc olunmasına baxmayaraq, torpaqların mərzlənməsi - hər bir kənd cəmiyyətinin sərhədlərinin müəyyənləşdirilməsi üzrə, demək olar ki, heç bir iş aparılmırdı.

1887-ci il iyunun 2-də Cənubi Qafqazın mərzlənməsi haqqında yeni qanun verildi. Lakin 1887-ci il qanunu mərzləmənin gedişini sürətləndirmədi, əksinə onu ləngitdi. Bu qanun Cənubi Qafqaz dövlət kəndlilərinin torpaq quruculuğu məsələsinin tezliklə həllinə nəinki kömək göstərmədi, əksinə sonuncu vəzifənin yerinə yetirilməsini qeyri-müəyyən müddətə arxa plana itələdi [6].

Mövcud ənənələrə görə, dövlət kəndliləri torpaqdan icmalıqla istifadə edirdilər və hər dörd ildən bir vaxtaşırı bölgüsü həyata keçirilməli idi. Lakin vaxtaşırı bölgülər, demək olar ki, aparılmır, aparıldıqda isə bu bölgünün zəif cəhəti də aşkara çıxırdı, yəni onlar kəndin pay torpağında qüvvətli adda-buddalıq yaradırdı. İş burasında idi ki, torpaqların yeni bölgüsü zamanı hər bir kəs əvvəlcə istifadə etdiyi əkinlərin sahibi olaraq qalırdı. Çoxtorpaqlı həyətdən torpağın bir hissəsi aztorpaqlı həyətə verilmək üçün kəsib götürülürdü. Əlavə torpaq alan kəndli bu torpaqları kiçik-kiçik sahələr halında, bir-birindən və əsas pay torpağından xeyli aralı şəkildə alırdı. Bu cür səpələnmiş torpaqlardan istifadə çox əlverişsiz idi və elə olurdu ki, istifadə etməyin qeyri-mümkünlüyü üzündən yeni torpaq alanlar onlardan imtina edirdilər.

Yeni torpaq bölgülərinin keçirilməməsi üzündən kəndli pay torpaqları icma torpaqlarından həyət-malikanə torpaqlarına çevrilir, dövlət kəndliləri yuxarı təbəqələrinin ictimai torpaqlarını qəti surətdə bölüşdürmək cəhdi güclənirdi. Suvarılan torpaqların qəti bölgüsünə hələ XIX yüzilliyin 80-ci illərində başlamaq niyyətində olan Baş Göynük kəndi (Nuxa qəzası) bu baxımdan nümunə ola bi-lər. Bu bölgüyə başlıca olaraq varlı kəndlilər can atırdılar. Çünki onlar torpaqlardan

həyətlərlə istifadə şəraitində verdikləri borcu sanballı girovlarla təmin etmək və müflisləşmiş kəndlilərin torpaqlarını su qiymətinə almaq imkanı əldə edirdilər.

Qeyd etmək lazımdır ki, qəti bölgüdən sonra birdəfəlik olaraq bu və ya digər kəndlinin daimi istifadəsinə keçmiş torpaqlar bəzi rəsmi sənədlərdə sahə-həyətyanı torpaqlar sayılmır və icma mülkü adlandırılırdı. Lakin bu da torpaq sahələrini ələ keçirmiş adamlara özlərini bu torpaqların tamhüquqlu sahibi saymağa mane olmurdu.

Qəti bölgülərdən sonra yaranan həyət-malikanə torpaqlarından başqa *sahə-həyətyanı torpaqlar* da var idi. Kəndlilərin xeyli maddi və pul vəsaiti sərf etdikləri torpaq sahələri sahə-həyətyanı torpaqlar sayılırdı. Bu torpaqlar dövlət kəndlilərinin nəsli istifadəsində qalırdı. Müəyyən bir torpaq sahəsinin onu birinci olaraq əkinə yararlı hala salmış adamın nəsli istifadəsinə verilməsi kimi cəmiyyətdə mövcud olan qayda Şimali Azərbaycanın dövlət kəndində sahə-həyətyanı torpaqlarının meydana çıxmasının digər səbəbi idi. Dövlət torpaqlarının sadəcə çəpərlənməsi və onların intensiv surətdə becərilməsi yolu ilə sahə-həyətyanı torpaqlarının yaranması kifayət qədər geniş yayılmışdı. Həyətyanı torpaq sahibliyi də bu yolla yaranırdı: kəndlilər meşələri təmizləyir, onu əkinlərə və bağlara çevirirdilər. Onlar hesab edirdilər ki, torpağı meşədən təmizləmək üçün sərf etdikləri zəhmət onlara bu torpaq sahəsindən təkbaşına istifadə etmək hüququ verir.

Dövlət kəndliləri həyətyanı, biçin və bağ torpaqlarından istifadə hüququnu öz xüsusi mülkiyyətləri kimi satırdılar, özü də alıcı vergi və rüsumları ödəmək üzrə satıcının bütün təhəddüdlərini öz üzərinə götürürdü. Lakin əkin torpaqlarından istifadə hüququnun da satılması halları baş verirdi. Belə torpaqların alğı-satqısı əsasən eyni bir icmanın üzvləri arasında baş verir və buna görə də satılan torpaqlar bu icmanın tərkibindən kənara çıxmırdı. Lakin torpaqlardan istifadə hüququnun digər kəndlərin sakinlərinə və hətta şəhərlilərə satılması halları da var idi. “Rayonda kəndlilərin ictimai torpaq münasibətləri torpaq barəsində ancaq xüsusi mülkiyyətçilər arasında baş verə biləcək alğı-satqının tamamilə sərbəst surətdə həyata keçirilməsinə yol verir. Torpaqların girov qoyulması və alınıb-satılması burada (Lənkəran qəzasında) geniş yayılmışdır” [7]. Torpaqların əsas alıcıları varlı kəndlilər və bəylər idi [8].

Torpaqların satışı, yazılı müqavilələrsiz, torpağın faktiki olaraq başqasına verilməsi yolu ilə həyata keçirilirdi. Lakin bəzən alıcıda qəbalə şəklində adicə imzalanmış kağız qalırdı ki, burada da hansısa kəndlinin hansısa kəndliyə nə qədər torpağı hansı qiymətə satdığı qeyd olunurdu. Adətən torpaqdan istifadə və torpaq sahibliyi hüququ bir parça kağızdakı bu cür qəbzlərlə satılırdı.

XIX yüzilliyin sonunda Bakı qəzasında xüsusən çox torpaq satılmışdı. 1897-1899-cu illər ərzində Bakı qəzasının kəndlərində 1000-dən artıq torpaq sahəsinin alğı-satqısı olmuşdur [9]. Dövlət kəndliləri təkcə öz həyətyanı torpaqlarını deyil, hətta əkin torpaqlarını da satır və girov qoyurdular. Kəndlilər öz torpaqlarını satmaqdan başqa, onu müəyyən haqq müqabilində icarəyə də verirdilər.

XIX yüzilliyin 40-cı illərindən dövlət torpağından istifadə müqabilində kəndlilərdən pulla haqq almırdı. Hələ feodal rentası şəklində olan bu haqq tədricən dövlət vergisi formasını aldı. Kəndlilər torpaqlardan istifadəyə görə icarədarlar kimi icarə haqqı ödəyirdilər. Rəsmi çar sənədlərində dövlət torpaqlarından istifadə edən kəndlilərin təsərrüfatları xüsusi təsərrüfatlar sırasına şamil edilirdi [10].

Xüsusi sahibkar kəndinə gəldikdə isə pay torpaqları kəndlilərin ixtiyarına verilmişdi. Hərçənd ki, onlar əvvəlki kimi torpaq sahibkarı olan bəydən iqtisadi asılılıqda qalaraq, onların xeyrinə mükəlləfiyyətlər yerinə yetirməli idilər.

Həm dövlət, həm də sahibkar kəndində icarə geniş yayılmışdı. Torpağı bəylər, varlı kəndlilər və öz pay torpaqlarını becərmək imkanı olmayan kəndlilər icarəyə verirdilər.

İcarə adətən qısamüddətli olurdu, lakin uzunmüddətli icarə də mövcud idi. Qısamüddətli icarə müqaviləsi 1-3, uzunmüddətli isə 2-30 ilə və daha uzun müddətə bağlanılırdı. Şimali Azərbaycan rayonlarında ən çox yayılmış uzunmüddətli icarə müqavilələri təxminən 7-12 illə məhdudlaşırdı. İcarənin ən geniş yayılmış forması bir neçə növdə təmsil olunmuş *natural (məhsul)* icarə idi. Bu növlərdən birincisi və ən geniş yayılanı pay *icarəsi, paydarlıq* idi. Bu icarə zamanı kəndli mülkədardan icarə olunmuş torpağı öz alət və iş heyvanları ilə becərir və məhsulun bir hissəsini mülkədara verirdi. İcarənin digər forması pul icarəsi idi. Məhsulun bölünmədiyi torpaq sahibinin əvvəlcədən müəyyən edilmiş məlum haqqı pulla aldığı torpaq icarəsi halları pulla torpaq icarəsinə keçid idi. Kəndlilərin əksər kütləsi ona görə pulla icarəyə can atmırdı ki, nəğd pul tapmaq onlar üçün çətin idi, özü də icarədar kəndli bu pulu əksər hallarda əvvəlcədən - məhsul yığımınadək ödəməli idi.

Pulla icarə başlıca olaraq kəndin həmişə nəğd pula malik olan və torpağı nisbətən uzun müddətə icarəyə götürən varlı təbəqələr içərisində yayılmışdı. Pulla icarə şəraitində natural münasibətlər tədricən bəy və icarədar kəndlilər arasında pul münasibətləri formasını alırdı. Belə şəraitdə icarədarların varlı hissəsi aztorpaqlı kəndlilərin hesabına öz icarə sahələrini genişləndirir və beləliklə də, muzdlu fəhlələrin - torpaqsız və aztorpaqlı kəndlilərin əməyini istismar edən kapitalist icarədarlar meydana çıxırdılar.

**Su sahibliyi və sudan istifadə.** Bu dövrdə Şimali Azərbaycan 3 milyon desyatin əkin üçün əlverişli torpağın 2 milyon desyatindən çoxunun suya ehtiyacı olan bir ölkə idi. Kür və Araz çayları vadilərində süni suvarmasız becərmək qeyri-mümkün idi. Cənubi Qafqazın şərqində, aran yerlərində əhalinin rifahı torpağın böyüklüyündən deyil, suvarma suyunun qədərindən asılı idi [11].

Şimali Azərbaycan suvarma üçün zəngin su ehtiyatına malikdi; su ehtiyatının çox hissəsini çaylar, bulaqlar, qara su, təbii nohur və s. təşkil edir. Bütün Şərqdə olduğu kimi, Şimali Azərbaycanda da başlıca suvarma mənbəyi çaylardan ibarətdir. Bu dövrdə Cənubi Qafqazda 181 çayın [12] 131-i [13] Şimali Azərbaycan ərazisində axırdı. Kür və Araz su ehtiyatına görə Şimali Azərbaycanın ən iri çayları idi. Şimali Azərbaycanda suvarma əsas etibarilə arxlar vasitəsilə təşkil edilirdi. 1880-1890-cı illərdə Şimali

Azərbaycanda arxların sayı 1000-ə çatırdı. Bu arxların böyük əksəriyyəti Yelizavetpol quberniyasında idi. Kəndlilər suvarma vasitəsi kimi kəhriz və su anbarlarından da islifadə edirdilər. 1884-cü ildə Yelizavetpol, Şuşa, Naxçıvan, Qazax qəzalarında 497 kəhriz qeydə alınmışdı [14].

Quraqlıq zamanı susuz qalan arxları su ilə təmin etmək üçün güclü yağış, yaxud çayların suyu çox olan vaxtda suları, ehtiyat mənbəyi kimi, saxlamaqdan ötrü su anbarları tikilirdi. Şimali Azərbaycanda belə anbarların sayı 158-ə çatırdı [15].

Şimali Azərbaycanda bütün suvarılan əkinlərin sahəsi 582,856 desyatinə çatırdı [16]. Bu, suvarma vasitəsilə əkilməyə yararlı olan bütün torpaqların cəmi dörddə birindən bir qədər çoxunu təşkil edirdi.

Suvarma vasitələrinin çox hissəsi xüsusi sahibkarların əlində toplanmışdı. Muğanda Şirvan xanlarına mənsub olan, Araz çayından başlanğıc götürən Qızılarx və Xakiarx kimi iri suvarma sistemləri ilə yüz min desyatindən çox torpaq suvarılırdı. Sudan istifadə xalq adəti ilə nizama salımrdı. Bu adətdən istifadə etməkdə dövlət və sahibkar kəndliləri eyni hüquqa malik idilər. Xalq adəti təbii axar sulan əhalinin ümumi əmlakı hesab edirdi [17].

Təbii sulardan bərabər istifadə hüququ bütün Şərqdə olduğu kimi, Şimali Azərbaycanda da sahil hüququnun olmaması ilə əlaqədar idi. Yəni çayın sahilinə yaxın olan kənd cəmiyyətləri və xüsusi sahibkarlar torpaqlarını suvarmaq üçün çayın sahilindən xeyli uzaq olanlarla eyni dərəcədə sudan istifadə etmək hüququna malik idilər [18].

Təbii suların əksinə olaraq arx, kəhriz, su anbarı, su quyusu və s. ilə yer üzərinə çıxarılan sular həmin suvarma vasitəsinin inşasında iştirak edən torpaq sahiblərinin və kənd cəmiyyətlərinin xüsusi mülkiyyəti hesab olunurdu. Adətə görə, ayrı-ayrı şəxslər və kənd cəmiyyətləri tərəfindən çəkilən arxın suyundan heç bir yad şəxsin və kənd cəmiyyətinin istifadə etməyə ixtiyarı yox idi. Arxın çəkilməsində iştirak edən kənd cəmiyyətinin üzvləri sərf olunan əməyə və vəsaitin qədərinə görə sudan istifadə etmək hüququ alırdılar. Çayda, arxda axan suyun qabağını kəsib, özünə çoxlu su payı götürmək və s. ciddi surətdə qadağan edilirdi [19].

Şimali Azərbaycan kəndində suvarma suyunun növbə ilə bölüşdürülməsi bir neçə mərhələdən ibarət idi. İlk mərhələdə suvarma suyu kənd cəmiyyətləri arasında, sonra hər cəmiyyətə daxil olan kəndlər arasında, nəhayət, son mərhələdə isə hər kəndin payına düşən suvarma suyu əvvəlcə həyət qrupları, sonra isə hər qrupun daxilində olan həyətlər arasında bölüşdürülürdü. Həyətlər suvarma suyunu bölüşdürmək üçün öz aralarında qruplar təşkil edirdilər. Şimali Azərbaycan kəndində bu qrupların dağ, təsnək, kəşkəl, göz. dəngə və s. növü məlum idi [20]. “Dəngə” suvarma qrupu Bakı, “göz” qrupu Yelizavetpol, “dağ” qrupu isə Naxçıvan qəzasında yayılmışdı. Suvarma suyu çox yerdə həyətlərin sayına görə bölünürdü. Lakin təbəqələşmənin qüvvətlənməsi ilə əlaqədar hər həyətin əkin sahəsinin bərabər olmaması, suvarma suyuna tələbatın artması vəs. suvarma suyunun həyətlərin sayına görə bölüşdürülməsində böyük çətinlik törədirdi. Buna görə də

təbəqələşmə nəticəsində qüvvətli. torpağı nisbətən çox olan kəndlərin əhalisi suyun həyətlərin sayına görə deyil, torpağın sahəsinə görə bölüşdürülməsini tələb edirdi.

Qəzaların çoxunda suvarma suyu qeyri-bərabər bölüşdürülürdü. Lənkəran qəzasında çəltik təsərrüfatının geniş yayılması sudan istifadə qaydasını başqa qəzalara nisbətən daha da mürəkkəbləşdirmişdi; çəltik plantasiyalarının genişlənməsi ilə suya tələbatın anması nəticəsində burada həmçinin başqa qəzalarda suvarma suyu nəinki qeyri-bərabər bölüşdürülürdü, su payının oğurlanması, zəbt edilməsi, su üstündə dava-dalaş düşməsi və s. adi hal olmuşdu [21].

Suvarma suyunun düzgün bölüşdürülməməsi, su üzərində hüququ və sudan istifadə qaydalarını rəsmiləşdirən heç bir qanunun olmaması, bunların hələ də xalq adət-ənənələrinə əsaslanması suvarma təsərrüfatında böyük qarmaqarışıqlıq və hərc-mərclik yaratmışdı.

Suvarma suyunun bölüşdürülməsini təşkil edən inzibati şəxslər - mirab və cuvarlar da varlı kəndlilərin mənafeyini müdafiə edirdilər. Mahallarda bütün bu işlər suvarma təsərrüfatına rəhbərlik mirabların əllərində mərkəzləşmişdi. Onun başlıca vəzifəsi baş arxlar vasitəsilə suyun kənd cəmiyyətləri, onların tərkibinə daxil olan kəndlər arasında bölüşdürülməsinə nəzarət etməkdən, sudan istifadə növbəsini nizama salmaqdan və cuvarların işinə nəzarətdən və s. ibarət idi. Cuvarlar isə arxların texniki vəziyyətinə, bir arxdan istifadə edən bir və ya bir neçə kəndin sudan istifadə qaydasına, həmin kənddə həyətlərin arasında suyun bölüşdürülməsinə nəzarət edirdilər.

1890-cı il dekabrın 3-də Cənubi Qafqazda torpaqların suvarılması işində hüquqi əsaslar və qayda-qanun yaratmaq məqsədilə "Sudan istifadə haqqında Əsasnamə" qəbul edildi. Bu, Cənubi Qafqazda su sahibliyi və sudan istifadənin hüququ əsaslarını, suvarma işlərinə nəzarət edən idarələrin quruluşunu, bu idarələrin vəzifəli şəxslərinin hüquqlarını, görüləcək işləri müəyyən etdi.

"Əsasnamə" su üzərində xüsusi mülkiyyətin ləğv olunmasını elan etdisə də, o, əslində iri mülk sahiblərinin mənafeyinə toxunmadan sudan istifadədə mövcud olan əvvəlki qaydanı saxladı. Suvarma üzrə yeni inzibati bölgü yaratdı, bütün suvarma təsərrüfatına rəhbərlik edən Qafqaz su müfəttişi və hər su sahəsinin idarəçisi sayılan su mühəndisi vəzifələrini təsis etdi. Yenə də hər üç ildən bir seçilən mirab sudan istifadə işində həlledici rola malik idi. Hər il seçilən cuvarlar yenə də mirablara tabe edilirdilər.

"Əsasnamə" sudan istifadə qaydalarında dəyişiklik yaratmasa da, onları rəsmiləşdirməkdə mühüm iş gördü. Ayrı-ayrı yerlərdə mövcud olan müxtəlif sudan istifadə qaydalarını eyniləşdirdi və rəsmiləşdirdi, bütün Şimali Azərbaycan kəndi üçün eyni sudan istifadə qaydaları müəyyən etdi. Lakin "Əsasnamə"də irəli sürülən müddəalar əsasən kağız üzərində qaldı, yenə də suvarma suyunun bölüşdürülməsində növbə qaydasının pozulması, hərc-mərclik, özbaşınalıq halları hələ də qalmaqda idi.

**Çarizmin köçürmə siyasəti.** Çarizmin köçürmə siyasəti onun aqrar siyasətinin həlqələrindən biri idi.

Şimali Azərbaycanda çar müstəmləkəçiləri qəsbkar aqrar siyasəti həyata keçirir, bunun da nəticəsində yerli əhali irsi torpaqlarından qovulur, aztorpaqlılıqdan kəskin əziyyət çəkirdi. Tarixi qaynaqlar sübut edir ki, çar mütləqiyyətinin Azərbaycandakı ağalığının bütün tarixi həm də yerli, vilayət, milli torpaqların tamamilə qarət edilməsi tarixindən ibarətdir.

Çar Rusiyası Azərbaycandakı ağalığının ilk günlərindən burada özünə xristian dayağı yaratmağa, müxtəlif xristian kütlələrini Azərbaycan torpaqlarında yerləşdirməyə can atırdı.

XIX əsrdə Şimali Azərbaycan ərazisinə ilk xristian köçkün almanlar olmuşlar. Onlar 1818-ci ildə Qafqaz Baş Komandanlığının təhriki və köməyi ilə Yelenendorf və Annefeld koloniyalarının əsasını qoymuş və tezliklə rus təbəəliyini qəbul etmişlər [22]. Çar hökuməti alman kolonistlərinə ən yaxşı yerlərdə 13 min desyatin pay torpaqlan ayırdı və yeni yerdə təsərrüfat yaratmaq üçün maddi yardım göstərdi. Köçkünlərin iqtisadi vəziyyətlərinin yaxşılaşması Azərbaycan kəndlilərinin öz torpaqlarından sıxışdırılması hesabına baş verirdi.

Şimali Azərbaycan ərazisində rusların məskunlaşmasının əsas 1830-cu illərdə, xidmət müddətləri başa çatdıqdan sonra əvvəlki yaşayış yerlərinə qayıtmaq istəməyən, tərxis olunan əsgərlərin ailələrindən ibarət ilk rus yaşayış məntəqələrinin yarandığı dövrdə qoyulmuşdur. İlk belə yaşayış məntəqəsi Bakı quberniyasının Quba qəzasındakı Qusar kəndi olmuşdu. Şirvan alayının tərxis olunmus əsgərləri və onların ailələri onun ilk sakinləri oldular [23]. Sonralar tərxis olunmuş əsgərlərin digər yaşayış məntəqələri də Şamaxı qəzasında Dmitrovka və Altıağac, Şuşa qəzasında Xankəndi və Lənkəran qəzasında Pravoslavnoye meydana çıxdı [24].

Lakin bütün Cənubi Qafqazda olduğu kimi, Şimali Azərbaycan ərazisində də rus yaşayış məskənlərinin əsas hissəsini 1830-cu illərin əvvəllərində verilmiş xüsusi sərəncama əsasən Rusiyanın daxili quberniyalarından köçürülmə siyasətinə məruz qalanlar təşkil edirdi.

Otuzuncu və qırxıncı illər ərzində rus təriqətçilərinin güclü köçürülməsi həyata keçirilirdi. Rusların məskunlaşdığı əsas rayonlar Şamaxı, Lənkəran, Yelizavetpol və Qazax qəzaları idi. Köçürmənin başlanmasından sonrakı ilk onillik ərzində Şamaxı qəzasında 8 - Cabanı, İvanovka, Qaraməryəm, Gülüllü, Mərəzə, Maryevka, Hilmilli, Çuxuryurd; Lənkəran qəzasında 6 - Andreyevka, Astraxanka, Nikolayevka, Novoqolovka, Prişib, Privolnoye; Qazax qəzasında 3 - Qolovino, Yeni Dilican, Mixaylovka vo Yelizavetpol qəzasında 2 - Borisı və Slavyanka kimi rus kəndləri yarandı. Köçkünlər əsasən Tavriya, Stavropol, Tambov, Voronej, Saratov, Orenburq, Bessarabiya və hətta Yenisey quberniyalarından idilər.

XIX yüzilliyin 50-70-ci illərində Rusiyanın bilavasitə daxili quberniyalarından Şimali Azərbaycana köçürmə dayandırıldı. Bu otuz il ərzində yeni rus məskənləri yalnız Şuşa qəzasında (Ballıqaya kəndi), Yelizavetpol qəzasında (Mixaylovka kəndləri) və Quba qəzasında (həmçinin Mixaylovka kəndi) meydana gəldi.

XIX yüzilliyin son 20 ilində Muğanda rus köçkünlərinin daha üç yaşayış məntəqəsi yarandı. 1887-ci ildə gələcəkdə Cavad şəhəri yaratmaq üçün nəzərdə tutulan yerdə Petropavlovskoye, 1898-ci ildə isə Yeni Araz rayonunda Novo-Nikolayevka (Para-Nuru), Novo-Aleksandrovka (Bayramqulu) və Kaqerman kəndlərinin əsası qoyuldu [25].

Bu dövrün səciyyəvi xüsusiyyəti Şimali Azərbaycan və Cənubi Qafqaz ərazisində rusların daha çox yerləşdirilməsi idi. Nəinki ayrı-ayrı ailələr, hətta bütöv kəndlər ilk yaşayış yerlərini tərk edir, məskunlaşmamış yeni məntəqələrdə və yaxud artıq ruslar tərəfindən məskunlaşmış yerlərdə məskən salırdılar.

50-70-ci illərdə daxili yerdəyişmə hesabına Şimali Azərbaycanda yeni rus yaşayış məntəqələri - Yelizavetpol qəzasında Novo-Saratovka, Cavad qəzasında Novo-İvanovka, Lənkəran qəzasında Veb və Naxçıvan qəzasında Kormalinovka (Biçənok) meydana gəldi.

Hələ 1846-cı ildə yeni yaşayış məntəqələrini təşkil etmək üçün yaradılmış komissiya həm artıq məskunlaşmış, həm də gələn köçkünlərin daha yaxşı yerləşdirilməsi sistemini işləyib hazırlamalı idi. Lakin 80-cı illərə qədər rus yaşayış məntəqələrinin sakinləri ilə yerli icmalar və yaxud sahibkarlar arasında torpaq sahələrinin yeni məntəqələrə verilməsi üstündə mübahisələr baş verirdi.

1900-cü ilə yaxın Şimali Azərbaycan ərazisində 41 rus kəndi yaranmışdı. Onlardan 25-i Bakı quberniyasında, 15-i Yelizavetpol quberniyasında, 1-i isə Naxçıvan qəzasında idi. Rus kəndlilərinin sayı Şamaxı, Lənkəran və Yelizavetpol qəzalarında daha çox idi. Onların hər birində 8 kənd, Cavad qəzasında 4 kənd, Göyçay və Qazax qəzalarının hərəsində 3, Quba qəzasında 2, Cəbrayıl, Cavanşir, Zəngəzur, Şuşa və Naxçıvan qəzalarının hər birində isə 1 kənd var idi.

1885-ci ildə Şimali Azərbaycandakı 38 rus kəndində 4633 ailə yaşayırdı. Onlardan da 3232-si Bakı quberniyasında, 1380-i Yelizavetpol quberniyasında və 21-i Naxçıvan qəzasında idi. 1885-ci ildə Şimali Azərbaycanın rus əhalisinin ümumi sayı 26285 nəfərə çatırdı.

Şimali Azərbaycanda rus köçkünlərinin torpaqla təminatı köçürülmə işindəki plansızlıq şəraitində lap əvvəldən qeyri-bərabər idi. Məsələn, bütün rus köçkünlərinin ixtiyarında 44795 desyatin əkinə yararlı və yararsız torpaq olan Yelizavetpol quberniyasında hər bir həyətə düşən torpağın sahəsi orta hesabla 36 desyatin idi. Lakin müxtəlif kəndlərdə bu, 19 desyatinlə 76 desyatin arasında tərəddüd edirdi. Bakı quberniyasında rus köçkünlərinin ixtiyarında olan bütün torpaq payının miqdarı 76870 desyatin idi. Orta hesabla isə hər həyətə 23 desyatin düşürdü. Rus köçkünlərinin torpaqla ən yaxşı təmin edilmiş kənd icmalarında hər ailəyə orta hesabla 52 desyatin düşürdü, bu isə torpaqla ən yaxşı təmin olunmuş yerli varlı kəndlinin torpaq payından xeyli çox idi [26].

Rus köçkünlərinin Şimali Azərbaycanda torpaqla belə təminatı çarizmin müstəmləkəçilik siyasətini əyani şəkildə ifadə edirdi.

Torpağın kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün hazırlanmasında rus köçkünləri yerli əhaliyə nisbətən əsasən daha təkmil alətlərdən istifadə edirdilər. Onlar torpağı Rusiyadan gətirilmiş və yaxud özlərinin hazırladıqları kotanlarla şumlayırdılar. Cənubi Qafqaz dəmiryolu xəttinin istifadəyə verilməsi ilə rus kəndliləri Şimali Azərbaycanda birincilər sırasında təkmil kənd təsərrüfatı alətləri əldə etməyə və onlardan öz təsərrüfatlarında müvəffəqiyyətlə istifadə etməyə başladılar.

## § 2. KƏNDLİLƏRİN VƏZİYYƏTİ VƏ MƏİŞƏTİ

Kəndlilərin maddi rifah halının səviyyəsini müəyyənləşdirən əsas amillərdən biri onların torpaqla təmin olunması idi. Artıq yuxarıda qeyd olunduğu kimi, kəndlilərin çox hissəsi ciddi torpaq çatışmazlığı hiss edirdi. Qazax qəzasının kəndliləri yazırdılar ki, "aztorpaqlılıq bizi tam dilənçiliyə gətirib çıxarıb. Bizim qətiyyən örüş törpağımız yoxdur, ona görə də əkinçilikdən qazandığımız nə varsa hamısı özgə torpaqlarında mal-qaramızı otarmaq hüququnun alınmasına sərf olunur" [27].

Dövlət kəndlilərinin torpaq təminatını kəskin surətdə pisləşdirən amillərdən biri onların pay torpaqlarının bəylər tərəfindən kütləvi şəkildə tutulması idi. Bəylərin xəzinə torpaq sahibliyi üzərinə hücumu daha da güclənmiş və kütləvi xarakter almışdı. Kəndli torpaqlarının bəylər tərəfindən ələ keçirilməsi barəsində rəsmi şəxslərin təsirli məlumatları mövcuddur. Əkinçilik və dövlət əmlakı nazirliyinin 1897-ci ildə Azərbaycanda olmuş məmuru Lisenkov bu barədə yazmışdır: "Yerli əhali içərisindən olan diribaş və nüfuzlu adamlar Yelizavetpol quberniyasında yüz minlərlə desyatin xəzinə torpağını ələ keçirmişlər" [28]. Azərbaycanda öz sosial dayağını möhkəmləndirmək naminə kəndlilərin mənafeyini bəylərə qurban verən, pay torpaqlarının qorunması üçün təsirli və qəti tədbirlər görməyən çar hökumətinin torpaq siyasəti xəzinə torpaqlarının kütləvi surətdə ələ keçirilməsinə şərait yaradırdı [29].

Kəndlilər suvarma suyuna da kəskin ehtiyac duyurdular. Suvarma suyunun çatışmazlığı onlarm təsərrüfatlarma öldürücü təsir göstərirdi. Azərbaycan kəndlilərinin çox hissəsi aztorpaqlılıqdan əziyyət çəksə də, kəndlilərdən alınan vergi və mükəlləfıyyətlərin bütün ağırlığı onların üzərinə düşürdü. Vergi dövlət kəndlilərindən "həyət vergisi" adlanan torpaq töycüsü şəklində alınırdı.

Çar hakimiyyət orqanları torpaq vergisinin həcmini müəyyənləşdirərkən kəndli təsərrüfatlarının gəlirinin müəyyənləşdirilməsi üzrə heç bir iş görməmişdi. Onların kəndli təsərrüfatının real imkanları deyil, hər şeydən əvvəl xəzinənin mənafeyi maraqlandırırdı. Nəticədə Azərbaycanın dövlət kəndliləri üzərinə onların verməli olduqlarından xeyli çox vergi qoyulmuşdu. Torpaq vergisinin məbləği heç bir yerdə kəndli təsərrüfatlarının real gəlirinə müvafiq deyildi.

Bir tərəfdən, həyətlər üzrə toplanan vergilərin kəndlilərin iqtisadi imkanlarına uyğun gəlməməsi, digər tərəfdən isə onun qeyri-bərabər bölünməsi kəndli

kütləlləri üçün bu vergini çox ağırlaşdırırdı. XIX yüzilliyin 80-ci illərində dövlət kəndini tədqiq etmiş müəlliflər bir səslə dövlət kəndliləri üzərinə qoyulan bu verginin soyğunçu xarakterini qeyd edirdilər.

Kəndlilərin pulla ödədikləri vergilər içərisində zemstvo mükəlləfiyyətləri adlanan *vergilər* əsas yerlərdən birini tuturdu. Bu mükəlləfiyyətlər dövlət və quberniya zemstvo rüsumları adı altında iki yerə bölünürdü. Zemstvo vergiləri kəndlilər üçün həddən artıq ağır idi. Vergilərin ağırlığı onların bölünməsi və yığılması zamanı yol verilən özbaşınalıqlar nəticəsində daha da kəskinləşirdi [30].

Azərbaycan qəzalarının çoxunda vergilər kəndlilərin əmlak vəziyyətinə müvafiq şəkildə bölünmürdü. Bu zaman varlı kəndlilər hər vasitə ilə vergilərin ağırlığını kəndlilərin əsas kütləsinin üzərinə qoymağa çalışır və çox vaxt buna nail olurdular. Vergilərin yığılması zamanı da böyük özbaşınalıqlara yol verilirdi. Vergilərin toplanılmasına başçılıq edən kətxuda və varlı kəndlilər bundan özlərinin varlanması üçün istifadə edirdilər.

80-ci illərin ortalarında Qazax qəzasının tədqiqatçısı tərəfindən vergi yığılmasındakı dərin dramatizmin mənzərəsi belə təsvir olunur: “Vergi və mükəlləfiyyətlərin yığılması prosesi bir sıra kədərli mənzərələrlə müşayiət olunur. Burada vergi yığanlar onların artıq vergi almasının üstünü açıb çığır-bağır salmış qoca ilə deyişirlər. Orada mis qazanı satılmaq üçün kətxuda tərəfindən əlindən alınan dul arvad şivən qaldırır. Bir yanda pulunun olmaması bəhanəsi ilə canını qurtarmaq istəyən kişini döyür, elə oradaca müsadirə olunmuş inəyi tövlədən çıxarırlar. Gah vergilərin ədalətsiz bölgüsü üçün vergi yığanların ünvanına qarğış eşidilir, gah onları sui-istifadəyə görə təqsirləndirirlər, gah da, nəhayət, onlara aman vermək barədə yalvarır və ya vergilərin alınmasını təxirə salmaq barədə onlardan xahiş edirdilər” [31].

Kəndlilər həm də kənd icmasının üzərinə düşən mükəlləfiyyətləri (yol çəkilməsi, hərbi dəstələrin təmin olunması və s.) yerinə yetirirdilər.

Bu mükəlləfiyyətlərin həcmi qanun tərəfindən müəyyənləşdirilməmişdi. Bu da onları daha məşəqqətli edirdi. Onların içərisində ən ağırı *yol mükəlləfiyyəti* (şose və ya kənd yollarını çəkmək və onları, habelə körpüləri təmir etmək, çirkab kanallarını təmizləmək) idi. Kəndlilər bu işləri öz iş heyvanları və alətləri ilə görməyə borclu idilər.

Bunlarm şahidi olmuş müəllif yazırdı: “Yol mükəlləfiyyəti kəndlilər içərisində haqlı olaraq ən çox narazılıq doğuran mükəlləfiyyət sayılır. O, təkcə böyük xərclər tələb etmir, həm də ən pisi də elə budur - təsərrüfatla məşğul olmağa mane olur və çox vaxt əkinçinin bütün təşəbbüs və zəhmətini puça çıxarır... Hər şeydən çox xoşa gəlməyən hal bundan ibarətdir ki, bu tələblər (yol mükəlləfiyyətinin yerinə yetirilməsi üzrə tələblər. - *Red.)* mütləq yazda və ya payızda, yəni tarla işləri zamanı irəli sürülür. Belə hallarda isə bəzən bircə gün kəndlinin taleyini və onun ailəsinin təmin olunması məsələsini həll edir” [32].

Nəhayət, 1887-ci ildən etibarən Azərbaycan kəndliləri üzərinə hərbi vergi adlanan daha bir xüsusi mükəlləfiyyət qoyulmuşdu. İmperiyada 1874-cü ildən tətbiq olunmuş ümumi hərbi mükəlləfiyyət 1886-cı ildə Cənubi Qafqaza şamil edilsə də, azərbaycanlılar orduya çağırılmırdılar, çünki çarizm onlara etibar etmirdi. Orduya səfərbərlik əvəzinə çar müstəmləkəçiləri azərbaycanlılar üzərinə xüsusi vergi qoymağı qərara alırdılar. Bu vergi orduya səfərbərliyə alınmalı olan şəxslərin üçillik orta qazancı nəzərə alınmaqla hesablanırdı. Hərbi verginin qoyulmasında Rusiya çarizminin Azərbaycanda yürütdüyü böyük dövlətçi - şovinist müstəmləkə siyasəti öz parlaq təzahürünü tapırdı.

Azərbaycanın sahibkar kəndliləri daha ağır istismara məruz qalırdılar. Sahibkar kəndliləri torpaq sahiblərinin xeyrinə müxtəlif mükəlləfiyyətlər daşıyırdılar. Bu mükəlləfiyyətlər içərisində əsas yeri *malcəhət* və ya *bəhrə* adlanan məhsul vergisi tuturdu. Bu vergi bütün kənd təsərrüfatı bitkiləri məhsullarının 1/10 hissəsini təşkil edirdi. Özü də kəndlilər malcəhəti məhsulun yığıldığı yerdən 50 verst məsafədə bəy və ya onun vəkili tərəfindən göstərilmiş məntəqəyə gətirməyə borclu idilər. İslahatdan sonrakı dövrdə torpaq sahibi və kəndlinin qarşılıqlı razılığı əsasında malcəhət pul vergisi ilə əvəz olunmah idi. Lakin kəndlilər əslində bu hüquqdan istifadə edə bilmirdilər.

Sahibkar kəndlilərin digər çoxsaylı mükəlləfiyyətlərlə çətin vəziyyətə salınmış zəif təsərrüfatları üçün məhsulunun $^{1}/_{10}$ hissəsinin alınması ağır yük idi. Malcəhətin yığılmasının daimi yol yoldaşı olan sui-istifadə və özbaşınalıqlar bu vergini daha da ağırlaşdırırdı.

Bəylər bir qayda olaraq vergilərin həcmini özbaşına artırırdılar. Çar məmurlarının özləri də bunu etiraf edirdilər. Hətta əhali yaşamayan torpaqlardan malcəhət tələb edildiyi hallar da olurdu. Malcəhətin yığılması zamanı kəndlilərə qarşı vəhşi özbaşınalıqlara yol verilirdi. Hadisəni öz gözləri ilə görmüş şahidin verdiyi məlumata görə, 1880-ci ildə torpaq sahibkarı Məmmədağa Əbrəxanov Şuşa qəzasının Xanadzax kənd sakinini ulağa yüklənib döymək üçün xırmana aparılan dərzlərinə od vurmuşdu. Ulaq da, dərzlər də yanmışdı. Kəndlinin bütün "günahı" ondan ibarət olmuşdu ki, o, dərzlərin döyülməsi üçün bəydən icazə almamışdı.

Malcəhətdən başqa yararlı pay torpağının (həm həyətyanı, həm də tarla torpaqlarının) hər desyatini üçün torpaq sahibinin xeyrinə kəndlidən 30 qəpik həcmində *pul vergisi* də alınırdı. Qazax qəzasının məlik və ağa malikanələrində bu pul vergisi hər desyatindən 15 qəpik hesabı ilə alınırdı [33].

Qanunla müəyyənləşdirilmiş mükəlləfiyyətlərdən başqa həm də keçmiş zamanlardan miras qalmış və adət-ənənələrlə "qanuniləşdirilmiş" bir sıra vergilər də mövcud idi. *Bayramlıq* (Novruz bayramı günü bəyə verilən hədiyyələr), *toypulu* (kəndlinin evlənməsi ilə əlaqədar bəyə verilən pul vergisi), *toyxərci* (torpaq sahibkarının evlənməsi münasibətilə ona verilən hədiyyələr), darğalıq pulu (malcəhət yığanlara verilən məbləği 2 qəpikdən 50 qəpiyədək olan pul "bəxşişləri") və s. belə vergilər idi.

Göründüyü kimi, çar qanunu sahibkar kəndlilərini torpaq sabibkarları tərəfindən amansız istismara məruz qoyurdu. Bu da kənddə məhsuldar qüvvələrin tənəzzülünün səbəblərindən biri idi və yeni istehsal münasibətlərinin buradakı inkişafını ləngidirdi.

Ağır mükəlləfiyyətlər yükünü kəndlilərin üzərinə yıxaraq çar hökuməti borclu qalmış kəndlilərdən vergilərin zorla alınmasını təmin edəcək bir sıra amansız iqtisadi tədbirlər nəzərdə tuturdu. Torpaq sahiblərinə borclu olan kəndlilərin razılığı ilə onların çox ucuz qiymətləndirilən əməyindən bəy təsərrüfatlarında istifadə etməyə icazə verilirdi. Borclu kəndli öz borcunu biyar yolu ilə könüllü surətdə ödəməkdən imtina etdikdə torpaq sahibkan "borclunun özünü və ya onun ailə üzvlərindən kimisə öz həmkəndlisinin yanında", hətta kənara - həmin və ya qonşu qəzada işləməyə vermək hüququna malik idi. Kənd məhkəməsinin hökmü və barışıq hakiminin razılığı ilə vergi borcu olan kəndlini hətta "uzaq olmayan quberniyalara" məcburi işə göndərməyə icazə verilirdi. Borclu kəndliyə məxsus olan daşınmaz əmlakdan götürülən gəlir torpaq sahibkarma verilə və həmin əmlakın özü torpaq sahibkanın nəfinə satıla bilərdi. Nəhayət, müstəsna hallarda torpaq sahibinə illik mükəlləfiyyətlərin məbləği həcmində borclu olan kəndlinin pay torpağının və həyətinin açıq müzayidə yolu ilə satılması nəzərdə tutulurdu [34].

Rusiya imperiyasının bütün zəhmətkeşləri kimi, Azərbaycan kəndliləri də ən adi siyasi hüquqlardan və vətəndaş azadlıqlarından məhrum idilər. Azərbaycanda həm dövlət, həm də sahibkar kəndlərində yaradılmış kənd idarəsi mahiyyətcə mütləqiyyət dövlətinin polis və xəzinə ehtiyaclarma uyğunlaşdırılmış inzibati-məhkəmə vahidi olub, bu dövlətin müstəmləkə siyasətini həyata keçirmək üçün əlverişli alətə malik idi.

Kənd cəmiyyətinin sərəncamverici orqanı olan kənd yığıncağının fəaliyyəti ciddi çərçivəyə salınmış, polis, vergi və sırf icma işləri (otlaqlar və digər ictimai torpaqların idarə olunması və i.a.) ilə məhdudlaşdırılmışdı. Kənd cəmiyyətinin özündə bütün işləri varlı kəndlilər idarə cdirdilər.

XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin sosial-iqtisadi həyatında əmələ gələn dəyişiklik öz əksini əhalinin məişətində, onun bütün sahələrində, o cümlədən kəndin yaşayış evlərində də tapmışdı. Kəndlərin quruluşu, forma və strukturu da etdikcə dəyişir, bir tərəfdən, əhalinin artması, digər tərəfdən isə böyük ailələrin, feodal-patriarxal ailələrin bölünməsi, parçalanması prosesi güclənirdi. Bunun nəticəsində də evlərin, təsərrüfatların sayı sürətlə artırdı. Öz tərkibi etibarilə 4 nəslin nümayəndəsini əhatə edən, 5-6 evli qardaşın bir yerdə yaşadığı və üzvlərinin sayı 20-30, bəzən isə daha çox olan böyük ailələrin bölünməsi nəticəsində kəndlər getdikcə böyüyür və genişlənirdi. Bu proses də, öz növbəsində, kəndlərin salınmasına və planlaşdırılmasına təsir edir, onlarda müəyyən dəyişikliklərin yaranmasına səbəb olurdu. Yeni evlərin artması

nəticəsində bir-birindən aralı ayrı-ayrı məhəllələrdən ibarət dağınıq formalı kəndlər getdikcə sıxlaşır və məhəllələrarası sərhəd yox olurdu.

Şimali Azərbaycanın mərkəzi rayonlarında yerləşən bəzi iri kəndlər istisna olunmaqla kəndlərin çoxu öz keçmiş strukturunu saxlamışdı. Belə ki, kəndlər əsasən yaşayış evlərindən, həyət və təsərrüfat tikililərindən ibarət idi. Yeganə ictimai bina bəzi kəndlərdə mövcud olan məscidlər, mollaxanalar, məktəb və mədrəsələr idi. Bəzi kəndlərin ətrafında hündür yerlərdə gözətçi məntəqələri var idi. Kəndlərdə əhaliyə xidmət etmək üçün müalicə məntəqəsi, xəstəxana, mədəni-maarif ocaqları, ticarət və məişət xidməti müəssisələri, demək olar ki, yox idi. Kənd yolları, küçələr ensiz və dar idi. Şübhəsiz ki, Şimali Azərbaycan kəndlərində feodalizm cəmiyyətinin, feodal münasibətlərinin məhsulu kimi meydana gəlib formalaşmış olan və əsrlər boyu davam edən bu cür həyat tərzi, məişət forması, onun bəzi əlamətləri kapitalizm inkişafı yoluna təzəcə qədəm qoyan bir ölkədə həmçinin, onun müstəmləkəsində qısa müddətdə və tezliklə aradan qaldırıla bilməzdi.

XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlərinin məişətinin səciyyəvi cəhətlərindən birini heyvandarlıqla məşğul olan əhalinin müəyyən hissəsinin heyvanların yaylaq şəraitində saxlanması ilə əlaqədar olaraq yay aylarında yaylaqlara çıxması və müvəqqəti yaşayış məskənləri salıb orada yaşaması təşkil edirdi.

Maldar əhali yay aylarında yaylaqlara 10-15 ailəni birləşdirən obalar halında gedir və onlar müvəqqəti yaşayış məskənləri salırdılar. Bu müvəqqəti yaşayış məskənləri oba adlanırdı. Onların yaylaq yaşayış evləri isə alaçıqdan, musxur və dəyədən ibarət idi.

Kəndli yaşayış evlərinin əsas formalarından birini ikimərtəbəli və kürsülü *çoxotaqlı (çoxgözlü) evlər* təşkil edirdi. Kəndli yaşayı evlərinin bu forması kapitalizmin inkişafı ilə əlaqədar olaraq daha geniş yayılmağa başlamışdı. Böyük Qafqaz dağlarının ətəklərində Quba-Xaçmaz zonasında yaşayan əhali əsasən daş və kvadrat formalı çiy kərpicdən tikilmiş ikimərtəbəli, çoxgözlü evlərdə yaşayırdı. Bu evlərin ikinci mərtəbəsindən təsərrüfat məqsədilə də istifadə edilirdi. Evin birinci mərtəbəsindən əhali həm heyvanları saxlamaq üçün pəyə, həm də anbar və habelə mətbəx kimi istifadə edirdi.

Evlərin işıqlandırılması üçün əhali qara və ağ neftlə, yağla yanan *çıraqlardan* istifadə edirdi. Kapitalizmin inkişafı ilə əlaqədar olaraq ölkədə nəqliyyatın inkişafı, xüsusilə də onun ən mühüm növü olan dəmir yol nəqliyyatının meydana gəlməsi nəticəsində Bakı neftinin Şimali Azərbaycanın müxtəlif yerlərinə aparılması xeyli asanlaşmışdı. Bakı-Tiflis dəmir yol xəttinin çəkilişi bu işi daha da yaxşılaşdırmışdı. Əhalinin xeyli hissəsi, xüsusilə, varlılar evlərində onluq, iyirmilik və otuzluq çıraq yandırırdı. Belə ailələrdə paltar ütüləmək üçün kömür və odunla qızdırılan *ağır dəmir ülüdən* istifadə edilirdi. Kəndlilərin ev avadanlıqları, məişət avadanlıqları yerli avadanlıq və əşyalardan ibarət idi. Kənd əhalisi qab-qacaq, yorğan-döşək və palaz-

paltar yığmaq üçün evdə rəfdən, yükaltından, taxçadan, sandıqdan, məfrəşdən istifadə edirdi. Əhali əsasən yerdə yatırdı. Adətən evlərin içinə xalça-palaz döşənir, onun üstünə kiçik döşəkçələr qoyulur, bardaş qurub, yaxud yastıq və mütəkkəyə söykənib otururdular. Onlar yeməyi də yerdə oturub yeyirdilər. Həmin palazın və xalçanın üstündə də yer salıb yatırdılar. Lakin XIX əsrin sonlarında varlı ailələrdə taxta çarpayıdan, taxta masa və kürsüdən, dolabdan və digər məişət avadanlıqlarından istifadə edilirdi.

Kənd əhalisinin geyimi başlıca olaraq yerli materiallardan hazırlanan, sənətkarlar və əhalinin özü tərəfindən tikilən paltarlardan ibarət idi. Kəndli kişi baş geyimi quzu dərisindən tikilmiş müxtəlif formalı papaq, pambıq və yun parçadan, bir çox hallarda yer xanasında qadınların toxuduğu şal (yun) parçadan tikilmiş şərq formalı üst paltarları - *pencək şalvar, çuxa, arxalıq,* habelə kətandan tikilmiş alt paltarlarından ibarət idi. Kişi ayaq geyimi kimi əsasən göndən hazırlanmış müxtəlif formalı çarıq və başmaq, habelə yun ipdən müxtəlif formada toxunmuş corablar geniş yayılmışdı. Lakin bu dövrdə Şimali Azərbaycan kəndlərində bəy, ağa və varlı təbəqələrin geyimində əsaslı fərq mövcud idi. Belə ki, ağa, bəy və kəndli varlı təbəqələrinin digər nümayəndələri mahud çuxa, mənkülə arxalıq, qaragül cinsli quzuların dərisindən tikilmiş və əhali arasında "buxara papağı" kimi məşhur olan bahalı papaq, uzunboğaz xrom çəkmə geyir, bellərinə gümüş kəmər bağlayırdılar.

Kəndli qadın geyimi isə pambıq və ipək parçadan, əsasən, qadınların özlərinin evdə tikdiyi uzunluğu ayağın üstünə qədər və altı-yeddi taxtadan olan *gen tuman,* habelə *kofta, nimtənə, güləcəzıbını, köynək* və s. ibarət idi. Qadınlar başlarına baş örtüyü və geyimi kimi *ipək yaylıq, kəlağayı, çutka, araqçın,* yaşlı qadınlar isə dingə, habelə bəzi yerlərdə *çarşab-çadra* örtürdülər. Qadınlar adətən həya əlaməti kimi örpəyin ucu ilə ağızlarını da yaşmaqlayırdılar. Onlar, kənar adamların və böyüklərin yanında heç vaxt başlarını açmır və başıaçıq, yaşmaqsız gəzmirdilər.

Qadınların ayaq geyimi əsasən yüngül başmaq olardı. Bu dövrdə qadınlar müxtəlif ziynət və bəzək şeylərindən istifadə edirdilər. Qadınların zinəti qızıl üzük, tənə, boyunbağı, bilərzik, bazubənd, mirvari, enli gümüş kəmər, müxtəlif muncuqlar və s. idi.

Kişilər arasında olduğu kimi, qadınlar arasında da varlı ailələrlə yoxsul ailələrdə qadınların geyimi bir-birindən əsaslı surətdə fərqlənirdi. Belə ki, qızıl və qiymətli daş-qaşlardan hazırlanmış bahalı bəzəklərdən, habelə ipək parçalardan tikilmiş paltarlardan hakim sinfə, varlı təbəqələrə mənsub olan qadınlar istifadə edə bilirdilər.

Məişətin mühüm məsələlərindən biri uşaqların tərbiyəsi idi. Kəndlərdə mədəni-maarif ocaqları olmadığından və ya çox az qisim kəndlərdə məktəb olduğundan geniş kəndli kütlələri arasında uşaqların tərbiyəsi əsasən ailənin üzərinə düşürdü və onların fiziki tərbiyəsinə fikir verilirdi. Uşaqlar hələ kiçik yaşlarından ev və təsərrüfat işləri görür, həmin sahələr üzrə müəyyən əmək vərdişləri qazandıqları və müstəqil fəaliyyət göstərə bildikləri halda, onların zehni tərbiyəsi, mənəvi inkişafı

lazımi səviyyədə olmurdu. Valideynlər və ailənin yaşlı üzvləri təsərrüfat işlərini görüb qurtardıqdan və məhsulu yığdıqdan sonra yalnız qışda uşaqlara xalq nağılları danışar, xalq uşaq şeirləri öyrədərdilər.

Bəzi iri kəndlər və qəza mərkəzləri istisna olmaqla kəndlərin çoxunda məktəb, kitabxana, klub, digər mədəni-maarif ocaqlar, yox idi. Dövlət tərəfindən xalq maarifinin inkişafına fikir verilmədiyinə, əhalinin savadlanması qeydinə qalınmadığına görə kəndlərdə savadlı adamlara çox az rast gəlinirdi. Kəndlərdə həkim və tibb təhsilli mütəxəssis olmadığı üçün xəstələr şəhərlərə və ya başqa yerlərə aparılırdı, əsasən isə xalq təbibləri tərəfindən müalicə olunurdular. Xalq təbiblərinin tibbi təhsili yox idi. Onların çoxu nəsildən-nəslə keçən böyük təcrübi biliyi və müxtəlif müalicə üsul və vasitələri ilə xəstələri sağaldırdılar. Xalq təbibləri təcrübi yolla insan orqanizmini, insan bədənini, onun quruluşunu, orqanlarını, onların əsas funksiyalarını bilirdilər. Habelə bir çox xəstəliklər, onların törənmə səbəbləri, habelə müalicəsi, müalicə üçün istifadə edilən üsul və vasitələr müəyyən miqyasda xalq təbiblərinə məlum idi. Xalq təbibləri xəstəliklərin müalicəsində başlıca olaraq bitkilərdən, heyvan məhsullarından, mineral mənşəli maddələrdən, habelə günəş, su, qum, hava və s. bu kimi təbii vasitələrdən istifadə edirdilər.

Bununla belə kəndlərdə müxtəlif xəstəliklərin müalicəsi zamanı əhali arasında xəstələrə dua yazdırmaq, onlan "pirə", "ocağa" və xalq arasında müqəddəs sayılan digər yerlərə aparmaq, qurbari kəsmək, nəzir-niyaz vermək vasitələrindən də istifadə olunurdu. Bu sahədə bəzi mollalar, falçılar, cadugərlər, cindarlar və başqaları fəaliyyət göstərirdilər.

Xalqın məişəti XIX əsrin ikinci yarısında bir sıra bayramlar, mərasimlər, ritual adət və ənənələrlə zəngin olmuşdur. Bu bayramlar, mərasimlər, ritual adət və ənənələr içərisində Novruz bayramı, Məhsul bayramı, Qurban bayramı, Orucluq, Məhərrəmlik, habelə toy və dəfn mərasimləri xüsusi yer tuturdu. Bu bayram və mərasimlər kəndlilərin məişətinə geniş daxil olmuşdu. Bayram günlərində həyətlərdə xalq tamaşaları, oyun və əyləncələr göstərilirdi. Bu oyun, əyləncə və tamaşalar içərisində "kosa-kosa", "kəndirbazlıq" və s. xüsusilə geniş yayılmışdı.

## § 3. SOSİAL TƏBƏQƏLƏŞMƏ

Əmtəə istehsalının inkişafı Azərbaycan kəndində sosial təbəqələşmənin güclənməsinə zəmin yaradırdı. XIX yüzilliyin ikinci yarısında kapitalist istehsal üsulunun mahiyyətini əks etdirən sosial təbəqələşmə prosesi iki antaqonist təbəqənin - cüzi azlığın, əksəriyyəti xırda olan kənd burjuaziyasının və üstün çoxluğun, əksəriyyəti pay torpaqlı muzdlulardan ibarət olan kənd fəhlələrinin əmələ gəlməsində təzahür edirdi.

1861-ci il islahatı ərəfəsində, Rusiyada kapitalizmin yetişməsi dövrü kimi hesab edilən dövrdəki təbəqələşmə tədricən Şimali Azərbaycanın sosial-iqtisadi

həyatında səciyyəvi hadisəyə çevrilirdi. Ancaq sahibkar kəndlilərinə aid olmasına baxmayaraq, 1870-ci il 14 may aqrar islahatı Azərbaycan kəndində sosial təbəqələşmə prosesini bir qədər sürətləndirdi.

Kəndli "Əsasnamə"si pay torpaqlarını icmalıqla istifadə üçün kənd cəmiyyətlərinin və ayrı-ayrı kəndli həyətlərinin ixtiyarına verirdi. İslahatın keçirildiyi dövrdə hökmran olan əmtəə-pul münasibətlərinin səviyyəsi kəndli pay torpaqlarından istifadənin həyət formasını üstünlük təşkil edən formaya çevirdi. Nizamnamələrin (ustavnıye qramotı) tərtibi zamanı kəndlilərin mütləq çoxluğu pay torpağının həyətlər - sahələr üzrə bölünməsini tələb etdi. Bu, kənd icmasının dağılmasına gətirib çıxardı, əmlak bərabərsizliyini gücləndirdi. Sonuncu isə sosial təbəqələşmənin göstəricilərindən biridir.

Sosial təbəqələşmə prosesi torpaqdan icmalıqla istifadə edən dövlət kəndliləri içərisində də baş verirdi. Dövlət kəndliləri içərisində sürətlənməkdə olan təbəqələşmə prosesinin nəticəsində yoxsullaşmış kəndlilərin torpaqları tədricən varlı kəndlilərin əlində cəmləşirdi. XIX yüzilliyin sonuna yaxın pay torpaqlarının vaxtaşırı bölgüsünə əsaslanan icma tam dağılma mərhələsində idi. Kəndin "möhtərəm" adamları adlanan, təkcə bütün icmanı deyil, həm də bütün kənd idarə orqanlarını əllərində saxlayan kənd varlıları və qolçomaqların təsiri nəticəsində icma qaydaları qətiyyən hesaba alınmırdı. İcmaların böyük əksəriyyətində torpağın bölgüsü 20-30 və hətta 40 ildən bir, o da bu vaxt ərzində pay torpaqlarının mühüm hissəsini özlərinə toplamağa macal tapmış nüfuzlu azlığa qarşı çoxluğun tələbləri hədələyici xarakter alandan sonra keçirilirdi.

Torpağın vaxtaşırı bölünməsinin aradan qalxması və onun ayrı-ayrı kəndli həyətlərinin ixtiyarına keçməsi kəndlilər arasında sürətlənmiş sosial təbəqələşmənin ən başlıca göstəricilərindən biri idi.

Yelizavetpol quberniyası Əhmədbəyli kəndi sakinlərinin yazdıqları kimi, onlarda pay torpaqları nəfərlərin sayına görə bölünmürdü. "Sonuncu torpaq bölgüsündən sonra varlı həm kəndlilərimizin torpağı ələ keçirməyə macal tapmalarından bəri torpaq almırıq. Onlar artıq dalbadal bir neçə ildir ki, torpaqdan istifadə edirdilər. Kənddə 50 varlı və 25 yoxsul həyəti var. Varlı kəndlilər bizim torpaqlardan əvəzsiz istifadə edirlər" [35].

XIX yüzilliyin 80-ci illərinin ortalarında toplanılmış statistik məlumatlar islahatdan sonrakı dövrdə dövlət kəndində gedən təbəqələşmənin səviyyəsi və miqyasını inandırıcı şəkildə göstərir. Kapitalizm inkişaf etdikcə aztorpaqlı və ortabab kəndlilərin bir hissəsi öz təsərrüfat müstəqilliyini itirir, əsarətə düşür və nəhayət, var-yoxdan çıxırdı. Əgər 1884-cü ildə Şimali Azərbaycanda 18831 torpaqsız kəndli vardısa, 10 il sonra, 1895-ci ildə, onların sayı 36709 çatırdı.

Şimali Azərbaycan kəndlilərinin təbəqələşməsi onların büdcələrindən də aydın müşahidə edilir. Bu, yoxsulları, ortababları və qolçomaqları bir-birindən aydın surətdə fərqləndirməyə imkan verir. 9 kənddən olan 9 ailə üzrə məlumatlara görə, bu ailələrdən ancaq birinin büdcəsində gəlir xərclərdən xeyli çox idi. Bu,

qolçomaq ailəsi idi. Dörd ailənin büdcəsi kəsirli idi, yəni bu ailələr yoxsul ailələr idi. 4 ailənin isə gəliri xərclərini bir qədər üstələyirdi. Bu ailələr ortababİara aid edilirdi.

Rəsmi statistikanın olmaması Azərbaycan kəndində sosial təbəqələşmənin dərinliyini göstərən ümumiləşdirici rəqəmlər gətirməyə imkan vermir. Yelizavetpol quberniyasının Xaltəklə kəndi üzrə məlumatlar kənddə sosial təbəqələşməni göstərmək üçün nümunə ola bilər: 1896-cı ildə kəndin 97 həyətindən ancaq bir varlı kəndli 1000 manatlıqdan çox, bir kəndli isə 1000 manatdan bir qədər az qiyməti olan müxtəlif tikililərə malik idi. Göstərilən 2 qolçomağın istehsal etdiyi ümumi məhsulun dəyəri 3 min manatdan 4 min manatadək idi. 29 həyətin isə hər birinin tikililərinin qiyməti 200 manatdan 500 manatadək idi və bunlardan ancaq səkkizinin ümumi illik məhsulunun dəyəri 1000 manatdan yuxarı idi. Onları varlı kəndlilər kateqoriyasına aid etmək lazımdır. Deməli, varlıların sayı 10 nəfərdən artıq deyildi, qalan 21 həyət isə ortabab həyətləri idi.

36 həyətin hər birinin tikililərinin qiyməti 200 manatdan, 29 həyətin hər birinin tikililərinin qiyməti isə 100 manatdan az idi. Göstərilən 65 yoxsul həyətin 45-nin hər birinin ümumi illik orta məhsulunun dəyəri 500 manat, qalanlarının isə hər birinin belə məhsulunun dəyəri bundan bir qədər çox idi [36]. Bir kənd üzrə olan bu məlumatlar XIX yüzilliyin sonunda Şimali Azərbaycanın dərin sosial təbəqələşmə prosesi gedən kəndlərinin hamısı üçün səciyyəvi idi.

Azərbaycan kəndliləri içərisində sosial təbəqələşmə prosesi məhsulsuzluq illərində xüsusilə geniş miqyas alır və xeyli güclənirdi. Hər bir aclıq ili, hər bir qıtlıq on minlərlə təsərrüfatı var-yoxdan çıxarırdı. İslahatdan sonrakı dövrdə Şimali Azərbaycanda qıtlıq illəri getdikcə daha tez-tez təkrar olunurdu. 1860-1870-ci illər ərzində ancaq 1865-1867-ci illər bol məhsul illəri olmuş, qalan illərdə isə taxıl və ələfin ümumi və ya qismən qıtlığı qeydə alınmışdı. 1871-ci ildən 1880-ci ilədək olan dövrdə 1875, 1877 və 1878-ci illərdə Yelizavetpol quberniyasında, 1874-cü və 1875-ci illərdə Bakı quberniyasında və 1880-ci ildə isə hər iki quberniyada yığılan taxıl məhsulu qeyri-kafi olmuşdu. 1881-ci ildən 1890-cı ilədək olan dövrdə ilk yeddi il taxılın kafi məhsuldarlığı ilə səciyyələnmiş, sonuncu üç il isə qıtlıq illəri olmuşdu. Nəhayət, XIX yüzilliyin sonuncu onilliyi bir silsilə fasiləsiz qıtlıq illəri ilə səciyyələnir. Bu dövrdə aclıq 1891-1892-ci ilin sərt qışında, 1893-cü ildə Cənubi Qafqazın hər yerində, 1896-cı, 1897-ci və 1898-ci illərdə özünü göstərmişdir [37]. Qıtlıq, aclıq və təbii fəlakət illərində yüz minlərlə yoxsul və ortababın bir hissəsinin əkinləri, mal-qarası və iş heyvanları azalır, bəyə, sələmçi qolçomağa, tacirə, kənd kapitalistlərinə borcları artır, xəzinə kəsirləri çoxalırdı. Çar hökuməti tərəfindən birbaşa və dolayı yolla vergilərin bütün ağırlığı çiyinlərinə qoyulmuş yoxsul kəndlilər xəzinənin borcluları sırasına düşürdülər. 1870-ci ildən müəyyən və qeyri-müəyyən vergilərin yığılması üzrə xəzinənin kəsiri 340 min manatdan 2 mln manatadək, yəni demək olar ki, 600% artmışdı [38].

Kəndlilərin ağır vəziyyəti onları doğma yerlərini tərk etməyə, qazanc dalınca şəhərlərə və ya başqa kəndlərə köçməyə məcbur edirdi. Kəndlilərin qazanc dalınca getməsi – kəsbkarlıq kəndlilərinin təbəqələşməsi prosesinin ən parlaq əlamətlərindən biri idi.

Hər il kəndlilərin bir hissəsi, xüsusən də dağlıq və dağətəyi rayonlarda, öz kiçik torpaq parçasında səpin işlərini başa çatdırdıqdan sonra işləmək üçün başlıca olaraq düzənlikdə yerləşən digər qəzaların müxtəlif kəndlərinə, habelə şəhərlərə, zavodlara, fabriklərə, mədənlərə və başqa sənaye müəssisələrinə gedirdi. Kəndlilərin ən yoxsul, çox vaxt borc içində itib-batmış hissəsi pay torpağını birdəfəlik atır, torpaqla əlaqəni tamamilə üzür və doğma kəndlərini həmişəlik tərk edərək, öz iş qüvvəsini satmaq hesabına yaşamağa başlayırdı.

Cavad qəzası Qədimçay kəndi sakinlərinin yazdıqları kimi "indi də çox az-az, bircə müstəqil ev sahibi evdə qalır və öz ailəsini dolandırır, qalanları isə, demək olar ki, hamısı qazanmaq və ailəsini dolandırmaq üçün müxtəlif şəhərlərə və kəndlərə səpələniblər" [39]. Yelizavetpol quberniyasındakı bir çox qəzaların kəndləri həddən artıq ehtiyac və aclıq üzündən "özlərini dolandırmaq üçün müxtəlif kəndlərə səpələnməyə" məcbur olmuşdular. 15-20 yaşlı cavanların isə xeyli hissəsi işləmək üçün Bakıya yola düşürdü [40].

Əkinçilik kəsbkarlığı kəndlilərin daimi fəhlə-muzdur, mövsümi və günəmuzd fəhlə kimi sahibkar mülkədarların, iri və orta kənd burjuaziyasının nümayəndələrinin, qolçomaqların və tacirlərin təsərrüfatlarında işləməyində təzahür edirdi. 1897-ci il sayımına görə, Şimali Azərbaycanda (Bakı və Yelizavetpol quberniyalarında) 1 nəfərdən 11 nəfərədək daimi muzdlu fəhlənin əməyindən istifadə olunan 11965 müxtəlif tipli təsərrüfat, o cümlədən əkinçilik təsərrüfatı var idi. Ümumiyyətlə isə bu təsərrüfatlarda 19502 fəhlə işləyirdi [41].

Əkinçi kəsbkarların əsas kütləsi müvsümi və günəmuzd fəhlələr idi. Belə kəsbkarlar əkinçi, biçinçi, dəryazçı kimi işləyir, çəltik, tütün, üzüm və pambıq plantasiyalarında məhsul yığır, barama qurdlarının bəslənilməsi, baramanın növlərə ayrılması, ipək sarıması və biyan kökü çıxarılması ilə məşğul olur, çobanlığa gedirdilər və s.

Kənd təsərrüfatında və xüsusən də onun texniki bitkilər becərilməsi muzdlu əməyin tətbiqinin artması kəndlilərin təbəqələşməsinin mühüm əlaməti idi.

Qeyri-əkinçi kəsbkarlığı "torpaq sahibləri" olan kəndlilərin mövsümi və günəmuzd fəhlə kimi Şimali Azərbaycanın neft, dağ-zavod, dağ-mədən, balıq, ipəksarıma, ipəkburma, spirtçəkmə, un üyütmə, çəltiktəmizləmə, tənbəki, pambıqtəmizləmə və digər sənaye sahələrinin işi ilə əlaqədar idi.

Qeyri-əkinçi kəsbkarlarının sayından çox idi. Onların ən çox hissəsi Bakıya yola düşürdü. Burada neft sənayesinin və onunla bağlı olan istehsal sahələrinin, dəniz nəqliyyatının, digər kapitalist müəssisələrinin coşqun inkişafı ilə əlaqədar olaraq ucuz işçi qüvvəsinə daimi tələbat hiss olunurdu.

Yüzilliyin 70-ci illərindən etibarən kəsbkarlığa gedən Cənubi Qafqaz kəndlilərə verilən pasportların miqdarı sürətlə artmağa başladı. Xəzinənin pasport verilməsindən götürdüyü gəlirin 1871-ci ildəki 8676 manatdan 1875-ci ildə 15530 manata çatması, yəni demək olar ki, iki dəfə artması da buna dəlalət edir [42]. 80-90-cı illərdə təkcə Bakı quberniyası üzrə pasport verilməsindən xəzinənin götürdüyü gəlir 12 min manatdan 61500 manatadək artmışdı [43].

Yüzilliyin sonuna yaxın, (1887-ci ildə) Bakı və Yelizavetpol quberniyasında olan Bakı fəhlələri içərisində Bakı quberniyasından olanların xüsusi çəkisi 75%, Yelizavetpol quberniyasından onlarınkı isə 25%-ə bərabər idi [44]. Bakıya qeyri-əkinçi kəsbkarlıq Bakı quberniyasının Bakı və Quba, Yelizavetpol quberniyasının isə Cəbrayıl, Şuşa, Cavanşir və Zəngəzur qəzalarında geniş yayılmışdı.

Kəndlilərin bir hissəsi Şimali Azərbaycanın dağ-mədən və ipək sənayesi müəssisələrinə kəsbkarlığa gedirdi. Yüzilliyin sonunda Gədəbəy və Qarakənd misəritmə zavodlarında, Nuxa, Qarabağ, Ordubad və digər yerlərin ipəksarıma müəssisələrində 4 mindən çox fəhlə işləyirdi. Bunların mühüm hissəsi kəsbkarlardan ibarət idi.

1897-ci il sayımı zamanı fəhlə və qulluqçuların sayı üzrə hesablanmış məmulatlar kəsbkarlıq barəsində daha dolğun təsəvvür yaradır. Məsələn, Bakı quberniyası üzrə qeydə alınmış 62 min nəfər fəhlədən 27,7 min nəfəri elə bu quberniyadan, 5,4 min nəfəri isə Yelizavetpol quberniyasından çıxmış adamlardan ibarət idi.

## § 4. KƏNDLİLƏRİN ÇARİZMƏ VƏ MÜLKƏDAR BƏYLƏRƏ QARŞI MÜBARİZƏSİ

1870-ci il "Əsasnamə"sinin tətbiq edildiyi vaxtdan Azərbaycan kəndlilərinin mübarizəsi getdikcə kəskinləşdi. Hərçənd ki, Cənubi Qafqazın ali çar hakimiyyəti orqanlarının nümayəndələri bunu açıq etiraf etmək istəmirdilər. İmperiyanın digər yerlərində olduğu kimi Şimali Azərbaycanda da kəndlilər islahatın "eybəcər bürokratik" xarakterinə qarşı mübarizə aparırdılar. Məsələn, islahat elan olunduqdan sonra Göyçay qəzasında münsif "Əsasnamə"nin "kənd sakinlərinin tabe olmalı olduqları" maddələrini izah edəndə, kəndlilər buna tabe olmayacaqlarını bildirmişdilər.

70-90-cı illərdə Azərbaycan kəndlilərinin mülkədar, bəylər və mütləqiyyət əsarətinə qarşı mübarizəsi qüvvətləndi. Vergilərin ödənilməsi və mükəlləfiyyətlərin yerinə yetirilməsindən boyun qaçırılması, mülkədar torpaqlarının tutulması, olanların malikanələrinin darmadağın edilməsi, bəy və qolçomaqların öldürülməsi o dövrdə kəndlilərin sinfi mübarizəsinin əsas formaları idi. Bu mübarizənin əsasını torpaq məsələsi təşkil edirdi.

70-90-cı illərdə Azərbaycan kəndlilərinin narazılığı bəzi yerlərdə bəylər və yerli hakimiyyət orqanlarının nümayəndələri ilə silahlı toqquşmalara keçən açıq çıxışlar formasını aldı.Yelizavetpol, Qazax, Naxçıvan və başqa qəzalarının bir çox kəndlərində bu cür çıxışlar baş vermişdi.

70-ci illərin sonunda Qazax qəzası Quşçu kəndinin kəndliləri mülkədarın - İsgəndərbəyovların zülmünə qarşı çıxış etdilər. Onların mübarizəsinə Mehbalı Məmmədhəsən oğlu, Məşədi Usub Mürşüd oğlu, Kərbəlayı Kərimşah Qulu oğlu və b. başçılıq edirdi. Bəylər köməyə göndərilmiş kazak dəstəsinin köməyi ilə silah gücünə üsyanı boğdular, üsyanın rəhbərləri həbs olundu.

Kəndli mübarizəsinin ən kəskin forması qaçaq hərəkatı idi. Hakimiyyət orqanlarının təqibindən gizlənən adamları xalq arasında qaçaq adlandırırdılar. Əksər hallarda onlar torpaq sahibləri olan bəylərə, kənd varlılarına və yerli hakimiyyət orqanlarına qarşı çıxış edirdilər.

Ağır ehtiyac, kəskin torpaq və su çatışmazlığı, kənd varlıları və kəndin vəzifəli şəxslərinin özbaşınalığı Azərbaycan kəndində qaçaq hərəkatını doğuran əsas səbəblər idi.

Qaçaq hərəkatı bir və ya bir neçə qəzanın ərazisi ilə məhdudlaşmamışdı. Qaçaqlar Şimali Azərbaycanın ən müxtəlif rayonlarında əməliyyatlar aparırdılar. Beləliklə, qaçaq hərəkatı ümumiyyətlə, bütün Şimali Azərbaycan üçün səciyyəvi hal idi.

80-ci illərdə Qaçaqlardan Tanrıverdi Allahqulu oğlu və Əli Xıdır oğlu çox məşhur idi. Onların dəstələri Qazax, Yelizavetpol, Şuşa, Cavad, Şamaxı və Zəngəzur qəzalarında fəaliyyət göstərirdi [45].

80-ci illərdə və sonralar Gəncə rayonunda fəaliyyət göstərmiş Qaçaq Dəli Əli böyük şöhrət qazanmışdı. Lakin qaçaq hərəkatının ən geniş yayıldığı rayon Quba qəzası idi. 80-ci illərdə qəzada 17-dək qaçaq dəstəsi fəaliyyət göstərirdi. O zamankı məşhur Quba qaçaqlarından Məşədi Məcidin, Şeyxzadə Bədəlin adlarını çəkmək olar [46].

XIX yüzilliyin son rübündə qaçaqlardan Gəncə rayonunda Qənbər, Qarabağda Süleyman və Murtuza, Zaqatala dairəsində Yusif, Nuxa qəzasında Kərim Əfəndi oğlu, Qutqaşendə, xüsusən də Şimali Azərbaycanın qərb rayonlarında Qaçaq Kərəm və b. məşhur idilər.

"Narodnaya volya" jurnalının 1885-ci il tarixli oktyabr sayında bəy və məmurların qaçaqlar qarşısında dəhşətli qorxusu haqqında yazılmışdır: "Məşhur Kərəm bütün Cənubi Qafqazın qəniminə çevrilmişdir".

Qaçaq dəstələri bəylərin malikanələrinə hücumlar edir, onların əmlakını, mal-qarasını və pullarını əllərindən alırdılar. Qaçaqlar ələ keçirdiklərinin xeyli hissəsini yoxsul kəndlilərə paylayırdılar.

Qaçaq hərəkatının sosial xarakter daşımasını, kəndlilərin əsarət və istismara qarşı fəal etirazının bu hərəkatda ifadəsini tapdığını sübut edən ən inandırıcı dəlillərdən biri qaçaqların ümumxalq yardımına arxalanması idi. Çar

hakimiyyət orqanlarının özü belə bunu etiraf etməyə məcbur olurdu. Çoxsaylı rəsmi sənədlərdə qaçaqların xalqın ən geniş yardımına arxalandıqları qeyd edilir.

Yelizavetpol qubernatoru Cənubi Qafqaz diyarı baş rəisinin adına 1885-ci il 25 iyul tarixli hesabatında qaçaqlarla mübarizə üçün görülmüş tədbirlər barəsində məlumat verərək, bədbin halda etiraf edirdi ki, ... "nə qədər onlar, demək olar ki, bütün müsəlman əhalisinin himayədarlığından istifadə edirlər, görülmüş tədbirlərin tam müvəffəqiyyətinə ümid bəsləmək qeyri-mümkündür" [47].

Şimali Azərbaycanın bütün quberniyalarında qaçaqların gizlədilməsi fövqəladə dərəcədə geniş yayılmışdı. Polis "quldurların (qaçaqların - *Red.)* hansı kəndlərdə gizləndiklərini bilir, əl-ayaqdan düşür, lakin gizlədilməyə əməli yardım göstərən bütün əhli polisə qarşı olduğundan, onları tapa bilmir" [48].

Qeyd etmək lazımdır ki, çox vaxt qaçaq dəstələrində zülmkarlara qarşı təkcə azərbaycanlılar deyil, başqa millətdən olanlar da çıxış edirdilər.

Mütləq qüvvə üstünlüyünün çar hakimiyyəti tərəfində olması və böyük dəstələrin hakimiyyət orqanlarının təqibindən yaxa qurtarmasının çətinliyi üzündən qaçaqlar partizan mübarizəsi taktikasını tətbiq edirdilər: onlar sayı 10 nəfərdən ibarət olan xırda dəstələr halında fəaliyyət göstərirdi. Lakin bəzən onlar daha böyük dəstələr şəklində də birləşirdilər. Qaçaqlar qəflətən basqınlar edir, gözlənilmədən meydana atılır və o sürətlə də, aradan çıxırdılar. Qaçaqlar adətən at üstündə hərəkət edir, bəzən gün ərzində böyük məsafələri qət edirdilər. Qaçaqlar üçün fövqəladə igidlik və hünər səciyyəvi idi. Onlar hər addımda özlərini izləyən ölümün gözünə dik və cəsarətlə baxırdılar.

XIX yüzillikdə qaçaq hərəkatı tarixinin ən şanlı səhifələri Azərbaycan xalqının əfsanəvi qəhrəmanı *Qaçaq Nəbi* tərəfindən yazılmışdır. Belə hesab edirlər ki, o, 1854-cü ildə Zəngəzur qəzasının Mollu kəndində anadan olmuşdur. Onun atası yoxsul kəndli olan Əli özünün böyük ailəsini çətinliklə dolandırırdı. Nəbi hələ uşaq ikən həmkəndlisinə - qolçomaq Kərbəlayı Cəfərə çobanlığa verilmiş, ağır istismar və hədsiz özbaşınalığın bütün dəhşətlərini öz üzərində hiss etmişdi. O, artıq gənc yaşlarından kəndin yoxsul adamlarının qanını zəli kimi soranların hamısına nifrət edirdi. 1875-ci ildə o, aşağımollularin torpaqlarını ələ keçirmiş yerli torpaq sahibkarı Məmməd bəyi ağır yaralamışdı, həmin vaxtdan Nəbi hökumətdən gizlənməli olmuş və qaçağa çevrilmişdi. Nəbi 20 il ərzində əldə silah kəndlilərin mənafeyini qoruyaraq, yerli istismarçıları və çar müstəmləkəçilərini dəhşətə salmışdı.

Naxçıvan qəzasının Zeyvə kəndində ən məhsuldar torpaqlardan kənd varlıları və torpaq sahibkarlarının özləri istifadə edirdilər. Bu, kəndlilərin vəziyyətinə ağır təsir göstərir, onlan ağır ehtiyaca möhtac edirdi. Kəskin aztorpaqlılıq üstündə varlı və yoxsul kənd sakinləri arasında hər il toqquşmalar baş verirdi. Kəndlilər çarın özünədək bütün idarələrə şikayətlə müraciət edirdilər. Kəndlilərin inadlı mübarizəsi hakimiyyət orqanlarını Tiflisdən bu kəndə məmurlar göndərməyə məcbur etdi. Kəndlilər bunu Nəbiyə çatdırdılar. Nəbi yolda məmurların qabağını kəsərək, onlara

divan tutacağı ilə hədələdi. Bu məsələnin taleyini həll etdi. Bərk qorxuya düşmüş məmurlar mübahisəni şikayətçilərin xeyrinə həll etdilər.

Nəbinin dəstəsi harada olursa olsun, kəndlilər onların ağır vəziyyətlərində nəinki at, ərzaq verir, həm də qaçaqların mübarizəsində bilavasitə iştirak etməklə düşməni əzməkdə onlara kömək edirdilər.

Qaçaq Nəbinin arvadı, xalq arasında igidlikdə ad qazanan Həcər onun sadiq silahdaşı idi.

İran və yerli feodallara qarşı mübarizədə Cənubi Azərbaycan kəndlilərinə kömək üçün Nəbinin dəstəsi tez-tez Arazın o tayına keçirdi. Cənubi Azərbaycan xanları Nəbiyə nifrət edərək, hər vasitə ilə onu məhv etməyə çalışırdılar.

Nəbi öz qəhrəman mübarizəsi ilə xalq qəhrəmanı və zəhmətkeş mənafelərinin müdafiəçisi şöhrətini qazandı. Azərbaycan kəndliləri öz qəhrəmanları ilə fəxr edirdilər. Onların çoxu çətin anlarda kömək üçün Nəbiyə müraciət edir, çar məmurlarını onun adı ilə hədələyirdilər.

Kəndlilərin çıxışı təkcə yerli çar hakimiyyət orqanlarını deyil, həm də imperiyanın ali məmurlarını narahat edirdi. İstismarçılara qarşı vuruşan Nəbi və digər igidlərin geniş xalq kütlələri içərisində müdafiə edilməsi onlan xüsusən təşvişə salırdı.

1894-cü il iyunun 20-də Gürcüvan kəndində Nəbinin qardaşı Mehdi hökumət casuslarının qurbanı oldu. Bundan üç gün sonra Nəbi həmin kəndin mülkədarı və tacirlərinə divan tutdu. Sonra o, Həcəri Çiçəkli kəndində qoyaraq, Arazın o tayına keçdi. Hökumət casusları dərhal bunu Zəngəzur və Naxçıvan qəza rəislərinə çatdırdılar. Onlar Çiçəkliyə hücum təşkil edib Həcəri tutdular və Gorus qalasına saldılar. 1895-ci il oktyabrın 28-də Nəbi öz dəstəsi ilə Gorusu mühasirəyə aldı və qala rəisi Səlim bəydən Həcərin buraxılmasını tələb etdi. Tələb yerinə yetirildi.

Çar hakimiyyəti orqanları Nəbini öldürən və ya onun öldürülməsində fərqlənən adamlara çoxlu pul, qiymətli hədiyyələr, vəzifə və medalla mükafatlandırmağı vəd etmişdi.

1895-ci ilin sentyabrında Naxçıvan qəza rəisi Urmiya şəhərində yaşayan, orada ticarətlə məşğul olan Ordubad taciri hacı Fərəc oğluna Nəbinin İranda öldürülməsini təşkil etməyi tapşırdı. Nəbinin qətli üçün tacirə qızıl medal və 1000 man. xərclik vəd edildi o qaçaqlardan Şahhüseyn və Kərbəlayı İmamı satın almağa nail oldu. Onlar bir həftə ərzində Nəbini öldürməyə boyun oldular. 1896-cı il martın 12-də onlar İranın Larni kəndində Nəbiyə hücum edərək onu öldürdülər [49]. Nəbinin dəstəsi hamı tərəfindən tanınmış başçının ölümündən sonra dağıldı. Nəbinin ölümü kəndlilərin qəzəbinə səbəb oldu. Onlar sevimli xalq qəhrəmanının xatirəsini həmişəlik əziz tutaraq, haqqında ürəkdən gələn nəğmələr qoşdular. Sonralar bu nəğmələr "Qaçaq Nəbi" xalq dastanının əsasını təşkil etdi.

Qaçaq hərəkatı müstəmləkəçiləri ciddi surətdə narahat edir, onu yatırmaq üçün çarizm ən amansız tədbirləri görürdü [50]. Hakimiyyət orqanları zemstvo mühafizə dəstələrini, ovçu komandalarını və hərbi hissələri qaçaqlara qarşı göndərirdi.

Hökumət orqanlarının əlinə düşən qaçaqlar hərbi səhra məhkəmələrində mühakimə edilir, qaçaqlara yardım göndərənlərə qarşı amansız tədbirlər görülürdü. Cəza tədbirləri həm ayrı-ayrı şəxslərə, həm də bütöv kənd cəmiyyətlərinə qarşı tətbiq edilirdi. Sonunculara qarşı tətbiq edilən cəza tədbirlərinin məqsədi sərt iqtisadi təzyiq yolu ilə kəndliləri qaçaqlara yardımı dayandırmağa məcbur etməkdən ibarət idi. Bu tədbirlərdən ən ağırı ekzekusiya (bədən cəzası) idi: qaçaqlarla əlaqədar olan kəndlərdə hərbi, adətən kazak komandası yerləşdirilir və bu komandanı sakinlər öz hesablarına saxlamalı idilər. Məsələn, 1896-cı ildə Göyçay qəzasının Qarabucaq kəndi ekzekusiyaya məruz qaldı, 25 nəfər kazak da bir aylığa burada yerləşdirildi [51].

Ekzekusiyalar hərbi komandalar tərəfindən kəndlilər üzərində kobud özbaşınalıq, ələsalınma və birbaşa zorakarlıqla müşayiət olunurdu. Çar hökuməti qacaqlara yardım göstərmiş kəndlərin bütünlüklə sürgün edilməsi kimi amansız cəza tədbirlərini tətbiq etməkdən çəkinmirdi. Hökumət orqanları sürgün edilmiş kəndlilərin yerində rus köçkünlərini yerləşdirir, onlardan özünün müstəmləkə siyasətini həyata keçirmək aləti kimi, qismən də qaçaqlara qarşı mübarizədə istifadə etməyə can atırdı. Yalnız altı il (1889-1894) ərzində Quba qəzasında beş kəndin sakinləri bütünlüklə sürgün edilmiş, onların yerində köçkün rus kəndləri yaradılmışdı,

Kəndlilərin sosial və müstəmləkə zülmünə qarşı etirazının digər, müxtəlif hakimiyyət orqanlarına, vəzifəli şəxslərə sözün əsl mənasında, ərizə yağışı yağdırırdılar.

Kəndli etirazının bu, ən az fəal formasının geniş yayılması Şimali Azərbaycan kəndlilərinin əsrlər boyu despotik rejimdə (əvvəl xan, sonra isə mütləqiyyət rejimi) yaşaması ilə şərtlənirdi. Ağır əsarət isə "nəsildən-nəslə" keçən itaət vərdişi doğururdu. Hakimiyyət orqanları ilə açıq toqquşmadan çəkinən kəndlilər şikayətlərə geniş şəkildə əl atırdılar. Qanun şikayətləri qadağan etmirdi. Hakimiyyət orqanlarından himayədarlıq axtaran kəndlilərin əsassız ümidləri şikayətlərin, bəzən məqsədlərinə çatması da, bu etiraz formasının geniş yayılmasına təkan verirdi.

Kəndli şikayətlərinin ən çox hissəsi kəndlilərin torpaq sahibliyi və torpaqdan istifadə məsələləri ilə əlaqədar idi. Kəndlilər torpaq təminatlarının yaxşılaşdırılması tələbi ilə müxtəlif idarə və vəzifəli şəxsləri sanki aramsız "atəşə" tuturdular. Lakin kiçik istisnalar edilməklə, aztorpaqlılıq barəsindəki kəndli şikayətləri nəticəsiz qalırdı.

Xəzinə torpaqlarının kütləvi şəkildə bəylər tərəfindən tutulması ilə əlaqədar olaraq dövlət kəndlilərindən çoxlu şikayətlər gəlirdi [52]. Əksər hallarda pay torpaqlarının zorla tutulması barəsindəki kəndli şikayətləri müsbət nəticə vermirdi [53]. Kəndli şikayətlərinin ancaq kiçik bir hissəsi onların xeyrinə həll edilirdi.

Kənddə kapitalist münasibətlərinin inkişafı və kəndlilərin təbəqələşməsi ilə əlaqədar zəhmətkeş kəndlilərin istismarçı *qolçomaqlara* qarşı mübarizəsi meydana çıxdı və genişlənməyə başladı. Kəndlilər öz pay torpaqlarının qolçomaqlar tərəfindən tutulması cəhdlərinə qarşı fəal mübarizə aparırdılar. Onlar varlıların vaxtaşırı torpaq bölgülərini ləğv etmək yolu ilə əvvəllər ələ keçirilmiş pay torpaqlarını əldə saxlamaq

cəhdlərinə inadlı müqavimət göstərirdilər. Kəndlilər kəndin varlı təbəqəsinin zorakılığına qarşı mübarizə apararaq, pay torpaqlarının vaxtaşırı olaraq yenidən bölüşdürülməsini tələb edirdilər.

1895-ci ildə Bakı qəzası Saray kəndinin 34 torpaqsız kəndlisi Cənubi Qafqaz diyarının baş rəisinə şikayətlə müraciət edib tələb edirdilər ki, ya onlar mükəlləfiyyətləri daşımaqdan azad edilsinlər, ya da pay torpaqları bərabər bölünsün.

Kəndli həyatının ən vacib məsələlərindən biri *vergi əsarətini yüngülləşdirmək uğrunda mübarizə* idi. Kəndlilər öz şikayətlərində həddən artıq ağır vergi və mükəlləfiyyətləri azaltmağı, onları özlərinin iqtisadi imkanları ilə uyğunlaşdırmağı, ödənilməmiş vergiləri bağışlamağı və s. inadla tələb edirdilər. Bir qayda olaraq, çar hakimiyyət orqanları bu məsələlərdə kəndlilərin ağır vəziyyəti ilə hesablaşmır və ancaq xəzinənin mənafeyi qayğısına qalırdı. Kəndli şikayətlərinin əksəriyyətinin taleyi göstərir ki, ancaq çox nadir hallarda çar hakimiyyət orqanları vergi yükünü azaltmağa, ödənilməmiş vergiləri ləğv etməyə razılıq verirdilər.

Buna görə də bəzi kəndlilər bütöv kənd cəmiyyətləri halında vergiləri ödəməkdən boyun qaçırırdılar. Bəzən də məsələ kəndlilərin nifrət etdikləri vergi yığanlara qarşı zorakılığa qədər gedib çıxırdı. Hətta kəndlilərin mükəlləfiyyətləri yerinə yetirmək iqtidarında olmayan borclular sırasına düşdükləri hallarda belə, çar hakimiyyət orqanları onların vergi yükünü yüngülləşdirməkdən boyun qaçırırdı [54]. Buna görə də kəndlilər tez-tez mükəlləfiyyətləri yerinə yetirməkdən boyun qaçırırdılar.

Kəndli ərizələrinin böyük hissəsini yerli hakimiyyət orqanlarında çalışan vəzifəli şəxslərin özbaşınalığı və sui-istifadələrinə (bunlar çarizmin Rusiya imperiyasında yaratdığı zorakılıq rejiminin qanunauyğun nəticələri idi) qarşı şikayətlər təşkil edirdi.

Kəndli hərəkatı formalarından biri *meşələrin qırılması* idi. Məlum olduğu kimi, kəndlilərin meşə ilə təmin olunma səviyyəsi onların maddi təminatı vəziyyətini müəyyənləşdirən mühüm amillərdən biri idi.

XIX yüzilliyin 50-ci illərinədək Şimali Azərbaycanın dövlət kəndliləri meşələrdən sərbəst və təmənnasız istifadə edirdilər. Sonralar hakimiyyət orqanları kəndlilərin meşədən istifadə hüquqlarına qarşı hücuma başladı. Bunun da nəticəsində 80-ci ilin ortalarında, yüksək vəzifəli bir çar məmurunun etiraf etdiyi kimi, "meşələrdən sərbəst istifadə etməkdən əhaliyə ancaq xoş xatirələr qalmışdı" [55].

Meşələrin qırılması üstündə 1899-cu ildə Nuxa qəzasının Sabatlı kəndində ciddi həyəcanlar baş verdi. Qətiyyən meşələri olmayan sabatlılar ağac materiallarını ya satın alır, ya da onu gizlicə Zaqatala dairəsinin qonşuluğunda yerləşən xəzinə meşələrindən qırırdılar. 1899-cu il mayın 15-də berdankalarla silahlanmış bir qrup sabatlı arabalarda meşəyə gəlib ağac kəsməyə başladı. Meşə gözətçiləri onları görüb yaxınlaşmağa başlayanda, kəndlilər meşəni qırmaqda davam edə-edə atəş açdılar. Gözətçilərin özbaşına meşə qırılması barəsində göndərdikləri xəbərdən sonra atlı-

silahlı dəstələr və zemstvo mühafizəçiləri tezliklə bu meşəyə gəldilər. Sabatlılar onları da tüfəng atəşi ilə qarşıladılar.

Mayın 20-nə keçən gecə qəza rəisi başda olmaqla 500 nəfərə qədər silahlı kazak və zemstvo mühafizəçisi Sabatlıya gəldi. Kəndlilərə divan tutulması başladı. 125 kəndli zorla bir yerə toplanıldı və meşədə olmuş süvarilər baş verən həyəcanın təşəbbüskarlarını tanıdılar. 18 nəfər həbs edildi və Zaqatala həbsxanasına atıldı.

Kənddə zülmə qarşı mübarizə formalarından biri mülkədar və qolçomaq evlərinin və mülklərinin yandırılması idi. Bu yanğınlar qolçomaq istismarı, zorakılığı və özbaşınalığı müqabilində kəndli intiqamının bir növ ifadəsi idi.

Bəy və vəzifəli şəxslərin, xüsusən də kətxudaların mülklərinin dövlət və xüsusən də sahibkar kəndliləri tərəfindən yandırılması hallarına da təsadüf olunurdu. Belə hadisələr Cavanşir qəzasının Marağal, Lənkəran qəzasının Qızılağac kəndlərində və b. yerlərdə baş vermişdi. Mülkədar malikanələrinin yandırılması halları Göyçay qəzasında geniş miqyas almışdı. Qəsdən yandırılma halları ən çox məhz torpaq məsələsinin xüsusən kəskin xarakter aldığı yerlərdə, o cümlədən Nuxa, Yelizavetpol, Şuşa, Cavanşir qəzalarında baş verirdi.

O dövr Azərbaycan kəndində bəy torpaqlarının kəndlilər tərəfindən tutulması hallarına rast gəlinirdi. Məsələn, 1888-ci ildə Yelizavetpol qəzasındakı Qarabulaq kəndinin sakinləri Şabanəli Şəfibəyovun torpaqlarını tutmuşdular [56]. Lakin bəy torpaqlarının tutulması kütləvi xarakter daşımır, ən çoxu təsadüfi hadisələr kimi baş verirdi.

Kəndlilərin göstərdikləri cəsarət və igidliyə baxmayaraq, onların kortəbii, qeyri-mütəşəkkil xarakter daşıyan çıxışları məğlubiyyətə uğrayırdı. Kəndli hərəkatının təbiəti elə idi ki, çıxışlar əksər hallarda məhdud xarakter daşıyır, kəndlilər öz mübarizələrinin əsas məqsəd və vəzifələrini başa düşmürdülər.

## VII FƏSİL

## ƏHALİNİN TƏRKİBİNDƏ SOSİAL DƏYİŞİKLİKLƏR

### § 1. ŞİMALİ AZƏRBAYCANDA BURJUAZİYANIN TƏŞƏKKÜLÜ

XIX yüzilliyin II yarısında Şimali Azərbaycanın ictimai-iqtisadi həyatında baş verən dəyişikliklər burada burjua cəmiyyəti təbəqələrinin formalaşmasına zəmin yaradırdı.

Şimali Azərbaycanı imperiyanın mərkəzi rayonlarının sənayesi üçün satış bazarı və xammal mənbəyi kimi qiymətləndirən çarizmin müstəmləkə siyasətinə, ilkin kapital yığımı mənbələrinin məhdudluğuna, XIX əsrin II yarısında Azərbaycan kəndində feodal qalıqlarının qalmasına baxmayaraq, diyarda burjuaziyanın təşəkkülü prosesi gedirdi. Özlərinin bütün məhdudluğuna baxmayaraq, XIX yüzilliyin 70-ci illərində keçirilmiş burjua islahatları bu prosesə müsbət təsir göstərirdi. Şimali Azərbaycanda sənaye və ticarət burjuaziyasının formalaşması prosesi, həmçinin əsrin sonunda kredit bank sisteminin meydana çıxması və inkişaf edərək iqtisadi həyatda birinci dərəcəli əhəmiyyət kəsb etməsi ilə daha da sürətləndi.

Yüzilliyin son rübündə Şimali Azərbaycan sənayesinə əvvəlcə həm rus, 80-ci illərdən isə həm də xarici kapital axınının güclənməsi müəyyən dərəcədə Azərbaycan burjuaziyasının çoxmillətliyini şərtləndirirdi. Onun tərkibinə milli burjuaziya ilə yanaşı, erməni və rus burjuaziyasının nümayəndələri, digər millətlərdən olan kapitalistlər daxil idilər.

Şimali Azərbaycanda neft sənayeçiləri, işbazları, fabrik sahibləri və zavodçulardan, gəmi sahibləri və gəlirli ev sahiblərindən, habelə varlı tacirlərdən ibarət olan iri burjuaziyanın tərkibi ilbəil genişlənirdi. Orta burjuaziya-orta həcmli sənaye, ticarət, nəqliyyat və s. müəssisələrin sahibkarları iqtisadi və siyasi baxımdan iri burjuaziyaya qoşulurdular.

Rusiyanın digər bölgələrinin burjuaziyası kimi, Şimali Azərbaycan burjuaziyası da siyasi mənafelərin ümumiliyi baxımından vahidlik təşkil edirdi. Bu məsələdə də o, Bakı, Gədəbəy və başqa yerlərdə kapitalist müəssisələrinə sahib olan rus və xarici sənayeçilər və bankirlərlə qovuşurdu.

Şimali Azərbaycanın xırda burjuaziyası çoxsaylı idi. Onun tərkibində xırda sənətkar - kustar müəssisələrinin sahibləri, kiçik tacirlər və binəkdarlar, xidmət sahəsindəki xırda müəssisələrin sahibkarları və b. daxil idi. Öz sosial təbiətinə görə, ümumiyyətlə, xırda burjua olan kəndlilərə gəldikdə isə, islahatdan sonrakı bütün Rusiyada olduğu kimi, burada da onlar parçalanır, bir qütbə varlı kəndlilər, qolçomaqlar, digərinə isə muzdla işləyən kəndlilər, yoxsullar cəmləşirdi.

Sənaye istehsalının müxtəlif sahələri və müxtəlif inkişaf mərhələlərində burjuaziyanın milli qruplarının nisbəti eyni deyildi. Daim dəyişən bu nisbət müstəmləkə iqtisadiyyatının inkişafına xas olan meylləri əks etdirirdi. Bu da burjuaziyanın əsas formalaşma mərkəzinə çevrilmiş neft Bakısında daha açıq şəkildə özünü göstərirdi.

Bütövlükdə isə Şimali Azərbaycan sənayesinin aparıcı sahəsində-neft sənayesində Azərbaycan milli burjuaziyasının iqtisadi mövqeləri güclü deyildi. Hələ 1872-ci ildə, iltizam sisteminin ləğv edildiyi ilk vaxtlarda, neftli sahələrin 13 sahibkarı içərisində Azərbaycan kapitalı ancaq 2 kapitalistlə təmsil olunmuşdu [1].

70-ci illərin sonu - 80-ci illərin əvvəllərində Azərbaycan kapitalı neftayırma sahəsində xeyli geniş şəkildə təmsil olunmuşdu. 1883-cü ildə Bakının 100 ağ neft zavodçusundan 40 nəfərdən çoxu azərbaycanlılar (H.Z.Tağıyev, N.Mehdiyev, A.M.Nuriyev, Q.S.Sadıqov, M.S. Səlimxanov və b.) idi [2].

90-cı illərin əvvəllərinə yaxın neft sənayesindəki milli kapital qruplarının nisbətində mühüm dəyişikliklər baş verdi. İstehsal və mübadilə üsullarının kapitalizm dövründə təzahür edən beynəlmiləlləşmə meyli digər aparıcı sənaye sahələrində olduğu kimi, neft sənayesində də müxtəlif milli kapital qruplarının qovuşmasına gətirib çıxarırdı.

Neft hasilatı və emalının, neft məhsulları daşınması və ticarətinin xeyli hissəsini əsası Rusiyada külli miqdarda kapital qazanmış İsveç mənşəli kapitalistlər tərəfindən 1879-cu ildə qoyulmuş, ölkədə ilk inhisara çevrilmiş "Nobel qardaşları"nın neft istehsalı şirkəti öz əlində cəmləşdirmişdi. 1891-ci ildə "Nobel qardaşları" şirkətinə məxsus olan mədənlərdə Bakıda çıxarılan bütün neftin 13,2 faizi hasil edilirdi.

Neftayırma sənayesində o zamankı əsas məhsulun - ağ neftin istehsalındakı xüsusi çəki baxımından 22,8 faizi Azərbaycan kapitalının payına düşürdü. "Nobel qardaşları" şirkəti də daxil olmaqla ağ neftin 34,5 faizi rus kapitalistlərinin müəssisələri tərəfindən istehsal olunmuşdu.

Azərbaycan kapitalı başlıca olaraq bir neçə on min puddan 10 mln pudadək neft istehsal edən orta və xırda müəssisələrlə təmsil olunmuşdu [3].

Neft sənayeçiləri M.Nağıyev və Ş.Əsədullayevə mənsub olan neftçıxarma firmalarının müəssisələrində 1 mln-dan 10 mln pudadək neft hasil olunurdu. 10 mln puddan çox neft çıxaran müəssisələr qrupunda isə Azərbaycan kapitalı, ümumiyyətlə, təmsil olunmamışdı [4]. Neft müəssisələrinə malik digər azərbaycanlı kapitalistlər arasında M.Manafov və b. da var idi. M.Muxtarov podrat qazması üzrə iri firmanın sahibi idi.

Neft sənayesində rus kapitalını V.A.Kokorev, S.M.Şibayev, P.İ.Tubonin, A.M.Benkendorf və b., erməni kapitalını isə A.İ.Mantaşev, Mirzəyev qardaşları təmsil edirdilər.

XX yüzilliyin əvvəlinə yaxın neftayırma sənayesində də burjuaziyanın milli qruplarının mövqeləri dəyişikliklərə uğradı. Bu sahədə rus kapitalının xüsusi çəkisi bir qədər artdı. Eyni zamanda neftayırmada erməni və Azərbaycan kapitalına

məxsus firmaların xüsusi çəkisi xeyli azaldı [5]. Bu, hər şeydən əvvəl, 1901-1903-cü illər iqtisadi böhranının, yerli müəssisələrin rəqabətə dözümsüzlüyünün, onların kiçikliyinin və kifayət qədər mütəşəkkil olmamasının nəticəsi idi.

Neftayırma və onunla əlaqədar olan kimya istehsalı sahəsində Azərbaycan kapitalı Ş.Əsədullayev, M.Nağıyev, İ.Hacınski, M.Ə.Səlimxanov və başqalarının müəssisələri ilə təmsil olunmuşdu.

Neft hasilatı və emalı sahələrində istehsalın intensiv surətdə gedən təmərküzləşməsi prosesi, neft inhisarlarının meydana çıxması, bu, ən mühüm sənaye sahəsində onların hökmranlığının bərqərar olması əsrin sonuna yaxın neft maqnatlarının iqtisadi və siyasi mövqelərinin güclənməsinə gətirib çıxardı. Onlar iri sənaye kapitalının digər nümayəndələri ilə birlikdə burjuaziyanın yuxarı təbəqəsinə çevrildilər.

Bakı rayonunda cəmlənmiş metal emalı müəssisələri sahiblərinin də tərkibi çoxmillətli idi. Azərbaycan kapitalı sənaye istehsalının bu mühüm sahəsində kifayət qədər geniş surətdə təmsil olunmuşdu. Əsrin sonunda M.Muxtarovun, demək olar ki, 950 fəhləsi, Cavanşirov qardaşlarının 300 fəhləsi olan zavodları, A.A.Dadaşovun 100 fəhləsi olan tərsanə emalatxanaları və b. iri metal emalı müəssisələri sırasında idi [61].

Metal emalında rus kapitalı S.M.Şibayev, S.M.Rısev və F.A.Lyapinin müəssisələri, "Qafqaz və Merkuri" gəmiçilik cəmiyyətinin emalatxanaları, xarici kapital isə Levenson, A.F.Berinq, K.F.Eyzenşmidt və b. müəssisələri ilə təmsil olunmuşdu.

"Nobel qardaşları" şirkətinə iri mexaniki emalatxanalar məxsus idi. Alman kapitalına məxsus olan və elektrik enerjisi sahəsində aparıcı mövqe tutan "Elektriçeskaya sila" cəmiyyətinin səhmlərinin xeyli hissəsi H.Z.Tağıyevin əlində idi.

Azərbaycan kapitalı yüngül, yeyinti və bəzi digər sənaye sahələrində geniş təmsil olunmuşdu. Məsələn, ipək sənayesinin inkişafı, başlıca olaraq, Azərbaycan milli kapitalı ilə bağlı idi [7]. XX yüzilliyin əvvəllərində ipəkçilik sənayesinin ən mühüm rayonunda - Nuxada müəssisələrin $^{2}/_{3}$ hissəsi azərbaycanlı kapitalistlərə məxsus idi. Burada 140 nəfərdən çox fəhləsi olan ən iri fabrikin sahibi Ağa Musa Məmmədov, Mehdi Hacı Abdul oğlu, Hacı Süleyman Hüseyn oğlu, Əbdülkərim Hacı Kərim oğlu, Salam Lətif oğlu və b. Nuxa və Nuxa qəzalarındakı ipəksarıma və ipəkburma müəssisələrinin sahibkarları sırasında idilər.

XIX yüzilliyin sonunda Şimali Azərbaycanda inkişaf edən pambıqçılığın əsasında yeni sənaye sahəsi - pambıqtəmizləmə müəssisələri meydana çıxdı. Bu kapitalist müəssisələrinin xeyli hissəsi Azərbaycan kapitalistlərinə məxsus idi. 1900-cü ildə tikilən və H.Z.Tağıyevə məxsus olan Bakı pambıq emalı fabriki Azərbaycanda ilk pambıqtəmizləmə müəssisəsi idi [8].

Unüyütmə və çəltiktəmizləmə istehsalı əsasən rus və Azərbaycan kapitalının əlində idi.

Tənbəki fabrikləri də yerli kapitalın nümayəndələrinə - azərbaycanlı kapitalistlərdən M.Q.Dadaşov, Novruzov, Həsənov Abdullayev, A.Sultanov və b. rus kapitalisti Pivovarova məxsus idi

1847-ci ildən 1881-ci ilədək olan dövrdə balıq sənayesində möhtəşəm dərəcədə qazanc götürmüş 6 nəfər yerli sahibkar növbə ilə ağalıq etmişdi [9]. Bunların içərisində sonralar Bakı rayonunda iri neft sənayeçilərinə çevrilmiş Mirzəyev və Mantaşev seçilirdi [10]. XIX yüzilliyin sonuna yaxın bu sahəni idarə edən 10-12 ən iri sahibkarın içərisində azərbaycanlılar cəmisi 4 nəfər (H.Z.Tağıyev, Sultanov, Əhməd Mustafa oğlu, Ağa Mustafa oğlu) idi [11].

Azərbaycan kapitalı şərabçılıq və araqçəkmə sənayesində təmsil olunmamışdı. Burada yerli alman kolonistləri (Forer qardaşları, Hummel) və erməni kapitalistlərinin nümayəndələri ağalıq edirdilər.

Azərbaycan burjuaziyası Xəzər gəmi sahibləri içərisində mühüm yer tuturdu. Azərbaycanlı kapitalistlər - Hüseynovlar, Dadaşovlar, M.S.Manafov, H.Z.Tağıyev, Q.K.Aşurov, Rəsulovlar onların ən iriləri sırasında idilər. Ötən yüzilliyin sonunda bütün Xəzər ticarət donanmasındakı gəmilərin 44,4 faizi və bütün donanmanın yükgötürmə imkanlarının 42,1 faizi onlara məxsus idi [12].

Milli kapital Bakı, Şamaxı, Gəncə, Nuxa, Şuşa, Naxçıvan və b. şəhərlərdə ticarət burjuaziyasının əllərində cəmləşmişdi.

1897-ci ildə iki quberniyanın 20 min tacirindən 12,9 min nəfəri Bakı və 7,1 min nəfəri Yelizavetpol quberniyasında idi [13]. 14,2 min nəfər şəhər tacirindən 7,3 min nəfəri təkcə Bakının payına düşürdü [14]. Bu, ticarət burjuaziyasının əsas kütləsinin Bakıda cəmləşdiyini göstərir.

Azərbaycan kapitalının nümayəndələri, demək olar ki, bütün taxıl, baqqaliyyə malları, yun, dəri məmulatları, meyvə və topdansatış ticarətini öz əllərində cəmləşdirmişdilər. Neft və neft məhsulları, metal və metal məmulatları, meşə materialları və s. ticarətində xarici və rus ticarət kapitallarının mövqeləri daha geniş idi.

XIX yüzilliyin son rübündə Şimali Azərbaycanda ilk kredit bank müəssisələri meydana çıxmağa başladı. 1874-cü ildə açılmış ilk kredit müəssisəsinin - Bakı qarşılıqlı kredit cəmiyyətinin təsisçiləri Azərbaycan və erməni şəhər burjuaziyasının orta kapitalist təbəqələri idi [15].

XIX yüzilliyin sonuna yaxın Bakıda artıq əsasən Rusiyanın səhmdar kommersiya banklarının şöbələrindən ibarət olan 15 bank müəssisəsi və A.Ələsgərov. Q.Arafelov, T.Haşımov, B.Söydiyev və H.Z.Tağıyevə məxsus olan 5 bank kontoru vardı [16]. Gəncə, Şuşa, Nuxa, Gədəbəy və digər yerlərin sənayeçiləri, tacirləri və kənd burjuaziyası dövlət bankının Tiflis şöbəsindən və Tiflis şəhərinin digər kredit müəssisələrindən kredit götürürdülər [17].

Kredit bank müəssisələrinin mövcudluğu burjuaziyanın təbəqələşməsinə, onun yuxarı təbəqəsinin zənginləşməsinə və qüvvətlənməsinə şərait yaradırdı.

Kapitalist münasibətlərinin kənddə inkişafı ilə əlaqədar kənd burjuaziyası da formalaşırdı. Kənddə güclənməkdə olan sosial təbəqələşmə prosesi kəndlilərin ümumi kütləsi içərisindən cüzi azlığın - xırda kənd burjuaziyasını təmsil edən və iqtisadi cəhətdən qüvvətlənmiş kənd varlılarının və qolçomaqların ayrılmasına gətirib çıxardı [18].

Ən yaxşı kəndli pay torpaqları, on və yüz minlərlə desyatin icarə olunmuş və satın alınmış torpaq sahələri, ictimai sudan istifadə hüququ, böyük miqdarda iş heyvanı və məhsuldar mal-qara, təkmilləşdirilmiş kənd təsərrüfatı alətləri kənd varlılarının və qolçomaqların əllərində cəmləşdirilmişdi. Qolçomaq təsərrüfatlarının müxtəlif istehsal proseslərində muzdlu əməkdən getdikcə geniş istifadə olunurdu.

Beləliklə, XIX yüzilliyin II yarısında Şimali Azərbaycanda burjua cəmiyyətinin əsas ictimai-sosial qüvvəsi olan çoxmillətli burjuaziya formalaşırdı.

## § 2. FƏHLƏ SİNFİNİN FORMALAŞMASI

XIX yüzilliyin ikinci yarısında sənaye kapitalizminin inkişafı, burjuaziyanın əmələ gəlməsi ilə eyni zamanda fəhlə sinfinin formalaşması prosesi gedirdi. Bu proses o dövr Şimali Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında ən mühüm hadisələrindən biri idi və onun bütün sonrakı tarixi üçün mühüm əhəmiyyət kəsb edirdi. Ümumi və Rusiya üçün səciyyəvi olan qanunauyğunluqlarla, ümumiyyətlə, fəhlə sinfinin əmələ gəlməsi xüsusiyyətləri ilə yanaşı, Şimali Azərbaycan fəhlə sinfinin formalaşması prosesinə bu diyardakı sosial-iqtisadi münasibətlər, əhalinin sosial və milli tərkibinin özünəməxsus xüsusiyyəti, çarizmin müstəmləkə siyasəti ilə bağlı olan yerli cəhətlər də öz təsirini göstərmişdir.

XIX yüzilliyin ikinci yarısının ilk onilliklərində Şimali Azərbaycanda fəhlə kadrlarının əmələ gəlməsi prosesi hələ çox ləng gedirdi. Bu proses kapitalist xarakterli sadə kooperasiya müəssisələrində, manufakturalarda, təbii sərvətlərin mənimsənilməsi ilə məşğul olan mədənlərdə, ilk fabrik və zavodlarda başlamışdı. Lakin fəhlələrin sayı çox az idi. Neft və duz mədənlərində, balıq vətəgələrində mövcud olan iltizam sistemi, bir sıra kəndlərin sakinlərinin məcburi əməyindən istifadə edilməsi fəhlələrin artımını ləngidirdi.

50-60-cı illərin əvvəllərində Balaxanı kəndi rayonunda işlər, məsələn, neftin çıxarılması, əsasən yerli kəndlilərin məcburi əməyi ilə yerinə yetirilsə də, quyuların təmizlənməsi və təmirində, çıxarılmış neftin şəhər anbarlarına daşınmasında fəhlələrin muzdlu əməyindən də istifadə olunurdu.

1864-cü ildə neft çıxarılmasında kəndlilərin məcburi əməyinin ləğvindən sonra fəhlələrin muzdla tutulması sisteminə keçid ölkə təsərrüfatının bu perspektivli sahəsində fəhlələrin sayının artmasına təkan verdi. Lakin 70-ci illərin başlanğıcınadək fəhlələrin sayı çox ləng artırdı. 1873-cü ildə, yəni artıq iltizam sisteminin ləğvindən sonra fəhlələrin sayı 700 nəfərdən çox idi [19]. Beləliklə, fəhlələrin sayının artmasının sürətlənməsi özünü göstərməyə başlayırdı.

Bakının neftayırma zavodlarında 70-ci illərin əvvəllərinə yaxın 328 daimi və onlarla müvəqqəti fəhlə, 1883-cü ildə isə 607 fəhlə çalışırdı [20]. 70-ci illərin əvvəllərində Bakının digər müəssisələrində 1000 nəfərdən bir qədər çox və donanmada isə 2000 nəfərədək fəhlə işləyirdi [21].

Fəhlə kadrları Bakı və Yelizavetpol quberniyalarının qəzalarında da formalaşırdı. 70-ci illərin əvvəllərində Gədəbəy mis mədəni və misəritmə zavodunda təxminən 1,8 min nəfərdən çox, Nuxa, Şuşa və bəzi digər qəzaların ipəksarıma müəssisələrində təxminən 2 min nəfər, balıq vətəgələrində 1,5 min nəfərədək, kənd təsərrüfatı xammalı emal edən müəssisələrdə isə bir neçə min nəfər fəhlə çalışırdı.

Şimali Azərbaycanın sənaye və nəqliyyatındakı kapitalist müəssisələrində çalışan fəhlələrin ümumi sayı o dövrdə 10-11 min nəfərə çatırdı. Lakin onların yarısından çoxu sənayedəki mövsümi işi kənd təsərrüfatı əməyi ilə əlaqələndirirdi. Buna görə də daimi fəhlələrin, yəni başlıca məşğuliyyəti sənaye və nəqliyyatdakı iş olan fəhlələrin sayı təxminən 4-5 min nəfər idi.

70-ci illərdən etibarən Şimali Azərbaycanda fəhlələrin sürətlə təşəkkül tapması dövrü başladı. Bu, sənaye kapitalizminin sürətli inkişafı ilə bağlı idi. Belə inkişafın ardınca labüd olaraq, o dövrün ictimai istehsal münasibətlərinin on kəskin surətdə dağılması prosesi başlayırdı. Şimali Azərbaycan fəhlələrinin, xüsusən də neftçi fəhlələrin artım sürəti kəskin surətdə yüksəlirdi.

İnkişaf edən sənaye və nəqliyyatın fəhlə qüvvəsinə böyük ehtiyacı vardı. Bu tələbat kəsbkar kəndlilərin, var-yoxdan çıxmış sənətkarların, habelə fəhlələrin ailə üzvlərinin sənaye və nəqliyyata cəlb olunması hesabına ödənilirdi.

Şimali Azərbaycan fəhlə kadrlarının formalaşmasının ən mühüm sosial mənbəyi kəndlilər idi. Hələ XIX yüzilliyin 50-60-cı illərində faydalı qazıntılar çıxarılan yerlərin yaxınlığında, sənaye müəssisələri meydana çıxan şəhərlərin ətrafında yerləşən kəndlərin əhalisi sənaye istehsalına cəlb olunurdu. Lakin o dövrdə kəndlilərin feodal asılılığından azad olması prosesi zəif gedirdi, Azərbaycan kəndindən sənayeyə gələn kəsbkarların sayı isə az idi. Çünki sənaye, hələlik zəif inkişafı üzündən, çoxlu işçi qüvvəsi tələb etmirdi. İslahatdan sonrakı dövrdə kəsbkarların kənddən sənaye müəssisələri və nəqliyyata axını qüvvətləndi.

Şimali Azərbaycanda xırda kənd istehsalçısının istehsal alət və vasitələrindən ayrı düşməsi prosesinin səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, bu proses kənddə kapitalist münasibətlərinin inkişafının güclü feodalizm qalıqları ilə çulğalaşdığı bir şəraitdə gedirdi. Azərbaycan kəndindən sakinlərin kəsbkarlığa getməsi həm kəndlilərin kapitalistcəsinə təbəqələşməsinin, həm də onların feodal və yarımfeodal əsasda kütləvi surətdə müflisləşməsi və var-yoxdan çıxmasının nəticələrindən törəyirdi [22].

Azərbaycan kəndi qazanc axtaran on minlərlə azad oldən istifadə edə bilmirdi. Kəndlilərə müstəsna şəkildə dərin təsir göstərmiş qeyri-əkinçilik kəsbkarlığının rolu belə şəraitdə xüsusən artırdı. Pauperləşmiş kəndli axınının

mühüm hissəsi şəhərlərə yönələrək fəhlələrin sıralarını doldururdu. Azərbaycan kəndindən olan kəsbkarların əksəriyyəti uzun müddət ərzində öz pay torpaqlarını qoruyub saxlayırdı. Rusiyada olduğu kimi, Cənubi Qafqazda da pay torpaqlı muzdlu fəhlələr sayca sənaye fəhlələri sıralarının dolmasının başlıca mənbəyini təşkil edirdi.

Rusiya quberniyalarından və digər rayonlardan Şimali Azərbaycanın sənayesinə gələn kəsbkarların da əksəriyyəti kəndlilərdən ibarət idi.

Kəsbkarların çoxu sənaye müəssisələrində bir müddət işlədikdən sonra vətənə qayıdır, lakin digər hissəsi isə burada qalaraq mədən və zavodlarda kök salırdı.

Fəhlə kadrlarının digər formalaşma mənbəyini sənətkarlar və kustarlar təşkil edirdi. Onların çoxu yerli kustar sənətlərin sənaye tərəfindən sıxışdırılıb aradan çıxarılması ilə əlaqədar olaraq müflisləşir və sənaye istehsalına cəlb olunurdular. Lakin bunların sayı o qədər də çox deyildi. Çünki göstərilən proses o qədər də sürətlə getmirdi; özü də XIX yüzilliyin sonunda Şimali Azərbaycanın bir sıra ənənəvi sənətkarlıq sahələrinin məhsullarına tələbat kənd əhalisi arasında da artırdı.

Şimali Azərbaycan fəhlə kadrlarının formalaşmasının ən mühüm xüsusiyyətlərindən biri onun sıralarına fəhlələrin və yarımproletar ünsürlərin axını idi. Sonunculara, hələ islahata qədərki dövrdə sənaye istehsalına cəlb olunmuş kəndlərin bir çox sakinləri və qismən də Abşeron kəndlərinin nəsilbənəsil neft mədənləri ilə bağlı olan əhalisi aid idi.

Şimali Azərbaycan fəhlə sinfinin sıralarının genişlənməsi fəhlələrin öz sosial mühitlərində baş verən artımın hesabına da gedirdi, yəni fəhlə ailələrində fəhləliklə məşğul olan ailə üzvlərinin sayı get-gedə artır, qadınlar və uşaqlar da istehsala cəlb olunurdular.

Sənayeni, nəqliyyatı və xidmət sahələrini fəhlə qüvvəsi ilə təmin edən rayonlardan fəhlələrin sayına görə Cənubi Qafqaz mühüm yer tuturdu. 1897-ci il əhali sayımının məlumatlarına görə, Bakı və Yelizavetpol quberniyalarındakı fəhlələrin 66,1 faizini Cənubi Qafqazdan çıxanlar təşkil edirdilər. Bunlar əsasən elə Bakı və Yelizavetpol quberniyalarının özündən çıxan və fəhlələrin ümumi sayının 63,4 faizini təşkil edənlərdən ibarət idi [23]. İrəvan quberniyasından çıxanlar fəhlələrin 1,2 faizini, Tiflis və Kutaisi quberniyalarından çıxanlar isə 1,5 faizini təşkil edirdilər [24].

Dağıstandan da minlərlə kəsbkar qazanc dalınca Şimali Azərbaycanın sənaye müəssisələrinə axışırdı. 1897-ci ildə onlar Bakı və Yelizavetpol quberniyalarındakı fəhlələrin 5 faizini təşkil edirdilər [25].

Bir tərəfdən, sənaye və nəqliyyatın işçi qüvvəsinə kəskin ehtiyacı, digər tərəfdən isə kəndlilərin kütləvi surətdə müflisləşməsi və Rusiyanın bir sıra quberniyalarında böyük əmək ordusu ehtiyatı mövcud olduğu şəraitdə, on minlərlə

kəndli oradan qazanc dalınca Şimali Azərbaycana, xüsusən də Bakı sənaye rayonuna yola düşürdülər.

Fəhlə kadrlarının formalaşmasının xüsusiyyətlərindən biri onun sıralarının Cənubi Azərbaycan kəndlilərinin nümayəndələri hesabına artması idi. Hakim təbəqə tərəfindən zəhmətkeşlərin amansız istismarı, on minlərlə kəndlinin var-yoxdan çıxması, sənayesi yenicə formalaşmağa başlayan İranın şəhərlərində iş tapmaq imkanının olmaması onları kütləvi şəkildə Cənubi Qafqaza, xüsusən də Şimali Azərbaycana kəsbkarlığa getməyə məcbur edirdi.

1897-ci ildə Bakı və Yelizavetpol quberniyaları fəhlələrinin tərkibində Cənubi Azərbaycandan olanlar 12,1 faizi təşkil edirdilər [26]. Şimali Azərbaycan, Rusiya, Gürcüstan, Ermənistan, Dağıstan və xüsusən də Cənubi Azərbaycandan olan minlərlə kəsbkar bir neçə il Bakı və Yelizavetpol quberniyalarının fabrik və zavodlarında, nəqliyyatında və digər sənaye sahələrində işlədikdən sonra burada məskən salır, fəhlə kadrlarına çevrilirdilər. Bu da Şimali Azərbaycan fəhlələrinin formalaşması prosesinə çoxmillətlilik xarakter verirdi.

Neft və digər sənaye sahələrinin, nəqliyyatın coşqun inkişafı, işçi qüvvəsi verən çoxsaylı mənbələrin mövcudluğu Şimali Azərbaycan fəhlələri sayının surətli artımına şərait yaradırdı.

1897-ci il əhali sayımının məlumatlarına görə, Bakı və Yelizavetpol quberniyalarında fəhlələrin sayı (kənd təsərrüfatı fəhlələri istisna edilməklə) 78 min nəfərə bərabər idi [27]. Bakı quberniyasında 55 minə yaxın, Yelizavetpol quberniyasında isə 23 min fəhlə çalışırdı. Lakin bu məlumatlar natamam olub, müvəqqəti fəhlələrin çoxunu, dənizçi fəhlələri və b. əhatə etmirdi.

Şimali Azərbaycan fəhlə kadrlarının formalaşmasının xüsusiyyətlərindən biri bu prosesin genişlənməsinin yüksək sürətli getməsi idi. Bakı fəhlələrinin sayı xüsusən sürətlə artırdı. 1887-1897-ci illərdə fəhlə kadrları sayının artım sürətinə görə neft sənayesi Rusiyanın dağ-mədən sənayesi sahələri içərisində birinci yeri tuturdu [28].

XIX yüzilliyin sonunda (1900-cü ildə) Şimali Azərbaycan fəhlələrinin sayı (kənd təsərrüfatı fəhlələri istisna edilməklə) 100-110 min nəfərə bərabər idi. O cümlədən hasilat və emal sənayesində tikinti və nəqliyyatda 80-90 min nəfər fəhlə çalışırdı. Ticarətdə və digər xidmət sahələrində, sənətkarlıqda muzdlu fəhlələrin, habelə qulluqçuların sayı 20 min nəfərə çatırdı [29].

XIX yüzilliyin sonuna yaxın Şimali Azərbaycanda (İrəvan bölgəsi çıxılmaqla) fəhlə və qulluqçuların ümumi sayı təxminən 162 min nəfərə (62 min nəfəri Bakıda və 97,2 min nəfəri qəzalarda) çatırdı ki, bu da əhalinin ümumi sayının 8,4 faizini təşkil edirdi. Şimali Azərbaycanda fəhlə kadrları qeyri-bərabər şəkildə yerləşirdi. Yüzilliyin sonuna yaxın 60-65 min nəfər neft sənayesi və bir sıra digər iqtisadiyyat sahəsi fəhləsini birləşdirən Bakı sənaye rayonu ən iri sənaye və fəhlə mərkəzi idi[30]. Bakı fəhlələri Şimali Azərbaycan fəhlələrinin əsas qüvvəsini və aparıcı dəstəsini təşkil edirdi. Şimali Azərbaycanda 2 min nəfər fəhlənin

çalışdığı Gədəbəy mis filizi və misəritmə sənayesi rayonu, müvafiq surətdə 3 minə qədər və 1 min nəfərədək fəhləni cəmləşdirən Nuxa və Şuşa ipək emalı sənayesi rayonları, 11,5 min nəfərdən çox fəhlənin çalışdığı balıq vətəgələri də seçilirdilər. Fəhlə kadrları dəmir yolunda (XIX yüzilliyin sonuna yaxın Şimali Azərbaycanın hüdudlarında 5-6 min nəfər dəmiryolçu fəhlə vardı), Azərbaycanın bir sıra qəzalarının kənd təsərrüfatı xammalının emalı və s. müəssisələrində də formalaşırdı.

Fəhlələrin müxtəlif dəstələrinin xüsusi çəkisi eyni deyildi. Fəhlə kadrlarının tərkibinə iri hasilat və emal sənayesi müəssisələrinin fəhlələri ilə yanaşı, xırda sənaye, sənətkarlıq və ticarət müəssisələri işçiləri və yelkənli donanma matrosları da daxil idilər. Xırda istehsalat fəhlələrinin xüsusi çəkisi xeyli yüksək idi, Qafqaz diyarı sənayesinin 1900-cü ildə keçirilmiş yoxlanış məlumatlarına görə, hər birində 15 nəfərədək işçi çalışan xırda müəssisələrdəki fəhlələr Bakı və Yelizavetpol quberniyaları emal sənayesi fəhlələrinin 35,5 faizini təşkil edirdi [31].

Fəhlə kadrlarının xüsusiyyətlərindən biri sənaye, nəqliyyat və tikinti fəhlələri içərisində qadınların xüsusi çəkisinin aşağı olması idi. Qadın əməyindən ipək emalı sənayesində və xüsusən də xidmət sahəsində nisbətən daha geniş istifadə olunurdu.

1897-ci il sayımının məlumatlarına görə, Bakı və Yelizavetpol quberniyaları fəhlələri (qulluqçular da daxil olmaqla, ancaq kənd təsərrüfatı fəhlələri istisna edilməklə) içərisində qadınlar cəmisi 8,7 faiz təşkil edirdilər, halbuki Rusiya imperiyası üzrə bu göstərici orta hesabla 32 faizə bərabər idi [32].

Şimali Azərbaycan fəhlələri içərisində uşaqların xüsusi çəkisi isə imperiya üzrə olan orta göstəricidən yüksək idi. Tam olmayan məlumatlara görə, 1897-ci ildə Bakı və Yelizavetpol quberniyalarında 15 yaşınadək uşaqlar fəhlələrin 6,5 faizini təşkil edirdi [33].

Əsrin sonuna yaxın Şimali Azərbaycan fəhlələri içərisində ən yüksək əmək qabiliyyətli 20-39 yaşlı fəhlələr kateqoriyası üstünlük təşkil edirdi. Bu da, hər şeydən əvvəl, neft və digər sənaye sahələrində ağır fiziki əməkdən geniş istifadə olunması ilə əlaqədar idi. Neft mədənləri, filiz yataqları, zavodlar və fabriklərin fəhlələri ağır istismara məruz qalaraq, tezliklə əlillərə çevrilir, bu da, öz növbəsində, onların müəssisələrdən azad edilməsinə gətirib çıxarırdı. Bir çox fəhlə tez-tez baş verən bədbəxt hadisələrin qurbanı olurdu. Bu cür şəraitdə Şimali Azərbaycanda 40 yaşından yuxarı olan fəhlələrin xüsusi çəkisi orta hesabla Rusiya üzrə olan göstəricilərdən aşağı idi.

Şimali Azərbaycan fəhlə sinfinin ən mühüm xüsusiyyətlərindən biri də onun çoxmillətli tərkibi idi. Sənaye istehsalının müxtəlif sahələrində azərbaycanlılar, ruslar, ermənilər, gürcülər, dağıstanlılar, ukraynalılar, Rusiyada yaşayan digər millət və xalqların nümayəndələri çalışırdılar. 1900-cü ildə sənayenin aparıcı sahəsində - neft sənayesində azərbaycanlı fəhlələrin xüsusi çəkisi

33,8 faiz (o cümlədən 15,8 faizi Şimali və 18 faizi Cənubi Azərbaycandan), rus fəhlələrin 19,5 faiz erməni fəhlələrin 25,3 faiz dağıstanlı fəhlələrin 13,5 faiz və qeyri fəhlələrin 7,9 faiz təşkil edirdi [34].

Azərbaycanlı fəhlələr Şimali Azərbaycanın digər istehsalat sahələrindən mis istehsalında, ipək sənayesində, bitki və heyvan məhsulları emalında, qara və günəmuzd fəhlələr içərisində sayca üstünlük təşkil edirdilər. Nəqliyyat və yükdaşıma sahəsində, habelə balıq vətəgələrində fəhlələrin çox hissəsi azərbaycanlıların payına düşürdü.

Şimali Azərbaycanda fəhlələrin xeyli hissəsini rus fəhlələri təşkil edirdi. 1900-cü ildə neft emalı və mexaniki emalatxanalarda onların xüsusi çəkisi xüsusən böyük idi. Kükürd turşusu və soda zavodlarında da fəhlələrin əksəriyyəti ruslar idi.

XIX əsrin axırlarında Azərbaycan qəzalarında (Bakı istisna olmaqla) fəhlələrin 65,7 faizini azərbaycanlılar, 14,4 faizini ermənilər, 5,4 faizini ruslar və 14,5 faizini başqa millət və xalqların nümayəndələri təşkil edirdilər [35].

Bu dövrdə Şimali Azərbaycan fəhlələri içərisində Rusiyanın 40-a yaxın millət və xalqının nümayəndələri vardı.

Fəhlələrin peşə tərkibi iqtisadiyyatın istehsalat strukturunun xüsusiyyətlərini əks etdirərək, ucuz, ixtisassız əməyin xüsusən geniş yayılması ilə fərqlənirdi. Eyni zamanda ixtisaslı fəhlələrin xüsusi çəkisi (xüsusən də orta ixtisaslı fəhlələr içərisində) tədricən artırdı.

Digər fəhlələrin peşə tərkibi onların milli mənsubiyyəti ilə bağlı idi, yüksək və orta ixtisas tələb edən peşələrdə yerli fəhlələrin sayı çox deyildi. Bu, imperiyanın müstəmləkə ucqarında yaşayan xalqların nümayəndələrindən olan fəhlələrin öz ixtisaslarını yüksəltməsini xeyli çətinləşdirən müstəmləkəçi mütləqiyyət siyasətinin nəticəsi idi.

Yüksək ixtisaslı fəhlələrin bir hissəsi (qazma ustaları, maşinistlər və onların köməkçiləri, qismən də tornaçılar, tökməçilər, dəmirçilər və b.) fəhlələrin əsas kütlələrinə nisbətən xeyli yüksək əmək-haqqı alsalar da, Şimali Azərbaycanda "fəhlə aristokratiyası" sosial təbəqə kimi yaranmadı.

İmperiya üzrə orta göstəricilərə nisbətən fəhlələrin aşağı savad göstəriciləri də çarizmin müstəmləkə siyasəti ilə bilavasitə bağlı idi. 1897-ci il sayımının məlumatına görə, savadlılar Rusiya fəhlələri içərisində 52,2 faiz, Bakı və Yelizavetpol quberniyalarında isə, hətta qara və müvəqqəti fəhlələr, balıqçılıq və kənd təsərrüfatı fəhlələri, qulluqçular nəzərə alınmaqla, 24,7 faiz təşkil edirdi [36]. Bu, əsasən, Şimali Azərbaycan kəndləri və Dağıstan aullarının, demək olar ki, başdan-başa savadsız kəsbkarlarının kütləvi axını ilə izah olunur.

Fəhlələr və onların uşaqları üçün təhsil, xüsusən də orta təhsil, demək olar ki, əlçatmaz idi. Müstəqil savadlanmaqla məşğul olan fəhlələr böyük çətinliklərlə rastlaşmalı olurdular. Sənaye rayonlarında fəhlələr üçün əlçatan olan kitabxanalar və digər mədəni-maarif müəssisələri, demək olar ki, yox idi. "Xalq mütaliələri" adlanan tədbirlər hakimiyyət orqanları tərəfindən ciddi məhdudiyyətlərlə müşayiət

edilirdi. Polisin ayıq nəzarəti altında olan bazar günü və axşam fəhlə kurslarının sayı da xeyli az idi.

Sənaye və kapital təmərküzləşməsinin güclənməsi, kapitalizmin inhisarçı inkişaf mərhələsinə keçməsi ilə əlaqədar XIX yüzilliyin sonuncu onilliyində iri kapitalist müəssisələrində fəhlələrin də təmərküzləşməsi prosesi gedirdi.

1900-cü ildə keçirilmiş yoxlamaların məlumatlarına görə, Bakı və Yelizavetpol quberniyalarının emal sənayesində fəhlələrin 32,7 faizi o dövr üçün iri sayılan, hər birinin 100-dən artıq fəhləsi olan nıüəssisələrdə, 11,5 faizi 50-dən 100-dək fəhləsi olan müəssisələrdə, 20,3 faizi 16-50 fəhləsi olan müəssisələrdə və 35,5 faizi fəhlələrinin sayı 15 nəfərədək olan müəssisələrdə çalışırdı [36]. Bakı quberniyasında fəhlələrin təmərküzləşmə göstəriciləri nisbətən daha yüksək idi. Burada qeydə alınmış fəhlələrin 4% faizi fəhlələrinin sayı 100 nəfərdən artıq olan müəssisələrdə çalışırdı.

1897-ci ildə sənayenin aparıcı sahəsində - neft hasilatı sənayesində neftçi fəhlələrin 78,6 faizi hər birində 100 nəfərdən artıq fəhləsi olan firmalarda çalışırdı. Bakı rayonu neft sənaye firmalarının 6,7 faizinin payına fəhlələrin 49,4 faizi düşürdü. Təmərküzləşmə səviyyəsinə görə, Bakı neftçıxarma sənayesi Rusiyada ilk yerlərdən birini tuturdu.

1878-1901-ci illərdə Bakı metal emalı sənayesində orta hesabla bir müəssisəyə düşən fəhlələrin sayı, demək olar ki, 15 dəfə artmış və təxminən 108 nəfərə çatmışdı [37].

Bəzi digər sənaye sahələrində olduğu kimi, neft sənayesində də müxtəlifprofilli müəssisələr çox hallarda eyni firma və ya kompaniyaların əlində cəmləşərək, əslində şöbə və ya sex vəziyyətinə düşürdü. Eyni zamanda eyni firma və ya kompaniyanın fəhlələri onlann bəzən bir-birindən uzaqda yerləşən müxtəlif müəssisələrində çalışırdı. Zaman keçdikcə belə firmaların müxtəlif müəssisələrində çalışan, vəziyyətlərin eyni xüsusiyyətləri, eyni bir sahibkara qarşı mübarizənin mənafeyi ilə birləşdirilən fəhlələri bir-biri ilə əlaqə yaradır, birgə çıxışlar təşkil edir və i.a. Bununla belə eyni firmanın müxtəlif mədən, zavod və emalatxanaları fəhlələrinin pərakəndəliyi fəhlə kütlələrinin sahibkarlara və çar hökumətinə qarşı mübarizə üçün birləşməsi yolunda maneələr yaradırdı.

Fəhlələrin bu cür qeyri-mütəşəkkilliyi dəniz donanmasında özünü daha qabarıq göstərirdi. Burada eyni firmanın müxtəlif gəmilərindəki matroslar bir-biri ilə, demək olar ki, təmasa girmir və bunlar arasında əlaqələrin yaradılması böyük səylər tələb edirdi.

Yelizavetpol quberniyasında mis-filiz və misəritmə, habelə ipək sənayesi fəhlələrin yüksək təmərküzləşmə səviyyəsi ilə fərqlənirdi.

Eyni zamanda Şimali Azərbaycanda elə sənaye sahələri (şərabçılıq, araqçəkmə, pambıqtəmizləmə və b.) vardı ki, onlarda fəhlələrin təmərküzləşmə göstəriciləri çox aşağı səviyyədə idi. Ticarət sahəsinin fəhlələri və təbii ki, qulluqçular arasında pərakəndəlik və qeyri-mütəşəkkillik hökm sürürdü.

Buna baxmayaraq, fəhlə kütlələrinin iri müəssisələrdə cəmləşməsi Şimali Azərbaycan fəhlələrin ön cərgəsinin, neft, metal emalı mis, ipək və s. bu kimi sənaye sahələrində onun qabaqcıl təbəqələrinin formalaşması üçün mütərəqqi əhəmiyyətə malik idi.

Şimali Azərbaycanda daimi və fəhlə əsilli kadrların yaranması yerli fəhlə kadrlarının formalaşması prosesində xüsusən mühüm rol oynayırdı. Bakı sənaye rayonunda kəsbkarların torpaqla, kənd təsərrüfatı ilə əlaqələri Şimali Azərbaycanın digər rayonlarına nisbətən sürətlə zəifləyirdi. XIX yüzilliyin sonuna yaxın yayda buradan tarla işlərinə gedən fəhlələrin sayı ilbəil azalırdı.

Ancaq Şimali Azərbaycan fəhlələrinin torpaqla əlaqələrinin zəifləməsi prosesi bütövlükdə götürüldükdə tədricən gedir, çox vaxt bir neçə fəhlə nəslinin ömrünü əhatə edirdi. Ölkənin yerli əhalisinin nümayəndələrindən olan fəhlələrin xeyli hissəsi kəndlərlə sıx surətdə bağlı idi. Çox vaxt kəndlərdə torpaq və təsərrüfatla birlikdə onların ailələri də qalırdı.

Ağır iş və həyat şəraiti də fəhlələrin kənd təsərrüfatı ilə əlaqələrinin vəziyyətinə müəyyən təsir göstərirdi. Bu şərait üzündən (habelə kəndlərdə pay torpaqlarının saxlanılması ilə əlaqədar olaraq) fəhlələrin bir çoxu evlənməmiş qalır və yaxud da kənd yerlərində qalmış ailələrindən ayrılıqda, şəhərdə tək yaşayırdılar.

80-ci və xüsusən də 90-cı illərdə Şimali Azərbaycanın bir sıra sənaye sahələrində və nəqliyyatında fəhlə kadrları formalaşırdı. Məsələn, 1899-cu ildə keçirilmiş yoxlamanın nəticələrinə görə, Bakının Balaxanı-Sabunçu rayonunda qeydə alınmış 18 min nəfərdən çox fəhlənin 61,2 faizi bir ildən çox, 31 faizi 3 il və daha artıq, 17,4 faizi isə 5 ildən yuxarı mədənlərdə işləyirdi [38]. Bununla yanaşı nəzərə almaq lazımdır ki, bu fəhlələrin bir hissəsi əvvəllər digər sənaye müəssisələrində çalışmışdılar. Tökməçilər, yağlayıcılar, dülgərlər, çilingərlər, xarratlar, dartayçılar, dəmirçilər, açarçılar, maşinistlər və onların köməkçiləri, qazma ustaları və onların köməkçiləri arasında fəhlə əsilli kadrlarının xüsusi çəkisi nisbətən daha yüksək idi. Cənubi Qafqaz dəmir yolunda da xeyli fəhlə çalışırdı.

Simali Azərbaycan sənayesi və nəqliyyatına gələn kəsbkar kəndlilərin fəhləyə çevrilməsinin XIX yüzilliyin 70-80-ci illərindəkinə nisbətən 90-cı illərində xeyli sürətlə getməsi daimi fəhlə kadrlarının formalaşması üçün mühüm əhəmiyyətə malik idi.

Əgər Şimali Azərbaycan sənayesi və nəqliyyatının bəzi sahələrində böyük istehsalat stajına malik fəhlə kadrlarının yaranması prosesi daha yüksək sürətlə gedirdisə, digər sahələrdə bu proses xeyli ləng gedirdi. Fəhlə axıcılığı da mənfi sosial-siyasi nəticələrə gətirib çıxarırdı. Bu, xüsusən yeyinti sənayesində, dəniz nəqliyyatında, ticarətdə, yük daşınmasında və s.-də özünü daha kəskin şəkildə göstərirdi.

Eyni zamanda fəhlə axıcılığı barədə məlumatların təhlili göstərir ki, əksər hallarda bu axıcılıq fəhlələrin eyni sənaye mərkəzi hüdudları daxilində bir müəssisədən digərinə keçməsi şəklində təzahür edirdi.

Beləliklə, XIX yüzilliyin 70-90-cı illərində Şimali Azərbaycanda intensiv surətdə fəhlə sinfinin formalaşması prosesi gedir, alət və vasitələrdən məhrum olan, əksər hissəsi kənd təsərrüfatı ilə əlaqələrini kəsmiş və ya bu əlaqələri zəiflətmiş, iri müəssisələrdə cəmlənən, uzun illər boyu sənaye və nəqliyyatda çalışan sənaye fəhlə kadrları yaranırdı.

## § 3. AZƏRBAYCAN MİLLƏTİNİN TƏŞƏKKÜLÜ

XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanda kapitalizmin inkişafı, iqtisadi və mədəni mərkəzlərin yüksəlişi, ümumi bazarın yaranması, cəmiyyətin strukturunun dəyişməsi, milli burjuaziyasının və fəhlə sinfinin formalaşması - bütün bu proseslər Azərbaycan millətinin təşəkkülünün ilkin obyektiv şərtləri oldu.

Digər millətlər kimi, insanların sabit, tarixi birliyi kimi formalaşmış Azərbaycan milləti də feodal pərakəndəliyinin ləğv edilməsi prosesində, iqtisadi birliklə dil, ərazi, mədəniyyət, şüur və psixoloji birliyin qovuşması əsasında meydana gəlir və inkişaf edirdi.

İqtisadi əlaqələrin möhkəmlənməsinin vacib şərti Azərbaycan millətinin ərazi birliyi idi. Uzun əsrlər boyu Azərbaycan xalqı şimalda Böyük Qafqaz dağlarından, cənubda Xəzər dənizindən, qərbdən Ermənistan və Gürcüstana qədər olan ərazidə məskunlaşmışdır. Yadelli işğalçılara qarşı uzunmüddətli mübarizənin gedişində Azərbaycan xalqı öz dövlətçiliyini, öz ərazi birliyini yaratmışdı.

Bununla belə, Azərbaycan ərazisi iki dövlət - Rusiya və İran arasında bölüşdürüldüyündən, Azərbaycan millətinin təşəkkülü prosesi özünəməxsus şəraitdə gedirdi.

Şimali Azərbaycanın Rusiya tərəfindən istilası ilə ölkədəki feodal ara müharibələrinə son qoyulsa da, ərazi bütövlüyünə, yalnız azərbaycanlıların müxtəlif dövlət birliklərinin tərkibində olması deyil, həm də Şimali Azərbaycanın Rusiya imperiyasının daxilində müstəqil birləşdirici təsərrüfat - inzibati və siyasi vahid kimi mövcud olmaması mane olurdu.

XIX yüzilliyin ikinci yarısı Şimali Azərbaycanda həm sənətkarlıq və sənaye, həm də kənd təsərrüfatı sahələrində natural istehsalın ictimai istehsala çevrildiyi bir dövr idi. Kapitalizmin inkişafı nəticəsində Şimali Azərbaycan iqtisadiyyatının dünya bazarına cəlb edilməsi onun iqtisadi birliyinin təşəkkülünü şərtləndirirdi.

Bu cəhətdən Bakı çox böyük əhəmiyyət kəsb edirdi. Neft və onunla bağlı digər sənaye və ticarət sahələrinin yüksəlişi, mədəniyyətin inkişafı şəhərin görkəmini və orada yaşayan əhalinin tərkibini dəyişdirdi. Bakı çox böyük kapitalist şəhəri, Azərbaycan millətinin təşəkkülünün başlıca mərkəzi oldu.

Dəmir yollarının çəkilişi, dəniz nəqliyyatının inkişafı, rabitə yollarının yaxşılaşdırılması və s. feodal münasibətlərinin dağılmasına, kənd təsərrüfatı sahələrinin ixtisaslaşmasına, bazar üçün istehsalın genişlənməsinə yardım göstərdi ki, bu da əmtəə istehsalının və kapitalist münasibətlərinin inkişafını sürətləndirdi [39].

Bu dövrdə iri kapital sahibləri olan azərbaycanlılar bir sıra ən mühüm təsərrüfat sahələrinin inkişafında müəyyənedici rol oynayırdılar. Xəzər dənizi nəqliyyatında, ipək və tütün sənayesində, müxtəlif liflərin emalında, çəltiktəmizləmə, kərpic, mexaniki istehsalda və s. sahələrdə milli kapitalın xüsusi çəkisi yüksək idi. Bundan başqa, Azərbaycan kapitalistləri torpaq sahələri əldə etməyə, yaşayış binaları tikintisinə xeyli vəsait sərf edirdilər.

Formalaşmaqda olan Azərbaycan millətinin aparıcı qüvvəsinin əsasını Bakıda və Şimali Azərbaycanın digər şəhərlərində olan sənaye iri sənətkar müəssisələrinin, gəmilərin sahibləri, iri ev sahibləri, tacirlər ziyalılar və b. təşkil edirdi.

Məlum olduğu kimi, Şimali Azərbaycan aqrar ölkə idi və onun əhalisinin böyük hissəsi kənd təsərrüfatı ilə məşğul olurdu. Buna görə də azərbaycanlıların burjua milləti kimi təşəkkülü heç də yalnız yeni cəmiyyətin əsas siniflərinin - Azərbaycan burjuaziyası və fəhlələrinin başlıca mənbəyi olan Bakı ilə və həmçinin burjua cəmiyyətinin təbəqələrinin formalaşdığı qəzalardakı sənaye mərkəzləri ilə deyil, həm də yeni, intişar edən kənd təsərrüfatı istehsalı ilə də bağlı idi.

XIX yüzilliyin ikinci yarısında kənd təsərrüfatı istehsalının inkişafındakı istiqamətlərin özündə burjua cəmiyyətlərinə xas olan meyillər üzə çıxır, təsərrüfatın kapitalizmə qədərki formalarının kapitalist formasına keçməsi baş verir, doğulmaqda olan kənd burjuaziyası nümayəndələrinin fəaliyyəti genişlənirdi. Bu dövrdə Şimali Azərbaycanın iqtisadiyyatı üçün belə bir hal xarakterik idi ki, onun kənd təsərrüfatının əsas sahələri - pambıqçılıq, ipəkçilik, tütünçülük bütövlükdə, taxılçılıq, bağçılıq, heyvandarlıq (nisbətən) az dərəcədə kapitalist istehsalı dövriyyəsinə cəlb olunmuşdu. Bu sahələrin məhsullarının getdikcə qüvvətlənməkdə olan kapitalist-əmtəə xarakteri geniş yayılmış amilə çevrilirdi.

Əmtəə-kapitalist istehsalının, ticarət əkinçiliyinin inkişafı feodal münasibətlərini zəiflədir və qəzalar arasında sıx iqtisadi əlaqələrin yaranmasına, kənd təsərrüfatında kapitalizmin inkişafına şərait yaradırdı. Bu inkişaf kəndlilərin təbəqələşməsi ilə müşayiət olunur, kəndlilərin əsrlik ətalətini dağıdır, kəndlilikdən çıxma ilə müşayiət edilir, kəndli kütlələrini hərəkətə gətirirdi. Yeni təbəqələrin əsas hissəsinin - qolçomaqlar, xırda burjua, sələmçi-möhtəkirlər, kənd dükançıları, öz təsərrüfatlarını kapitalist qaydaları əsasında quran bəylər təşkil edən kənd burjuaziyası və istehsal vasitələrindən məhrum olmuş, bununla əlaqədar qazanc dalınca getməyə və yaxud muzdla öz həmkəndliləri olan varlılara işləməyə məcbur olan muzdurlar, kənd fəhlələrinin yaranması baş verirdi ki, bu da əkinçilik kapitalizminin göstəricisi idi. Azlıq təşkil edən varlıların təsərrüfatının inkişafı, minlərlə kəndlinin müflisləşməsi və muzdurların sırasına keçməsi - Azərbaycan kəndinin kapitalist təkamülünün mahiyyəti belə idi.

Beləliklə, XIX yüzilliyin sonunda əmtəə-pul münasibətlərini intensiv inkişafı nəticəsində Azərbaycan kəndində qapalılığın köhnə dayaqları dağılır, daxili əlaqələr yaranır və möhkəmlənir, kənddə keyfiyyətcə yeni təbəqələr - kənd

burjuaziyası və fəhlələri meydana gəlirdi. Kəndin bütün ölkə ilə daimi iqtisadi əlaqələrə cəlb edilməsi Azərbaycan millətinin təşəkkülü prosesinin ümumi xarakter kəsb etməsini göstərirdi.

Azərbaycan millətinin təşəkkülü milləti xarakterizə edən bütün əlamətlərin inkişafında və möhkəmlənməsində ifadə olunurdu. Azərbaycan dili insanların ünsiyyət vasitəsi kimi, ümummilli dil idi. Yadelli işğalçılara qarşı çoxəsrlik mübarizəyə, assimilyasiya siyasətinə baxmayaraq, Azərbaycan xalqı öz dilini qoruyub saxlaya bildi. Bu dildə onun Nəsimi, Xətayi, Füzuli, Vaqif və b. dünya ədəbiyyatına şah əsərlər bəxş etmişlər.

Feodal qapalılığının aradan qalxması, iqtisadi və mədəni mərkəzlərin yaranması, əhalinin sosial-iqtisadi fəallığının artması, ölkənin ayrı-ayrı rayonları arasında iqtisadi və mədəni əlaqələrin güclənməsi Azərbaycan milli dilinin inkişafı üçün şərait yaradırdı. Azərbaycan dilində ilk qəzet olan "Əkinçi"nin nəşri, mətbuatın, kitab nəşrinin daha da inkişafı, Azərbaycan ədəbiyyatının M.F.Axundov kimi nəhənglərinin pyeslərində əks olunan ədəbiyyatda demokratik cərəyanın formalaşması kimi amillər ədəbi dillə xalq danışıq dilinin yaxınlaşmasına yardım etmiş və Azərbaycan millətinin təşəkkülünün ilk mərhələsində milli dilin inkişafına təkan vermişlər.

Azərbaycan dilinin lüğət tərkibi getdikcə zənginləşir və bu dil ədəbiyyatda, elmdə, məişətdə və təsərrüfat həyatında ümummilli və vahid dil olurdu. Dildə bu təkamülün əsası iqtisadi birlik, milli bazarın tələbatı əsasında insanların birliyinin möhkəmlənməsi idi. Millətin mühüm əlaməti milli mədəniyyətin, şüur və psixologiyanın spesifik, özünəməxsus ümummilliyi idi. Milli mədəniyyətin özünəməxsusluğu Azərbaycan xalqının vərdişlərində, ənənələrində, məişətində əks olunurdu. Xalqdan miras qalmış keyfiyyətlər ümummilli xarakter daşıyırdı. Azərbaycan millətinə xalqdan irsi olaraq əməksevərlik, azadlıqsevərlik, mərdlik keçmişdi. Azərbaycanlıların milli xarakterində qonaqpərvərlik, böyüklərə hörmət, xeyirxahlıq, yoldaşlığa və dostluğa sədaqət özünü aydın göstərirdi.

Azərbaycan ədəbiyyatının M.F.Axundov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev. N.Vəzirov, H.Zərdabi, N.Nərimanov və b. bu kimi bir çox görkəmli nümayəndəsi mədəniyyəti yeni ideya məzmunu ilə zənginləşdirir, demokratik istiqaməti inkişaf etdirirdilər. Onların ədəbi və elmi publisistik fəaliyyəti, Azərbaycan teatrının və mədəni-maarif müəssisələrinin yaranması, maarifdə, incəsənətdə, musiqidə, xalq yaradıcılığında yeni əlamətlərin meydana gəlməsi, digər xalqların mədəniyyətinə geniş maraq Azərbaycan xalqının oyanmaqda olan milli şüurunu səciyyələndirən əlamətlər idi.

Burjuaziyanın bir çox liberal baxışlı nümayəndələri də Azərbaycan xalqını maarifə və elmə çağırırdılar. Bakıda çıxan "Kaspi" qəzetinin ətrafında Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov kimi maarifpərvər - liberal burjua xadimləri toplaşmışdılar.

Məlumdur ki, Rusiyada çar hökuməti tərəfindən "Azərbaycan" və "azərbaycanlı" terminlərinin işlədilməsi vətəndaşlıq hüququ qazanmamışdır. Azərbaycanlıları müsəlman, türk, tatar adlandırırdılar. Lakin Azərbaycan ideyası Azərbaycan ziyalıları tərəfindən yaşadılırdı.

İlk dəfə M.F.Axundovun işlətdiyi "millət" anlayışının ədəbiyyatda və mətbuatda meydana çıxması XIX yüzilliyin ikinci yarısına aiddir. XIX yüzilliyin 80-cı illərində nəşr olunan və öz səhifələrində Azərbaycan milliyyəti ideyasını geniş təbliğ edən "Kəşkül" qəzeti isə ilk dəfə "Azərbaycan milləti" anlayışını işlətdi [40].

1891-ci ildə "Kaspi" qəzetində Məhəmməd ağa Şaxtaxtlı "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı" məqaləsində bu türkdilli millətin azərbaycanlı olduğunu bildirmişdir [41].

1892-ci ildə Kamal Ünsizadə xalqımızda milli şüuru oyatmaq məqsədi ilə "Azərbaycan" adlı qəzet çıxarmağa təşəbbüs göstərmiş, ancaq çar hökuməti buna icazə verməmişdi [42].

Bütün bunlar maarifçi ziyalılarımızın azərbaycanlılıq ideyasını yaşatdığını aydın göstərir. XX əsrin əvvəllərində bu ideyanı siyasi doktrina şəklində həyata və siyasi səhnəyə M.Ə.Rəsulzadə də çıxartmışdır.

Beləliklə, XIX yüzilliyin ikinci yarısında intensiv şəkildə azərbaycanlıların millət kimi formalaşması prosesi gedirdi. Bütün başqa millətlər kimi, təşəkkül tapmaqda olan Azərbaycan milləti bütün sinifləri, sosial qruplar və zümrələr birləşdirilirdi.

Azərbaycan millətinin təşəkkülü prosesinin intişarını Şimali Azərbaycanın müstəmləkə vəziyyəti məhdudlaşdırırdı. Qəzalarda bəziləri kapitalist inkişafı axınına cəlb etdiyi halda, digərlərində, ucqarlarda yerləşən qəzalarda kapitalizməqədərki münasibətlər hələ də qalırdı. Rusiyanı xalqlar həbsxanasına çevirən, qeyri-rus xalqlarına qarşı amansız istismar siyasəti yeridən çarizm ucqarlarda, o cümlədən Şimali Azərbaycanda feodal münasibətlərini qoruyub saxlamağa çalışır, ərazidə sənaye və mədəni mərkəzlərin yaranmasına, ümumiyyətlə təhsilin, xüsusən ana dilində yayılmasını ləngidirdi ki, bu da Şimali Azərbaycanda məhsuldar qüvvələrin, daxili iqtisadi, siyasi və mədəni əlaqələrin geniş inkişafına mane olurdu.

*VIII FƏSİL*

# SOSİAL-SİYASİ VƏZİYYƏT, FƏHLƏ HƏRƏKATININ BAŞLANMASI

## § 1. FƏHLƏLƏRİN VƏZİYYƏTİ

Çar Rusiyasında, xüsusilə onun müstəmləkə ucqarlarında fəhlələrin vəziyyəti hədsiz dərəcədə ağır idi. Bakının və Azərbaycan qəzalarının sənaye müəssisələrində xüsusilə uzunmüddətli iş günü mövcud idi. XIX yüzilliyin 70-ci illərində Bakının neft mədənlərində iş günü 14 saata qədər uzanırdı [1]. Nəticədə nəinki başqa ehtiyaclar, heç istirahət üçün də lazımi vaxt qalmırdı [2].

Bakının digər sənaye müəssisələrində və dəmir yolunda isə iş günü, əlavə işlər də nəzərə alınmaqla 12 və daha artıq saatı təşkil edirdi [3]. Bir çox mexaniki emalatxanalarda iş günü 14 saata çatırdı [4]. Nuxa və Şuşa qəzalarının ipəksarıma fabriklərində gün çıxandan gün batana qədər işləyirdilər.

Çar hökuməti tərəfindən 1897-ci il iyunun 2-də Peterburq fəhlələrinin təzyiqi ilə qəbul edilmiş "Fabrik-zavod sənayesi müəssisələrində iş gününün uzunluğu və bölüşdürülməsi haqqında" qanunla iş günü 11,5 saat müəyyənləşdirilmişdi. Lakin ölkənin digər əyalətlərində olduğu kimi, Azərbaycanın sənaye və nəqliyyat müəssisələrinin sahibləri daha uzun iş gününü saxlamaq üçün müxtəlif vasitələrə əl atırdılar [5]. Azərbaycandakı müəssisələrin əksəriyyətində bu qanun nəşr olunduqdan sonra da fəhlələr 12 saat və daha çox çalışırdılar [6].

Azərbaycan fəhlələrinin əmək şəraiti də dözülməz idi. XIX yüzilliyin sonlarında iki dəfə Bakıda olmuş A.M.Qorki yazırdı: "Neft mədənləri mənim xatirimdə dəhşətli cəhənnəmin məharətlə çəkilmiş mənzərəsi kimi qalmışdı".

Neft hasilatında ən ağır peşələrdən biri dartaycıların əməyi idi. Onlar bütün gün ərzində uzun iri konusvari metal qabı (ona jelonka deyirdilər) quyuya buraxmalı, onun qalxmasını izləməli, çıxarılmış nefti boşaltmalı idilər. Dartaycılar bir dəqiqə də olsun öz işlərindən ayrıla bilməzdilər. Hədsiz dərəcədə ağır və yeknəsəq işin nəticəsində onlar tezliklə əlilə çevrilirdilər. Açarçıların, həmçinin qara fəhlələrin işi də çox ağır idi.

Neftayırma və kimya müəssisələrində olan iş şəraiti fəhlələrin sağlamlığı üçün xüsusilə ziyanlı idi.

Tütünçü fəhlələr havasız kiçik binalarda işləyirdilər. Burada atmosferin havası gözləri və ciyərləri yandıran ağır tütün tozu ilə hopmuş olurdu.

Azərbaycanın sənaye müəssisələrində və nəqliyyatda əmək mühafizəsi, demək olar ki, yox dərəcəsində idi, bədbəxt hadisələr isə kütləvi hal almışdı. 1899-1900-cü illərdə Bakının neft mədənlərində 2047 bədbəxt hadisə baş vermişdi ki, bu zaman 20098 fəhlə xəsarət almış, 107 nəfər isə ölmüşdü [7]. Balaxanı

xəstəxanasının məlumatına görə, yalnız 1894-cü ilin ortalarından 1896-cı ilin ortalarınadək fəhlələr arasında 4460 şikəstolma halı qeydə alınmışdı [8]. Neft sənayesində ölümlə nəticələnmiş bədbəxt hadisələrin sayı Rusiyanın mədən-zavod sənayesindən orta hesabla 2,3 dəfə yüksək idi.

Yüksək gəlir əldə edən neft sənayeçiləri - kapitalistlər əməyin mühafizəsinə və yanğın əleyhinə tədbirlərə vəsait sərf etməkdən boyun qaçırırdılar. Hətta yüzilliyin sonunda Bakının mədən-zavod rayonlarında yanğınsöndürən dəstələr yox idi.

Hədsiz dərəcədə ağır əmək və həyat şəraiti, tibbi-sanitariya yardımının kifayət qədər olmaması və yaxud tam yoxluğu fəhlələr arasında peşə xəstəliklərinin (yatalaq, vərəm və s.) yayılmasına səbəb olurdu.

Bütün bunların nəticəsində Azərbaycan fəhlələri arasında ölüm halları çox yüksək idi. On minlərlə fəhlə vaxtından əvvəl həyatdan köçür və yaxud əlilə çevrilirdi.

Azərbaycan fəhlələri özlərinin ağır əməyi müqabilində cüzi əmək haqqı alırdılar. Aşağı ixtisaslı fəhlələrin əməyinə xüsusilə az qiymət verilirdi. Aylıq əmək haqqı alan ixtisaslı fəhlələrdən fərqli olaraq, mövsümi və qara fəhlələrə gündəlik haqq verilirdi.

1893-cü ildə neft mədənlərinin ixtisassız fəhlələri il ərzində orta hesabla 226 manat, ayda 20 manat qazandıqları halda, ixtisaslı fəhlələr müvafiq olaraq 556 manat, yaxud ayda 50 manat qazanırdılar [9]. “Lakin belə əmək haqqını neftçi fəhlələrin ancaq təxminən 20 faizi alırdı. Emal sənayesi müəssisələrində əmək haqqı daha aşağı səviyyədə idi. Məsələn, ipəksarıma sahəsində fəhlələr gündə 40-75 qəp. qazanırdılar [10]. Bakı quberniyasındakı kərpic zavodlarında işləyən fəhlələrin orta gündəlik əmək haqqı 40 qəp. təşkil edirdi [11]. Bakı vətəgələrində fəhlələr ayda 6-7 man. və bir qədər çörək və ət alırdılar. Ovlanmış balıqla və ondan hazırlanmış ərzaqla qidalanmaq yüksək cərimə edilmək hədəsi ilə qadağan edilirdi [12].

Azərbaycan fəhlələrinin əmək haqlarının ödənilməsində qeyri-bərabər müstəmləkə prinsipi hökm sürürdü. Əmək haqqı çox vaxt milli mənsubiyyətlə bağlı olurdu. Belə ki, azərbaycanlı fəhlələr (xüsusilə Cənubi Azərbaycandan olanlar) eyni işə görə başqa millətlərə nisbətən az əmək haqqı alırdılar. Bu, çox vaxt kapitalistlər tərəfindən fəhlələr arasında milli təfriqə salmaq məqsədilə edilirdi. Qadın və uşaqların əmək haqqı xüsusilə aşağı idi. Onlar kişilərlə eyni dərəcədə işləmələrinə baxmayaraq, 20-50 faiz az əmək haqqı alırdılar. İpəksarıma fabriklərində uşaqlar üzücü əmək günü müqabilində 7-9 qəp. əldə edirdilər.

Fəhlələrin əmək haqqını hər vasitə ilə kəsməyə çalışan kapitalistlər cərimə sistemini geniş tətbiq edirdilər. Rusiya fəhlələrinin 1886-cı ildə qazandıqları qanun Azərbaycan müəssisələrinin bir hissəsində yalnız 1899-cu ildə həyata kcçirilməyə başlandı [13]. Lakin bundan sonra da Azərbaycanın bir çox müəssisələrində “cəza cədvəlləri” işə gəlməməyə və yaxud gecikməyə, iş vaxtı danışmağa, lazımsız

olaraq bir yerdən başqa yerə getməyə, avaraçılıq və materialları korlamağa görə fəhlələri cərimə etməyi nəzərdə tuturdu. Sonuncu hallarda kapitalistlər cərimə ilə yanaşı, fəhlələri vurulmuş ziyanı ödəməyə də məcbur edirdilər [14]. Bir çox müəssisə sahibləri çar qanunlarının hətta çox məhdud olan tələblərindən yan keçərək, cərimə pullarını gizlədir və mənimsəyir, fəhlələrə haqq-hesab kitabçaları verməkdən boyun qaçırırdılar [15].

Azərbaycan fəhlələrinin mənzil şəraiti də hədsiz dərəcədə ağır idi. Bakının mədən-zavod rayonları ərazisində, balıq vətəgələrində, Gədəbəy misəritmə zavodunda və bir çox başqa müəssisələrdə fəhlələrin mənzilləri kazarmalardan, ailəli fəhlələrin bir hissəsinin kirayə etdiyi daxmalardan, bəzən isə sadəcə olaraq yerüstü damlardan ibarət idi. Neftçi fəhlələrin mənzil şəraiti xüsusilə daha pis idi. Onların çoxunun, yaşadığı kazarmaları xarakterizə edən M.Qorki yazırd: "Buruqların xaosu arasında tarixəqədərki insanların mənzillərinə çox oxşayan, yonulmamış sarımtıl və boz daşlardan tələsik tikilmis alçaq fəhlə kazarmaları yerə yapışmışdı" [16]. Kazarmaların əksəriyyətində pəncərə yox idi.

Kiçik neftçıxarma şirkətləri və qazma üzrə podratçı fəhlələrin mənzil şəraiti xüsusilə ağır idi. Hətta kazarmalardan istifadə etmək imkanından məhrum olan bu fəhlələrin əksəriyyəti buruqlarda ocaqxanalarda məskən salmağa, özlərinə yer damı qazmağa, yayda isə yerdə yatmağa məcbur idilər [17].

Dözülməz mənzil şəraiti fəhlələrin sağlamlığına ağır təsir göstərirdi. Darısqallıq və natəmizliyin nəticəsi olan kütləvi xəstəliklər minlərlə fəhlənin həyatını məhv edirdi. H.Zərdabinin yazdığı kimi, "fəhlə mənzilləri... o dərəcədə yararsızdır ki, onları ölüm mənbəyi adlandırmaq olar... Bu mənzillərdə hər min nəfərə ildə 100 ölüm hadisəsi düşür" [18].

Fəhlələrin əmək haqqının xeyli hissəsini mənzil xərcləri təşkil edirdi. Mənzil kirayəsi Bakıda xüsusilə yüksək idi. O, ölkənin digər sənaye mərkəzlərində bu sahədəki vəziyyəti xeyli ötüb keçirdi. 90-cı illərin ortalarında Bakı fəhlələri ən rahatsız və acınacaqlı vəziyyətdə olan otağa belə öz orta əmək haqqının 20 faizini verməyə məcbur idilər. Əmək haqqına əlavə verilən "mənzil pulları"nı fəhlələrin çox az hissəsi alırdı. Fəhlələr əksər hallarda yemək hazırlamaq üçün istifadə etdikləri neft və mazuta, mənzillərin qızdırılmasına və suya görə də haqq ödəməyə məcbur idilər.

Bir çox illər ərzində neft sənayeçiləri fəhlə qəsəbələrinin tikilməsi haqqında məsələni müzakirə etməkdən belə imtina edirdilər. Yalnız 1897-ci ildə vəba epidemiyası ilə əlaqədar onlar çar hökuməti qarşısında fəhlə qəsəbələrinin tikilməsi üçün torpaq sahələri ayırmaq haqqında məsələ qaldırdılar. Lakin bu məsələ həll edilmədi.

Cüzi əmək haqqı, ağır, mənzil şəraiti fəhlələrin məişətini dözülməz edirdi. Onlardan bir çoxu, xüsusilə ailəlilər yarımcan həyata məhkum edilmişdilər. Çar hökumət nümayəndələrinin etiraf etdiklərinə görə, neftayırma zavodlarının ailəli fəhlələri "çox çətinliklə dolanırdılar, qara fəhlələr isə bir çox zəruri şeylərdən özlərini məhrumetməyə məcbur olurdular" [19] Fəhlələrin məruz qaldıqları amansız istismar

onların siyasi hüquqsuzluğu, çarizmin və sahibkarların zülmü, müəssisələrdə hökm sürən polis rejimi ilə çulğalaşırdı, Azərbaycanda fəhlələrin siyasi hüquqsuzluğu, çarizmin müstəmləkə siyasəti ilə daha da dərinləşirdi.

Hətta çar qanunlarının tələblərini pozan kapitalistlər tez-tez fəhlələri vaxtından əvvəl işdən azad edir, müvəqqəti fəhlələri daimi işlə təmin etməkdən imtina edirdilər. Cənubi Qafqaz dəmir yolunun müdiriyyəti fəhlələri işdən çıxarmağı asanlaşdırmaq üçün işə daxil olarkən iki ərizə verməyi tələb edirdi. Onlardan birində "əgər mən depoda artıq olaramsa, məni işdən xəbərdarlıqsız azad etmənizi xahiş edirəm. Buna görə mənim tərəfimdən etiraz olmayacaq" sözləri, digərində isə "cənab rəis, xidməti davam etdirmək istəmədiyimdən məni azad etmənizi xahiş edirəm" sözləri yazılırdı [20].

Fəhlələrin "dikbaşlığa", "tabe olmamağa", "təbliğata" və s. görə işdən çıxarılması adi hal olmuşdu. Polis tərəfindən inqilabi fəaliyyətə görə günahlandırılan fəhlələr amansız təqib edilir və dərhal işdən qovulurdular.

Fəhlələri itaətdə saxlamaq üçün sahibkarların bəziləri silahlı dəstələr (qoçular və s.) yaradırdılar. Çar hakimiyyət orqanları əmək və kapital arasındakı bütün münaqişələrdə sahibkarların tərəfini saxlayırdı. Fəhlələrin istismara qarşı və öz insani hüquqları uğrundakı çıxışlarına qarşı mübarizədə çarizm polis təqiblərindən istiadə edirdi. Xəfiyyələrin saxlanılmasına külli miqdarda vəsait xərclənirdi. 1899-cu ildə II Nikolay sənaye rayonlarında polis nəzarətini gücləndirmək barədə sərəncam verdi. Belə rayonlarda polis ştatları artırılırdı. "Müəssisələrdə qayda-qanunu qorumaq", "fəhlələri qiyamlardan çəkindirmək" və s. polisin vəzifələrinə daxil idi [21].

Hələ 90-cı illərin əvvəllərində çar hökuməti şəhərin mədən rayonlarında fəhlələrə nəzarət etmək vəzifəsi həvalə edilmiş Sabunçu polismeysterliyini yaratdı. Bu rayonda polisin saxlanılmasına sərf olunan xərcləri neft sənayeçiləri qurultayı şurası öz üzərinə götürdü [22].

1899-cu ildə Bakı quberniyasında yaradılmış fabrik müfəttişliyi də əsasən kapitalistlərin tərəfində çıxış edirdi. Əmək qanunlarınm ayrı-ayrı bəndlərinin pozulmasına görə sahibkarlara yalnız təsadüfi iradlar göstərməklə kifayətlənən müfəttişlik fəhlələrin fəallığını məhdudlaşdırmağa, onların çıxışlarına yol verməməyə, münaqişələrin sülh yolu ilə həll olunmasına çalışırdı.

Çar hökuməti orqanları, fabrik müfəttişliyi və mədən nəzarəti azərbaycanlı fəhlələrlə xüsusilə qəddar rəftar edirdilər. Onlann şikayət və xahişləri adətən rədd olunurdu. Ucqarlarda milli kadrlara belə münasibət mütləqiyyətin müstəmləkə siyasətinin nəticəsi idi

Fəhlələr şəhər özünüidarə orqanlarına seçkilərdə iştirak etmək hüququndan məhrum idilər. Azərbaycanın Bakı və digər dumalarına seçilənlərin arasında fəhlələr yox idi.

Rusiyanın hər yerində olduğu kimi, Azərbaycanda da çar hökuməti fəhlə təşkilatlarını və çıxışlarını amansız şəkildə təqib edirdi. Mövcud mürtəce qanunçuluqla kifayətlənməyən çar hökuməti Bakı fəhlələrinə qarşı polis və jandarmların terror aktı

ilə fərqlənən əlahiddə tədbirlərdən geniş istifadə edirdi. Bir çox qabaqcıl fəhlələr "qayda-qanunu qorumaq" adı ilə, daha doğrusu, adi hüquq normaları gözlənilmədən həbs edilirdi.

## § 2. FƏHLƏ HƏRƏKATININ İLK ADDIMLARI

Ağır həyat və əmək şəraiti, siyasi hüquqsuzluq fəhlələri ədalətsizliyə, dözülməz istismara qarşı mübarizəyə qaldırırdı.

Şimali Azərbaycanda fəhlələrin ilk çıxışı 1872-ci ilin mayında Gədəbəydə Simens şirkətinin mədənlərində və misəritmə zavodunda baş vermişdi [23]. Tətil edən fəhlələr əmək haqqının artırılmasını, mənzil şəraitinin yaxşılaşdırılmasının və s. tələb edirdilər. Lakin onlar öz tələblərinin yerinə yetirilməsinə nail ola bilmədilər [24].

1878-ci ildə Nuxa ipəksarıma fabriki fəhlələrinin tətilləri də ilkin çıxışlara aiddir [25].

Bakı neflt sənayesində ilk tətilçilər Abşeronda neft kəməri çəkilənədək hasil edilmiş nefti mədənlərdən neftayırma zavodlarına və anbarlara daşıyan arabaçı fəhlələr olmuşlar. 1878-1879-cu illərdə neft sənayesində 3 minə yaxın arabaçı işləyirdi [26]. 80-ci illərdə və 90-cı illərin əvvəllərində arabaçılar kapitalistlər tərəfindən əməkhaqlarını azaltmaq cəhdlərinə qarşı bir neçə dəfə kortəbii tətil etmişdilər.

Bakıda digər sənaye müəssisələri və dəmiryolu tikintisində çalışanların ayrı-ayrı tətilləri və kortəbii çıxışları baş verirdi. Məsələn, 1880-ci il ərzində tütün fabriki fəhlələri dəfələrlə işi dayandırmışdılar. 1881 -ci il fevralın sonlarında Cənubi Qafqaz dəmir yolu tikintisinin 8-ci sahəsində ("Qurd qapıları" yaxınlığında) işləyən fəhlələr arasında həyəcanlar baş verdi [27]. Elə həmin ilin yazında Bakının bütün tütün fabriklərini əhatə edən daha bir tətil olmuşdu. Fəhlələr günəmuzd əmək haqqının artırılması və axtarışların dayandırılması tələblərini irəli sürmüşdülər. Tətil bir neçə həftə davam etdi. Lakin fabrik sahibləri kütləvi surətdə işdən qovulmaq qorxusu ilə fəhlələrin əzmini qıra bildilər [28].

1881-ci ilin aprelində Bakıda geniş həyəcanlar baş verdi. Bu, həyəcanlarda neft daşımağın mütərəqqi üsullarının tətbiqi ilə öz əmək haqlarının xeyli hissəsini itirən çəlləkçi fəhlələr xüsusilə fəal iştirak edirdilər. Həyəcanlar aprelin 14-də 75-ə qədər fəhləni həbs edən polisin cəza tədbirlərinə cavab olaraq başlandı. Qəzəblənmiş fəhlələr yoldaşlarını xilas və müdafiə etmək üçün ayağa qalxdılar. Onlar polis idarəsini mühasirəyə alıb həbs olunanların azad edilməsini tələb etdilər. "Nedelya" qəzeti bu münasibətlə yazırdı: "Bir andaca pəncərə və qapılar yerindən çıxarıldı. Xalq isə elə hey axışırdı. Şəhəri gurultu, inilti bürümüşdü" [29]. Yalnız axşama yaxın kazaklar və soldatlar tüfəng və şallaqların köməyi ilə fəhlələri dağıda bildilər.

Həyəcanlar səhərisi gün də davam etdi. Fəhlələrin polis və soldatlarla toqquşması baş verdi. Bu çıxışların kortəbii və qeyri-mütəşəkkil olmasına baxmayaraq, onun iştirakçılarının inadkarlığı və qətiyyəti hakim dairələrdə çaşqınlıq yaratdı. Yalnız aprelin 18-də şəhərə ordu hissələri yeridilməklə iğtişaşlara son qoyuldu. 1882-ci il

sentyabrın 16-da "Nobel qardaşları" şirkətinin Qara şəhərdəki neftayırma zavodunda fəhlələrin tətili baş verdi. Şirkətin idarə binasına tərəf hərəkət edən fəhlələr ayyarım ərzində müdiriyyət tərəfindən gecikdirilən əməkhaqqının təcili olaraq verilməsini tələb etdilər. Tələb yerinə yetirildi və fəhlələr işə başladılar.

1883-cü ilin fevralında Bakıda Cənubi Qafqaz dəmir yolunun Bakı sahəsinin tikintisindən, həmçinin mədən və zavodlardan qovularaq ağır vəziyyətə düşmüş fəhlələrin kortəbii həyəcanları başlandı. "Polisi vur" sədaları altında dəyənəklərlə silahlanmış nəhəng fəhlə kütləsi, başda polismeyster və pristav olmaqla, polislərin və kazakların üzərinə hücum etdi. Fəhlələrə qarşı qoşun yeridildi, həyəcanın 70 fəal iştirakçısı həbs edildi [30].

1883-cü ilin yaz və payızında Bakının ayrı-ayrı müəssisələrində tətillər baş verdi.

Nuxanın ipəksarıma fabriklərinin fəhlələri amansız istismara qarşı mübarizə üçün öz qüvvələrini birləşdirməyə cəhd göstərirdi. 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində Nuxa ipəksarıyanları öz mənafelərini qorumaq üçün həmkarlar təşkilatına bənzər bir təşkilat yaratmağa səy göstərirdilər [31].

1891-ci ilin başlanğıcında Bakıda yeni kütləvi həyəcanlar baş verdi. Bu həyəcanlarda böhranla əlaqədar neft mədənlərində və zavodlarda ixtisara düşmüş fəhlələr, naviqasiyanın bağlanması ilə işdən azad edilmiş gəmi təmirçiləri, həmçinin aclıq bürümüş Volqaboyu quberniyalarından Bakıya gələn fəhlələrin böyük bir hissəsi iştirak edirdi. İşsizlərin beşminlik kütləsi öz qəzəbini onlan işsizliyə və ac-yalavac yaşamağa məhkum etmiş mövcud qaydaların təcəssümü hesab etdikləri polisin üzərinə yönəltdi [32]. Hiddətlənmiş kütlə polis idarəsini mühasirəyə alaraq polisləri və binanı daş-qalaq etdi. Qoşunun müdaxiləsinə baxmayaraq, fəhlələr dağılışmadılar. Günün sonuna yaxın onlar birja meydanında toplaşdılar. Polis və qoşun dəstələri kütləni ancaq axşam dağıda bildi. Həyəcanların başçıları hesab olunan 60-a qədər fəhlə həbsə alındı. Fəhlələr və polis nəfərləri arasında yaralananlar var idi [33].

Lakin fəhlələrin qəzəb və narazılığı tezliklə yenidən üzə çıxdı. Dekabrın 24 və 26-da Keşlədə fəhlələr polis idarəsini mühasirəyə alaraq onu daşa basdılar və polisləri döydülər. Fəhlələri ancaq kazakların köməyilə dağıtmaq mümkün oldu.

80-ci illərdə və 90-cı illərin əvvəllərində baş verən çıxışlar kortəbii və qeyri-mütəşəkkil idi, fəhlələr hələ öz sinfi mənafeyini dərk etmirdilər. Bununla belə, həmin çıxışlar fəhlələr üçün böyük ibrət məktəbi oldu.

Sonrakı illərdə fəhlələrin tətil mübarizəsi artmaqda davam edirdi. Belə ki, 1892-1894-cü illərdə neft mədənlərində, emal sənayesində, ticarət donanmasında bir sıra tətillər qeydə alınmışdı. Onların içərisində diqqəti daha çox cəlb edən Mirzəbekyants qardaşlarının tütün fabriki fəhlələrinin 1892-ci ilin yazında başlanmış tətili idi. Tətilçilər məvacibin verilməsini və bir qədər əvvəl işdən azad edilmiş fəhlələrin öz yerlərinə qaytarılmasını tələb edirdilər. Sahibkarlar tətili yatırmaq üçün polisin köməyinə əl atdılar. Bir neçə fəhlə həbs edildi. Bununla belə 13 gün davam edən tətil fəhlələrin qələbəsi ilə qurtardı [34].

Bu fabrikdə daha bir tətil 1895-ci ilin avqustunda baş verdi. İş yerini əvvəlcə vəziyyətləri daha ağır olan yeniyetmə müştükçülər tərk etdilər. Tezliklə digər sexlərin fəhlələri də onlara qoşuldular. Müdriyyətin nə dilə tutması, nə də hədə-qorxusu fəhlələrə təsir etmədi. Sahibkarların tətilçiləri ştreykbrexerlərin köməyi ilə cilovlamaq cəhdi də müvəffəqiyət qazanmadı. Sahibkarlar ancaq 6 gündən sonra – avqustun 17-də tətili dayandıra bildilər.

Beləliklə, neftçilər, filizçıxaranlar, misəridənlər, ipəksarıyanlar, tütünçülər, dənizçilər, iqtisadiyyatın digər sahələrinin fəhlələri bir-birinin ardınca fəhlə hərəkatına qoşulurdular. İlk tətillərin kortəbiiliyinə və qeyri-mütəşəkkiliyinə baxmayaraq, onlar Azərbaycan fəhlələrinin sinfi mənlik şüurunun oyanmasında az rol oynamadı. Tətillərdə adətən müxtəlif millətlərin nümayəndələri – azərbaycanlılar, ruslar, gürcülər, ermənilər dağıstanlılar, Volqaboyu tatarları və başqaları iştirak edirdilər.

# IX FƏSIL

# MƏDƏNİYYƏT

## § 1. MAARİFİN VƏZİYYƏTİ. YENİ MƏKTƏB UĞRUNDA MÜBARİZƏ. İLK MƏDƏNİ-MAARİF MÜƏSSİSƏLƏRİ

XIX yüzilliyin ikinci yarısında inkişaf etməkdə olan kapitalist iqtisadiyyatının ixtisaslı fəhlələrə - sənayenin müxtəlif sahələrində texnikaya xidmət göstərməyi, kənd təsərrüfatını səmərəli surətdə qurmağı və ən yeni nəqliyyat vasitələrini idarə etməyi bacaran təhsilli mütəxəssislərə tələbatı Azərbaycanda ümumtəhsil və peşə məktəblərinin sayının müəyyən qədər artmasına, onların təhsil səviyyəsinin yüksəlməsinə səbəb oldu.

İbtidai məktəblər haqqında 1867-ci il Əsasnaməsi Qafqazın, o cümlədən, Azərbaycanın təhsil müəssisələri üçün sonuncu xüsusi nizamnamə oldu. Çarizmin köhnə xalq təhsili sisteminin eyniləşdirilməsi (unifikasiyası) siyasəti 70-ci illərdən etibarən Azərbaycanda da böyük qətiyyətlə həyata keçirilməyə başladı. Yerli dillər, o cümlədən də Azərbaycan dili icbari fənlər sırasından əsasən kənar edildi.

XIX yüzilliyin 60-70-ci illərindən etibarən ümumtəhsil sistemində aparıcı rolu böyük əksəriyyəti ibtidai məktəblərdən ibarət olan rus təhsil müəssisələri oynamağa başladı.

1872-ci il 13 may Əsasnaməsi ilə Şimali Azərbaycanın bütün qəza məktəbləri altıillik təhsil müddəti olan pullu şəhər məktəblərinə çevrildi.

İbtidai məktəblər haqqında 1874-cü il 24 may Əsasnaməsi təhsilin aşağı həlqəsi üzrə iki məktəb tipini təsdiq etdi: üç illik təhsil kurslu birsinifli və beş illik təhsil kurslu ikisinifli məktəblər - Şimali Azorbaycanda ilk dəfə olaraq kənd əhalisi üçün məktəblər meydana çıxdı. Kənd cəmiyyətinin vəsaiti hesabına fəaliyyət göstərən Salahlı və xəzinə hesabına saxlanılan Dağkəsəmən, Cəbrayıl və Göyçay məktəbləri birinci və nisbətən yaxşı təmin olunmuş kənd məktəbləri sırasında idi.

XIX yüzilliyin 80-ci illərindən Azərbaycanın neft-mədən rayonlarında və sənaye müəssisələri yanında ibtidai məktəblər təşəkkül etməyə başladı. İri sahibkarlar öz təsərrüfatlarında əmək məhsuldarlığını, həm də öz maraqlarını yüksəldə biləcək savadlı fəhlələr hazırlamaq üçün məktəblər açırdılar. 1881-ci ildə Suraxanıda Bakı Neft Cəmiyyətinin təşkil etdiyi məktəb Bakı neft sənaye rayonunda ilk məktəb idi. “Nobel qardaşları” şirkəti 1884-cü ildə Qara şəhərdə, 1886-cı ildə isə Balaxanıda məktəblər açdı. Belə məktəblər Ağşəhərdə 1891-ci ildə S.M.Şibayevin firması və 1893-cü ildə Xəzər-Qara dəniz Neft və Ticarət Cəmiyyəti tərəfindən təşkil edildi. Sonuncu cəmiyyət 1896-cı ildə, “Benkendorf və K°”-nın ticarət evinin Suraxanıdakı məktəbi ilə eyni zamanda Balaxanıda daha bir məktəb açdı.

1897-ci ildə 30 min əhalisi olan Balaxanı-Sabunçu mədən rayonunda cəmi 267 uşaq təhsil alırdı. Həmin şagirdlərin - ancaq 18 nəfəri bu rayon əhalisinin əsas hissəsini təşkil edən azərbaycanlıların payına düşürdü.

1897-ci ildən Bibiheybətdə, Qaraşəhər və Ramanada Bakı neft sənayeçiləri qurultayının məktəbləri fəaliyyət göstərməyə başladı. Bakı neft sənaye rayonunun xalq maarif nazirliyinə tabe olan 11 ibtidai məktəbində cəmisi 678 şagird, o cümlədən 282 qız təhsil alırdı. Halbuki bu dövrdə burada meyxana və qəlyanaltıların sayı on dəfələrlə ondan çox idi. 1892-ci ildən etibarən Gədəbəydə - "Simens qardaşları"nın misəritmə zavodu yanında kiçik məktəb fəaliyyətdə idi.

Yüzilliyin sonunda Bakı quberniyasında 4514 şagird (o cümlədən 3345 oğlan və 1169 qız) olan 73 müxtəlif növlü ibtidai məktəb, Yelizavetpol quberniyasında 5653 şagirdi (o cümlədən 4761 oğlan və 892 qız) olan 82, Naxçıvan qəzasında 1349 şagirdi (o cümlədən 1094 oğlan və 255 qız) olan 18 müxtəlif növlü ibtidai məktəb fəaliyyət göstərirdi. Məktəblərdə şagirdlərin çoxalması əhalinin təhsilə meylini göstərirdi. Azərbaycanlılar Bakı quberniyasındakı rus ibtidai məktəblərində şagirdlərin 24, 3%-ni (1095 şagird), Yelizavetpol quberniyasında isə 23,8%-ni (1343 şagird) təşkil edirdi. İctimai mənşələrinə görə, şəhərin tacir və sənətkar təbəqələrində olan şagirdlər müvafiq olaraq 31,2 və 15,5%-i, kəndli uşaqları isə 63 və 74,9%-i təşkil edirdilər. Rəsmi statistikada azərbaycanlı qız şagirdlər ayrıca olaraq göstərilməmişdir. Çünki, bir qayda olaraq azərbaycanlı qızlar rus ibtidai məktəblərində oxumurdular. Bu baxımdan məlum istisnanı 1983-cü ildən Naxçıvan qəzasının Nehrəm kəndində ikisinifli məktəbdə qızlar şöbəsi təşkil edirdi. Onun təşkilatçısı və dərslərini deyəni gələcək yazıçı və "Molla Nəsrəddin" jurnalının redaktoru Cəlil Məmmədquluzadə idi. Bu şöbədə 8 azərbaycanlı qız təhsil alırdı.

İbtidai nıəktəblərin təşkilində çar hökumətinin zəhmətkeşlərin təhsili xərclərini yerli şəhər idarələri və kənd cəmiyyətləri üzərinə, deməli, nəticə etibarilə xalqın çiyninə qoyması meyli açıq-aşkar müşahidə olunur, belə ki, 1899-cu ildə Yelizavetpol və Bakı quberniyalarının xalq maarifi büdcəsində xəzinə payına 286214 manatdan cəmisi 17790 manat və ya bütün büdcənin 6%-i düşürdü.

Adi təlim kurslu pulsuz ibtidai məktəblər zəhmətkeş uşaqları üçün nəzərdə tutulurdu. Onlar özlərinin sosial vəziyyəti və maddi imkanlarına müvafiq olan ibtidai təhsillə kifayətlənməli olurdu. 1899-cu ildə Bakı quberniyasında əksəriyyəti təşkil edən yaşayış məntəqələrində hər 47000 sakinə, Yelizavetpol quberniyasında isə 21000 sakinə bir ümumtəhsil məktəbi düşürdü.

Təhsil müəssisələrinin sayı artdıqca, onların ixtisaslı müəllimlərlə təmin olunması məsələsi aktual əhəmiyyət kəsb edirdi. Əgər orta məktəblər üçün universitet qurtarmış və xüsusi təhsilli pedaqoqlar seçilirdilərsə, ibtidai məktəblər üçün müəllim seminariyalarının, orta təhsil müəssisələrinin, o cümlədən qadın gimnaziyalarının pedaqoji siniflərinin məzunları, habelə müəyyən edilmiş xüsusi imtahanları verdikdən sonra ibtidai məktəb müəllimi rütbəsi almış şəxslər işə götürülürdülər.

Yerli dilləri bilən müəllimlərin yoxluğu azərbaycanlı uşaqlarının rus məktəblərinə cəlb olunmasını ləngidirdi. Məktəblərin saxlanılması xərclərinə əhalinin ağır mükəlləfiyyət kimi baxması da buradan irəli gəlirdi. Ancaq 1876-cı ildə Qori şəhərində açılmış Zaqafqaziya Müəllimlər Seminariyası, xüsusən də onun Azərbaycan şöbəsinin məzunları (Fərhad Ağazadə, Üzeyir Hacıbəyov, Cəlil Məmmədquluzadə və b.) kənd məktəblərinə gəldikdən sonra yerli uşaqların bu məktəblərdə oxuması mümkün olmuşdu olan şagirdlər müvafiq olaraq 31,2 və 15,5%-i, kəndli uşaqları isə 63 və 74,9%-i təşkil edirdilər. Rəsmi statistikada azərbaycanlı qız şagirdlər ayrıca olaraq göstərilməmişdir. Çünki, bir qayda olaraq azərbaycanlı qızlar rus ibtidai məktəblərində oxumurdular. Bu baxımdan məlum istisnanı 1983-cü ildən Naxçıvan qəzasının Nehrəm kəndində ikisinifli məktəbdə qızlar şöbəsi təşkil edirdi. Onun təşkilatçısı və dərslərini deyəni gələcək yazıçı və “Molla Nəsrəddin” jurnalının redaktoru Cəlil Məmmədquluzadə idi. Bu şöbədə 8 azərbaycanlı qız təhsil alırdı.

İbtidai nıəktəblərin təşkilində çar hökumətinin zəhmətkeşlərin təhsili xərclərini yerli şəhər idarələri və kənd cəmiyyətləri üzərinə, deməli, nəticə etibarilə xalqın çiyninə qoyması meyli açıq-aşkar müşahidə olunur, belə ki, 1899-cu ildə Yelizavetpol və Bakı quberniyalarının xalq maarifi büdcəsində xəzinə payına 286214 manatdan cəmisi 17790 manat və ya bütün büdcənin 6%-i düşürdü.

Adi təlim kurslu pulsuz ibtidai məktəblər zəhmətkeş uşaqları üçün nəzərdə tutulurdu. Onlar özlərinin sosial vəziyyəti və maddi imkanlarına müvafiq olan ibtidai təhsillə kifayətlənməli olurdu. 1899-cu ildə Bakı quberniyasında əksəriyyəti təşkil edən yaşayış məntəqələrində hər 47000 sakinə, Yelizavetpol quberniyasında isə 21000 sakinə bir ümumtəhsil məktəbi düşürdü.

Təhsil müəssisələrinin sayı artdıqca, onların ixtisaslı müəllimlərlə təmin olunması məsələsi aktual əhəmiyyət kəsb edirdi. Əgər orta məktəblər üçün universitet qurtarmış və xüsusi təhsilli pedaqoqlar seçilirdilərsə, ibtidai məktəblər üçün müəllim seminariyalarının, orta təhsil müəssisələrinin, o cümlədən qadın gimnaziyalarının pedaqoji siniflərinin məzunları, habelə müəyyən edilmiş xüsusi imtahanları verdikdən sonra ibtidai məktəb müəllimi rütbəsi almış şəxslər işə götürülürdülər.

Yerli dilləri bilən müəllimlərin yoxluğu azərbaycanlı uşaqlarının rus məktəblərinə cəlb olunmasını ləngidirdi. Məktəblərin saxlanılması xərclərinə əhalinin ağır mükəlləfiyyət kimi baxması da buradan irəli gəlirdi. Ancaq 1876-cı ildə Qori şəhərində açılmış Zaqafqaziya Müəllimlər Seminariyası, xüsusən də onun Azərbaycan şöbəsinin məzunları (Fərhad Ağazadə, Üzeyir Hacıbəyov, Cəlil Məmmədquluzadə və b.) kənd məktəblərinə gəldikdən sonra yerli uşaqların bu məktəblərdə oxuması mümkün olmuşdu.

Siyasi etibarlıq pedoqoji fəaliyyətə buraxılması üçün ən mühüm şərt hesab edilirdi. Xalq məktəbləri haqqında 1874-cü il Əsasnaməsinə görə, bu məktəblər xalq məktəblərinin müdriyyəti vasitəsilə ciddi hökumət nəzarəti altına alınmışdı.

Xalq maarifi nazirliyinə tabe olan bütün məktəblərdə təlim ancaq rus dilində aparılırdı. Azərbaycan və digər yerli dillərdə ümumtəhsil məktəbləri açmağa icazə verilmirdi.

"Rusiyada məskun olan yadellilərin təhsilinə dair tədbirlər haqqında" 1870-i il 26 mart tarixli qaydaların mahiyyəti ruslaşdırmaya tabe edilmişdi.

Ana dilində savada yiyələnmək cəhdi minlərlə uşağı mollaxana məktəblərinə cəlb edirdi. Əvvəlki dövrdə olduğu kimi, yenə də say üstünlüyü bu məktəblərin tərəfində idi. XIX yüzilliyin sonunda Bakı quberniyasında 245 belə məktəb vardı. Bunlarda 4915 şagird, o cümlədən 64 qız təhsil alırdı. Elə həmin vaxtda Yelizavetpol quberniyasındakı 268 belə məktəb 4384 şagird, o cümlədən 145 nəfər qızı əhatə edirdi. Məktəblərin əsas kütləsi ənənəvi proqramı və öz dövrünü çoxdan keçirmiş təlim-tərbiyə üsullarını quruyub saxlayır, ən adi şəraiti olmayan binalara sığınırdı. Ölkənin sosial-iqtisadi inkişafı şəraitində bu məktəblərin yarasızlığı aydın olurdu. Ümumtəhsil müəssisələri şəbəkəsinin genişlənməsi ilə arxaik proqramlı mədrəsələr də öz əhəmiyyətini itirirdi. Azərbaycanın qabaqcıl mədəniyyət xadimləri bu məktəblərdə təhsilin məzmununa və tədris üsullarına qarşı açıq və kəskin şəkildə çıxış edirdilər. M.F.Axundov uşaqlarda "anadangəlmə xeyirxah keyfiyyətləri boğmağa və onlarda qorxaqlıq və yalançılıq" doğurmağa qadir olan bədən cəzası sistemini amansız tənqid edir, yeniyetmələrin yalnız dini təbliğ edən kitablarla maariflənməyini yolverilməz hesab edirdi.

Gənc milli burjuaziya milli dünyəvi məktəb uğrunda hərəkata başçılıq edərək. Bu hərəkatı maarif sahəsində çarizmin Azərbaycanda yürütdüyü ruslaşdırma siyasətinə qarşı çevrilmişdi. Burjua maarifçiliyi tərkibcə yekcins deyildi. Liberal burjua ziyalılarının nümayəndələri öz istəklərində mövcud məktəblərin islah olunması, onların proqramlarının dünyəvi fənlərlə genişləndirilməsi, təhsil binalarının abadlaşdırılması tələblərindən uzağa getmirdilər. Digər qrup türkiyədə təhsil almış müəllimlər və orada nəşr edilmiş dərsliklərin köməyi ilə məktəblər yenikdən qurmağa və beləliklə, ana dili əvəzinə osmanlı türkcəsində təhsil verməyə can atırdı.

Demokratik cərəyanın nümayəndələri milli mədəniyyətin ən yaxşı ənənələri ilə yanaşı, mütərəqqi ictimai və pedaqoji fikrin təsiri altında arxaik məktəblər sisteminin kökündən ləğv edilməsi mövqeyində durur və ərəb qrafikası əsasında Azərbaycan əlifbasının dəyişdirilməsinin yeni dünyəvi məktəb yaradılması yolunda mühüm amil hesab edirdilər.

M.F.Axundov ədəbi və publisistik fəaliyyətinə başlayan zamandan əlifbanın xeyli sadələşdirilməsi, sonralar isə latın qrafikası əsasında onun yeni əlifba ilə əvəz edilməsi uğrunda inadlı mübarizə aparırdı.

Rus və Azərbaycan mətbuatında ərəb əlifbası xalq kütlələri içərisində savad və mədəniyyətin yayılmasını ləngidən amil kimi işıqlandırıldı. F.Köçərli, M.Sidqi, N.Nərimanov, M.Mahmudbəyov, M.A.Şahtaxtinski,

C.Məmmədquluzadə, Azərbaycan mədəniyyətinin bir sıra xadimləri yeni əlifbaya keçmək tərəfdarı idilər.

Kütləvi dünyəvi Azərbaycan məktəbinin güman edilən proqramı, maddi bazanın yaradılması üsulları, müəllim kadrların hazırlanması, ana dilində təhsil vasitələrinin tərtib edilməsi, qadın təhsilinin təşkili və s. məsələlər ətrafındakı mübahisə kəskin xarakter alırdı. Bütün bu məsələlər Qafqaz dövri mətbuatında, xüsusən 1875-ci ildən 1877-ci ilədək görkəmli maarifçi və alim Həsən bəy Məlikov (Zərdabi) tərəfindən Bakıda nəşr edilmiş ilk Azərbaycan "Əkinçi" qəzetinin səhifələrində öz əksini tapmışdır.

Bu aktual məsələlərin müzakirəsində M.F.Axundov və H.Zərdabi ilə yanaşı, Azərbaycanın mütərəqqi gəncləri - sonradan Azərbaycan mədəniyyətinin görkəmli xadimləri olmuş ali məktəb tələbələri N.Vəzirov, Ə.A.Adıgözəlov, M.T.Əliyev və b. yaxından iştirak edirdilər.

Sosial-iqtisadi dəyişikliklər və Rusiyanın müsəlman əhalisi içərisində yayılmış yeni mədəni meyillərin təsiri altında artıq 70-ci illərdə ayrı-ayrı məktəblər "üsuli-cədidə" ("yeni üsula" keçməyə başladı. Bu yeni tədris üsulunun ən əsas prinsiplərindən biri hərf-heca üsulundan daha səmərəli səs üsuluna keçiddən ibarət idi. Üsuli-cədid məktəblərin ən mühüm əhəmiyyəti ondan ibarət idi ki, burada ilk dəfə olaraq elmi biliklərin əsasları ana dilində öyrədilməyə başlandı. Bir sıra məktəblərdə ana dili ilə yanaşı rus dili də tədris edilirdi. Yeni üsul şüurlu təlimə yiyələnməyə yönəldilmişdi və əzbərləmə sisteminin zəifləməsinə, şagirdlərlə insani rəftara doğru aparırdı. Məktəb binaları müasir tədris avadanlıqları ilə təchiz edilməyə başladı. Bu yeniliklər məktəbləri kapitalist inkişafı şəraitinə uyğunlaşdırmaq cəhdindən ibarət idi.

Yeni tipli ilk məktəblərdən biri görkəmli Azərbaycan şairi Seyid Əzim Şirvaninin 1869-cu ildə Şamaxıda açdığı məktəb idi.

Böyük pedaqoqlar Həsənəli Qaradaği, Mir Möhsün Nəvvab və C.Fətəlibəyovun Şuşadakı, Mirzə İsmayıl Xasirin Lənkərandakı məktəbləri dünyəvi xarakterə malik idi. Yeni tipli məktəblərin yayılmasında 1882-ci ildə Ordubadda "Əxtar" ("Ulduzlar"), 1894-cü ildə isə Naxçıvanda "Tərbiyə" məktəblərini açmış Məmmədtağı Sidqinin (Səfərovun) böyük xidməti olmuşdu. Naxçıvanda ilk dünyəvi qadın məktəbi də Məmmədtağı Sidqi tərəfindən 1896-cı ildə təsis olunmuşdu.

Yeni məktəblərin ən qabaqcıl müəllimlərinin ətrafında ədəbi məclislər fəaliyyətə başlayırdı. Şuşa "Məclisi-Fəramuşan"ının ("Tənhalar cəmiyyəti") başında M.Nəvvab, Ordubad "Əncümani şüəra"sının ("Şairlər cəmiyyəti") başında M.T.Sidqi, Şamaxı "Beyt üs-Səfa"sının ("Səfa evi") başında isə S.Ə.Şirvani dururdu.

Azərbaycan əhalisinin maariflənməsi tarixində rus-tatar məktəbləri (çar Rusiyasında azərbaycanlılar bəzən tatar da adlandırılırdı - *Red.)* deyilən məktəblər nəzərə çarpacaq dərəcədə rol oynamışdır. Bu məktəblər ana dilində təlimi hər cür

təhsilin ən mühüm əsası sayan mütərəqqi Azərbaycan ziyalılarının təşəbbüsü ilə, onların inadkarlığı hesabına meydana çıxmışdı. İlk belə bir məktəbi Bakıda gənc pedaqoqlar - Həbib bəy Mahmudbəyov və Sultan Məcid Qənizadə tərəfindən, 1887-ci ildə onlar Tiflisdəki Aleksandr Müəllimlər İnstitutunu bitirdikdən dərhal sonra təşkil edilmişdir. Bu məktəbin xüsusi nizamnaməsi yox idi və əvvəlcə üçillik kurslu birsinifli xüsusi məktəb kimi fəaliyyət göstərirdi. Sonralar rus-tatar məktəbi ikisinifli məktəbə çevrildi.

Digər rus məktəblərindən fərqli olaraq, burada 1881-ci il əsasnaməsinə müvafiq surətdə birinci tədris ilində Azərbaycan dilinin keçilməsinə yol verilir və bu dərs məcburi fənn sayılırdı.

Elə ilk dörd il ərzində birinci rus-tatar məktəbini 100 savadlı oğlan bitirdi. Sonralar məşhurlaşmış Azərbaycan səhnə ustaları Hüseyn Ərəblinski, Mirzəağa Əliyev, Mirmahmud Kazımovski, pedaqoq və maarifçi Əlisgəndərov Cəfərzadə bu məktəbin ilk şagirdləri sırasında idi. 1891-ci ildən rus-tatar məktəbi şəhər idarəsinin xərci hesabına saxlanılmağa başlanıldı. Şəhər idarəsi mütərəqqi ictimaiyyətin tələblərinə güzəştə gedərək, 1891-ci ildə mövcud olan məktəbə bənzər daha bir məktəb açdı. 1899-cu ilin sonu üçün Bakıda 408 şagirdi olan 6 rus-tatar məktəbi vardı.

Bakının ardınca Azərbaycanın digər şəhərlərində də Naxçıvanda (1894-cü ildə), Nuxada (1885, 1894, 1898-ci illərdə) Şuşada (1896-cı ildə), Salyanda (1897-ci ildə), Gəncədə (1899-ci ildə) yeni məktəblər açıldı.

1899-cu ilin sonunda Azərbaycanın bütün rus-tatar məktəblərində 837 şagird təhsil alırdı. Ümumtəhsil fənn müəllimləri və şagirdlərin demək olar ki, hamısı azərbaycanlılardan ibarət idi. Sonralar, XX yüzilliyin əvvəllərində qadın rus-tatar məktəbləri də meydana çıxmağa başladı.

Digər ibtidai məktəblər kimi, rus-tatar məktəbləri də başqa məktəblərlə varislik əlaqəsinə malik deyildi. Lakin yaş səviyyəsi maneə törətməyən hallarda rus-tatar məktəbləri rus dilini bilməyən şagirdləri daha yüksək səviyyəli tədris müəssisələrinə, o cümlədən orta məktəblərə qəbul üçün hazırlayırdı. Bu, həmin məktəblərin ən mühüm vəzifələrindən biri idi. Rus-tatar məktəblərinin ən hazırlıqlı məzunları real məktəblərə (M.Əzizbəyov, T.Şahbazi) gimnaziyaya (N.Vəzirov, F.Rzabəyli), habelə Zaqafqaziya Müəllimlər Seminariyasına (Ü.Hacıbəyov) daxil olmuşdular. Üç sinifli şəhər Mixaylov məktəbinin, Bakı dənizçilik məktəbinin, Bakı ibtidai texniki məktəbin, demək olar ki, bütün azərbaycanlı şagirdləri rus-tatar məktəblərində oxumuşdular.

Azərbaycanın ibtidai məktəbləri, o cümlədən rus-tatar məktəbləri üçün müəllimlər hazırlanmasında Qoridəki Zaqafqaziya Müəllimlər Seminariyası, xüsusən də onun əsasən M.F.Axundov və A.O.Çernyayevskinin səyləri nəticəsində 1879-cu ildə açılmış Azərbaycan şöbəsi böyük rol oynadı. Azərbaycan şöbəsinin ən ucqar kəndlərindən olan gənclərin hesabına komplektləşdirilməsində, gələcək

müəllimlərin hərtərəfli hazırlanmasında bu şöbənin müfəttişi A.O.Çernyayevskinin xidməti təqdirəlayiqdir.

1899-cu ilədək Qori seminariyası 89 nəfər azərbaycanlı müəllim hazırlamışdı. Bunlardan çoxu sonralar Azərbaycanın xalq maarifinin və mədəniyyətinin fəxri nümayəndələri oldu. Peşəkar pedaqoji kadrlar arasında Rəşid bəy Əfəndiyev, Mahmudbəyov, Sultan Məcid Qənizadə, Firidun bəy Köçərli, Mustafa Mahmudov, Mehdi bəy Hacıbababəyov, Səfərəli bəy Vəlibəyov, Əli Cabbar Orucəliyev və başqalarının maarifçilik sahəsindəki xidməti əvəz olunmazdır.

Yeni məktəb xadimlərinin ən mühüm vəzifəsi ana dili dərsliyinin yaradılması idi. Rus-tatar məktəblərində A.O.Çernyayevskinin 1882-ci ildə tərtib etdiyi "Vətən dili" dərsliyi böyük müvəffəqiyyətlə tətbiq edilirdi. Litoqrafiya üsulu ilə buraxılmış bu dərsliyin kalliqrafiya işləri müəllifin şagirdi R.Əfəndiyev tərəfindən yerinə yetirilmişdi. 1881 -ci ildə təhsilini başa vurduqdan sonra Qori seminariyasında saxlanılmış S.F.Vəlibəyov və Q.A.Qaradaği də kitabın ikinci hissəsinin tərtibində fəal iştirak etmişdilər.

Azərbaycan dili üzrə tədris vəsaiti kənd müəllimləri tərəfindən də hazırlanırdı. 1887-ci ildə Yelizavetpol quberniyasının Qaryagin qəzasındakı Qarğabazar məktəbinin müəllimi A.Tahirov tərəfindən "Tatar dili rəhbərliyi" (dili müstəqil öyrənənlər üçün tədris vəsaiti - *red.),* 1890-cı ildə isə Şükrulla Məhərrəmzadə Qarabaği tərəfindən "Hərflər və xətlər kitabı" tərtib olundu. Sonuncu kitab yeni üsullu məktəblərdə ana dili, hesab və başqa fənlərin tədrisində müvəffəqiyyətlə tətbiq olunurdu. Bunun ardınca 1890-1894-cü illərdə S.M.Qənizadənin "İslahi-Azərbaycan" ana dili dərsliyi, 1898-ci ildə R. Əfəndiyevin "Uşaq bağçası" müntəxəbatı, 1899-cu ildə N.Nərimanovun "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" çap olundu. Bunlarla yanaşı, xalq maarifinin qabaqcıl xadimləri azərbaycanlı şagirdlərin rus dilini öyrənməsinə də ciddi fikir verirdilər. Bu sahənin pioneri "Rus dili" dərsliyini yazmış O.A.Çernyayevski idi. 1896-cı ildə S.M.Qənizadə və 1899-cu ildə N.Nərimanov tərəfindən rus dilini müstəqil öyrənmək üçün vəsaitlər nəşr olundu.

Beləliklə, Qori seminariyasının yaradılması, ictimai idarələrin köməyi, tədris vəsaitlərinin hazırlanması nəticəsində rus-tatar məktəbləri fəaliyyət göstərmək imkanı qazandı. Onlar azərbaycanlı uşaqlarının dünyəvi məktəb təhsilinə cəlb olunmasında, Azərbaycan dilinin elmi tədrisinin formalaşmasında və gələcək milli məktəb üçün kadrların hazırlanmasında müsbət rol oynadılar. Bu seminariyanı bitirmiş müəllimlər təkcə Azərbaycan məktəblərinin əsasən M.F.Axundov və A.O.Çernyayevskinin səyləri nəticəsində 1879-cu ildə açılmış Azərbaycan şöbəsi böyük rol oynadı. Azərbaycan şöbəsinin ən ucqar kəndlərdən olan gənclərin hesabına komplektləşdirilməsində, gələcək müəllimlərin hərtərəfli hazırlanmasında bu şöbənin müfəttişi A.O.Çernyayevskinin xidməti təqdirə layiqdir.

1899-cu ilədək Qori seminariyası 89 nəfər azərbaycanlı müəllim hazırlamışdı. Bunlardan çoxu sonralar Azərbaycanın xalq maarifinin və

mədəniyyətinin fəxri nümayəndələri oldu. Peşəkar pedaqoji kadrlar arasında Rəşid bəy Əfəndiyev, Mahmudbəyov, Sultan Məcid Qənizadə, Firidun bəy Köçərli, Mustafa Mahmudov, Mehdi bəy Hacıbababəyov, Səfərəli bəy Vəlibəyov, Əli Cabbar Orucəliyev və başqalarının maarifçilik sahəsindəki xidməti əvəzolunmazdır.

Yeni məktəb xadimlərinin ən mühüm vəzifəsi ana dili dərsliyinin yaradılması idi. Rus-tatar məktəblərində A.O.Çernyayevskinin 1882-ci ildə tərtib etdiyi "Vətən dili" dərsliyi böyük müvəffəqiyyətlə tətbiq edilirdi. Litoqrafiya üsulu ilə buraxılmış bu dərsliyin kalliqrafiya işləri müəllifin şagirdi R.Əfəndiyev tərəfindən yerinə yetirilmişdi. 1881 -ci ildə təhsilini başa vurduqdan sonra Qori seminariyasında saxlanılmış S.F.Vəlibəyov və Q.A.Qaradaği də kitabın ikinci hissəsinin tərtibində fəal iştirak etmişdilər.

Azərbaycan dili üzrə tədris vəsaiti kənd müəllimləri tərəfindən də hazırlanırdı. 1887-ci ildə Yelizavetpol quberniyasının Qaryagin qəzasındakı Qarğabazar məktəbinin müəllimi A.Tahirov tərəfindən "Tatar dili rəhbərliyi" (dili müstəqil öyrənənlər üçün tədris vəsaiti - *red.),* 1890-cı ildə isə Şükrulla Məhərrəmzadə Qarabaği tərəfindən "Hərflər və xətlər kitabı" tərtib olundu. Sonuncu kitab yeni üsullu məktəblərdə ana dili, hesab və başqa fənlərin tədrisində müvəffəqiyyətlə tətbiq olunurdu. Bunun ardınca 1890-1894-cü illərdə S.M.Qənizadənin "İslahi-Azərbaycan" ana dili dərsliyi, 1898-ci ildə R. Əfəndiyevin "Uşaq bağçası" müntəxəbatı, 1899-cu ildə N.Nərimanovun "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" çap olundu. Bunlarla yanaşı, xalq maarifinin qabaqcıl xadimləri azərbaycanlı şagirdlərin rus dilini öyrənməsinə də ciddi fikir verirdilər. Bu sahənin pioneri "Rus dili" dərsliyini yazmış O.A.Çernyayevski idi. 1896-cı ildə S.M.Qənizadə və 1899-cu ildə N.Nərimanov tərəfindən rus dilini müstəqil öyrənmək üçün vəsaitlər nəşr olundu.

Beləliklə, Qori seminariyasının yaradılması, ictimai idarələrin köməyi, tədris vəsaitlərinin hazırlanması nəticəsində rus-tatar məktəbləri fəaliyyət göstərmək imkanı qazandı. Onlar azərbaycanlı uşaqlarının dünyəvi məktəb təhsilinə cəlb olunmasmda, Azərbaycan dilinin elmi tədrisinin formalaşmasında və gələcək milli məktəb üçün kadrların hazırlanmasında müsbət rol oynadılar. Bu seminariyanı bitirmiş müəllimlər təkcə Azərbaycan məktəblərinin baniləri deyil, həmçinin milli mədəniyyətimizin görkəmli nümayəndələri sayıla bilərlər.

XIX yüzilliyin II yarısında Azərbaycanda ilk orta təhsil müəssisələri meydana gəldi. Bakı dörd sinifli ali məktəbi 1865-ci ildə Azərbaycanda ilk gimnaziyanı təşkil edilməsi üçün əsas oldu. Gimnaziyalar və progimnaziyalar haqqında 1864-cü il Nizamnaməsinə görə, bunlar qədim dillərin və riyaziyyatın əsas fənlər olduğu klassik və proqramında müasir dillərə, təbiət elmlərinə üstünlük verilən real gimnaziya progimnaziyalara bölünürdü. Sonuncular ölkənin ictimai-iqtisadi inkişafına daha çox cavab verirdi. 1866-cı ildə imperator II Aleksandra qəsddən sonra Rusiya daxili irticanın təzyiqi nəticəsində 1871 və 1872-ci illərdə yeni

nizamnamələr təsdiq olundu. Bu nizamnamələrə görə, bütün gimnaziyalar klassik istiqamət aldı, real gimnaziyalar isə realnı məktəblərlə əvəz olundu.

Hökumət və onun arxasında dayanan mürtəce dairələr klassik təhsili yaymaqla gəncləri müasir gerçəklikdən, materialist dünya-görüşündən və "nihilizmdən" yayındırmağa ümid edirdilər. Yeni nizamnamələr real məktəb məzunlarının universitetlərə yolunu bağladı. Elmi fəaliyyət və ali dövlət xidməti sahəsi üçün kadrlar hazırlayan universitetlərə qəbul olunmaq hüququ ancaq gimnaziya məzunlarına (əksəriyyəti zadəgan və məmurlardan ibarət idi) verilirdi. Real təhsil alanlara ancaq xüsusi ali ixtisas məktəblərinə daxil olmaq imkanı yaradılırdı. Bu da çar hökumətinin ticarət-sənaye burjuaziyasının fəaliyyətini ancaq təsərrüfat-texniki sahə ilə məhdudlaşdırmaq cəhdini əks etdirirdi.

Orta təhsil müəssisələrində təhsil pullu idi və bu hal getdikcə artırdı. XIX yüzilliyin sonunda Azərbaycanda bu haqq 40-75 manata, pansionlarda tərbiyə almaq haqqı isə 125-300 manata bərabər idi. Orta illik qazancı 268 manat (1899-cu il) olan neft sənayesi fəhlələri uşaqlarına orta təhsil, xüsusən də pansionlarda təhsil vermək iqtidarında deyildilər.

Tədris müəssisələrinin proqramları, dərslik və vəsaitlərin məzmunu əvvəlki dövrlərə nisbətən daha ciddi nizamlanırdı. Bakı realnı məktəbində şagirdlərin sayı 1876-cı ildə 431, 1899-cu ildə isə 658 nəfərə (o cümlədən azərbaycanlılar, müvafiq olaraq, 44 və 67 nəfərə) çatırdı.

1881-ci ildə mövcud şəhər məktəblərinin əsasında Yelizavetpol gimnaziyası və Şuşa realnı məktəbi təşkil edildi. Demokratik qüvvələrin gərgin mübarizəsindən sonra 1896-cı ildə Bakıda A.Pobedonostsevin xüsusi progimnaziyası əsasında birinci kişi gimnaziyası açıldı. Rusiya gimnaziyalarından ən irisindən biri olan bu məktəbdə əsrin sonunda 997 şagird təhsil alırdı.

XX yüzilliyin əvvəllərinə yaxın Azərbaycanın bütün kişi orta təhsil müəssisələrində cəmisi 2366 şagird, o cümlədən 223 (9%) azərbaycanlı təhsil alırdı.

Kişi orta təhsili ilə bərabər, qadın orta təhsili də inkişaf etməyə başladı. 1874-cü ildə Bakıda ilk qadın gimnaziyası açıldı. 1883-cü ildən bu məktəb Mariya adını aldı.

Bu vaxtadək Bakıda mövcud olan, Müqəddəs Nina qadın təhsil müəssisəsi də 1897-ci il ərəfəsində orta məktəbə çevrildi. Daha bir natamam orta məktəb - eyniadlı cəmiyyətin qadın progimnaziyası 1899-cu ildə Yelizavetpolda (Gəncədə) yaradıldı. XIX yüzilliyin sonuna yaxın Azərbaycanın bütün qadın orta məktəblərində (progimnaziyalar da daxil olmaqla) 1283 şagird vardı. Bunların yalnız 6 nəfəri (0,4%) azərbaycanlı qız idi.

XIX yüzilliyin son rübü ərzində orta təhsil müəssisələri şagirdlərinin sosial tərkibi şəhər silklərindən olan şagirdlərin xüsusi çəkisinin artması və zadəgan-məmur balalarının sayının xeyli məhdudlaşması istiqamətində dəyişirdi. Bu da kapitalizmin intensiv inkişafı dövründə əhalinin sosial strukturunda, özü də ilk növbədə Bakıda baş verən dəyişikliklərə müvafiq idi.

Təhsil haqqının artması, 7-8 il ərzində şagirdin saxlanılmasının bahalığı, birinci sinfə daxil olanların hamısı üçün yüksək tələbli müsabiqə imtahanları, realnı məktəblərin dördüncü sinif şagirdlərinə ali təhsil müəssisələrinə qəbul olunmaq hüququnu verən, yeddinci sinfə keçirilməsini məhdudlaşdırmağı məsləhət görən 1895-ci il 29 aprel tarixli imtahan qaydaları haqqında və 1887-ci il tarixli nazir sərəncamı zəhmətkeş uşaqlarının orta məktəbə daxilolma imkanlarının məhdudlaşdırılmasına yönəldilmişdi, həm orta, həm də xüsusən ali məktəbin demokratikləşməsinə doğan ehtiyacı əks etdirirdi.

İntizam qaydalarının ciddiliyinə baxmayaraq, şagirdlər qeyri-leqal dərnəklər təşkil edir, qadağan edilmiş kitablar oxuyurdular.

XIX əsrin 70-90-cı illərində onlarca azərbaycanlı tələbə, o cümlədən İ.Rəhimov, H.Hacıbəyov, İshaq və İbrahim Mehmandarov qardaşları, Ə.Şahtaxtinski Moskva və Peterburqda azadlıq hərəkatında fəal iştirak etmişlər.

Orta məktəblərin təşkili istedadlı və siyasi cəhətdən etibarlı olmaq şərti ilə əsasən imkanlı ailələrin övladları üçün ali məktəbə yol açdı. 1848-ci ildən XIX əsrin sonlarınadək Rusiya və xarici ali məktəblərdə təhsil almış azərbaycanlılar arasında (xronologiya üzrə) A.Yadigarov, H.Məlikov, İ.Axundov, M.A.Şahtaxtinski, F.Sultanov, İ.S.Şahtaxtinski, Ç.Sultanov, H.Axundov, Ə.K.Mehmandarov, N.Vəzirov, Ə.A.Adıgözəlov, M.T.Əliyev, İ.Rəhimov, İbrahim Mehmandarov, Ə.H.Axundov, İshaq Mehmandarov, F.Vəzirov, Ə.M.Topçubaşov, Ə.Hüseynzadə, H.Cavanşir, M.Cavanşir, X.Xasməmmədov, İ.Ziyadxanov, F. Rüstəmbəyov, A.Xasməmmədov, R.Sultanov, H.Tahşinski, Q.Qarabəyov, T.Mehmandarov, M.Şərifov, Ə.Ə.Əmirxanov, B.Rüstəmbəyov də vardı [1].

İxtisaslı fəhlələrə, mütəxəssislərə tələbatın artması ümumtəhsil məktəbləri sayəsində mümkün olan texniki-peşə təhsilinin zəruriliyinə səbəb oldu.

Xəzər ticarət donanmasının inkişafı ilə əlaqədar 1881-ci ildə açılan Bakı dənizçilik sinfi ilk peşə təhsili müəssisəsi oldu. İlk dövrlərdən onun vəzifəsi peşəkar dənizçilərdən yelkənli donanma üçün şturmanlar və şkiperlər hazırlamaqla məhdudlaşırdı. Burada təhsil pulsuz idi, 1891-ci ildə daxili xətlərdə işləyən buxar gəmiləri üçün kapitanlar buraxan şkiper şöbəsi açıldı. Dənizçilik sinfi nəzdində gəmisürən vəsiqəsi almaq istəyən peşəkar dənizçilərdən də (bu vəsiqə olmadan gəmi sürməyə icazə verilmirdi) imtahanlar götürülürdü. 1891-ci ildən 1902-ci ilədək ən azı 600 dənizçi belə imtahanlardan keçmişdi. Təkcə 1895-ci ildə 12 azərbaycanlı gəmiçi vəsiqəsi almışdı. 1896-cı ildə Bakı gəmiçilik sinfi yanında axşam gəmi mexanikləri kursu açıldı. Bu kurslar ehtiyac duyulan mütəxəssis-mexaniklər hazırlayırdı. 1899-cu ilin sonuna yaxın dənizçilik sinfində 111 şagird (o cümlədən şkiper şöbəsində 26 nəfər) təhsil alırdı.

Azərbaycanda ilk sənət məktəbi kənd təsərrüfatı işində ənənəvi üsulların yayılması, kənd yerlərində lazım olan sənətlərin, o cümlədən ipəkçiliyin, həmçinin bostançılığın, bağçılığın və s. öyrədilməsi məqsədilə əlverişli iqlim şəraitində olan Zaqatala (1882-ci ildə) və Yelizavetpolda (1884-ci ildə) açılmışdı. Yeddi illik kursu

olan Yelizavetpol sənət məktəbi dördsinifli Zaqatala sənət məktəbindən fərqli olaraq təhsil səviyyəsinə görə üstün idi və müasir kənd təsərrüfatı texnikasından istifadə etməyi bacaran mütəxəssislər hazırlanmasını həyata keçirməli idi. Çöl işlərindən azad vaxtlarda şagirdlər sənət emalatxanalarında səbəttoxuma, araba, təkər düzəltmək, xarratlıq, çilingərlik və s. peşələrlə məşğul olurdular.

Kəndli uşaqlarını məktəbə cəlb etmək üçün pansionlar təşkil olunmuşdu. Təhsil haqqı ildə 24 manata çatan bu pansion-məktəblər ictimai, yerli vəsaitin hesabına saxlanılırdı.

Bakıda sənət məktəbi 1888-ci ildə açılmışdı, lakin təhsil səviyyəsinin zəif olması 1896-cı ildə onun mexanika və kimya şöbələri olan aşağı texniki məktəbə (BATM) çevrilməsinə səbəb oldu. Bu məktəb sənət öyrətməkdən başqa müəssisələrində fəhlə əməyinə rəhbərlik edə biləcək məzunlar da hazırlamalı idi. Məktəb mexaniki şöbənin tərkibində açıldı. Məktəbin nəzdində dördsinifli aşağı sənət məktəbi və yaşlılar üçün təcrübəçilər kursu vardı. BATM-da 5 emalatxana fəaliyyət göstərirdi. XIX əsrin sonlarında burada təhsil haqqı 60 manat, sənət məktəbində isə 12 manat idi. BATM məzunlarını çilingər, xarrat, dəmirçi, həmçinin mexanik və maşinist vəzifələrinə həvəslə qəbul edirdilər.

Sənaye məktəblərinin proqramları ümumi və ixtisas təhsilini birləşdirirdi. Bu məktəblər xəzinə, habelə şəhər idarəsinin vəsaiti, yerli vergilər və təhsil haqqı hesabına saxlanırdı.

1900-cü il yanvarın 1-dən Azərbaycanın bütün sənaye məktəblərindəki şagirdlərin sayı 381 nəfər (o cümlədən 60 nəfər azərbaycanlı) idi. Azərbaycanlı şagirdlərin ən yüksək xüsusi çəkisi (37,9%) (132 nəfərdən 50-si) Gəncə məktəbinin payına düşürdü. Bakı texniki məktəbi aşağı sənət məktəbində şagirdlərin sosial tərkibi şəhərlilərin (müvafiq surətdə 61,4% və 49,2%), Gəncə və Zaqatala məktəblərində isə kəndlilərin (müvafiq olaraq 56,1% vo 72,61%) böyük əksəriyyəti təşkil etməsi ilə səciyyələnirdi. Azərbaycanın texniki və peşə məktəbləri yüzilliyin sonunadək 296 mütəxəssis hazırlamışdı. Sadaladığımız məktəblər təhsilin səviyyəsi və məzunlar kontingentinin məhdudluğuna görə aktual iqtisadi vəzifələrin həllinə lazımi təsir göstərə bilməzdi, lakin müasir texnika ilə təchiz olunmuş müəssisələrdə işləmək üçün ixtisaslı fəhlələrin hazırlanmasının əsasını qoydu. Kənd yerlərindəki ibtidai məktəblərdə ipəkçilik, arıçılıq, bağçılıq, üzümçülük və bostançılıq üzrə səmərəli təsərrüfat üsulları və bəzi peşələr öyrədilirdi. Sənaye məktəblərinin proqramına peşə və kənd təsərrüfatı məşğələlərinin daxil edilməsi də çar hökumətinin belə məktəblərin şagirdlərinə təsərrüfat ehtiyaclarına uyğunlaşdırılmış təhsil vermək, orta məktəblərdən kəndli, fəhlə və digər yoxsul əməkçi əhali təbəqələrinin uşaqlarını kənarlaşdırmaq meylini əks etdirirdi.

1896-cı ildə Bakı yaxınlığındakı Mərdəkan kəndində məşhur mesenat sahibkar H.Z.Tağıyev tərəfindən Azərbaycanda bağbanlar hazırlayan birinci xüsusi məktəb açıldı. 1898-ci ilin əvvəllərində bağçılıq məktəbində əsasən Abşeron kəndli uşaqlarından ibarət olan 46 şagird təhsil alırdı.

İkinci bağçılıq məktəbi xəzinənin xərci hesabına 1899-cu ildə Qubada açıldı. Hər iki məktəbin qısa müddət ərzində mövcud olması üzündən bağçılığın inkişafına əməli təsir göstərə bilməmişdi.

Şagirdlərin təhsil müəssisələrindən kənarda qalması, təhsil səviyyəsi müxtəlif profilli xüsusi məktəblərin yaradılmasını şərtləndirirdi. Təhsil idarələrinin rəhbərliyi və yerli hakimiyyət orqanları xüsusi məktəblərin açılmasına imkan verərkən, onları ciddi surətdə yoxlayır, müəllimlərin təsdiqi zamam başlıca diqqəti onların siyasi səbatlılığına yönəldirdi. Xüsusi məktəblər, o cümlədən də gimnaziyalar və progimnaziyalar xalq təhsili şəbəkəsindəki boşluqlan müəyyən qədər doldursalar da, onlar əsasən şəhər əhalisinin varlı təbəqələri üçün nəzərdə tutulmuşdu.

1899-cu ilin sonuna yaxın Bakı quberniyasında 2043 şagirdi (o cümlədən 880 qız) olan 37, Yelizavetpol quberniyasında isə 760 şagirdi (o cümlədən 237 qız) olan 10 xüsusi məktəb vardı. Azərbaycanlılar bu məktəblərdəki bütün şagirdlərin orta hesabla 4,5%-ni təşkil edirdilər.

Yuxarıda göstərilən tədris müəssisələrindən əlavə, keçən əsrin sonlarından etibarən mühasiblik, ticarət, tibb, biçmə, tikiş və s. kimi müxtəlif xüsusi ixtisas məktəbləri və kursları açılmağa başladı. Əhalinin imkanlı hissəsinin estetik tələbatını ödəmək üçün 1896-cı ildə A. E. Yermolayeva tərəfindən Bakıda ilk musiqi məktəbi açıldı. 1899-cu ildə burada 97 şagird (onlardan 81-i qız) royalda, skripkada çalmağı və nəğmə oxumağı öyrənirdilər. 1897-ci ildə Y.P. Şiltsova Bakıda rəssamlıq məktəbi açdı.

XIX yüzilliyin 80-ci illərindən etibarən Azərbaycanda, başlıca olaraq Bakıda, yaşlılar üçün ilk məktəb və kurslar meydana çıxmağa başladı.

1893-cü ildə bir qrup tərəqqipərvər müəllimin təşəbbüsü ilə təşkil edilmiş Bakı bazargünü məktəbi fəhlələrin maariflənməsi işində xüsusən böyük əhəmiyyətə malik idi. Bu məktəbdə təlim pulsuz idi və müəllimlər əməkhaqqı almırdılar.

Yaşlılarla yanaşı, əmək fəaliyyətinə erkən başlamış yeniyetmə uşaqlar da bütün şəhərdə yeganə olan bu bazargünü məktəbinə axışırdılar. Burada oxumaq üçün 18 verst uzaqda olan mədən rayonlarından da gəlirdilər.

Bazargünü məktəbi dinləyicilərinin milli tərkibi yekcins deyildi. 1895-ci ildə 284 dinləyicidən 34 nəfəri azərbaycanlı idi. 1895-ci ildə Gəncə şəhər məktəbi yanında yaşlılar üçün bazargünü kursları açıldı. Növbəti ildə Nuxa qəzasının Xaçmaz kəndində rus dilinin öyrənilməsi üzrə cümə günü məktəbi fəaliyyətə başladı. 1899-cu ildə axşam kursları Şamaxıda da açıldı.

1897-ci ildə Bakıda qadınlar üçün bazargünü məktəbi də açıldı ki, 1899-cu ilin sonunda burada 138 qadın təhsil alırdı.

Azərbaycanlı zəhmətkeşlərin təhsil almasında, onlara rus dilinin öyrədilməsində Bakı texniki məktəbinin nəzdində təşkil edilmiş axşam kurslarının da rolu az olmamışdı. 1897-ci ildə açılmış bu kurslar 800 nəfərədək dinləyici

toplamışdı. Burada H.Mahmudbəyov, Ə.D.İsmayılov, M.H.Əfəndiyev, B.Bədəlbəyov, Ş.Əfəndiyev kimi görkəmli azərbaycanlı müəllimlər işləyirdilər.

H.Q.Rzayev (sonralar Azərbaycan səhnəsinin ən görkəmli ustalarından biri olan H.Sarabski) kursa birinci qəbul olunmuş dinləyicilər qrupunda olmuşdur.

Bakının mədən-zavod rayonlarında da bir sıra axşam kursları açıldı. Məktəbdənkənar müəssisələr savadla bərabər zəhmətkeşlərin gələcəkdə peşə-texniki kurslarda ixtisas almağa və beləliklə, maddi vəziyyətlərini yaxşılaşdırmağa imkan yaradırdı.

Azərbaycanda savadın yayılması ilə kitabxana və qiraətxanalara ehtiyac hiss edilməyə başladı. Mövcud dövlət təhsil müəssisələrinin nəzdindəki kitabxanalarla yanaşı, ictimai və xüsusi kitabxanalar da açılırdı. Məktəblərdəki açıqtipli şagird kitabxanaları sayca üstünlük təşkil edirdi. 1896-cı ildə Yelizavetpol quberniyasında 29 yaşayış məntəqəsindəki məktəb kitabxanalarından hamının istifadə etməsinə icazə verildi. 1899-cü ilin sonuna yaxın şəhər məktəblərində kitabların sayı 6297 cildə (4309 adda), orta təhsil müəssisələrində isə 17779 cildə (11180 adda) bərabər idi. Bu kitabxanalar demək olar ki, büsbütün şagirdlər üçün nəzərdə tutulmuş kitablarla təchiz olunmuşdu. Rus təhsil müəssisələrində həm də məhz müəllimlər üçün nəzərdə tutulmuş elmi, metodik, bədii və s. əsərlərdən ibarət əsaslı kitabxanalar var idi.

Məktəblərdən kənarda yerləşən ilk kütləvi kitabxanalar hələ 1859-cu ildə Şamaxı və Şuşada, 1868-ci ildə Gəncədə, sonralar - 80-ci illərdən - Bakı, Quba, Salyan və Lənkəranda təşkil edilmişdi. Nəzərdən keçirilən dövrün sonuna yaxın xüsusi və ictimai kitabxanaların sayı artır. 1897-ci il ərəfəsində Bakıda onların sayı 8-ə çatdı. Onların açılmasına qubernatorun icazəsi ilə yol verilirdi. Kitabxanalar adətən şəhərlərdə və çox nadir hallarda isə kənd yerlərində yaradılırdı. Məsələn, 70-ci illərin sonlarında ilk kənd xəzinə kitabxanasından biri Şamaxı qəzasının Altıağac kəndində təşkil edilmişdi. Bütün kitabxanalar maarif, daxili işlər və dini idarə orqanlarının üçqat nəzarəti altında idi. 1894-cü ilədək, demək olar ki, kitabxanalar şəbəkəsi ancaq rus dilini bilən oxuculara xidmət göstərirdi.

1894-cü ildə Bakıda S.Vəlibəyov, H.Mahmudbəyov, S.Qənizadə, Ə.Axundov və Ə.Cəfərzadənin yaxından iştirakı ilə N.Nərimanov tərəfindən təşkil edilmiş ilk Azərbaycan qiraətxanası Azərbaycanın mədəni həyatında çox mühüm rol oynadı.

Qiraətxana azərbaycanlı müəllimlərin yardımı, xüsusən, pyeslərin tamaşaya qoyulmasından əldə olunan gəlirlər və könüllü ianə, üzvlük haqları hesabına fəaliyyət göstərirdi. Qiraətxananın təşkilatçıları müxtəlif dillərdə çıxan 30-a yaxın dövri mətbu orqanlarına abunə yazılmış və Azərbaycan dilində kiçik kitab fondu toplamışdılar. 1897-ci ildə qiraətxananın nəzdində kitabxana da təşkil olundu. Mövcud olduğu elə birinci il ərzində qiraətxanaya 8255 nəfər, o cümlədən 3000 azərbaycanlı, 1897-ci ildə isə 25849 nəfər oxucu, o cümlədən 8679 azərbaycanlı gəlmişdi.

Xalq arasında "Nərimanovun qiraətxanası" adını almış bu kitabxananın kitab fondu müxtəlif dillərdə olan ədəbiyyatdan ibarət idi. Müvafiq olaraq onun oxucularının tərkibi də beynəlmiləl idi. Azərbaycanın bütün tarixi ərzində ilk dəfə olaraq azərbaycanlı əhalinin savadlı hissəsi minimum giriş haqqı (1-2 qəpik) müqabilində istədiyi ədəbiyyatdan istifadə etmək imkanı əldə etdi. Tez bir zamanda mütərəqqi Azərbaycan ziyalılarının geniş dairəsini ətrafında birləşdirən qiraətxana "Ziyankar" (yəni hökumət əleyhinə) istiqamətində fəaliyyət göstərdiyindən, qubernatorun hökmü ilə 1898-ci ildə bağlandı.

Digər Azərbaycan kitabxanası 1897-ci ildə Bakıda doktor Əbdülxalıq Axundov, S.Qəniyev və b. tərəfindən yaradıldı, lakin o, azömürlü oldu.

1896-cı ildə Rus texniki Cəmiyyətinin Bakı şöbəsi fəhlələr üçün Qaraşəhərdə (Azərbaycanda ilk pulsuz kitabxana-qiraətxana), sonra isə Balaxanı (1897-ci ildə), Ağşəhər və Bibiheybətdə də (1900-cü ildə) pulsuz kitabxana-qiraətxanalar açdı. Bu kitabxanalar fəhlələr arasında maarifin yayılmasında az iş görməmiş bakılı mühəndis A. S. Doroşenkonun adı ilə adlandırıldı.

1898-ci ildə Neft sənayeçiləri qurultayının Sabunçudakı xəstəxanası nəzdində kiçik kitabxana açıldı. Bakıda və b. yerlərdə də bir sıra kiçik kitabxana və qiraətxanalar mövcud idi, lakin möhkəm maddi bazanın olmaması üzündən onların ömrü qısa oldu.

Kitabxanaların sayının artması və təhsil müəssisələri şəbəkəsinin genişlənməsi kitab ticarəti və nəşriyyat işinin inkişafını şərtləndirirdi. 1895-ci ildə təkcə Bakıda 14 kitab mağazası və dükanı vardı. XIX yüzilliyin ikinci yarısında Azərbaycanda orta və ibtidai, o cümlədən peşə-texniki, rus-tatar məktəbləri və mədəni-maarif müəssisələri şəbəkəsinin müstəmləkəçilik məhdudluğuna baxmayaraq, yeni sosial-iqtisadi inkişafın təsiri altında genişlənməsi qanunauyğun hadisə idi. Bu məktəblər və kitabxanalar Azərbaycan cəmiyyətinin aşağı təbəqələrini müsəlman-türk mədəniyyətinə cəlb etməklə, onlarda milli özünüdərketmə hissinin oyanması əsaslarını da qoyurdu.

## § 2. MƏTBUAT

XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanın mədəni həyatının ən mühüm hadisəsi dövri Azərbaycandilli mətbuatın meydana gəlməsi idi. İstedadlı Azərbaycan publisistləri, ictimai xadimləri və öz dövrünün qabaqcıl mütəfəkkirlərinin bütöv bir nəslin bu mətbuatda sınaqdan keçmişlər.

Azərbaycan ictimaiyyətinin ayrı-ayrı nümayəndələri böyük çətinlikləri dəf edərək milli mətbuatın bünövrəsini qoymağa cəhd göstərirdilər. Qəzet nəşr etməyi qərara almış H.Zərdabi bu yolda böyük zəhmət sərf etmişdi. Qəzet nəşrinin təşkilində H.Zərdabiyə o zamankı Bakı qubernatoru D.S.Staroselski (1832-1884) xeyli yardım göstərmişdi. Bu adam maraqlı və parlaq şəxsiyyət idi. Digər çar inzibatçılardan fərqli olaraq Staroselski demokratik ruhlu, zəhmətkeş adamlara ürəkdən rəğbət bəsləyən insan idi. O, Azərbaycan

xalqının tarixinə, adət-ənənələrinə, onun dilinə canlı maraq göstərirdi. Onun cəhdləri ilə Bakı səhnəsində M.F.Axundovun bir sıra pyeslərinin ilk tamaşaçısı təşkil edilmiş, Şamaxıda üçsinifli məktəb açılmışdı. Məhz D.S.Staroselskinin vəsatəti ilə ilk Azərbaycan qəzetinin mətbəəsi üçün İstanbuldan şrift alınmış, elə qəzet də burada çap olunmağa başlamışdı.

"Əkinçi" qəzetinin ilk nömrəsi 1875-ci il iyulun 22-də işıq üzü gördü. Bu xəbər bütün Qafqazda geniş əks-səda doğurdu.

H.Zərdabi qəzetin buraxılmasını fövqəladə dərəcədə çətin şəraitdə təşkil etməli olurdu. Bütün redaksiya bir nəfərdən ibarət idi: H.Zərdabi qəzetin təkcə naşiri və redaktoru deyil, həm də onun korrektoru, bəzən isə hətta mürəttibi idi.

1875-1877-ci illərdə "Əkinçi"nin 56 nömrəsi çıxmışdı. İlk dövrlərdə bu qəzetin buraxılışı maliyyə cəhətdən zərər gətirirdi. Geniş kütlələrin "Əkinçi"yə marağını oyatmaq üçün H.Zərdabi qəzetin pulsuz yayılması vasitəsinə də əl atdı.

H.Zərdabi tədricən "Əkinçi"nin ətrafında ziyalılar və təhsil alan gənclərdən ibarət kifayət qədər böyük bir fəallıq qrupunu birləşdirdi. S.Ə.Şirvani, N.Vəzirov, A.Adıgözəl, Moskvada Petrovski Kənd Təsərrüfatı Akademiyasında ali təhsil almış Əsgər ağa Gorani, Hacı Məmədsadıq (Əbülhəsən Həvail), Mirzə Həsən Əl-qədəri, Ələkbər Heydəri, Məhbus (Əli Mədəd) Dərbəndi və başqaları qəzetlə fəal əməkdaşlıq edirdilər. M.F.Axundov da "Əkinçi"nin səhifələrində çıxış edirdi. Cənubi Qafqaz və Dağıstan şəhərlərində, İranda qəzetin öz müxbirləri var idi. H.Zərdabi o zaman Peterburq, Moskva, Tiflis, İrəvan və Gəncədə, habelə digər yerlərdə işləyən azərbaycanlı, gürcü, rus və erməni dostları ilə geniş əlaqələr saxlayırdı. Qəzetin nəşrinin bütün müsəlman Şərqi üçün böyük əhəmiyyəti var idi. "Əkinçi" beynəlxalq əks-səda doğurmuşdu. Bu qəzet bütün Şərq dünyasının Avropa üsulunda nəşr olunmuş birinci mətbu orqanı idi. Onu həm də Qərb ölkələrində tanıyırdılar.

"Əkinçi" mütərəqqi maarçı, demokratik ideyaları təbliğ edir, mövhumata, cəhalətə və avamlığa qarşı çıxır, azərbaycan gerçəkliyinin bir çox zəruri problemlərini qaldırırdı. Qəzet öz dövrünü keçirmiş sosial-iqtisadi qaydaloarı aradan qaldırmaq və azadlığa çıxmaq üçün məhz elm və maarifin ən mühüm vasitə rolu oynadığına əmin olaraq, xalq kütlələrinin maarifləndirilməsi ideyasını ardıcıl şəkildə və inadla müdafiə edirdi. O, təhsil və tərbiyə məsələlərinə xüsusi əhəmiyyət verir, məktəblərdə yeni təlim və tərbiyə üsullarının tətbiq edilməsinə tərəfdar çıxırdı: "Əkinçi" Azərbaycanda qadın təhsilinin, qadınların ictimai həyata cəlb olunmasının zəruriliyini müdafiə edən ilk Azərbaycan qəzeti idi.

Qəzet ana dilinin saflığı uğrunda yorulmaz mübarizə aparırdı. Azərbaycan milli publistika dilinin yaradılmasında bu qəzetin böyük xidməti vardı. "Əkinçi" Mirzə Fətəli Axundov ənənələrini inkişaf etdirərək, ədəbiyyatın xalq həyatının yaxşılaşdırılması uğrunda, ədəbiyyatda formalist cərəyanlara və diaqmistik ədəbiyyata qarşı da genişlənib, inkişaf etməsi uğrunda qətiyyətlə çıxış edirdi.

H.Zərdabi və onun redaktə etdiyi qəzet Cənubi Qafqaz xalqları arasında çoxəsrlik əlaqələrin möhkəmləndirilməsi ideyalarının qızğın təbliğatçısı kimi çıxış edir, bu xalqların daha da yaxınlaşması uğrunda mübarizə aparırdı.

"Əkinçi"nin demokratik ideyaları bəzi mürtəce bəylər, ruhanilər və çar məmurları tərəfindən narahatlıqla qarşılanırdı. Qaragüruhçular ona qarşı qalxmışdılar. Nəticədə 1877-ci

ilin əvvəllərində qəzetin abunəçilərinin sayı 300 nəfərə endi, bunlardan da 150-si kənd yerlərində idi. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsinin başlanması ilə çar senzurası qəzetdə siyasi xarakterli məsələlərə toxunmağı qadağan etdikdən sonra "Əkinçi" üçün ağır şərait yarandı. Belə ki, belə şəraitdə hökumət 1877-ci ilin sentyabrında qəzetin nəşrinin dayandırılması barəsində fərman verdi.

"Əkinçi" Azərbaycanda mütərəqqi ictimai fikrin inkişafında və bütövlükdə Azərbaycan mədəniyyətinin intişarında böyük rol oynamışdı. O, qısa müddət ərzində ən qabaqcıl ziyalıları öz ətrafında birləşdirmiş, Azərbaycan xalqının həyatının bir çox sahələrinə müsbət təsir göstərərək, geniş kütlələri maddi və mənəvi həyatda mütərəqqi dəyişikliklər uğrunda mübarizəyə çağırırdı.

"Əkinçi"nin nəşri dayandıqdan iki il sonra Tiflisdə Azərbaycan dilində başqa bir qəzet – "Ziya" çıxmağa başladı. Onun birinci nömrəsi 1879-cu il yanvarın 16-da çıxdı. Qəzet həftədə bir dəfə litoqrafiya üsulu ilə çap olunurdu, həcmi 4-8 səhifə idi. Qəzet 1880-ci ilə qədər çıxmış, onun 76 nömrəsi buraxılmışdı. 1880-ci il dekabrın 6-dan etibarən "Ziya" qəzeti "Ziyayi-Qafqaziyyə" adı altında çıxmağa başladı. Özü də bu qəzet mətbəə üsulu ilə çap olunurdu. Onun nəşri 1884-cü il iyunun 1-dək davam etdi. Bu müddət ərzində qəzetin 104 nömrəsi çıxdı. "Ziyayi-Qafqaziyyə" qəzeti daha geniş proqram üzrə nəşr olunurdu. Bu proqramda ictimai-siyasi problemlərə də geniş yer verilirdi. Lakin o, öz sələfi ilə müqayisədə irəliyə elə bir ciddi addım ata bilmədi. 1880-ci ildə Tiflisdə Seyid Ünsizadənin qardaşı Cəlal Ünsizadə tərəfindən "Kəşkül" adlı yeni qəzet nəşr olunmağa başladı. "Kəşkül" qəzetdən çox jurnala oxşayırdı. Onu naşiri təhsilli, Avropa və rus mədəniyyəti ilə tanış olan bir adam idi. "Kəşkül" öz ideya istiqamətinə görə "Əkinçi"yə yaxın idi. O. siyasət, ticarət, sənaye, sənətkarlıq və mədəniyyət məsələlərinə toxunurdu. Bəzi məlumatlara görə, Azərbaycan dilində nəşri ilə yanaşı, bir müddət bu qəzetin ərəb və fars dillərində variantlar da çap edilmişdir. 1884-cü il yanvarın 1-dən "Kəşkül" həftəlik qəzetə çevrildi və 1891-ci ilədək nəşr edildi. "Kəşkül"də publisistik məqalələr, dil, ədəbiyyat, incəsənət, ictimai-siyasi məsələlər üzrə yazılar, orijinal ədəbi parçalar, Avropa, Şərq və rus ədəbiyyatından tərcümələr çap olunurdu. Qəzet "Əkinçi"nin demokratik ənənələrini davam etdirərək, Şərq despotizmini, geriliyi, mədəni inkişaf yollarını göstərirdi. Eyni zamanda "Kəşkül" mütərəqqi Azərbaycan ziyalılarının köməyinə ümid bəsləyir, onlara arxalanır. Qəzet yazırdı: "Yeni başlanmış həyat yeni köməyə və təlimata möhtacdır. Ümid edirik ki, bizimlə yanaşı, millətin yaradılmış bu vərəqin nəşrinə kömək edəcəklər"

Rusiyanın mərkəzi şəhərlərində, Qori Müəllimlər Seminariyasında və başqa yerlərdə təhsil almış gənclər "Kəşkül" qəzetinin mütərəqqi təşəbbüslərini müdafiə edərək, onun ətrafına toplaşırdılar. "Kəşkül"ün başladığı hərəkatda Tiflisin rus ziyalıları, tərəqqipərvər Tiflis müəllimləri də iştirak edirdilər. S.Ə.Şirvani, F.Köçərli, M.Şahtaxtlı, A.Qayıbov və başqaları qəzetlə fəal surətdə əməkdaşlıq edirdilər. Qəzetin Bakı, Quba, Qarabağ və İrəvanda öz müvəkkilləri

vardı. Onlar qəzetin oxucularla əlaqəsinin möhkəmləndirilməsində az rol oynamırdılar. Qəzet Cənubi Qafqaz, Rusiya, Avropa və Asiya xalqların mədəni irsinin təbliğ edilməsinə böyük diqqət verirdi. Onun səhifələrində A.A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani və başqalarının yaradıcılığına geniş yer verilirdi. Redaksiya inkişaf etməkdə olan yeni demokratik ədəbiyyatın nümunələrinin çapına böyük diqqət yetirirdi. “Kəşkül” realist ədəbiyyatın əhəmiyyətini yüksəyə qaldırır, köhnə mədrəsələrdə islahat keçirilməsinə, yeni məktəblərin, kitabxana və teatrların açılmasına, digər milli mədəniyyət ocaqlarının Rusiyanın mərkəzi şəhərlərində, Qori Müəllimlər Seminariyasında və başqa yerlərdə təhsil almış gənclər "Kəşkül" qəzetinin mütərəqqi təşəbbüslərini müdafiə edərək, onun ətrafına toplaşırdılar. "Kəşkül"ün başladığı hərəkatda Tiflisin rus ziyalıları, tərəqqipərvər Tiflis müəllimləri də iştirak edirdilər. S.Ə.Şirvani, F.Köçərli, M.Şahtaxtlı, A.Qayıbov və başqaları qəzetlə fəal surətdə əməkdaşlıq edirdilər. Qəzetin Bakı, Quba, Qarabağ və İrəvanda öz müvəkkilləri vardı. Onlar qəzetin oxucularla əlaqəsinin möhkəmləndirilməsində az rol oynamırdılar. Qəzet Cənubi Qafqaz, Rusiya, Avropa və Asiya xalqlarının mədəni irsinin təbliğ edilməsinə böyük diqqət verirdi. Onun səhifələrində A.A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani və başqalarının yaradıcılığına geniş yer verilirdi. Redaksiya inkişaf etməkdə olan yeni demokratik ədəbiyyatın nümunələrinin çapına böyük diqqət yetirirdi. "Kəşkül" realist ədəbiyyatın əhəmiyyətini yüksəyə qaldırır, köhnə mədrəsələrdə islahat keçirilməsinə, yeni məktəblərin, kitabxana və teatrların açılmasına, digər milli mədəniyyət ocaqlarının təsis edilməsinə tərəfdar çıxırdı. Qəzet öz oxucularını həmçinin rus klassiklərinin əsərləri ilə tanış edir, Azərbaycan dilində rus ədəbiyyatından tərcümələr çap edirdi. Qəzet klassiklərin təbliğində müəyyən rol oynayırdı, Xəyyam, Sədi, Hafiz və başqalarının irsinə böyük əhəmiyyət verirdi.

Çar hökuməti Azərbaycan dilində mətbuat orqanlarının nəşrinə hər vasitə ilə mane olurdu. Məhz buna görə Ə.Ağaoğlunun, N.Nərimanovun, M.Şahtaxtlının, S.M.Qənizadənin, M.T.Sidqinin, S.Mehmandarovun və başqalarının bu sahədəki cəhdləri müvəffəqiyyət qazanmadı. Ana dilində qəzet və jurnalların çox məhdud miqyasda çap olunduğu bir şəraitdə Azərbaycan mədəniyyət xadimlərindən çoxu öz publisistik fəaliyyətlərini Qafqazın rusdilli mətbuatı vasitəsi ilə davam etdirir, İran, Türkiyə, Misir və Hindistanda çıxan qəzetlərin səhifələrində məqalələrlə ÇIXIŞ edirdilər.

Tiflisdə çıxan "Возрождение", "Закавказье" jurnallarında, "Закавказская речь. Еженеделное обозрение " qəzetində C.Məmmədquluzadə, Q.Qabulov-Şirvanski, Ə.Sultanov, N.Nərimanov, H.Minasazov "Müsəlman şöbələri" adında xüsusi rubrika açaraq, orada öz məqalələrini dərc edirdilər. M.Ə.Şahtaxtinski "Московкие ведемости" və "Новое время" qəzetlərinin İstanbuldakı müxbiri vəzifəsində işləyirdi [2]

N.Nərimanovun İ.B.Qaspirinskinin "Tərcüman" qəzetinde əməkdaşlıq etməsi faktı da məlumdur [3]. Beləliklə, XIX əsrin sonunda Azərbaycanda mətbuat

ilk addımlarını atmasına baxmayaraq, 25 il ərzində sürətlə inkişaf etmişdir. Bu illərdə 10 yaxşı həm azərbaycandilli, həm rusdilli mətbu orqanları işıq üzü görmüş Azərbaycan publisistikasında isə parlaq bir nəsil yaradıcı fəaliyyətini başlamışdı.

80-90-cı illərdə Bakıda rus mətbuat orqanları - əvvəlcə "Kaspi" qəzeti, (1881-ci ilin yanvarından) sonra isə "Биржевые ведомости" və başqa qəzetlər çıxmağa başladı. Azərbaycan o rus mətbuat orqanlarının sayının artması ilə əlaqədar olaraq Bakı, Şamaxı, Gəncə və b. şəhərlərdə ilk mətbəələr, litoqrafiyalar və digər poliqrafiya müəssisələri yaradıldı. 1889-cu ildə Bakıda beş mətbəə və bir litoqrafiya, Şamaxıda isə mətbəə və litoqrafiya fəaliyyət göstərirdi. 1900-cü ildə Bakıda artıq 16 mətbəə işləyirdi.

## § 3. ELMİN İNKİŞAFI.
## AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ FİKİR

Rusiyanın kapitalist yolu ilə inkişafının tələbatı ilə əlaqədar Azərbaycanın sənayesinə və təbii sərvətlərinə böyük maraq göstərilirdi. 60-cı illərin sonlarında yaradılmış Qafqaz dağ-mədən idarəsinin geoloqları və mühəndisləri Gədəbəyin, Daşkəsənin. Zəngəzuran, Naxçıvanın filiz yataqlarında çöküntülərin tərkibini, yatımını və əmələgəlmə səbəbini öyrənir, bu rayonların kiçik vo orta miqyaslı geoloji xəritələrini tərtib edirdilər. 1865-ci ildən illik geoloji "hesabatlar"ın və 1868-ci ildən "Qafqaz geologiyası üçün materiallar"ın nəşrinin geoloji fikrin inkişafında böyük əhəmiyyəti oldu.

Müstəmləkə iqtisadiyyatını daha da inkişaf etdirmək məqsədilə çar hökumət dairələri bir sıra tədbirlər həyata keçirirdilər. Abşeronda öz tədqiqatlarını davam etdirən Qafqaz geologiyasının atası Q.V.Abix yarımadadakı çöküntülərin stratiqrafik sxemini tərtib edərək, onun təsvirini verdi və palçıq vulkanları ilə neftlilik arasınıda da geoəlaqə olduğunu göstərdi. Q.V.Abixin ardınca rus və Avropa geoloqları K.İ.Lisenko, V.İ.Arxipov, T.B.Xalatov və b. Abşeron yarımadasında vulkanik hadisələri öyrənir, yarımadanın daha ətraflı stratiqrafik sxemi olan geoloji xəritəsini tərtib edir, neft mədənlərinin geoloji xarakteristikasını verirlər. 80-ci illərin əvvəllərində yenicə yaradılmış Rusiya Geologiya Komitəsinin tapşırığı ilə Abşeron yanmadasının neftli çöküntülərinin kəşfiyyat xarakterli tədqiqi başlandı. Neftli torpaqların geoloji nizamının öyrənilməsi, neftin mənşəyi və miqrasiyası, neft mədənlərinin quruluş xəritələrinin tərtibi üzrə XIX yüzilliyin sonlarında böyük iş görülmüşdü.

Neft geologiyası ilə sıx əlaqədə neft kimyası da inkişaf edirdi. Bakı neftinin kimyəvi cəhətdən tədqiqinin əsası neft işinin vəziyyətini öyrənmək məqsədilə üç dəfə (1876, 1880, 1886-cı illərdə) buraya gəlmiş D.İ.Mendeleyev tərəfindən qoyulmuşdur. O, neftin distillə edilməsinin fasiləsiz parçalanma prinsipini təklif etmiş, onun karbid mənşəli olması fərziyyəsini irəli sürmüş, sürtgü yağlarının istehsal texnologiyasını işləyib hazırlamış, neft məhsullarının xüsusi

çəki cədvəlini tərtib etmişdi. V.İ.Raqozin, K.İ.Lisenko və b. əsərləri Bakı neftinin kimyəvi tərkibinin öyrənilməsində mühüm əhəmiyyət kəsb etdi.

Paralel olaraq neft avadanlığı və neft texnologiyası sahələrində də elmi-texniki fikir inkişaf etməyə başlamışdı.

Rus Texniki Cəmiyyətinin 1879-cu ildə açılmış Bakı şöbəsi neft quyularının qazılması texnikası və metodlarının, neft məhsullarının analizi və təmizlənməsi üsullarının təkmilləşdirilməsinə böyük kömək göstərdi. Azərbaycanlı mütəxəssislər M.Hacınski, İ.Rzayev, F.Rütəmbəyov, A.Mirzəyev və b. bu cəmiyyətin üzvləri idilər.

80-90-cı illərdə Bakının neftayırma zavodlarında neftin kimyəvi emalı üzrə laboratoriyalar fəaliyyətə başlayır. Strasburq Universitetində ali təhsil almış, üzvi kimya sahəsində ilk azərbaycanlı kimyaçı alim Mövsüm bəy Xanlarov (1857-1921) bu laboratoriyaların birində tədqiqat işinə başladı. Almaniyada məşhur üzvi kimyaçı Rudolf Fittiqin laboratoriyasında işləyərkən M. Xanlarov kimya doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdi. O, Almaniyada özünün iki əsərini çap etdirmişdi. Onlardan biri-"Tiouksus turşusunun rodanlı etilə təsiri" adlı əsəri "Alman kimya cəmiyyətlərinin hesabatları”nda, digər "Butirolakton və a-etil-butilo-lakton haqqında" adlı əsəri isə "Alman kimya salnaməsi"ndə nəşr olunmuşdu. Bakıya gəldikdən sonra o, böyük rus alimi D.İ.Mendeleyev və başqalarının zəmanəti ilə Rus Fiziki-Kimya Cəmiyyətinə üzv qəbul edilmişdi. M.Xanlarov Bakıda özünün laktanlar haqında tədqiqatını davam etdirmişdi. Bu dövrdə Bakının neftayırma zavodlarında Xanlarovdan başqa, Rusiya və Avropada, ali təhsil almış bir sıra digər azərbaycanlı kimyaçıları S.P.Qəmbərov, İ.T.Əmirov, A.İ.Babayev və b. da işləyirdi.

XIX yüzilliyin ikinci yarısında kənd təsərrüfatının intensivləşdirilməsi biologiya, kənd təsərrüfatı və təbabətə dair biliklərə tələbatı artırırdı. Rus və Avropa torpaqşünasları, botanikləri, zooloqları, dendroloqları Azərbaycanın torpaq örtüyünü, bitki və heyvanlar aləmini öyrənməyə başladılar. Rus alimləri Kür-Araz və Şirvan ovalıqlarını, Quba və Lənkəran düzənliklərini, Talış meşə massivlərini tədqiq edir, onu landşaft-coğrafi zonalara bölməyə cəhd göstərir, əkinçilik və aqrotexnikanın əsas vəzifələrini müəyyənləşdirirdilər.

Eyni zamanda rus və Avropa alimləri, aqronomları, texnoloqları, iqtisadçıları pambığın, tütünün, baramanın, üzümün, qızıl boyanın, balığın becərilməsi və yetişdirilməsinin, onların saxlanılmasının, emalının və daşınmasının elmi metodları və zəruri olan alət və vasitələri haqqında çoxlu kitab və məqalələr nəşr edirlər. Onların tədqiqatları yerli ziyalılarda, praktiki olaraq əkinçiliklə, bağçılıqla, heyvandarlıqla məşğul olan adamlarda kənd təsərrüfatı va bioloji elmlərə yüksək maraq doğururdu. 1895-ci ildə Azərbaycanda bir sıra nümunəvi pambıq sahələri, Bakı şəhərində isə ilk ixtioloji laboratoriya fəaliyyət göstərirdi. 1878-ci ildən başlayaraq rus dilindən Azərbaycan dilinə tərcümə edilmiş elmi-kütləvi kitabçalar nəşr olunur ki, onlarda pambığa və baramaya qulluq etməyə.

meliorasiyaya, heyvanlarda vəba, taun epidemiyalarının qarşısını almağa dair praktiki məsləhətlər verilirdi. İ.Q.Əlibəyov, A.Rüstəmov, Cavanşir Qarabaği və b. dövri mətbuatda kənd təsərrüfatı və tibbi mövzularda çıxış edirdilər. Həkimlərin Qafqaz Cəmiyyətinin Bakı şöbəsi böyük elmi-kütləvi tədbirlər həyata keçirirdi. Azərbaycanlı həkimlər Ə.K.Mehmandarov, M.R.Vəkilov, A.X.Axundov həkimlik fəaliyyəti ilə yanaşı, elmi-tibbi fikrin inkişafına böyük əmək sərf edirdilər. Həkim A.X.Axundov Almaniyada İbn Sinanın təbabət qanunu haqqında dissertasiya müdafiə etdi. Həkim Ə.K.Mehmandarov 1893-cü ildə Qafqaz həkimlərinin birinci qurultayında Yelizavetpol quberniyasının Cavanşir qəzasında tez-tez baş verən vəba epidemiyası səbəblərinin öyrənilməsinə həsr olunmuşn xüsusi məruzə ilə çıxış etdi [4]. Lakin XIX yüzilliyin son qərinəsində Azərbaycanda biologiya, kənd təsərrüfatı və təbabət üzrə biliklərin yayılması və inkişafı daha çox *Həsən bəy Zərdabinin* (1842-1907) adı ilə bağlıdır.

H.Zərdabi orta təhsilini Şamaxı və Tiflisdə, ali təhsilini isə Moskvada almışdı. O, 1865-ci ildə Moskva Universitetinin təbabət elmləri şöbəsini bitirmişdi. İnqilabi əhvali-ruhiyyəli rus ziyalıları arasında yaşayan Zərdabi Universitetdə təhsil aldığı illərdə N.Q.Çernışevski, N.A.Dobrolyubov və D.İ.Pisarevin mütərəqqi dünyagörüşlərini öyrənib mənimsəmiş, şair A.N.Pleşşeyevlə, tarixçi S.M.Solovyovla yaxınlıq etmişdi. Vətənə qayıtdıqdan sonra Zərdabi geniş elmi-pedaqoji və publisist fəaliyyətinə başladı: Bakı məktəblərində təbiət tarixindən dərs deyir (1869-1879-cu illər), ilk milli qəzeti - "Əkinçi"ni nəşr etdirir (1875-1877-ci illər), "Kaspi" qəzetində işləyir (1896-1907-ci illər), yerli əhali arasında yorulmadan təbii-elmi, kənd təsərrüfatı və tibbi bilikləri yayır, zəhmətkeş xalqın, xüsusilə kəndlilərin mənafeyinin mülkədar-bəylər və çar məmurları tərəfindən tapdanılmasına qarşı açıq çıxışlar edirdi.

H.Zərdabi təbiətşünaslıq, kənd təsərrüfatı və sosial-iqtisadi mövzularda çoxlu əsərin müəllifidir. O çox geniş diapazona malik alim idi, mədəniyyətin, astronomiyanın, biologiyanın, aqrotexnikanın, təbabətin, sənayenin nailiyyətləri onu eyni dərəcədə maraqlandırırdı. O bu sahələrin bir çoxuna dair tamamilə orijinal ideya və fikirlər söyləmişdir.

H.Zərdabinin elmi yaradıcılığı o dövrün rus və Avropa təbiət elmləri ilə sıx bağlı idi, onun bir çox problemlərini özündə cəmləşdirirdi. Görkəmli rus və Avropa təbiətşünasları ilə birlikdə Zərdabi də Yerin yaranması, burada həyatı meydana gətirmiş materiyanın Kainatda əbədi dövranı haqqında o dövrdə elmdə bərqərar olan ideyanın tərəfdarı idi. O özünün bir çox əsərlərində Kant-Laplasın Günəş sistemi mənşəyinin ilkin qazabənzər duman kütləsindən ibarət olması fikrini müdafiə edirdi. H.Zərdabi güman edirdi ki, ulduzlar və onların sistemləri dünya materiyasının qanunauyğun inkişafı sayəsində yaranır və ölür. Bəzi bürclərdə yeni ulduzların meydana gəlməsinin səbəblərini izah edən azərbaycanlı alim yazırdı: "...Yeni ulduzların meydana gəlməsi təsadüfi hadisə olmayıb, dünya cisimlərinin və Günəş sisteminin qanunauyğun inkişafında müəyyən pillədir" [5].

H.Zərdabi dünyanın maddi cəhətdən yekcinsliyinin təsdiq olunmasında spektral analizin rolunun izahına xüsusilə çox yer verirdi. O yazırdı: "Əlbəttə, bizimki də daxil olmaqla saysız-hesabsız günəşlər eyni qaydada yaranmışlar, cazibənin eyni qanunlarına tabe olurlar və spektral analiz sübut etmişdir ki, onlar, demək olar ki, eyni maddələrdən ibarətdirlər" [6].

H.Zərdabinin elmi və təcrübi yaradıcılığı Azərbaycanda kənd təsərrüfatı və biologiya elmlərinin bütün sonrakı inkişafına səmərəli təsir göstərdi. H.Zərdabinin ardınca Rusiya kənd təsərrüfatı elminin və təcrübəsinin nailiyyətlərini Moskva Petrovski-Razumovski adına Kənd Təsərrüfatı Akademiyasının məzunu *Nəcəfbəy Vəzirov* da təbliğ edirdi. O hələ tələbə ikən özünün "Əkinçi" qəzetinə məktublarında akademiyanın təcrübə stansiyalarında kənd təsərrüfatı bitkilərinin yetişdirilməsi üsulları, heyvanlara qulluq etmək qaydaları, elm və texnika sahəsində aparılan tədqiqatlar və yeniliklər haqqında məlumat verirdi [7]. Sonralar meşəbəyi işləyən N.Vəzirov meşə təsərrüfatının aqrotexnikasına dair maraqlı əlyazması qoymuşdur [8]. Azərbaycanda bioloji və kənd təsərrüfatı bitkilərinin yayılmasında bu akademiyanın digər məzunu Məmmədtağı Əliyev də fəal iştirak edirdi.

**Tarixşünaslıq.** XIX yüzilliyin ikinci yarısında Azərbaycanda tarixi biliklər inkişaf etməkdə davam edirdi. Azərbaycanın tarix və mədəniyyətinin tədqiqində yenə də əvvəlki kimi ümumi arxeoqrafik təsvirdən diyarın qədim və orta əsrlər tarixi, Rusiyanın Qafqazdakı müharibələri və hökmranlığına dair dövri materialların konkret olaraq öyrənilməsi və keçən rus və Avropa tarixçiləri, şərqşünasları, arxeoloqlarının tədqiqatlarında böyük fəallıq nəzərə çarpır. Azərbaycan tarixçiləri orta əsrlərin tarixi ənənələrini inkişaf etdirərək öz əsərlərini əsasən Qarabağın, Lənkəranın və Talışın xanlıqlar dövrü tarixinə, onların Rusiya tərəfindən işğalından əvvəl baş vermiş hadisələrə həsr edirdilər. Belə əsərlərdən birinin müəllifi Mirzə Yusif Qarabaği (1798-1864) idi. Azərbaycan, erməni və fars dillərini yaxşı bilən, şərh etdiyi hadisələrin çoxunun şahidi olan Mirzə Yusif 1855-ci ildə fars dilində "Tarixi-safi"ni yazmışdır. Burada Qarabağ xanlığının tarixi, Rusiya-İran müharibələrin gedişi [9].

Cənubi Qafqazın Rusiya tərəfindən işğalı təsvir edilmişdir. Mirzə Yusifin əsəri, xüsusilə onun ikinci hissəsi XVIII yüzilliyin ikinci yarısı-XIX yüzilliyin əvvəlində Azərbaycan tarixini və XVIII yüzilliyin sonu-XIX yüzilliyin əvvəlində Rusiya-İran münasibətlərini öyrənmək üçün mühüm əhəmiyyət kəsb edir. Əsərdə XVIII yüzilliyin sonunda İran ordularının Şimali Azərbaycana hücumu zamanı Şuşanın müdafiəsinə, XIX yüzilliyin əvvəllərində Rusiya-İran müharibəsinə dair müfəssəl məlumat verilir.

Qarabağın qədim və zəngin tarixi XIX yüzilliyin ikinci yarısında yenə diqqəti cəlb edirdi. *Rzaqulu bəy Cavanşir* 70-ci illərdə öz atası Mirzə Camalın "Qarabağnamə"sinə bəzi əlavələr etmişdi. Azərbaycanın qədim tarixinin bilicisi, ərəb və fars dillərinə mükəmməl yiyələnmiş və "Xəzani" təxəllüsü ilə şeirlər yazarı

*Mir Mehdi Haşımzadə* (1819-1894-cü illər) 80-ci illərdə Qarabağın müfəssəl tarixini tərtib etmişdi. Onun "Kitabi-tarixi-Qarabaği" adlı əsərində bu xanlığın 1747-ci ildən 1828-ci ilə qədərki tarixi təsvir olunur [10]. Xəzaninin əlyazmasında yerli əhalinin diyarda baş verən siyasi hadisələrə, o cümlədən İran işğalçılarına münasibəti barədə bəzi mühüm məlumatlar verilir.

Qarabağ xanlığının elə həmin dövrə dair bir qədər kompilyati xarakterli tarixini fars, ərəb, rus dillərini mükəmməl bilən, bu yerlərin keçmişi ilə dərindən maraqlanan Şuşa realnı məktəbinin müəllimi *Həsənəli xan Qaradaği* (1847-1928-ci illər) hazırlamışdı Öz dövrünə görə yaxşı təhsil almış Həsənəli xan həm də şeirlə yazırdı. XVIII yüzilliyin ikinci yarısı - XIX yüzilliyin əvvəllərindəki hadisələri əhatə edən bu əsərdə müəllif öz sələflərinin məlumatlarını bir çox halda tənqidi şəkildə şərh edir, onlara əlavələ edir və dəqiqləşdirir.

Peterburq kadet korpusunun məzunu *Əhməd bəy Cavanşir* (1828-1903-cü illər) 1883-cü ildə Qarabağ xanlığının tarixinə da rus dilində kiçik, lakin çox maraqlı və məzmunlu əsər yazmışdı Rus dilini yaxşı bilən və zəngin şəxsi kitabxanası olan Əhməd bəy Cavanşir ədəbi yaradıcılıqla məşğul olur, tez-tez "Qafqaz", "Новое обозрение" qəzetlərinin səhifələrində çıxış edirdi. O, M.Y.Lermontovun "Mtsıri" poemasını Azərbaycan dilinə tərcümə etmişdi. Əhməd bəy Cavanşirin "1747-ci ildən 1805-ci ilə qədər Qarabağ xanlığnın siyasi tarixinə dair" əsərində lüzumsuz təfərrüata varmadan ilk mənbələr əsasında Qarabağ xanlığının siyasi tarixi qısa, xronoloji ardıcıllıqla şərh edilir, Ağa Məhəmməd şah Qacarın Qarabağa hücumu və Şuşanın mühasirəsi zamanı yerli əhalinin onun ordusuna neçə böyük müqavimət göstərdiyindən danışılır [11].

Azərbaycanın digər tarixi hadisələrinə həsr olunmuş əsərlər də meydana çıxırdı. Talış xanlığının və Lənkəran şəhərinin tarixini doğma Azərbaycan dilindən əlavə, fars, ərəb və rus dillərini bilən *Seyid Əli Kazım bəy oğlu* (anadan olduğu və öldüyü illər məlum deyil) və rus xidmətində olmuş *Mirzə Əhməd Mirzə Xudaverdi oğlu* (1792-ci ilin oktyabrında anadan olmuş - XIX yüzilliyin 90-cı illərində vəfat etmişdir) tərtib etmişlər. Seyid Əli Kazım bəy oğlunun "Cavahimameyi-Lənkəran" adlı əlyazması 1869-cu ildə fars dilində yazılmışdır və Lənkəran, Talış haqqında çoxlu coğrafi, iqtisadi, arxeoqrafik məlumatlarla zəngindir. Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun 1882-1883-cü illərdə fars dilində yazdığı "Əxbərnamə" adlı əlyazması xatirə xarakteri daşıyır, burada xanlığın Rusiya tərəfindən işğalı zamanı yaranmış böhranlı şəraitdə Talış xanlığının mövqeyinə haqq qazandırmağa cəhd göstərilir.

Uzun müddət Şəkidə və Gəncədə şəriət və bəy məhkəmələrində işləmiş *Hacı Seyid Əbdülrəhim* (1796-cı ildə anadan olmuşdur) Şəki xanlığının tarixi mövzusuna qayıdır. Onun "Şəki xanlığının və xanların nəsillərinin şəcərəsi" adlı salnaməsində Şəki və onun hakimləri haqqında bəzi əlavə məlumatlar verilir [12].

Çingiz xan imperiyası dövründə Rusiya işğalına qədər İran şahlarının Şimali Azərbaycana müdaxilələri 1848-ci ildən Tiflisdə və Şuşada yaşamış İran

şahzadəsi *Abbas Mirzənin oğlu Bəhmən Mirzə* (1808-1884-cü illər) tərəfindən işıqlandırılmışdır. Onun 1871-ci ildə fars dilində yazılmış "Şükümameyi-şahənşahi" adlı əlyazması başdan-başa rus çarının ünvanına təriflərdən ibarətdir.

Beləliklə, XIX yüzilliyin ikinci yarısında Azərbaycan tarixşünaslarının əksəriyyəti yenə əvvəlki kimi əsasən ayrı-ayrı xanlıqların tarixinə həsr olunmuş yerli salnamələr yazırdılar. Bu salnamələr, bir qayda olaraq kompilyativ xarakter daşıyır, əsasən müvafiq bölgələrin siyasi hadisələrini işıqlandırırdı. Onlarda Azərbaycanın ümumi tarixini yaratmağa cəhd göstərilmirdi. Lakin bununla belə adları çəkilən salnaməçilərin əsərləri tarixi biliklərin artmasına və yayılmasına yardım göstərdi. Onların müəllifləri Azərbaycanın Rusiya tərəfindən işğalına, ara müharibələrinə, xarici işğallara son qoyan, ölkə üçün dinc və sakit həyatı təmin edən hadisə kimi baxırdılar.

Azərbaycanın və bütün Yaxın Şərqin tarixinin ayrı-ayrı məsələləri XIX yüzillikdə Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri M.F.Axundovun, Ə.Ağayevin, N.Nərimanovun, S.M.Qənizadənin, H.Mahmudbəyovun, F.Köçərlinin, F.Sultanovun, Ə.Hüseynzadənin, C.Hacıbəyovun, M.T.Sidqinin və başqalarının əsərlərində əks olunmuşdu. Mütəxəssis tarixçi olmamalarına baxmayaraq, onlar o dövrdəki dövri mətbuatda - "Qafqazın vilayət və tayfalarının təsviri üçün materiallar məcmuəsi"ndə, "Qafqaz", "Новое обозрение", "Kaspi" və s. orqanlarda elmi məqalə və məlumatlarla çıxış edirdilər. Onların çıxışları Azərbaycanda tarix elminin inkişafında yeni istiqamətin - maarifçi tarixşünaslığın əsasını qoydu. Bu baxımdan tarixi mövzuların şərhinə tamamilə yeni qaydada yanaşan M.F.Axundovun məqalələri, Yaxın Şərq ölkələrinin tarixinə ekskursları onun yalnız orta əsr Şərq mənbələrini dərindən bilməsinə deyil, həm də materialı yeni realist metodla təqdim etməsinə əsaslanırdı.

1862-ci ildə fars dilində yazdığı "Tənqidi qeydlər" məqaləsində M.F.Axundov İran alimi Rzaqulu xan Hidayətin "Rövzətüs-Səfai nasiriyyə" əsərini təhlil edir. O, tarixi hadisələrin səbəblərini təhlil etmək əvəzinə, zalım və qaniçən şahların şəxsiyyətini və hərəkətlərini mədh edən İran saray tarixçilərinin, xüsusən Mirzə Mehdi xan Astrabadinin əsərlərini kəskin tənqid edir [13]. İran mədhiyyə tarixşünaslığına qarşı tənqidi iradlar M.F.Axundovun məşhur fəlsəfi traktatı "Kəmalüddövlə məktubları"nda da öz inikasını tapır. Qafqaz arxeologiyasının üzvü olan M.F.Axundov bir çox rus şərqşünasları ilə yazışır və şəxsi dostluq münasibətləri saxlayırdı.

Tarixi biliklərin inkişafında H.Zərdabinin XIX yüzilliyin sonuncu qərinəsində Azərbaycanın sosial-iqtisadi inkişafına dair məqalələrinin böyük əhəmiyyəti var idi. Bu məqalələrdə maarifçilik mövqeyindən Cənub-Şərqi Qafqazda geriliyin səbəbləri araşdırılır, xalq təsərrüfatının vəziyyəti və inkişaf perspektivləri, kənddə kapitalist münasibətlərinin yaranması, kəndlilərin müflisləşməsi və yoxsullaşması, xarici kapitalın Bakı neft sənayesinə nüfuz etməsi məsələləri işıqlandırılırdı.

Şamaxı realnı məktəbində Şərq dillərindən dərs deyən şair *S.Ə.Şirvani* (1835-1888-ci illər) Azərbaycanın tarixi keçmişini böyük maraqla öyrənirdi. O, Azərbaycan tarixinə dair iki əsər yazmışdır: "Şirvan xanlığının tarixi" və "Şirvanın keçmişi və görkəmli yerləri haqqında məlumatlar". Onlardan birincisi bizə qədər gəlib çatmamışdır və güman ki, Şirvanın hərbi-siyasi tarixindən, Şirvanşahların şəcərəsindən bəhs edirdi. İkincisi isə şairin doğma diyarının arxeologiyasına, etnoqrafiyasına, maddi mədəniyyət abidələrinə həsr olunmuşdur [14].

**Ədəbiyyatşünaslıq və ədəbi tənqid** sahələrində də nəzərəçarpacaq irəliləyiş müşahidə edilirdi. Köhnə pozitiv təsvirlərdən - təzkirələrdən fərqli olaraq Azərbaycan və dünya ədəbiyyatındakı obrazları ciddi analitik təhlil edən kitablar və məqalələr meydana gəlirdi. Başqa sahələrdə olduğu kimi, burada da Qafqaz, Mərkəzi Rusiya və Avropa mətbuatında ayrı-ayrı Azərbaycan yazıçılarının, alimlərinin, mütəfəkkirlərinin həyat və yaradıcılığı haqqında yazan rus və Avropa şərqşünas alimləri, ədəbi tənqidçilər nümunə göstərilirdilər. B.A.Dorn, M.İ.Brosse, N.V.Xanıkov, A.P.Berje kimi bir çox şərqşünaslar, V.Q.Belinski, Y.A.Verderovski, V.A.Drujinin, N.Q.Çernışevski kimi ədəbi tənqidçilər Azərbaycanın ayrı-ayrı yazıçı və alimlərinin həyat və yaradıcılığı haqqında xeyli tərifli fikir və rəylər söyləmişlər.

Ədəbi yaradıcılığa yeni münasibət, bədii və elmi əsərlərə rus və Avropa tənqidçiləri və alimləri tərəfindən verilən qiymətin təsiri altında yeni ədəbi tənqid və ədəbiyyatşünaslıq meydana çıxdı. Azərbaycanda ədəbi tənqidin və ədəbiyyatşünaslığın əsasını M.F.Axundov qoymuşdur. O, ilk dəfə eyni zamanda "tənqid" terminini işlətməyə başladı. Azərbaycan ədəbiyyatında ilk tənqidi məqalələr - "Poeziya və nəsr haqqında", "Tənqidi qeydlər" və s. M.F.Axundovun qələminə məxsusdur. O, köhnə dəbdəbəli, məzmunsuz Şərq poeziya və nəsrini tənqid edir, Azərbaycan və dünya ədəbiyyatının ən yaxşı mütərəqqi ənənələrini, ədəbiyyatda və incəsənətdə realizm prinsiplərini müdafiə edir, "təmiz" formalist incəsənətə qarşı çıxış edirdi.

Ədəbiyyat tarixi və nəzəriyyəsi ilə həmçinin H.Zərdabi. F.Köçərli, N.Nərimanov, M.T.Sidqi, Mirzə Əbülhəsən Vəzirov, Mirzə Yusif Qarabaği, Mir Möhsün Nəvvab da məşğul olurdular. Onlar özlərinin publisistik və bədii əsərlərində ədəbiyyat və bədii yaradıcdıq haqqında çoxlu fikir və mülahizələr söyləmiş və irəli sürmüşlər. Mirzə Yusif Qarabağinin 50-ci illərin sonlarında hazırlayıb çap etdirdiyi "Məcmueyi əşari Vaqif və sair müasirləri" kitabında Azərbaycan şairləri haqqında nadir bioqrafik məlumatlar verilir. Qarabağın yüzdən çox şairinin poetik yaradıcılığı və tərcümeyi-halı barədə məlumat verən əsər yüzilliyin sonunda Mir Möhsün Nəvvab tərəfindən tərtib edilmişdi. N.Nərimanov, F.Köçərli özlərinin ədəbi-tənqidi məqalələrində ədəbiyyat və incəsənətin vəzifələrini şərh edir, onların təlim və tərbiyəvi əhəmiyyətini qeyd edirdilər. 1899-cu ildə N.T.Sidqi Naxçıvanda A.S.Puşkinin yaradıcılığı haqqında geniş məruzə ilə çıxış edir. Eyni zamanda dilçilik və ədəbi dil məsələlərinə də xeyli diqqət verirdi.

Müəllimlərdən S.M.Qənizadə, R.Əfəndiyev, H.Mahmudbəyov, N.Nərimanov özlərinin dərsliklərində, lüğətlərində Azərbaycan dilinin lüğət fondu və qrammatik quruluşu haqqında qiymətli fikirlər söyləmişlər. Ağamirzə Əli Mustafa oğlu Bakuvi Azərbaycan ədəbi dilinin ilk lüğətlərindən birini - "Tacridüllüğət"i (Seçilmiş sözlərin lüğəti) tərtib edir. XIX yüzilliyin ikinci yarısında dövrün mənəvi tələbatına uyğun olaraq yeni, maarifçi fəlsəfə meydana gəlir və inkişaf edirdi. Bu dövrdə rus və Avropa elm və fəlsəfəsi ilə təmasda olan maarifçi demokratların bütöv nəsli yetişmişdi. Onların arasında ən görkəmlisi M.F.Axundov idi. Rus nəşrləri vasitəsilə M.F.Axundov Qərbi Avropa elmi-fəlsəfi ədəbiyyatı ilə tanış olmuşdur. O özünün fəlsəfə və ədəbiyyatşünaslığa dair əsərlərində tez-tez Homerin, Sokratın, Platonun, Aristotelin, Hippokratın adlarını çəkir. Axundov Petrarka, Spinoza, Şekspir, Volter, Monteskye, Russo, Volter və b. haqqında fikirlər söyləmişdir. Onun Holbax haqqında qeydləri saxlanılmışdır. Bu qeydlərdə Azərbaycan mütəfəkkiri fransız filosofunun materializmini dəqiq xarakterizə edir. M.F.Axundovu dövrün hüquqi və əmlak bərabərliyi haqqında təlimləri də cəlb edirdi. O qeyd edirdi ki, hüquqi bərabərlik aydın və təbiidir. O, bütün silki imtiyazları ləğv etməyi, bütün insanların qanun qarşısında bərabərliyini tələb edirdi. M.F.Axundov yazırdı ki, əmlak bərabərliyinin həyata keçirilməsinin mümkünlüyü isə hələlik filosoflar arasında mübahisəli qalır. M.F.Axundov öz dövrünün təbiətşünaslığı haqqında kifayət qədər məlumata malik idi. Onun əsərlərində biz "Yer kürəsinin hərəkətini kəşf etmiş" Kopernikdən, "səma cisimlərinin cazibə qüvvəsini tapmış" Nyutondan, "Avropa xalqlarının bugünkü tərəqqisinin günahkarları" olan, "buxar və elektriki bizim üçün kəşf etmiş" Uatt və Faradeydən iqtibaslara rast gəlirik. Axundov elmi (kimyadan, fizikadan, təbabətdən baş çıxarır, onların köməyilə paslanan metalları qızıl və gümüşə "çevirməklə", köhnə qəbirlərdə öz-özünə yanan maddələrin alışmasını "sirli işıqlanma" kimi qələmə verməklə sadə xalqı aldatmağa cəhd göstərən müxtəlif fırıldaqçıları ifşa edirdi. M.F.Axundov hələ 1850-ci ildə yazdığı məşhur "Hekayəti Müsyö Jordan həkimi-nəbatət və Məstəlişah cadukuni məşhur" komediyasında özünün botanika sahəsində xeyli biliyə malik olduğunu büruzə verir.

Yeni elm və fəlsəfənin nailiyyətlərini bilmək, elmiliyin Avropa meyarlarını mənimsəmək Axundovu bütün müsəlman mədəniyyətini yenidən dərk etməyin vacibliyi qənaətinə gətirmişdi. M.F.Axundov 1863-1865-ci illərdə özünün məşhur fəlsəfi traktatını - "Kəmalüddövlənin İran şahzadəsi Cəmalüddövləyə üç məktubu və sonuncunun ona cavabı" əsərini yazır. Burada Avropada olmuş şahzadə ilə heç vaxt öz ölkəsindən kənara çıxmamış şahzadənin məktublaşması formasında İranda monarxiya üsul-idarəsinin, dini fanatizmin, iqtisadi və mədəni geriliyin dəhşətli mənzərəsi verilir. Axundov bir sıra dərin məzmunlu məqalələrin - "Filosof Yuma cavab", "Babi məsləki", "Yek kəlmənin tənqidi", "Molla Rumi və onun əsərləri haqqında" əsərlərin də müəllifidir.

Axundov fəlsəfi əsərlərinin əsas məzmununu Şərq despotizminin tənqidi, fəlsəfi materializmin, parlament idarə formasının müdafiəsi və əsaslandırılması təşkil edir. İslamın mənşə və mahiyyətini, onun ehkamlarını, ayinlərini, hüququnu dərindən təhlil edən M.F.Axundov din və dini ideologiyanın müsəlman xalqlarının şəxsi və ictimai həyatında oynadığı rolu nümayiş etdirirdi.

Axundov fəlsəfi əsərlərində sübut edirdi ki, dünyadakı saysız cisim və proseslər vahid və hər şeyi əhatə edən maddi substansiyanın müxtəlif təzahürləridir. Maddi substansiya əbədi və sonsuzdur, özü özünün səbəbkarıdır, həm yaradıcı, həm də yaranmışdır. Dünyada təbii qanunauyğunluq və səbəbiyyət mövcuddur, heç bir qeyri-adi əməl, möcüzə, əlamət, vəhy mümkün deyil.

Axundovun mühüm xidmətlərindən biri də odur ki, Azərbaycan mütəfəkkirlərinin fəlsəfəyə baxışlarında köklü dəyişiklik yaratdı. Azərbaycanın bütün əvvəlki mütəfəkkirləri fəlsəfəni varlıq və şüurun dərkedilməz prinsipləri haqqında elm kimi başa düşürdülər. Axundov isə fəlsəfəyə "təbiətin qanunlarına uyğun olaraq bütün şeylərin məqsədəuyğun şəkildə qurulmasının səbəbini müəyyənləşdirən elm kimi, daha doğrusu, maddi dünyanın "qanunları" və səbəbləri" haqqında bilik kimi baxırdı [15].

Axundovun hərtərəfli və parlaq fəaliyyəti nəticəsində Azərbaycanda elmi və fəlsəf fikir öz inkişafında qonşu İran və Türkiyəni xeyli qabaqlamışdı. O, müsəlman sxolastikasından azad olmuş, əslində yeni Avropa elminə qovuşmuş, maarifçi inkişaf yoluna qədəm qoymuşdu. Bundan sonra elm və maarifin təbliği, dünyəvi təhsil və tərbiyənin müdafiəsi Azərbaycan fəlsəfi və ictimai fikrinin mühüm problemlərindən olmuşdur.

XIX yüzilliyin son rübündə Azərbaycanın qabaqcıl ictimai və sosioloji fikri yeni ideya məzmunu ilə zənginləşdi. Azərbaycanın sosial-iqtisadi inkişafı, müsəlman xalqlarının ictimai həyatında islamın rolu və təsiri onun əsas tədqiqatlarından birinə çevrildi. H.Zərdabi özünün sosial-iqtisadi və mədəni-maarif mövzularında yazdığı çoxlu məqalələrində Azərbaycan kəndində kənd təsərrüfatının inkişafını ləngidən feodal qaydalarının qalıqlarına qarşı çıxış edir, sənaye fəhlələrini dilənçi həyatına məhkum etmiş amansız kapitalist istismarını pisləyir, çarizmin müstəmləkəçilik siyasətini tənqid edirdi. Zərdabi bir maarifçi kimi Azərbaycanın sosial-iqtisadi və mədəni geriliyinin əsas səbəbini elm və mədəniyyətin ləng inkişafında, dünyəvi təhsil ocaqlarının azlığında, despotizmdə və dini fanatizmdə görürdü. Zərdabi nəşr etdirdiyi "Əkinçi" qəzetinin səhifələrində dünyəvi təhsil uğrunda mübarizə aparırdı. Alim və mütəfəkkir 25 il ərzində bu mövqedən doğma xalqın sosial və mənəvi dirçəlişi üçün yorulmadan çalışırdı, M.F.Axundovun maarifçi ictimai ideyalarını inkişaf etdirən Zərdabi xalqa demokratik azadlıqlar verilməsini tələb edir, əsrin əvvəllərində intişar etməkdə olan sosial-demokratiya ideyalarını dəstəkləyirdi. Ömrünün son illərində Zərdabi millətin əsas mənəvi dayaqlarından birini islam dinində gördüyünü vurğulayırdı.

Azərbaycanın sosial-iqtisadi geriliyinin səbəbləri 90-cı illərdə Azərbaycanın maarifçi dairələrində geniş müzakirə mövzusu idi. MF.Axundovun ardınca radikal əhvali-ruhiyyəli maarifçilər bütün bunların səbəblərini həm də mövcud əlifbanın qeyri-təkmil olmasında, mövhumatçılıqda görürdülər. 1869-cu ildə Leyptsiq Universitetini bitirmiş *Məmmədağa Şahtaxtinski* (1846-1931 -ci illər), yeni. təkmilləşmiş müsəlman əlifbası ideyasını irəli sürür, Avropa maarif və mədəniyyətinə qovuşmağı təbliğ edirdi [16]. Peterburq yunker hərbi məktəbinin yetirməsi *Səmədağa Mehmandarov* "Müsəlmanların geriliyinin səbəbləri", "Necə olmalı", "Müsəlman ətalətinə qarşı" adlı məqalələri ilə çıxış edərək göstərirdi ki, "dini" mövhumat indiki müsəlman Şərqində despotizmin mənəvi dayağı rolunu oynayır, əqidə azadlığını təqib edir, siyasi, iqtisadi, mədəni yaradıcılıqda çəkişmələrə şərait yaradır [17]. M.Şahtaxtinski və S.Mehmandarov müsəlman xalqlarının sosial-iqtisadi və mədəni geriliyinin səbəblərini islam kəlamlarının cahil və tamahkar ruhanilər tərəfindən yanlış şərh edilməsilə izah edirdilər. 1894-cü ildə Sorbonna Universitetini bitirmiş *Əhməd bəy Ağayev* (1863-1939-cu illər) bunun səbəblərini orta əsrlərin ilk dövrü üçün səciyyəvi olan islamı "azad" dərk etmək prinsipindən çəkinməkdə görürdü. İbn Rüştinin və əl-Təbərinin nəzəriyyəsinin təsiri ilə görkəmli islamşünas kimi yetişməkdə olan Ə.Ağayev Quranın əsrlər boyunca, tədricən dəyişikliyə düçar olduğunu sübut etməyə çalışırdı [18]. Qori Müəllimlər Seminariyasının məzunları F.Köçərli (1865-1920-ci illər), *Teymıtr bəy Bayraməlibəyov* (1862-1937-ci illər) sübut edirdilər ki, səbəb müsəlman ruhanilərinin cahilliyində və pozğunluğunda, əsas vəzifələrini yaddan çıxarmasında, müəyyən vaxt və konkret xalq üçün nəzərdə tutulmuş islamın mülki qanunlarının mütləqləşdirilməsindədir [19]. M.Şahtaxtinski, S.M.Mehmandarov, Qori Müəllimlər Seminariyasının məzunu E.Sultanov (1862-1935-ci illər), R.Əfəndiyev (1868-1942-ci illər), İrəvan Müəllimlər Seminariyasının yetirməsi H.Vəzirov (1862-1916-cı illər) [20] islamın təriqət və ayinlərinin, xüsusilə şiə şəbihlərinin, müridizm və babizmin tənqidi ilə çıxış edərək onları qızışdıran və yayanlara qarşı qəti tədbirlər görməyi tələb edirdilər. H.Vəzirov, T.Bayraməlibəyov, M.Əfəndiyev [21] o dövrdə avam kütlə arasında geniş yayılmış müsəlman mövhumat və xurafatının məna və məqsədini öz məqalələrində açıb göstərirdilər. Bununla belə ali müsəlman din xadimlərinin görkəmli nümayəndələri - şeyxül-islam Əhməd Səlyani, Axund Əbdüs-Salam Axundzadə, molla Məhəmməd Axund Pişnamazzadə və b. öz dövrünün yüksək savada malik, maarifçiliklə məşğul olan adamları idilər. Çox vaxt onlar məktəb və mədrəsələrdə dini dərslərdən başqa, ana dilindən də dərs deyirdilər.

XIX yüzilliyin ikinci yarısı - XX yüzilliyin əvvəllərində Azərbaycanın qabaqcıl fəlsəfi və ictimai-siyasi fikrinin İran, Orta və Yaxın Şərqin digər ölkələrinin mənəvi mədəniyyətinin yüksəlişinə böyük təsiri müşahidə olunurdu. M.F.Axundov, H.Zərdabi, N.Nərimanov, C.Məmmədquluzadə və başqalarınm ideyalarının təsiri altında Cənubi Azərbaycanda əsas nümayəndələri Mirzə

Mülküm xan (1883-1909-cu illər), Zeynalabdin Marağayi (1838-1910-cu illər), Əbdürrəhim Talıbov (1834-1911-ci illər) olan maarifçi, milli azadlıq hərəkatı formalaşırdı. Onlann yaradıcılıqlarının əsas ideyası geriliklə, cahilliklə mübarizə, Qərb mədəniyyətinin, elminin, maarifmin öyrənilməsi, mülki qanunçuluğun tətbiqi, şəxsiyyətin, azad əmək fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi idi.

*Mirzə Mülküm xan* maarifçi xarakterli çoxlu əsərlərin müəllifi, "Qanun" qəzetinin naşiri olub, "Fəramuşxana" cəmiyyətinin əsasını qoymuşdu. Mirzə Mülküm xan özünün yaradıcılığında əvvəlcə liberal maarifçi, sonralar isə İranda despotizm və müstəmləkəçiliyin tənqidçisi mövqeyindən çıxış etmişdir. Mirzə Mülküm xanın ideyaları 1905-1911-cı illər İran inqilabının hazırlanmasında mühüm rol oynamışdı.

Məşhur "İbrahim bəyin gündəliyi"nin müəllifi *Z.A.Marağayi* İran xalqlarının sxolastika və cəhalət yuxusundan oyanması işində mühüm rol oynamışdı. İranın iqtisadi və mədəni geriliyi ilə mübarizənin əsas vasitələrini Z.A.Marağayi elm və maarifdə, Qərb mədəniyyəti ilə təmasda görürdü. O, İran xalqlarını despotizmə qarşı, konstitusiya uğrunda döyüşə çağırırdı.

Cənubi Azərbaycanın elmi və ictimai-siyasi fikrinin ən görkəmli nümayəndəsi, təbiətşünaslığa və fəlsəfəyə dair bir sıra elmi əsərlərin müəllifi *Ə. Talıbov* idi. Gənc yaşlarından Qafqaza mühacirət edən, həyatının xeyli hissəsini Temirxanşurada keçirən Ə.Talıbov tez-tez Rusiyaya, Avropaya, Yaxın Şərq ölkələrinə gedirdi. Ə.Talıbovun ictimai-siyasi dünyagörüşünün əsas məzmununu İranın sosial və milli dirçəlişi uğrunda mübarizə təşkil edirdi. Təbiətşünaslıq elmi fikrinin böyük nümayəndəsi olan Ə.Talıbov yorulmadan Avropa və rus elm və texnikasının nailiyyətlərini təbliğ edir, utopik meyilli bir sıra islahatlar irəli sürürdü.

## § 4. BƏDİİ ƏDƏBİYYAT. FOLKLOR

XIX yüzilliyin ikinci yarısı Azərbaycan ədəbiyyatının tam yeni ideya-estetik istiqamətdə inkişafı, böyük nailiyyətlər qazanması dünya ədəbiyyatı sisteminə daxil olması dövrüdür. 50-ci illərin əvvəllərindən Azərbaycanda maarifçilik ideologiyası əsaslarının qoyulması, Azərbaycan-Qərbi Avropa və rus ədəbi əlaqələrinin qüvvətlənməsi bədii ədəbiyyatın qarşısına yeni tələblər, vəzifələr qoymuş, onun real gerçəkliklə əlaqəsini olduqca qüvvətləndirmiş, onda yeni ədəbi-estetik prinsiplərin, növ və janrların inkişaf tapmasına səbəb olmuşdu. Bu dövr Azərbaycan ədəbiyyatının mühüm nailiyyətləri, yeni yaradıcılıq metodunun - realizmin bir ədəbi metod kimi formalaşması və ədəbi prosesdə hakim mövqe tutması ilə bağlı olmuşdur.

Qərbi Avropa və rus ədəbiyyatında olduğu kimi, XIX yüzilliyin ikinci yarısında Azərbaycan ədəbiyyatında yeni realist sənət prinsiplərinin təşəkkülünü şərtləndirən başlıca amil maarifçilik ideologiyası və bu ideologiyanın insan və onu

əhatə edən mühit, ailə və sosial münasibətlər haqqında tam yeni konsepsiya irəli sürməsi ilə üzvi surətdə bağlı olmuşdu.

Bu konsepsiyanın mahiyyətinin, insan şüurunun, xarakterinin, psixologiyasının, mənəvi aləminin formalaşmasında mühit, ailə və ictimai münasibətlər əsas həlledici rol oynayır, insan bilavasitə mühitin məhsuludur fikri üstünlük təşkil edirdi.

Azərbaycan ədəbiyyatında maarifçilik ideologiyası əsasında yeni ədəbi-estetik prinsiplər ilk növbədə komediya janrında öz həllini tapmışdır. Bu dövrdə Azərbaycan dramaturgiyasının əsasları qoyulmuş və o, əlamətdar bir inkişaf yolu keçərək ədəbi prosesdə əsas, həlledici bir mövqe tutmuşdur.

Azərbaycan ədəbiyyatında, ümumiyyətlə müsəlman, türk dünyasında dramaturgiyanın banisi *M.F.Axundovdur.* Hələ gənc yaşlarında bir şair kimi bədii yaradıcılığa başlayan Mirzə Fətəli keçən əsrin 50-ci illərində bir-birinin ardınca "Hekayəti-Molla İbrahimxəlil kimyagər" (1850), "Hekayəti-Müsyö Jordan həkimi nəbatat və dərviş Məstəli şah caduküni məşhur" (1850), "Hekayəti-xırs quldurbasan" (1851), "Sərgüzəşti-vəziri-xani-Lənkəran" (1851), "Sərgüzəşti-mərdi-xəsis" ("Hacı Qara") (1852) və "Mürafiə vəkillərinin hekayəti" (1855) adlı komediyaları ilə Azərbaycan ədəbiyyatında dramaturgiyanın bünövrəsini qoymuş və yalnız Azərbaycanda deyil, ümumən Yaxın Şərq ölkələrində ilk dramaturq kimi böyük şöhrət qazanmışdır. M.F.Axundovun altı ölməz komediyası ilə milli ədəbiyyatımızda realizmin əsasları qoyulmuşdur.

Qərbi Avropa və rus dramaturqları kimi, M.F.Axundov da maarifçilik ideyalarının yayılması üçün dramı münasib və dəyərli ideoloji mübarizə vasitəsi saymış və bir maarifçi kimi, qızğın ədəbi-ictimai fəaliyyətə başlayarkən, ilk növbədə komediya janrına müraciət etmiş, ədəbi-tənqidi məqalələrində də dram əsərlərinin təbliğinə xüsusi diqqət yetirmişdir.

M.F.Axundov komediyaların bədii materiallarını, mövzusunu real həyatdan almışdı. O, komediyalarında XIX əsrin 30-50-ci illər-arası Azərbaycan həyatının dərin, hərtərəfli və həqiqi təsvirini vermiş, öz dövrünün aktual məsələlərinə toxunmuşdu. Mirzə Fətəli əsərlərində feodal cəmiyyətinin əsas nöqsanları və ziddiyyətləri açıq göstərilmiş, nadanlıq, gerilik, dini, fanatizm, zülm, özbaşınalıq, qanunsuzluq və rüşvətxorluq əleyhinə çıxaraq, maarifı, elmi, iqtisadi-mədəni tərəqqi ideyalarını qızğın təbliğ etmişdir.

M.F.Axundov komediyalarında Azərbaycan cəmiyyətinin əsas təbəqə və zümrələrinin məişətini, həyat tərzini, istək və arzularını, dərd və ələmlərini, psixoloji, sosial xüsusiyyətlərini, ictimai əlaqələrini, cəmiyyətdə tutduğu mövqeyini dərin və hərtərəfli təsvir etmiş, həmin təbəqələrin nümayəndələrinin dolğun realist surətlərini yaratmışdır. Böyük yazıçının yaratdığı surətlər aləmində mənfi "qəhrəman"ları xüsusi əhəmiyyət kəsb edir. Bu surətlərdə dramaturq hakim imtiyazlı təbəqələrin səciyyəvi sifətlərini ümumiləşdirmiş və onların dolğun satirik surətlərini yaratmağa müvəffəq olmuşdur. Məsələn, "Hekayəti-Molla İbrahimxəlil

kimyagər" komediyasında, Molla İbrahimxəlil, "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasında Məstəli şah surətində o, tüfeyli həyat surən, xalqın şüurunun oyanmasına, mədəni inkişafına ciddi əngəl törədən ictimai zümrələri kəskin tənqid atəşinə tutmuşdur. Bu surətlər vasitəsilə Axundov həm də sxolastik elmlərin puçluğunu açıb göstərir, bütövlükdə dini-feodal təfəkkür tərzi əleyhinə çıxırdı.

"Vəziri-xani-Lənkəran" komediyasında xan və vəzir surətlərində feodal hakimlərinin səciyyəvi sifətləri ümumiləşdirilmişdir.

Əsərdə onlar nadan, səfeh, zalım, ədalətsiz hakimlər kimi təqdim I və ifşa olunmuşdur. "Hacı Qara" komediyasının mənfi qəhrəmanı olan Heydər bəy surətində M.F.Axundov XIX yüzilliyin ortalarında iflasa uğramış Azərbaycan mülkədarlarının tipik surətini yaratmışdır. Hacı Qara surətində isə bu dövr Azərbaycan tacirlərinin özünəxas mənəvi sifətləri ümumiləşdirilmiş, Hacı Qara xəsislik tamahkarlıq, acgözlük timsalı kimi qələmə alınmışdır. "Mürafiə vəkilləri" komediyasında isə vəkil Ağa Mərdan surəti timsalında məhkəmə məmurlarının satirik bədii surəti yaradılmışdır.

M.F.Axundov komediyalarında özünün mütərəqqi görüşlərini ifadə etmiş bir maarifçi kimi, müasirlərini, xüsusilə gəncləri dünyəvi elmlərin mütərəqqi Avropa mədəniyyətinin nailiyyətlərinə yiyələnməyə çağırmış, insan zəkasına yüksək qiymət vermiş, şəxsiyyət azadlığı uğranda fəal mübarizə aparmışdır. Bütün maarifçilər kimi, onun da yaradıcılığında zəhmət mövzusu, ictimai-faydalı əməyin təbliği mühüm yer tutur.

M.F.Axundov mütərəqqi görüş və fikirlərini dram əsərlərində yaratdığı müsbət obrazlarda əks etdirmişdir. Onun ilk komediyasının müsbət qəhrəmanı şair Hacı Nuru milli ədəbi ədəbiyyatımızda maarifçi görüşləri təbliğ edən ilk ziyalı surətidir. Axundov şairin dili ilə "hər kəsin öz sənəti özünə iksirdir və xoş güzarına baisdir", - deməklə ictimai-faydalı əməyi təqdir edirdi. "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasında nəbatat alimi Müsyö Jordan surəti elm, maarif, tərəqqi simvolu kimi təqdim olunur. Həmin komediyanın gənc qəhrəmanı Şahbaz bəy surəti vasitəsi ilə Axundov Azərbaycan gəncliyini elmə, maarifə, Avropa mədəniyyətinin mütərəqqi ideyalarına yiyələnməyə çağırırdı. Onun "Vəziri-xani-Lənkəran" komediyasında gənc kəndli Bayram surətində Azərbaycan xalqının bir sıra müsbət keyfiyyətləri ümumiləşdirilmişdir və s.

M.F.Axundov komediyalannda öz ağıl və düşüncə tərzi, xarakteri, ictimai mənsubiyyəti baxımından bir-birindən kəskin surətdə fərqlənən bütöv bir silsilə orijinal qadın surətləri – Şəhrəbanu xanım, Şərəfnisə xanım, Ziba xanım, Şölə xanım, Nisə xanım, Pərzad, Zalxa, Tükəz və Səkinə xanım surətlərini yaratmışdır. Onların arasında həm avam, müti, aciz, həm öz şəxsi səadəti, gələcək taleyi uğrunda fəal mübarizə aparan ağıllı, tədbirli, gözüaçıq, həm də hiyləgər, ikiüzlü qadın surətləri vardır. XIX yüzilliyin son rübündə Azərbaycan dramaturgiyasında xüsusi bir canlanma baş verir, əsaslı, bir dönüş yaranır, böyük müvəffəqiyyətlər əldə edilir. Bu illərdə N.Vəzirov qızğın dramaturji fəaliyyət göstərmiş,

N.Nərimanov, Ə.Haqverdiyev, R.Əfəndiyev kimi yeni istedadlı dramaturqlar ədəbi fəaliyyət aləminə ayaq basmışdı. Onlar bir-birinin ardınca bir silsilə qiymətli satirik-realist komediyalar, ilk təsirli faciə nümunələri yaratmış və milli realist ədəbiyyatımızın inkişafı tarixində misilsiz rol oynamışdılar.

80-90-cı illərdə yazılmış dram əsərlərinin bir hissəsi N.Vəzirovun "Ev tərbiyəsinin bir şəkli" (1875), "Daldan atılan daş topuğa dəyər" (1890), "Sonrakı peşmançılıq fayda verməz" (1890), Ə.Goraninin "Qocalıqda yorğalıq" (1892), E.Sultanovun "Türk qızı" (1884), R.Əfəndiyevin "Qan ocağı" (1882) və Ə.Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (1892) komediyalarında ailə-məişət həyatının bir sıra səciyyəvi cəhətləri təsvir edilmiş, zülmət səltənətini təmsil edən bir sıra maraqlı satirik bədii surətlər yaradılmış, köhnə adət-ənənələr, nadanlıq, mövhumat, ailə despotizmi, gənc qızların zorla ərə verilməsi, oğurluq, quldurluq kimi ictimai nöqsanlar tənqid atəşinə tutulmuş və maarifçi ideyalar təsdiq olunmuşdur.

Bu illərdə yazılmış dram əsərlərinin ikinci qismi -N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" (1890), "Pəhləvanani-zəmanə" (1898-1900) komediyaları və "Müsibəti-Fəxrəddin" (1894) faciəsi, N.Nərimanovun "Nadanlıq" (1891), "Dilin bəlası" (1895) komediyaları və "Nadir şah" (1899) faciəsi, Ə.Haqverdiyevin "Dağılan tifaq" (1896) və "Bəxtsiz cavan" (1900) faciələri isə yüksək ideya-bədii məziyyətlərlə səciyyələnən, Azərbaycan realist ədəbiyyatını və maarifçi-demokratik fikrini yeni bir mərhələyə qaldıran pyeslərdən ibarətdir.

N.Vəzirov "Adı var, özü yox" komediyasında və Ə.Haqverdiyev "Dağılan tifaq" faciəsində Azərbaycan mülkədarlarının nadanlığını, tüfeyliliyini, iqtisadi və mənəvi iflasını təsvir etmişdilər. N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasında burjua keyfiyyəti almış Azərbaycan əyaləti tacirlərinin tamahkarlığı, xəsisliyi mənəvi pozğunluğu kəskin tənqid atəşinə tutulmuşdur. Onun "Müsibəti-Fəxrəddin" və Ə.Haqverdiyevin "Bəxtsiz cavan" faciələrində iki bir-birinə zidd qüvvələr arasında köhnə adət-ənənələrlə, mənfur feodal qayda-qanunları və əxlaqı ilə yaşayan mühafizəkar mülkədarlarla ictimai həyata yenicə atılmış gənc ziyalılar arasında gedən kəskin mübarizə təsvir edilmişdir. N.Vəzirovun "Pəhləvanani-zəmanə" və N.Nərimanovun "Şamdan bəy" komediyalarında varlanmaq ehtirası ilə yaşayan burjua ziyalılarının yaltaqlığı, ikiüzlülüyü, satqınlığı tənqid edilmişdir. Nəhayət, N.Nərimanov "Nadir şah" faciəsində feodal-despotik üsuli-idarənin ictimai bəlalarını onun xalq mənafeyinə zidd bir quruluş olmasını qələmə almışdır.

70-ci illərdə Cənubi Azərbaycan ədəbiyyatında da dramaturgiyanın əsasları qoyulmuşdur. Bu dövrdə burada bir tərəfdən, Cənubi Azərbaycanda qüvvətlənən maarifçilik hərəkatının, ikinci tərəfdən isə M.F.Axundovun təsiri altında Cənubi azərbaycanlı Mirzə Ağa tərəfindən dörd komediya yazılmış və Cənubi Azərbaycanda, eləcə də İran ədəbiyyatında dram janrı öz təşəkkülünü tapmışdır.

Mirzə Ağa Təbrizdə anadan olmuş, mükəmməl Şərq təhsili almış, həmçinin fransız dilini öyrənmiş, müəyyən dərəcədə mütərəqqi Qərbi Avropa ictimai-siyasi və ədəbi fikri ilə tanış olmuşdu. Keçən əsrin 60-cı illərinin sonunda o, bir-birinin ardınca fars dilində "Əşrəf xanın sərgüzəşti", "Zaman xanın bürücirdə hakimiyyəti", "Ağa Haşım Xalxalinin eşqbazlığı" və "Şahqulu Mirzənin Kirmanşahda sərgüzəşti" komediyalarını yazmışdır.

M.F.Axundov öz şagirdi Mirzə Ağanın komediyalannı oxuyaraq, onlara dair xüsusi məqalə yazmışdı. O öz məqaləsində müəllifi bu sahədəki nailiyyətləri münasibətilə yüksək təqdir etmiş, həmçinin ayrı-ayrı komediyalarda müşahidə etdiyi nöqsanları açıb göstərmişdi.

XIX yüzilliyin ikinci yarısında Azərbaycan bədii nəsrinin inkişafı sahəsində də ilk böyük xidmət M.F.Axundova məxsusdur. Öz komediyalarının ardınca o, 1857-ci ildə "Aldanmış kəvakib" povestini yazmış, ədəbiyyatımızda bədii nəsrə tam hüquq qazandırmış ve onun gələcək inkişafına qüvvətli təsir göstərmişdir.

Povestdə İran feodal-istibdad üsuli-idarəsinin nöqsanları Şah Abbas və onun vəzirləri surətlərində ümumiləşdirilmişdir. Ədib İranın ali dövlət başçılarını kəskin satirik bir planda təsvir etmiş, onlan dövlət və hakimiyyət işlərinə heç bir ləyaqəti olmayan, ölkənin tərəqqisinə və xalqın ağır güzəranına laqeyd münasibət bəsləyən nadan, müstəbid, ədalətsiz, acgöz və ikiüzlü adamlar kimi satira atəşinə tutmuşdur M.F.Axundovdan sonra yeni tipli nəsr sahəsində qələmini sınayan Azərbaycan yazıçılarından biri də N.Vəzirov olmuşdur. 1875-ci ildə o, Moskvada ali təhsil alarkən "Ağıçı" adlı kiçik bir satirik hekayə yazmışdır. Real həyat müşahidələri əsasında qələmə alınmış bu əsərdə gənc ədib qoca qarı Bədircahan surətində Azərbaycan cəmiyyətinin tüfeyli bir zümrəsini təşkil edən ağıçıları ifşa etmişdi.

XIX yüzilliyin 90-cı illərində ədəbi və publisist fəaliyyətə başlayan *Eynəli bəy Sultanov* (1865-1930) "Новое обозрение" qəzetində rus dilində bir-birinin ardınca "Çayı keç, sonra lovğalan" (1891), "Kürd qızı" (1892), "Həsən xan" (1883) və "Kiçik sərgüzəştlər" (1893) adlı hekayələr dərc etdirmiş və Azərbaycan bədii nəsrinin inkişafında müəyyən mənada müsbət rol oynamışdır.

Azərbaycan ədəbiyyatı və ictimai fikrinin görkəmli nümayəndəsi *C.Məmmədquluzadə* (1866-1932) 1894-cü ildə yazdığı Danabaş kəndinin əhvalatları" (1894) adlı povestində Azərbaycan kənd həyatına mənsub olan xüsusiyyətləri açıb göstərir, həyat həqiqətlərinin düzgün və dərin təsviri, feodal üsuli-idarəsinin kəskin və amansız tənqidi, bədii ümumiləşdirmənin dərinliyi, kompozisiyanın mükəmməlliyi, səlis təbii canlı üslub və dil C.Məmmədquluzadənin bu əsərinin əsas məziyyətlərini təşkil edir. "Danabaş kəndinin əhvalatları" Azərbaycan tənqidi realist ədəbiyyatının misilsiz nümunələrindən biri hesab olunur.

Keçən əsrin sonlarında əvvəllər bir dramaturq kimi fəaliyyət göstərən *N.Nərimanov* 1896-cı ildə "Bahadur və Sona" (1896) adlı qiymətli nəsr əsəri yaratmışdı. Bu roman Azərbaycan bədii nəsri tarixində əlamətdar bir hadisə olub, onu yeni ideya-bədii keyfiyyətlərlə zənginləşdirmişdi.

XIX yüzilliyin son onilliyində bir tərəfdən, İran xalqları, o cümlədən Azərbaycan xalqı arasında maarifçilik ideologiyasının, digər tərəfdən, M.F.Axundov və Qərbi Avropa, rusmaarifçi-demokratik, ictimai-siyasi, ədəbi və estetik fikrinin təsiri altında Cənubi Azərbaycan ədəbiyyatında bədii nəsr sahəsində əsaslı bir dönüş baş verir, yeni tipli bədii nəsrin, roman janrının ilk nümunələri meydana çıxır. Bu dövrdə yüksək istedada, kəskin tənqidi ağıla, dərin müşahidə qabiliyyətinə malik olan, həm M.F.Axundovun, bəm də Qərbi Avropa və rus maarifçi-demokratik, ictimai-siyasi və ədəbi ideyalarının ənənələrinə yiyələnən Cənubi Azərbaycan yazıçıları - *Əbdürrəhim Talıbov* "Kitab yüklü eşşək" və "Talibinin gəmisi" ("Səfineyi-talibi", I və II cildlər) və *Zeynalabdin Marağayi*" İbrahim bəyin səyahətnaməsi" adlı məşhur romanlarını yazmaqla, Cənubi Azərbaycan ədəbiyyatında yeni tipli bədii nəsrin əsaslarını qoymuşlar. Ə.Talıbov və Z.Marağayi öz əsərlərini fars dilində yazdıqları və başlıcası isə, onlarda ümumən XIX yüzilliyin son rübündə İran ictimai gerçəkliyini, İran dövlətinin ictimai-siyasi və mədəni vəziyyətini, bu dövlətin tərkibində yaşayan bütün xalqların həyatının geniş realist təsvirini verdikləri üçün eyni zamanda yeni fars ədəbiyyatının, yeni fars nəsrinin baniləri, görkəmli nümayəndələri hesab olunurlar.

Ə. Tahbovun "Səfineyi-talibi" əsərində müəllifin müsbət idealı xəyali səciyyə daşısa da, roman Cənubi Azərbaycan və İran ədəbiyyatında həm ictimai-tərbiyəvi, həm də bədii qiyməti baxımından çox təqdirəlayiq orijinal bir nəsr əsəridir. Roman Cənubi Azərbaycanda və İranda mütərəqqi ədəbi, ictimai-siyasi, etik və peaqoji fikrin inkişafına qüvvətli təsir göstərmişdir.

Zeynalabdin Marağayinin 1897-ci ildə Qahirədə nəşr olunmuş "İbrahim bəyin səyahətnaməsi" əsəri isə Qərbi Avropa və maarifçi bədii ədəbiyyatında geniş yayılmış siyasi-publisist, bədii səyahət romanı janrında yazılmışdır. Z.Marağayi M.F.Axundov yaradıcılığında, xüsusən onun "Aldanmış kəvakib" və "Kəmalüddövlə məktubları" fəlsəfi əsərlərinə mükəmməl bələd olmuş və öz romanını bilavasitə onun qüvvətli təsiri altında yazmışdır.

Poeziyada XIX əsrin ikinci yarısında Azərbaycan ədəbiyyatı: da klassik şeir ənənələri davam və inkişaf etdirilmiş, yeni naili; yətlər əldə edilmişdi. Bu dövrdə Azərbaycanın Bakı, Şamaxı, Şuşa, Qazax, Şəki, Naxçıvan, Ordubad, Lənkəran və başqa şəhərlərin də klassik şeir üslubunda yazan şairlər fəaliyyət göstərmişdir. B şairlərin əksər hissəsi müxtəlif şəhərlərdə təşkil olunmuş “Məclisi-üns”, “Məclisi-fəramüşan”, “Beytüs-Səfa”, “Məcmə üş-şüəra”, “Əncüməni-şüəra” və “Fövcül-füsəhə” adlı ədəbi məclislər ətrafında toplanmışdılar. Bu məclislərdən əlavə Şəki, Qazax, Ağdaş, Dərbənd kiçik ədəbi dərnəklər də fəaliyyət göstərmişdi.

*"Məclisi-üns"* 1864-cü ildə Şuşada şair Mirzə Rəhim Fəna tərəfindən (1841-1929) təşkil edilmişdi. 1872-ci ildə görkəmli şair Xurşudbanu Natəvan (1832-1897) məclisə qoşulduqdan sonra on üzvlərinin sayı daha da artmış, fəaliyyəti geniş və müntəzəm şəkil almış və bütün ölkədə şöhrət tapmışdı. "Məclisi-üns"ün Natəvan, Mirzə Rəhim Fəna, Mirzə Ələsgər Növrəs (1846-1918),

Mirzə Həsən Yüzbaşov (1824-1904), Mömobey Məmai (1834-1898) və başqa üzvləri var idi.

Qarabağda XIX əsrin 70-ci illərində istedadlı şair və rəssam Mirzə Möhsün Nəvvabın (1831-1918) təşəbbüsü ilə *"Məclisi-fəramuşan"* adlı ikinci bir ədəbi məclis fəaliyyətə başlamışdı. Məclisə Qarabağ şairlərindən Abdulla bəy Asi (1839-1874), Mirzə Ələsgər Növrəs, Həsənəli xan Qaradağlı (1847-1929), Fatma xanım Kəminə (1840-1898), Məşədi Əyyub Baki (1866-1909) və başqa şairlər daxil idilər.

Görkəmli şair Seyid Əzim Şirvaninin təşəbbüsü ilə Şamaxıda şair Məhəmməd Səfanın (1851 -1876) evində təşkil olunmuş *"Beytüs-Səfa"* məclisində adlarını çəkdiyimiz şairlərdən əlavə, Ələkbər Qafil (1818-1892), Molla ağa Bixud (1830-1892), Ağababa Zühuri (1848-1892), Mirzə Nəsrullah Didə (1797-1870), Naseh kimi şairlər onun üzvü olmuşlar.

Əsrin 80-ci illərində Bakıda şair Məmməd ağa Cürminin başçılığı ilə yaradılmış *"Məcmə üş-şüəra"* ədəbi məclisində Mirzə Ağadadaş Sürəyya (1850-1900), Mirzəağa, Dilxun, İbrahim Zülali, Əbdülxaliq Yusif (1853-1924), Ağakərim Salik (1949-1914), Əbdülhəsən Vaqif (1845-1914), Ağadadaş Müniri (1862-1938), Mirzə Əbdülxaliq Cənnəti (1855-1918) və başqa şairlər iştirak etmişdilər.

*"Əncüməni-şüəra"* 1838-ci ildə Ordubadda Şixəli Naib tərəfindən yaradılmış, 60-70-ci illərdə ona şair Hacı ağa Fəğir rəhbərlik etmişdir. "Əncüməni-şüəra" xüsusən əsrin 80-90-cı illərində qızğın fəaliyyət göstərmişdi. Bu illərdə məclisin fəaliyyətinin qüvvətlənməsində görkəmli şair və maarifçi xadim Məhəmməd Tağı Sidqi (1854-1904) mühüm rol oynamışdır. Məclisin üzvləri Hacı ağa Fəqir (1836-1885), Cani Ordubadi, Hacı Mirzə Ağarəhim Ordubadi (Vənəndi) və başqa şairlərdən ibarət idi.

Lənkəranda Mirzə İsmayıl Qasirin (1805-1897) rəhbərliyi altında fəaliyyət göstərən *"Fövcül-füsəha"* ədəbi məclisinin Mirzə İsa Xəyali (1850-1899), Molla Fəttah Səhban (1813-1898), Ağa baba Bixud (1815-1898), Usta Məhəmməd Həsən Nəccar (1819-1912), Hacı Məhəmməd oğlu kimi üzvləri olmuşdur.

Bu məclis iştirakçılarından əlavə,Şəkidə İsmayıl bəy Nakam, Musa ağa Şuxi Molla İbrahimxəlil Dudəvi, Hacı Məhəmməd Rafi, Qazaxda Abbas ağa Nazir, Kazım ağa Salik, Əbdürrəhman və digər yerlərdə isə onlarca şair yaşayıb-yaratmışdır.

Ədəbi məclislərdə Firdovsi, Xaqani, Nizami, Sədi, Hafiz, Rumi, Füzuli və başqa Şərq ədəbiyyatı klassiklərinin əsərləri öyrənilir, hikmət, nücum, tarix, musiqi haqqında söhbətlər aparılır, ədəbi-bədii və elmi müzakirələr keçirilirdi. Bəzi məclislər dövrün aktual problemləri ilə də maraqlanmış, "Əkinçi", "Ziya", "Kəşkül" qəzetlərini əldə edərək, dövrün mütərəqqi ideyaları ilə tanış olmuşdular. Məclis üzvləri arasında rus dilini bilən, az-çox rus və Qərbi Avropa mədəniyyətinin nailiyyətlərinə, maarifçilik ideyalarına bələd olan şairlər də var idi. Bu şairlər yeni üslubda məktəb

açmış, müəllimlik etmiş, tədris vəsaiti hazırlamış, ölkədə maarifçilik ideyalarının, dünyəvi elmlərin təbliği sahəsində müəyyən rol oynamışdılar.

Ədəbi məclislər bir-birilə sıx əlaqə yaratmış, şeir mübadiləsi və yarışlar keçirmişdilər.

Məclis üzvləri klassik üslubda qəzəl, qəsidə, məsnəvi, müxəmməs, müstəzad, müsəddəs, tərkibbənd, tərcibənd janrlarında şeirlər qoşmuşdular. Onların bəziləri fars dilini gözəl bilmiş və fars dilində də şeirlər yazmışdılar. Bu şairlər içərisində xalq şeri ənənələrinə rəğbət bəsləyən, heca vəznində lirik şeirlər yazan şairlər də olmuşdur.

Klassik üslubda şeirlər qoşan şairlər içərisində əsil bədii istedada malik, klassik Azərbaycan və Şərq şeirinin ənənələrinə mükəmməl yiyələnən, şerə, sənətə məsul bir iş kimi baxan və bu dövr poeziyamızı orijinal lirik şeirlərlə zənginləşdirən S.Ə.Şirvani, X.Natəvan, Bahar kimi istedadlı şairlər var idi.

S.Ə.Şirvani, M.M.Nəvvab, M.K.Qasir, Xəyali, M.Sidqi, İ.Nakam, Əbdülxalıq Cənnəti kimi şairlərimiz ölkədə geniş intişar edən maarifçi ədəbi ictimai fikrin təsiri altında maarifçi-satirik şeirlər yazmış, milli ədəbiyyatımızda Q.Zakir, B.Şakir, M.B.Nadim tərəfindən ilk əsası qoyulmuş satirik şeir cərəyanını yeni bir mərhələyə qaldırmışlar. Bu şairlər satirik şeirlərində nadanlıq, gerilik, mühafizəkarlıq, orta əsr həyat tərzi və əxlaqı, sxolastik təfəkkür və təlim-tərbiyə əleyhinə çıxmış, tamahkarlığı, özbaşınalığı, tüfeyliliyi, çar məmurlarının qanunsuzluğunu, rüşvətxorluğunu, süründürməçiliyini tənqid atəşinə tutmuş və maarifçi, dünyəvi elmləri, yeni həyat prinsiplərini təbliğ etmişlər.

XIX yüzilliyin son rübündə Cənubi Azərbaycanda həm klassik şeir, həm də xalq aşıq şeri üslubunda gözəl lirik şeirlər yazan Hacı Mehti Şükuhi (1829-1896), Mirzə Əli xan Ləli (1845-1907) və Məhəmməd Bağır Xalxali (1830-1898) kimi istedadlı şairlər qızğın fəaliyyət göstərmişlər. Onlar məhəbbət mövzusunda lirik şeirlərlə yanaşı, maarifçilik hərəkatının təsiri altında satirik şeirlər, həcvlər və alleqorik-didaktik əsərlər yazmışdılar.

XIX yüzilliyin ikinci yarısında Azərbaycan ədəbiyyatında həm klassik şeir ənənələrinin, həm də satirik şeir cərəyanının inkişafında görkəmli şair *S.Ə.Şirvani* (1835-1898) böyük xidmət göstərmişdir.

S.Ə.Şirvani ruhani ailəsində anadan olmuş, uşaqlıq və gənclik illərində Şamaxıda, sonra isə Yaxın Şərq ölkələrinin bir sıra dini mərkəzlərində mükəmməl dini təhsil almış, fars və ərəb dillərini öyrənmiş və klassik Şərq ədəbiyyatının mütərəqqi ənənələrinə dərindən yiyələnmişdi. Seyid Əzim mükəmməl dini təhsil alsa da, ruhani olmaq fikrindən əl çəkmiş və dünyəvi təhsilə, elmlərə, dövrün mütərəqqi meyllərinə qızğın rəğbət bəsləmiş və tam yeni bir istiqamətdə fəaliyyət göstərməyə başlamışdı. O, Şamaxıda yeni üsullu məktəb açaraq müəllimlik etmiş, dövrünün bir sıra qabaqcıl ziyalıları, xüsusən H.Zərdabi, görkəmli rus pedaqoqu A.O.Çernyayevski ilə yaxından dostluq əlaqəsi yaratmış, yeni tipli dərslik hazırlamış, "Əkinçi", "Ziya" və "Kəşkül" qəzetlərində silsilə şeirlər dərc etdirərək, ictimaiyyət arasında mütərəqqi

görüşlü şair və pedaqoq kimi hörmət qazanmışdır. O, 1888-ci ildə Şamaxıda vəfat etmiş və orada dəfn olunmuşdu.

S.Ə.Şirvani bədii yaradıcılığa gənclik illərində qəzəl yazmaqla başlamış, həm məhəbbət, həm də ictimai lirikanın gözəl nümunələrini yaratmış, ustad bir qəzəl şairi kimi püxtələşərək geniş şöhrət qazanmışdı.

S.Ə.Şirvaninin Azərbaycan ədəbiyyatı tarixində əsas xidmətlərindən biri də onun satirik şair kimi fəaliyyəti ilə bağlı idi. Keçən əsrin 70-ci illərində Azərbaycanın ictimai həyatında baş vermiş dəyişikliklər, maarifçilik ideyaları, xüsusən "Əkinçi" qəzeti Seyid Əzimə qüvvətli təsir göstərmiş və onun dünyagörüşündə əsaslı bir dönüş yaratmışdı. Bu təsirin altında o, köhnə cəmiyyətin ictimai nöqsanlarını kəskin satira atəşinə tutan və maarifçilik ideyaların, təbliğ edən satirik şeirlər yazır.

S.Ə.Şirvani əsərlərində göstərir ki, Azərbaycan xalqı və ümumən" "əhli-islam" zillətdə qalmış, başqa millətlərdən geri düşmüş, ağır bir böhrana uğramışdı. Maarifçilik ideyalarına qızğın rəğbət bəsləyən şair belə hesab edirdi ki, bunun əsas səbəbi nadanlıq, mövhumat, köhnə həyat qayda-qanunları və təlim-tərbiyə sistemidir.

S.Ə.Şirvani satirik şeirləri ilə Azərbaycan ədəbiyyatında maarifçi-satirik şerin inkişafı sahəsində mühüm rol oynamış və onun gələcək inkişafına qüvvətli təsir göstərmişdir.

XIX yüzilliyin ikinci yarısında Azərbaycanın müxtəlif əyalətlərində xalq şeiri üslubunda şeirlər qoşan Mirzə Məhəmməd Katib Həsən Lələ, Əli Mədəd, Zodlu Hacı bəy (1847-1913), Zodlu Mirzə Bəylər (1830-1919), Zodlu Məmməd (1830-1910), Haqverdi, Məmmədağa kimi şairlər yaşayıb-yaratmışdır. Bu şeir üslubunun ən gözəl nümunələri Cənubi Azərbaycan poeziyasının görkəmli nümayəndələri Mirzə Mehdi Şükuhi, Əbdülxalıq Cənnəti, Mirzə Məhəmməd Bağır Xalxali (1829-1901), Mirzə Nəbi Raib oğlu Fədan illəri tərəfindən yaradılmışdır.

Aşıq şeri də coşqun bir inkişaf yolu keçmiş, yeni ideya bədii keyfiyyətlər qazanmış, yüksək bir mərhələyə qalxmışdır. Azərbaycanda Aşıq Mahmud (7-1882), Aşıq Məhəmməd (1834-1914), Aşıq Əziz (1825-1918), Aşıq Aydın (1825-1915), Çoban Əfqan (1866-1925), Aşıq Hüseyn Şəmkirli (1810-1880), Aşıq Ələsgər (1821-1926), Aşıq Alı (1817-1907), Molla Cuma (1885-1919) kimi aşıqlar məhəbbət mövzusunda, yüksək bədii məziyyətlərlə seçilən lirik şeirlər - qoşmalar yazmış və Azərbaycan aşıq poeziyasında məhəbbət lirikasının inkişafı sahəsində mühüm rol oynamışdılar.

Bu dövr aşıq şerinin nailiyyəti bir də onun real ictimai həyata daha fəal nüfuz etməsi, mövcud cəmiyyətə daha kəskin tənqidi münasibət bəsləməsi və xalq kütlələrinin zəruri ehtiyaclarını, dərd və ələmlərini daha qabarıq qələmə alması ilə bağlıdır. Bəy və xanların zülmünə və özbaşınalığına, çar məmurlarının ədalətsizliyinə və qanunsuzluğuna kəskin nifrət, zəhmətkeş insanlara isə dərin məhəbbət bu şeir növünün əsas mahiyyətini təşkil edirdi.

Bu dövr aşıq şerinin ən görkəmli nümayəndəsi *Aşıq Ələsgər* olmuşdur. O, 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində yox bir kəndli ailəsində doğulmuş, uşaq yaşlarından əkinçiliklə məşğul olmuş, muzdurluq etmiş və ağır maddi ehtiyac, mənəvi iztirab içərisində yaşamışdı. Mövcud cəmiyyətin ictimai qəbahətlərini, hakim dairələrin zülm və özbaşınalığını, xalq kütlələrinin məşəqqətli həyat tərzini bilavasitə müşahidə etmişdi.

Gənc yaşlarından aşıq şerinə və sənətinə böyük rəğbət bəsləyən Ələsgər dövrünün görkəmli aşığı Aşıq Alının şagirdi olmuş, ondan aşıq sənətinin sirlərini dərindən öyrənmişdi. Gözəl, rəngarəng şeirlər qoşan, məharətlə saz çalan və məlahətli səsə malik olan Ələsgər tezliklə ustad bir aşıq kimi tanınmış və geniş şöhrət qazanmışdı. O, doğma vətənini kəndbəkənd gəzib-dolaşmış, toy, şənlik və bayram məclislərində mahnılar oxumuş, aşıqlarla deyişmiş, öz sənətini gənc aşıqlara aşılamışdır.

Aşıq Ələsgərin bədii yaradıcılığı zəngin və dolğun bir məzmuna malik olub, onun ədəbi irsinin böyük bir hissəsi məhəbbət mövzusuna həsr edilmişdi.

Aşıq Ələsgər aşıq poeziyasının qoşma, müxəmməs, gəraylı, təcnis, ustadnamə, deyişmə və başqa ənənəvi növ və janrlarında misilsiz sənət nümunələri yaratmışdır. Bu nümunələrdə poetik fikirlə ifadə tərzi, məzmunla forma arasında qırılmaz bir vəhdət mövcuddur. Onlar üslub və dilin sadəliyi, təbiiliyi və rəvanlığı, bədii təsvir vasitələrinin orijinallığı, rəngarəngliyi və obrazlılığı ilə fərqlənir.

Azərbaycan ədəbi dili tarixən başlıca iki üslub xətti - orta əsrlər dövründə əsasən aparıcı mövqe tutan klassik ədəbi (yazılı ədəbi) dil və potensial vəziyyətdə xalq ədəbi dili (əsasən şifahi olaraq) üslub xətləri üzrə yanaşı inkişaf etmişdir.

Təqribən XVII yüzilliyin sonlarında - XVIII yüzillikdə xalq ədəbi dili potensialı get-gedə üzə çıxaraq, aparıcı məqam tutmağa başlamış, həmin yüzilliyin sonlarına yaxınlaşdıqca inkişaf prosesi artıq ümummilli dil quruculuğuna yön almışdır. Göründüyü kimi, ədəbi dilimizin orta əsrlər (xalq dili) dövründən yeni (milli dil) dövrünə "keçid başlanğıcı əsasən XVIII yüzillik üçün" "mərkəz-donqaçma" hadisəsinin təsiri səciyyəvi olmuşdur. Halbuki XIX yüzilliyin birinci yarısında "mərkəzdən qaçan qüvvələr" milli ədəbi dilimizin təşəkkülü gedişinə daha fəal təsir göstərmişdir. Belə ki, XIX yüzilliyin ilk üç onilliyi ərzində Şimali Azərbaycanda xanlıqların sərhəd ayrılığı aradan götürülmüş, milli dil birliyi üçün zəruri şərtlərdən sayılan ərazi birliyi siyasi-inzibati vasitələrlə edilmişdir. 30-50-ci illərdə bir sıra ilkin birləşdirici sosial-iqtisadi və mədəni tədbirlər həyata keçirilmişdir. Növbəti onilliklərdə meydana çıxan yeni birləşdirici əlaqə formalarının güclü təsiri altında milli ədəbi dil birliyinin yaranmasında keyfiyyət nəticələri əldə edilmişdir.

Yeni iqtisadi münasibətlərin yaranması müvafiq birləşmə və cəmiyyətlərin məqsədyönlü fəaliyyətinə, şübhəsiz, millətin və milli dilin təşəkkülünə təsir göstərirdi. Məhz əsasən Bakıda cəmləşən iqtisadi birliklər cəmiyyətdə yeni əlaqələrin yaranmasında aparıcı və təşkiledici təsirə malik oldu.

Beləliklə, Bakının iqtisadi təmərküzləşməsi sayəsində təşkil edilən başlıca iki böyük qüvvənin: bir tərəfdən, ədəbi dil ənənəsini yaşatmağa qadir olan ayrı-ayrı burjua qrupu nümayəndələrinin və qabaqcıl ziyalı təbəqəsinin, digər tərəfdən isə məhəlli dialekt-şivə yaşadıcısı olub, iş üçün Bakıya axışan, eyni zamanda öz doğma yurdu ilə ünsiyyət əlaqələrini də üzməyən kəndlilərin və fəhlələrin, habelə istehsalçı və istehlakçıların, satıcı və alıcıların - bütün kütlələrin birgə səyi ilə Azərbaycan milli ədəbi dili intişar edirdi.

XIX yüzilliyin əvvəllərindən başlayaraq, Azərbaycanda yeni tarixi şəraitin yaranması, əvvəlki əsrlərdən fərqlənən yeni ictimai-siyasi amillərin meydana çıxması, yeni üsuli-idarənin tətbiqi ədəbi dilimizin inkişafına da təsir göstərmişdi. Çarizmin müstəmləkəçilik rejiminə, yerli əhalinin, onun dilinin sıxışdırılmasına baxmayaraq, həmin əsrin ikinci yarısında yeni sosial-iqtisadi quruluşa müvafiq təbəqələşmələr, qruplaşmalar, təmərküzləşmələr, obyektiv olaraq, milli dirçəlişə, Azərbaycan millətinin və milli ədəbi dilinin formalaşmasına güclü təsir göstərmişdir.

Milli ədəbi dilin təşəkkülü, formalaşması və inkişafı mədəniyyətin ümumi yüksəlişi və maarifin genişlənməsindən, təlim-təhsilin, ədəbiyyat və incəsənətin, elm və mətbuatın təşkilindən, aparıcı canlı qüvvə olan ziyalı təbəqəsinin yetkinləşməsi və təmərküzləşməsindən çox asılıdır. Təlim-təhsil maariflənmənin əsas şərtlərindən olduğu kimi, yazıda təsbitlənən normalaşmış dil təlim-təhsilin ən mühüm vasitəsidir. M.Kazım bəy hələ XIX yüzilliyin ortalarında göstərmişdi ki, türk-tatar xalqları arasında maarifin yayılması və məktəb şəbəkəsinin genişlənməsi ədəbi dilin inkişafı üçün ən vacib şərtdir. Halbuki milli təşəkkül dövrünədək Azərbaycan dilinin təlimində vahid qayda "müəyyən edilməmişdi", ana dilinin orijinallığını əks etdirən kitablar və sabit dərs vəsaiti yox idi. Azərbaycan dilinin fonetik xüsusiyyətlərini ərəb əlifbası əks etdirə bilmirdi. Lakin XIX əsrin birinci yarısında təşkil edilən Azərbaycan məktəblərinin təlim-tədris üsuluna əməli cəhətdən nümunə olan rus məktəbləri həmin əsrin ikinci yarısında köhnə məktəblərin "üsuli-cədid" adlanan yeni məktəblərlə əvəz edilməsi ideyasını doğurdu. Qori seminariyasında onlarca yüksək ixtisaslı müəllim hazırlandı. Mahiyyətcə yeni keyfiyyətli qüvvətli ziyalı təbəqəsi təşəkkül tapdı. İqtisadi yüksəlişlə əlaqədar Bakı şəhəri sürətlə böyüyüb, get-gedə təmərküzləşdirici rola malik mədəniyyət mərkəzlərinə çevrildi. Ayrı-ayrı mədəniyyət ocaqlarının təşkili başlıca ziyalı qüvvələrinin bu şəhərə toplanmasına imkan yaratdı.

Çarizmin müstəmləkəçilik siyasətinə uyğun olaraq, yerli dilləri, xüsusən "Zaqafqaziyada ən çox əhaliyə malik" Azərbaycan xalqının "bütün Qafqazda geniş yayılmış dilini" yaxşı bilən tərcüməçi kadrlar - məmurlar hazırlamaq məsələsi hələ keçən əsrin 30-cu illərində həlli vacib bir vəzifə kimi qarşıda durmuşdu. 40-cı illərdən başlayaraq xüsusən M.F.Axundovun müntəzəm fəaliyyəti sayəsində əməli əhəmiyyətə malik saysız-hesabsız tərcümələr meydana çıxdı. Tərcümə prosesi isə,

təbii olaraq, ifadə-cümlə quruluşunu təkmilləşdirməyə sövq edir, milli ifadə formaları axtarışlarına, yenilərini düzəltməyə istiqamətləndirirdi.

Məlumdur ki, yeni istiqamətli bədii ədəbiyyatın inkişafı ilə müvafiq mədəniyyət sahələri də inkişafa başlayır. Məsələn, XIX əsrin ortalarında M.F.Axundov çox böyük ədəbi hadisə olan dram əsərlərini yazır-ədəbi dilimizin daha kütləvi dramaturgiya üslub qolu formalaşır. Bundan 20 il sonra mühüm mədəni hadisə sayılan professional teatr təşkil edilir — aktyor ifasında səhnə dilinin təşəkkülü müəyyənliyə istiqamət alır.

Yaxud sənətkar aktyor və həvəskar ziyalılar tərəfindən kütləvi ədəbi-bədii parçaların yazıya alınması və oxunması (bədii qiraət) Azərbaycan milli ədəbi dilində imla və tələffüz normalarının yaranması üçün zəmin hazırlayır-yazılı ədəbi dilə məxsus orfoqrafiya (imla) qaydaları ilə şifahi ədəbi nitqə məxsus ədəbi tələffüz normaları arasında ümumi və xüsusi cəhdlər məsələsi meydana çıxır. Əlaqədar bədii üslub qollarının və müvafiq mədəniyyət (incəsənət) növlərinin qarşılıqlı təsiri məhz XIX yüzilliyin ikinci yarısında fəal prosesə çevrilir.

Beləliklə, əsasən iqtisadi-mədəni, qismən də ictimai-siyasi təmərküzləşmə sayəsində Azərbaycan ədəbi dilinin demokratik əsaslarla yenidən qurulma prosesi XIX yüzilliyin ikinci yarısında daha fəallaşmış, müvafiq fövqi dil amillərinin güclü təsiri ilə Azərbaycan ədəbi dili XIX yüzilliyin son on onilliyində dövri mətbuatda təsbit olunaraq, mahiyyətcə yeni keyfiyyət almağa başlamış -milli ədəbi dil kimi öz ilkin formalaşmasmı başa çatdırmışdır.

## § 5. İNCƏSƏNƏT, TEATR, MEMARLIQ

XIX əsrin ikinci yarısında kapitalist istehsal üsulunun təşəkkülü şəraitində təsviri sənət inkişaf etməkdə davam edirdi və bu, milli mədəniyyətin ümumi yüksəlişi ilə bağlı idi. O, yeni formalarda inkişaf edir, öz tətbiqini divar nəqşlərində, kitab ülüstrasiyalarında, təsviri sənət əsərlərində, xalçaçılıqda, daş üzərində oymalarda, insan. heyvan və məişət əşyalarının təsviri olan qəbir daşlarında tapırdı.

XIX yüzillik təsviri sənətdə orta əsr miniatür sənətinin bəzi ənənələrinin saxlanılmasına və rəssamların yaradıcılıq marağı diapazonunun hələlik məhdud olmasına baxmayaraq, o, realist incəsənətin müəyyən təsirini öz üzərində hiss edərək, yeni mütərəqqi inkişaf yoluna qədəm basırdı. Təsviri sənətdə Azərbaycan incəsənəti üçün yeni olan sahə - dəzgah rəngkarlığı meydana çıxırdı. Azərbaycan təsviri sənətinin rus və Zaqafqaziya xalqlarının incəsənəti ilə qarşılıqlı yaradıcılıq əlaqələri xeyli genişlənmişdi. Gözəl təbiət, təbii zənginliklər, xalqın həyat və məişəti, Azərbaycanın maddi mədəniyyət abidələri dəfələrlə görkəmli rus ustaları - rəngkarları V.Vereşşagin, A.Boqolyubov, F.Rubo, V.Moşkov, N.Yaroşenko və b. əsərlərinin mövzusu olmuşdur.

Yeni realist meyillər yaranmaqda olan portret janrında aydın müşahidə edilirdi. Bu sahənin aparıcı sənətkarı *Mirzə Qədim İrəvanı* idi. Naxışçı rəssam və rəngkar olan bu adam öz yaradıcılığında miniatür sənətin ənənələri ilə sıx bağlı idi. O həm də tikmə və naxışlar üçün trafaret şəkillər, gül damətlərinin təsvirlərindən ibarət lak rəngkarlığının gözəl nümunələrini, miniatür portretlər və s. yaradırdı.

İrəvani 1850-ci illərdə İrəvan xan sarayındakı güzgülü salonun divar naxışlarının vurulmasında iştirak edərək, dörd iri portret çəkir. Azərbaycan rəssamlığında həm orta əsr miniatüründən, həm də xalq ustalarının şəkillərindən fərqlənən dəzgah portretlərini də birinci olaraq o yaratmışdı. İrəvaninin portretlərində konkret adamların obrazları canlandırılırdı. Rəssam onların portret oxşarlığını, fərdi cizgilərini verməyə can atırdı.

İrəvaninin əsərlərində bəzi yeni motivlər aşkara çıxır, ümumi dəsti-xəttin dekorativliyi formanın həcm-plastik modelləşdirilməsi ilə bacarıqla uzlaşdırılır. Məsələn, "Cavan adam", "Oturmuş qadın" portretləri, "Abbas Mirzə", "Şah Tələt" və b. portret rəsmləri kimi, rəssamın obrazı realist şəkildə təsvir etmək, onun fərdi cizgilərini və bəzən də psixoloji ifadəliyini vermək cəhdlərini səciyyələndirən əsərləri belə sənət əsərləridir.

XIX yüzilliyin digər rəssamının - *Mir Mövsüm Nəvvabın* (1833-1918) əsərləri sadəliyi, lakin gerçəkliyin realist dərkinin nisbətən zərif cizgilərlə ifadəsi ilə fərqlənir. O, zəmanəsinin geniş təhsil görmüş, hərtərəfli istedadlı şəxsiyyəti idi. O, xəttat, nəqqaşçı-rəssam kimi öz əsərlərinin üzünü köçürür, bunlara illüstrasiyalar çəkir və onların bədii cəhətdən tərtibini verirdi. Nəvvab bir rəngkar və rəsmçi kimi miniatür sənətinin köhnə ehkamlarını rəhbər tuturdu. Bu, onun dinamik süjetlərlə zəngin olan "Bəhrül xəzan" ("Qemlər dənizi") adlı kitabına çəkdiyi miniatür və illüstrasiyalarda xüsusən nəzərə çarpır.

Görünür ki, portret janrı Nəvvabı az maraqlandırırdı. Bu janrda onun bizə gəlib çatmış yeganə əsəri - "Teymurun portreti" realist ifadəlilik cizgiləri ilə fərqlənmir. Lakin Nəvvabın bilavasitə öz təəssüratının təsiri altında çəkilmiş daha uğurlu işləri rəssamın müşahidə qabiliyyətinə və peşə ustalığına dəlalət edir. Onun "Quş", "Güllər" və s. dəzgah əsərləri rəsmlərin incəliyi, formaların plastikliyi və təsvirlərin dolğunluğu ilə fərqlənir. 1880-ci illərdə rəssamın öz evinin interyerində yerinə yetirdiyi divar rəsmləri də təsvirlərin həqiqiliyi və icranın ustalığı ilə səciyyələnir.

Məşhur Azərbaycan şairəsi *Xurşid-banu Natəvanın* rəsmlərində də realizm əlamətləri müşahidə olunur. O, əla bədii tikmə ustası, xəttat və rəssam idi. Onun şeirlərinin əlyazmalarından ibarət albomunda 80-ə yaxın rəsm saxlanılmışdır. Onlardan bəziləri ("Bülbül və qızıl gül", "Şam və pərvanə") şairənin lirik şeirlərinə çəkilmiş illüstrasiyalardır. Onun "Şəhərin görünüşü", "Dəniz peyzajı" kimi kiçik rəsmləri öz üslubuna görə qeyri-adi və orijinaldır. Bu peyzajlarda konkret yerin dəqiq əksi onların bədii təsviri ilə əlaqələndirilir.

Natəvanın əri Xasay Usmiyev şairənin hazırladığı bədii tikməli tütün kisəsini 1858-ci ildə Bakıda olarkən məşhur fransız yazıçısı Aleksandr Dümaya

bağışlamışdı. A.Düma şairənin əl işindən vəcdə gələrək demişdi ki, bu onun üçün "ən gözəl hədiyyədir" [22].

XIX yüzilliyin ikinci yarısında Azərbaycanın kitab ustaları bir sıra illüstrasiyalı əlyazmaları hazırlamışlar. Naməlum rəssamın "Kəlilə və Dimnə"nin əlyazmasına, habelə şamaxılı rəssam Nəcəfqulu Məşədi oğlunun 1877-ci ildə "Yusif və Züleyxa" əsərinə çəkdiyi illüstrasiyalar və b. diqqəti cəlb edir.

Bu dövrün Azərbaycan təsviri sənət və rəssamlıq sənəti ustalarının əksəriyyəti xalq içərisindən çıxmış və onların ən yaxşı əsərləri də məhz xalqın mənəvi və estetik tələbatına cavab verən sənət nümunələri olmuşdu. Azərbaycan dekorativ, tətbiqi və təsviri sənətinin ən qiymətli incilərini məhz xalq ustaları yaradırdılar. Azərbaycanın xalq ustaları və rəssamları XVIII yüzilliyin divarüstü rəsm sənətinin ənənələrini davam etdirərək, Şəki, Şuşa, Quba, Lahıc və Ordubadda, habelə digər şəhərlərdə formaca maraqlı və məzmunca orijinal saray tikililərinin, evlərin interyerini bəzəyən bir sıra naxışlı və süjetli kompozisiyalar yaratmışdılar.

Şoki Xan sarayının qismən yenidən işlənmiş naxışlan, məşhur usta *Qəmbər Qarabağlı* və onun şagirdləri tərəfindən Şuşada Mehmandarovlar və Rüstəmovların yaşayış evlərinə vurulmuş naxışlar o dövrün divarüstü naxış sənətinin ən mühüm abidələrindən idi. Əksər hallarda müxtəlif heyvan, quş və əfsanəvi canlıların təsvirlərini özündə birləşdirən mürəkkəb ornamental kompozisiyalar Usta Qəmbərin naxışlarında üstün mövqe tuturdu. Daha uğurlu alınmış "Maral və nar ağacı" pannosunda təsvirin müstəvilik dekorativ üslubu bəzi gerçəkliyə bənzərlik cizgiləri ilə uzlaşdırılır.

Yaşayış evlərinin interyerində dekorativ süjetli naxışların belə uzlaşdırılması Azərbaycanın digər şəhərlərində də tətbiq olunurdu.

XIX yüzilliyin ikinci yarısında Azərbaycanın divarüstü naxış sənətinin inkişafında şamaxılı ustalar Mirzə Cəfər, Əliqulu və Qurbanəli, Usta Qəmbərin şagirdləri - Şəki Xan sarayının, habelə Azərbaycanın bir sıra şəhərlərində yaşayış evləri və ictimai tikililərin interyerini bəzəmiş Səfər və Şükür müəyyən rol oynamışdılar.

Adları çəkilən rəssam və xalq ustalarının yaradıcılığı mənəvi mədəniyyətin digər sahələrində olduğu kimi, Azərbaycan incəsənətində də özünəməxsus realist meyillərin aşkara çıxdığına dəlalət edir.

Bütün bunlar XX əsrin əvvəllərində Azərbaycanda realist sənətin yeni dəzgah formalarının meydana çıxıb inkişaf etməsi üçün əlverişli zəmin hazırladı.

Milli teatrın əsasının qoyulması XIX yüzilliyin ikinci yarısında Azərbaycanın mənəvi həyatında mühüm hadisə oldu. 1873-cü il martın 10-da (23-də) Bakıda M.F.Axundovun "Lənkəran xanın vəziri" pyesinin tamaşası göstərildi. Bunun təşəbbüskarları realnı məktəbin müəllimi H.Məlikov-Zərdabi və onun şagirdi Nəcəf bəy Vəzirov idi. Rolları həmin məktəbin şagirdləri ifa edirdilər. Tamaşa "Kaspi" qəzetində qeyd edildiyi kimi, "gənc aktyorlar heyətinin oyununa

tamaşaçıların rəğbətinə görə" qarşıya qoyulmuş xeyriyyəçilik məqsədinə çatıb, şəhərin həyatında böyük canlanma yaratdı. Həmin il aprelin 17-də isə ikinci tamaşa - M.F.Axundovun "Hacı Qara" komediyası oynanıldı.

Bunlar müsəlman şərqində ilk teatr tamaşaları idi.

Tamaşalar barədə xəbərlər tezliklə Bakının hüdudlarından kənara çıxaraq böyük maraq oyatdı. Şuşa, Şamaxı, Quba, Nuxa və Naxçıvanda həvəskarlar realnı məktəbin şagirdlərinin başladıqları işi davam etdirərək, teatr işinin yayılmasına təkan verdilər.

70-ci illərin tamaşaları teatr hərəkatının coğrafiyasını genişləndirərək, müxtəlif şəhərlərin ictimai həyatında canlanmaya səbəb oldu.

Ətrafında yeni-yeni qüvvələrin cəmləşdiyi Bakı teatr həvəskarları qrupu 1883-cü ildə peşəkar qrupa çevrildi, həmin ildə görkəmli mesenat H.Z.Tağıyev teatr binası tikdirdi. Qısa müddət ərzində Bakıda bir sıra istedadlı teatr xadimləri yetişdi. Onlarm arasında Cahangir Zeynalov, Həbib bəy Mahmudov, Nəcəfqulu Vəliyev və b. seçilirdi.

Bakı qrupunun ilk tamaşaları və onun fəaliyyətinin canlanması sonralar bütün Azərbaycanda teatr sənətinin inkişafına güclü təkan verdi. Qubada (1875), Nuxada (1879), Şuşada (1882), Naxçıvanda (1883), İrəvanda (1886), Gəncədə (1899) və digər şəhərlərdə teatr tamaşalarının qoyulması təşkil edildi. Nuxada teatr tamaşası R.Əfəndiyevin təşəbbüsü ilə həyata keçirilmişdi.

1882-ci ildən etibarən Şuşa yeni teatr mərkəzinə çevrilir. Tərəqqipərvər müəllimlər yay tətili zamanı burada, Xandəmirov teatrının binasında M.F.Axundovun komediyalarını tamaşaya qoymuşdular, Şuşalı həvəskarlardan bəziləri, o cümlədən iki komediya müəllifi və "Otello"nun ilk tərcüməçisi H.Vəzirov, sonralar müəllimlər B.Bədəlbəyov, Səfərli bəy Vəlibəyov, Ə.Haqverdiyev, məşhur xanəndə Cabbar Qaryağdı oğlu, F.Köçərli və b. bir müddətdən sonra Bakı qrupunun tərkibinə daxil oldular.

1883-cü ildə Naxçıvanda dram cəmiyyəti təşkil olundu. E.Sultanov onun işində fəal iştirak edirdi. Cəmiyyət M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" pyesini tamaşaya qoydu.

Naxçıvan truppası 1885-1886-cı illərdə yerli müəllimlərin yazdıqları vodevilləri, məsələn, “Kəl döyüşü”nü, "Üsuli cədid"i, 1887-ci ildə isə E.Sultanovun "Teatr qadını" pyesini tamaşaya qoydu. M.T.Sidqi, C.Məmmədquluzadə, Ələkbər Molla Bayəli oğlu, U.Ə.Şərifov və b. Naxçıvan truppasının fəal üzvləri idilər.

Azərbaycanda rus teatr truppaları da tamaşalar göstərirdi. Bakıda, Tağıyev teatrının binasında tez-tez rus teatrının qastrolları keçirilirdi. Müxtəlif truppalar şəhərə dəvət edilirdi. 80-ci illərin sonunda Bakının teatr həyatı geniş vüsət alır. 90-cı illərdə Bakıda Vasilyev-Vyatskinin yerli dram-opera truppası, habelə Suxodolskinin Ukrayna truppası, gürcü və erməni truppaları fəaliyyətə başlayır.

Azərbaycan teatrı ağır şəraitdə fəaliyyət göstərirdi: nə iri teatr kollektivləri, nə rejissorlar, nə binalar və zəruri dekorasiyalar, nə də butafor əşyaları var idi.

Teatr zəruri olan hər şeyi həvəskar aktyorların vəsaiti hesabına əldə edirdi. Qadınları truppaya cəlb etmək mümkün deyildi, ona görə də qadın rollarını kişilər oynamalı olurdu.

Teatr sənətinin təşkilatçıları və həvəskarları bütün maneə və çətinlikləri dəf edərək, bu sənətin daha da inkişaf etdirilməsinə səy göstərirdilər.

90-cı illərdə teatrın repertuarı əsasən N.Vəzirov, N.Nərimanov, Ə.Haqverdiyev və b. əsərlərindən ibarət idi.

Azərbaycan teatrı artıq 90-cı illərdə mühüm müvəffəqiyyətlər qazanaraq öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu illərdə teatr Azərbaycan, Avropa və rus ədəbiyyatının klassik əsərlərinin tamaşaya qoyulmasını təşkil edirdi. İlk dövrlərdə yerli rus-teatr məktəbinin müəllimi Həbib bəy Mahmudbəyov tərəfindən qoyulan ev tamaşaları geniş yayılmışdı. C.Zeynalovun da ev teatrında tamaşalar göstərilirdi. Sonralar teatr sənətinin görkəmli nümayəndələri kimi püxtələşən həvəskarlar məhz bu teatrın səhnəsində çıxış edirdilər. Teatr işinin yüksəlişi H.Mahmudbəyov truppası tərəfindən dram əsərlərinin müntəzəm tamaşaya qoyulmasına təkan verdi. 1895-ci il yanvarın 15-də Tağıyev teatrının səhnəsində qoyulan tamaşalar Azərbaycan dilində səslənir. N.Nərimanovun "Nadanlıq" əsərinin tamaşası gedir. Baş rolun (İmran) ifaçısı N.Nərimanova saat bağışlamışdı. Bu tamaşaya münasibəti ilə "Artist" jurnalı yazırdı: "Bakıda, yerli müsəlman əhalisi arasında görünməmiş canlanma müşahidə olunurdu" [23].

1896-cı ildə truppa milli və rus dramaturgiyasından iki tamaşa göstərir. Bunlar N.Nərimanov tərəfindən tərcümə edilmiş Qoqolun "Müfəttiş" və N.Nərimanovun "Dilin bəlası, yaxud qoçu Şamdan bəy" əsərləri idi. Sonuncu tamaşada Cahangir Zeynalovun öhdəsinə çox böyük məsuliyyət düşmüşdü. N.Nərimanovun dediyinə görə, "Bugünkü teatrdan biz iki xcyir görürük: birincisi biz indiki həyatımızın nöqsanlarını göstəririk, ikincisi isə teatrdan gələn gəlir bu il müsəlman uşaqları üçün məktəblərin tikilməsinə sərf ediləcək" [24].

Zeynalov Mahmudbəyovun truppasında çıxış etməklə bərabər, öz evində də tamaşalar göstərməkdə davam edirdi. Bu tamaşaların birində (1897-ci ildə) Mixaylov məktəbinin şagirdləri Hüseyn Xələfov və Mirmahmud Kazımovski ilk dəfə səhnəyə çıxmışdılar. Onların hər ikisi məktəbi bitirdikdən sonra aktyor olmuş və növbə ilə Mahmudbəyov truppasında, habelə H.Məlikov-Zərdabinin 1897-ci ildə təşkil etdiyi yeni teatr truppasında işləmişdilər. Sonuncu truppa 1898-ci ilin aprelində özünün ilk tamaşasını - İsgəndər Məlikovun "Yaxşılığa pislik elədilər" pyesini göstərir. 1898-ci ilin noyabrında Zərdabi truppası ikinci əsəri, 1893-cü ildən qadağan altında olan "Hacı Qara"nı göstərir. Komediya müvəffəqiyyət qazanmış və şəhərin teatr həyatında mühüm hadisə olmuşdu.

Mahmudbəyovun truppasında "Yağışdan çıxdıq, yağmura düşdük", "Ev tərbiyəsindən bir səhnə" (1898-ci il, 7 dekabr), Ə.Haqverdiyevin "Dağılan tifaq" (1899-cu il, 7 fevral) əsərləri gedirdi. Sonuncu tamaşada Nəcəf bəy rolunda Azərbaycan səhnəsində bu obrazın birinci təfsirçisi olmuş N.Nərimanov müvəffəqiyyətlə çıxış edirdi [25].

Bakılılar C.Zeynalovun "Müsyö Jordan"da (1899-cu il martın 3-də) nümayiş etdirdiyi yüksək ustalığa heyran olmuşdular. Məlikovun truppası H.Vəzirovun "Evlənmək su içmək deyil" (1899-cu il martın 12-də) pyesini göstərmişdi.

Zaman keçdikcə milli teatrın fəaliyyəti, onun köhnə dünyaya, həyatın müxtəlif eybəcərliklərinə qarşı, xalq həyatının yeniləşdirilməsi uğrunda mübarizəsi getdikcə daha çox ictimai əhəmiyyət kəsb edirdi. Azərbaycan teatrı istismarçı sinifləri ifşa edərək, adamlara həyatını eybəcərliklərini açıb göstərir, onlarda geriliyə, fanatizmə, mövhumata qarşı nifrət hissi tərbiyə edir, sosial tərəqqi, mədəniyyət və maarif uğrunda mübarizəyə çağırırdı. Azərbaycan teatr sənətinin tərəqqipərvər xadimləri mütərəqqi milli dramaturgiyaya, habelə dünya ədəbiyyatının yaxşı əsərlərinə üz tutaraq, repertuarın ciddi surətdə seçilib yeniləşməsinə, repertuardan məzmunsuz əsərlərin çıxarılmasına can atırdılar.

H.Mahmudbəyovun truppasına daxil olmuş, onun rejissoru və ideya rəhbəri olan Ə.Haqverdiyev Azərbaycan teatrının inkişafında mühüm rol oynadı. O, teatrın ideya-bədii səviyyəsini əhəmiyyətli dərəcədə yüksəltməyə müvəffəq oldu. Bunlara baxmayaraq, sabit teatr kollektivinin təşkilinə tələbat hiss olunurdu. N.Vəzirov, H.Mahmudbəyov, Ə.Haqverdiyev, C.Zeynalov və H.Məlikov-Zərdabinin teatr işinə hədsiz sədaqəti və bu sahədə qaynar fəaliyyəti bu məsələnin həllində müsbət rol oynadı.

Dram artistlərinin Ə.Haqverdiyev tərəfindən başçılıq edilən ilk daimi teatr truppası milli və dünya ədəbiyyatının materialları əsasında monumental tamaşaların hazırlanması sahəsində fəaliyyətə başladı. Azərbaycan pyeslərinin rus teatrının, digər xalqların və ölkələrin teatr səhnələrində tamaşaya qoyulması üçün ilk cəhdlər göstərilirdi. Məlumdur ki, M.F.Axundovun komediyaları Azərbaycan dilində tamaşaya qoyulandan 20 il əvvəl rus səhnəsində göstərilmişdi.

M.F.Axundovun A.Sereteli tərəfindən tərcümə edilib 1897-ci ildə gürcü səhnəsində tamaşaya qoyulmuş "Lənkəran xanının vəziri" komediyası Gürcüstan ictimaiyyəti içərisində geniş əks-səda doğurmuşdu. Azərbaycan milli dramaturgiyasının əsərləri tədricən İrana, Türkiyəyə və Şərqin digər ölkələrinə yayılırdı.

XIX yüzilliyin ikinci yarısı Azərbaycan musiqi sənətinin daha da inkişaf etməsi ilə əlamətdar olmuşdur. Musiqi sənətinin inkişafı iki istiqamətdə gedirdi. Bir tərəfdən o, aşıq, xanəndə və sazəndə ansambllarının yaradıcılığı ilə təmsil olunan çoxəsrlik şifahi xalq ədəbiyyatı ənənələri hesabına zənginləşir və inkişaf edir, digər tərəfdən isə Avropa və rus mədəniyyətinin təsiri altında yeni forma

Azərbaycan musiqi sənətinə daxil olur və tədricən möhkəmlənirdi. Azərbaycan sənətkarları musiqinin yeni növlərini dərindən mənimsəyir, dünya musiqi sənətinin əsərləri ilə tanış olurdular.

Xalq yaradıcılığı ilə təmsil olunan Azərbaycan musiqisi xalqın düşüncə və istəyini, milli xarakterinin ən yaxşı cizgilərini təcəssüm etdirərək, onun hiss, həyəcan və iradəsini ifadə edirdi. Bu musiqi janrları müxtəlifliyi ilə fərqlənirdi.

Azərbaycan musiqi folklorunun aparıcı janrları xalq mahnıları və rəqsləri idi. Xalq həyatını hərtərəfli əks etdirən mahnı yaradıcılığı xüsusən zəngin idi. O özündə qədim, müxtəlif əkinçilik proseslərinə uyğun əmək mahnılarını, əkin-biçin, düyü alağı, çoban və s. mahnılarını, tarixi - "Qaçaq Nəbi", "Piyada Koroğlu", "Gedən gəlmədi" mahnılarını, zarafat, yumor, satira və oyun mahnılarını, toy, mərasim mahnılarını, yas bayatı və ağılarını, habelə laylaları birləşdirirdi.

Azərbaycan mahnı yaradıcılığının bütün janr müxtəlifliyinə baxmayaraq, onda lirik məhəbbət mahnıları üstünlük təşkil edirdi. Bizim dövrümüzə qədər gəlib çatmış mahnılardan "Qalanın dibində", "Bu gələn yara bənzər", "Ay bəri bax, bəri bax", "Ay Laçın" və s. göstərmək olar. Azərbaycan xalq mahnı sənətinin bu inciləri özünün incəliyi və musiqi düzümünün gözəlliyi ilə seçilir.

Azərbaycanın xalq məişətində geniş yayılmış rəqs sənəti də milli özünəməxsusluğu ilə fərqlənirdi. Bu sənət asta lirik ("Turacı", "Uzundərə" və s.) və şux canlı ("Tərəkəmə" və s.) qadın, təntənəli-əzəmətli (qocaların oynadıqları müdriklik rəqsi "Mirzəyi" və s.), odlu-alovlu şıdırğı ("Qaytağı", "Əsgərani" və s.) kişi rəqsləri ilə təmsil olunmuşdu, "Yallı", "Cəngi" kimi kollektiv rəqslər xalq arasında çox məşhur idi.

Xalqın həyatı ilə sıx bağlı olan musiqili-poetik aşıq yaradıcılığı Şifahi ənənəvi peşəkar xalq sənətinin digər qolu idi. Peşəkar yaradıcı aşıq özündə eyni zamanda şairi, hekayətçini və musiqiçini təcəssüm etdirirdi. Aşıq yaradıcılığının mövzuları öz müxtəlifliyi ilə fərqlənirdi. Buraya həm xalq qəhrəmanları Koroğlu, Qaçaq Nəbi mübariz Babək və b. həyat və igidliyi haqqında epik-qəhrəmanlıq hekayətləri (dastanlar), həm Aşıq Qərib, Leyli və Məcnun, Əsli və Kərəm haqqında lirik-əfsanəvi musiqili poemalar, həm də lirik məhəbbət, qəhrəmanlıq, yumoristik mahnılar, "Ustadnamə" adlanan nəsihət mahnıları və bir çox başqaları daxil idi. İki, bəzən isə hətta üç aşığın yaratdığı və birgə ifa etdiyi mahnı-dialoqlar-deyişmələr aşıq yaradıcılığının maraqlı səhifələrindən birini təşkil edirdi.

Aşıqlardan Abbasqulu, Nəcəfqulu, Molla Cuma, Aşıq Ələsgər və bir çox başqaları Azərbaycanda və onun hüdudlarından kənarda böyük şöhrət qazanmışlar. Hələ orta əsrlərdə meydana çıxmış, XIX yüzilliyin ikinci yarısında ən yüksək çiçəklənmə dövrünə qədəm qoymuş muğamat Azərbaycan xalq musiqisinin ən mürəkkəb forması idi. Xanəndələr, xalq musiqiçilərinin nümayəndələri muğamatın, xalq yaradıcılığının bu parlaq və özünəməxsus sahəsinin daşıyıcıları və qismən də yaradıcıları idilər. Xanəndənin ifası kiçik instrumental ansambl - sazəndələr dəstəsi tərəfindən müşayiət olunurdu. Bu ansambla tar, kamança, dəf, bəzən də qoşa nağara

daxil idi. Ansambl toylarda, el şənliklərində, xüsusən evlərdəki çıxışları zamanı muğamları - vokal instrumental pyesləri ifa edirdilər. Muğamların çoxsaylı variantları mövcud idi. Xanəndə ansamblları əvvəlcə şəhərlərdə, sonra isə kəndlərdə geniş şöhrət qazanırdı.

Azərbaycan musiqisi həm də alətlərin zənginliyi ilə seçilirdi. Bu musiqidə tar və kamançada muğamların ifa edilməsi geniş yayılmışdı. Sadıq (Sadıqcan) Əsəd oğlu (1846-1902), Xarrat Qulu (1823-1883), Hacı Hüsü, Məşədi İsi, Keçəçi Məhəmməd, Ələsgər Abdullayev, Cabbar Qaryağdıoğlu, Əli Palaz oğlu, Məcid Behbudov və b. təkcə Qafqazda deyil, həm də onun hüdudlanndan kənarda mahir çalğıçılar, yüksək istcdadlı xanəndələr kimi məşhur olmuşlar, Bakı, Şamaxı, Quba, Naxçıvan, Gəncə və digər Azərbaycan şəhərləri istedadlı musiqiçiləri ilə ad qazanmışdı. Lakin xalq müğənniləri və çalğıçılarının əsil məskəni Qarabağ, xüsusən də əsrin sonunda musiqi həyatının bulaq kimi çağladığı Şuşa şəhəri idi. Burada şifahi musiqi yaradıcılığının klassik ənənələrinin zənginləşdirilməsində mühüm rol oynamış azərbaycanlı muğamatçıların - xanəndələrin, tarzənlərin və kamançaçıların bütöv bir məktəbi formalaşmışdır. Xalq müğənniləri və çalğıçıları eyni zamanda musiqi alətlərini təkmilləşdirir, yenilərini yaradırdılar. XIX əsrdə görkəmli Azərbaycan tarzəni Sadıq Əsəd oğlu tarı təkmilləşdirərək onu virtuoz musiqi alətləri səviyyəsinə qaldırmışdır. O, eyni simlər əlavə etməklə tarı tam səsə, zəngin tembr imkanlarına malik, solo ifası üçün çox əlverişli olan musiqi alətinə çcvirdi. Onun tətbiq etdiyi yeniliklər Azərbaycanın çalğı alətləri təcrübəsinə möhkəm surətdə daxil oldu.

İlk musiqi məktəbləri Azərbaycan musiqi mədəniyyətinin inkişafında, ifaçıların yetişməsində böyük rol oynadı. Onlardan biri xanəndələr Xarrat Qulu və İbrahim tərəfindən Şuşada yaradılmışdı. Bu məktəb, başlıca olaraq, mərsiyəxanlar hazırlamasına baxmayaraq, klassik musiqi ənənələrini inkişaf etdirirdi. 80-cı illərdə Şuşada daha bir musiqi məktəbi - Kor Xəlifənin məktəbi mövcud idi. Burada uşaqlar tar-kaman çalmağı və muğamatı öyrənirdi. Bu məktəb eyni zamanda xeyli miqdarda ifaçı yetirmişdi.

Bu dövrdə musiqi nəzəriyyəsi və tarixi üzrə əsərlərin yaradılmasına cəhdlər göstərilirdi. Həvəskar musiqiçi A.Əliverdibəyov uzun illər boyu topladığı materiallar əsasında 1896-cı ildə "Rəsmli musiqi tarixi" adlı Azərbaycan musiqi tarixini yazdı. Şair, rəssam və musiqiçi M.Nəvvab da musiqi üzrə tədqiqatlarla məşğul olurdu. O, "Musiqi elmində rəqəmlərin aydınlaşdırılması" ("Dər elmi musiqi vizuh ülərqam") adlı kitab yazmış və kitabda muğamlarının yaranma və ifaetmə qanunlarını izah etmişdi.

Xalq musiqi ənənələrinin yayılması və zənginləşməsi ilə yanaşı, musiqi həyatında musiqi mədəniyyətinin yeni formaları müşahidə olunurdu. Bu zaman geniş əhali kütlələrinin Avropa incəsənətinə cəlb olunmasında böyük rol oynayan bağ musiqisi şəhərliləri kütləvi musiqi əyləncəsinə cəlb edirdi. Skripkaçılar Q.Venyavski və A.Brodeki, müğənni A.Menşikov kimi ustaların konsertləri şəhərin musiqi həyatında mühüm hadisə olub, uzun müddət dinləyicilərin yadında qalmışdı.

Bakı ziyalılarının musiqi əyləncəsinin əsas forması evlərdə təşkil olunan musiqi axşamları çərçivəsindən kənara çıxmış həvəskar musiqi idi. Musiqi həvəskarları yerli musiqiçilərin, hərbi kapelmeysterlərin, musiqi müəllimlərinin iştirakı ilə kütləvi konsertlər (çox vaxt xeyriyyəçilik məqsədi ilə) təşkil edirdilər.

Dəmiryolu xəttinin açılması ilə Bakıya rus və Avropa musiqiçiləri gəlməyə başladı. Onların ustalığı və geniş repertuarları Bakı tamaşaçılarında mənəvi zövqün inkişafına və şəhərin musiqi həyatının canlanmasına müsbət təsir göstərirdi. 80-90-cı illərdə görkəmli rus və Avropa musiqiçiləri tez-tez Bakıda çıxış edirdilər.

Bakılıların eşitdiyi ilk opera A.Verstovkinin 1889-cu ilin mayında D.Aqryonov-Slavyanskinin kapellasının konsert ifasında təqdim etdiyi "Askoldun məzarı" operası olmuşdur. Həmin il dekabrın 5-də qastrola gəlmiş Tiflis opera truppasının ifasında Bakıda ilk peşəkar opera tamaşası göstərildi. Açılışda A.Darqomıjskinin "Su pərisi" tamaşaya qoyulmuşdu. Tamaşanın dirijoru S.Barini idi. Truppada İ.Tartakov, V.Zarudnaya, T.Lyubatoviç kimi məşhur müğənnilər oxuyurdu.

90-cı illərdə bakılılar balet janrı ilə tanış oldular, 1894-cü il mayın 16-da Peterburq truppasının ifasında Bakıda ilk peşəkar balet tamaşası göstərildi. Açılışında A.Adanın "Dəniz qulduru" baletinin tamaşası göstərilmişdi. Rus baletinin L.Keyten, Çernyavskaya, Tixomirov, Stepanov kimi ustaları bu truppanın tərkibində çıxış edirdi. Mayın 16-dan 20-dək göstərilən beş tamaşanın arasında A.Adamn "Jizel" və L.Delibanın "Koppeliya" baletləri də vardı.

80-90-cı illərdə həm peşəkar, həm də həvəskar yerli musiqiçilər öz fəaliyyətlərini xeyli genişləndirirdilər. Məhsuldar pedaqoji işlə məşğul olan, konsertlərdə və musiqi dərnəklərinin təşkilində iştirak edən bir sıra istedadlı musiqiçilər səhnəyə qədəm qoydular.

90-cı illərdə Bakıda uşaqlara musiqi öyrədən xeyli müəllim işləyirdi. Lakin belə xüsusi dərslər gənclərin musiqi təhsilinə artan tələbatını ödəyə bilmirdi. Xüsusi məktəblərin açılmasının zəruriliyi haqqında danışıqlar gedirdi. 1895-1896-cı illərdə pianoçu A.İ.Yermolayeva özünün xüsusi musiqi məktəbinin əsasını qoydu. Bu, Bakıda ilk Avropa tipli musiqi təhsili müəssisəsi idi. Şəhərin ən yaxşı musiqi qüvvələri məktəbə yığışır, burada xeyriyyəçilik məqsədilə konsertlər verilirdi. P.F.Yuon tərəfindən təşkil edilmiş simli kvartet 1896-cı ildən kamera musiqisi məclislərini keçirirdi.

Milli musiqi kadrlarının hazırlanmasında Qori Müəllimlər Seminariyası böyük rol oynadı. Onun məzunları eyni zamanda musiqiçilik fəaliyyəti ilə məşğul olur, musiqi təhsilinin ibtidai formaları şəbəkəsini genişləndirirdilər.

Bakı musiqiçiləri öz qüvvələrini birləşdirmək üçün 1895-ci ildə teatr və musiqi şöbələri, həvəskar orkestr yaratdılar. Bu orkestr F.Parizekin başçılığı altında 1897-ci ildə Bakıda ilk simfonik konsert mövsümünü açdı.

Musiqi həyatının inkişafı tədricən demokratik, maarifçi xarakter almağa başlayır: əhalinin geniş təbəqələri, mədəni-maarif müəssisələri bu həyata qoşulurdular. Müxtəlif həvəskar xor kollektivi yaradıldı. 1834-cü ildə dəmiryol işçiləri

özlərinin dram sənəti və musiqi həvəskarları cəmiyyətini və 15 nəfərlik orkestr yaratdılar. 1896-cı ildə "Nobel qardaşları" şirkətinin işçiləri orkestri olan musiqi dərnəyinin əsasını qoydular. Orkestr fəhlələr üçün pulsuz konsertlər verirdi. Eyni zamanda A.A.Lampenin rəhbərlik etdiyi 50 nəfərlik xalq xoru təşkil olunmuşdu.

Rus və Avropa musiqi mədəniyyətləri ilə ünsiyyətdə Azərbaycan musiqi sənəti yeni məcra ilə inkişaf etməyə başladı, musiqinin yeni formalan meydana çıxdı.

Kütləvi konsertlər yeni şəraitdə - konsert salonlarında, teatr binalarında, təntənəli gecələrdə, ballarda, bağ gəzintilərində keçirilməyə başladı. Məsələn, 1892-ci ildə sazəndələr orkestri Bakıda, ictimai məclisin binasında özünün ilk konsertini vermiş, 1899-cu ildə isə elə bu binada məşhur Azərbaycan müğənnisi Cabbar Qaryağdı geniş dinləyici kütləsi qarşısında çıxış etmişdi.

Paralel olaraq Azərbaycan xalq musiqisinin nümunələri də Avropa alətlərində ifa olunmağa başladı. Tiflisli pianoçu Q.Korqanov özünün "Bayatı" fortepiano fantaziyasını Bakıda böyük müvəffəqiyyətlə ifa etmişdir. Azərbaycan xalq mahnı və muğamlarının konsert işləmələri Bakıda bəstəkar və pianoçu N.F.Tiqranovun ifasında səslənmişdi (1895-ci və 1899-cu illərdə). İctimai məclisin binasında, Tağıyev teatrında qarışıq Azərbaycan, gürcü, erməni konsert axşamları təşkil olunurdu.

Peterburq, Tiflis və İrəvanda Azərbaycan musiqi konsertləri keçirilməyə başlandı. Məşhur Azərbaycan xanəndəsi Səttar sazəndələr ansamblının müşayiəti ilə ilk dəfə (1853-cü və 1860-cı illərdə) Tiflis opera teatrında konsert proqramı ilə çıxış etmişdi. 1895-ci ildə azərbaycanlı tələbələr Peterburqda ilk Azərbaycan gecəsi təşkil etdilər. Axşamda Avropa orkestri Azərbaycan melodiya və rəqslərini ifa etmiş, habelə Firdovsinin "Rüstəm və Zöhrab" poemasından və "Aşıq Qərib" dastanından canlı musiqi parçaları səsləndirilmişdir. Bu tamaşa Azərbaycanın "canlı musiqili lövhələrinin" səhnədə ifa edilməsi sahəsində ilk addım idi. Sonralar belə səhnələr xalq musiqisinin görkəmli nümayəndələrinin repertuarına daxil oldu.

Beləliklə, XIX yüzilliyin ikinci yarısında Azərbaycan musiqisində müasir musiqi peşəkarlığının ilkin şərtləri yaranırdı. Bu peşəkarlıq milli ənənələrin musiqi həyatının, musiqi ifaçılığının Azəbaycan üçün yeni formaları ilə uzlaşdırılmasına əsaslanırdı. XX əsri əvvəlində Azərbaycanda musiqinin çiçəklənməsinin kökləri məhz bu dövrdən başlanır.

XIX yüzilliyin ikinci yarısında Azərbaycan memarlığının inkişafi bir tərəfdən, coşqun surətdə genişlənərək qısa müddətdə Rusiyanın ən iri sənaye mərkəzlərindən birinə çevrilmiş Bakıda şəhərsalma özünəməxsusluğu ilə, digər tərəfdən isə qalan əyalət şəhərlərinin əvvəlki dövrdə nisbətən çox az fərqlənən ləng inkişafının davam etməsi ilə səciyyələnirdi.

Bir sıra şəhərlərdə "nizami" planlaşdırmaya və onların abadlığının yaxşılaşdırılmasına səy edilməsi müşahidə olunurdu.

Nəzərdən keçirilən dövrdə Azərbaycanda şəhərsalma və memarlığın inkişafının başlıca xüsusiyyətlərindən biri tikintidə plan-kompozisiya və bədii memarlıq elementlərindən istifadə olunması idi. Bu, binaların fasadlarının xüsusi

bəzəyində, eyvanlar, parad kirişləri, ikiqat pilləkənlər və s. quruluşunda da nəzərə çarpır. Bakının tikintiləri kapitalist şəhərinə məxsus olan bütün ziddiyyətləri güzgü kimi əks etdirərək, güclü təzadlarla fərqlənirdi. XIX əsrin son rübündə ncft sənayesinin coşqun inkişafı əhalinin görünməmiş axınına və onun yerləşdirilməsində xeyli çətinliklərə səbəb oldu. Bununla əlaqədar tədricən şəhərin ətrafında, köhnə Bakının hüdudlarından kənarda neftçi fəhlələr üçün qəsəbələr salınmağa başlandı. Kapitalist Bakısının şəhər tikintiləri "Forştad"ın ərazisində aparılır, Bakı amfiteatrının bütün terrasları boyu genişlənir, İçərişəhərin minarələri fonunda iki, üçmərtəbəli, yastı damlı daş evlərdən ibarət məhəllələr meydana çıxırdı.

Abşeron yarımadasının şimal sahilləri (xüsusən də Mərdəkan və Buzovna kəndləri) çoxdan bəri özünün əlverişli təbii iqlim şəraiti ilə məşhur idi və buna görə də artıq XIX yüzilliyin sonunda Abşeronda kurort zonasına çevrilmiş Mərdəkan kəndində qısa müddət ərzində çoxlu villalar və yaylaq evləri inşa edilməyə başladı.

Əgər şəhərdə layihələndirilmiş bina adətən məhəllə və küçələrin sıx tikintiləri içərisində yerləşdirilirdisə, Abşeron genişliklərində villaların layihələndirilməsi zamanı memar öz yaradıcılığının bədii cəhətini açıb göstərə bilirdi. Bu baxımdan neft sənayeçisi Muxtarovun villası (indi Azərbaycan MEA Dendroloji parkı), XIX yüzilliyin 90-cı illərinin əvvəllərində Mərdəkanda tikilmiş ilk villalardan biri kimi səciyyəvidir.

Muxtarovun villası Bakı varlılarınm şəhərkənarı villalarının tikintisinin başlanğıcını qoydu.

1897-1901-ci illərdə Muxtarovun villası ilə yanaşı, Əsədullayevin villası tikildi. Ərazisinin genişliyinə görə (15 ha) bu villa Nobelin (10 ha), Muxtarovun (8 ha) villalarından və bir çox başqalarından üstün idi. Təbii şərait memarlara o zamankı park arxitekturasının funksional məsələlərinin müxtəlif həll üsullarını diktə edirdi. Planlaşdırma strukturu iki əsas binaya (bir üzü parka, digər üzü isə dənizə baxan iki və üçmərtəbəli iki binaya) tabe edilmişdi.

Gözəl parkı, hovuzu və xiyabanları olan geniş villa ərazisinin memarlıq-plan strukturu Abşeronun ənənəvi yaylaq evlərindən maraqlı surətdə istifadə olunmuş bədii düşüncəyə müvafiq surətdə yaradılmışdı.

Bakının bütün istiqamətlərdə inkişafının başlanğıcı rolunu oynamış qala divarları arxasındakı qədim şəhər - Bakı yaylasının cənub-şərqində, demək olar ki, mərkəzi mövqe tutan İçərişəhər idi. Ondan şimala, şimal-qərbə və şimal-şərqə doğru amfiteatr şəklində Bayır (yəni xarici) şəhəri formalaşmağa başladı. Bayır şəhəri Yuxan Dağlı, Çəmbərəkənd və s. kiçik qəsəbələrdən ibarət idi. Qala divarları önündə bir-birinə qısılmış xırda daxmaların yerində kapitalist Bakısının intensiv tikinti meydanına çevrilmiş Bakı for-ştadında gözəl müasir binalardan ibarət yeni məhəllələr formalaşırdı.

Bakı şəhərtikmə tarixində XIX yüzilliyin ikinci yarısı görkəmli Azərbaycan memarı, Bakı forştadının fəal şəkildə yenidən qurulması və yeni kapitalist şəhərinin

formalaşması dövründə böyük rol oynamış *Qasım bəy Hacıbababəyovun* (1811-1877) yaradıcılıq fəalliyyəti ilə eyni vaxta düşmüşdü.

Q.Hacıbababəyov İçərişəhərdən kənardakı tikintinin əsas həlqələrindən birini təşkil edən Parapet adlı mərkəzi meydanın tikintisini həyata keçirdi. Memarın iri tikintilərindən biri də böyük karvansara (indiki "Araz" kinoteatrı) idi. Bu binanı o özü 1863-cü ildə layihələndirmiş, qrafika işlərini isə onun köməkçisi, sonradan Bakının ən görkəmli memarlarından biri olmuş *Məşədi Mirzə Qafar İsmayılov* görmüşdü. İsmayılov 30 il ərzində, başlıca olaraq, Bakıda binaların layihələndirilməsi və tikintisi ilə məşğul olaraq böyük memarlıq irsi qoyub getmişdir.

90-cı illərin əvvəllərində inzibati-ictimai binaların ucaldılması üçün nəzərdə tutulmuş Nikolayev (indiki İstiqlaliyyət) küçəsindəki tikintilərin layihəsi hazırlandı. 1898-ci ildə görkəmli memar İ.V.Toslavskinin layihəsi üzrə H.Z.Tağıyevin xüsusi müsəlman qız məktəbinin inşasına başlandı. Həmin memarın layihələndirdiyi Tağıyev sarayının ucaldılması üzrə işlərin əsas hissəsi görülüb qurtarırdı (1893-1902). H.Z.Tağıyevin vəsaiti ilə hələ 1883-cü ildə tikilmiş teatra onun adını daşıyan da əlavə olundu (1898).

80-90-cı və 1900-cü illərin tikililəri içərisində müqəddəs bina və məktəblərin, dövlət bankının, Rusiya Texniki Cəmiyyəti Bakı şöbəsinin, dəmiryol vağzalının binaları xüsusi yer tutur. Onların inşasına D. D. Buynov, İ.V.Qoslavski, K.B.Skureviç və başqa memarlar rəhbərlik etmişlər.

Bunların içərisində Deburun evi (indi R.Mustafayev adına İncəsənət Muzeyi) nəzəri xüsusilə cəlb edirdi. Yüzilliyin sonunda şəhərdə mənzil tikintisi geniş miqyas aldı. Bakılı sahibkarlar bir-birlərilə bəhsə girərək özləri üçün dəbdəbəsi və memarlıq bər-bəzəyinin zənginliyi ilə fərqlənən binalar tikdirirdilər. Bakı daşyonma mütəxəssisləri olan el sənətkarlarının yüksək ustalığı məhz belə binaların inşasında istifadə olunurdu.

Şəhərin yeni hissəsindəki binaların memarlığında milli və romantik üslub bir-birilə uzlaşdınldı.

Şəhər kənarında və neft mədənlərinin yaxınlığındakı fəhlə rayonlarında monumental binalar az idi, belə ki, burada başlıca olaraq, yöndəmsiz fəhlə kazarmaları tikilirdi. Yaşayış obyektlərinin ən səciyyəvi tipi fəhlələrin məskən saldıqları, bir-birindən fərqlənməyən binnərtəbəli daxmalardan ibarət idi.

Bakının yüksək memarlıq məziyyəti ilə fərqlənən əsaslı binalarının çoxu öz cazibədarlığına görə Bakı daşının əla dekorativ imkanlarına və bu daşın yerli ustalar tərəfindən məharətlə işlənilməsinə borcludur. Binaların mürəkkəb hissələri, relyefli daş işləmələrdən ibarət bütöv fraqmentlər Hənifə, Hacı Abbas, Hacı Xeyrulla və b. Gözəl ustalar tərəfindən heyrətamiz sənətkarlıqla yerinə yetirilirdi. Daş işləmə sənətinin Abşeron və köhnə Bakının abidələrində canlandırılmış çoxəsrlik ənənələri şəhərin tikintisində özünü bütün qüvvəsilə təzahür etdirirdi.

Azərbaycanda dəyişilmiş sosial-iqtisadi şərait nisbətən daha kütləvi olan mənzil tikintisində yeni əlamətlərin meydana çıxmasına səbəb oldu. Köhnə tipli

mənzillər öz yerini tədricən daha müasir və abad yaşayış binalarına verirdi. Kənd rayonlarında, xüsusən də ölkənin qəza mərkəzlərində tikilmiş şəhər və yarımşəhər tipli yaşayış binaları özünün keçmiş qapalılığını getdikcə daha çox itirdi. Əsas fasadı indi küçəyə doğru yönələn yaşayış binalarının daxili planlaşdırılması da dəyişmişdi. Fasadlarda böyük pəncərələr, geniş küçə eyvanları və ifadəli bəzək ünsürləri geniş tətbiq olunurdu. Mənzil tikintisindəki bütün bu yeniliklər Gəncə, Nuxa, Quba, Şuşa, Ordubad və digər Azərbaycan şəhərlərinin inşa işlərində geniş surətdə öz əksini tapırdı.

Azərbaycan qəzalarındakı ənənəvi şəhərsalma prinsipləri yerli təbii-coğrafi xüsusiyyətlər, istehsalat, təsərrüfat, iqlim şəraiti ilə qırılmaz surətdə bağlı idi. Məsələn, Azərbaycanın demək olar ki, bütün dağ və dağətəyi yerlərində yaşayış evləri xüsusən yığcam şəkildə tikilirdi. Yaşayış evlərinin aşağı mərtəbələri təsərrüfat ehtiyacları üçün istifadə olunurdu. Evlər dekorativ elementlərlə bəzədilirdi. Ordubad rayonunda yaşayış evləri işıqlandırmanın orijinallığı və kompozisiyalı strukturla fərqlənirdi. Onların səkkizguşəli vesti-bülləri, fasadlarda isə ifadəli portalları var idi. Yaşayış evlərinin yuxan qatlarında "balaxana" adlanan qonaq otaqları düzəldilirdi. Yay zamanı yaşayış evlərinin sərin və sakinlər üçün rahat olmasına xüsusi diqqət yetirilirdi. Tez-tez baş verən güclü zəlzələlərlə əlaqədar olaraq Şamaxı rayonunda, bir qayda olaraq, birmərtəbəli, dağıntıya daha dözümlü olan binalar tikilirdi.

İnzibati, dini binaların, habelə varlı adamlar üçün tikilən xüsusi yaşayış binalarının memarlığında rus klassisizminə xas olan kompozisiya üsulları və motivlərinin tətbiqi kifayət qədər geniş yayılmışdı. Lakin bu yeni üslub və formalar yerli mənzil tikintisi təcrübəsilə, xalq ustaları tərəfindən orijinal surətdə, yenidən işlənərək milli memarlığın sabit ənənələri ilə üzvi surətdə qovuşurdu.

Tikinti texnikasında da dəyişikliklər müşahidə olunurdu, hər yerdə yeni tikinti materiallarının - dam dəmirinin, kənardan gətirilənlən meşə materiallarının, şüşənin və s. meydana çıxması nəzərə çarpırdı. Bu da dövrün tələblərinə cavab verən mütərəqqi mühəndis konstruksiyalarının, yeni tikinti üsul və metodlarının meydana çıxmasını şərtləndirirdi. Köhnə, kvadrat formalı bişmiş kərpic, demək olar ki, hər yerdə daha əlverişli olan düzbucaqlı kərpic tərəfindən sıxışdırılıb aradan çıxarılırdı, mənzili pis qızdıran və çoxlu yanacaq işlədən qədim buxarılar şəhər evlərində Avropa tipli qənaətli sobalarla əvəz olunurdu və s. Kənardan xeyli meşə materiallarının gətirilməsi ilə əlaqədar olaraq, Bakı və Abşerondakı mənzil tikintisində əvvəllər tətbiq edilən daş qübbəvari konstruksiyalardan gətirilmə ağac materiallarından qurulan yüngül damlara keçilirdi.

Rus və xarici səyyahların, alimlərin diqqətini cəlb edən qədim memarlıq abidələrinə maraq get-gedə artırdı. Əlüstü yazılmış səyyah qeydləri öz yerini mütəxəssislərin sanballı təsvirlərinə verirdi. Bu baxımdan məşhur rus alimləri B.Dorn, N.Xanıkov, T.Berezin və b. əsərləri, memarlıq akademiki D.Qrimi tərəfindən tərtib edilmiş memarlıq ölçüləri, görkəmli rus rəssamları Q.Qaqarin və xüsusən də

V.Vereşşaginin Azərbaycanın bir sıra qiymətli arxitektura qurğuları əks olunmuş rəsmləri xüsusən əhəmiyyətlidir.

Memarlıq abidələrinin bərpası üzrə də xeyli iş görülürdü. Hələ 50-ci illərdə Şəki Xan sarayında bu cür işlər başa çatdırılmışdı; 60-70-ci illərdə Bakının qala divarları rayonunda bərpa işləri aparılmış, lakin bu zaman şəhərin bir sıra memarlıq abidələrinin dağıdılmasına da yol verilmişdir. Məsələn, 1865-ci ildə sahil boyunca qala divarlarının bir hissəsinin dağıdılması hesabına bulvar salınmağa başlanmış, bu divarların daşlarından isə şəhərdə binalar tikilməsində istifadə edilmişdir.

80-ci illərdə Bakı qalasının ikinci divarı da dağıdılmağa başlandı. Onun yerində Nikolayev küçəsində yeni əsaslı binalar ucaldıldı. 1896-cı ildə qalanın ikinci darvazası tikildi. Onun inşaatçısı Kərbəlayı Məmmədhəsən Hacı Mahmud oğlu olmuşdur. O zaman Azərbaycanın başqa yerlərində əsasən inzibati və dini məqsədli binalar tikilirdi. Məsələn, keçmiş Qarabağ xan nəsli nümayəndələrindən biri olan Gövhər ağanın sifarişi ilə 1883-cü ildə Şuşada Azərbaycan memarı Kərbəlayı Seyfxan tərəfindən məscid tikilmişdi. 1888-ci ildə isə Məşədi İbrahim oğlu Xızıda yeni məscid inşa etmişdi.

## NƏTİCƏ

On doqquzuncu yüzillik Azərbaycan xalqının tarixində, Vətənimizin sosial-iqtisadi, siyasi və mədəni həyatında son dərəcə ınühüm dəyişikliklər dövrü olmuşdur. Ötən əsrin ilk otuzilliyində Azərbaycan torpaqları xarici işğalçıların hücumlarına məruz qalmış, torpaqlarımız uzunmüddətli dağıdıcı müharibələr meydanına çevrilmişdir. Bu müharibələrin gedişində ölkədə çoxsaylı insan tələfatı olmuş, minlərlə ailə doğma yurd-yuvasından didərgin düşmüş, kənd və şəhərlərimiz xaraba qalmış, məhsuldar qüvvələrə böyük zərər vurulmuşdur. Lakin xalqımız üçün bu tarixi dövrdə ən böyük itki xarici işğalçıların, ilk növbədə Rusiya qəsbkarlarının zərbələri altında Azərbaycan dövlətçiliyinin məhv edilməsi və bir ölkənin, vahid xalqın torpaqlarının Arazdan şimala və cənuba - iki yerə parçalanması oldu. Rusiyanın I Dövlət dumasında çıxışında Gəncədən seçilmiş deputat İsmayıl xan Ziyadxanov qeyd edir ki, Rusiya işğalından keçən yüz il ərzində "biz müsəlmanlar, həmişə əsir müamiləsi görmüş və bu sifətlə hər təqibata məruz qalaraq, hər cür haqq və hüquqdan faydalanmaz kölə vəziyyətinə endirilmişik... Ölkəmiz istila edilər-edilməz, dərhal milli varlığımıza təcavüzə qalxışıldı".

Hərbi-siyasi uğurlara baxmayaraq, çar hökuməti yaxşı başa düşürdü ki, bu yeni istila olunmuş müsəlman şimal diyarında mövqeyi kifayət qədər qeyri-sabitdir. Ona görə də bu yerlərdə özünə xristian dayağı yaratmaq, Arazın şimal və cənubunda yaşayan eyni xalqın arasında xristianlardan ibarət tikanlı sanitar kordonu yaratmaq üçün çar hökumət dairələri İran və Türkiyə ərazisində yaşayan erməniləri kütləvi surətdə Zaqafqaziya hüdudlarına köçürməyə, rusları və almanları Şimali Azərbaycanda məskunlaşdırmağa, müxtəlif bölgələrdə yerli əhalini xristianlaşdırmağa

başladı. Ermənilərі köçürməklə çar hökuməti bir tərəfdən, onları – müharibələrin gedişində Rusiyanın xeyrinə satqınlıq edərək təbəəsi olduqları dövlətlərə xəyanət etmiş bu xristianları İran və Türkiyə dövlətlərinin ədalətli cəzalarından yayındırır, digər tərəfdən isə Şimali Azərbaycanın müsəlman-türk əhalisi içərisində özünə xristian dayağı yaradırdı. XIX əsrin əvvəllərindən etibarən İrəvan, Naxçıvan, Qarabağ və b. kimi əzəli Azərbaycan torpaqlarında erməniləri məskunlaşdırmaqla məhz Rusiya dövlətinin əlilə Azərbaycanın bu günə qədərki bir çox itkilərinə zəmin yaradılmış, bu gün respublikamız qarşısında duran qlobal problemlərin bünövrəsi qoyulmuşdur.

Feodal pərakəndəliyinin didib parçaladığı Şimali Azərbaycanı bütövlüklə Cənubi Qafqazı şah İranı və soltan Türkiyəsi ilə gərgin mübarizədə qəsb edə bilmiş çar Rusiyasının yaratdığı müstəmləkəçi rejim ilk gündən xalqın sosial təbəqələrinə güclü səbəb olmuş, Gəncədə, Car-Balakəndə, Şəkidə, Qubada, Zaqatalada, Talışda, Şirvanda və b. yerlərdə işğalçı müstəmləkəçilərə qarşı silahlı üsyanlara, həyəcanlara, qaçaq hərəkatı kimi müxtəlif müqavimət aksiyalarına gətirib çıxarmışdır. Müxtəlif səbəblər üzündən bu çıxışlar əsasən məğlubiyyətlə nəticələnsə də, Vətənimiz üzərində rus ağalığının əsaslarını laxlatmaq baxımından onların tamamilə nəticəsiz qaldıqlarını iddia etmək olmaz.

Əgər çar Rusiyası Quzey Azərbaycanın hərbi-siyasi istilasını XIX əsrin ilk otuzilliyi ərzində başa çatdıra bilmişdisə, bu torpaqların iqtisadi cəhətdən mənimsənilməsinin təşkili, Azərbaycan iqtisadiyyatının Rusiyanın iqtisadi mənafelərinin xidmətinə cəlb olunması prosesi kifayət qədər uzun müddət çəkərək XIX yüzilliyin 80-ci illərinədək davam etmişdir. Həmin əsrdə Azərbaycan iqtisadiyyatının xarakter və strukturunda köklü keyfiyyət dəyişiklikləri getmiş, yüz il ərzində feodal pərakəndəliyi şəraitində mövcud olan əsasən natural feodal təsərrüfatı tədricən öz yerini bazar münasibətlərinə, köklü iqtisadi ixtisaslaşmaya, genişmiqyaslı vahid daxili bazara arxalanan, min tellərlə Ümumrusiya və dünya bazarı ilə əlaqədar olan kapitalist iqtisadiyyatına vermişdir.

Rusiya işğallarından sonra yaradılan nisbi daxili siyasi sabitlik, daxili feodal sərhədlərinin aradan qaldırılması, daxili gömrüyün ləğvi, vahid pul, ölçü və çəki sistemlərinin tətbiqi, əmtəə-pul münasibətlərinin inkişafı ənənəvi təsərrüfat sahələrinin tədricən dirçəlməsinə və inkişafına gətirib çıxardı. Lakin ötən əsr ərzində iqtisadiyyatın istər kənd təsərrüfatı, istərsə sənaye, istərsə də ticarət-sənətkarlıq sahələrində bu inkişaf prosesi son dərəcə mürəkkəb və ziddiyyətli olmuşdur.

Yerli iqtisadiyyatın özünəməxsusluğundan, bu müsəlman ölkəsində mövcud olan mürəkkəb sosial-iqtisadi münasibətlər sistemindən zəif baş çıxardan, bəzi məsələlərdən isə ümumiyyətlə xəbərsiz olan müxtəlif ranqlı müstəmləkəçi məmurlar ordusunun təsərrüfat və mülahizələrinə söykənən Rusiya hökumətinin Şimali Azərbaycanla uzun müddət sabit sosial-iqtisadi siyasət xətti olmamışdır. Bu siyasət tez-tez, xüsusən də əsrin yarısında müxtəlif kəskin dönüşlərlə əlamətdar olmuşdur. 30-cu illərin xalq üsyanında iştirakına görə, Azərbaycanın imtiyazlı təbəqələrini 1841-ci ildə cəzalandırmaq, həmçinin həmin təbəqələrin torpaqları

hesabına xəzinə mülklərini genişləndirmək istəyən çar hökuməti kəskin müqavimətlə rastlaşaraq geriyə çəkilməli, 1846-cı il 6 dekabr tarixli çar fərmanı və 1847-ci il kəndli "Əsasnamə"ləri ilə Şimali Azərbaycanın sosial elitası ilə ittifaqa girməyə cəhd göstərməli olmuşdur. Bu qanunvericilik aktları ilə çar hökuməti nəinki tiyuldar bəylərin hüquqlarını mülkədarlarla eyniləşdirmiş, həmçinin xüsusi sahibkar kəndliləri üzərində bəylərin geniş hüquqlarını təsbit etmişdir. Lakin çarizmin Azərbaycan kəndlilərini, Rusiyada olduğu kimi, torpağa təhkim etmək cəhdi uğur qazanmamışdır. Çar mütləqiyyəti özünün feodal-təhkimçilik mahiyyətinə nə qədər sadiq olsa da, feodal idarəçilik üsullarını nə qədər qısqanclıqla qorusa da, beynəlxalq sahədə uğursuzluqların ağırlığı və ölkənin daxilində yetişən yeni sosial-sinfi qüvvələrin təzyiqi ilə güzəştə getməyə məcbur oldu və Avropadakı quberniyalarının ardınca ucqarlarda, o cümlədən 1870-1877-ci illərdə Şimali Azərbaycanda da kəndli islahatları keçirtdi. Hələ 1864-1866-cı illərdə kəndlilər üzərində torpaq sahibkarlarının polis-məhkəmə hüquqlarını ləğv edən, məhdud hüquqlu kənd özünüidarələrini yaratmağa məcbur olan çar hökuməti 14 may 1870-ci il tarixli "Kəndli əsasnaməsi" ilə Zaqafqaziyanın bütün müsəlman bölgələrində sahibkar torpaqlarında yaşayan kəndlilərə öz pay torpaqlarını satın alıb özəlləşdirmək, torpaq sahibkarlarına çevrilmək hüququ verməli oldu. Bu islahat nə qədər böyük məhdudiyyətlərlə keçirilsə də, hər halda Azərbaycan kəndində kapitalist münasibətlərinin inkişafı üçün əlverişli zəmin yaratdı, kənddə əmtəə-kapitalist münasibətlərinin inkişafına təkan verdi. Azərbaycan kəndlilərinin təxminən 65-70 faizini təşkil edən xəzinə (dövlət) kəndlilərinin torpaqdan istifadəsi sahəsində isə çar hökuməti bəzi xırda dəyişikliklərdən başqa heç nə etmədi.

Ölkənin, Rusiya və dünya bazarlarının tələbatı ötən əsrdə Şimali Azərbaycanda bir sıra sənaye sahələrinin meydana çıxıb formalaşmasına səbəb oldu. XIX əsrin sonlarında dünyanın neft mərkəzlərinə çevrilmiş Şimali Azərbaycanda neft sənayesi ilə yanaşı, metal emalı, kimya, yüngül, şərabçılıq və araqçəkmə və s. sənaye sahələri iqtisadiyyatda mühüm yer tuturdu. Sənayenin müxtəlif sahələrində istehsalın ilkin, sadə formalarından ali inhisar birliklərinədək müxtəlif təsərrüfatçılıq formaları təşəkkül tapmışdır. Bir sıra sənaye sahələrində (neft hasilatı və emalı, toxuculuq, yeyinti, gəmiçilik) milli burju8aziyanın nümayəndələri mühüm rol oynayırdı. Ancaq bütünlüklə kənd təsərrüfatı kimi, Şimali Azərbaycan sənayesi də müstəmləkə xarakteri daşıyıb, Rusiya iqtisadiyyatına xammal və məmulatlarla təchiz etməyə yönəldilmişdir.

XIX əsrdə Şimali Azərbaycanda ticarət geniş intişar tapmış, həftəbazarları şəbəkəsi genişlənmiş, Rusiya, İran, Türkiyə və Avropa bazarları ilə ticarət əlaqələri xeyli güclənmişdir. Ticarət kapitalında yerli azərbaycanlı tacirlər kifayət qədər sanballı, xüsusi çəkiyə malik idilər.

Ötən yüzilliklərdə Rusiyadan, Avropa ölkələrindən Şimali Azərbaycan bazarlarına yol açan ucuz sənaye malları bir sıra sənətkarlıq sahəsinə mənfi təsir göstərsə də, dövrünü keçirmiş bəzi sənət sahələri (xalçaçılıq, ipəkçiliyin bəzi

sahələri və s.) öz mövqelərini qoruyub saxlaya bilmiş, sənətkarlarımızın bir sıra məhsulları daha geniş bazarlara yol açmışdır.

